ŞƏMİSTAN NƏZİRLİ

ARXİVLƏRİN SİRRİ AÇILIR

BAKI
“Elm” nəşriyyatı
1999

1918-ci ildə Milli Ordumuzun təməl daşını qoyan tam aptilleriya generalı Əliağa Şıxlinskinin, Səməd bəy Mehmandarovun, onların hərbçi məsləkdaşlarının, müstəqilliyimiz uğrunda canından keçən əsgər və zabitlərimizin ruhuna bağışlayıram.

Möhtərəm oxucum! Bu kitabı bir nəfəsə oxuma. Burda nə məhəbbət macərası var, nə də fantaziya. Bu kitabın hər vərəqində xalqımızın hərb tarixindən səhifələr, sərkərdə oğullarımızın döyüş və ömür yolu var. Əgər səbrin çatmayıb, birnəfəsə oxumalı olsan, onda 20-ci və 37-ci illərdə qanına qəltan edilmiş generallarımızın acı taleyindən kədərlənmə. Əksinə, nikbin ol, qururlan, qoy sənin varlığında düşmənə qarşı nifrət artsın. 70 ildən çox unutdurulan yaddaşın ayılsın. Ayılsın ki, indi sən müstəqil Azərbaycanın övladısan, sayıq ol ki, əhatən düşmənlə doludur. Unutma ki, torpağında parçalanma, qəlbində yara var. Bu yaralarına məlhəm olacaq gənc ordumuzun sıralarının möhkəmlənməsi üçün əlindən gələni əsirgəmə.

© **"Elm" nəşriyyatı**
1999

Hər bir həqiqi insan öz irsiyyəti ilə fəxr etməlidir.

Səməd VURĞUN.

***

Vaxt gələr açılar bağlı qapılar
Əsrin arxivindən nələr tapılar.

Məmmədhüseyn ŞƏHRİYAR.

***

Səni sevirəm, Xalqım! Bütün məramımla, bütün qəlbimlə sevirəm. Səni bəşəriyyətin böyük ailəsinin üzvü kimi sevirəm. Səni sevərkən həyatını müşahidə edir, Sənin övladlarını öyrənir, dost-düşmənlərini ayırd edirəm. Mən Sənin məhəbbətindən ilham alıram...

Eynəlibəy SULTANOV,
yazıçı-publisist.

İFTİXAR DUYĞUSU

Hörmətli Vətən oğlu
Şəmistan Nəzirli!

Sizin tədqiqatlarınızı maraq və minnətdarlıq hissi ilə müntəzəm izləyirəm.

Mən bütün varlığı ilə xalqa bağlı, onun kədəri, sevinci ilə yaşayan insanları demirəm, ürəyinin yalnız bircə teli xalqa bağlı olub, xalq məfhumunu dərk etməyə qadir ola bilən hər kəs bu tədqiqatlar üçün Sizə minnətdar olmalı, bu müqəddəs, çətin işdə Sizə imkanı həddində kömək əlini uzatmalıdır. Əsrimizin əvvəlində və ötən əsrdə yaşamış Hərbi sərkərdələrimiz haqqındakı tədqiqatınız nə qədər qiymətlidir.

Bu parçalanmış, fəlakətlər görmüş xalqın nə qədər şücaətli, mütəfəkkir sərkərdələri olub. Onların şəkillərindən uzun müddət gözümü çəkə bilmədim. Həm iftixar duyğusu yaşadım, həm də bu milli qəhrəmanların taleyinə ağladım.

Firidun bəy Köçərli və general oğullarımız haqqındakı tədqiqatlarınız məni Sizin ünvanınıza kiçik bir şer yazmağa sövq etdi.

Azərbaycan ədəbiyyat tarixini nəsillərə xatirə qoymuş iki mötəbər şəxsiyyətin - Firidun bəy Köçərlinin və Hüseyn Əfəndi Qayıbovun kitablarını açarkən, onların ruhuna rəhmət oxuyur və Sizə uzun ömür, əbədi xalq hörməti arzulayıram. Qələm sahibləri ürəkləri ilə yaşayırlar. Onların ən böyük dövləti xalq hörmətidir.

Nə Firidun bəy Köçərli, nə Mirzə Hüseyn Əfəndi Qayıbov, nə də görkəmli sərkərdələrimiz haqqında biz öz borcumuzu hələ verməmişik. Nə onların təntənəli yubileylərini keçirmiş, nə də onların həyatını, milli duyğularını tədqiq edərək, haqqında nəsillərə dərin məlumat vermişik. Yəqin ki, bu şərəfli vəzifə də Siz tədqiqatçıların, xalqımızın ziyalılarının və dövlətimizin üzərinə düşür.

Əziz oğlumuz, qardaşımız, yorulmaz tədqiqatçı Şəmistan Nəzirli!

Siz əsl vətənpərvər, özünü xalq işinə təmənnasız həsr etmiş ziyalısınız. Siz mədəniyyət və hərb tariximizin səhifələrində yeni çıraqlar yandırır, işıqlı nə varsa, onları xalqa qaytarmağa, yaşatmağa çalışırsınız, onları yaşadırsınız.

Əziz Şəmistan müəllim! Sizi bu əvəzsiz xidmətiniz yaşadacaqdır. Sizə yeni yaradıcılıq müvəffəqiyyətləri, uğurlu yollar!

Televiziyadakı çıxışınızdan sonra Sizə və Firidun bəyə ithaf etdiyim şerləri Sizə göndərirəm.

Dərin hörmət, minnətdarlıq
hissilə Xalq şairi
Mirvarid Dilbazi.
8 iyun 1985-ci il.

ŞƏMİSTAN !

Böyük Vurğun demiş,
Şəmistan sən də
Müsəlləh əsgərsən bizim Vətəndə.
Qələmdir sənin də topun, tüfəngin
Həqiqət uğrunda qurtarmır "Cəngi" n
Aşikar edirsən nə varsa punhan,
Qələmlə musəlləh əsgər Şəmistan.
İmzalar içində imzamızı sən -
Bu kəşflərinlə təsdiq edirsən.

* * *

FİRİDUN BƏY KÖÇƏRLİYƏ

Başına tuşlanan düşmən xəncəri
Xalqının qəlbinə tuşlandı sənin.
Bu müdhiş ölümün acı xəbəri
Sağalmaz dərdidir bizim Vətənin.

Sinəmiz ocaqdır, sönmür məşəli,
Yandıqca gur yanıb, yandırır bizi...
O xəncər vuranın qurusun əli,
İllərlə göynətdi ürəyimizi...

O müqəddəs qanın tökülən yerdə,
Ruhlar da hər zaman səcdəyə gəlir.
Dözməyib şair də bunca kədərə,
Gündə neçə dəfə dirilir ölür.

R.S. Xalq şairi Mirvarid xanım Dilbazi Şəmistan Nəzirlinin "Qoridən gələn qatar" sənədli povestini oxuduqdan sonra müəllifə məktub və şerləri yazıb göndərmişdir. Əsər Firidun bəy Köçərlinin 1920-ci ildə daşnak-bolşevik əsgərləri tərəfindən faciəli surətdə qətlə yetirilməsinə həsr olunmuşdur - **red.**

MƏŞHUR SOYADLARIMIZ

Tarixi manbələrin məlumatına görə Kəngərlilər peçeneq-türk tayfalarından olmuşlar. Onlar beşinci əsrdən Naxçıvan ərazisində yaşayırlar. Zaqafqaziyaya hunların tərkibində eramızın əvvəllərində gəlmişlər. Səfəvilərin hakimiyyəti illərində ölkənin istər siyasi, istərsə da hərbi həyatında fəal iştirak etmişlər.

"Azərbaycan xalqının formalaşmasında, soykökündə iştirak edən qədim türk tayfalarından biri da peçeneqlərin tərkibinə daxil olan kəngərlilərdir. Mənbələr göstərir ki, kəngər, peçeneq etnonimləri ilə bağlı toponimlər Azərbaycan tarixinin qədim qatlarına, erkən laylarına gedib çıxır"/**C. Qəhrəmanov, Ş.Xəlilov "Mustafa Zərir. Yusif və Zuleyxa" əsəri, Bakı, 1991-ci il. səh. 92/.**

Belə bir mənbə də var: "Səkkiz peçeneq uruğu içərisində hakim zümrəni təşkil edən ertim, cur və yula adlı üç peçeneq uruğuna birlikdə kəngər adı verilmişdi. Bu tayfalar cəsur, qəhrəman və əsl peçeneq olmaları ilə digər uruğlardan seçilmirdilər... Bizans tarixçisi Konstantinin verdiyi məlumata görə, 948-952-ci illərdə Yavdiertim, Kuvarçicur və Kabukşinyula adlı üç vilayət peçeneqlərin digər peçeneqlərlə muqayisədə daha mərd və nəcabətli olmalarına görə xəngər ləqəbi daşıyırdı. Kəngər adını daşıyan üç uruğun əsl peçeneq sayılması peçeneqlərin kəngərlilərdən təşəkkül tapmalarını bir daha sübut edir.

... Respublika Əlyazmalar İnstitutunda Kəngərli elinə məxsus XVI-XIX əsrlərə aid toplu halında muhafizə olunan mulki sənədlərdəki istər coğrafi-tarixi, istərsə də etnoqrafik məlumatlardan da aydın olur ki, oğuzlardan əmələ gəlmiş tayfaların Azərbaycanda ən çox kök saldıqları rayonlardan biri də Naxçıvan ərazisi olmuşdur". /**E.M.Seyidbəyli, "Kəngərli elinin mənşəyi haqqında tarixi-etnoqrafik məlumat" məqaləsi, "Əlyazmalar xəzinəsində" məcmuəsi, VII cild, 1986-cı il, səh. 46 və 57/.**

Rusiyada oktyabr çevrilişinə qədər bütün müharibələrdə Kəngərli nəslinin oğulları döyüşkənliyi ilə xüsusi fərqlənirdi.

Tarixi romanlar müəllifi Yusif Vəzir Çəmənzəminli XVIII əsr hadisələrindən bəhs edən "Qan içində" romanında yazır ki, birdən uzaqdakı bir bağın arxasından toz qopdu. Bu - Kəngərli süvariləri idi ki, o zaman öz igidlikləri ilə məşhur idilər.

1829-cu ildə Kəngərli nəslinin igidləri ayrıca beşinci alayyaratdılar. Kəngərlilərin beş yüz nəfərdən ibarət suvarisi və yüz nəfərlik köməkçi dəstəsi bir döyüşdə duşmənin iki bayrağını ələ keçirib, yüz nəfərini öldürüb, əlli dördünü isə əsir almışdı. Həmin döyüşdə şəxsi igidliyi ilə fərqlənən sıravi Baba bəy Cəfəroğlu, Ağakərim Fətəli oğlu, İmamqulu Əli oğlu və başqaları "Üzərində qızıl medal olan Georgi lenti" ilə təltif olunmuşdular. "Döyüşkənliyi ilə bütün Qafqazda məşhur olan kəngərlilər Zaqafqaziya sakinlərindən geri qalmaq istəmədilər. Onlar ağa və bəylarin rəhbərliyi ilə xüsusi süvari dəstələri təşkil edib, bütün döyüşlərdə bizim qoşunlarla çiyin - çiyinə mərdliklə vuruşurdular"[1].

---

[1] "Kafkaz" qəzeti 6 noyabr 1890-cı il

Yeri gəlmişkən, 1913-cü ildə nəşr olunmuş “Qafqaz hərbi-tarix muzeyinin sorğu kitabı” ndakı bir qeyd cəsur və igid kəngərlilərin təkcə Qafqazda deyil, bütün Şərqdə şöhrət tapması haqqındadır:

“Kəngərli süvarilərinin bayrağı yaşıl olub. Əfsanəyə görə bir neçə əsr bundan əvvəl ilk Naxçıvan xanı xəlifə Murad özünün Kəngərli qəbiləsi ilə Ərəbistandan köçüb gəlmişdir. Bu qəbilə Araz çayının sahilinə gələrək Naxçıvanı fəth etmiş və xanlığın əsasını qoymuşdu. Kəngərli süvariləri bütün Şərqdə cəsurluğu ilə şöhrət qazanmışdı. Onlar döyüşə girərkən ölümə ikrah əlaməti olaraq atlarının boynuna qırmızı kaporlar geyindirirlər ki, düşmən tərəfindən tez gözə çarpsınlar. Bu, həm də düşməni vahiməyə salmaq üçün fənd idi”.

Başqa bir mənbə isə kəngərlilərin Ərəbistandan gəlməsini inkar edir. Rus tarixçisi Viktor Qriqoryev Sankt-Peterurqda nəşr etdirdiyi “Naxçıvan əyalətinin statistika təsviri” kitabında yazır ki, Kəngərli tayfaları Türkiyə ərazisindəki Diyarbəkirdən Naxçıvana gəliblər. Onlar doqquz yüz iyirmi ev olublar. Kəngərlilər möhkəm, dözümlü, işgüzar, uzun vaxt aclığa dözən adamlardırlar, hərbçidirlər. Qonaqpərvər, dostluğa möhkəmdirlər, lakin heç vaxt təhqir və incidilməyə dözmürlər və yaddan çıxarmırlar.

Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Mahmud İsmayılov Kəngərlilər nəslinin hələ miladdan qabaq Zaqafqaziyada və Azərbaycanda təşəkkül tapmasını, bu soyun adına miladdan qabaq birinci və eramızın birinci yüzilliklərində yaşayıb - yaratmış Strabonun və Böyük Plininin əsərlərində rast gəldiyini yazır:

“Kəngərlilərin adına biz “Kitabi Dədə Qoqud”da “Kanqalı” formasında rast gəlirik...

... Zaqafqaziya ərazisinə gələndə yüz iyirmi min ailədən ibarət kəngərlilər onun müxtəlif regionlarında məskunlaşmışlar. Kəngərliləri hun soyuna aid edənlər də yox deyildir.

Beşinci yüzillikdə kəngəilər o qədər güclü olmuşlar ki, Sasanilər imperiyasını lərzəyə salmışlar”[2] .

Döyüşkən kəngərlilərin vəsfi şairlərimizin şerlərində də yaşayır. XIX əsrin məşhur şairi Əndəlib Qaracadaği “Ordubadın vəsfi” şerində yazır:

Hakimi Şeyx Əli xan[3] xani-səxavət,
nə deyim,
Yoxdu Kəngərli kimi mərdi-şücaət,
nə deyim,
Görmədim bir belə sultani-ədalət,
nə deyim,
Sahibi-təblü aləm özgə qiyamət,
nə deyim,
Çıxsa cəng eyləməyə, Nadiri

[2] M.İsmayılov, "Sənin ulu baban" kitabı, Bakı, 1989-cu il

[3] General-mayor Ehsan xan Kəngərlinin oğlu idi. 1827-ci ildə Ordubadın xanı oldu - müəl.

dövranə dəyər.

Son illər ictimai-siyasi həyatımızda vüsətli canlanma, oyanış əmələ gəlmişdir. Totalitar rejim məhv olandan sonra cəmiyyət silkələnib qəflət yuxusundan oyanmışdır. Bir-birinin ardınca getdikcə böyüyərək və şiddətlənərək sahilə çırpılan dəniz dalğalarıtək ictimai dəyişikliklər də dərinləşir, quvvətlənir. Sakit havada qırçın ləpələr sahili yalayanda dəniz şəffaf və təmiz olur. Təlatümə gəldikdə isə dibində nə varsa üzə çıxır. Bu baxımdan ictimai-siyasi dəyişikliklər təlatümü çox xəzinələri üzə çıxarmış, məlum təkzibolunmaz görünən tarixi həqiqətləri saf - çürük etməyə məcbur etmişdir.

Milli özunüdərklə bərabər keçmişə yeni nöqteyi - nəzərdən yanaşılır. Hadisələrə, şəxsiyyətlərə kəskin sinfi münasibət öz yerini daha geniş mənalı insani munasibətə verir. Bu da məlum hadisələrin gizli qatlarını araşdırıb yeni həqiqtləri aşkara çıxarır.

Hər bir xalq özünün tarixi abidələri, şəxsiyyətləri ilə fəxr edir. Bunlar millətin, xalqın qədimliyindən və qəhəmanlığından soraq verir, hələ yer üzündə elə bir xalq, millət yoxdur ki, onun heç olmasa yaxın keçmişdə belə fəaliyyət göstərən tarixi şəxsiyyəti olmasın.

Azərbaycan xalqının tarixi keçmişi və tarixi şəxsiyyətləri bir çox yüzilliklərdən məlumdur. Fəxrlə demək olar ki, tarixi şəxsiyyətlərdə onun bəxti gətirib. Xususilə alimlərimiz, qəhrəmanlarımız, ədib və şairlərimiz qibtə ediləcək dərəcədə varımızdır. Başqa millətin, xalqın tarixi şəxsiyyətini özününküləşdirmək üçün heç kəsin qapısına getməmişik və heç bir millətin oğlunu öz adımıza çıxmaq iddiasında da deyilik.

Hələ qədimdən Azərbaycanda elə nəsillər, qəbilələr olub ki, onlar mərdliyi, qoçaqlığı, döyüşkənliyi ilə təkcə özümüzdə yox, bütün Şərqdə, Avropada tanınıblar. Naxçıvanda Şahtaxtinskilər, Kəngərlilər, Bakıda Bakıxanovlar, Qazaxda Qayıbov, Şıxlinski və Vəkilovlar, Borçalıda Yadigarovlar, Şəkidə Çələbilər, Gəncədə Cavadxanlar, Ziyadxanovlar və Rəfibəyovlar, Qarabağda Qacarlar, Cavanşirlər və Mehmandarovlar, Lənkəranda Talışinskilər və başqaları el qeyrəti çəkən, ana torpağın üstünü təhlükə alanda birləşib ayağa qalxan, onun hər qarışı uğrunda canlarından keçən oğullar yetiriblər.

Tarixi sənədlər şahidlik edir ki, bu nəsillərin övladlarının əksəriyətindən görkəmli sərkərdələr, generallar da yetişmişdir.

“Ot kökü üstə bitər” - deyib ulularımız. O ağacın ki, kökü ana torpağın dərin qatlarına işləyir, qərinələrlə, əsrlərlə yaşayır, zamanın bütün tufanlarına sinə gərərək insanlara xeyir verir: qoca palıd kimi, xan çinar kimi. Belə ağaclar həm yaşayır, həm də ətrafındakılara həyan olur. Ayrı-ayrı nəsillərin yetişdirdiyi görkəmli, xeyirxah adamlar da belədir. Əslində bu şəxsyyətlər xalqın, millətin bel sütununu təşkil edir, hansı xalq, hansı millət onlara etinasız yanaşırsa, o xalqın gələcəyi qaranlıqdır. Vaxtilə Puşkin nahaqdan yazmırdı ki, öz ata - babalarının şöhrəti ilə fəxr etmək nəinki olar, həm də lazımdır. Onların şöhrətinə hörmət etməmək ayıbdır və qorxaqlıqdır. Təəssüf ki, uzun illər boyu biz bunu anlamamışıq. Suyunu içdiyimiz bulağın gözünə daş basmışıq. Az qala Füzuli, Nəsimi, Xətai yaradıcılığından da sosializm, realizm tələb etmişik. Yeni sovet

dövrünün çərçivəsinə sığmayanlarımızın - hansı əsrdə yaşamasından asılı olmayaraq üstündən qara xətt çəkmişik. Beləliklə də özümüz özümüzü kökümüzdən ayırmışıq. Nə yaxşı olub ki, bu köklər ana torpağın dərin qatlarına işlədiyindən onları tamam üzə bilməmişik. Özümüzü tanımaq istəyiriksə, gəlin o köklərə yenidən həyat verək, gözünü bağladığımız bulaqları təmizləyək. Keçmişimizə laqed olmayaq. Laqeydlik vaxtından əvvəl ölüm deməkdir. Keçmişini bilməyən, bu günündə də düzgün istiqamət götürə bilməz. O, həm də gələcəyindən məhrum olur.

Görkəmli nəsillərimiz barəsində məclislərdə iftixarla danışıb, yazmağa gələndə əksəriyyətimiz susmuşuq. Kim də cəsarət eləyib yazıbsa nəşrinə icazə verilməyib. Əlyazmaları illərlə nəşriyyatların sandığında "mühafizə" edilib. Axırda da özümüzə qaytarılıb ki, musavat generalı olub, bəy, xan oğludu, kağız qıtlığıdı, maddi imkan yoxdu və s. ağılagəlməyən şübhələr, bəhanələr, qarayaxmalar ortaya atılıb.

Görkəmli mütəffəkkirimiz Abbasqulu ağa Bakıxanov necə də sərrast deyib: "Gözlü adam o adamdır ki, özünü görə bilsin".

Oxucum! Üzünə açılan bu kitabda yaxşı, sağlam nəsillərin timsalında Azərbaycanımızın, xalqımızın özünü görəcəksən. Elə buradaca sevimli şairimiz Hüseyn Arifin də bir bəndini oxu, gərəyin olar:

İnsandan insana söz də yadigar,
Həqiqi nə varsa, qulaqda qalsın.
Sevimli övladlar, şirin balalar,
Öz kökü üstündə qalxıb, ucalsın.

20 dekabr 1998-ci il.

GENERAL NAXÇIVANSKİ QARDAŞLARI

Mən Azərbaycan torpağını, özünün böyük şanlı qəhrəmanlıq ənənələri olan torpağını sevirəm. Mən öz qanı ilə Azərbaycanın çoxəsrlik tarixinə yeni qəhrəmanlıq dastanları yazan oğulların adı ilə fəxr edirəm.

Səməd VURĞUN

Rusların Zaqafqaziyanı işğalından sonra Naxçıvanski soyadını qəbul edən Kəngərlilər nəsli Azərbaycanın hərb tarixinə beş general bəxş edib. Ehsan xan, Kəlbalı xan, İsmayıl xan, Hüseyn xan və Cəmşid xan Naxçıvanskilər bu nüfuzlu nəslin yetirmələridir. Azərbaycan Demokratik Respublikasının fəaliyyəti illərində /1918-20-ci illərdə/ isə Milli Ordumuzda çoxsaylı Kəngərli zabiti xidmət etmişdir:

Şərur və Naxçıvan qəzasının general-qubernator köməkçisi rotmistr Bəhram xan Naxçıvanski, podpolkovnik Ehsan xan və Davud xan Naxçıvanski qardaşları, ştabs-rotmistr Murad xan Naxçıvanski, Suleyman ağa Kəngərli və başqaları ordumuzun təməl daşını qoyanlardan olmuşlar.

Naxçıvanskilər Azərbaycan hərb tarixində Qacarlardan sonra ən çox general yetişdirən nəsildir. Onlar təkcə sayına görə deyil, həm də qabiliyyət və bacarığına görə çox məşhur olmuşlar. İftixarla qeyd edək ki, köhnə rus ordusunda tam süvari generalı rutbəsini alan və "Ağ qartal" kimi ali ordenlə təltif olunan ikinci[4] azərbaycanlı hərbçi Hüseyn xan Naxçıvanski idi.

Kəlbalı xan Naxçıvanski

Nə Azərbaycan, nə də rus hərb tarixi general-mayor Kəlbalı xan Naxçıvanskinin anadan olduğu ili saxlamayıb. Ümid verən arxivlərdə, inqilabdan əvvəlki Hərbi tarixi mənbələrdə nə qədər axtardıqsa, onun təvəllüd ilini dəqiqləşdirə bilmədik. İnqilabdan əvvəlki ədəbiyyatlarda general Kəlbalı xan Naxçıvanskinin bir neçə yerdə səthi də olsa adı çəkilir və hərbi fəaliyyəti qeyd olunur.

Kəlbalı xan Naxçıvanın sonuncu hakimi Ehsan xanın oğludur. Zaqafqaziya Rusiya ilə birləşəndən sonra general rütbəsi alan Ehsan xan, 1929-cu il fevralın 10-da Rusiya ilə İran arasında Turkmənçay Sülh Müqaviləsini imzalayanlardan biri olmuşdur. O, burada İrəvan və Naxçıvan xanlığının, Ordubad dairəsinin səlahiyyətli nümayəndəsi kimi iştirak etmişdir.

Hərbi tarixçilər V.Potto, İ.Zinovyev, general V.Zubov, İ.Paskeviç və yazıçı A.Qriboyedovun yol qeydlərindən məlum olur ki, Rus - İran müharibəsi zamanı Ehsan xan naxçıvanlılardan və ruslardan ibarət olan on min nəfərlik qoşuna başçılıq etmişdir. Bu müharibədə ad-san qazanan general Ehsan xan sonralar Krım müharibəsində də şücaətlə vuruşmuş, ali Hərbi ordenlərlə təltif olunmuşdur. Görkəmli sərkərdə kimi Ehsan xanın adı Kremlin Georgi salonunda qızılı hərflərlə yazılmışdır.

Tarix öz səhifələrində bir maraqlı faktı da saxlayıb: Aleksandr Qriboyedov və Abbasqulu ağa Bakıxanov İrana gedəndə Ehsan xanın Xandikindəki evində qonaq olmuşlar. Bu barədə A.Qriboyedovun "İrəvan yurüşü" yol qeydlərində maraqlı sətirlər var:

"Sübh tezdən oyanırıq: bərk isti idi. Abbasqulu ağa nəql elədi ki, Yelizavetpol döyüşü şair Nizaminin məqbərəsi yanında baş verib.

Naxçıvandan səkkiz mil aralıda dayanmışıq. Araz kənarından Abbasabadın geniş mənzərəsi açılır. Şimal-şərqdən Qarabağ dağlarının, Naxçıvan düzənliyinin möcüzəli gözəlliyi açılır. Arazın arxası Yaylandağla və ona oxşar iki başqa dağla əhatə olunub. Qərbə doğru baxanda isə Ağrıdağı ucalır. Naxçıvan özü isə Qarabağ dağlarının davamı olan düzəngahda yerləşir.

---

[4] Birinci dəfə "Ağ qartal" ali ordeni ilə 1888-ci ildə ilk azərbaycanlı vitse-admiral Ibrahim bəy Allahverdibəy oğlu Aslanbəyov /1822-1900/, 1915-ci ildə isə general Səmədbəy Mehmandarov təltif olunmuşdur - /müəl./

Naxçıvana daxil olduq. Xan evinin qülləsi mənim otağımın pəncərəsindən daha aydın görünür".

1826-cı ildə Fətəli şahın vəliəhdi Abbas Mirzə altmış minlik qoşunla Arazı keçib Azərbaycana hücüm etdi. Bu vaxt Ehsan xan Abbasabad qarnizonunun rəisi idi. Ehsan xanın qalanı iranlılara təslim etmək istəmədiyini görən Abbas Mirzə şah qoşununun qırx minini İrəvan və Naxçıvana yeritdi. Həmin döyüşlərin şahidi olan məşhur tarixçi Mirzə Adıgözəlbəy yazırdı:

"O vaxt naxçıvanlı Ehsan xan Abbasabad qalasının mühafizi idi. Orada olduğumu bilib yanıma qasid göndərdi. O, mənə xəbər verdi: "Knyaza **Qafqaz canişini, baş komandan İ.F.Paskeviç nəzərdə tutulur - Ş.N./** bildirin ki, bu tərəfə hərəkət etsin, buraya gələn kimi qalanı ona təslim edərəm".

"Qafqaz hərbi-tarix muzeyi"nin 1913-cü ildə nəşr etdiyi altı yüz otuz bir nömrəli "Soraq kitabçası"nda general Kəlbalı xan Naxçıvanskinin məşhur xan nəslindən olduğu qeyd olunur. O, on dörd yaşında ikən Peterburqdakı zadəgan balalarına məxsus pac korpusuna daxil olur. "Əla oxuyan Kəlbalı xana məktəbdə tam təhsil almaq qismət olmur. Qəfil xəstələndiyinə görə vətəni Naxçıvana qayıdır. Bir müddət müalicə olunduqdan sonra 1849-cu ildə könüllü olaraq Dağıstan yürüşündə iştirak edir. Gergebel döyüşlərində göstərdiyi igidliyə görə üçüncü dərəcəli "Müqədəs Stanislav" ordeni ilə təltif olunur və zabit rütbəsinə layiq görülür".

1853-cü ildə Krım müharibəsi başlananda yerli bəylərdən ibarət süvari alayı təşkil edir. Bir il sonra, iyunun 19-da Kəlbalı xan Naxçıvanski Çınqıl döyüşündə fərqdəndiyinə görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunur. Həmin il iyulun 30-da rus ordusunun general-leytenantı, İrəvan süvari alayının rəisi Vrangel Qafqaz ordusunun baş komandanına məlumat göndərmişdi. General təkcə Kəlbalı xan haqqında deyil, həmçinin döyüşdə igidliklə vuruşan oğullarımız barədə fəxrlə yazırdı;

"Qoşunlarımızın hədsiz igidliyi barədə əlahəzrət cənabınızın qarşısında təkrarən şəhadət verməyi özümə borc bilirəm ki, zabit və əsgərlər döyüşə həvəslə gedirlər: yüngül yaralananlar cəbhəni tərk etmir, yaralılar isə döyüş meydanında qalırdılar. Tibb işçiləri elə oradaca onlara yardım göstərirdilər. 18 İyul tarixli ilk məlumatında adları çəkilən kapitan İsmayıl xandan **/Kəlbalı xanın qardaşıdır. 1877-ci il dekabrın on doqquzunda süvari qoşunu general-mayoru rütbəsi almışdır - Ş.N./** və podporuçik Kəlbalı xandan başqa müsəlmanlardan ibarət bəy drujinasından praporşiklər Əli xan və Paşa xanın, dörd nömrəli müsəlman /Azərbaycan - Ş.N./ polkundan kapitan Hüseyn Sultanın adlarını çəkməliyəm. İsmayıl xanla Kəlbalı xan hücum zamanı öz hissələrinin önündə gedərək onlara qorxmazlıq nümunəsi göstərirdilər. Onlar da döyüşlərdə bu məlumatda adları çəkilənlərlə bərabər iştirak edirdilər.

... Yanımda volonter[5] işləyən Xancan xan Məmmədqulu oğlunu da həmçinin müəyyən göstərişlərlə döyüşə göndərirdim... Onlar yaralanır, ancaq döyüş meydanını tərk etmirdilər".

---

[5] Fədai, könüllü əsgər

1855-ci ildə imperator II Aleksandrın tac qoyma mərasimi günü Kəlbalı xan leybqvardiya Qusar polkuna komandir təyin olunur. Bundan sonra Qafqaz canişinliyinin sərəncamında xidmət edir. Müxtəlif batalyon və polkların komandiri olur. Nizami ordudakı nümunəvi xidmətinə və əla komandirlik fəaliyyətinə görə 1874-cü ildə general-mayor kimi yüksək rütbəyə layiq görülür.

1877-78-ci illərdə rus - türk müharibəsində general Kəlbalı xan Naxçıvanski nizami süvari briqadanın komandiri təyin olunur. Bütün döyüşlərdə mərdliklə vuruşan azərbaycanlılardan ibarət İrəvan süvari briqadasının komandiri Kəlbalı xan hərbi əməliyyatlarda böyük şücaət göstərmişdir. Bu müharibədə onun qəhrəmanlığı brilyantla bəzədilmiş qılıncla və "Müqəddəs Georgi" ordeni ilə təltif edilmişdir. General-mayor Kəlbalı xan Ehsan xan oğlu Naxçıvanski 1883-cü ildə vəfat etmişdir.

Sənədləri araşdırarkən məlum oldu ki, Ehsan xan oğluna Kəlbalı xanın adını qoymuşdur. Ona görə də mənbələrdə iki Kəlbalı xan adına rast gəldik. Baba Kəlbalı xan Naxçıvanski haqqında Azərbaycan Sovet Ensiklopediyasının yeddinci cildində qısa da olsa məlumat verilir:

"Kəlbalı xan Naxçıvanski /?-1823, Təbriz/ Naxçıvan xanı. Rusiyadan hərbi yardım istədiyi üçün altı il Tehranda həbsdə saxlanılmış, gözünün biri çıxarılmışdı. Fətəli şah hakimiyyət başına gəldikdən sonra İrəvan xanlığında yaşamışdır. Abbas Mirzə tərəfindən Naxçıvana vali təyin olunan Naxçıvanski İran hökümətinə xidmət etmək istəmədiyindən Məkkəyə ziyarətə getmək bəhanəsilə yerinə oğlu Ehsan xanı təyin edib hakimiyyətdən uzaqlaşmışdı".

Oxucuların nəzərinə bir maraqlı faktı da çatdırmaq istərdim: XIX əsrin ortalarında Naxçıvanda "Qönçeyi-ülfət" adlı ədəbi məclis fəaliyyət göstərirdi. Bu məclisə o vaxtlar Naxçıvan şəhər rəisinin müavini işləyən məşhur gürcü şairi Nikoloz Barataşvili də tez-tez gələrdi. O, burada on səkkiz yaşlı Qönçəbəyim adlı çox istedadlı bir qızla tanış olub dostlaşır. Lirik qoşmaları ilə bu gün Azərbaycan ədəbiyytında yaşayan həmin Qönçəbəyim general-mayor Kəlbalı xan Naxçıvanskinin bacısıdır.

Nikoloz Barataşvili Manko Orbelianiyə yazdığı məktubunda Qönçəbəyimlə tanışlığını bele təsvir edir: "İndi Naxçıvanda yeni bir şer var. Bu, on səkkiz yaşlı Qönəçəbəyimin şerləridir. Xan qızıdır. Olduqca gözəl və vüqarlı görkəmi var. Təsəvvür edin, gözəllikdə lap Orlovun arvadına oxşayır. Ərindən çox yanıqlıdır. İndi ərindən ayrılıb, çalışır ki, boşansın. Yazıq qızın on iki yaşı olanda zorla veriblər. Bunların əhvalatı bir romandır. Şerlərində öz halına ağlayır. Şerlərindən birində deyir ki, mənim gözəl bağçam, istəyirəm gəlib sənin fəvvarən və güllərinlə söhbət edim. Ancaq qorxuram ərim orda olsun.

Bu şeri tərcümə edib göndərəcəm. Mənə belə gəlir ki, Səttar bu mahnını bilir. Yenə bir mahnı var. Çox xoşa gələndir. Belə düşünürəm ki, bunu Cəfər də bilir, Səttar da. Onlara rast gələndə deyərsən ki, bu mahnıları oxusunlar:

Ey mənim məzar çiçəkli bağçam,
Gülüstan qoynuna fəvvarə vuran.
Sularla həmsöhbət olmaq istərdim,
Qorxuram ki, ərim çıxa o yandan".

Gözəl və fitri istedada malik olan Qönçəbəyim 1837-ci il martın on beşində atası Ehsan xanın Naxçıvanda açdığı qəza məktəbində oxumuşdur. İki yüzə qədər azərbaycanlı uşağın təhsil aldığı bu məktəbin hamisi, əvvəlcə general-mayor Ehsan xanın özü, sonralar isə onun iki oğlu-general-leytenant İsmayıl xan və general-mayor Kəlbalı xan olmuşdur. Bu vətənpərvər, ziyalı oğullar ata-baba mülkünü on iki il müddətinə məktəb üçün pulsuz istifadəyə verməklə yanaşı, hər il Naxçıvan qəza məktəbinin nəfinə gümüş pulla iki yüz manat ianə də hədiyyə etmişlər.

Təəssüf ki, ailə səadətində Qönçəbəyimin bəxti üzünə gülməmişdir. Onu 1844-cü ildə sevmədiyi Şamil xana ərə vermişlər. O, ömrünü sərxoşluqla keçirən Şamil xana könül verməmiş, ondan boşanmışdır. Könül verib sevdiyi, lakin qovuşa bilmədiyi mayor İbrahim xanın həsrətilə yaşamışdır.

Bizə sək rəqiblər deyirlər asi[6],
Mövlayə bağladıq yəni ixlası.
Mən Bəyiməm, İbrahimin butası,
Gizlin deyil, var aşkarə, de gəlsin.

İSMAYIL XAN NAXÇIVANSKİ

Hüseyn xana qədər nəsildə üç general olmuşdur - Ehsan xan, Kəlbalı xan və İsmayıl xan. Sonuncu haqqında əlimizdə nisbətən az məlumat var. O, 1819-cü il yanvarın beşində anadan olub, 1908-ci ildə səksən doqquz yaşında doğma vətəni Naxçıvanda vəfat edib. Kəngərli tayfasındandır. Süvari general-mayoru Ehsan xanın oğludur. İlk təhsilini Tiflis hərbi gimnaziyasında almışdır. 1839-cu il mayın birində həmin gimnaziyanı bitirən yünker İsmayıl xan bir il sonra oktyabrın 28-də poruçik rütbəsi almışdır.

Məşhur rus yazıçısı, tarixi romanlar müəllifi Valentin Pikul "Bəyazid" romanında İsmayıl xan Naxçıvanskinin obrazına tez-tez müraciət etmişdir. Çox zaman onun igidliyindən, əla komandirlik bacarığından dolğun səhnələr yaradan yazıçı Valentin Pikul onun müsəlmanlırını da başına qaxınc etmişdir. Görünür ki, bu səbəbdən də İsmayıl xana hərbi rütbələr çox ləng verilmiş ve belə qoçaq hərbçi az-az təltif olunmuşdur. Uzun müddət Qafqaz Əlahiddə ordusunda ləyaqətlə xidmət edən İsmayıl 1844-cü il martın 20-də ştabs-kapitan rütbəsinə layiq görülür. On bir il sonra /1855-ci il avqustun 4-də/ qvardiya rotmistri olan İsmayıl xan Krım müharibəsində ağır yaralanır. 1860-cı il aprelin 3-də isə alay komandiri İsmayıl xan Naxçıvanskiyə polkovnik rütbəsi verilir.

On yeddi il sonra - 1877-ci ildə rus-türk müharibəsində göstərdiyi sərkərdəlik fəaliyyətinə görə İsmayıl xana həmin il dekabrın on doqquzunda süvari qoşunu general-mayoru rütbəsi verilmişdir.

İgid sərkərdə kimi şöhrəti bütün Qafqazı dolaşan, tarixi əsərlərdə və sənədlərdə təriflənən eloğlumuz İsmayıl xan Naxçıvanski hansı döyüş orden-

[6] Asi - üsyan edən, itaət etməyən

medalları ilə təltif olunmuşdur? Bəri başdan deyək ki, tarixi sənədlərlə və raportlarla tanış olduqda belə qənaətə gəlirsən ki, bu təltiflər general-leytenant İsmayıl xanın xidməti üçün çox azdır.

General-leytenant İsmayıl xan Naxçıvanski üçüncü dərəcəli "Müqəddəs Stanislav" /1856/, hərbi xidmətinin iyirmi beş illiyi münasibətilə dördüncü dərəcəli "Müqəddəs Vladimir" /1867/, dördüncü dərəcəli "Müqədds Georgi" /1877/, üçüncü dərəcəli "Müqəddəs Vladimir" /1883/ və birinci dərəcəli "Müqəddəs Stanislav" /1888/ ordenləri ilə təltif olunmuşdur.

Altmış ilə yaxın döyüşən orduda ləyaqətlə xidmət edən İsmayıl xan Naxçıvanski demək olar ki, imperiyanın ucuz ordenləri ilə təltif olunmuşdur. Həmin ucuz ordenlərin taleyi haqqında "Kaspi" qəzeti 19 fevral 1885-ci il tarixli nömrəsində "Naxçıvan xanının oğurlanmış əşyaları tapılıb" sərlövhəli belə bir xəbər vermişdir:

"Bu günlərdə qəzetimizdə Ağstafadan Uzuntalaya gedən general-leytenant İsmayıl xanın əşyalarının oğurlanması barədə məlumat vermişdik. Naməlum quldurlar faytonun arxasına vurulmuş içi bir neçə min manatlıq qiymətli əşyalarla dolu sandıq və zənbili açıb aparmışlar.

Aldığımız məlumata görə, yerli hakimiyyət oğurlanmış əşyyaların tapılması üçün qüvvəsini əsirgəməmişdir. Axtarışlar uğurlu olmuşdur. Fevralın 10-da Qazax qəzası birinci ərazisinin pristavı Məlik Hüseynova general Naxçıvanskinin bütün şeylərini tapmaq müyəssər olmuşdur. Onlar "Şoş" yolunun qırağında, zastavanın altı verstliyində tapılmışdır. Sandıq və zənbilin üstü nə iləsə örtülübmüş, iki və ya üç orden istisna olmaqla bütün əşyalar yerindədir. Ehtimal edilir ki, oğrular ələ keçəcəklərindən qorxaraq şeyləri "Şoş" yolunun qırağına qoymuşlar".

General-leytenant İsmayıl xan Naxçıvanski haqqında daha bir qısa məlumata hərbi Sovet Ensiklopediyasının birinci cildində rast gəldik. Orada yazılır ki, Bəyazid şəhəri 1877-78-ci illrdə rus qoşunları tərəfindən mühasirəyə alınanda, iyirmi üç gün ağır döyüşlər getdi. Bu döyüşlərə rəhbərlik polkovnik İsmyıl xan Naxçıvanski edirdi. Onun köməkçiləri kapitan Ştokviç və poruçik Tomaşevski idi.

Ordudan general-leytenant rütbəsində tərxis olunan İsmayıl xan Ehsan xan oğlu Naxçıvanski vətənində quruculuq, abadlıq işləri ilə məşğul olmuşdur. O, Naxçıvan şəhərinə su çəkdirmiş, kəhrizlər qazdırmış və bu gün tarixi abidə kimi qorunan günbəzli hamamı tikdirmişdir. Oğlu Əman xana məhşur şairə Xurşudbanu Natəvanın qızı Xanbikə xanımı alıb Qarabağ xanlığı qohum olmuşdur.

Bu qısa məlumatlardan burda ona görə istifadə etdik ki, bəzi tədqiqatçılar Hüseyn xanla İsmayıl xanı qarışıq salırlar. Bu səhv ondan irəli gəlir ki, bir çox mənbələrdə hər ikisinin adı "Xan Naxçıvanski" yazılır. Zadəgan nəslindən olduqlarına görə sağlıqlarında da onlara hörmət əlaməti olaraq "Xan" - deyə müraciət edirmişlər. Əliağa Şıxlinski "Xatirələrim"in yüz əlli beşinci səhifəsində Hüseyn xanın Birinci Dünya müharibəsindəki fəaliyyətindən danışanda yazır:

"General Xan Naxçıvanskinin komandası altında olan bizim süvarilərimiz alman süvarilərini darmadağın etmişdilər".

İsmayl xan Hüseyn xanın doğma əmisidir. Rus ordusunda əvəzedilməz xidmətləri olan Hüseyn xana, sonralar Cəmşid xan Naxçıvanskiyə Hərb sənəti, yüksək sərkərdəlik bacarığı irsən keçmişdir.

HÜSEYN XAN NAXÇIVANSKİ

Peterburq zadəganlarının say-seçmə üzvlərindən ibarət qvardiya süvarilərinə general Hüseyn xan Naxçıvanski komandanlıq edirdi.

A.SOLCENİTSİN,
"14 avqust" romanından.

Hüseyn xan Kəlbalı xan oğlu Naxçıvanskini müasirləri sərt, nüfuzlu bir general kimi təsvir edirlər. İlk dəfə mən onun şəklinə 1916-cı ildə çap olunmuş "Niva" jurnalının yeddinci nömrəsində rast gəldim. Doqquz nəfər ali rütbəli hərbçinin təsvir olunduğu şəklin altında belə yazı yazılıb: Qafqaz cəbhəsinin Georgi duması, Qafqaz ordusunun baş komandanı, canişin əlahəzrət böyük knyaz Nikolay Nikolayeviç Romanov[7], korpus komandiri, süvari generalı Kalitin, knyaz Qalitsin, general Xan Naxçıvanski, general Lanuşkeviç. Ayaq üstə duranlar: general Vatin, Çirkov, polkovnik knyaz Niceradze və polkovnik Naqorski.

Onun rus-yapon və Birinci Dünya müharibəsindəki fəaliyyətini müxtəlif arxiv sənədlərindən öyrəndim. General Hüseyn xan Naxçıvanski 1863-cü il iyunun iyirmi səkkizində anadan olub. Atası on beş yaşlı Hüseyn xanı Peterburqdakı Pac korpusu məktəbinə oxumağa göndərir. O vaxtlar Peterburqda çoxlu naxçıvanlı ziyalılar yaşayırdı. Onların da arasında xan nəslinin nümayəndələri çoxluq təşkil edirdi. İmperatorun şəxsi himayəsində olan korpus məktəbini Hüseyn xan 1881-ci ildə əla qiymətlərlə bitirir. Çarın xususi süvari qoşununda xidmət edən kornet Naxçıvanski beş il keçməmiş podporuçik rütbəsi ilə təltif olunur.

Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Hüseyn xan Naxçıvanski nümunəvi zabit kimi ali orden və medallara layiq görülür. Rus-yapon müharibəsi başlayana qədər o, İranın "Şire-Xurşid" ordeninin ikinci və dördüncü dərəcəsi ilə /bahalı almazla bəzədilmiş/, zabitlərə məxsus "Rumın ulduzu" ilə, Avstriyanın "Dəmir xaç", ikinci dərəcəli "Stanislav", dördüncü dərəcəli "Müqəddəs Aleksandr", "Müqəddəs Anna", Bolqarıstanın "Döyüş xidmətlərinə görə" ordenləri ilə təltif olunur.

Nizami orduda sərkərdəlik qabiliyyətinə görə Hüseyn xan 1903-cü il aprelin altısında polkovnik rütbəsi alır.

İnqilabdan əvvəlki qəzetlər, müxtəlif arxiv sənədləri öz səhifələrində Hüseyn xan haqqında az da olsa məlumat verib. Onlarla tanış olanda istər-istəməz belə qənaətə gəlirsən ki, Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov artilleriya sahəsində hansı zirvəni fəth etmişdisə, Hüseyn xan Naxçıvanski da süvari birləşmələrinə komandanlıqda həmin zirvədə dayanırdı.

1904-cü ildə Rus-Yapon müharibəsi başlananda Naxçıvanski əksəriyyəti qafqazlılardan təşkil olunmuş ikinci Dağıstan süvari alayına komandanlıq edirdi.

---

[7] Çar 1 Nikolayın doğma əmisi

Polkovnik Hüseyn xanın alayı 1905-ci il yanvarın 14-də Lan-Lun-Qou kəndi uğrunda ağır döyüşlər aparmışdır. Bir neçə gün kəndi ala bilməyən döyüşçülər mahir komandirin hərbi fəndi ilə dan üzü hücuma keçərək sürətli zərbə ilə onları kənddən vurub çıxartmışlar. Bu güclü döyüş səhnəsi məşhur rəssam Mazurovskinin yağlı boya ilə işlədiyi rəsmdə əbədiləşmişdir. Əsərdə alay döüşçülərinin qızğın həmləsi və polkovnik Hüseyn xan Naxçıvanskinin obrazı ustalıqla işlənmişdir.

Məşhur rus jurnalisti A.Kvitka Port Arturda müharibə başlayanda könüllü cəbhəyə getmiş və döyüşlərdə jurnalist zabit kimi iştirak etmişdir. Müharibə gedə-gedə "Zabaykalye kazak zabitinin gündəliyi" adlı maraqlı bir əsər yazmışdır. 1908-ci ildə Sankt Peterburqda nəşr etdirdiyi həmin kitabda igid eloğlumuz polkovnik Hüseyn xan Naxçıvanski haqqında da maraqlı səhifələr var:

Səhifə 181-də: "Axşam üstü Bensixuda süvari-qvardiyaçı Xan Naxçıvanskinin təşkil etdiyi ikinci Dağıstan alayı gözlənilir. Alay qafqazlılardan və süvari qvardiyasında xidmət edən zabitlərdən təşkil olunmuşdu.

...Avanqard taqımının ardınca yüzlərlə adam polk komandiri, onların da ardınca uca bir ağacın zirvəsində polkovnik Xan Naxçıvanskiyə məxsus qızılı aypara nişanlı dalğalanan dəstə göründü.

Alay cərgələnmiş taqımlarla kalon boyu uzanırdı. Biz isə Xanın zabitlərindəki atlara həsədlə baxırdıq. Mən axşam saat 10-a yaxın Xanı general Lyubavinin yanına ötürüb, evimə qayıtdım".

Səhifə 245-də: "Dağıstanlıların komandiri Xan Naxçıvanski, podpolkovnik Byuntiq və knyaz Tumakov həyətimə daxil olanda səhər saat 11 olardı. Onlar mənimlə nahar etməyə qaldılar... Dağıstanlıların əsgər və komandirləri döyüşlərdə hamıdan seçilirdi. Onları bir şeydə qınamaq olardı, o da həddəindən artıq cəsur olmalarında...".

Səhifə 361-də: "Polkovnik Xan Naxçıvanskinin Qafqaz-kazak briqadasının cəsurları üç yapon nəqliyyatını məhv etmişlər...".

İgid həmyerlimiz, polkovnik Hüseyn xan Naxçıvanski yaponlara qarşı apardığı döyüş məharətinə görə "Müqəddəs Georgi" və dördüncü dərəcəli, bantlı, üstü yazılı qızıl silahla "Müqəddəs Vladimir" və "İgidliyə görə" ordenləri ilə təltif olunmuşdur.

Birinci Dünya müharibəsinə qədər imperatorun xüsusi qoşununda xidmət edən Hüseynxan Naxçıvanskiyə 1907-ci il martın otuz birində general-mayor rütbəsi verilmişdir.

Müasir rus tədqiqatçısı Fyodor Nesterov "İllərin əlaqəsi" /1984-cü il/ tarixi publisistik əsərində əlahəzrətin sadiq generalları sırasında artilleriya generalı N.İ.İvanovun general qraf Kellerin və general Xan Naxçıvanskinin adlarını fəxrlə çəkir. O, yazır ki, çar II Nikolay manifestə qol çəkib hakimiyyətdən imtina edəndə belə, bu əsilzadə generallar əlahəzrətə teleqramla müraciət edərək bildirdilər ki, biz həmişə sənə və rus imperiyasına sadiq qalacağıq. İmperator uzun illər boyu bu əsilzadə generallara inanmaqda zərrəcə səhv etməmişdi.

Hüseyn xan Naxçıvanski döyüşən ordu generalı idi. O, bütün rütbə və təltiflərə məhz cəbhələrdəki xidmətlərinə görə layiq görülmüşdü. O, nə buyruq, nə də məiyyət generalı deyildi. Hərbçilər daha yaxşı bilirlər ki, süvari qoşunu üzrə

tam ali general rütbəsinə çatmaq nə qədər böyük istedad və sərkərdəlik bacarığı tələb edir. Hüseyn xan Rusiyanın o dövrdəki adlı-sanlı generalları ilə birgə işləyirdi. Şöhrəti bütün Rusiyanı dolaşan, adına cəbhə olan A.Brusilov, Y.Barsukov, M.Draqomirov, Y.Alekseyev kimi generallar onun ordu heyətindəki, müharibədəki döyüş xidmətlərini yüksək qiymətləndirirdilər. Yəqin ki, Hüseynxan Naxçıvanskinin Birinci Dünya müharibəsindəki xidmətlərini Dövlət mükafatı laureatı, hərb elmləri doktoru, professor, general-mayor Yevgeni Barsukovun yüksək qiymətləndirməsindən F.Nesterovun xəbəri olmamış deyil. Müharibənin ilk iyirmi gününü təsvir edən Barsukov, general Naxçıvanskinin müvəffəqiyyətli hücumu haqqında yazır:

"Bir döyüşdə Xan Naxçıvanskinin süvariləri beş batalyonu, iki eskadronu, on iki topu İnster çayının o tərəfinə ataraq, iki top və dörd qutu mərmi ələ keçirmişdilər. İnster çayında, Meşken, Kraupişken və Lauqaden yaxınlığındakı bərələr tutulmuşdu".

Bu müharibədə general Naxçıvanskinin düşmənə vurduğu zərbələr çox müvəffqiyyətli olmuşdu. O, 1914-cü ilin avqustunda Şərqi Prussiyaya yürüşdə iştirak etmişdir. Onda general-leytenant Hüseyn xan rus süvarilərinin ən yaxşı hissələrinə birinci və ikinci qvardiya süvari diviziyalarına komandanlıq edirdi. Avqustun on beşindən iyirmi birinədək məşhur Qumbien döyüşlərini qələbə ilə başa çatdıran Naxçıvanski süvariləri, həm də birinci ordunun kəşfiyyat əməliyyatını aparmış və döyüşdə onlara kömək etmişlər. Az sonra Hüseyn xanın qvardiya süvariləri Kraupişken şəhərinin ətrafında, səkkiz kilometr məsafədə özünə müdafiə mövqeyi tutmuş almanlarla döyüşə girdi. Bu, həlledici döyüş idi. Almanlar bir addım belə geri çəkilmək istəmirdilər. Onlar ilk gündən hücümu şiddətləndirib İnster çayının sahillərini tutmağa can atırdılar. Düşmən Naxçıvanski süvarilərinin güclü hücumuna tab gətirmədi. İlk dəfə süvari qvardiya alayının eskadronları almanların müdafiə xəttini yarıb, onların bir neçə topunu ələ keçirdi, çoxlu zabit və əsgər itkisi verən düşmən tələsik geri çəkildi.

Sentyabr ayında isə düşmən cəhd edirdi ki, iki rus korpusunu birləşdiyi yerdə yaxalasın və onlara qəfil zərbə endirsin. Bu hiylədən onlar böyük üstünlük qazana bilərdilər. Düşmənin bu cəhdlərini hiss edən general Hüseyn xan Naxçıvanski Qordauen-Nordenberq dəmir yolu boyunca mövqe tutaraq şiddətli döyüşləri dayandırmadı. Almanların birinci rus ordusu cəbhəsini yarmağa imkan vermədi.

Birinci Dünya müharibəsi cəbhəlrində göstərdiyi misilsiz qələbələrə və sərkərdəlik məharətinə görə, Hüseyn xan Naxçıvanskiyə 1916-cı il yanvarın 23-də tam süvari qoşun generalı rütbəsi verildi.

Bir çox ali mükafatlara layiq görülən və zabitlərə məxsus "Müqəddəs Georgi" ordeninin dörd dərəcəsi ilə təltif olunan görkəmli hərbi xadim Hüseyn xan Kəlbalı oğlu Naxçıvanski 1919-cu ildə Petroqradda vəfat etdi. Onun məzarı Aleksandr Nevski monastırının qəbiristanlığındadır.

İLK
ADMİRALIMIZ

İnsanın ata-anası olmayanda ona yetim deyirlər. Daha böyük fəlakətdir ki, millət yetim qalsın. Yetim millət kimə deyərlər? Öz tarixini bilməyən millətlər yetimdir, öz dahilərindən, böyük adamlarından xabərsiz yaşayanlar yetim hesab edilir.

Biz elə xalqıq ki, böyük dahilər, dünya miqyasında şöhrət tapan adamlar yetirmişik, amma başqa millətlər ona sahib olmaq istəyiblər.

Əkrəm CƏFƏR,
professor.

İlk dəfə onun adını 1976-cı ildə Sevastopol şəhər muzeyində eşitdim. Bələdçi qız nəhəng bir kreyser şəklinin önündə dayanıb 1853-56-cı illər müharibəsinin qəhrəmanları haqqında məlumat verirdi:

- 1854-cü ilin mart ayında İngiltərə və Fransa Rusiyanın Balkanlarda güclənməsindən bərk narahat olmuşdular. Onların məqsədi Qara dəniz boğazlarını ələ keçirmək və Rusiyanın ticarət yollarını bağlamaq idi. Ona görə də hər iki ölkə müharibəyə qoşulub Krıma qoşun çıxardı, Sevastopol mühasirəyə alındı. O vaxtdan da Sevastopolun qəhrəmancasına müdafiəsi başlandı. Admiral İstomin, Naximov, Aslanbəyov (axırıncı famili Aslambeqov kimi tələffüz edirdi) və rus əsgərlərinin qəhrəmancasına vuruşmasına baxmayaraq, ingilis və fransız qoşunları şəhəri aldılar. Təhkimçi Rusiyanın gücsüzlüyü və çürüklüyü ölkəyə baha başa gəldi. Bax, bu gördüyünüz şəkildəki vitse-admiral Aslambeqov 1871-ci ildə üçüncü donanma ekipajının rəisi olanda Sevastopola dəmir yolu çəkilməsinə rəhbərlik etmişdir. Bələdçi qız bir az düşünüb sözünə davam etdi. - İndi də o biri salona keçək.

Tamaşaçıların bəzisi irəli durub admiralın portretinə baxıb keçirdilər. Mən isə şəklin önündə xeyli dayandım... Onun üzündə, gözündə qafqazlıya, daha doğrusu, azərbaycanlıya oxşarlıq axtarırdım. Etiraf edim ki, sövq-təbii bir hiss onun bizim xalqın oğlu olmasına məndə heç şüphə yaratmırdı. Əzəmətli duruşu, qafqazlılara məxsus burma bığları bəy nəsilli olmağından nişan verirdi. Çərçivənin aşağısındakı qısa məlumatı oxudum: “Vitseadmiral A.B.Aslanbeqov. 1820-1900-cü illər”.

Bayaqkından daha geniş bir salona keçdiyimizdən hərə bir tərəfə çəkilib eksponatlara baxırdı. Bir nəfər sualları ilə bələdçi qızı lap bezikdirmişdi. Mən isə sual vermək üçün fürsət gözlyirdim. Bələdçi qız ondan canını qurtarmaq üçün deyirdi:

- Ay yoldaşlar, bir az yaxın gəlin, eksponatlara əl vurmayın, belə olmaz. Filosofluğunuzu sonraya saxlayın. Suallarınızı axırda verməyinizi xahiş edirəm...

Üçüncü, axırıncı salona keçməyimizi bildirəndə mən dözə bilməyib ona yaxınlaşdım.

- Möhtərəm xanım, - dedim, - sizinlə bir məsələni aydınlaşdırmaq olarmı?

Qu quşu kimi zərif olan bu incə məxluq heysiz halda:

- Buyurun, - dedi, - amma qısa olsun.

- Vitse-admiral Aslanbəyovun milliyyəti məni maraqlandırır, başqa heç nə...

- Bilmirəm, - deyib təəccüblə üzümə baxdı, - necə məgər, rus deyil? Siz hardansınız?

- Bakıdanam, - dedim. - Zənnimcə admiral rus deyil.

- Deyilənə görə, bakılıda deyil.Onun erməni olduğunu deyənlər də var. Əgər sizi maraqlandırırsa, bir azdan bizim otağa gələrsiniz. Otaqda aydınlaşdırarıq. Gərək ki, onun sənədləri saxlanılır... Həmin gün əsas fond bağlı oldu. Yelena ilə səhər görüşmək üçün vədələşdik. Əsas fondun bu gün bağlı olmağı onu da narahat etmişdi. Ona görə də mənə belə bir məsləhət verdi:

- Vaxtınız varsa, bu gün "Sevastopol şəhər panoramı"na da baş çəkin. Admiral Aslanbəyov haqqında orada da məlumat olmalıdır.

...Panoram-muzeydə məni pis qarşılamadılar. Amma gəlişimin məqsədini biləndə ağız büzdülər. Dedilər ki, admiral azərbaycanlı ola bilməz, o illərdə sizinkilərdən orduya, donanmaya götürmürdülər.

- Niyə götürməyiblər? - Dedim, - götürüblər. Bu müharibədə (1853-56-cı illər) hər birində beş yüz nəfər döyüşçü olan Azərbaycan süvari alayları və ayrıca Qarabağ cəbhəsində əldə etdiyi qələbələrdə Azərbaycan süvariləri xüsusilə fərqlənirdi. Bu qələbə Krım uğrunda gedən döyüşlərdə vəziyyəti bir qədər yüngülləşdirdi. Müharibədə üç yüz əllidən çox azərbaycanlı zabit və əsgər təltif olunmuşdur. Vuruşanların da əksəriyyəti bəy, xan və ağa nəslindən olan oğullar idi.

Təəssüf ki, burada admiral Aslanbəyov haqqında heç bir sənəd tapılmadı. Amma muzey işçilərinin göstərdiyi ədəbiyyatdan öyrənə bildim ki, 1855-ci ildə Sevastopolda güclü döyüşlər zamanı admiral Naximov ağır yaralanıb.

Mərkəzi kitabxanaya gedib, admiral Naximovla bağlı kitabların hamısını sifariş verdim. Yazıçı Yuri Davıdovun "Naximov" sənədli povestində belə bir epizoda rast gəldim: "Konsilium müəyyən etdi ki, Naximovun vəziyyəti ümidsizdir. Həkimlər onun bundan sonra yaşamasına inanmırdılar. Ölüm yatağında Naximovun əzabı qırx saat çəkdi. Qırx saat tamam olanda canvermə başladı. Həmin anlar şahid kapitan-leytenant Aslanbəyovun gündəliyində dəqiq yazılıb: "İyunun 30-da saat on birə yaxın onun nəfəs alması daha da gücləndi. Otaqda sakitlik hökm sürürdü. Həkimlər mübahisəni kəsdilər və otaqdakılar çarpayıya yaxınlaşdılar. Sokolov ucadan və çox aydın şəkildə dedi: "Budur, ölüm yaxınlaşır..."

Beləliklə, Pavel Stepanoviçin həyatının son dəqiqələri başa çatırdı.Xəstə birinci dəfə dartındı. Tənəffüsü xeyli zəifləmişdi. Hamının beynindən ölüm fikri keçdi. Lakin o, bir neçə dəfə dərindən nəfəs aldıqdan sonra yenidən dartındı və yavaşdan nəfəs aldı. Bu dəfəki hal o qədər aldadıcı idi ki, hətta həkimlər də səhv etmişdilər. Onlar qulaqlarını xəstənin ürəyinə yaxınlaşdırır və kədərli halda başlarını tərpədərək ölümün yaxınlaşdığını təsdiq edirdilər. Ancaq Sinopun qəhrəmanı hələ də ölümlə mübarizə edir, elə bil ki, həyatla heç cür vidalaşa bilmirdi; can üstündə olan yenə də konsilium hərəkət etdi, yenədə üç dəfə dərindən nəfəs aldı və bir neçə dəfə yanıldıqları üçün otaqdakılardan heç kəs onun son nəfəsini duya bilmədi. Lakin müəyyən an ötdükdən sonra Voyevodskinin sualına

Sokolov bərkdən “keçindi” cavabını verdi. Hamı saata baxdı, saat on bir on dəqiqə idi”.

Sonra “Naximov” əsərinin müəllifi Yuri Davıdov izah edir ki, admiralın ən yaxın adamı kimi kapitan-leytenant Aslanbəyovun qeydlərində heç bir fantaziya yoxdur. Məhz ona görə də admiral Naximovdan yazan bütün rus tədqiqatçıları Aslanbəyovun qeydlərinə əsaslanırlar: akademik Y.Tarle, məşhur hərbi cərrah və həmin müharibənin iştirakçısı N.Pirotov və başqaları.

Sonralar “Naximovun bioqrafiyası” adlı əsərin müəllifi Aslanbəyov yazır ki, admiral Kornilovun həlak olmasını eşidən Naximov ona son borcunu verməyə getdi. Mən içəri girəndə Naximov ağlaya-ağlaya artıq ölmüş dostu Kornilovu öpürdü.

* * *

Sabahkı günü həyəcanla gözləməyə başladım.

Uzun bir dəhlizdən keçib, həyətə çıxdıq. Dolama pilləkənlərlə aşağı düşüb qapısına “İnqilaba qədərki mühafizə” sözləri yazılmış otağa daxil olduq. Yelena hər şeyi təfsilatı ilə ağ saçlı qadına danışdı. Onun üzünə donuq bir ifadə çökdü. Əlindəki qələmi oynada oynada təəccüb və kinayə ilə məni süzdü. Dodaqaltı nəsə mızıldanıb yerində qurcalandı. Qadının əhvalının pozulduğunu duyan Yelena öz işi üçün xahiş edən adamlarsayağı: “Rica edirəm, həm öz adımdan, həm də uzaq yol gəlmiş bu yoldaşın xatirinə etiraz etməyəsiniz. Görünür, çox lazımdır...”

Yerindən durmaq istəməyən müdir ağır-ağır başını qaldırıb rişxəndlə:

- Bunun üçün Bakıdan buraya gəlmisiniz? - xeyli duruxdu:- Axı, Aslanbəyov erməni admiralıdır. Sizin axtarışınız məncə, mənasızdır.

- Ola bilməz, - dedim, - əvvəla ona görə ki, admiralın familiyası Aslambəyov deyil, Aslanbəyov ola bilər. İkincisi də, əgər erməni olsaydı, Aslanyan olardı.

- Siz bunları hansı mənbədən və nəyə əsaslanıb deyirsiniz?

- O illərdə heç bir erməni familiyasında “bəy” sözü ola bilməzdi. “Bəy”, “xan” və “ağa” titulları ancaq müsəlman xalqlarına məxsusdur. Ermənilərin isə bircə titulu olub: “məlik”, o da sonradan. Fondun müdiri nə Yelenaya, nə də mənə bir söz demədən durub sol tərəfə buruldu, sonu görünməyən rəflər arasında yoxa çıxdı. Yelena əyilib arxasınca baxdı. Əlini dodaqlarının üstünə qoyub astadan yeniyetmə qızlara məxsus şıltaqlıqla:

- Dənizçilər demişkən, kursu belə də tutun, hələlik biz onu məğlub eləmişik. Bircə Allah eləsin, familiya məsələsi siz deyən kimi olsun.

Təxminan on-on beş dəqiqədən sonra əlində qədim boz bir qovluq geri qayıdan mühafizəçi yerində oturub, bizi heç görmürmüş kimi özü vərəqləməyə başladı. Dərin, sükutlu bu yarım zirzəmi otaqda arabir açılan vərəqin səsi mənim intizarımı daha da artırırdı.

Handan-hana:

- Baxaq görək, - dedi, sizin sözlərinizdə həqiqət varmı? Şəxsən mən şübhə edirəm ki, belə bir görkəmli admiral müsəlman ola...

Mən daha dözə bilmədim. Düzü, qorxurdum, özü baxıb, sonra da götürüb geri aparsın və desin ki, sizin dediklərinizdən əsər-əlamət yoxdur. Ayağa durdum. Əlimi cibimə salıb, pasportumu və vəsiqəmi çıxardıb stolun üstünə qoyum.

- Buyurun, - dedim, - mən bu iki sənədimi sizə etibar edirəm. Siz də əvəzində qovluqu verin, özüm baxım.

Hiss elədim ki, mənim bu səbirsizliyim Yelenanın da xoşuna gəlmədi. O, narahatlıqla:

- Axı, belə olmaz...

Müdir də dözə bilməyib bir az əsəbi:

- Nə deyirəm, buyurun, - deyib, qovluğu mənə verdi.

Admiralın şəxsi işinə baxır və gözlərimə inanmıram. İlahi, bu qədərdə saxtakarlıq olarmı? Nəfəsim təngiyir, həyəcandan şəxsi iş əlimdə əsir. Dözə bilməyib sevincimi onlara da bildirmək istəyirəm.

- İcazə verin, sizin üçün admiralın ad-familiyasını oxuyum. Müdir dinmir. Amma mənim qələbəmi, sevincimi duyan Yelena:

- Buyurun, oxuyun, - deyə şən səslə cavab verir.

Oxuyuram:

Aslanbəyov İbrahimbəy Allahverdi bəy oğlu. Əsli belədir. Lakin qara tuşla bu ad-familiyanın üstündən xətt çəkilib, düzəliş edilib: Aslanbeqov Avramiy Boqdanoviç, 1822-ci ildə Bakıda anadan olub. Əsli-nəcabəti isə ağalıqdır /zadəgan/. Dini müsəlmandır. Sonuncu iki sözün üstündən də xətt çəkilib, əvəzində "pravoslavnıy" yazılıb.

Əgər mümkünsə, icazənizlə admiralın şəxsi işindən qeydlərimi götürüm...

Yelena sevinclə:

- Əlbəttə olar, buyurun, əyləşib qeydlərinizi edin, mənə isə icazə verin mürəxxəs olum.

Mənim səmimi təşəkkürümü məmnuniyyətlə qəbul edən Yelena gedən kimi müdir sərt səslə bildirir:

- Yoldaş, qeydlər götürmək olar, amma nadir fondda saxlanan şəxsi işin fotosurətini çıxartmağa icazə verilmir.

- Çox sağ olun, - dedim, - mənə bu qeydlər də bəs edər.

Belə bir qadağanın olmamasını mən çoxdan bilirdim. Lakin bu dar macalda mübahisəyə girişməyi artıq hesab etdim. Bir də ki, bu, mənə heç lazım deyildi. Başlıcası o idi ki, mən həmyerlim haqqında, ilk azərbaycanlı vitseadmiral barədə nadir tapıntı ilə üzləşmişdim. Bu sevinc mənə bəs idi.

* * *

Bakı limanı getdikcə yararlı hala salınırdı... Gəmi heyətinin əksəriyyəti bakılılardan olurdu... Gəmiçiliyin inkişafı bakılıları dənizlə həmişəlik bağlayırdı. O illərdə şəhərdə çox nadir ailələrə rast gəlmək olardı ki, dənizçi olmasın. Gəmilərdə qara fəhlə işləyən də çox idi. 1820-ci illərdə Bakı sularında artıq altmışa qədər yelkənli gəmi üzürdü.

Qılman İLKİN,

yazıçı.

Azərbaycan hərbi Dəniz Donanması tarixində ilk admiralımız Dərgahqulu bəyin oğlu birinci Mirzə Məhəmməd xan olmuşdur. Təəssüf ki, hələlik onun fotoşəklini əldə etmək və ömür yolunu tam öyrənmək mümkün olmamışdır. Lakin hərbi dəniz tariximizin səhifələrində Mirzə Məhəmmədxanın fəaliyyəti haqqında az da olsa, məlumat var.

İyirmi yaşında Bakı xanlığına hakim olan Mirzə Məhəmməd xan atası Dərgahqulu bəydən sonra bərbad hala düşmüş iqtisadiyyatı qaydaya salmaqla yanaşı, Xəzərdə gəmiçiliyin inkişafına xususi qayğı göstərirdi. İlk dəfə Bakı limanında gəmiçiliyin inkişafına da o başlamışdır. Bu məqsədlə Avropada gəmiqayırma təcrübəsini öyrənmək üçün səfərə də çıxmışdır. Sevimli yazıçımız Qılman İlkinin "Bakı və bakılılar" sənədli əsərindəki bir epizod tarixi fakt kimi qiymətlidir:

"Bir gün Mirzə Məhəmməd oğlu Məlik Məhəmmədi yanına çağırıb dedi:

- Qulaq as, Məlik Məhəmməd, gör nə deyirəm. Biz dəniz sahilində oturmuşuq, ancaq öz gəmilərimiz yoxdur. Balıqçı gəmiləri ilə iş aşmaz. Bizə elə gəmi lazımdır ki, üstümüzə düşmən gələndə onun qabağına çıxa bilək.

Atasının sözlərindən heç bir şey başa düşməyən Məlik Məhəmməd gözlərini döyə-döyə ona baxırdı.

- Bunun üçün mən Avropaya getməliyəm, - deyib Mirzə Məhəmmədxan dərindən nəfəs aldı. - Yaxşı gəmiləri ancaq oralarda düzəldirlər.

- Bəs burda kim qalacaq? - Məlik Məhəmməd təəccüblə soruşdu.

- Necə yəni kim qalacaq? Sən! Məlik Məhəmməd bəzi işlərə qarışaraq, atasına kömək edirdisə də, özünə qarşı bu cür etibarı heç gözləmirdi.

Həmin illərdə Bakıda olmuş Səyyah Leyx yazırdı k i, Bakı xanı admiral Mirzə Məhəmməd tez-tez Langertə gedərək orada gəmi inşaasına rəhbərlik edirdi".

Başqa bir mənbə də mövcuddur. 1804-1806-cı illərdə Azərbycana işğal məqsədilə gələn rus qoşunlarının burnunu Xəzərdəki hərbi dənizçilərimiz ustalıqla ovmuşdular. İran tarixçisi Nasir Nəcimi yazır ki, Abbas Mirzənin cəsarətli sərkərdəsi, Bakının igid komandiri (əslində valisi) Hüseynqulu xan toplardan birini rus gəmilərindən azacıq aralı olan yerə çəkib, heyrətləndirici cəldlik və fədakarlık göstərərək düşmənin bir neçə gəmisini top mərmisiylə dənizə qərq etmişdi.

Şübhəsiz ki, on yeddi yaşlı İbrahim bəy Aslanbəyovun Peterburqda hərbi Dənizi Korpusunu bitirməsi də ilk admiralımız Mirzə Məhəmmədin arzu və istəyi ilə bağlı olmuşdur. Bakıxanovların ailə şəcərəsində Allahverdi bəy adlı bir şəxs vardı. Bəlkə İbrahim bəy Aslanbəyov həmin Allahverdi bəyin oğludur? Təəssüf ki, yüz yetmiş üç illik zaman məsafəsindən bunu dəqiqləşdirmək mümkün olmadı. Ancaq xatırlatmaq istərdik ki, o vaxtlar aşağı təbəqəyə məxsus ailənin on üç yaşlı oğlu Rusiyada oxumaq imkanına malik ola bilməzdi. Demək, il vitse-admiralımız İbrahim bəy Aslanbəyov Bakı xanlarının nəslinə mənsubdur. Şəxsi işində zadəgan nəslinə mənsub olması barədə qeyd də bunu sübut edir.

Adətən ensiklopediyaya düşən hər hansı görkəmli şəxsiyyətin harada doğulduğu, hansı millətin oğlu olduğu yazılır. Nə məşhur naşir İ.D.Sıtinin 1911-ci ildə nəşr olunmuş çoxcildli "hərbi ensiklopediya"sında, nə də sovet dövründə çıxan

hərbi-dəniz ensiklopediyalarının heç birində admiral Aslanbəyov haqda bu cür məlumatlar yoxdur. Görünür, Rusiyanın hərbi dəniz donanması tədqiqatçılarına belə görkəmli bir sərkərdəni özününkülşədirmək sərfəli olub. Niyə də olmayaydı?!. Axı, vitseadmiral Aslanbəyov həm də hərbi donanma tarixində görkəmli alim kimi tanınıb! (Bu barədə bir qədər sonra).

Bəzi mənbələrdə, xüsusilə sovet dövründə nəşr olunan əsərlərdə Aslanbəyovun təvəllüdü 1820-ci il göstərilir. Fikrimizcə, bu da səhvdir. Çünki 1917-ci il inqilabından əvvəl nəşr olunan mənbələrdə admiral İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovun 1822-ci il sentyabrın 10-da Bakıda anadan olduğu göstərilir. Üç il Peterburqdakı dənizçilik məktəbində tərbiyə alan İbrahim bəy 1837-ci ildə oranı adı Qırmızı lövhə"yə yazılmaqla bitirmişdir. Baltik dənizində "Aleksandr Nevski" və "Prozerqin" hərbi freqatlarında üzən miçman Aslanbəyov iki il "İmperator I Pyotr" sürətli hərbi gəmisində Daqerord yaxınlığında keçirilən təlimlərdə iştirak etmişdir.

1842-ci ildə Dənizçilik Məktəbinin zabitlər sinfini bitirən İbrahim bəy Qara Dəniz Donanmasının hərbi nəzarət gəmilərində üzmüş, Qara dənizin şərq sahillərində baş verən toqquşmalarda iştirak etmişdir.

"Elbrus" hərbi gəmisinə komandirlik edən leytenant Aslanbəyov 1854-cü ildə düşmənin ticarət "gəmilərini darmadağın etmək üçün dörd dəfə (30 iyun, 7iyul, 3 və 6 avqust) dənizə çıxmış, avqust ayında isə desant gəmisinin döyüşən batareyasına komandirlik etmişdir. Bu xidmətinə görə ona kapitan-leytenant rütbəsi verilmişdir. Həmin il sentyabrın 13-dən müharibənin axırına kimi Sevastopol qarnizonunda olmuş, avqustun 27-də sonuncu hücumu dəf edərkən kontuziya almışdır. Şərq müharibəsindən sonra Nikolayev limanında 36-cı donanma ekipajına komandirlik etmişdir.

Aslanbəyov 1860-61 ci illərdə "Sokol" pərli korvet gəmisinin komandiri kimi Aralıq dənizində üzmüş və həmin gəmini Kronştadta gətirmişdir. 1863-cü ildə həmin korvetlə Nikolayev şəhərinə qayıdan İbrahim bəy, iki ildən sonra "Retvizan" gəmisinə komandir təyin edilmişdir. Bir müddət məşhur vitse admiral Q.İ.Butakovun zirehli eskadrasında qərargah rəisi olmuşdur.

Aslanbəyov 1869-72-ci illərdə dəfələrlə müxtəlif ümumdövlət əhəmiyyətli məsələləri öyrənmək üçün toplanmış komitələrə sədr təyin edilmişdir. Estoniyaya ezam olunan İbrahim bəy gəmiçilik məktəblərinin yaradılması və ticarət gəmilərinin düzəldilməsi üçün yaranan komitənin üzvü olmuşdur.

1878-ci il yanvarın 1-də kontr-admiral rütbəsi ilə təltif olunanda İbrahim bəy Aslanbəyov səkkizinci donanma ekipajının rəisi idi.

Onun bioqrafiyası həm admiral kimi, həm də hərbi dəniz tarixçisi kimi çox zəngindir. Əgər başqa hərbçinin ömür yolu ilə müqayisə etməli olsaq, ancaq general Əliağa Şıxlinskinin artilleriya tarixindəki xidmətləri ona bərabər ola bilər. Ona görə ki, azərbaycanlı generallardan hərb elmi ilə məşğul olan ancaq Əliağa Şıxlinski idi. Fərq bircə ondan ibarətdir ki, Əliağa Şıxlinskinin elmi və hərbi fəaliyyəti Azərbaycanla daha çox bağlı olmuşdur. Admiral Aslanbəyovun elmi tədqiqatları isə rus hərb elmində geniş istifadə olunsa da, bu günə qədər bizə gəlib çatmamışdır. Daha doğrusu, özümüzdə nə tədqiq olunmuşdur, nə də təbliğ...

1872-ci ildə I Pyotrun anadan olmasının iki yüz illiyi böyük bayram şənliyi kimi keçirilirdi. Bu münasibətlə ümum-rus texniki sərgisində iştirak etmək və imperatorun kiçik avarlı gəmi dəstəsinə Moskvaya kimi rəhbərlik etmək həmyerlimiz Aslanbəyova etibar olunmuşdu.

1879-1882-ci illərdə İbrahim bəy gəmi heyəti ilə dövr-aləm səyahətinə çıxmışdır. O, Sakit Okeanda dəmir zirehli hərb və buxar yelkənli iti gedən gəmilərdən ibarət hərbi heyətə / "Minin", "Knyaz Pojarski", "Hersoq Edinburqski", "Asiya" və "Afrika"/ rəhbərlik etmişdir. Aslanbəyov okeanda sürətlə hərəkət edən kreyserlərin və "uçan eskadriliya"nın orduda tətbiq edilməsinin təşəbbüskarıdır. O, məşhur admiral A.A.Popovun xahişi ilə sonuncu layihədə nəzərə almaq məqsədilə tələb və qüsurların siyahısını tərtib etmişdir.

Admiral İbrahim bəy Aslanbəyov Sakit Okean adalarında üzmüş, hətta Polineziyanın xırda adalarını da dolanmışdır. Onun şəxsi işində saxlanan rəy və xatirələrdən, xususilə dənizçiliyə aid inqilabdan əvvəlki ədəbiyyatdan məlum olur ki, Aslanbəyov öz heyəti və ümumiyyətlə, tabeliyində olanlar arasında yuksək hörmətə malik olmuşdur. İllərin soldurduğu sənəddə ad-familiyasını oxuya bilmədiyimiz bir kontr-admiral yazır ki, Aslanbəyov xarici ölkələrdə də yaxşı tanınırdı.O, gəmi heyətində ruh yüksəkliyi yaratmağı məharətlə bacarırdı. Hətta kiçik rütbəlilərin də şəxsi təşəbbüsünü həmişə qiymətləndirirdi. Açıq ürəkliyi və qətiyyəti ilə fərqlənirdi. Aslanbəyovun gəmi ilə səfərləri haqqında çoxlu lətifələr, eləcə də özünün danışdığı Şərq əhvalatları hələdə məşhurdur. Bu, onun məşhur şəxsiyyət kimi nə qədər sevildiyini bir daha göstərir.

1854-cü ildə kontr-admiral İbrahim bəy Aslanbəyov Baltik Donanmasının kiçik flaqmanı təyin olunur. Üç il sonra /1887/ sentyabrın 22-də hərbi-dəniz Donanmasındakı misilsiz xidmətlərinə görə ona vitse-admiral rütbəsi verilir. Bu ali rütbədən sonra Baltik Donanması üzrə flaqman vəzifəsinə təyin olunan Aslanbəyov 1900-cü ilin dekabrın 7-də Peterburqda vəfat edir.

Ömrünün əlli ildən çoxunu hərbi Dəniz donanmasında nümunəvi xidmətdə keçirən admiral İbrahim bəy Aslanbəyov Rusiyanın və xarici ölkələrin yüksək ordenləri ilə təltif olunmuşdur. Həmyerlimizin xidmətləri Serbiyanın "Takova" /1879/, Rusiyanın "Müqəddəs Vladimir" /1854/, birinci dərəcəli "Müqəddəs Stanislav" /1881/, birinci dərəcəli "Müqəddəs Anna" /1883/, "Ağ qartal" /1888/, Yaponiyanın "Günəşin doğması" /1882/, Havay dövlətinin ikinci dərəcəli "Kalakua" /1882/ ordenlərinə layiq görülmüşdür.

1881-ci ildə imperator III Aleksandrın tacqoyma mərasimində iştirak edən admiral Aslanbəyova hədiyyə olaraq qılınc verilmiş və birillik məvacibi həcmində pul mükafatı ayrılmışdır.

Hələ sağlığında - 1882-ci ilda nəşr olunmuş "Dəniz xəritəsi nəql edir" kitabının 28-ci və 253-cü səhifələrində həmyerlimiz haqqında verilmiş qısa bioqrafik göstərici çox böyük əhəmiyyət kəsb edir. Əsaslı mənbələrdən topladığı faktları müəllif ilk dəfə oxucuya təqdim edir:

"Aslanbəyov yarımadası, Oxot dənizi, Saxalin adası, 1882-ci ildə ekipaj kliper təsvir edilib. Sakit Okean komandanı, eskadrilya kontr-admiralı İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovun soyadı ila adlandırılıb. Soyadları xəritə üzərində hərf səhvilə yazılıb."

Aslanbəyov körfəzi. Oxot dənizi, Saxalin adası, 1882-ci ildə kəşf edilib və xəritəyə ekipaj, kliper "Plastun" kimi yazılıb. Elə həmin vaxtda da İ.A.Aslanbəyov soyadı ilə adlandırılıb.

Aslanbəyov İbrahim bəy Allapverdi bəy oğlu (1822-1900). Dəniz korpusu məktəbini bitirib. 1837- 42-ci illərdə Baltik dənizində üzüb. 1842-61-ci illərdə Qara dəniz donanmasında "Selafail", "Varşava" gəmilərində, "Femistokol" briqində və başqalarında qulluq edib. 1865-68-ci illərdə "Reqvizan" gəmisinin komandiri, 1879-82-ci illərdə Sakit Okean eskadriliyasının komandiri olub. 1887-ci ildə Vitse-admiral rütbəsini alıb.

QƏRİBƏ VƏ XOŞ BİR TƏSADÜF

1993-cü ilin sentyabr ayında Qax rayonuna ezamiyyətə getmişdim. Marsan kəndində Eldar Hacı oğlu Məmmədov adlı bir cavanla tanış oldum. İşi, sənəti ilə maraqlandım.

- Mühəndisəm, - dedi. On dörd ildir ki, Saxalində neft çıxarıram, indi məzuniyyətə gəlmişəm.

- Təsadüfən orada "Admiral Aslanbayov" adasına rast gəlməmisən?

- Elə mən o adada yaşayır və işləyirəm, - dedi.

- Nə yaxşı təsadüfdür, - dedim, - azərbaycanlı admiralın adını daşıyan adada həmyerlisi yaşayır və işləyir.

- Admiral Aslanbəyov məgər azərbaycanlıdır? Siz bunu dəqiq bilirsiniz?

- Bəli, - dedim, - o, xalqımızın ilk admiralıdır.

- Bu barədə bizim ada sakinləri arasında, qeyri-millətlərlə tez-tez mübahisəmiz olur. Familiya oxşarlığına əsaslanaraq mən və həmyerlilərim "admiral bizim xalqın oğludur" - deyiriksə də, əlimizdə heç bir əsas yoxdur. Bilmirik nə vaxt yaşayıb, nə vaxt ölüb... Bir-iki dəfə məzuniyyətə gələndə rayonumuzun tanınmış ziyalılarından bu barədə soruşdum. Hamısı dedi ki, bizim elə bir admiralımız yoxdur.

Mən sevinclə:

-Var, - dedim, - Eldar, Saxalinə qayıdanda yolunu Bakıdan sal, görüşək, sənə admiralın fotoşəkillərini və bioqrafiyasını yazıb verim.

Məndən də artıq sevinən Eldar:

- Çox sağ olun, - dedi, - mən də admiral Aslanbəyov haqqında qəsəbə kino-teatrında bir guşə düzəldəcəyəm.

ADMİRAL HƏM DƏ ALİMDİR.

... Admiral İbrahim bəy Aslanbəyovdan yazan rus tədqiqatçıları onun haqqında "Admiral Naximovun bioqrafı kimi daha çox məşhurdur" sözlərini iftixarla qeyd edirlər. Təsadüfi deyil ki, İbrahim bəyin "Naximovun bioqrafiyası" adlı oçerki ayrıca kitab kimi bir neçə dəfə nəşr olunmuşdur.

Admiral Aslanbəyovun elmi-publisistik əsərləri isə ayrıca tədqiqata layiqdir. Hərbi dəniz donanmasının ötən əsr tarixini araşdıran tədqiqatçıların əksəriyyəti onun əsərlərindən mənbə kimi bu gün də istifadə edirlər. Heç təsadüfi deyil ki,

1889-cu ildə Sankt-Peterburqda "Vitse-admiral Aslanbəyovun yarıməsrlik yubileyi" adlı kitabı da nəşr olunmuşdur. V.Fridriksin "Kontr-admiral Aslanbəyovun bayrağı altında üzən "Afrika" kreyseri" adlı kitabı isə hələ 1880-ci ildə yenə də Sankt-Peterburqda işıq üzü görmüşdür. Q.İ.Seminin "Sevastopol" tarixi oçerklər kitabında /1955-ci il/ isə admiral Aslanbəyovun gündəliyindən geniş istifadə olunmuşdur.

Knyaz admiral V.İ.Baryatinski isə həmyerlimiz haqqında yazdığı xatirələrimdə qeyd edir ki, Şərq və Qafqaz lətifələrini o qədər maraqla danışardı ki, müsahibi qəşş edənə qədər gülərdi. Bu lətifələr indi də dillərdə gəzir.

Ötən əsrin altmışıncı illərindən başlayaraq admiral Aslanbəyovun "Morskoy sbornik" jurnalında silsilə elmi publisistik məqalələri dərc olunmuşdur: "Sokol" üçdorlu hərb gəmisinin Aralıq dənizindən Kronştadta səfəri" /1861/, "Admiral P.S.Naximov" /bioqrafik oçerk, 1868/, "Admiral A.S.Qreyq" /1873/, "Admiral A.İ.Panfilov" /1874/, "Dəniz akademiyasının 50 illiyinin bayram edilməsi münasibətilə nitqi" /1877/, "Kontr-admiral İ.Aslanbəyovun səfərləri haqqında məlumatlar"/1881/ və başqa məqalələrindən tədqiqatçılar bu gün də bəhrələnirlər.

Yüz altmış üç ildən bəri İ.Aslanbəyovun bizimçün qaranlıq qalan ömür yoluna, hərbi fəaliyyətinə az da olsa işıq sala bildik. Bu isə son dərəcə vacibdir. Yoxsa, qeyri-millətlər, xüsusilə naxələf qonşularımız bizim unutduğumuz məşhur oğullarımızı özününküləşdirir, üstəlik də: "Sizin tarixiniz kasıb olub, görkəmli oğullarınız da yoxdur" - deməklə xalqımızı təhqir edirlər.

...Hərbi donanma tariximiz onsuz da kasıbdır. Bu sahədə fəaliyyət göstərən oğullarımız az qala barmaqla sayılacaq qədərdir: Kontr-admiral Cəlil Cavadov /1916-1980/, vitse-admiral Həmid Qasımbəyov /1923/, kontr-admiral Rafiq Əsgərov/1949/ və Eduard Hüseynov (1938-1993). Vəssalam!

Nə yaxşı ki, bu boşluğu müəyyən qədər də olsa dolduracaq İbrahim bəy Aslanbəyov kimi admiralımızı gec də olsa tapa bilmişik...

20 noyabr 1993-cü il

QACAR SÜLALƏSİNİN SƏRKƏRDƏLƏRİ

Tarixə "olub, keçmiş şeylər", "çağırılmış Bayatılar" kimi baxanlar idrak və zövqü məhdud insanlardır.

Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan, öz vətəndaşlıq haqqını dərk edə bilməz, ona vətənpərvər demək də gülünc olar.

Səməd VURĞUN

Şuşaya getməkdə məqsədim görkəmli ədəbiyyatşünasımız Firudin bəy Köçərlinin dədə-baba yurdunu görmək idi. Bir xeyirxahın köməyi ilə evi tapıb, həyət-bacanı gəzdim. Unudulmuş Firudin bəyin nə yaxın, nə də uzaq bir qohumu ilə görüşüb söhbət edə bilmədim. Mülkün divarına çoxdan vurulmuş, rəngi solmuş xatirə lövhəsini ürək ağrısı ilə oxudum. Və muzey görmək ümidim vardı. Amma sanatoriya anbarı kimi istifadə olunduğunu görəndə... yadıma olmuş bir əhvalat düşdü. Onu mənə Qazax Seminariyasının məzunu, mərhum Hacıbala Hacıyev danışmışdı.

Seminariya hələ Qoridə olarkən (1910-cu il) bir gün dərsdən evə gələn Firudin bəy arvadı Badsəbanı əli qoynunda fikirli görür. Firudin bəy təşvişlə soruşur ki, Badsəba, nə olub, niyə qəmlisən. Şuşadan, yada Qazaxdan bəd xəbər var, nədi?

Badsəba xanım kədərlə dillənir:

- Eh, ay Firudin bəy, niyə də, fikirli olmayım, bu qədər ömür sürdük, Tanrı bizə bir övlad da vermədi ki, nişanəmiz qalsın.

Firudin bəy əvvəlcə bərk tutulur, sonra özünə gəlib arvadına təsəlli verir:

- Fikir eləmə, Badsəba, bu seminariyada oxuyan uşaqların hamısı bizim övladlarımızdır. Bizi kim unutsa da onlar unutmazlar. Bu, mənim yəqinimdir. Vaxt gələr görərsən...

İllər keçir. Firudin bəy Köçərli 1920-ci il mayın 22-dən 30-dək davam edən Gəncə qiyamı zamanı mənfur daşnaklar tərəfindən öldürülür. Badsəba xanım 1921-ci ildə Bakı Pedaqoji Texnikumunda tərbiyəçi işləyir. Dörd il sonra bacarıqlı mütəxəssis kimi pedaqoji texnikum təşkil etmək üçün Zaqatalaya göndərilir. 1929-cu ildə Quba Pedaqoji Texnikumunun müdir müavini olur. Bir il keçmiş isə Şəki uşaq evinin müdiri təyin edilir. Həmin dövrdə yetimxana ciddi ehtiyac içində idi. O, kömək üçün hansı idarəyə müraciət edirsə, yardım edən olmur. Firudin bəyin 1910-cu ildə dediyi sözləri xatırlayan Badsəba xanım Mərkəzi Komitədə torpaq komissarı işləyən, keçmiş Qori Seminariyasının məzunu Teymur Hüseynovun yanına gəlir. Yetimlərə kömək üçün ona müraciət edir.

Teymur Hüseynov Badsəba xanımı doğma anası kimi çox səmimi qarşılayır. Maddi cəhətdən kömək edir, üstəlik yetimxananın müasir mebellə təmin olunmasına sərəncam da verir.

Bu əhvalatdan sonra Badsəba xanım ölənə qədər (1954-cü il) deyərmiş ki, Firudin bəylə mən sonsuz olmamışam. Qori və Qazax seminariyalarının hər bir məzunu bizim övladımızdır.

Firudin bəyin dədə-baba yurduna baxa-baxa fikirləşirdim ki, Teymur Hüseynov kimi xeyirxahlar “otuz yeddi”nin günahsız qurbanı olmasaydı, bəlkə də mülk bu günə düşməzdi. Demək, indi Teymur kimi övladlara ehtiyacımız var. Təəssüf ki, “otuz yeddi”nin qara küləkləri çox seminaristi öz burulğanında məhv elədi. Hətta seminariyanın təşəkkülü və Azərbaycan maarifinin inkişafında böyük xidmətləri olan Sultan Məcid Qənizadə belə yetmiş iki yaşında ikən şəxsiyyətə pərəstiş dövrünün amansız qanunsuzluğunun qurbanı oldu.

Nə gizlədim, Şuşada Firudin bəy Köçərlinin dədə-baba mülkünü görəndə fikirləşdim ki, övladsızlıq yaman bəladır. Əgər Tanrı Firudin bəylə Badsəba xanıma övlad nişanəsi versydii, yurdu anbar olmazdı...

O vaxtdan səkkiz il keçib. Amma Şuşada Firudin bəyin dədə-baba mülkünün qapısından asılmış daş boyda qıfıl hələ də gözümün qabağından getmir. Ömrünün qırx ildən çoxunu ədəbiyyatımıza, maarifimizə həsr etmiş Firudin bəy Əhmədağa oğlu Köçərli kimi müqtədir bir şəxsə ehtiramımız budurmu?..

* * *

Firudin bəyin dədə-baba mülkünün qonşuluğundakı iki mərtəbəli əzəmətli mülk də istər-istəməz diqqətimi cəlb elədi. Maraqlanıb belə gözəl imarətin kimə məxsus olduğunu soruşdum. Dedilər ki, şahzadə Bəhmən Mirzənin olub. Mənim tərifləyə-tərifləyəə, heyranlıqla mülkə baxdığımı görən "bələdçim" - əşşi, çox da tərifəlayiq deyil, - dedi.

- Niyə? - deyə maraqla soruşdum.

- Bəhmən Mirzə arvad düşkünü olub, çox arvad alıb, çoxlu da övladı olub, - deyən bələdçim kişinin qarasınca deyindi.

- Bəhmən Mirzənin ailə məsələsini bilmirəm. Amma Azərbaycan tarixində müəyyən xidmətləri var. Bir də ki, bunun nəyi pisdir, daha yaxşı, millətin sayını artırıb, ziyalı oğul, qız yetişdirib, - dedim və ürəyimcə olmayan söhbəti yumşaltmaq məqsədilə yekunlaşdırdım.

Həmin günü gəzə-gəzə Şuşanın yuxarı hissəsinə gedib çıxdım. Nəhəg bir kilsəyə rast gəldim. Burada iyirmi beş-otuz usta, fəhlə canfəşanlıqla işləyirdi. Öyrəndim ki, Yerevandan gətirilmiş ustalar bizim Daşkəsən mərməri ilə erməni kilsəsini yenidən bərpa edir, zərif naxışlar salırlar. Uzərində pozulmaqda olan yazılara qızılı rəng vururlar.

O gecə mehmanxanadakı pambıq yorğan-döşəyim od olub məni yandırdı. İlan vuran yatdı, mən yatmadım...

1983-cu ildə şahidi olduğum bu iki hadisənin günahkarları bu gün xəcalət çəkirmi görəsən?

Nə isə... Belə sağalmaz yaralarımız, çəkilməsi mümkün olmayan dərdlərimiz çoxdur... Bir tərəfdən də Bəhmən Mirzənin kimliyi dərd olub ürəyimi yeyirdi. Fikirləşdim ki, belə əzəmətli mülkün sahibi imkansız, bacarıqsız adam ola bilməzdi... Sonralar arxivlərdə işləyəndə, inqilabdan əvvəlki ədəbiyyatları mütaliə edəndə tez-tez Bəhmən Mirzənin adına rast gəlirdim. Hər yerdə də onun və oğlanlarının fəaliyyəti barədə xoş sözlər söylənirdi.

Bəhmən Mirzənin müasiri, məşhur tarixçi M.Baharlı 1888-ci ildə qələmə aldığı "Əhvalati-Qarabağ" əsərində onu hörmət və ehtiramla xatırlayır. O, yazır:

"Mərhum Bəhmən Mirzə çox həlim, nökərə və kənizə mehriban adam idi. Bir xasiyyəti var idi ki, hər şeydən ki, əhli və əyali göyərdi, Həmən şeydən nökər və kəniz üçün verərdi və o nemətdən ki, özü yeyerdi, gərək tamaməmələlər (nökərlər - Ş.N.) ondan yeyəydi. Razı olmazdı ki, bir kimsənə o nökərlərə və qaravaşlara bir kəlmə söz desin. Çox artıq əzizlik ilə əmələ saxlardı. Artıq insaflı və rəhmdil adam idi. Belə ki, hər yerdə ki, bir nəfər qoca övrət və ya kişi biləydi ki, var, onun üçün məvacib qərar edəcəydi. Və hərdəm bir dəfə o qoca kişiləri və qarıları götürüb öz qulluğunda oturdub söhbət edirdi və onlardan qədim sözlərdən xəbər alardı. Çünki qədim sözü artıq dost tutardı. Və əlavə bu qocaların danışmağı

və söhbətləri xoşuna gəlirdi və onlar üçün öz qulluğunda nahar və çay gətirdərdi. O qocaların yeyib-içməyindən xoşu gəlirdi. Həmişə özünə məşğuliyyət onların və qara kənizlərin və qara qulluqçuların oynamağı idi. Çox dost tutardı qoca və avam adamları.

...Şahzadə Bəhmən Mirzə öz övrətlərinin birisinin mənzilində imiş və bir nəfər biganə övrət o xanım üçün halva payı göndərmiş. Bu halva payı gətirən övrət həmişə şahzadənin qulluğuna gəlib-gedən adam imiş. Qərəz, bir məcməyi çini qab tamam halva ilə dolu ki, hər birini xanımların biri üçün qoymuş imişlər, bu övrət əlində içəri girib, görüb şahzadə oturubdur. Övrət əlində dolu məcməi şahzadəyə baş endirib. Baş əyən vaxt məcməidə Hər nə qab var imiş tamamən tökülüb sınıbdır. Şahzadə çox gülüb və buyurub neçə boşqab bazardan alıb, gətiriblər. İki manat övrətə əlavə pul verib yola salıb ki, bu pul da sənin peşman olmağının əvəzi olsun".

QACARLARDAN İLK ŞAH

Dünyanın sivil ölkələrində hamılıqla qəbul edilmiş əxlaq normalarından biri də odur ki, keçmişini yalnız nifrətlə xatırlayan xalq gələcəkdən məhəbbət uma bilməz.

Fransız xalqının tarixində heç də bir mənalı rol oynamamış Napaleon, Taleyran, Fuşe haqqında yazılmış və hələ də yazılmaqda olan əsərləri xatırlamaq kifayətdir.

Tofiq Rüstəmov,
professor.

Şahzadə Bəhmən Mirzə Qacarın insani keyfyyətləri və tarixşünaslırımızdakı təmənnasız elmi fəaliyyəti barədə məlumatlar topladıqca qeyri-ixtiyari olaraq Şuşada onun ünvanına qara yaxan "bələdçi"ni xatırlayırdım. İstər-istəməz düşünürdüm ki, şahzadə Bəhmən Mirzənin bircə "günahı" varsa, o da nüfuzlu şahzadə nəslindən olmasıdır.

Sovet dövrndə Qacarlar kimi təqib olunan, hökumət yanında gözükölgəli yaşayan ziyalı nəsillərimiz çox olub. Qacarlar nəslinin totalitar recim illərində gözükölgəliyinin ilkin səbəbkarı bu sülalədən olan Ağa Məhəmmədşah Qacardır. Bu nəslin oğulları 1796-cı ildən ta 1925-ci ilə qədər, yəni yüz iyirmi doqquz il İran taxt - tacına şahlıq ediblər. Rusiyanın Qafqazı işğal etmək planlarını puç edən Ağa Məhəmməd şah Qacar təbiidir ki, xristianlar tərəfindən sevilmirdi. Ona görə də Sovet tarixində işğalçı, qəddar, qaniçən və zalım bir şah kimi təbliğ olunurdu. Zamanın və dövrün təzyiqilə bizim bir çox alim və bədii söz ustalarımız da totalitar rejimin süzgəcindən keçən obraz yaratmağa məcbur idilər. Gec də olsa etiraf etməliyik ki, Ağa Məhəmməd şah Qacarın Qafqaza hərbi yürüşündə ilkin məqsədi biz

Azərbaycan türklərini xristian məngənəsindən qurtarmaq olub. İndi yeni açılan arxiv sənədlərini, vaxtilə çapı qadağan olunan kitabları oxuyanda fikirləşirsən ki, Ağa Məhəmməd şah Qacar Azərbaycanın qəhrəman oğulları sırasına qoyulmağa layiqdirmi? Bu baxımdan fransız müəllifi Can Gevrin ikicildlik "Xacə Şah" kitabı xüsusilə qiymətlidir. Fransalı Can Gevr uzun müddət İranda xidməti vəzifədə işləmiş, topladığı real tarixi faktlardan Ağa Məhəmməd şah Qacarın ömür yolu barədə orijinal bir roman yazmışdır. Bu qiymətli əsər Hüseyn Əhədinin farscadan tərcüməsi ilə 1993-1994-cü illərdə "Gənclik" nəşriyyatında nəşr olunmuşdur.

Sual oluna bilər: Əgər Ağa Məhəmməd şah Azərbaycanın qəhrəman oğulları sırasına qoyulmağa layiqdirsə, bəs Qarabağda tökdüyü qanlar nəydi? Bu sualın cavabını professor Vaqif Arzumanlı 1992-ci ildə "Aydınlıq" qəzetində dərc etdirdiyi məqaləsində vermişdir. O, yazır:

"Hakimiyyət başına gələn Qacarı o vaxtlar üç məsələ xüsusilə narahat edirdi. İlk növbədə Azərbaycanın qədim və tarixi torpaqlarının Rusiya tərəfindən işğal olunması və həmin ərazilərdə yerli əhalinin sıxışdırılması hesabına xristianların məskunlaşdırılması.

Gürcüstanın hər yerində müsəlmanları sıxışdıraraq, Rusiya imperiyasının ayağına verməyə can-başla hazır olan, bütün bunlar da az imiş kimi, Qarabağ hakimi İbrahim xanın nə yolla olursa-olsun, mütəmadi digər Azərbaycan xanlıqlarından uzaqlaşmasına, onu yalnız öz tərəfinə çəkməyə can atan II İraklinin çoxşaxəli siyasəti.

Qacar Qafqaza hücum planı hazırlayarkən, əsasən, vaxtilə mövcud olmuş Səfəvilər dövlətinin sərhədlərini bərpa etmək məqsədi güdürdü.

Çox qəribədir ki, Qacarın bu niyyətlərini o vaxtlar Gəncə xanı Cavad xan təxmini də olsa başa düşürdü, Qarabağ xanı isə yox. Ona görə də Cavad xan Azərbaycanla, Qafqazla bağlı planlarını həyata keçirərkən Qacara əl tutdu... Cavad xan Vətən uğrunda həlak oldu. İbrahim xan isə Rusiyanın mahir siyasəti nəticəsində aldandı". (**Bax: V.Arzumanlı "Ağa Məhəmməd şah Qacara işğalçı kimi baxmamalıyıq" məqaləsi, 14 fevral 1992-ci il).**

Rusların himayəsinə sığınan, rus qoşunlarını Gürcüstana buraxan gürcü çarı II İrakliyə Ağa Məhəmməd şah Qacar 1795-ci ildə sərt bir ultimatum göndərdi. Qacar II İrakliyə xatırladırdı ki, yüz il Gürcüstan İranın itaətində olub, indi necə oldu ki, kafir rusları torpağına buraxmısan. Ultimatumun tam mətni belədir:

"İran şahı Ağa Məhəmməd xanın gürcü kralı
II İrakliyə
ULTİMATUMU

Bağışlayan rəhm edən Tanrı adına. Allah hamıdan böyükdür, yüksəkdir, hər şeyi yaradandır.

Bu fərmanı gürcü çarı Əlahəzrətə elan edirik.

Bizim mərhəmətimizi gözləyən hökmdarın məlumu olsun ki, yetmiş il bundan əvvəl gürcülərin Qəndəharda törətdikləri əməllər və İranı nüfuzdan salmaq cəhdləri indi artıq hamıya məlumdur. Zira Şah Sultanhüseyn də artıq sağ deyil, o

dünyadadır. Yəqin əlahəzrət özü də yaxşı bilir ki, son yüz il ərzində siz İranın itaətində olmusunuz. İndi isə təəccüblə demək istəyirik ki, Siz ruslara yaxınlaşıb onlara qoşulmusunuz. O ruslara ki, İranda ancaq alver etmək məqsədi ilə gəzib-dolaşırlar və elə bütün iş-peşələri də yalnız alverlə, ticarətlə məşğul olmaqdır.

Sən yaşı doxsanı haqlamış adamsan, amma bağışlanmaz səhvlərə yol verirsən. Kafirləri torpağına buraxmısan, onlarla birləşmisən və onlara istədikləri kimi davranmağa şərait yaradırsan.

Sizin və bizim dinlərimiz muxtəlif olsada, ancaq Siz həmişə İranla yaxın və əlaqədə olmusunuz. İranda sənə məlum olduğu kimi, xeyli tatar, gürcü, erməni və digər dinlərə mənsub olanlar yaşayır. Ona görə də Siz utanıb xəcalət çəkməlisiniz ki, bu cür işlərə və əməllərə yol verirsiniz. Bu əməllərdən birdəfəlik əl çəkməlisiniz. Ötən il sən məni bir yığın gürcünü məhv etməyə məcbur etdin. Lakin biz öz təəbəliyimizdə olanları öz əlimizlə öldürməyin tərəfdarı deyilik.

İndi Allahın köməyi ilə biz böyük uğurlar əldə etmişik, nəhəng və güclü dövlətik. Sən bizə öz sadiqliyini sübut etməlisən. Biz böyük ixtiyar sahibi olduğumuz üçün, əgər ağıllı adamsınızsa, hazırkı niyyət və əməllərinizdən büsbütün əl çəkməlisiniz, ruslarla əlaqələrinizi tamamilə kəsməlisiniz. Bu, yəqin ki, sənin ölkənin əhalisinin ürəyincə olar. Əgər bu göstərişə əməl etməsən, onda çox qısa bir müddətdə Gürcüstanın üzərinə yürüş edəcək, ruslarla bərabər gürcüləri qılıncdan keçirərək, qanınızdan Kür çayına bənzər bir qan çayı axıdacağıq.

Bütün bunları sənə çatdırmaq və xəbərdarlıq etmək məqsədilə bu fərmanı göndəririk. Bu fərmanı yazmışıq ki, bizim dediklərimizi, buyurduğumuzu qulaqardına vurmayasan və özünün vəziyyətini dərk edəsən[8]".

Can Kevrin tarixi romanında Ağa Məhəmməd şah Qacar bizim ədəbiyyatda təsvir olunanların əksinə, camaldan çirkin yox, yaraşıqlı, yüksək hərbi biliyə və bacarığa malik, coğrafiya və başqa elmləri, xüsusilə Quranı gözəl bilən, ona təfsir yazan ideal qəhrəman kimi təsvir olunur. Oxucuda əyani təsəvvür yaratmaq üçün "Xacə Şah" kitabından bir neçə sətir:

Yüz iyirmi üçüncü səhifədən:

Ağa Məhəmmd şah cavan yaşlarında çox gözəl olub, vücudunun çevikliyini ömrünün axırına kimi saxlamışdı. O, gigiyena haqqında biliyi ilə öz zəmanəsinin adamlarından iki əsr irəlidə idi. Bədəni iyirmi yaşlı cavanın əndamına oxşayırdı.

Yüz iyirmi yeddinci səhifədən:

Qacar sülaləsində Ağa Məhəmməd xan yeganə padşah olub ki, fəlsəfədən məlumatı var idi. Ağa Məhəmməd xan Əndəluslu filosof ibn Tüfeylin bütün əsərlərini oxumuşdu, bir hissəsini də əzbərləmişdi. İbn Tofeylin dünyada ikinci fəlsəfi romanı olan "Yəqzanın oğlu hey" kitabını əlindən yerə qoymazdı[9] .

Yüz otuz və yüz otuz birinci səhifələrdən:

---

[8] Ultimatumu ilk dəfə Azərbaycan oxucularına professor V.Arzumanlı 1992-ci ildə təqdim etmişdir.

[9] N.Gəncəvinin müasir məşhur ərəb filosofu Ibn Tüfeylinin (1110-1185) "Yəqzanın oğlu Hey" fəlsəfi romanından söhbət gedir. Əsər fars, ingilic, rus, alman, çex, hollan, ispan вə b. dillərə tərcümə olunmuşdur - Ş.N.

Ağa Məhmməd xan Şirazda elm öyrənməyə başladı, alim oldu və alimlər içərisində hörmət qazandı.

Ağa Məhəmməd xan onu görənlərin xatirində gözəl, qamətli oğlan kimi qalmışdı. Onun adı gələndə gözlər önündə gözəl simalı, ruhoxşayan bir növcavanın surəti canlanırdı.

Yüz otuz doqquzuncu səhifədən:

Ağa Məhmməd xan kiçik qardaşına demişdi:

- Bizim ata-babadan bu yana ən böyük bədbəxtliyimiz Yuxarıbaş tayfası ilə düşmən olmağımızdır. İkimiz də bir kökdənik, Qacar tayfasıyıq[10]. Birincisi, istəyirəm biləsən, hər şeydə, istər müharibə, istərsə də ölkənin idarə işlərində sənin və mənim məqsədimiz istiqlalımız olmalıdır.

Yüz doxsan beşinci səhifədən:

Ağa Məhəmmədxan belə qərara gəldi ki, Qurana təfsir yazsın və bir az da yazdı, ancaq o yazıdan əsər qalmayıb. Hərbi ruhiyyə bu adamda daha qüvvətli olduğuna görə o, Quranın təfsirini yazmağa otura bilmirdi.

İngilis yazıçısı Robert Qrant Uotson on doqquzuncu əsrin ikinci yarısında İranın tarixinə istinadən yazırdı ki, əgər Napaleon Ağa Məhmməd şah Qacarın üsulundan istifadə edib mühasirəyə aldığı şəhərin ətrafında əsgərləri üçün yaşayış evləri tikdirsəydi, onun əsgərləri Rusiyanın soyuğunda məhv olmazdılar.

Avropa tarixçiləri və səyyahlar Ağa Məhmməd şah Qacarı olduğu kimi təsvir edirlər. Onun qəddarlığından danışdıqları kimi, camaata qarşı mülayim padşah olduğunu da söyləyirlər.

Əlbəttə, fransız Can Gevr də onun qusurlarından, sərt və qəddar bir şəxs olduğundan danışır.

Bütün bu kefiyyətləri ilə yanaşı Can Gevr onun türk olmasını, hətta bir yerdə onun türk dilində danışmasını da qeyd edir. Milliyyəti azərbaycanlı olan Qacar, Şah İsmayıl Xətai kimi Azərbaycanın bütövlüyünü yox, İran-fars hakimiyyətinin mənafeyini güdürdü. O, sələfi Şah Abbas kimi farslaşdırma siyasəti aparmışdır. Nə sarayda, nə də orduda Azərbaycan dili işlənməmişdir. Xalq şairi Səməd Vurğun "Vaqif" tarixi dramında Ağa Məhmməd şah Qacarın dilindən nahaqdan yazmırdı ki, "gərək fars dilində yazsın sənətkar". Artıq iki yüz ildən çoxdu Qacarın özündən və nəslindən, çoxsaylı oğullarından danışanda rus müəllifləri, istər imperiya, istərsə də sovet dövründə onları "persidskiy prins" kimi yazırdılar.

Demokratiyadan sonra bəzi müəlliflər inadla yazırlar ki, Qacar da, Şah Abbas da Azərbaycanın xalq qəhrəmanlarır sırasına qoyulmağa layiqdirlər. Zənimcə, çox tez və tələsik verilmiş qərardır. Bunun üçün Qacar dövrünün İranda saxlanan arxiv sənədlərində araşdırmalar aparılmalıdır. Hələlik isə Qacar və onun Azərbaycana yürüşləri möhtərəm oxucunun öz mühakiməsində qalsa yaxşıdır. Fransız yazıçısı Can Gevrin tarixi romanına və Gürcü çarı II İrakliyə Qacarın göndərdiyi ultimatuma görə onu xalq qəhrəmanı səviyyəsində görmək tarixi səhv olmazdımı?

---

[10] Irandakı türkdilli Ağbaşlılar tayfası da Qacarların bir qoludur. Ağa Məhəmməd şah Qacar dövründə onlar da İranın və Azərbaycanın siyasi həyatında fəal rol oynamışlar - Ş.N.

* * *

Əminə Pakrəvan 1963-cü ildə Parisdə "Nouvelles Edişəniz Debresse" nəşriyyatında "Ağa Məhəmməd xan Qacar" kitabını nəşr etdirmişdir. Əmrəvan həm də "Rrinsesans Histori" ("Tarixsiz şah") kitabının müəllifidir. Bu əsərinə görə o, 1951-ci ildə Fransada Rivarol mükafatını alıb. Qacarlar sülaləsi haqqında kitabları ilə tanınan Əminə Pakrəvan Fətəli şah Qacarın mərd, fədakar oğlu haqqında "Abbas Mirzə" kitabının da müəllifidir. Onun 1995-ci ildə Parisdə nəşr olunmuş Qacar sülaləsi haqqında kitabından iki epizodu Azərbaycan oxucusuna təqdim edirəm. Həmin kitabı Qacar sülaləsinin sonuncu tacidarı olan Əhməd şah Qacarın birbaşa davamçısı şah Əli Qacar nəşr etdirmişdir.

"XVIII əsrin sonu İran üçün qaranlıq və kədərli dövr olmuşdur. Aramsız vətəndaş müharibələri və büsbütün özbaşınalıq bizim doğma vətənimizi diziüstə çökdürmüşdü. Mərkəzdən qaçan qüvvələr həmişə dalbadal azğınlıq və qəzəblə torpaqları tayfa (qəbilə) başçıları və feodal lordlar arasında bölüşdürmüşlər. Sonra bizim uzun əsrlik tariximizdə tez-tez baş verdiyi kimi bir adam peyda oldu. Elə bir adam ki, yaşamaq istəyən millətin iradəsini təmsil edərək həm xalqın birliyini, həm də firavan həyatını özünə qaytardı. Əlində qılınc və məşəl tutan bu adam imperiyanı yenidən bərqərar etdi. Onun əldə etdiyi nailiyyətlər nəticəsində uçuruma doğru gedən qədim İran özünə gəldi. Millətin yenidən dünyaya gəlişində onun ürəyi də, milli ruhu da özünə qaytarıldı. Çingiz xanın nəslindən olan Ağa Məhmməd xan Qacar qəddar, rəhmsiz hərbçi və fanatik (xəyali) tacidar kimi öz davamçılarına feodal faristanını müasirləşməyə gətirib çıxarmaqda arxa-dayaq duracaqdır.

Xalqın ən çox qorxduğu şey daxili çəkişmələr idi. Tacidar olmayanda qanun da, yardım da ədalətsizliyin qurbanı olmuşdur. Belə olanda yalnız ac yalquzaqlar peyda olub, bir anlıq mənfəət uğrunda bir-birini didişdiriblər, ya da gələcəkdəki marağı naminə sərgüzəştçi bir sərkərdənin böyür-başında toplaşıblar. Heç bir kəs Qacar sülaləsinin banisinin İranın yenidən dünyaya gəlişi tarixində çox əhəmiyyətli və vacib yerini, mövqeyini dana bilməz. Onun arzu və istəkləri dahiyanə idi, ona görə ki, Qacarlar şəxsi maraqdan, eləcə də ailə marağından çox-çox uzaq idilər".

* * *

Şahzadə Bəhmən Mirzə Qacar və onun nüfuzlu nəsli haqqında araşdırmalar apardıqca düşünürdüm ki, Sovet dövründə bu soyadı saxlamaq böyük cəsarət tələb edirmiş. Ona gör də Qacar soyadını bizim dövrümüzdə çox az adamlar yaşadıbdır.

Sovet dövründə çıxan kitab və məqalələrdə şahzadə Bəhmən Mirzənin "arvad düşkünü" olması fikrinə rast gələndə əsəbiləşdim. Demək, Şuşalı "bələdçim" ancaq bu dövrün ədəbiyyatını mütaliə eləyibmiş. Bu dövrdə yazılan elmi-tarixi əsərlərimizin demək olar ki, hamısında şahzadə Bəhmən Mirzə Qacarın adı pisliyə çəkilib. Kimi onu "padşahpərəst", kimi "intriqaçı", kimi də "arvad düşkünü" adlandırıb.

Doğrudanmı şahzadə Bəhmən Mirzə Qacar "arvad düşkünü" olub?

Əgər çox arvad almaq, “arvad düşkünü” olmaqdırsa, onda rus imperatoru II Yekaterinanın nə oyunlardan çıxdığı hamıya yaxşı məlumdur. **(Bax: "Departament favaritov" kitabı, Moskva SP. "KPA"-nın nəşri, 1990-cı il**). Amma yenə rus yazıçıları, tarixçiləri onun xalq qarşısında əvəzsiz xidmətlərindən cild-cild əsərlər yazıblar. Eyiblərinin üstündən isə çox vaxt sükutla keçiblər. Nətta II Yekaterina dövrünü “qızıl əsr” adlandırırlar.

Bəri başdan deyim ki, şahzadə Əbdülsəmid Bəhmən Mirzə Abbas Mirzə oğlu Qacar II Ekaterina kimi heç bir əxlaqsız hərəkətə yol verməyib. Şahzadənin qanuni olaraq evləndiyi on altı arvaddan altmış üç övladı olub. Onların otuz biri oğlan, otuz ikisi qız idi.

Bəs tarixi həqiqət necədir, şahzadə Bəhmən Mirzə kimdir? O, 1811-ci il oktyabrın otuz birinda İranda anadan olub. Milliyyətcə azərbaycanlıdır. İran şahı Fətəli şahın nəvəsi, şahzadə Abbas Mirzənin dördüncü oğludur. Qacarlar sülaləsinin üçüncü hökmdarı Məhəmməd şahın isə qardaşıdır. Uzun müddət Təbrizin general-qubernatoru və Cənubi Azərbaycanın hakimi olmuşdur.

Azərbaycan tarixşünaslırında Bəhmən Mirzə Qacar “Şükürnameyi-şahanşahi” (“Padşaha minnətdarlıq”) adlı əsəri ilə tanınır. Çox təəssüf ki, bu qiymətli əsər indiyədək əlyazma halındadır. Tədqiqatçı Vəli Hüseynzadənin verdiyi məlumata görə, Bəhmən Mirzə “Təzkireyi Məhəmmədşahi”(1832), eləcədə Şimali Amerika, Fransa, İngiltərə, İtaliya, İran, Türkiyə və Çin haqqında qısa coğrafi tarixi, etnoqrafik məlumat kitablarının müəllifidir. Yeri gəlmişkən, Azərbaycan tarixçilərindən yalnız Əli Hüseynzadə onun əsərləri barədə sanballı fikirlər söyləmişdir.

“Padşaha minnətdarlıq” əsərini Bəhmən Mirzə 1871 -ci ildə Şuşa şəhərində fars dilində yazmışdır. Onda müəllifin altmış yaşı vardı. O, əsərdə Çingiz xandan Ağa Məhəmməd şah Qacara qədər altı əsrlik bir dövrdən, həmçinin Qafqazın tarixşünaslığı haqqında geniş məlumat verir. Müəllif əsəri saray arxivində saxlanan faktlar əsasında yazıb.

Bəs necə olub ki, o tay Azərbaycanımızda yüksək vəzifə tutan və böyük mənsəb sahibi olan şahzadə Bəhmən Mirzə Qacar rus təəbəliyini qəbul edib?

Bu barədə 1902-ci ildə çap olunmuş “Rus imperatorunun coğrafiya cəmiyyəti Qafqaz şöbəsinin xəbərləri” məcmuəsinin on beşinci cildliyinin birinci nömrəsində ətraflı məlumat var. Onu kiçik ixtisarla oxuculara təqdim edirəm.

“Bəhmən Mirzə ötən yüzilliyin qırxıncı illərində Azərbaycan əyalətinin hakimi olmuşdur. Orada o, enerjili və Avropa mədəniyyətinə meylli bir hakim kimi tanınmışdır. Elə buna görə də dövrünün böyük vəziri, fanatik-molla Hacı Mirzə Ağasının[11] nifrətinə və təqiblərinə məruz qalmışdır. Bu vəzir xəstə və zəif xarakterli Məhəmməd şahın müəllimi və tərbiyəçisi kimi ona bəslədiyi hədsiz etibarın sayəsində otuz il ərzində İranda despocasına, özbaşına hökmranlıq etmişdir...

---

[11] HACI MIRZƏ AĞASI - milliyyətcə Irəvan ermənisidir. Fətəli şah Qacardan sonra hakimiyyət başına keçmiş Məhəmməd şahın dövründə - 1834-1848-ci illərdə sədr-əzəm - baş nazir idi. Hacı Ağası Iran tarixində ən qəddar, ən müstəbid dövlət başçılarından olmuşdur. Böyük Azərbaycan şairi Mirzə Şəfi Bazeh bir neçə şerində onun qəddarlığını tənqid etmişdir:

O vaxtlar Avropa mədəniyyətinə meyl göstərənlərin hamısı təqib edilirdi: bu təqiblərdən şahın doğma qardaşı, Azərbaycanın hakimi şahzadə Bəhmən Mirzə də yayına bilməmişdir. Onun bütün təşəbbüsləri, təklifləri rədd edilirdi, buna görə də 1847-ci ildə şəxsən şahla görüşməkdən ötrü Tehrana yollanmağa məcbur olmuşdu. Amma Hacı Mirzə Ağasının fitnə-fəsadı və böhtanları nəticəsində şah öz qardaşını səmimi qarşılamamış və Bəhmən Mirzə onunla anlaşa bilməmişdir. Fanatik qocanın hər hansı bir yolla rəğbətini qazanmaq məqsədilə Bəhmən Mirzə ona həddiyyə olaraq 50000 holland çervonu bağışlamışdır. Lakin Hacı Mirzə Ağasi, şahzadənin dediyinə görə, həmin pulu qəbul etsə də, ona münasibətini zərrə qədər dəyişməmiş, əksinə, şahı inandırmışdır ki, qardaşı onun həyatına qəsd eləmək və taxt-taca sahib olmaq niyyətindədir. Bununla da bədbəxt şahzadənin taleyi həll edilmişdir. Lakin o cəlladlara səxavətlə bəxşişlər vermək

Əvvəl seçilməzdi heç birimizdən,
İndisə sinəsi nişanla dolub!..

Sərf eylə quvvəni dövlətə sən gəl,
Xeyir verməmisən ona heç zamam,
Axı mən neyləyim; vəzir, vəkillər
Əksərən olurlar ən böyük nadan.

hesabına evdən qaça bilmiş və rus missiyasında[12] sığınacaq taparaq müdafiə olunmuşdur. Ölkədəki mövcud ənənəyə görə, rus elçisi müdafiədən imtina edə bilməzdi. Odur ki, Bəhmən Mirzə etibarlı mühafizəkarlarla Tiflisə göndərilmiş, sonra isə imperator I Nikolayın iradəsinə rəğmən Şuşa şəhərində yerləşmişdir. Rus elçisinin tərəfkəşliyi nəticəsində Bəhmən Mirzə çox güman ki, özü ilə bütün əmlakını və babası Fətəli Şahın, eləcə də atası Naib-ül Sultanın **/Şahzadə Abbas Mirzənin - Ş.N./** arxivlərindən götürdüyü qiymətli tarixi materialları öyrənməyə başlamış, onların əsasında da Qafqaz diyarının tarixşünaslığını tərtib etmişdir. O, əsərində farsların və türklərin hökmran olduğu dövrlə rusların hakimlik etdiyi dövrdə bu diyarın vəziyyətini müqayisə etmək məqsədini güdürdü.

Müəllif ön sözdə yazır ki, "bu tarixdə keçmiş hakimlərin bu diyarın sakinlərinə necə azğın münasibət bəslədikləri, onların əmlakını talan etdikləri, arvad və uşaqlarını əsir aparmaları, şəhər və kəndlərini dağıtmaları qələmə alınmışdır. Daha sonra bu diyarın qüdrətli rus hakimiyyəti dövründəki vəziyyəti təsvir olunmuşdur. Bütün bunları mən o məqsədlə bu tarixşünaslıq əsərinə daxil etmişəm ki, diyarın sakinləri keçilməz dar xarabalıqlarında, sıx meşələrdə, məhrumiyyət içərisində, əsarətdə yaşayan babalarının məişəti ilə əyani tanış olsunlar, hazırkı firavanlıqlarını düzgün qiymətləndirə bilsinlər.

Həqiqətən də, Çingiz xan dövründən XIX əsrin əvvəllərinə qədər Qafqazda baş verən hadisələrin bütün təfərruatı ilə tanış olduqca tarixi keçmişin məşəqqətləri

[12] Missiya - diplomatik nümayəndəlik mənasında - müəl.

bir-bir göz önündə canlanır. Məllifin xidməti həm də ondadır ki, o, bütün fars salnaməçiləri kimi milli şovinizmə qapılmır və həqiqətdən yayınmır. Məsələn, bütün fars tarixçiləri I Şah Abbası ya məşhur qəhrəman, ya da dahi sərkərdə və müqəddəs şəxs kimi qələmə verir, buna görə də hətta ona "Cənnətməkan" titülu da verirlər. Bəhmən Mirzə isə onu olduğu kimi təsvir edir. Məlum olur ki, bu məşhur qəhrəman elə vəhşiliklər törədib ki, tanış olduqca adamın damarlarında qanı donur: bu əməlləri yalnız insan cildində yırtıcılar törədə bilərdilər. Məsəlan, o, öz atasını doqquz il zülmətxanada incitmiş və orada ölməsinə bais olmuşdur. Öz doğma qardaşları Abutalıb Mirzəni və Təhmasib Mirzəni Əlamut qalasında düz otuz beş il saxlamışdır. Onlar qalada məhrumiyyətlərdən ölmüşlər. Onun əmrilə doğma oğlanları, hətta taxt-tac varisləri də heç bir səbəb olmadan, şübhə üzündən öldürülmüş və gözləri çıxarılmışdır. Bu kimi faktlara ilk dəfədir ki, fars müəllifində rast gəlirsən. Bu həqiqətpərəstlik, əlbəttə, Bəhmən Mirzənin əsərinin müsbət cəhətidir.

1848-ci il mayın on ikisində "Lənkəran" gəmisi ilə Bakıya gələn şahzadə Bəhmən Mirzə az müddət Şamaxıda qaldıqdan sonra Tiflisə köçür, Mirzə Fətəli Axundovun qonşuluğunda yaşayır.

Dörd ilə yaxın Tiflisdə yaşayan şahzadə Bəhmən Mirzə yenidən Vətənə qayıtmaq üçün təşəbbüs göstərir. Bu barədə Rus çarlığı İran hökumətinə rəsmi müraciət edir. Lakin İran şahlığı onun qarşısında üç şərt qoyur: birinci: Azərbaycanda **/Cənubi Azərbaycan nəzərdə tutulur - Ş.N./** yaşamaq əzmində olmasın, ikinci: mənsəb və vəzifə tələb etmədən ona veriləcək kəndlərin gəliri ilə kifayətlənsin, üçüncü: Rusiya dövləti tərəfindən himayə edilmək imtiyazına malik olmasın, şahın digər rəiyyətləri kimi, adi vətəndaş huququ ilə İrana qayıtsın.

Bəhmən Mirzə ədalətsiz hesab etdiyi bu üç şərtin heç biri ilə razılaşmır. Və ömürlük rus təəbəliyini qəbul edir. 1851-ci il oktyabrın dördündə Şuşaya köçən Bəhmən Mirzə Məlikovların mülkünü satın alır. Ona imperator tərəfindən doqquz min altı yüz min manat[13] maaş kəsilir.

Görünür, ona görə də Bəhmən Mirzə Qacar rus imperatorunun tərifini göylərə qaldırır, onun ədalətindən, rəiyyətlərinə göstərdiyi səxavətdən razı qalaraq "Padşaha minnətdarlıq" əsərində yazırdı:

"Nə nahaq adam öldürən var və nə də bir kəsin bədən üzvünü kəsən. Nə bir kimsədən cərimə alan var, nə də bir kəsin malını zəbt edən. Bu, bir böyük nemət və sonsuz bir lütfdür ki, Allah sizə bağışlayıbdır. Bəs bu nemətə qarşı şükrü vacib bilinib, əmniyyətin qədrini yaxşı biliniz, həmişə əlahəzrət şahənşaha dua ediniz və bu dövlətin həmişəlik yaşamasını istəyin... İndi müşahidə edin ki, əlahəzrət padşahın varlığının nuri sayəsində məmləkətlər necə abad olub əmniyyət qazanmışdır".

[13]Bəzi mənbələrdə bu rəqəm otuz altı min manat göstərilir -müəl.

1884-cü il fevralın 11 -də Şuşada vəfat edən Bəhmən Mirzə Qacar sağlığında tikdirdiyi Bərdənin İmamzadə qəbiristanlığındakı məqbərədə dəfn olunur.[14]

Rus hökuməti tərəfindən hörmətlə qəbul edilən şahzadə Bəhmən Mirzənin həyat və fəaliyyətinə inqilabdan əvvəl nəşr olunmuş "Qafqaz Arxeoqrafiya Komissiyasının aktları" məcmuəsinin onuncu cildində geniş yer verilmişdir.

ÖVLADLARI

İnamla demək olar ki, Bəhmən Mirzə altmış üç övladının hamısına ali təhsil vermiş, xalqımız üçün yararlı şəxsiyyətlər böyütmüşdür. Onun qızları Tiflis gimnaziyasında oxumuş, müsəlman qadınlarının xeyriyə cəmiyytlərində fəal iştirak etmişlər. Məscid tikdirmiş, yol çəkdirmiş, ibtidai məktəblər açılması işində var-dövlətlərini səxavətlə xərcləmişlər.

Qədim Gəncədə onun qızı Səbiyyə xanımdan bir nişanə qalıb. Şərq ornamentləri ilə bəzədilmiş məscid mehmanxananın tikilməsi üçün Səbiyyə xanım şəxsi torpağını vermiş, qəriblər üçün mehmanxana-məscid tikdirmişdir. İnqilabdan əvvəlki ruhani-sorğu kitablarında və məscidin mehrabında oxuyuruq:

"Bu məscidin yerini, öz mülkündən torpağından şahzadə Bəhmən Mirzənin qızı Səbiyyə xanım vəqf edib. Burada yaşayan başqa səxavət sahibləri də binanın tikilməsində xərc çəkiblər". Uzun illər məscid kimi istifadə olunan həmin binada sonralar A.S.Puşkinin şərəfinə kitabxana təşkil olunmuşdur.

Gəncəli Cavad xanın nəticəsi, görkəmli ziyalı Adil xan Ziyadxanov yazır ki, anam Azər Humayun şahzadə Abbas Mirzə naibü-əs-səltənənin nəvəsi, şahzadə Bəhmən Mirzə Qacarın qızı idi. İslama bağlılığı olduqca möhkəm idi. Çox təmiz və qüsursuz bir əxlaqa malik idi. Xoşbəxtlikdən, bu əxlaq tərbiyət və təhsil nuru ilə ziyalanmışdı. Övlad üçün böyük xoşbəxtlikdir ki, bilikli bir ananın ağuşunda dünyaya göz açsın və belə bir ananın bilik bulağından hər bir vaxt istifadə etsin.

Maraqlı haldır ki, Bəhmən Mirzənin gəlinləri, nəvələri də Peterburqda, Kiyevdə, Tiflisdə ali Avropa təhsili almışlar.

Fransa, İngiltərə, rus, fars və Azərbaycan dillərində kamil savada malik olan Sitara xanım Qacarın oğlanları Şəmsəddin və Oveys Petroqrad Politexnik İnstitutunda təhsil almışdılar. Tiflis Nücabə Qızlar İnstitutunda təhsil alan Gövhər xanım Qacar 1905-ci ildə təşkil olunmuş "Zaqafqaziya müsəlman qadın xeyriyyə cəmiyyəti"nin sədri olmuşdur. O, fanatiklərin əlilə öldürülmüş Ağalə Əkbər İsmayılovun qızı, Bəhmən Mirzənin isə gəlini idi[15]. Peterburq Qızlar İnstitutu nəzdində xüsusi kurs bitirmiş bu nufuzlu qadın general əri şahzadə Əmir Kazım Mirzə Qacarla birgə əsrin əvvəllərində müsəlmanların mədəni tədbirlərinin hamısında yaxından iştirak etmişdir. Gövhər xanım Qacar haqqında Cəlil

---

[14] On jeddinci əsrin əvvəllərində naməlum müəllif tərəfindən yazılmış "Qızılbaşlar tarixi" kitabında qeyd olunur ki, Qacar tayfası qədimdə Gəncə вə Bərdədə yaşamışdır. Bir qismi isə Şamdan gəlmişdir. Şübhəsiz ki, şahzadə Bəhmən Mirzə Qacar da Bərdəni ulu babalarının yurdu kimi qəbul etmiş və orada dəfn olunmasını vəsiyyjət etmişdir - müəl.

[15] Şahzadə Bəhmən Mirzə Qacarın üç oğlu Ağaəli Əkbər Ismayılovun üç qızına evlənmişdi: Əmir Kazım Göhər xanımla, Xancan xan Fərruxa xanımla, Əliqulu Sara xanımla ailə qürmuşlar. - müəl.

Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım yazır: “Cəmiyyətin sədri Gövhər xanım Qacar savadlı, işgüzar və bacarıqlı bir qadın idi, çadrasız gəzirdi, əri hərbi qulluqçu idi. Tiflisin yüksək cəmiyyətlərinə gedib-gələr, canişin arvadının ziyafətlərində olardı. Özünün əlaqələri, həmçinin ağlı və nəzakəti ilə o, bizim tədbirlərimizin həyata keçirilməsinə kömək edərdi”.

Bəhmən Mirzənin 1905-ci ildə Port-Artur döyüşlərində həlak olmuş oğlu Əliqulu Mirzə qeyri-adi istedad sahibi olmuşdur. Tiflisdəki Kadet korpusunu bitirdikdən sonra Oryol şəhərində yerləşən əlli birinci Çerniqov draqun alayında xidmət etmiş, 1903-cü ildə Yeletsdəki əlli ikinci Necinski alayına dəyişdirilmişdir. 1905-ci ildə Port-Artur döyşlərində igidliklə həlak olan podpolkovnik Əliqulu Mirzə döyüş xidmətlərinə görə “Müqəddəs Stanislav” ordeni ilə təltif olunmuşdur. Bu barədə “Tərcüman” qəzeti 18 fevral 1905-ci il tarixli sayında yazırdı:

“Qızıl Xaç Cəmiyyətinin əlahəzrət himayəçisi Məlakə İmperator Mariya Fyodorovna Qızıl Xaç hesabına mərhum podpolkovnik, şahzadə Əliqulu Mirzə Qacarın cənazəsini Qafqaza, Yevlax stansiyasına qədər aparılmasını lazım bilmişdir”.

Uzaq Port-Arturda gedən ağır döyüşlərdə minlərlə əsgər və zabit həlak oldu. Onların hamısına öz doğma torpağında uyumaq qismət olmadı, Vətənində dəfn olunmaq şərəfi podpolkovnik Əliqulu Mirzə Qacara ona görə qismət oldu ki, o, şahzadə nəslindən idi. Yetmiş ildən çox sovetlərin tənqid atəşinə tutduğu imperator II Nikolay nufuzlu nəsillərə belə ehtiram göstərirdi.

1979-cu ildə doxsan iki yaşında Tiflisdə vəfat edən oğlu Şəmsəddin Mirzənin atası haqqında “O qayıdacaq” adlı xatirəsi qalmışdır. O yazır ki, hələ Oryolda olarkən hərbi-təlim məşqləri zamanı at sürməkdə, nişangahı dəqiq vurmaqda həmişə birinci prizlər alardı. Hərbçi dostları onu mahir atıcı kimi tərifləyəndə sakit təbiətli, az danışan atam elə-belə, yüngülvari gülümsünərdi. Müharibə başlayanda atam ön cəbhə üçün vacib olan əşyalarını yığışdırıb qabqardı. Anam Sitarə xanım həyəcanla:

- Əliqulu, - dedi, - sən də gedəcəksən? Axı həkimlər deyir ki, sənin ürəyin xəstədir, özün də müalicə olunursan, belə bir ürəklə cəbhəyə getmək, açıq-açığına ölümə getmək deməkdir.

Atam əsəbiliklə qalın qaşlarını yığışdırıb:

- İndi, - dedi, - o bərədə danışmaq vaxtı deyil. Xəstə adam gərək çoxdan istefaya çıxaydı. Bu saat geri dursam deyəcəklər ki, qorxdu, müharibəyə getməkdən...

- Axı sən xəstəsən, özü də ciddi...

- Boş şeydr, heç nə olmaz, - deyən atam hərbi çantasını qabqarmağı davam etdirdi. - Evdə əvəzimdə bu boyda kişi qalır, - atam mənim başımı tumarladı. Onda mənim on yaşım yenicə tamam olmuşdu.

Oğlunun və müasirlərinin yazdığına görə, podpolkovnik Əliqulu Mirzə Qacar fotoqrafiya sənətini gözəl bilirmiş. Təsadüfi deyil ki, onu haqlı olaraq Azərbaycanın ilk qeyri-professional fotoqrafı adlandırırlar. Bu gün Tiflis, Bakı, Peterburq arxivlərində Bəhmən Mirzənin ailə üzvlərinə məxsus fotoşəkillərin də müəllifi şübhəsiz ki, podpolkovnik Əliqulu Mirzə Qacar olmuşdur.

* * *

Bəhmən Mirzə Qacarın on beşdən çox oğlu İran və Rus ordularında hərbi xidmətdə olub. Onlardan yeddisi - Əmir Kazım Mirzə, Məhəmmədəli Mirzə, Səməd Mirzə, Mahmud Mirzə, Rzaqulu Mirzə, Əmənulla xan Mirzə və Feyzulla Mirzə general rütbəsinə qədər yüksəliblər. Səkkizi isə polkovnik idi: Şahruh Mirzə, Xosrov Mirzə, Xanbabaxan Mirzə, Nəsrulla Mirzə, Seyfulla Mirzə, Mənsur Mirzə, Əbdulsəmid Mirzə və Darab Mirzə.

Uzun axtarışlardan sonra müxtəlif arxivlərdən, ayrı-ayrı adamlardan onların iyirmi nəfərdən çoxunun fotoşəklini əldə edə bildim. Bəhmən Mirzənin isə o tay Azərbaycanın hakimi və baş komandanı olduğu vaxt çəkilmiş fotoşəklini Respublika Əlyazmalar İnstitutundan tapdım. Sədrəddin Mirzənin nəticəsi, M.Dadaşov adına Elmi-Tədqiqat Muhəndislər İnstitutunun əməkdaşı Yavuz Muradovdan ulu babası şahzadə Abbas Mirzənin əksini aldım.

İran ordusunda Avropa üsulunda islahatlar aparan baş komandan Abbas Mirzə öz dövrünün görkəmli sərkərdəsi olub. O, Rusiya-İran /1804-1823, 1826-1828/ və İran-Türkiyə /1821-1823/ müharibələrində İran ordusunun bir strukturuna komandanlıq edib.

Tarixən hərbçi olan Qacarlar nəsli hələ XVIII-X1X əsrlərdə görkəmli sərkərdələr yetişdirib. "Ağa Məhəmməd şah Qacarın qardaşı nəvəsi marağalı Məmmədhəsən xan Etimadüssəltənədir /1843-1896/. Otuzdan artıq tarixi əsərin müəllifi, alim, tərcüməçi və görkəmli dövlət xadimi olan Məhəmmədhəsən xanın nəslindən Nadir şahın Hindistana yürüşündə, Heratın mühasirəsində iştirak edərək igidlik göstərmiş hərbçilər olub. Məhəmmədhəsən xan Qacar səkkiz yaşındaTehranda yeni təsis edilmiş Darülfununa daxil olub, tarix, coğrafiya, tibb, həndəsə və s. elmlərlə yanaşı hərbi biliklərə yiyələnib və təhsil aldığı on iki il müddətində dörd medalla təltif olunub.

Məhəmmədhəsən xan Qacar hələ on doqquz yaşından süvari qoşun komandanı Əziz xanın yanında qulluq edib. Otuz il keçdikdən sonra həmin illəri xatırlayan Nəsrəddin şah general - yaveri haqqında demişdir ki, Etimadüssəltənə indiki mərtəbəyə özünün əla xidməti, düz işi və sədaqətinə görə çatıb.

On altı yaşlı Məhəmmədhəsən xan İranın Xuzistan və Luristan əyalətlərində alay komandiri kimi xidmət edib, on yeddi yaşında Şüştərin hakimi təyin olunub. Bir ildən sonra Tehrana çağırılan Məhəmmədhəsən xana Nəsrəddin şahın general - yaveri vəzifəsi tapşırılır. Sonralar üç il Parisdə İran Səfirliyinin ikinci katibi və hərbi attaşe kimi çalışır. Nəsrəddin şah onu Tehrana çağırıb ikinci dərəcəli "Şire-xorşid" ordeni ilə təltif edir və onu şəxsi mütərcimi vəzifəsində saxlayır.

Məhəmmədhəsən xan Qacar Fransa, Yaponiya, Osmanlı, Venesuela, Almaniya, Bavariya, İngiltərə, Belçika və Rusiya dövlətlərinin ordeni və medalları ilə təltif olunub. O, İranın ilk Dövlət Nəşriyyatı naziri olmuş, ömrünün axırınadək bu vəzifədə çalışmışdır. Dərin zəkaya və böük nüfüza malik bu şəxsə həsəd aparanlar çox olmuşdur. O, əlli üç yaşında düşmənləri tərəfindən zəhərlənib öldürülmüşdür" Tahirə Həsənzadə, "Qacarlar nəslindən soraq" məqaləsi, "Maarifçi" qəzeti, 30 iyul 1997-ci il/.

* * *

Bəhmən Mirzə Qacarın hərbçi oğulları draqun **/xüsusi süvari qoşun hissələri - Ş.N./** alaylarında leybqvardiya zabiti kimi rus və İran ordularında şərəflə xidmət etmişlər.

1884-cü ildə "Sın oteçestva" jurnalı /2.III-50/ yazırdı: "Şahzadə Bəhmən Mirzənin həddi-buluğa çatmış oğlanlarının bəziləri rus, bəziləri isə İran ordusunda hərbi xidmətdədirlər. Demək olar ki, bütün Qafqaz draqun alaylarında şahzadə Bəhmən Mirzənin ya oğlanları, ya da zabit qohumları var. Şahzadə Bəhmən Mirzənin oğlu Mahmud Mirzə keçmişdə Nijeqorod droqun alayında türk kompaniyasında ştabsrotmistr olmuşdur. Kompaniyanı qurtardıqdan sonra əmisi Məhəmməd şah onu İrana çağırır. Hazırda o, general rütbəsində İran leyb-qvardiyasına komandanlıq edir".

Bəzən arxivdən heç bir sənəd tapmayanda əl boyda şəklin arxasındakı iki-üç sətirlik avtoqraf da adamın köməyinə gəlir. Onda bizdən çox-çox uzaq illərdə yaşamış həmin avtoqrafı yazana qəlbinin dərinliklərində minnətdarlığını bildirirsən. Gözəl xətlə yazılmış aşağıdakı sətirləri oxuyanda şahzadə Şahruh Mirzənin ruhuna rəhmət oxudum: "Kazak polkunun leyb-qvardiya polkovniki şahzadə Şahruh Mirzədən Mələksimaya[16] dostluq hədiyyəsi. 16 may 1899-cu il, Tiflis şəhəri". Bir az aşağıda isə xırda hərflərlə belə yazılmışdı: "Şahzadə 1915-ci ildə Cəbrayılda vəfat etdi".

M.F.AXUNDOVUN QOHUMU

"Bir oğlumdan başqa bir də Nisə xanım adlı qızım vardır ki, şahzadə Bəhmən Mirzənin oğlu Xanbaba xana ərə vermişəm. Qızımın əri bizim imperatorun ordusunda xidmət edir, xoşəxlaq, savadlı, təmiz cavanlardan biridir. Günah işlərin və bəd əməllərin yanından belə ötməzdi. Mənim kimi o da mütləqa şərab içməz, həmişə Tiflisdə yaşayır. Öz evimdə ona bir neçə otaqdan ibarət mənzil ayırmışam. Qızımdan və həmin Xanbabaxandan iki nəvəm vardır".

Bu sətirlərin müəllifi böyük dramaturqumuz Mirzə Fətəli Axundovdur.

Araşdırmalardan məlum olur ki, 1851-ci ildə Tiflisdən Şuşaya keçən Bəhmən Mirzə, Axundovla dostluq əlaqəsini kəsməmiş, əksinə, onu daha da dərinləşdirib qan qohumluğuna kimi davam etdirmişdir.

M.F.Axundovun böyük qızı Seyrabəyim 1866-cı ildə Bəhmən Mirzənin oğlu Xanbaba xanla ailə qurur. Bu saf, ülvi izdivacdan iki övlad - Mələksima adlı qız və Mənsur Mirzə adlı oğul dünyaya gəlir. Altı il sonra - 1872-ci ildə Seyrabəyim vəfat edir. İki uşağın yetim qalması Mirzə Fətəliyə çox ağır təsir edir. Onların yad qapazı altına düşməməsi və sevimli kürəkəni Xanbaba xanın "xoşəxlaq, savadlı, təmiz

---

[16] Polkovnik Xanbaba xan Qacarın oğlu, M.F.Axundovun nəvəsidir. 1905-ci ilin sentyabrında ilk Zaqafqaziya müsəlman qadınlarının xeyriyyə cəmiyyəti onun evində təsis olunmuşdur. Milyonçu H.Z.Tağıyevin oğlu Ağasadıq Tağıyevin həyat yoldaşı idi. Mələksimanın Ağacadıqdan bir oğlu (Zeynal), iki qızı (Zərrintac вə Zeynəb) Sovet dövrünə qədər yaşamışlar. Zeynal babasının fabrikinin direktoru olmuşdur - müəl.

cavanlardan biri” olması xatirinə Mirzə Fətəli ikinci qızı Nisə xanımı da bir il sonra ona ərə verir.

M.F.Axundovun öz kürəkəni haqqında yazdığı tərif dolu sətirlər təkcə Xanbaba xana aid deyil. Bu işdə bir ata kimi Bəhmən Mirzənin da təlim-tərbiyəsi təsirli rolunu oynamışdır. Heç şübhəsiz ki, məhz şahzadə Bəhmən Mirzə kimi maarifçi, tarixşünas və sözübütöv kişilər belə oğul tərbiyə edə bilərdi. Sevindirici haldır ki, Bəhmən Mirzənin altmış üç övladının hamısı Xanbaba xan kimi təmiz əxlaqlı gənc olmuşdur. Əksəriyyəti hərbçi olan oğlanların heç biri nə dinlərini dəyişmiş, nə də dillərini unutmuşdur. Yuxarıda Şəmsəddin Mirzənin xatirəsindən sitat gətirmişdik. Orada müəlif yazır ki, Oryoldan atam Əliqulu Mirzənin cəbhəyə getmək söhbəti anamla Azəbaycanca olmuşdur. O vaxtlar zadəgan ailələrində fransız və rus dillərində danışmaq dəbdə olsa da, atam ailədə həmişə doğma Azərbaycan dilində danışardı.

Xanbaba xan Mirzə Qacarın hərbi fəaliyyəti haqqında əlimizdə çox az məlumat var. O, uzun illər orduda şərəflə xidmət etmiş, süvari polkovniki rütbəsinə qədər yüksəlmişdir. 1877-78-ci illər rus-türk müharibəsinin fəal iştirakçısı olan şahzadə Xanbaba xan Qacar qırx beşinci Şimal-draqun alayındakı döyüş qabiliyyətinə görə “Müqəddəs Stanislav” ordeninin ikinci və üçüncü dərəcəsilə /qılınc və bantla birgə/, “Müqəddəs Anna” ordeninin üçüncü dərəcəsilə və “Müqəddəs Vladimir” ordeninin üçüncü dərəcəsilə təltif olunmuşdur.

İmperatorun yüksək dərəcəli əmrinə əsasən Xanbaba xan və böyük qardaşı Şahrux Mirzə Qacar ali-həzrət titulunu da daşıyır, əlavə olaraq ildə altı yüz manat təminat da alırdılar.

M.F.Axundovun Rəşid bəyə yazdığı məktublarından hiss olunur ki, o, kürəkəni Xanbaba xanın cəbhədə göstərdiyi şücaətlə fəxr edirmiş. Böyük dramaturqun şəxsi arxivində onlarla məktubu, əlyazması qorunub saxlanılır. O vaxtlar Belçika məmləkətinin paytaxtı Brüssel şəhərində ali təhsil alan oğlu Rəşid bəyə yazdığı məktubların demək olar ki, əksəriyyətində Xanbaba xan hörmətlə xatırlanır.

Məktublarından birində Rəşid bəy Rusiya - Türkiyə müharibəsindən söhbət açır və Xanbaba xandan nigaran qalaraq “müharibənin gedişi haqqında mənə ətraflı yaz, ata. Xanbaba xan yenə sərhəddəmi vuruşur?” - sualına cavab istəyir.

Başqa bir məktubunda isə oxuyuruq:

“Siz Allah, Xanbaba xan haqqında məktubunuzda geniş yazın. Mənim səmimi salamlarımı Xanbaba xana, anama, bacıma, bizim əzizimiz Ağa Əli Əkbərə (**haqqında aşağıda bəhs olunacaq - Ş.N**.), dostumuz Kərbəlayi Lətif əmiyə yetirin. Balaca Mirzə Mənsuru və hələ üzünü görmədiyim Nisə xanımı öpün. Xanbaba xan ötən məktubunda yazmışdı ki, artıq Mirzə Mənsura əlifbaları öyrətmişəm... Bu, mənim üçün çox sevindirici bir xəbər oldu. Çalışaq ki, Mirzə Mənsur tam Avropa təhsili alsın...”

Mirzə Fətəlinin oğlu Rəşid bəyə məktubundan: “Keçən məktubda mən ananın fotoşəklini sənə göndərmişdim. İndi isə Xanbaba xanın, Nisə xanımın, Mansur Mirzənin və Mələksima xanımın şəkillərini göndərirəm. Mənim keçən məktubumda verdiyim suallara cavab yaz...”

Şahzadə Xanbaba xan Qacarın ilk oğlu Mənsur Mirzə də hərbçi olmuşdur. 1869-cu ildə Tiflisdə anadan olan Mənsur Mirzə ilk təhsilini klassik gimnaziyada almışdır. Yelizavetqrad süvari məktəbini kornet rütbəsində bitirən Mənsur Mirzə on səkkiz yaşından otuz yeddinci Tver-Draqun alayında xidmətə başlamışdır. 1905-ci ilə qədər həmin alayda xidmət etmiş və Kamin ili Port-Artur müharibəsinə könüllü getmişdir. Müharibədə o, iki ordenlə - ikinci dərəcəli "Müqəddəs Anna" /qılıncla birgə/ və "Müqəddəs Vladimir" ordenləri ilə təltif olunmuşdur. Port-Artur döyüşlərində yaralanan şahzadə Mənsur Mirzə bir müddət nizami orduda xidmət edə bilmir. Ona görə də Qafqaz hərbi Dairəsinin qərargahında çalışır.

Birinci Dünya müharibəsi başlananda şahzadə - polkovnik Mənsur Mirzə on ikinci Starobudov draqun alayının tərkibində döyüşə gedir. 1915-ci il iyunun 10-da Rudzviyan yaxınlığındakı döyüşlərdə üç eskadronla düşmənin hücum edən güclü qüvvələrinə qarşı əks - həmləyə keçir, özü kontuziya alsa da, döyüşdən çıxmır. Polkovnik Mənsur Mirzənin alayı süngü zərbəsilə düşməni Dnestr çayının sahillərinə kimi geri oturdur və tutulmuş səngərləri əldə saxlayır. Bu döyüşlərdə göstərdiyi igidliyə görə o, qızıl silahla təltif olunur. Müharibənin axırıncı ilində on ikinci Tver Qusar alayının komandiri olan Mənsur Mirzə inqilabdan sonra Bakıya qayıdır. Az müddət Milli Azərbaycan ordusunda xidmət edir. Aprel çevrilişindən sonra Respublika Xalq Komissarlığında mülki vəzifədə çalışır.

Şahzadə polkovnik Mənsur Mirzə Qacar 1931-ci il sentyabrın 26-da, altmış üç yaşında Bakıda vəfat edir.

* * *

Şahzadə polkovnik Xanbaba xan Qacar iki oğul (Mənsur Mirzə, Bəhmən Mirzə) və beş qızın (Mülkümə, Mahmənzər, Aliyə, Tubu və Mülkcahan) atası idi. O, ailənin ən kiçiyinə - 1894-cü ildə anadan olan oğluna atası Bəhmən Mirzənin adını qoymuşdu. Nəvə Bəhmən Mirzə ilk təhsilini ikinci klassik Tiflis gimnaziyasında almışdı. 1919-cu il dekabrın 24-də Azərbaycan hökuməti 150 nəfər gənci Rusiyanın ali təhsil ocaqlarına oxumağa göndərdi. Onların arasında Bəhmən Mirzə də vardı. O, Moskva Dağ Mühəndisləri İnstitutunun mexanika fakultəsinə qəbul olundu. Az müddət burada oxuyan Bəhmən Mirzə Peterburqdakı Texnologiya İnstitutuna dəyişdirilir. O, çoxsaylı Qacarlar nəslindən yeganə şəxsdir ki, Peterburqda təhsil alanda bolşeviklərə qoşulub gizli inqilabi iş aparıb. 1920-ci ildə aprel çevrilişindən sonra Azgrbaycana gəlib dövlət bankının komissarı və maliyyə komissarlığının üzvü olub. İki il Tiflis və Batumda işlədikdən sonra, 1922-ci ildə Marsel şəhərinə Zaqafqaziyanın ticarət üzrə sədri vəzifəsinə işə göndərilib. 1927-ci il sentyabrın 13-də plevrit xəstəliyindən vəfat edən Bəhmən Mirzənin cənazəsi Tiflisə gətirilərək ana babası Mirzə Fətəli Axundovun yanında dəfn olunur.

Mülki müşavir A.Q.Şerbinin Mirzə Fətəliyə 14 may 1877-ci il tarixli gizli məktubundan: "Bir az bundan əvvəl cənab Q.Qrimdən öyrəndiyim sevinc dolu xəbərlə Sizi təbrik etməyi özümə borc bilirəm. Çox şad oldum ki, şahzadə Rzaqulu Mirzə iki süvari alayına briqada

Komandiri[17] təyin olunub". Şahzadə Rzaqulu Mirzənin peterburqlu Mariya Vladimirovna Pollana 28 yanvar 1876-cı il tarixli məktubundan: "Mənim Qafqaz ordusuna göndərilməyim yəqin ki, Sizə məlumdur. Mən ayın 15-də Şuşadan İrəvana yola düşdüm. Əlahəzrət böyük knyaz Qafqaz canişininin əmrilə mən oraya təyin edilmişəm... Mənim Tiflisdə bir nəfər qohumum vardır. O, mənim sevimli qardaşım poruçik Xanbaba xanın qaynatası Mirzə Fətəli Axundovdur. Mən onu gözəl sifətlərinə görə səmimi qəlbdən sevirəm..."

Böyük dramaturqun şəxsi arxivində saxlanan məktubların əksəriyyətində Xanbaba xan belə səmimiyyətlə yad edilir.

Tiflisdə dərc olunan "Zarya Vostoka" qəzeti 1926-cı il nömrələrində iki gün /11, 12 noyabrda/ dalbadal onun ölümü haqqında nekroloq vermişdir:

"Uzun sürən ağır xəstəlikdən sonra Şahzadə Bəhmən Mirzənin oğlu, mərhum Mirzə Fətəli Axundovun kürəkəni polkovnik şahzadə Xanbaba xan Qacar noyabrın 9-da vəfat etdi. Cənazə Krılov küçəsindəki üç nömrəli evdən götürüləcək. Dəfn mərasimi bir nömrəli müsəlman qəbiristanlığında olacaq".

Polkovnik şahzadə Xanbaba xan Qacar 1849-cu ildə anadan olmuşdur.

* * *

Rəşid bəylə atası Mirzə Fətəlinin beş il davam edan yazışmalarında bir nəfərin də adı tez-tez hörmət və ehtiramla çəkilir, uzaq Brüsseldən ona səmimi salamlar göndərilir. Məktublarda belə ehtiramla yada düşən Ağəli Əkbər İsmayılov kimdir? Nəslin ağbirçəyi İzzət xanım Qayıbovanın saxladığı balaca bir yazı bu barədə ətraflı məlumat verir. Onu vaxtilə İzzət xanımın anası Ziba xanım Qayıbova ömrünün qürub çağını yaşayan Şəmsi Qacarın dilindən yazıya alıb. Burada Ağəli Əkbər İsmayılovun taleyi ilə yanaşı, Bəhmən Mirzə Qacarın övladları haqqında da məlumat verilir.

Aydın olur ki, Ağəli Əkbər İsmayılov əslən Şamaxı şəhərindəndir. Atasının ölümündən sonra üç manat pulla Tiflisə gəlir. O vaxtlar Tiflisdə ipəyə böyük ehtiyc vardı. Şamaxıya nisbətən ipək burda iki-üç dəfə baha satılırdı. Bunu öyrənən Ağəli Əkbər Şamaxıya qayıdır və gücü çatan qədər ipək götürüb payi-piyada Tiflisə gəlir.

Onun ikinci gəlişi daha uğurlu olur. Bu dəfə at alır və yenidən ipək dalınca Şamaxıya qayıdır. Beləliklə, o, yavaş-yavaş varlanır və keçmiş Vorontsov, indiki Qorqasali küçəsində müflisləmiş bir tacirdən mülk alır. Əlli beş nömrəli bu mülk Mirzə Fətəlinin yaşadığı əlli üç nömrəli evin qonşuluğunda yerləşirdi. Qısa vaxta onlar elə dostlaşırlar ki, hətta daha tez-tez görüşmək üçün daxili eyvana körpü salıb birləşdirirlər.

Babam bisavad idi və Mirzə Fətəlidən xahiş etmişdi ki, ona savad öyrətsin. O vaxtlar ərəb əlifbası işləndiyi üçün bu iş asan deyildi. Babamın dediyin görə, elə ikinci günü o, oxumağı öyrənib. Onun ticarət işləri çox yaxşı gedirdi. Evdən əlavə o, Qocorda bağ da alır, evlənir. Sonralar öz qızlarını - sənin nənəni, Sittarə xanımı,

[17]Çar ordusunda polkovniklə general arasında olan yüksək hərbi rütbə - müəl.

Gövhər xanımı və Fərruxa xalanı Zaqafqaziya Nücabə Qızlar İnstitutunda oxumağa qoyur. Böyük qızı - sənin nənən Gövhər xanım Qacar[18] institutu qurtarmır və Bəhmən Mirzənin oğlu general Əmir Kazım Mirzəyə ərə gedir. Qalan ikisi institutu qurtararaq Əmir Kazım Mirzənin subay qardaşlarına ərə gedir. Onlardan biri mənim atam Əliqulu Mirzə Hərbi xidmətdə idi və əvvəllər anamla Vladiqafqazda yaşayırdı. Sonra isə Oryol şəhərindəki Çerniqov alayına hərbi xidmətə keçir. Rus-yapon müharibəsinin əvvəllərində isə Niceqorodsk süvari alayında qulluq edir. Fərruxa xanım əri Xancahan xan Mirzə ilə yola getmədiyindən uşaqları ilə birgə anamın yanına qayıdır.

1903-cü ildə Ağəli Əkbərov İsmayılov qulluqçunun köməyi sayəsində evə yol tapan fanatiklərin əlilə öz evində öldürülür. Öldürülməsinin səbəbi çadranı atan qızlarının Zaqafqaziya Nücabə Qızlar İnstitutunda oxuması idi. Bu vaxta qədər Ağa Əkbər çox pul xərcləsə də, yenə də böyük məbləğdə vərəsəlik qoymuşdu. Ev Fərruxa xalaya qaldı. Bağlardan ən böyük sənin nənən Gövhər xanıma və qalan üç bağ da mənim anama çatdı. Sovetləşmədən sonra bağlar, mülklər müsadirə olundu...

İzzətxanım onu da dedi ki, Ağəli Əkbər İsmayılov 1991-ci il noyabrın 20-də təyyarə qəzasında həlak olmuş akademik Tofiq İsmayılovun ata babasıdır.

GENERAL ƏMİR KAZIM MİRZƏ QACAR

Şahzadə Bəhmən Mirzənin otuz bir oğlunun on beşindən çoxu hərbi qulluqda olmuşdur. Bəs Sovet hakimyyəti illərinə qədər sağ qalan bu oğlanların sonrakı taleyi necə olub?

Onların on beş nəfərinin Azərbaycan Demokratik Ordusunda xidmət etməsi barədə arxiv sənədlərində az-çox məlumat var: 1918-ci ildə polkovnik Xosrov Mirzə Qacar birinci Azərbaycan süvari alayının komandiri olmuşdur. Polkovnik Seyfulla Mirzə Qacar isə baş qərargahda intendant şöbəsinin rəisi idi.

Respublika Dövlət Arxivində saxlanan bu sənəddə deyilir ki, Gəncə üsyanında türk zabitləri və denikinçilər iştirak edirdilər. Üsyançıların artilleriya hissəsinə denikinçi polkovnik Nikolayev komandirlik edirdi. Üsyançıların başçılarından biri də keçmiş müsavat ordusunun zabiti Məhəmməd Mirzə Qacar idi.

Bundan sonra Qacarlar nəslinin faciəsi başlanmışdır. Şahzadə Bəhmən Mirzənin oğlu- general-mayor Əmir Kazım Mirzəni Gəncədə bolşeviklər öldürür. Nəvəsi, podpolkovnik Sədrəddin Mirzəni isə 1920-ci ilin iyununda iyirmi üç nəfər müsavat zabiti ilə birlikdə günahsız həbs edib Arxangelsk adasına sürgün edirlər. General-mayor Əmənulla xan Mirzə İrana köçüb, Tehranda yaşayır. Onların Tiflis və Şuşadakı mülkləri müsadirə olunur.

Azərbaycan hərb tarixinə, maarif və mədəniyyətinə görkəmli simalar bəxş etmiş bu ziyalı nəslin bir numayəndəsi ilə görüşə bildim. Respublika EA-nın

---

[18] Gövhər xanım Ağəli Əkbər qızı Ismayılova - Qacar /1862-1927/. 1905-ci ildə yaranmış "Zaqafqaziya müsəlman qadınları xeyriyyə cəmiyyəti "nin sədri olmuşdur - müəl

müxbir üzvü Çingiz Qacar da babalarından qalma nadir əlyazmaları, qiymətli fotoşəkillər və müxtəlif yadigarlar saxlanılır. Onlardan biri general-mayor Əmir Kazım Mirzə Qacara məxsusdur. Əmir Kazım Mirzə iyirmi beş il orduda qüsursuz xidmət etdiyinə görə üstündə tuncdan tökülmüş atlı fiquru olan stolustu saatla mukafatlandırılıb. Saatın üstündə "Əmir Kazım Mirzəyə əla xidmətinə görə" sözləri yazılıb. 44-cü Nijeqorod alayının marşını çalan saat indi də işləyir. Bu qiymətli hədiyyə general Əmir Kazım Mirzəyə 1898-ci il dekabrın 16-da verilib.

General Əmir Kazım Mirzə 1853-cü ildə Şuşada anadan olub. İlk təhsilini Tiflis klassik gimnaziyasında alıb, iyirmi yaşında isə Peterburqdakı Nikolayev süvari məktəbini bitirib. 1873-cü ildə kornet-zabiti Əmir Kazım hərbi xidmət üçün Qafqaz Əlahiddə ordusunun 44-cü Niyeqorod alayına göndərilib. İyirmi beş il bu alayda qüsursuz xidmət edən Əmir Kazım imperiyanın yüksək orden və medalları ilə təltif olunub.

1877-78-ci illərdə rus-türk müharibəsində onun xidməti dördüncü dərəcəli "Müqəddəs Anna" və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordenləri ilə mükafatlandırılmışdır. Ən yaxşı süvari zabitləri sırasında mayor Əmir Kazım Mirzə 1881-ci ildə imperator üçüncü Aleksandrın tacqoyma mərasimində iştirak etmişdir. Süvari polkovniki Əmir Kazım Mirzə 1895-ci ildə eskadron komandiri təyin olunur. Həmin ili o, Buxara əmirliyinin üçüncü dərəcəli "Parlayan ulduz" ordeni ilə mükafatlandırılır.

Ötən əsrin yetmişinci illərindən hərbi xidmətdə sürətlə irəliləyən igid zabit Əmir Kazım Mirzəni hökumət səxavətlə təltif etmişdir. O, 1879-cu ildə üçüncü dərəcəli "Müqəddəs Anna", ikinci dərəcəli "Müqəddəs Stanislav" /qılıncla birgə/, 1881-ci ildə ikinci dərəcəli "Müqəddəs Anna", altı il sonra üçüncü və dördüncü dərəcəli "Müqəddəs Vladimir", 1890-cı ildə isə İranın dördüncü dərəcəli məşhur "Şire-Xorşid" ordenləri ilə mükafatlandırılmışdır. Port-Artur döyüşlərində Amur-kazak süvari polkunun komandiri kimi vuruşmuşdur. Bu müharibədə ona döyüş şücaətlərinə görə polkovnik rütbəsi verilir və bir neçə orden, medalla təltif olunur. Əsrimizin ikinci ilində diviziya komandirinin birinci müavini kimi yüksək vəzifəyə təyin edilən polkovnik Əmir Kazım Mirzə 1910-cu ildə general-mayor rütbəsinə layiq görülmüşdür.

General şahzadə Əmir Kazım Mirzə təkcə hərbçi deyildi. O, xalqımızın maariflənməsində də yaxından iştirak etmiş, Tiflisdə və ayrı-ayrı qəzalarda ibtidai məktəblərin açılmasına maddi cəhətdən kömək göstərmiş və kasıb balalarını öz xərcinə oxutdurmuşdur. Onun ən böyük xidmətlərindən biri 1912-ci ildə Tiflisdə Azərbaycan dram cəmiyyətinin təsisi və tamaşa binasının açılmasında yaxından iştirakı olmuşdur. 1911-ci ildə M.F.Axundovun yüz illik yubileyi də general-mayor Əmir Kazım Mirzə Qacarın sədrliyi ilə keçmişdir.

1920-ci ilin iyun ayında daşnak-bolşevik ordusuna qarşı vuruşan general Əmir Kazım xan Qacar əsir düşmüş və Gəncə "ÇK"-sı Tuxareli tərəfindən qılıncla doğranmışdır.

GENERAL ƏMƏNULLA XAN QACAR

Qacarlar nəslinin daha bir general oğlu şahzadə Əmənulla xan Mirzə Qacar olmuşdur. O, qardaşı Əmir Kazımxandan doqquz yaş kiçik idi. Təəssüf ki, onun haqqında əlimizdə olan faktlar çox azdır. İnqilabdan əvvəl dərc olunan qəzetlər: "Kavkaz", "İrşad", "Əxtər" Əmənulla xanın hərb fəaliyyətindən qısa yazılar verib.

1862-ci il yanvarın 8-də Şuşada anadan olan şahzadə Əmənulla xan Mirzə Peterburqdakı hərbi kadet korpusunu bitirmişdir. On yeddi yaşında poruçik rütbəsi alan Əmənulla xan 1879-cu il iyulun 19-da xidmətə başlamış, doqquzuncu Kuban piyada-kazak batalyonunda komandir olmuşdur. 1900-cu il mayın 6-da nizami kazak batalyonundakı nümunəvi xidmətinə görə Əmənulla xan Bəhmən Mirzə oğluna yesaul /mayor/ rütbəsi verilmişdir.

Birinci Dünya müharibəsi illərində Avstriya cəbhəsində vuruşan igid süvari komandirin döyüş fəaliyyəti üçüncü dərəcəli "Müqəddəs Vladimir", ikinci dərəcəli "Müqəddəs Anna" və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordenlərinə layiq görülür.

1915-ci ildə üçüncü Kuban-kazak piyada divizionuna komandirlik edən Əmənulla xan Mirzəyə həmin il aprelin 25-də polkovnik rütbəsi verilir. Güclü döyüşlər zamanı ayağından ağır yaralanan Əmənulla xan arxa cəbhəyə göndərilsə də, hərbi fəaliyyətini dayandırmır.

Kuban kazak nizami hissələrindəki nümunəvi xidmətlərinə görə şahzadə Əmənulla xan Qacar 1917-ci ildə general-mayor kimi ali rütbə ilə təltif olunur.

Fevral-burjua inqilabından sonra Qafqaza qayıdan Əmənulla xan bir müddət Tiflisdə və Şuşada yaşamışdır.

1918-ci ildə Milli Ordumuz yaradılanda Azərbaycan Respublikası hərbi Nazirinin adına dekabrın birində belə bir raportla müraciət etmişdir:

"Respublika ordusuna böyük xeyir gətirmək arzumu nəzərə alaraq məni müvafiq bir işlə təmin etmənizi xahiş edirəm. Bununla yanaşı, Sizə məlum edirəm ki, mənim zabit kimi otuz beş illik fasiləsiz hərbi xidmətim və döyüş mövqelərində, bir də iştirakçısı olduğum rus-yapon və Birinci Dünya müharibələrində qazandığım döyüş təcrübəm var.

Azərbaycan Əlahiddə korpusunun siyahısında mənim təyin olunmam haqqında sənədlərim və şəxsi işim vardır. Xidmət kitabçam da adı çəkilən korpusun qərargahında saxlanılır.

HÖRMƏTLƏ,
GENERAL-MAYOR, ŞAHZADƏ
ƏMƏNULLA XAN MİRZƏ QACAR,
GƏNCƏ ŞƏHƏRİ"

General Əmənulla xan Qacar Xankəndində yerləşən Birinci süvari diviziyasının rəis müavini və qarnizon rəisi olmuşdur. O, 1920-ci il martın 21-də gecə qəfil basqın edən daşnak ordusuna qarşı döyüşlərdə mərdliklə vuruşmuşdur. Aprel çevrilişində bolşevik təzyiqinə dözməyən və bolşevik təhlükəsini əvvəlcədən hiss edən Əmənulla xan 1920-ci ildə İrana mühacirətə getmişdir. Tehranda yaşayan general-mayor Əmənulla xan Mirzə Qacar hərbi məktəbdə işləmiş, İran nizami ordusunun yaradılmasında yaxından iştirak etmişdir. İran Milli Məclisinin üzvü,

İran-Sovet dostluğu cəmiyyətinin sədri, general-mayor Əmənulla xan Mirzə Qacar 1937-ci ildə Tehranda vəfat etmişdir.

* * *

Qacarlar nəslinin on beşdən çox oğlu 1918-20-ci illərdə zabit kimi Milli Ordumuzda xidmət edib. Onların dörd nəfəri general idi: ŞAHZADƏ ƏMİR KAZIM MİRZƏ QACAR, ƏMƏNULLA MİRZƏ QACAR, FEYZULLA MİRZƏ QACAR və MƏhƏMMƏD MİRZƏ QACAR. Qardaşların hərbi nazir Səməd bəy Mehmandarovun adına yazdığı ərizələr Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində saxlanılır. General Əmir Kazım Mirzə Qacarın 1918-ci il dekabrın 1-də vətənpərvər ruhda yazdığı ərizədə onun ömür yolunun indiyədək açılmayan səhifələri də var:

"ƏLAHƏZRƏT YOLDAŞ
HƏRBİ NAZİRƏ

Hörmətli cənab Səməd bəy, təəssüflər olsun ki, Bakıya gəlib Siz Əlahəzrətlərinə xahişimi çatdıra bilmədim. Bunun da səbəbi hərbi Nazirliyin Gəncəyə köçürülməsi oldu.

Sizinlə görüşə bilmədiyimə çox təəssüf etdim. Bakıyə gəlib Sizi tapa bilmədim, çünki Siz xidməti işlərinizlə əlaqədar şəhərdən müvəqqəti getmişdiniz. Oğlumun və qızımın xəstəliyi haqqında evdən teleqrama almışam, Tiflis şəhərinə qayıdıram. İcazənizlə Sizə yazılı surətdə müraciət edirəm və bundan əlavə raport da yazmışam.

Mən otuz dörd il hərbi xidmətdə olmuşam. Və iki hərbi kompaniyada iştirak etmişəm: 1877-78-ci illərdə rus-türk müharibəsində və rus-yapon müharibəsində. Öz xahişimlə cəbhəyə göndərilmişəm və döyüşlərdə podpolkovnik rütbəsində iştirak etmişəm. Bir neçə döyüş təltifatı alandan sonra polkovnik rütbəsinə layiq görülmüşəm.

Xidmət etdiyim müddətdə qoşun hissələrinin iki tədris kursunu bitirmişəm: Qafqaz süvari tədris rotasının və ikinci süvari zabit məktəbinin kurslarını. Hər iki kursu da birincilər sırasında, mükafatla.

Az müddət istefada olsam da, hərbi ruhda tərbiyə almış, həmişə də hərbi işlə maraqlanmış və hərbi ədəbiyyatı izləmişəm. Məhz buna görə də hərbi qulluğun müasir tələblərinə uyğun olaraq xidmət borclarını icra etmək bacarığına və lazımi qədər fiziki qüvvəyə malik olduğumu hiss edirəm.

Qərargahın Azərbaycan korpusuna təqdim etdiyim xidmət dəftərçəmdə keçdiyim hərbi xidmət haqqında tam məlumat almaq olar.

Zati-aliləri, Vətənin keçdiyi bu ağır vaxtda öz xalqıma xeyir vermək məqsədilə, bu, həm də mənim ailəmin zəifləmiş iqtisadi vəziyyətinin yaxşılaşmasına səbəb olardı.

Xahiş edirəm, Azərbaycanın hər hansı hərbi idarəsində mənə general vəzifəsindən birini /nəzarət generalı və ya məiyyət generalı/ və yaxud Sizin məsləhət gördüyünüz vəzifəni həvalə edəsiniz,

Sizin mənim haqqımda xeyirxah qərarınızı gözləyən bəndəniz GENERAL-MAYOR ŞAHZADƏ ƏMİR KAZIM MİRZƏ QACAR".

1919-cu il uylun 9-da Azərbaycan ordusunda əla xidmətlərinə görə birinci artilleriya briqadasının komandanı, polkovnik şahzadə Məhəmməd Mirzə Qacara general-mayor rütbəsi verilmişdir. O, Baş Artilleriya İdarəsinin rəisi vəzifəsinə təyin olunmuşdur.

Həmin illərin arxiv sənədləri ilə tanış olanda görürsən ki, polkovnik Sədrəddin Mirzə Qacar, rotmistr Rzaqulu Mirzə Qacar, Şuşada ikinci sahə pristavı Ərdəşir Qacar, kornet İdris ağa Qacar, Firudin bəy Mirzə Qacar, kornet Darab Mirzə Qacar və başqaları həmişə ön cəbhələrdə erməni daşnaklarına qarşı igidliklə vuruşmuşlar.

Qarabağ uğrunda gedən döyüşlərdə danılmaz xidmətləri olan şahzadə-general Məhəmməd Mirzə Qacar 1920-ci il yanvarın 24-də Baş Qərargah rəisi, general-leytenant Məmməd bəy Supkeviçə həyəcanla bildirirdi:

"Xəbər verirəm ki, Qarabağ qubernatorluğunda ermənilər tərəfindən çox ciddi, demək olar ki, faciəli vəziyyət yaradılmışdır. Çox böyük və ciddi qüvvə lazımdır. Xankəndi qarnizonunun dəstə rəisini dəyişmək olmaz, əks halda yerli ermənilər Əskəran va Şuşanı tuta bilərlər. Ermənilər haqqında qəti tədbirlər görmək lazımdır".

Çox təəssüf ki, milli ordumuzda qulluq edən Qacarlar nəslinin çoxsaylı oğullarının həyatı faciə ilə bitmişdir. İyirminci ildə Azərbaycana soxulan daşnak-bolşevik ordusunun rəhbərləri onların əksəriyyətini ölkədən didərgin salmış və güllələmişlər. General-mayor Əmənulla xan İrana, polkovnik Xosrov Mirzə Türkiyəyə, kornet Darab Mirzə Amerikaya, Tofiq və Ənuşirəvan Mirzə qardaşları isə Fransaya pənah apardılar. Üç yüksək rütbəli Qacar oğullarını - general Əmir Kazım xanı, polkovnik Sədrəddin Mirzəni və Məmməd Mirzəni bolşeviklər iyirminci ilin iyun ayında güllələdilər.

* * *

Sənətşünas Ziyadxan Əliyevin incəsənət tariximizdən bəs edən yazılarını maraqla oxuyuram. Hər dəfə görüşəndə özümüzdən asılı olmayaraq xeyli "dərdləşirik", tapıntılarımız haqqında bir-birimizə məlumat veririk. Özümüzdən asılı olmayaraq, elə küçədə görüşdüyümüz yerdə yeni mövzularımız haqqında fikir mübadiləsi aparmaq həmişə ümumi işimizin xeyrinə olub. Bu dəfə də belə oldu. Ziyadxan söhbətarası dedi:

- Sən gərək ki, Qacarlarla maraqlanırsan? Eşitdiyimə görə onlardan nəsə yazmaq istəyirsən?

- Hə, - dedim, - yazıram, amma oktyabr inqilabı, otuz yeddinci il Qacarları elə pərən-pərən salıb ki, bu nəslin ən yaxın adamını tapa bilmirəm.

Dostum məni diqqətlə dinləyib bir an fikrə getdi. Mən gözlərimi ondan çəkmirdim ki, tanımadığım məlumatlı bir adamı nişan verəcək. Çünki dostumun bu məsələlərdə son dərəcə əliaçıq olmasına bələdəm.

O, əlini cibinə salıb dəftərçəsini çıxartdı. İstədiyi səyifəni tapıb:

- Bu günlərdə - dedi, - bizim İncəsənət Muzeyinə bir ana gəlmişdi. Sözün düzü, Qacar familiyasını eşidəndə səni xatırladım. Telefonunu da yazıb götürmüşəm. Görüşsən yaxşı olar, bəlkə Mahrux xanım Qacarın sənə köməyi dəydi.

Həmin gün Mahrux xanıma zəng elədim. Polkovnik Şahrux Mirzə Qacarın nəvəsi olduğunu söylədi. Qacarların bu gün bizim müasirimiz olan bəzi məşhur nəsillərlə qohumluq əlaqələri barədə dəyərli məlumatları ilk dəfə Mahrux xanımdan eşitdim. Görüşmək istəyimə məmnuniyyətlə razılıq verdi.

Astanadan içəri keçəndə Mahrux xanım məni iki yaraşıqlı gənclə tanış etdi. Bir nənə kimi Kamran Qacarla və Darab Mirzə ilə fəxr etdiyini iftixarla söylədi. Davranışından, danışığından da duydum ki, bu nəvələr tərifəlayiqdirlər. Müxtəlif arxivlərdən Qacarlara aid topladığım fotoşəkillərə birgə baxırıq. Bizimlə birgə əyləşən sakit təbiətli iki gənclə fotoşəkildəki Qacarların oxşarlığına söz ola bilməz. Bu mehriban, iltifatlı ana isə dönə-dönə mənə təşəkkür edir ki, unudulmuş nəslimizin oğulları haqqında bu qədər şəkil və sənəd toplaya bilmişəm.

Mahrux xanım doğrudan da öz nəsli haqqında çox şey bilir. Hətta babaları barədə hələ qurtarmadığım yazıdan bir səhv də tapdı.

Babam Şahrux Mirzə, - dedi, - 1909-cu ildə Şuşada yox, 1915-ci ildə Cəbrayıl qəzasında vəfat edib, qəbri indi də ordadır. Şahzadə olduğuna və uzun müddət ordudakı nümunəvi xidmətinə görə istefaya çıxan babama Cəbrayıl qəzası Qafqaz canişini tərəfindən hədiyyə olub. Babamın dörd oğlu, üç qızı olub. Kamran Mirzə, Camal Mirzə, Darab Mirzə və Qəhrəman Mirzə. Qızları isə Fəxrisoltan, Tacülmülk və Nimtac xanım idi.

Mən Kamran Mirzənin qızıyam. Atam doqquz il Uçkilsənin /Eçmiadzin/ bələdiyyə rəisi olub. Əmim Darab Mirzə hərbçi idi: Peterburqda zadəgan balalarına məxsus hərbi kadet korpusunu bitirmişdir. Tiflisdə işləyirdi.

- Mahrux xanım, aradan uzun bir zaman keçib. Siz çox illərin, hadisələrin şahidi olmusunuz. Xatirə dəftərinizə baxıram, maşallah, yadınızda çox şey qalıb. Şəxsiyyətlər, illər, bir də qeydləriniz maraqlıdır.

- Düz deyirsiniz, yaddaşımdan şikayətim yoxdur. Uşaqlığımdan yaddaşıma həkk olunan 1918-ci ilin yayıdır. Cəbrayılda yaşayırdıq. Atam Kamran Mirzə xidməti işi ilə əlaqədar Şuşaya getmişdi. O, Cəbrayıl qəzasının pristavı idi. Evdə anam, nənəm, Fərruxa bəyim və nökər-naiblər qalmışdı. Günortaya az qalmış şəhərin iki ağsaqqalı - Məşədi Sadıq və Məşədi İsmayıl əli Quranlı bizə gəldilər. Dedilər ki, Nuru paşa bir azdan şəhərimizə təşrif gətirəcək. Şəhər camaatı belə qərara gəlib ki, Cəbrayılda ən varlı, abırlı ev sizinki olduğu üçün general Nuru paşanı qəbul edəsiniz. Baxmayaraqki, ağa evdə yoxdur...

Şəhərin alaqapısı bəzənmişdi. Xalq Nuru paşanı tantənə ilə qarşıladı. O, otuz iki nəfərlik peçati ilə üç gün bizdə qonaq qaldı. Gedən günü anamın, nənəmin hüzuruna gəlib təşəkkür etdi. Nuru paşa məni qucağına alıb alnımdan öpdü,

boynuma qızıl Quran keçirdi. Yavəri stolun üstünə bir dəst pul qoyanda anam etiraz etdi. Götürmədi:

- Paşa həzrətləri, - dedi, - Siz bizim xalqın xilaskarısınız, inciməyin, paraya ehtiyacımız yoxdur. Təəssüf ki, evin ağası burada olmadı. Yəqin ki, o, Sizə Qarabağ kəhəri bağışlardı. Amma bir bacı kimi mənim kiçik töhfəmdən imtina etməyin, faytonunuza bir xalça qoydurmuşam...

1920-ci ildə olan bir hadisəni də yaxşı xatırlayıram. Bolşeviklərin gələn vaxtı idi. Anam, nənəm və nökər-naiblərlə səkkiz araba yüklə Cəbrayıldan Horadizə qaçdıq. Atamgil bolşeviklərlə vuruşurdu. Əmim Darab Mirzə İranda idi, ordan atama xəbər göndərmişdi ki, kitabxanamı bolşeviklərdən xilas edin. Bolşevik əsgərləri bizi Horadizdə yaxaladılar. Arabaları boşaltdırdılar. Babamın qızıl şaşkasını, atamın üstü daş-qaşla bəzənmiş xəncərini və əmlakını aldılar. Əmim Darab Mirzə anadan olmağım münasibətilə Peterburqdan mənə üstü naxışlı, qotazlı, cilalanmış iki boz atla fayton göndərmişdi. Onu da bolşeviklər aldılar. Mən ağlamadım. Amma ayrıca bir faytona yüklənmiş ailə foto albomunu, babam Bəhmən Mirzənin əlyazmalarını, əmimin kitablarını ortalığa töküb yandıranda hönkür-hönkür ağladım. Mənim orda faytonçumuzla, dayəmlə, anam və atamla, ən başlıcası bir daha qayıtmayacaq faytonumda çəkilmiş şəkillərim yanırdı. Daşnak dığalarının və şişpapaq bolşeviklərin bağıra-bağıra odun dörd tərəfində oynamaqları indidə gözümün qabağındadır.

- Mahrux xanım, aprel çevrilişindən sonra çoxsaylı Qacarların başı bəlalar çəkib. Tutulanı, sürgün olunanı, terrorla öldürüləni, bolşevik təzyiqinə dözməyib xaricə qaçanları çox olub. Bəs otuz yeddinin bəd illərində necə, Sizin ailəyə təzyiq olubmu?

- 1935-ci ilin payızında mənim adıma NKV-dən xüsusi çağırış vərəqəsi gəldi. Anamla quruyub qaldıq, çox ağır çağırış idi. Bunun arxasında gedər-gəlməz faciəsi dururdu. Səbrli, dəyanətli anam mənə hazırlıq gördü: isti paltar, yüngülvari yemək şeyləri hazırladı. Evimizdə başıpapaqlı bir kişi belə qalmamışdı.

Səhər saat səkkizdə xüsusi şöbəyə qəbula getdim. Məni axşam saat səkkizə kimi komendaturada gözlətdilər. Saat səkkizdə silahlı bir nəfər gəlib "yığış gedək", - dedi. Məni yarıqaranlıq bir dəhlizlə zəif işıqlı bir otağa gətirdi. Rəis saqqallı bir erməni idi. Qarşıma dörd fotoşəkil qoydu: atamın, əmim Darabın, Camalın və Qəhrəman Mirzə Qacarın şəkilləri idi.

- Bunları tanıyırsanmı? - dedi. Bilmədim nə deyim. Necə deyim ki, atamı, əmilərimi tanımıram. Nifrət və qeyrət hissi mənə güc gəldi. Niyə də danım, deyə fikirləşdim. Bir-bir adlarını dedim. Sonra qarşıma dörd-beş vərəqdə yazılmış bir siyahı qoydu.

- Bunları, - dedi, əmin Darab Mirzə sənə vəsiyyt eləyib: İrandakı duz dağını, əmlakını və külli miqdarda pul və qızılını...

Əmimin övladı yox idi, ona görə də varidatını mənə vəsiyyət eləmişdi. Saqqallı rəis:

- Get, - dedi, - evdə məsləhət elə, götürün...

- Məsləhət yerim yoxdur, - dedim, bu qədər var-dövlət nəyimə lazımdı, bağışlayıram Sovet hökumətinə...

Cavabımdan xoşu gələn rəis:

- Yox yerdən, - dedi, - şahzadə nəvəsi deyilsən, ağıllısan, buna söz yox... İndi gedə bilərsən.

Gedər-gəlməz sürgünündən məni "səxavətim" xilas elədi.

- Mahrux xanım, Azərbaycanda bir çox məşhur nəsillər olub. Qacarlar onların hansı ilə qohum idi?

- Elə bir ziyalı nəsil yoxdu ki, bizim Qacarlar onlarla qohum olmasın. Nəslimizin nümayəndəsi neftçi Süleyman bəy Vəzirov zarafatla deyərdi ki, qarpızı da kəsirsən, içindən tum əvəzinə Qacar çıxır. Mənim bildiyimə görə, məşhur şairə Xurşud banu Natəvanın nəvəsi Ənbər xanım Bəhmən Mirzənin oğlu Fətəli Mirzənin arvadı olub. Yenə Natəvanın nəvəsi Ağbikə /**general-mayor Mehdiquluxan Vəfanın qızı-Ş.N**./isə general Rzaqulu Mirzənin oğlu Əkbər Mirzə Qacarda ərdə olub.

Bəhmən Mirzənin böyük qızı Qızxanım, Məhəmməd Qasım ara Cavanşirin arvadı idi. İkinci qızı Zari xanım isə məşhur tibb alimi Kərim bəy Mehmandarovun həyat yoldaşı olub. Onun da nəvəsi məşhur neftçi-alim Süleyman Vəzirov idi. Xurşid xanım Qacar isə məşhur alimpedaqoq, Qori Seminariyasının müəllimi Səfərəli bəy Vəlibəyovun arvadı idi..

Heydərqulu Mirzə Qacarın qızı Rəhimə xanım məşhur maarifçi Bədəlbəy Bədəlbəyovun həyat yoldaşı idi. Onların da oğlanları Əfrasiyab və Şəmsi Bədəlbəylilərdir.

Kazım Mirzənin oğlu Darab Mirzə, yəni mənim doğma əmim Amerikada mühacirətdə olanda məşhur bir fransız ailəsinin qızı ilə evlənib. Onun da qızı hazırda xaricdə yaşayır. Qacar soyadı ilə.

- Məlum məsələdir ki, aradan yüz ildən çox bir vaxt keçir. Çox sağ olun ki, Qacarlar sülaləsi haqqında bəzi faktları açıqlamaqda mənə yaxından kömək etdiniz. Mahrux xanım, bunları kimdən, hansı mənbədən öyrənmisiniz?

- Əvvəla, mən bütün bunları özümə borc bilirəm. Və belə düşünürəm ki, hər kəs öz nəslinin, öz xalqının tarixini bacardığı qədər öyrənməlidir. Yoxsa biz quru yerdə qalarıq. Bunu mən balalarıma, nəvələrimə tövsiyə edirəm.

Sonrası da ulu babam Bəhmən Mirzənin sonuncu - on altıncı arvadı Afərin xanım uşaq vaxtı mənə çox şeylər danışıb. O, yüz altı yaşında Bakıda vəfat etdi. Nəql edərdiki. Bəhmən Mirzə Şuşaya köçəndən sonra şəhər əhalisi ilə daha yaxın olmaq üçün bir qəssabın Püstə adlı qızına evlənir. Lakin Püstə adı şahzadəyə layiq olmadığına görə dəyişib Afərin xanım edir. Nəslimiz haqqında çox şeyləri mənə anam Mahbəyim xanım da danışıb. O, Tiflisdə gimnazyda oxumuşdu, dörddil bilirdi: fars, ingilis, Azərbaycan və rus dillərində sərbəst danışar və yazıb oxuyardı. Mənim ali təhsilli həkim olmağımın səbəbkarı da anam olub.

Bir Faruq bəyim adlı bibim vardı. O, müdriklər müdriki idi. Əvvəlcə Tiflisdə Qızlar İnstitutunu, sonra da Peterburqda Xarici Dillər Ali Kurslarını bitirmişdi. 1920-ci ildə Faruq bəyim Qacar Tiflisdəki Şeyx Nizami adına müsəlman ali ibtidai məktəbində nəğmə və fransız dili müəllimi idi. Ondan da çox şeyləri öyrənmişəm, görüb-götürmüşəm.

- Sizdə ulu babanız şahzadə Bəhmən Mirzə Qacarın bir yadigarı varmı?

- Var. Bir nəticə kimi onları əzizləyib saxlayırdım. Amma bəzi qiymətli yadigarlarını Azərbaycan Tarix Muzeyinə vermişəm. Ötən əsrin fransız səyyah-

rəssamının çəkdiyi "Şahənşahi İran-ibni səltənəti Azərbaycan" portretini muzeyə təqdim etmişəm. Portretdə babam şahzadə Bəhmən Mirzə Qacar təsvir olunub. Sonra babamın xəzinəsindən çıxan qızıl sapla tikilmiş süzənini, kəşkülü, tirmə şalı, əbrə şalı və başqa hədiyyələri muzeyə hədiyyə elədim ki, qoy xalqın malı olsun, xalq görsün.

Vidalaşdım Mahrux xanımla. Yol boyu nələr düşündüyümü təsəvvür eləmək çətindir. Bütün varlığımla bu səmimi, ziyalı anaya minnətdar oldum ki, xələf kimi adlı-sanlı sələflərinin bioqrafiyasını gələcək nəsil üçün yaşadır. Amma bir şeyi də acı təəssüf hissi ilə xatırladım. Xatırladım ki, Dikkens, Viktor Hüqo, Fydor Dostoyevski kimi klassiklər səfillərin, qumarbazların həyatını yazırdılar. Leskov qaraçıların həyatını öyrənmək üçün on ildən çox qaraçılarla gəzib dolaşdı, vardan yoxdan çıxdı. Axırda dədə-baba mülkünü də satdı. Maksim Qorki bir qarnı ac, bir qarnı tox Rusiyanın geniş çöllərini dolaşıb rus muciklərinin həyatını öyrənib onları qələmə aldı. Amma biz xalqımızın hərb, mədəniyyət, maarif tarixində danılmaz xidmətləri olan ayrı-ayrı nəsillərimizin bioqrafiyasını yazmağı indiyədək düşünməmişik. Düşünməmişik ki, soykökündün ayrılmaq öz tarixindən uzaqlaşmaq, özünü tanımamaq deməkdir. Bu, Qacarlar soykökünün yox, Azərbaycan tarixinin bir səhifəsidir.

Bu famili daşıyan oğullar, qəvi düşmən torpağımıza göz dikəndə qılıncını qurşayıb, kəhər atına sıçrayıb harayımıza gəlib, köməyimizə çatıb. Tariximizin dərin qatlarından gələn bir səs deyir ki, bu soykökün Şahverdi xan Ziyadoğlu /1552-ci illərdə yaşayıb/, İmamquluxan Qacar, Budaq xan Qacar, Qara Piri bəy Qacar, Fətali şah, Abbas Mirzə, Ağa Məhəmməd şah Qacar, Cavad xan Ziyadxanoğlu kimi igidləri olub. Bütün fəaliyytəri boyu istər Abbas Mirzə, istərsə də Cavad xan ruslarla muharibələr aparıb, ruslara düşmən kəsilib. Cavad xan Gəncə uğrunda döyüşlərdə igidliklə həlak olandan sonra Qafqazda gürcü korpusunun komandanı təyin edilən general-markiz Filipp Pualiççi 1812-ci il fevralın 20-də öz rəqibi şahzadə Abbas Mirzəyə belə bir məktub göndərmişdir:

"Gürcüstanı və ona bitişik vilayətləri idarə etməyə başlarkən mən Yelizavetpolda /Gəncədə - red./ mərhum Cavad xanın qohum-əqrəbasına rast gəldim. Öz vətəninə layiqincə xidmət edən adamları sevdiyim üçün Cavad xana haqq qazandırıram. O, şəhəri müdafiə edərək, qəhrəmanlıqla həlak olmuşdur. Mənim Cavad xana olan dərin hisslərimi və xüsusi hörmətimi nəzərə alaraq onun nəslindən olanların hamısına azadlıq verdim ki, İrana köçsünlər".

XIX əsrin məşhur hərb tarixçisi, tam artilleriya generalı, akademik Nikolay Dubrovin ömrü boyu Qafqaz və Krım müharibələrinin tədqiqatı iləməşğul olub. Bu mövzularda silsilə əsərlər müəllifidir. O yazır:

"Cavad xan son dərəcə fəndgir və qisasçı, həmçinin ağıllı, hazırcavab və sərt, sözü ötən, çevik, siyasətçi, hər məqamda çətin vəziyyətdən çıxmağı bacaran bir şəxsiyyət idi".

Bu, iki eloğlu sərkərdəmizin mərdliyi haqqında düşmən etirafı deyilmi?

Bizim isə bunları unutmağımız, yazmamağımız ən azı milli-xəlqi ətalətimizdir...

QACARLAR NƏSLİNDƏN

OLAN ŞAHLAR

1. AĞA MƏNƏMMƏD ŞAH QACAR (təv. 1742-1797, şahlığı: 1796-1797)
2**. FƏTƏLİ ŞAH QACAR** (təv. 1766-1834, şahlığı: 1797-1834)
3**. MƏHƏMMƏD ŞAH QACAR** (təv: 1807-1848, şahlığı: 1834-1848)
4**. NƏSRƏDDİN ŞAH QACAR** (təv. 1831-1896, şahlığı: 1848-1896)
5**. MÜZƏFƏRƏDDİN ŞAH NƏSRƏDDİN OĞLU QACAR**
(təv. 1853-1907, şahlığı: 1896-1909)
6**. MƏNƏMMƏD ŞAH MÜZƏFƏRƏDDİN OĞLU QACAR**
(təv. 1872-1925, şahlığı: 1907-1909)
7**. ƏHMƏD ŞAh QACAR** (təv. 1897-1925, şahlığı: 1909-1925).

ŞAHZADƏ XOSROV MİRZƏ QACAR

Qriboyedovun Tehranda qurbani - cəhalət olması münasibətilə barayi üzrxahi Peterburqa qədər getmiş Xosrov Mirzədir ki, bu hərəkəti ilə Fətəli şahı ruslarla bir üçüncü hərb balasından xilas etmişdir.

Əlibəy HÜSEYNZADƏ,
professor.

"Qacar sulaləsinin sərkərdələri" adlı yazımı yenicə bitirmişdim. Amma nədənsə, onu dərc etdirməyə tələsmirdim. Hər axşam işdən qayıdanda yazını yenidən vərəqləyir, elə-belə oxuyurdum. Daxili bir hiss mənə deyirdi ki, yazı bitməyib. Belə köklü-budaqlı nəslin hələ təqiq olunmamış çox oğulları var. Günlərin birində yolumu yenə Əlyazmalar İnstitutunun arxivindən saldım. Əslində, bu, ümidsiz bir gəliş idi. Harada, nəyi axtarmaq haqqında xeyli düşünüb-daşındım. Belə qərara gəldim ki, foto-arxivdən başlayım. Fotoşəkillərin muhafizə olunduğu kartotekaları bir gün axşama kimi ələk-vələk elədim. Lap sonuncuların arasında şahzadə Xosrov Mirzəyə məxsus fotoşəkil olduğu göstərilirdi. Şəkli sifariş verib evə qayıtdım. Səhərisi onu sənətkar dostum Seyfəddindən aldım. Yaraşıqlı cavanın təsvir olunduğu şəklin altında fars və ingilis dilində yazı vardı: "Şahzadə Xosrov Mirzə Qacar". Akvarellə çəkilmiş bu nadir şəkil çox yaxşı saxlanmışdı. Yaraşıqlı cavan gözəl geyimdə o qədər məharətlə təsvir olunmuşdu ki, adam baxdıqca baxırdı.

Uzun axtarışlardan sonra öyrənə bildim ki, akvarel-şəkli 1829-cu il avqustun 12-də məşhur rus rəssamı Pyotr Karatıgin Peterburqda çəkib. Şahzadə Xosrov Mirzə bunun üçün rəssama qızıl tütün qutusu bağışlayıb. Bu barədə rəssam İvan Kramskoyun məşhur messenat Pavel Tretyakova məktubunda məlumat var.

Vəlihəd Abbas Mirzənin yeddinci oğlu şahzadə Xosrov Mirzə, Bəhmən Mirzənin böyük qardaşıdır. Peterburqun kübar cəmiyyətinin dvoryan qadınları və

qrafları xatirələrində qeyd edirlər ki, I Nikolay dövründə belə hörmətlə qarşılanan ikinci şərq qonağı olmayıb. A.S.Puşkinin müasirləri, yaxın dostu qrafika Anna Olenina 1829-cu ildə gündəliyində yazır: "Avqustun onunda şahzadə Abbas Mirzənin oğlu, İran şahzadəsi Xosrov Mirzə Peterburqa gəldi. Mən sarayda onun təntənəli qəbulunda oldum. Şahzadə çox cavan və hədsiz dərəcədə gözəl bir igid idi".

İyirmi üç yaşlı şahzadənin gözəlliyinə valeh olan A.Olenina həmin il avqustun on yeddisində gündəliyində yazır ki, qraf Potoskinin sarayında şahzadənin şərəfinə böyük bal-ziyafət təşkil olundu. Mən qeyri-adi, rəng - bərəng geyimimlə şahzadəni və onun heyətini valeh etmişdim...

Şərq kişilərinə məxsus hədsiz gözəlliyi olan şahzadə Xosrov Mirzə rus qrafinyasının varlığını ovlamışdır. Gündəlikdəki tərif dolu sətirləri oxuyanda istər-istəməz A.S.Puşkinin anası Nadejda Osipovnanın 1834-cü ildə Abbasqulu ağa Bakıxanov haqqında yazdığı məktublar yada düşür. Bakıxanov da Peterburqun zadəgan cəmiyyətinin qraf və qrafinyalarını özünün yüksək savadı, gözəl davranışı, yaraşıqlı qaməti ilə heyran qoymuşdu.

Nadejda Osipovna Varşavada yaşayan qızı Olqaya yazırdı: "Abbasqulu ağa sənin məktubunu almağımızdan bir neçə saat sonra gəlib özünü bizə təqdim etdi: nə qədər gözəl adamdır, elə yaxşı müsahibdir ki... Onun davranış ədalarını çox sevirəm, ondan son dərəcə xoşum gəlir. Onu bizə göndərdiyin üçün sənə təşəkkür edirəm...

...Abbasqulu ağa bizdə nahar edir. O, elə mehriban, gülərüz və xeyirxah adamdır ki, sanki biz onunla köhnə dostlarıq. ... Abbasqulu ağa çox nəzakətlə bizimlə vidalaşdı. O, məni bir neçə dəfə qucaqladı... Mən onu səmimi qəlbdən sevirəm. O, həqiqətən çox yaraşıqlı və şübhəsiz, sənin bizə təsvir etdiyin kimidir. Mən onunla birlikdə olanda özümü çox sərbəst hiss edirdim".

Milliyyətcə azərbaycanlı olan İran şahzadəsi Xosrov Mirzə Qacar 1829-cu ildə Peterburqa nə üçün getmişdi?

"Onun istedadı və təcrübüsi ilə tanış olduqdan sonra mən əmin oldum ki, Qriboyedov elə bir hərəkət etməz ki, hökumətlərimiz arasında yaradılmış xoş əlaqələrə xələl gətirə bilsin. Lakin məndə Qriboyedovu müşayiət edən adamlara qarşı bu inam yoxdur. Bu adamların dini və əhval-ruhiyylərində düşmənçilik görürəm və bu, məni çox qorxudur. Qriboyedovu başa salın ki, bu adamları tabeçiliyində möhkəm saxlasın. Qriboyedovun yəqin xatirində qalıb ki, mən bir neçə il bundan qabaq ondan xahiş etmişdim ki, Dadaş bəyi /**Vasili Dadaşyan - Ş.N**./geri çağrsın. O, Təbrizdə camaatı çox incidir. Rüstəm bəy /**Rustom Becanyan - Ş.N.**/də çox əzazil adamdır. Mən çox qorxuram ki, bu və bunlar kimi başqa adamlar cənab Qriboyedovu acınacaqlı çəkişmələrə və çaxnaşmalara cəlb edələr.

Şahzadə Abbas Mirzə".

Min səkkiz yüz iyirmi doqquzuncu il, yanvarın otuzunda gecə saat ikidə Tehrandakı rus səfarətxanasına bir kişi və iki çarşablı qadın gəlir. Bivaxt "qonaqlar", "şəxsən vəziri-muxtara aid sözümüz var", deyib durdular. Çarəsiz

qalan baş mühafiz səfiri oyatdı. Gələnləri onun hüzuruna ötürüb, özü nigarançılıqla qapının ağzında dayandı. Bikef vəziri-muxtar gələnin Xoca Yaqub Mirzə olduğunu görüncə daha da dilxor oldu.

- Aleksandr Sergeyeviç, mən sizə yenə pənah gətirdim. Əlac bircə sizə...

- Axı, mən sizə dünən dedim ki, bu barədə gündüz müraciət edin. Əlahəzrət imperatorun bu barədə - müqavilənaməyə əsasən bütün əsirlər üçün himayəçiliyi var. Siz isə...

- Cənab vəziri-muxtar, mənim sizin yanınıza gündüz, günorta çağı təşrif gətirməyim qətiyyən mümkün deyil. İcazənizlə başıma gələn qəzavü - qədəri qısaca da olsa izah edim.

Gələn kişi yalvara-yalvara bildirdi ki, mən irəvanlı Yakov Markaryanam. 1804-cü ilin iyun ayında general Sisianovun hərbi qüvvələri şahzadə Abbas Mirzə qoşunlarının hucumuna tab gətirmədi. Ona görə ki, irəvanlı Məmmədhəsən xan və naxçıvanlı Kəlbəli xan ona kömək etmədilər. Abbas Mirzənin qoşunları Sisianovu sıxışdırıb Tiflisə tərəf qovanda erməni tacirləri də rus qoşunlarına və gürcü dəstələrinə qoşulub Tiflisə tərəf qaçırdılar. Mənim onda on səkkiz yaşım vardı. Üçkilsədə /Eçmiadzin/ monastırda təhsil alırdım. Ermənilərin karvanı monastırın yanından keçəndə mən müəllimimdən gizlincə onlara qoşulub yola düşdüm. Yolda tacirlərdən biri məndən soruşdu ki, sən kimsən, hara gedirsən? Mən onu aldadıb dedim ki, bu yaxınlarda məşhur alim Serap Patkanyan Tiflisə gəlib, erməni uşaqlarına pulsuz dərs keçir, gedirəm ondan dərs almağa. Onda erməni tacirinin məndən xoşu gəldi, özünün pendir-çörəyini belə mənimlə yarı böldü. İki gün yol getdik.

Babakər dağının yanına çatanda bərkdən fit səsləri eşitdik. Qəfildən hücum edən İran dəstəsinin sərbazları bizi əsir aldılar. Yaxınlıqdakı gürcü süvari dəstəsi xeyli vuruşub aradan çıxdı. İranlılar ermənilərin müqavimət göstərənlərini qırdılar, sağlarını isə əsir aldılar. Bizi qoyun kimi qabaqlarına qatıb Təbrizə kimi gətirdilər. Məni və bir neçə ermənini axtaladılar. Zorla müsəlmanlığı qəbul elətdirib adımı da Mirzə Yaqub qoydular. Sonra xacə kimi Tehrana, Fətəli şaha peşkəş göndərdilər. İki il mənə ərəb və fars dillərini öyrətdilər. Hərəmağasının təlimi ilə bütün elmləri mənimsədim. Sonra mənə xacəbaşı titulu verdilər. Sarayda isə mənə güclü biliyə malik hesab müəllimi təyin edib mühasibat işini tam incəliyinə qədər öyrətdilər. Şahın xüsusi sərəncamı ilə iki dəfə Şiraza və üç dəfə Xorasana, qubernatorun mühasibat işlərinə müfəttişliyə göndərdilər. Məni şahın xəzinədarı təyin etdilər. Ordan İrəvana, ata-anama gizlincə pul-para da göndərə bildim. İyirmi beş ildir ki, şaha xacəbaşı kimi qulluq edirəm, daha bəsdir. Bu sandıqçada gətirdiyim qızıllar, 40 min tümən, daş-qaş öz əməyimin bəhrəsidir. Təvəqqe edirəm, mənə kömək edin, doğmalarımın yanına qayıdım. Göydə Allahı, yerdə sizi deyib gəlmişəm.

- Bəs bu qadınlar kimdir? - deyə yuxudan kal oyanan xəstəhal səfir Qriboyedov soruşdu.

- Bunlar şahın kürəkəni Allahyar xanın hərəmxanasında əzab çəkən iki bədbəxt erməni qadınıdır. Onlar da mənə qoşulub sizə pənah gətiriblər. Kömək edin... - deyib ağlamsınan Yakov Markaryan ovcunun içilə gözlərini ovxaladı. Sandıqçanı ayaqları arasında bərk-bərk sıxıb daha da büzüşdü, yazıq görkəm aldı.

Yarıyuxulu səfir isə Yakov Markaryanın gah yöndəmsiz uzun çənəsinə, gah da bulanıq göy gözlərinə baxırdı. Bilmirdi nə cavab versii. Yakovun üz-gözündə xeyirxahlıqdan əsər-əlamət tapmayan səfir canının ağrısından gözlərini yumub fikrə getdi. Vaxtsız gələn "qonaq" isə elə hey yalvarırdı bilməyən səfir paltosuna bərk-bərk burunub qabağa əyildi:

- Axı, sizin arzunuzu yerinə yetirməyə mənim səlahiyyətim çatmır, - dedi. - Bunun üçün iki dövlət arasında rəsmi danışıq olmalıdır, müəyyən razılıq alınmalıdır. Zənnimcə, siz nahaq belə hərəkət etmisiniz. Xəta gətirəcək bu işi özündən rədd eləmək naminə onu inandırmağa çalışdı. Yəqin siz məndən yaxşı bilirsiniz ki, şərq adəti üzrə şahın hərəmxanasında, sarayında on ildən çox xidmətdə olan bir şəxs onun ailə üzvü sayılır. Eləcə də şah hərəmxanasında qulluq edən hər bir qadın onun kənizi, arvadı hesab olunur. Şərqlilərdə isə arvad kişinin namusu, qeyrətidir. Bunu siz məndən yaxşı bilməlisiniz. Əgər kişinin arvadı bəd əməllərə düşürsə, ordan qan qoxusu gələr...

- Aleksandr Sergeyeviç, bəs Türkmənçay müqaviləsi... Onun on üçüncü bəndi buna əsas vermirmi ki... Axı siz bu ölkədə Rusiyanın səlahiyyətli vəziri-muxtarısınız. Siz həmişə biz yazıq ermənilərin pənahkarı olmusunuz. Səhv etmirəmsə, on üçüncü bəndi biz yazıq ermənilərin xatirinə məhz siz əlavə etmisiniz: "Axırıncı və ya bundan qabaqkı müharibənin gedişində əsir alınmış hər iki tərəfin bütün hərbi əsirləri, bununla bərabər hər iki hökumətin nə vaxtsa əsir düşmüş təəbələri qarşılıqlı azad edilməli və dörd ay ərzində qaytarılmalıdır".

Yakov Markaryan on üçüncü bəndi sətirbəsətir əzbərdən dedi. Səfir duruxdu. Handan-hana:

- Sən - dedi, - təkcə şah sarayının içalatından yox, iki dövlət arasındakı incə siyasətdən də xəbərdarsan. Bu barədə şaha müraciət etmisənmi?

- Yox, heç vaxt ! - deyə Yakov cavab verdi.

- Siz ki, ona belə yaxınsınız, şah sizə ki, bu boyda varidatını etibar edib, şübhəsiz ki, sözünüzü də yerə salmaz, arzunuza əməl edər...

- Aleksandr Sergeyeviç, bu qaranlıq müsəlman dünyasında üç bədbəxt xristianın yeganə pənahı sizsiniz. Bizi buradaca qanımıza qəltan edin, amma o vəhşi müsəlmanların yanına bir daha qaytarmayın.

Yakov səfiri yumşaltmaq üçün dedi:

- Sizin biz ermənilərə çox yaxşılıqlarınız olub. Mənə məlumdur ki, hələ 1825-ci ildə Tiflisdə Lazaryanla, katalikos Nerseslə birgə sərgərdan ermənilərin Azərbaycana, Qarabağa köçürülmək planını hazırlayıbsınız. Bu saat bizim saraya qayıtmağımız ölümə getmək kimidir...

- Yaxşı, gecə keçir, indi tapşıraram sizə gecələmək üçün şərait yaradarlar. Səhər isə özüm bu barədə Fətəli şahla danışaram, - deyib, səfir yataq otağına getdi.

* * *

Açılan səhər nə Qriboyedova, nə də üç erməni qaçqınına xeyir gətirmədi. Səfir nə qədər on üçüncü bəndə əsaslanıb ondan sitatlar gətirdisə, Fətəli şahı yumşalda bilmədi.

Şah iki ayağını bir başmağa qoyub haqlı tələbini etdi:

- Milliyyətcə erməni olan Xacə Yaqub Mirzə xəzinəmdən varidatımın yarısını oğurlayıb aparıb, - dedi. Siz isə caniyə, oğruya sığınacaq vermisiniz. O qaytarılmalıdır və haqlı cəzasını almalıdır. Vəssalam! Cənab vəziri-muxtar, sabah dan ağarana qədər sizə və sizin yanınızda qeyri-qanuni sığınacaq tapmış üç qaçqına vaxt veririk, qayıtmasalar, başqa tədbirə əl atmalı olacağıq, Xüsusilə, Allahyar xanın hərəmxanasından olan iki qadına verdiyiniz sığınacağa görə xalqın narazılığı son dərəcə gərginləşib.

Verdiyi vaxtı həyəcanla gözləyən Fətəli şah rus səfarətxanasından heç bir xəbər-ətər çıxmadığını görüb Tehranı təntənəsiz tərk etdi. O, şəhərin yaxınlığındakı gözəl ab-havası ilə məşhur olan Nəva qəsəbəsinə "istirahətə" getdi. Hər şeyi sarayda böyük nüfuza malik olan kürəkəni, ruslara qatı nifrətilə ad-san qazanmış sədr-əzəm Allahyar xana tapşırdı. Allahyar xan Tehranın din xadimlərini qəzavata çağırdı. Məscidlər, bazarlara və əhalinin yaşadığı gur yerlərə carçılar göndərdi. Atlı carçılar haray salıb elan elədilər ki, rus səfarətxanasında bir dəstə müsəlman qadını əsir alınıb gizlədilmişdir. Onları Rusiyaya aparıb zorla xristian dinini qəbul etdirəcəklər. Hətta rus xəfiyyəsinin fitvası ilə Xacə Yaqub Mirzə, Fətəli şahın xəzinəsindən qızıl və daş-qaş da oğurlayıb aparıb.

Gavurlardan yanıqlı olan tehranlılar rus səfarətxanasına tərəf axışmağa başladılar. Adamlar əllərinə keçən nə vardısa özlərinə yaraq eləmişdilər: kimi tüfəng, kimi xəncər, kimi də daş və ağacla silahlanmışdı.

Seyidlər, üləmalar şəhər müctəhidi Hacı Mirzə Məsihin tapşırığı ilə Tehranın Cami məscidinə yığışdılar. Buraya ətraf kəndlərdən də gələnlər vardı. Getdikcə artan izdiham dəstə-dəstə səfarətxanaya tərəf axışırdı. Arasıkəsilməz "Allah! Allah!" səsləri şəhəri bürümüşdü. Onları süvari sərbaz dəstələri dayandıra bilmədi.

Sarayın baş eşikağası Manuçar xan[19] bacısı oğlu Solomon Melikovu bir dəstə şah süvarisi ilə izdihamı dağıtmağa göndərdi. O, bacısı oğluna tapşırmışdı ki, rus səfirliyindən Xacə Yakov Markaryanı nəyin bahasına olursa-olsun xilas edib gətirsin. Onda ixtişaş yatırılar və Qriboyedov xətadan xilas olar.

Lakin artıq gec idi. Kükrəyən izdiham erməni Solomon Melikovu tanıyan kimi ona hücum edib atdan saldılar. Döyə-döyə sürüməyə başladılar. Aldığı ağır zərbələrdən Solomonovun meyiti küçədə ayaqlar altında qaldı.

Az sonra şəhərdə qalxan iğtişaş barədə səfirə xəbər verdilər, hadisənin fəlakətlə nəticələnəcəyindən qorxuya düşən məmurlardan biri qayğıkeşliklə:

- Aleksandr Sergyeviç, - dedi, - qaragüruhçuların qarşısına çıxmaqdansa, erməni kilsəsinə çəkilib sığınmaq lazımdır. Gələnlərin əksəriyyəti din xadimləri və onların əsabələridir. Biz oraya sığınsaq yaxın düşməzlər, ona görə ki, kilsə gavur yuvasıdır, müsəlman adətincə murdardır.

İkincisi də kilsənin toxunulmaz olduğunu bizdən də yaxşı bilirlər.

Qriboyedov isə qəti etirazını bildirdi:

---

[19] Manuçar Yenikolopov Tiflic ermənisi idi. 1804-cü ildə general Sisianov Irəvana hücum edəndə gürcü sıravi dəstəsində döyüşərkən iranlılara əsir düşmüşdü. O da Yakov Markaryan kimi Təbrizə gətirilib axtalanmışdı. Saray Hərəmxanasında qulluq edən Manuçar tezliklə əyanların hörmətini qazanıb, yüksək vəzifələr tutmuşdu. 1815-ci ildə isə Fətəli şahın xüsusi hörmət və etimadını qazanan erməni Manuçar Yenikolopov sarayın birinci naziri olmuşdu. 1820-ci ildə şahın ən sadiq adamı Manuçar zənginliyi ilə məşhur olan Gilan vilayətinə canişin təjin edilir. Iran dövlətinin ən etibarlı adamı /şah ona Mötəmədiddövlə rütbəsi vermişdi/ kimi Manuçar Yenikolopov Türkmənçay sülh müqaviləsini imzalayanlardan biri olmuşdur - müəl.

- Bu sığınacaq mənə ömürlük ləkə olar, - dedi. - Cənablar, mən böyük rus imperiyasının səlahiyyətli vəziri-muxtarıyam, mənə kilsədə gizlənmək ar olar. Sonra da kinayə ilə: - kimə canı əzizdirsə, erməni kilsəsinə pənah apara bilər... Hər halda gələnlərin bir başçısı var ki... Ona başa salarıq, o da kütləyə ərzi-halını bildirər, - dedi.

Səfirin bu qısa, alovlu nitqindən sonra erməni kilsəsinə sığınmağa heç kəsin cəsarəti çatmadı.

Getdikcə yaxınlaşan uğultu artıq qonşu həyətlərdən eşidilirdi. Qızışmış kütlə "ya Əli, kömək ol!", "Cihad", "yahu, yahu, gavur itlərinə ölüm!" harayı ilə səfarətxana darvazasını daşa basırdılar. Birdən onlar darvazanı sındırıb hay-həşirlə həyətə soxuldular. Ayaq saxlayıb gavurlarla üzbəüz durdular. Başı əmmaməli şeyxlər, mollalar irəli yeriyərək həyətə tüpürüb lənətlədilər.

Bir səslə:

- Yahu, vurun bu gavurları! - deyib qışqırdılar.

* * *

SƏFİRİN ERMƏNİ HİMAYƏÇİLİYİ

Bu cəsarətli şahzadnin xeyrxahxah və mərd xasiyyəti vardır, Abbas Mirzənin nişan atmaqda, at çapmaqda tayı yoxdur. At qova-qova o, tüfəng, yaxud oxla ov vurur, hətta havadakı vəhşi quşları sayırdı. Doğrudan da etiraf etmək lazımdır ki, iranlılar haqqında Kezenofonun dediyi xasiyyətlər hamısı bu igid şahzadədə toplanmışdır.

Jak MORİS,
İngiltərənin Tehrandakı
səfirinin müavini.

Rus və İran tədqiqatçılarının yazdığına görə Fətəli şahın tədbiri tamamilə tərsinə alınmışdı. Onun da günahını Allahyar xanın ruslara nifrətində görürlər. Səfarətxanaya basqını təşkil edən şah belə qərar veribmiş ki, camaat vəziri-muxtar Qriboyedova toxunmasın. Onlar ancaq Xacə Yaqub Mirzəni, onun apardığı qızılları, ləl-cəvahiratı və iki erməni qadınını tələb edib geri alsınlar. Bundan sonra şah onları özü cəzalandıracaqdı. Şahın fikrincə, rus imperatoru I Nikolay isə Qriboyedovu bu səhv hərəkətinə görə geri çağırıb cəzalandırmalı idi.

Beləliklə, vəziyyət gözlənilməyən bir şəkil almışdı. "Yahu" - deyib hücum edən camaat səfirliyin əlli üç nəfər işçisini daşqalaq edib öldürmüşdü. Yalnız üç nəfər salamat qalmışdı: Qriboyedovun birinci katibi İvan Maltsev, kuryerlər Arutyun Qazaratov və Ambarsum.

Yerli əhali ilə kobudcasına rəftar edən Qriboyedova xalq nifrət edirdi. Bunun da əsas səbəbi Türkmənçay Müqaviləsinin müstəmləkəçi layihəsinin onun tərəfindən hazırlanması idi. Məhz onun səyi ilə Ərdəbilin şeyx Səfiəddin məscidində saxlanılan nadir əlyazmaları Peterburqa daşınmışdı. Yerli əhalinin Qriboyedova ən kəskin nifrəti bir də ermənilərə göstərdiyi himayədarlığa görə idi. Qriboyedov isə 1828-ci ilin avqustunda gündəliyində iftixarla yazırdı:"bədbəxt həmvətənlərimin /**ermənilərin - Ş.N**./ yolunda başımı qoymağa hazıram".

Səfir Aleksandr Qriboyedovun İrandakı rəftarı barədə görkəmli İran tarixçisi Nasir Nəcimi "Abbas Mirzə" /yaxud "Qacar sülaləsinin qəhrəman vətənpərvər oğlu və onun başçılıq etdiyi İran-Rusiya müharibələri"/ kitabında faktiki sənədlər əsasında daha dəqiq məlumat verir. O yazır ki, Qriboyedov təkəbbürlü, özünü bəyənən adam olduğuna görə sarayda şahın yanına qəbul olunan zaman saray adət-ənənələrinə, saray qaydalarına riayət etməmiş, Rusiya kimi böyük bir dövlətin nümayəndələrinin şəninə uyğun olmayan kobud bir şəkildə şahla danışmışdır.

Fətəli şah Rusiya səfirinin rəftarına məhəl qoymadan, danışıq tonunu və əhval-ruhiyyəsini heç dəyişmədən Qriboyedovu axıra qədər dinləmişdir. Lakin rus səfiri öz kobud rəftarını dəyişməyib əhaliyə təzyiq etməyə başlamışdır. O, bir çox ermənilər Qafqaza köçürmək üçün hamıdan artıq israr edirdi. Təsadüfən Rusiya səfiri ermənilər Zaqafqaziyaya köçürmək üçün fəaliyyət göstərdiyi zaman başqa bir hadisə də baş vermişdir. Bu isə əhalinin şübhələnməsinə və böyük acınacaqlı bir faciənin əmələ gəlməsinə səbəb olmuşdur.

Ona görə də İslam adət-ənənəsinə xor baxan Qriboyedovun və iki nəfərin meyitini Tehran camaatı küçələrdə üç gün sürüdü. Yalnız Fətəli şah "istirahətdən" qayıdıb gələndən sonra meyitləri erməni kilsəsinin həyətinə atdılar.

Fətəli şah İran dövlətini ağır vəziyyətə saldığını yaxşı dərk edirdi. Vəziri-muxtar Qriboyedovun ölümü ölkəni yenidən Rusiya ilə müharibə təhlükəsinə sala bilərdi. 1828-ci ilin mayında başlanan Rusiya-Türkiyə müharibəsi İranın beynəlxalq aləmdə mövqeyini onsuz da mürəkkəbləşdirmişdi. Bir tərəfdən də Türkiyə çalışırdı ki, İranı Rusiyaya qarşı müharibəyə cəlb etsin. Digər tərəfdən Türkmənçay müqaviləsinin şərtlərinə əsasən, İran verəcəyi müharibə xərcini - altı yüz min tümənlik təzminatı ödəməyi yubadırdı.

Şahın məsləhətə, məşvərətə çağırdığı səray əyanları yalnız bir qərara gəldilər: Qriboyedovun qan bahası üçün rus imperatoruna qiymətli bəxşeyiş vermək və üzr istəmək. Əslində bu, şah taxttacının ən nüfuzlu vəliəhdi şahzadə Abbas Mirzənin təklifi idi. Təkcə saray əyanları yox, şah özü belə bütün məsələlərdə onunla hesablaşırdı. Ata Fətəli şaha elə gəlirdi ki, oğul şahzadə Abbas Mirzə dərin ağlı, uzaqgörənliyi ilə verdiyi məsləhətlərdə heç vaxt səhv etmir. Ona görə də cəsur Nadir şah Əfşarın yadigarı olan "Şah Nizam" almazını rus imperatoruna hədiyyə göndərmək qərarına gəldilər. Dünanın ən böyük və nadir incisi olan bu almaz 1591-ci ildə Hindistanda tapılmışdı. Almaz bir müddət Bürhan Nizam şah II sarayında saxlanılmış və 1595-ci ildə böyük monqol şahlarının əlinə keçmişdir. Nadir şah 1739-cu ildə Hindistanı işğal edəndə onu İrana gətirmişdi. Fətəli şah Qacar 1824-cü ildə öz adını bu qiymətli almaza həkk etdirmişdi.[20]

---

[20] Hazırda Moskvanın Almaz fondunda saxlanılır - müəl.

Bu, məsələnin bir tərəfi idi. Ortaya çıxan müşkül bir sual qalırdı ki, onun həlli daha çətin idi. Peterburqa "üzrxahlıq" üçün hədiyyəni kiminlə göndərməli? Fətəli şah əvvəlcə Abbas Mirzəni məsləhət bildi. Lakin saray əyanlarının əksəriyyəti onun getməsinə razı olmadılar. Əsaslı dəlillər gətirib şahı bu fikirdən daşındırdılar. Əvvəla, ona görə ki, Qafqazda yaşayan ermənilər Abbas Mirzənin əlindən yanıqlı idilər. O, İrəvan yaxınlığında, Lori və Dilican nahiyyələrində yaşayan ermənilərə divan tutmuşdu. Onların dəstələrini darmadağın etmişdi. İkincisi də, səfarətxanaya basqın zamanı öldürülmüş ştabs-kapitan Məlik Şahnazarovun qohumları Tiflisdə yaşayırdılar. Onlar terrorçuluqda ad çıxarmışdılar. Taxt-tacın varisi Abbas Mirzə kimi sərkərdəni itirmək İranı başsız qoymağa bərabər idi. İranın böyük siyasi xadimi, Abbas Mirzənin saray müəllimi Mirzə Əbdülqasım Fərahani-Qaimməqam iftixarla deyəndə ki, avropalılar Qacar vəliəhdi Abbas Mirzəni ləyaqətli, cəsarətli, vətənpərvər, zülmün düşməni olan pak ürəkli bir sərkərdə kimi tanıyırlar, onda atası Fətəli şahın fərəhi yerə-göyə sığışmırdı.

Yeri gəlmişkən, bir məsələni də burada demək vacibdir.

A.S.Qriboyedovun səfarətxanadakı fəaliyyəti dövründə ətrafına yığdığı işçilərin əksəriyyəti ermənilər olmuşdur. Çoxluq təşkil edən bu ermənilər müsəlman adı ilə işləyirdilər. Məsələn, Dadaş bəy - əslində Basili Dadaşyan, Mirzə Salman - əslində Soqomon Melikyants, Mirzə Nəriman - əslində Məlik Şahnazaryan, İbrahim bəy əslində Ambarsum, Rüstəm bəy isə əslində Rostom Becanyan idi. İshaq Sərkisovu, Xaçatur Şahnazarovu, Abram Dadaşyanı, Şermazyanı, Arutyun Qazaratovu, Ambarsumu və başqalarını Qriboyedov yüksək, məsul vəzifələrə təyin etdirmişdi. Heç şübhəsiz ki, ermənilər müsəlman adı daşımaqla, nə bizə, nə də farslara məhəbbət bəsləyirdilər. Onlar sadəcə olaraq, öz çirkin təxribatçılıq əməllərini müsəlman adı altında Təbrizdə və Tehranda daha asan həyata keçirirdilər. Cildə girmək, kərtənkələ kimi mühitə uyğun rəngə düşmək onlar üçün əlverişli idi.

Bir möcüzədən sağ qalan səfarətxananın birinci katibi İvan Sergeyeviç Maltsev /1807-1880/ sonralar Rusiyaya qayıdanda hadisələrin yeganə şahidi kimi xatirələrini qələmə almışdı. O yazırdı ki, Məlik Şahnazaryan Mirzə Yaquba /Yakov Markaryana - **Ş.N**./ satılmışdı. Mirzə Yaqubdan bəzi ziynət şeyləri alan Şahnazaryan ona söz veribmiş ki, Vəziri-muxtarın vasitəsilə sənin İrəvana qaytmağına kömək edəcəm. Yanvarın otuzunda, gecə saat ikidə Mirzə Yaqubun səfarətxanaya gəlməsinə də Şahnazaryan kömək etmişdi. Üstəlik də on üçüncü maddəni xatırlatmağı və hansı incə mətləblərə toxunmağı, necə yalvarmağı məhz o başa salmışdı.

Qəribədir ki, rus tədqiqatçılarının bəziləri, dolayısı ilə olsa da, Qriboyedovun faciəli ölümündə ermənilərin günahkar olduğunu yazırlar. Xüsusilə Q.A. adlı müəllifin /indiyədək familiyası məlum deyil/ bu hadisədən çox sonralar - 1901-ci ildə ermənicə "Mşak" qəzetində dərc etdirdiyi "Ambarsumun hekayəti" yazısı Qriboyedovun ünvanına böhtandan başqa bir şey deyildi. Ambarsum nəql edir ki, guya gecələr Qriboyedovun yanına həqiqətən çarşablı bir qadın gələrmiş. O, səfirlə

eyş-işrətdə olub gecə də qayıdarmış. Fətəli şaha çatdırırlar ki, rus səfiri müsəlman qadını ilə əxlaqsızlıq edir. Şah qəzəblənir və Qriboyedova bildirir ki, belə şeylər eləməsin, yoxsa müsəlman şəriətinin qanunu ilə din xadimləri onu daş-qalaq edərlər. Ambarsum "hekayətində" həm də yazır ki, guya eyş-işrətə gələn həmin qadın gürcü idi, o, Tiflisə qayıtmaq üçün vəziri-muxtardan icazə almağa gəlirdi.

Ermənilərin günahını və çirkin əməllərini ört-basdır etmək üçün Ambarsum "gürcü qadını" məsələsini uydurmuşdu. Bütün rus tədqiqatçıları Ambarsumun "hekayətini" inkar edirlər və onun büsbütün uydurma olduğunu yazırlar.

Vəziri-muxtar Aleksandr Qriboyedov isə ölümünü İranda tapacağını bu vəzifəyə təyin olunan gün hələ Peterburqda ikən hiss eləmişdi. O, bu vəzifədən yaxa qurtarmağa çalışırdısa da, mümkün olmurdu. "Çarın bütün iltifatlarından sonra təzə bir bəhanə ilə boyun qaçırmaq mənim tərəfimdən nankorluq olardı. Mənim rütbəmdə məni səlahiyyətli səfir təyin etməyin özünü də mən iltifat hesab etməliyəm. Lakin hiss edirəm ki, İrandan sağ qayıtmayacağam".

Qriboyedovun məktub və yol qeydlərini oxuyanda məlum olur ki, ölümün qara fikirləri ondan əl çəkməmişdir. İranda müstəmləkəçilik siyasəti yeridən, Azərbaycan torpağını parçalayan səfir Qriboyedovun özü yaxşı dərk edirdi ki, az vaxtda siyasətin qurbanı olacaq. O, ikinci dəfə İrana qayıtmaqla özünü odun və təhlükənin içinə atırdı.

Aprelin iyirmi beşində - imperator fərman verən gün, axşam dostu Andrey Candrın yanına gələn Qriboyedov söhbət zamanı demişdi: "Salamat qal, dostum Andrey. Mən İrana vəziri-muxtar təyin olunmuşam. Biz bir daha görüşməyəcəyik".

Yolüstü Moskvada dayanan Qriboyedov dostu Stepan Beqiçevlə görüşüb. Beqiçev yazır ki, mənim yanımda olanda çox qaş-qabaqlı idi. - Niyə kefsizsən? - dedim. O isə mənim əlimdən tutub dərin bir kədərlə dedi: "Salamat qal, qardaşım Stepan, sənlə bir daha çətin görüşək. ...Görərsən, mən salamat yaxa qurtara bilməyəcəyəm, mənim başımın üstündə Küxelbeker mühitinin ağır dumanları gəzir..."

Hətta böyük şair Aleksandr Puşkinlə Qriboyedov arasında da belə xoşagəlməz bir söhbət olub: "Mən Qriboyedovla keçən il Peterburqda, İrana getməzdən qabaq görüşmüşdüm. O, mükəddər idi, ürəyinə nəsə dammışdı. Mən ona təsəlli vermək istədim, o, mənə dedi ki, siz hələ bu adamları /**iranlıları - Ş.N**./ tanımırsınız, görərsiniz, axırı qanla qurtaracaq".

Ölümünü sövq-təbii duyan Qriboyedov Ksenofont Polevoda söhbətində demişdir: Yenidən İrana getmək məni həddindən artıq kədərləndirir. Mən oradakı köhnə tanışları, xüsusilə şahın kürəkəni, sədrəzəm Allahyar xanı görmək istəməzdim".

Türkmənçay Müqaviləsindən sonra Allahyar xanın ruslara, xüsusilə Qriboyedova ölçüyə gəlməz nifrəti vardı. O, İrana yola düşəndəTəbrizdəki Britaniya səfirliyinin katibi, kapitan Con Kempelə də görüşmüşdü. Kempel Qriboyedova çox dəqiq xəbərdarlıq edərək demişdi: "Özünüzü qoruyun, müsəlmanlar Türkmənçay Müqaviləsini sizə bağışlamayacaqlar".

Qriboyedovun müasiri, məşhur şərqşünas Adolf Berce açıq-aydın yazır ki, vəziri-muxtar erməni Yakov Markaryanı və bəzi ermənilər himayəsi altına

almaqla şahı və bütün saray əyanlarını öz əleyhinə qaldırdı. Özünün də faciəli ölümünə səbəbkar oldu.

Bu hadisədən sonra Qriboyedov faciəsindən onlarla elmi, publisistik və bədii əsərlər yazılıb. Birtərəfli yazılan bu əsərlərdə həmişə İranın saray əyanları, Azərbaycan əhalisi, xüsusilə, Qacar nəsli günahlandırılıb. Yüz iyirmi altı il keçəndən sonra Lyudmila Nazarova da "Qriboyedov" kitabında bu ənənəyə sadiq qalıb.O, şəxsiyyəti məlum olmayan knyaz Süleyman xan/ - **Ş.N**./Melikovun şifahi söhbətinə əsaslanaraq yazır:

"...Rus Səfirliyinin bütün heyətindən yalnız bir nəfər - birinci katib Maltsev sağ qalmışdı.

Qriboyedovun faciəli ölümünün səbəbləri haqqında məlumat, baş vermiş hadisələrdə Qriboyedovun özünü günahkar kimi qələmə verməyə çalışan Maltsevin yalan ifadələrinə əsasən hazırlanmışdı. Bu, təkcə təhlükə anlarında səfiri satqıncasına tərk etmiş səfirliyin birinci katibini deyil, həm də "xalqlararası münasibətlər tarixində tam siyasi və görünməmiş terror aktı"nın üstünü örtməyə çalışan fars kübarlarını qane edirdi. Hadisələrin əsl mənasını təhrif edən Maltsevin ifadələri əsasən çar hökuməti tərəfindən də qəbul edilmişdi. Türkiyə ilə gedən ağır müharibənin davam etdiyi bir vaxtda imperator I Nikolay İran ilə yeni müharibə başlamağa qorxdu, cəsarət etmədi".

Sual olunur, Lyudmila Nazarova hansı mənbəyə əsaslanıb hadisənin şahidi olan Maltsevi yalançı və fərari adlandırırdı? Əlbəttə, səfirlikdə işləməyən öz dindaşı - milliyyətcə erməni olan S.Məlikova.

Qriboyedovun erməni tədqiqatçısı Boris Balayan isə "Şah" almazı üstündə qan" monoqrafiyasında bu işlə əlaqədar qacarlar sülaləsini günahlandırır. Onun fikrincə, Qriboyedovu qacarlar sülaləsi ona görə qətlə yetirdilər ki, o, Şərqi Ermənistanı Rusiyaya birləşdirməyə çalışırdı.

Bu da "Böyük Ermənistan" yaratmaq iddiasının qara bir səhifəsi...

* * *

Oğlu şahzadə Abbas Mirzəyə Tiflisdə ermənilərin sui-qəsd edəcəklərindən ehtiyatlanan Fətəli şah rus imperatoruna hədiyyəni aparmağı nəvəsi Xosrov Mirzəyə tapşırdı. Kişilərə məxsus məftunedici gözəlliyə malik olan şahzadə Xosrov Mirzə vəliəhd Abbas Mirzənin kəniz arvadından idi. İyirmi üç yaşlı Xosrov Mirzəni şah qeyri-qanuni övlad hesab edirdi. Şahın fikrincə, Tehrandan Peterburqa kimi bu uzun məsafədə onun başına fəlakət gəlsə da, qacarlar nəsli heç nə itirməyəcəkdi. Ona görə ki, Xosrov Mirzənin qanında rəiyyət qatışığı vardı.

1829-cu il aprelin sonunda Tehrandan yola düşərkən şahzadə Xosrov Mirzənin qırx nəfərlik heyəti mayın 15-də Tiflisə çatdı. Heyətin tərkibi sarayın say-seçmə adamlarından ibarət idi: şair Fazil xan Şeyda, tarixçi Mirzə Mustafa xan Əfşar, mülki müşavir, tərcüməçi Mirzə Məsud Əmire-Nizam, şahzadənin şəxsi müşayiətçisi Ehtəşəm, sarayda yüksək mənsəb sahibi olan Mirzə Məhəmmədtağı Fərahani, həkimbaşı, gizli fərraş, xəzinədar, aşbaz və süvarilərdən ibarət mühafizə dəstəsi Xosrov Mirzəni müşayiət edirdi.

Şahzadənin yol təəssüratını yazmaq üçün katib Mustafa xan Əfşara tapşırılmışdı. Tərəqqipərvər ziyalı kimi tanınan Mustafa xanın sarayda xüsusi hörməti vardı. O, rus dilini səlis bilirdi, rus və Avropa mədəniyyətinin İranda yayılmasının güclü tərəfdarlarından idi. Tiflisdə dayanan nümayəndə heyəti şəhərin görkəmli yerlərini gəzdi, bir neçə müəssisədə oldu. Bu gəzintilərdə hər şeyə tərəqqipərvər və islahatçı gözü ilə baxan Mustafa xan Əfşar rəsmi qəbul və ziyarətlərdən çox maarif, mədəniyyət və iqtisadi yüksəlişlər barədə maraqlanırdı. O, "Səfərnameye-Xosrov Mirzə" əsərində Tiflisin sənət məktəbində təhsil alan dindaşlarının balaları haqqında ürək ağrısı ilə yazır: "Buradakı uşaqlar pulsuz təhsil almaqdan əlavə pulsuz yeməklə, geyimlə, rahat mənzillə də təmindirlər. Dövlət bunları öz doğma balaları kimi bəslədir və oxudur. İnsan çətin inana bilir ki, bu şən və xoşbəxt uşaqlar Arazdan o tərəfdə yeməli bir şey tapmaq üçün səhərdən axşama qədər zibilliklərdə eşələnən, bazarlarda, məscidlərin qapısında əl açıb dilənən müsəlman balalarının qardaşlarıdır. Qızmar günəş, amansız şaxta altında sifətləri kül rəngi almış bu ac və xəstə uşaqların məktəb, dərs və kitab yuxularına da girməz. Belə isə hansı iranlını inandırmaq olar ki, Tiflisdə müsəlman balalarına məxsus bu cür məktəb vardır?"

Qafqazın baş komandanı canişin İ.P.Paskeviç heyəti səkkiz gün Tiflisdə qonaq saxlandıqdan sonra mayın iyirmi üçündə təntənəli surətdə yola saldı. Şahzadə Xosrov Mirzə ona ərəb atı, arvadı Elizaveta Alekseyevnaya /**Qriboyedovun əmisi qızıdır - Ş.N**./ iki bahalı şal, oğluna isə Sədi Şirazinin "Seçilmiş əsərləri"ni hədiyyə elədi.

Hərbi-Gürcüstan yolunda baş verə biləcək hər hansı bir hadisəni dəf etmək məqsədilə Paskeviç kazaklardan ibarət on iki nəfərlik dəstənidə Xosrov Mirzənin sərəncamına verdi. Kazak dəstəsinə komandir general-mayor P.Y. Rennekampfı təyin etdi. Daryal və Lars dərələrinin sərt keçidlərini adlayanda dağlıların hücümuna məruz qalan heyət bir neçə dəfə vuruşmalı oldu. Tarixçi Mirzə Mustafa xan Əfşar yazır ki, dağlıların ilk atəşi başlayan kimi şahzadə ekipacdan düşüb ata mindi, cəsur bir igid kimi döyüşməyə başladı. Çoxları, xüsusilə, kazaklar onun hünərlə vuruşmağına heyran qaldılar.

Təkcə iran tarixçisi yox, Qriboyedovun həyatından "Vəziri-muxtarın ölümü" adlı tarixi roman yazan Yuri Tınyanov da şahzadəni ağıllı, igid bir şəxsiyyət kimi təsvir edir.

1829-cu ildə Ərzuruma səfərində böyük şair A.S.Puşkin da onunla görüşmüşdü.

"Paysanurda atları dəyişmək üçün durdum: burada mən İran şahzadəsini ötürən rus zabitinə rast gəldim... Ananurun yarım verstliyində, yolun döşündə Xosrov Mirzəyə rast gəldim: arabalar durmuşdu. O öz kolyaskasından baxırdı və başı ilə mənə işarə etdi. Bizim görüşümüzdən bir neçə saat sonra dağlılar şahzadəyə hücum etmişdilər. Xosrov güllələrin vıyıltısını eşidib, öz kolyaskasından sıçramış, ata minib çapmışdı: onun yanında olan ruslar şahzadənin qoçaqlığına heyran qalmışdılar. İş burasındadır ki, kolyaskaya alışmamış gənc asiyalıya, kolyaska sığınacaqdan çox bir tələ kimi görünürdü" /**A.S.Puşkin, əsərləri, IV c., səh. 429, Bakı, 1949-cu il**/.

Rus şairinin bu səfərdə daha bir eloğlumuzla görüşü də çox maraqlıdır. Şahın saray şairi Fazil xan Şeyda ilhamlı nəğməkar Puşkini özünün yüksək mədəniyyəti, ali davranışı ilə utandırmışdır. Aleksandr Puşkinin "Ərzuruma səyahət" əsərində yazdığı bu parça onu tam aydınlığı ilə göstərir:

"İran şahzadəsini gözləyirdilər. Kazbekdən bir qədər məsafədə bir neçə kolyaska rast gəlib, dar yolu bağladı. Bu arabalar gəlib keçənə qədər qoruyucu dəstənin zabiti İran saray şairini ötürdüyünü bizə bildirdi və arzuma görə məni Fazil xana təqdim etdi. Mən tərcüməçi vasitəsilə dəbdəbəli Şərq salamıma başlamaq üzrəydim. Lakin Fazil xan mənim bu yersiz zəhmətimə abırlı bir adamın qayğıkeşliyi ilə sadəcə cavab verdiyi zaman, bu hal mənə ar gəldi!.. O, məni Peterburqda görəcəyinə ümid edir və təəssuflənirdi ki, bizim tanışlığımız uzun sürməyəcək və i.a. Mən utanaraq dəbdəbəli-gülünc ədanı tərk edərək adi Avropa cümlələrinə müraciət etməyə məcbur oldum. Bundan sonra adamların qoyun dərisindən papağına və xınalı dırnaqlarına baxaraq, haqlarında əvvəlcədən fikir söyləmərəm".

* * *

Pyatiqorsk şəhərində istirahət üçün bir neçə günlüyə dayanan şahzadə Xosrov Mirzə mineral bulaqların möcüzəsi ilə tanış olur. Onun gəlişi münasibətilə Maşuk dağının zirvəsində abidə ucaldılır. Şahzadənin təklifi ilə abidənin önündə dahi şair Sədi Şirazinin: "Dünyada qızıldan saray qoyub getməkdənsə, yaxşı ad qoyub getmək daha vacibdir" - sözləri yazılır.

Pyatiqorskdan sonra Stavropol, Novoçerkassk, Voronej və Ryazan şəhərlərində şahzadəni daha böyük təntənə ilə qarşılayırlar. İmperator əmr veribmiş ki, qoy farslar görsünlər ki, ruslar incikliyi necə də tez unudurlar. Onlar qonşuya qarşı kin-küdurətli deyillər.

Novqorodda şahın xüsusi xidmətçisi onlara çatır və Fətəli şahın imperator I Nikolaya başıbağlı şəxsi məktubunu təqdim edir. Altı həftədən sonra Kolomna şəhərinə çatan heyəti imperatorun göndərdiyi əlahiddə süvari alayı və jandarm dəstəsi müşayiət edir. Serpuxov darvazasında Tver bulvarında əsgəri hissələr fəxri qonağı musiqi sədaları altında və hərbi yaylım atəşi ilə qarşılayırlar. Təntənə qraf Razumovskinin malikanəsinə kimi davam edir. Şahzadənin düşərgəsi qrafın geniş və işıqlı salonları olur. Həmin günü Moskvanın adlı-sanlı ziyalıları, məşhur tacirlər şəhərin general-qubernatoru knyaz Qolitsinin başçılığı ilə şahzadənin görüşünə gəlirlər. Qubernator qısa nitqlə "xoş gəldin" - deyib, qiymətli hədiyyə təqdim edir. Qısa istirahətdən sonra şahzadə, Qriboyedovun anası ilə görüşmək arzusunu bildirir. Mərhum səfirin anasına başsağlığı verən şahzadə, onunla birlikdə oğlunun vaxtsız vəfatı üçün göz yaşı tökür. Şahzadə Xosrov Mirzənin mədəni davranışı, gözəlliyi, kövrəkliyi Moskvanın bütün zadəgan ailələrini heyran qoyur. Şərq cəngavərinə qarşı qraf və qrafinyaların mənfi fikirləri alt-üst olur.

Bir neçə gün şəhərin tarixi yerləri ilə tanış olandan sonra şahzadə 1829-cu il avqustun dördündə Peterburqa çatır.

* * *

Aradan yüz altmış ildən çox keçsə də Gürcüstan Dövlət Arxivində və inqilabdan əvvəlki tarixi əsərlərdə Şahzadə Xosrov Mirzənin səfəri haqqında maraqlı sənədlər, məlumatlar qalır. Həmin səfərin iştirakçısı, tarixçi Mirzə Mustafa xan Əfşarın xatirələrində şahzadənin rus imperatoru I Nikolayla görüşü daha real verilmişdir.O yazır:

"Peterburqda bizim heyət Tavriçeski Sarayına düşmüşdü. İmperatorla rəsmi görüşə bir gün qalmış general-adyutant qraf Suxotelin şahzadənin qəbuluna gəldi. Ondan xahiş elədi ki, imperatorla görüşü üçün çıxışının mətnini yazsın. Şahzadənin xüsusi müşayiətçisi Ehtəşəm və mülki katib, tərcüməçi Mirzə Məsudla birgə çıxış hazırladılar və fransız dilinə tərcümə edib general Suxotelinə verdilər. General dedi ki, bu təntənəli çıxış ruslar qarşısında günahı olan İranın vəziyyətini xeyli yüngülləşdirər".

Avqustun on ikisində general Suxotelin şahzadəni imperatorun adından salamladı və onu Qış Sarayına dəvət etdi. Təntənəli mərasimi nümayiş formasında olan süvari-qvardiya divizionu musiqi ilə açdı. Sonra saray əhlindən ibarət heyətlərin uzun cərgəsi tərpəndi. Onların ardınca çarın süvari dəstəsi ilə mühafizə olunmuş Xosrov Mirzənin karetası gedirdi. Təntənəli gəzintini dəmir geyimli qvardiya süvari alayı müşayiət edirdi.

Şahzadənin keçdiyi küçələr şəhər əhli ilə dolu idi. Pəncərə və eyvanlar xalı və rəngli bayraqlarla bəzədilmişdi.

İmperator I Nikolay şahzadəni Georgi salonunda, taxt-tacının yanında ayaq üstə qarşıladı. Onun sağ və solunda ailəsi, yaxın qohumları, dövlət katibi qraf Nesselrod, senatlar, Baş qərargah rəisi, generallar və qvardiya zabitləri dayanmışdı. Hərbi geyimdə olan I Nikolay yaxasına çox sevdiyi Andreyev ordenini taxmışdı.

Şahzadə Xosrov Mirzə yavaş - yavaş taxt-taca yaxınlaşdı. Bir neçə addımlıqda dayanıb Fətəli şahın imperatora göndərdiyi etimadnaməni sinəsi bərabəri qaldırdı. Hörmət və ehtiramla baş əyib fars dilində general Suxotelinlə /**uzun müddət İran da hərbi xidmətdə olan Suxotelin farsca bilirdi - Ş.N**./ birgə tərtib etdiyi üzrxahlıq nitqini oxudu:

"Qüdrətli imperator həzrətləri!

İranın sakitliyi naminə Siz böyük imperatorla mənim hökmdarım və babam İranın əzəmətli sahibi arasındakı müqəddəs birlik düşmənçilik ruhuna həmişə zidd olmuşdur. Bədbəxt hadisə bizim ailəni və onun bütün məiəyytlərini məyus etdi.

Qüdrətli İranın şahənşah hökuməti təxribat və çəkişmələr məqsədinə qulluq edən bir yığın ziyankarların son zamanlarda qüdrətli rus hökuməti ilə bərpa olunmuş dostluq və ittifaqını poza biləcəyi fikrindən qəzəblənmişdir.

Şahənşah mənə, öz nəvəsinə Sizin dövlətin paytaxtına tələsməyi tapşırmışdı. O inanır ki, mənim Sizə həqiqəti çatdıracaq sözlərim böyük imperator həzrətlərinin diqqətini cəlb edəcək, iki böyük və qüdrətli dövlətin dostluğunu əbədi edəcəkdir.

Rusiya və İran sarayını eyni dərəcədə təhqir etmiş hadisəni yaddaşımızdan əbədi silək".

Şahzadə üzrxahlıq məktubuna Sədidən bir bənd də əlavə eləmişdi:

Vaxt çatıb, biz yenə bir məhəbbətlə,

Ünsiyyət bağlayaq, dost olaq gərək.
Olub-keçənləri mehri-ülfətlə,
İndi unutmağa çalışaq gərək.

/Tərc. N. Həsənzadənidir/

Xarici işlər naziri qraf Karl Nesselrod iki ölkə arasındakı səmimi dostluqdan danışdı. Vəziri-muxtar A.S.Qriboyedovun səhvlərini də etiraf etdi. Çıxışlardan sonra şahzadə Xosrov Mirzə ilə əl tutub görüşən imperator I Nikolay dedi: "Mən başıbəlalı Tehran hadisəsini əbədi olaraq yaddan çıxardıram".

İmperator həmdə elan etdi ki, dostluq naminə İranın verəcəyi müharibə borcunun doqquzuncu kururundan imtina edir və onuncu kururun ödəmə müddətini beş ilədək uzadır.

Bununla da Rusiya - İran arasında alovlanacaq müharibənin odu söndürüldü.

Sonra hər iki ölkənin şairlərinə söz verildi. Saray şairi Dmitri Xvostov İran şahzadəsinə baş əyib onun şəninə yazdığı "Şərq hakiminin nəvəsinə" şerini oxudu. Fazil xan Şeyda isə "Şərq təxəyyülünün çiçəklərini Şimal qarına səpələdi" adlı rus dövlətini vəsf edən qəsidəsi ilə çıxış etdi.

* * *

... - Oho, şahzadə necə də qururludur, daha doğrusu özünü çox dartır, - deyə qraf Aleksey Çeçurin kinayə ilə deyindi.

- Əzizim, görünür, siz Şərq adamlarını yaxşı tanımırsınız. Axı, o şahzadədir, sizə özündən müştəbeh kimi görünsə də, çox nəzakətli və ağıllı adamdır. Bir də ki, niyə təəccüb edirsiniz? Hazırda İranın sahibi qacarlardır. Bu da o nüfuzlu nəslin oğludur. Zənnimcə, bizim heç bir qrafımız, knyazımız alicənablıqda onunla ayaqlaşa bilməz.

- Lütfən deyin, şahzadəyə olan belə ali hüsni-rəğbətiniz hardandır, xanım?

- Mənə onunla balda görüşmək, rəqs etmək nəsib oldu, qraf Potolskinin sarayında... Xüsusilə, onun alicənablığı, Şərq istiqanlığı məni valeh etdi.

- Oho, xanım, Siz ona valeh olmusunuz. Daha doğrusu, şahzadəyə vurulmusunuz. Bu, mənim yəqinimdir....

Qrafinya Olqa Lixeryeva zərif yelpiyini oynada - oynada, nazla:

- Düz tapmısınız, - dedi, - qraf, onu görəndən mənim yuxum ərşə çəkilib, ruhum göylərdə mələklərlə uçur. Yuxumda əsrarəngiz Şərq mənzərələri görürəm. Görürəm ki, nağılabənzər dəbdəbəli saray, qullar, qaravaşlar, bir də onların hakimi-mütləqi şahzadə Xosrov Mirzə mənimdir. Ah, mənə əzab verən həsrət kaş çin olaydı...

Kədərlə boynunu əyib bədbəxt adamlara məxsus yazıq bir görkəmə düşdü.

- Özünüzü üzməyin xanım, bu, baş tutan sevda deyil. Unutmayın ki, şahzadənin əlində, ayağında bizim sevimli şairimiz Aleksandr Sergeyeviç Qriboyedovun qanı var...

- Qraf, şahzadə ara vuran erməni deyil ki, əlini nahaq qana bulaya. Bütün saray əyanları, bütün Rusiya bilir ki, nahaq qanın baiskarı, daha doğrusu,

Qriboyedovun faciəli ölümünün səbəbkarı şah sarayının xəzinədarı erməni Yakov Markaryan və ştabs-kapitan Məlik Şahnazaryandır. Allah eşqinə, yalvarıram sizə, qraf, mənim yanımda şahzadə haqqında pis fikirlər söyləməyin.Özünüz şahidsinizki, əlahəzrət imperator onu necə lütfkarlıqla qəbul etdi. İranın bütün günahlarını ona bağışladı.

- Şahzadə isə əvəzində dünyanın ən qiymətli almazlarından birini Rusiyaya hədiyyə etdi.

- Siz muzey eksponatı olacaq soyuq almazı görürsünüz. Siz necə də daş qəlblisiniz, İlahi, amma şahzadənin gözəlliyini yox, - deyib qrafinya Olqa Lixarayeva sakit addımlarla müsahibindən uzaqlaşdı...

1829-cu ilin sonuna kimi Peterburqda qonaq olan şahzadə Xosrov Mirzə Qacar bütün ali dairələrdə beləcə məhəbbətlə sevilirdi. Otuzuncu ilin əvvəllərində Tiflisə gələn şahzadə sağ-salamat Vətəni İrana qayıtdı. O, 1875-ci ildə, altmış doqquz yaşında vəfat etdi. Şahzadə 1806-cı ildə anadan olmuşdu. Vəliəhd Abbas Mirzənin kəniz arvadından olan şahzadə Xosrov Mirzə Qacar rus - İran əlaqələri tarixində həmişə məhəbbətlə xatırlanır və yenə də xatırlanacaqdır.

10 mart 1992-ci il.

GENERAL - LEYTENANT ƏRƏBLİNSKİ

Min doqquz yüz ikinci il, yanvarın üçündə Dərbəndin qədim Qırxlar qəbiristanlığında istefada olan general-leytenant Balakişi Əlibəy oğlu Ərəblinskini əsgəri şərəflə dəfn etdilər. Bu, Qafqazın müsəlman əhalisindən Rusiyada ilk ali hərbi təhsil alan Azərbaycan oğlu idi.

Həmin gün general-leytenantı Dərbənd əhalisi, Abxaz, Samur, Abşeron və Şirvan süvari alayının əsgərləri şərəflə son mənzilə yola saldılar.

Tam əlli il rus ordusunda nümunəvi xidmət edən general-leytenant Balakişi Ərəblinski 1828-ci ildə Zaqatalanın Tala kəndində anadan olmuşdur. Mahal rəisi Əlibəyin ailəsində böyüyən Balakişi Peterburqdakı birinci dərəcəli kadet korpusunu 1848-ci ildə müvəffəqiyyətlə bitirib kornet rütbəsi almışdır. Müxtəlif hissələrdə qüsursuz xidmət edən Ərəblinski çox gənc yaşlarında, podpolkovnik rütbəsində briqada komandiri kimi məsul vəzifəyə irəli çəkilmişdir. Sonralar diviziya komandiri olan general-leytenant Balakişi Ərəblinski əlli illik xidmətində o vaxt Rusiyada olan bütün yürüş və döyüşlərdə iştirak etmişdir.

Hələ 1848-49-cu[21] illərdə Vilaqoş qalası uğrunda gedən ağır döyüşlərdə həmyerlimiz kapitan Ərəblinski də mərdliklə vuruşaraq "Birinci dərəcəli müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur.

---

[21] 1849-cu ildə Macarıstanda Avstriya hökmranlığına qarşı inqilabi üsyan olmuşdur. Həmin üsyan zamanı rus imperatoru Nikolay, Avstriya imperatoru Frans Iosifin xahişilə oraya xeyli qoşun göndərərək qəhrəman macar xalqının öz milli azadlığı uğrunda mübarizəsinin amansızcasına yatırılmasına kömək etmişdir - müəl.

Balakişi Ərəblinskinin ikinci böyük yürüşü 1854-cü ildə Rusiyanın Xivə xanı ilə apardığı müharibədə olmuşdur. Bu hərbi səfərdə mayor Ərəblinski general Lazerevin ordusunda vuruşurdu.

Bu illərdə Qarabağ süvari dəstəsinin tərkibində general-leytenant Fərəc bəy Ağayev, Azərbaycan süvari briqadasında general-mayor İsmayıl bəy Qutqaşınlı, Mənsurağa Vəkilov, ikinci süvari Azərbaycan alayının komandiri, polkovnik İsrafil bəy Yadigarov, podpolkovnik Cəfərağa Əlibəyağa oğlu, general-mayor Cəfərquluağa Bakıxanov, dördüncü İrəvan süvari batalyonunun komandiri mayor Ağasıbəy Afşarov **(1883-cü ildən general-mayor olub - Ş.N.),** mayor Firudin bəy Vəzirov **(1877-1818-ci illər Rusiya Türkyə müharibəsində general-mayor rütbəsi alıb-Ş.N.)** və başqa həmyerlilərimiz qorxmaz döyüşçü, bacarıqlı komandir kimi tanınırdılar.

1853-56-cı illərda Krım müharibəsində dörd süvari alayında mindən çox azərbaycanlı əsgər və zabit vuruşurdu. Onlardan biri də Balakişi Ərəblinski idi. Bu müharibədə podpolkovnik Ərəblinski göstərdiyi igidliyə görə üstü yazılı qılınc və "Müqəddəs Anna" ordeni ilə təltif olunmuşdu.

Balakişi Ərəblinskinin iştirak etdiyi sonuncu müharibə 1877-1878-ci illərdəki Rusiya-Türkiyə müharibəsi idi. Görkəmli sərkərdə 21-ci piyadalar diviziyasının briqada komandiri kimi yüksək vəzifəyə təyin olunmuşdu. Qısamüddətli döyüşdə göstərdiyi qeyri-adi igidliyə və əvəzsiz komandirlik fəaliyyətinə görə həmyerlimiz Balakişi Ərəblinski general-mayor rütbəsinə layiq görülmüşdü.

1898-ci ildə istefaya çıxan general-leytenant Balakişi Ərəblinski Dərbəndə qayıtmış, ömrünün axırına kimi orada yaşamış, imperator tərəfindən ona hədiyyə olunan torpaq sahəsinə başçılıq etmişdir. Yerli əhali arasında gözəl insani keyfiyyətləri ilə hədsiz hörmət qazanmış general-leytenant Balakişi Ərəblinskinin şərəfinə adlandırılan Dərbənd yaxınlığındakı qəsəbə və stansiya indi də onun adını daşıyır.

1902-ci il 20 yanvar tarixli nömrəsində "Kaspi" qəzeti general-leytenant Balakişi Ərəblinskiyə həsr etdiyi nekroloqda yazırdı: "Mərhum təbiətən humanist idi. Rütbəsindən və milliyyətindən asılı olmayaraq, çətin anlarda həmişə hamının kömyəinə gəlir, həyatda özünü çox səda aparırdı. Rəis kimi xidməti işdə tələbkar olsa da, ədalətli idi. Tabeliyində olanlara qayğı ilə yanaşırdı. Buna görə də ən aşağı rütbəlilər belə onu ata kimi sevir, hörmət edirdilər.Onun diqqəti cəlb edən keyfiyyətlərindən biri də qonaqpərvərliyi idi.

General-leytenant Balakişi Ərəblinskinin dəfn mərasimində iştirak edənlərin hədsiz çoxluğu ona olan xalq məhəbbətinin əyani təzahürüdür. Onun evindən qəbiristanlığa qədər uzanan yol mərhuma son borcunu vermək məqsədi ilə tabutu müşayiət edənlərlə dolu idi".

General-leytenant Balakişi Ərəblinskinin iştirak etdiyi müharibələr haqqında indiyədək onlarla elmi, bədii əsərlər yazılıb. Ancaq nədənsə general Ərəblinskinin adı bu müharibəyə aid nə elmi, nə də bədii əsərlərdə heç olmasa bir dəfə də çəkilmir. Tədqiqatçı və tarixçilərimiz onun haqqında heç bir məlumat verməyiblər.

İlk dəfə mənə general Ərəblinski haqqında söhbət açan Azərbaycan Dövlət Tarix Muzeyinin elmi işçisi Nərmin xanım Tahirzadə oldu. Onun nəvələrini tapmaqda da Nərmin xanım köməyimə çatdı.

Hazırda general-leytenant Ərəblinskinin iki nəvəsi Bakıda yaşayır. Montin qəsəbəsində yaşayan qız nəvəsi Fatma xanım, general babası dünyadan köçəndən iki il sonra anadan olub. Fatma xanımın dediyinə görə, babasının mənsub olduğu Ərəblər məhəlləsi Zaqatalada indi də durur.

Fatma xanımda generalın cəmi iki şəkli, bir də generalın qızı Sona xanım Ərəblinskayanın bacısı Nurcahana atasının xəstəliyi və ölümü haqqında yazdığı qısa bir məktubu saxlanılır.

"Noyabrın iyirmisində sarılıq xəstəliyinə tutuldu, az sonra sağaldı və bədbəxtlikdən yenidən çiban çıxartdı. Dekabrın ikisində təşrih edib yaranı kəsdilər. Yaranın yerini qızmar dəmirlə xlorofomsuz dağladılar. Atamız yaşlı olduğuna görə xlorofomdan istifadə etmək olmazdı. Operasiyadan sonra özünü bir qədər yaxşı hiss etdi. İyirmi gündən sonra əhvalı birdən-birə pisləşdi və keçindi.

Min doqquz yüz ikinci il yanvarın ikisində dəfn olundu. Müxtəlif polklardan zabitlər, deputatlar gəlib anamıza başsağlığı verdilər.

Evimizin qabağı adamla dolu idi. Sonra matəm musiqisi çalındı. Küçələrdə adam əlindən güclə tərpənmək olurdu".

General-leytenant Ərəblinskinin ikinci nəvəsi Həyat xanım Abdullayevadan isə onun çox qısa tərcümeyi- halını öyrənə bildim.

Bir dafə Azərbaycan Dövlət Tarix Muzeyinin inqilabaqədərki sərgi guşəsində bir portret gördüm. Orada meşin divanda əyləşən Bakı milyoneri Hacı Zeynalabdin Tağıyev öz evində təsvir olunmuşdu. H.Z.Tağıyevin başının üstündən isə general-leyenant Balakişi Ərəblinskinin portreti asılmışdı. Bələdçi qızdan portretdəki generalın kimliyini soruşdum. "Bilmirəm, tanımıram - dedi. - Bircə H.Z.Tağıyevi tanıyıram..."

General Balakişi Ərəblinskinin portreti H.Z.Tağıyevin başı üstündən təsadüfən asılmayıb. Onlar qohum idilər. Generalın kiçik qızı Sona xanım Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı idi. Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabındakı maraqlı epizod bunu bir daha təsdiq edir. Müəllif yazırki, Hacı Zeynalabdin öz qızları Sara və Leylanı Peterburqa, Smolnı Qızlar İnstitutuna oxumağa göndərmək qərarına gəlir və sənədləri ora göndərir. Çox keçmir, Smolnıdan rədd cavabı gəlir ki, nə bəy, nə xan və nə də zadəgan olmadığınız üçün qızlarınızı qəbul edə bilmərik; bu instituta yalnız qraf, knyaz, xan, bəy, əmir qızları qəbul edilir.

Hacının arvadı Sona xanım rəsmi sənəd təqdim edir ki, atası general Balakişi Ərəblinski müharibədə rəşadət göstərib və Rusiyaya sədaqətinə görə çar tərəfindən qızıl silahla təltif olunub; bu qızlar da onun nəvələridir, bütün imtiyazlardan istifadə etmək hüquqları var.

Tağıyevin qızları ana babalarına - general Ərəblinskiyə görə Smolnı Qızlar İnstitutuna qəbul edilirlər.

Hacı Zeynalabdin Tağıyevin qızı Sürəyya xanımın xatirələrindən:

- Hələ ötən əsrin doxsanıncı illərində Buxara əmiri Seyid Mir Əbdül Əhəd xan hər il Qafqaza müalicəyə gedərdi. Onun yolu hər dəfə Bakıdan keçər və gedib

qayıdanda məiyyəti ilə bərabər bir neçə gün şəhərimizdə qalar, neft mədənlərinə, toxuculuq fabrikinə, ayrı-ayrı zavodlara, Mərdəkandakı bağbanlıq məktəbinə, Bibi-Heybət məscidinə, teatr və digər yerlərə baş çəkərdi. ...Buxara əmiri hər dəfə Bakının bir neçə nəfər yüksək rütbəli mənsəb sahiblərinə, milyonçulara və hətta adi adamlara belə qızıl və gümüşdən birinci və ikinci dərəcəli Buxara "Ucalan ulduz" ordeni və digər Buxara medalları bağışlayırdı. Atama və ana babam general-leytenant Ərəblinskiyə də birinci dərəcəli "Ucalan ulduz" qızıl ordeni vermişdi. Hacıya arxa tərəfində xoş sözlər həkk edilmiş iri, çox qiymətli bir qızıl saat da bağışlamışdı.

"ƏRƏBLİNSKİ" ƏHVALATI

Hörmətli redaksiya! Qəzetinizdə "Hüseyn Ərəblinski" əhvalatını oxudum. İstər-istəməz xalqımızın ilk general-leytenantlarından biri Balakişi bəy Əlibəy oğlu Ərəblinski /1828-1902/ haqqında Dərbənddə apardığım axtarışlarımı xatırladım.

1898-ci ildə istefaya çıxan general Balakişi bəy Ərəblinskiyə imperator Dərbəndin altı kilometrliyindəki böyük bir torpaq sahəsini özünün arzusu ilə hədiyyə edir. General burada kənd saldırır və stansiya tikdirir. Hazırda qəsəbədir, orada üç mindən çox azərbaycanlı yaşayır. Stansiya və qəsəbə indi də "Ərəblinski" adlanır. Sizin qazet yazır ki, "1906-cı il idi. Bakı artistləri Dərbənddən, qastroldan qayıdırdılar".

Əksinə, həmin il məşhur aktyor Hüseyn Xələfov aktyor dostları Mirmahmud Kazımovski, İbrahim İsfahanlı, Cahangir Zeynalov, Midhət və Maxmud Malikov qardaşları ilə Bakıdan Dərbəndə qastrola gedirdilər. Həmin stansiyada qatar xeyli gözləməli olur. Onlar düşüb stansiyada gəzişirlər. Qarşıdan gələn tatarı gözləyirlər ki, yol açılsın. Bu vaxt Mirmahmud Kazımovski:

- Hüseyn, - deyir, - sən özünə təxəllüs axtarırsan, bir stansiyanın adına diqqət elə...

Hüseyn Xələfov:

- Nə demək istəyirsən?

- Gəlsənə özünə Ərəblinski təxəllüsünü götürəsən. Pis döyül, balam, dilə yatandır, yaxşı da əzəmətlə səslənir. Dostlar razılıq əlaməti olaraq bir-birinin üzünə baxırlar.

Dərbəndə çatan kimi afişaya Hüseyn Xələfov əvəzinə "Hüseyn Ərəblinski" yazırlar. O vaxtdan böük aktyor bu təxəllüsü qəbul edir. Onu da xatırladım ki, həmin illərdə aktyorlar arasında mahal, şəhər adlarını familiya kimi qəbul etmək dəbdə olub. Bakıda isə bu daha böyük gurultu və səs-küylə qarşılanır. İlk vaxtlar qəzet satanlar küçələrdə qışqırırlarmış ki, təzə aktyor peyda olub: Hüseyn Ərəblinski.

Dönə-dönə qədim Dərbəndə səfərimdə ağsaqqal Kərim Paşabəyov, Davud Talıbov və başqaları bu əhvalatı mənə danışıblar. Aktyor Hüseyn Ərəblinskiyə gözəl bir qızın gül bağışlaması, Hüseynin ona vurulması və vüsalına yetmədiyi o afətin eşqinə onunla ilk və son dəfə rastlaşdığı

“Ərəblinski” stansiyasının adını özünə soyadı götürməsi isə həqiqətə uyğun deyildir.

Hətta bəziləri yazırlar ki, guya aktyor Hüseyn Xələfov generalın qızını sevirmiş, lakin qızı ona vermədiklərinə görə o, Ərəblinski təxəllüsünü götürüb. Bu da tamamilə yalan faktdır. Çünki aktyor Dərbənddə olanda generalın vəfatının dörduncü ili idi.

Bu barədə mən gözəl folklorçumuz mərhum Qulu Məmmədli ilə də söhbət etmişdim. O, bu əhvalatın bizim bir teatrşünas qadın /o, rəhmətə gedib/ tərəfindən uydurulduğunu və doğru olmadığını təsdiq etdi.

Qəribə burasıdır ki, bu səhv fakt ədəbiyyatımıza da gəlib çıxıb. Gözəl əsərlər müəllifi, görkəmli dramaturqumuz Sabit Rəhman Hüseyn Ərəblinskinin ömur yolundan “Son faciə” adlı povest yazıb.

“1906-cı ildə Dərbənddə qastrol verib geri qayıdırdılar... Kiçik bir stansiyada əyləndilər. Əylənməyin səbəbi bu idi ki, qabaqda məşhur general, mülkədar Ərəblinskini gətirən qatar vardı. O qatar gəlib getməli, sonra da bunlar getməli idilər". /**Sabit Rəhman, əsərləri, II cild, səh. 253**/.

O vaxtlarda general Ərəblinski haqqında tədqiqat aparılmadığına görə mərhum dramaturqumuza məlum deyilmiş ki, general-leytenant Balakişi bəy Ərblinski 1902-ci il yanvarın 1-də vəfat etmişdir. Onda mərhum general 1906-cı ildə qatarda necə gedə bilərdi.

GENERAL FƏRƏC BƏY AĞAYEV

1858-ci ildə Şamaxıdakı dörd sinifli ali ibtidai məktəbdə yüz qırx dörd nəfər buraxılış imtahanı verirdi. Onlardan otuz iki nəfəri azərbaycanlı idi. Burada zadəgan, ruhani, rəiyyət silkinə məxsus uşaqlar təhsil alırdılar. İmtahan verənlər arasında uzun illar çar ordusunda xidmət edən praporşik Səlim bəyin oğlu Həsən bəy Məlikov də vardı. Buraxılış imtahanlarını qeyri-adi bir müvəffəqiyyətlə verən Həsən bəy fitri istedadı ilə hamını heyran qoydu. İmtahanda iştirak eden Qafqaz təhsil dairəsinin müdiri baron Aleksandr Pavloviç Nikolai Həsən bəy Məlikovun padşahlıq hesabına birinci dərəcəli Tiflis gimnazysına qəbul olunmasına razılıq verdi.

Lakin məktəbin direktoru üzrxahlıq edib:

- Aleksandr Pavloviç, - dedi, - cəsarat edib haqqında hüzurunuza tərif dolu tələbnamələr yazdığım şagird Həsən bəy Məlikov, bax, budur. Özünüz onun biliynin şahidi oldunuz.

- Yadımdadır, səhv etmirəmsə, bir ildə iki dəfə yazmışdınız, - baron Nikolai ani olaraq fikrə gedir, - cənab direktor, - dedi, - bu cılız müsəlman balası sizin yazdığınız təriflərə də layiqdir. Əlbəttə, bu müvəffəqiyyətin qazanılmasında sizin müəllimlərin böyük əməyi var. Mən onunTiflis gimnaziyasında oxumasına bütün qəlbimlə sevinərdim. O, həqiqətən istedadlı uşaqdır.

Məktəb müdiri ona və məktəbinə deyilən tərifdən xoş hal olub, barona hörmətlə təzim etdi.

- Möhtərəm Aleksandr Pavloviç, ancaq bir çətinliyimiz var.

- Nədi o çətinlik, nədən ibarətdir?

- İnişil bu uşağın atası Səlim bəy vəfat etdi. İndi ailəsinin başçısı onun böyük qardaşıdır. O da iki ayağını bir başmağa dirəyib deyir ki, qardaşım Həsən bəyin Tiflisə oxumağa getməsinə razı deyiləm.

- Niyə?

- Deyir ki, uşağı gözümdən qoya bilmərəm. Hələ çox balacadır.

- Olarmı o cənabla özüm söhbət edəm? Bəlkə yola gətirdik.

- Olar, amma bir məsələni sizə açım...

Baron şəhadət barmağını dik tutub zarafatla:

- Dayan, dayan, yəqin sünnidir, tərs damarı var. Sən də ondan qorxursan, - deyib başını bulaya-bulaya: - ay müsəlmanlar, ay müsəlmanlar...

- Yox, Aleksandr Pavloviç, sünni olmarına sünni deyil, qorxuram, tərs damarı tutar, daha da acığa düşər, belə istedadlı uşaq əlimizdən çıxar. Mən bir fənd işlətmişəm. Deyim, qulaq asın. Həsən bəyin atasının dayısı general-leytenant Fərəc bəy Ağayev Tiflisdə yaşayır. Yəqin ki, siz də onu tanıyırsınız. Generalın imzası ilə bir xahişnamə hazırlamışam. Guya o, bizim məktəb müdiriyyətindən xahiş edir ki, Həsən bəyi Tiflis gimnaziyasına oxumağa göndərək...

- Qardaşı yenə də razılaşmır?

- Biz hələ generalın məktubu barədə Həsən bəyin böyük qardaşına bir söz deməmişik. İstərdik ki, məktub barədə ona siz deyəsiniz.

- Niyə məhz mən?

- Ona görə ki, siz Qafqaz təhsil dairəsinin hamisisiniz. Zaqafqaziya Baş İdarəsi Sovetinin üzvüsünüz, həmdə həqiqi-mülki müşavirisiniz. Sizin - baron Aleksandr Pavloviç Nikolainin sözü daha inandırıcı olar.

- General-leytenant Fərəc bəy Ağayev həzrətlərini mən də yaxşı tanıyıram. Deyirsən, cəsarət edib onun adından danışaq? Mənə belə gəlir ki, bir müsəlman ziyalısının artması üçün işlətdiyimiz fəndə görə general bizi bağışlar. Amma onu da deyim ki, bu fənd heç də bəd deyil. Çox məharətlə tapılıb. Uşağı xilas etməyin başqa yolu yoxdur. General tərəfdən arxayın olun, razılıq mənim boynuma. Bu barədə Tiflisə qayıdan kimi onun özünə də məlumat verərəm.

Baron Aleksandr Pavloviç Nikolai Tiflisə qayıdanda Şamaxı məktəb müdirinin işlətdiyi "fənd" haqqında generala məlumat verdi. General bığaltı gülümsündü və məmnuniyyətlə qohumu Həsən bəy Məlikovu himayəsinə keçirərək, Birinci dərəcəli Tiflis Gimnaziyasına qəbul olunmasına kömək etdi.

Bəs, general-leytenant Fərəc bəy Ağayev kimdir? Necə olub ki, tədqiqatçılarımız onun üstündən sükutla keçiblər? Həsən bəy Zərdabi kimi görkəmli maarifpərvəri bizə bəxş edən bu xeyirxah adamın ömür yolu həyatın hansı sınaqlarından çıxıb?

General-leytenant Fərəc bəy Ağayevin haqqında biz ilkin məlumata "Kavkaz" qəzetinin səkkiz dekabr 1891-ci il tarixli nömrəsində və "Kavkazski kalendar" illik məcmuəsinin 1873-1874-cü illərdəki nömrələrində rast gəldik. Birinci mənbədə haqqında geniş məlumatla "Fərəc bəy" kimi təqdim olunan eloğlumuz, ikincidə Qafqaz Əlahiddə Ordusunun generalları sırasında "Nikolay

Nikolayeviç Arayev” adlandırılır. Ona görə ki, bu yaraşıqlı, ilk azərbaycanlını 1844-cü ildə imperator Nikolay və onun arvadı Mariya Aleksandrovna xaç suyuna çəkib oğulluğa qəbul etmişdilər.

Uzun müddət Peterburqda xidmət edən padşahın sevimlisi Fərəc bəy Ağayev Qafqaza qayıtdıqdan sonra yaxın qohumları belə yaxşı munasibət bəsləməmişlər. Hətta Həsən bəy Zərdabi məktublarından birində yazır ki, ata el arasında xəcalət çəkirdi ki, dayısı rus adını qəbul edib. Ona görə də ondan üz döndərib küsmüşdü. Get-gəlimiz belə yox idi. Ömrünün sonlarında Tiflisdə yaşayan generala hamı “rus Ağayev deyərmiş. Şübhəsiz ki, sonralar səhvini başa düşən general vəsiyyət etmişdir ki, nekroloqunda ad-familiyası Fərəc bəy Ağayev kimi göstərilsin. Onun bu vəsiyyətinə əməl olundu.

General-leytenant Fərəc bəy Ağayev füsunkar Qarabağın Şuşa şəhərində 1811-ci ildə adlı-sanlı bəy ailəsində dünyaya gəlib. İlk hərbi təhsilini Tiflis kadet korpusunda aldıqdan sonra 1837-ci ildə Qafqaz Əlahiddə Ordusunda müsəlman süvari polkunda xidmət başlayıb. Xidmətinin yeddinci ilində ən yaxşı qvardiya rotmistri Fərəc bəy eskadron komandiri kimi Peterburqa göndərilir. Peterburqda o, birinci Nikolayın xüsusi qvardiya kazak polkunda leyb-qvardiya komandiri vəzifəsinə təyin olunur. Elə burdada o, imperatorun və onun arvadı Mariya Aleksandrovnanın sevimlisi olur.

Fərəc bəy Ağayev özünün qeyri-adi hərbi qabiliyyəti və igidliyi sayəsində xidmətinin on ili ərzində polkovnik rütbəsinə kimi yüksəlir. 1850-ci ilə qədər Peterburqda, xüsusi qvardiya kazak polkunda qüsursuz xidmət edən polgovnik F.Ağayev həmin il Əlahiddə Qafqaz Ordusunun sərəncamına göndərilir.

1853-cü ildə Krım müharibəsi başlananda polkovnik Fərəc bəy Ağayev Qarabağın azərbaycanlı igidlərindən ibarət süvari alayını təşkil edib, özü də onun komandiri olur. Müxtəlif arxiv sənədləri, komandanlığa göndərilən raport və məktublar göstərir ki, Fərəc bəyin şuşalılardan ibarət süvari polku Kürəkdərə uğrunda gedən döyüşlərdə altmış minlik korpusa qarşı dönməz bir iradə ilə vuruşmuşdur. 1854-cü ildə osetinlərdən təşkil olunmuş milis alayı da Fərəc bəyin alayına təhkim edilir. Süvari qoşun dəstəsinin komandiri kimi yüksək vəzifə daşıyan eloğlumuz hərbi xidmətinə və qoşun başçısı kimi göstərdiyi qəhrəmanlığa görə üstündə “Cəsurluğa görə” yazılmış xəncərlə, çoxlu hərbi ordenlərlə, həmçinin imperator tacı ilə bəzədilmiş birinci dərəcəli “Müqəddəs Anna” ordeni və ikinci dəfə birinci dərəcəli “Müqəddəs Anna” (qılıncla birgə) ordenləri ilə təltif olunmuşdur.

1853-56-cı illərdəki sərkərdəlik fəaliyyətinə görə Fərəc bəy Ağayev general-mayor kimi yüksək rütbəyə layiq görülür.

Müharibə yenicə başlayanda Fərəc bəy Ağayevin başçılığı ilə Qarabağ Azərbaycan süvari dəstəsinin təşkili haqqında Peterburqa məlumat göndərən qraf Vorontsov qeyd edirdi ki, polkovnik Fərəc bəyin sayəsində könüllü dəstələr tezliklə yığıldı. Döyüşçülər yürüşə məşhur Qarabağ kəhərlərində və layiqincə silahlanmış halda başladılar.

Qırx ilə yaxın orduda qüsursuz xidmət edən Fərəc bəy Ağayev 1882-ci ildə general-leytenant rütbəsində istefaya çıxmışdır. Ömrünün sonuna kimi Tiflis Xeyriyyə Cəmiyyətində çalışan general-leytenant Fərəc bəy Ağayev min səkkiz

yüz doxsan birinci il noyabrın iyirmi altısında səksən yaşında Tiflisdə vəfat etmişdir.

GENERAL HƏSƏN BƏY AĞALAROV

8 avqusq 1944-cü il. Bu gün qəzet buraxdıq… Vətəndən gələn hədiyyələr arasında rus ordusunun general-leytenantı Əliağa Şıxlinskinin "Xatirələrim" kitabına rast gəldim. Bu qoca generalın kitabı mənə çox gözəl təsir bağışladı. O, bu kitabı ölümündən bir qədər əvvəl diqtə etmişdi. Ancaq hərbi tariximiz üçün böyük əhəmiyyəti var. Azərbaycanın belə generalları çox olmuşdur. Hanı onların adı? Niyə onlar haqqında yazılmır?

Məmməd ARANLI,
"Cəbhə gündəliyi ".

Bir dəfə Azərbaycan Dövlət Tarix Muzeyində axtarış aparanda heç vaxt görmədiyim bir general şəklinə rast gəldim. Maraqlanıb kimliyini soruşdum. Muzeyin elmi işçisi Sara xanım Cavanşirova dedi ki, bu yaxınlarda əldə etmişik, haqqında çox az məlumatımız var. Deyilənə görə, portret yuz qızıl pula işlənib...

General-mayor Həsən bəy Ağalarovun portreti naməlum rəssam tərəfindən çəkilib. Portretin hündürlüyü səksən beş, eni isə yetmiş santimetrdir. Yeni tarix fondunda saxlanan bu portretə zərli çərçivə o qadər yaraşıq verir ki, bir müddət ondan ayrıla bilmirsən.

"Qafqaz hərbi-tarix muzeyi"nin 1913-cü ildə nəşr etdiyi altı yüz otuz bir nömrəli "Soraq kitabçası"nı səhifə-səhifə vərəqləyirəm. Bu kitabçada inqilabdan əvvəlki yüksək rütbəli zabitlər və generallar haqqında məlumatlar var. Siyahı üzrə 244-cü bölmədə general-mayor Həsən bəy Ağalarov haqqında az da olsa, məlumata rast gəlirəm.

Həsən bəy Ağalarov 1812-ci ildə Tiflisdə zadəgan ailəsində anadan olub. O, 1830-cu ildə kadet korpusunu bitirdikdən sonra Qafqaz müsəlman-süvari polkunda xidmət edib. Az sonra bölük komandiri Həsən bəy Ağalarovun fərasəti və hərbi işdəki nizam-intizamı general-leytenant knyaz Vasili Osipoviç Behbudovun diqqətini cəlb edir. Ona görə də general, poruçik Həsən bəy Ağalarovu qərargah işləri üzrə ən yaxın köməkçisi təyin edir.

1833-cu ilin noyabrında azərbaycanlılardan ibarət Qafqaz süvari diviziyası Varşavaya ezam olunanda onun sıralarında general İsmayıl bəy Qutqaşınlı. Abbasqulu ağa Bakıxanovun kiçik qardaşı general Cəfərqulu ağa Bakıxanov, kapitan Həsən bəy Ağalarov da vardı.

1840-cı ildə ştabs-kapitan rütbəsində olan Həsən bəy əla xidmətinə görə dördüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunub. 1849-cu ildə onun alayı Debreçin şəhəri uğrunda gedən döyüşlərdə macarların bir rotasını darmadağın

edib dörd topunu alanda, polkovnik Həsən bəy Ağalarov döyüşdə göstərdiyi igidliyə görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeninə layiq görülüb.

1852-ci ildə isə polkovnik Həsən bəy Ağalarov Qafqaz müsəlman süvari polkunun komandiri təyin olundu. Bir il sonra Krım müharibəsi başlananda Qafqaz oğulları da silaha sarıldılar. Xüsusi döyüş dəstələri yaradıldı. "1853-56-cı illər şərq müharibəsinin təsviri" kitabının müəllifi A.F.Qeyrot yazır ki, təkcə gəncəlilərdən ibarət iki süvari dəstəsi yaradılmışdı. Onların ümumi sayı min nəfər cəsur atlılardan ibarət idi. Bu süvarilər hansı cəbhəyə göndərilirdisə, oradan igidlik və rəşadətləri haqqında xoş sözlər eşidilirdi.

1853-cü il noyabrın 2-də Bayandur kəndi uğrunda gedən döyüşlərdə general-mayor İlya Orbelianinin komandanlığı altında qafqazlılar mərdlik və mətanətlə döyüşürdülər. Bu döyüşlərdə gürcü Kavtaradzenin və azərbaycanlı Ağalarovun əsgərləri xüsusilə fərqlənirdilər. Bütün hücumları dəf edən rus və azərbaycanlı döyüşçülərinin sarsılmaz dəyanəti düşməni qorxuya salacaq dərəcədə idi.

Tarixçi A.F.Qeyrot kitabının 191-192-ci səhifələrində Bayandur kəndi yaxınlığında gedən ölüm-dirim vuruşmasında mərd babalarımızın hünəri haqqında iftixarla söhbət açır:

"Orbeliani dəstəsi gözlənilmədən 40 topdan atılan güclü atəşlə qarşılandı. Rus artilleristləri dərhal cavab atəşi açdılar, lakin qüvvələr bərabər deyildi. Güclü top atəşi və düşmən süvarilərinin hücumu başlandı. İkinci Azərbaycan süvari dəstələri top atəşi ilə müdafiə olunan düşmən atlılarının güclü hücumuna məruz qaldı. Tixotski özünün draqun diviziyası ilə vaxtında azərbaycanlı döyüşçülərin köməyinə çataraq düşməni ciddi-cəhdlə əzməyə başladılar. Draqun diviziyasının və Azərbaycan atlılarının zərbələri altında əzilən düşmən süvariləri qaçmağa üz qoydular"

1857-ci ildə general-mayor rütbəsinə layiq görülən Həsən bəy Ağalarov əlahiddə ordusunun zabiti kimi ömrünün axırına qədər döyüşən hissələrdə hərbi borcunu şərəflə yerinə yetirmişdir.

General Həsən bəy Ağalarovun sənədləri ilə tanış olduqda görürük ki, o, Tiflisdə yaşayan mütərəqqi fikirli Azərbaycan ziyalıları ilə dostluq etmişdir. O zaman canişinlikdə müşavir və tərcüməçi işləyən Ağabəy Yadigarovla, general-mayor İsrafil bəy Yadigarovla, general İsmayıl bəy Qutqaşınlı ilə, böyük dramaturq Mirzə Fətəli Axundovla və görgəmli şairimiz Qasım bəy Zakirlə yaxından əlaqə saxlamışdır.

Qasım bəy Zakir 1850-ci ildə nahaq böhtana düşüb sürgün ediləndə general Həsən bəy Ağalarov şairi xilas etmək üçün xeyli çalışmışdır. Zakir bir şerində onu xeyirxah insan, cəsur bir zabit kimi yad edir:

Həvadisi-dövran gərdişi-fələk,
Salmışdı binəyə kəbki[22] yepələk:
Tülək tərlan kimi, qafil Həsən bəg,
Şığıyıb cənkinə götürdü bayaq.

[22] Kəklik

NƏSLİ QAYİBDƏN...

Qayib oğlu ilə olmuşuq məşhur,
Nəsli Qayibdən etmişik cü hüzur.
Nəsli Qayib zükur ünas tamam,
Talibi-elmü fəzl olubdu müdam.

Abbas ağa Nazir.

* * *

Öz ata-babalarının şöhrəti ilə fəxr etmək, nəinki olar, lazımdır. Onlarıi şöhrətinə hörmət etməmək ayıbdır və qorxaqlıqdır.

Aleksandr PUŞKİN.

VƏTƏNİM QƏRYƏYİ SALAHLI

Qazaxdan Tbilisiyə gedən yolun on səkkiz kilometrliyində qədim bir kənd var. Dünyaya Molla Pənah Vaqifi, Səməd Vurğunu, Məqsud Şeyxzadəni, general İbrahim ağa Vəkilovu, İbrahim ağa Usubovu, polkovnik Əsəd ağa Vəkilovu, 1900-cü ildən Qafqaz Tibb Cəmiyyətinin həqiqi üzvü, məşhur tibb alimi Məmmədrza ağa Vəkilovu, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbovu, maarifçi Əhməd ağa Mustafayevi, Məmməd bəy Qarayevi, 1916-cı ildə Tiflisdə dar ağacından asılan igid Cahangir Kərim oğlunu bu kənd bəxş edib. Ötən əsrin rus tədqiqatçısı B.Veniaminov 1883-cü ildə Tiflisdə "Qafqaz ərazi və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə /SMOMPK-da/ nəşr etdirdiyi "Salahlı kəndi və həmin kənddə yazılmış tatar /**Azərbaycan - Ş.N**./ nağılları" məqaləsində kəndin qədimliyindən söhbət açır.

Hələ XI-XIII əsrlərdə Kür qırağında Salahlı qəryəsini Salah adlı bir müdrikin saldırdığından xəbər verir. Veniaminov yazır ki, Yuxarı, Orta və Aşağı Salahlını birləşdirən səkkiz yüz evli bu qəryədə XIX əsrdə beş mindən çox əhali yaşayırdı. Kənddə on səkkiz dükan, yeddi dəyirman, üç dəmirçixana, iki məscid və bir məktəb vardı. Kənddə ucaboylu, igid cüssəli və sağlam adamlar yaşayırdı. Ayrı-ayrı sakinlərdən söhbət açan müəllif kəndin ağsaqqalı, bayatı, şer və nəğmə gecələrinin təşkilatçısı Pənah ağa Vəkilovun vətənpərvərliyindən də məlumat verir.

Qazaxda dörd Salahlı kəndi var: Daş Salahlı, Yuxarı Salahlı, Orta Salahlı və Aşağı Salahlı. Yerli ağsaqqalların dediyinə görə, ilkin kənd Daş Salahlı olub. Qalan üç Salahlı sonralar ondan ayrılıb. Etnoqraf və tarixçilərində bir qismi bu

fikirdədir. Zənnimcə, burda həqiqətə uyğunluq var. Çünki Daş Salahlı çox qədim kənddir. Mənası da daş silahlılar deməkdir. Buna kəndin yaxınlığındakı qədim Avey dağından tapılan daş silahlar şahiddir. Tarixçilər, səyyahlar və etnoqraflar bir də sübut edirlər gi, salahlılar qədim türk nəsilli peçeneqlərin bir qolunu təşkil edən Kəngərli tayfasındandırlar.

Böyük Səməd Vurğun kəndini unutmamış, ölməz poeziyasının bir yerində, ikicə sətirdə təsvirini vermişdir.

Salahlı kəndidir o kəndin adı,
Hər yerdə sahilə söykənir ardı.

Yuxarı Salahlı kəndində ulu nəsillər çoxdur. Sədəflilər, Vəkilovlar, Mustafayevlər, Şeyxzadələr, Məmmədşəriflilər, Usubovlar və başqaları. Onlardan biri də Qayıbovlar nəslidir. Qazaxda bu nəsilə "cütcü Qayıbovlar" da deyirlər. Əfsanəyə görə, ilk dəfə obada cüt tutan, yer əkən bu nəslin oğulları olublar.

Nəslin ulusu Qayıb haqqında bir el bayatısı əsrlərin sınağından keçib gəlib. Bu gün də yaşayır.

Yar, yar demək ayıbdı
Yarın adı Qayıbdı.
Desə gəlinlər desin,
Qızlar desə ayıbdı.

Müdriklər haqlı demişlər ki, keçmişi nə qədər gözəl bilsək, hazırda yaratdıqlarımızın böyük əhəmiyyətini o qədər asan, o qədər dərin və sevinclə başa düşərik. Ona görə də bir maarifpərvər babamızın ulu nəsli haqqında məlumatları nəzərinizə çatdırırıq.

SÖZÜ ƏLAN MÜFTİYİ
QAFQAZ

Müfti Mirzə Hüseyn Əfəndi Qayıbov əsası XVI yüzilliyin əvvəllərindən başlayan, maarifə və mədəniyyətə daha çox rəqbəti olan bir nəsilə məxsusdur. Bu nəsil Azərbaycan ədəbiyyatına Molla Vəli Vidadini, Mirzə Məhəmməd Qayıb oğlu Fədaini, Mirzə Nəbi Əfəndi Qayıbovu, İsgəndər ağa Qayıbbəyovu /təxəllüsü Şair/, Abbas ağa Nazir kimi şairləri vermişdir. XIX əsrin görkəmli riyaziyyatçısı, iki cildlik "İslam təqvimi" kitabının müəllifi Əbdülkərimağa Qayıbov ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbov, ilk azərbaycanlı pianoçu qadınlardan biri Xədicə xanım Qayıbova da bu nəslin yetişdirmələridir.

Hələ 1884-cü il oktyabrın iyirmi altısı tarixli nömrəsində "Kəşkül" qəzeti yazırdı: "Paytaxt şəhərində böyük vəzifədə çalışan, ali savadlı Əbdülkərim ağa Qayıbov başqa millətlərdə olduğu kimi, bizim millətə məxsus bir teatr cəmiyyəti təşkil etməkdədir..."

Süleyman ağa Qayıbov isə 1883-cü ildə Tiflisdə M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını tamaşaya qoyanlardan biri olmuşdur.

Dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyovun məşhur "Leyli və Məcnun" operası ilk dəfə 1908-ci ildə tamaşaya qoyularkən simfonik orkestrin heyəti əsas etibarilə Üzeyir bəyin seminariya yoldaşlarından ibarət idi. Bu heyətdə Fərhad bəy Ağayev, Əli Terequlov, Ağaəli Qasımovla birgə Səməd ağa Qayıbov da iştirak edirdi. Dövrünün tanınmış ziyalısı olan maarifpərvər Səməd ağa Qayıbov böyük sənətkarımız Cəlil Məmmədquluzadə ilə bir müddət "Şərqi Rus" qəzeti redaksiyasında işləmişdir

"...Mən idarəyə daxil olan zaman o /**M.Şahtaxtlı - Ş.N./** idarədə əyləşən qələm şərikləri Ömər Faiq Nemanzadə və Səməd ağa Qayıbov idi... Səməd Qayıbov Qori darülmüəllimini bitirmişlərdən biri idi və indi Bakıda o üçüncü şura məktəbinin müəllimlərdəndir" /**C.Məmmədquluzadə**, **əsərləri III c., səh.657**/.

Peterburq və Xarkov universitlərində İlyas Qayıbov, Tiflisdə Aleksandr Müəllimlər İnstitutunda Hacı Rəhimbəy Qayıbov, Kadet korpusunda Əbdülkərim və Fərrux ağa Qayıbovlar təhsil almışlar. Təkcə Qoridəki Zaqafqaziya Müəllimlər Seminariyasıda Qayıbov familiyalı on beş nəfər oxumuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərin nəslin ən məşhur şəxsiyyəti elm mədəniyyət və din xadimi Mirzə Hüseyin Əfəndi Yusif oğlu Qayıbov olmuşdur. Altı yaşında ata-anadan yetim qalan Hüseyn ibtidai təhsilini müdərris Musa Əfəndizadədən almışdır. O, əmisi İbrahim əfəndinin himayəsində böyümüşdür. Salahlının baş molla olan İbrahim əfəndi qardaşı oğlu kamil ruhani təhsili vermişdi Hüseynin on yeddi yaşı olanda mollaxanada çərəkədən dərs deməyi o tapşırır.

1857-ci ilin qışında Zaqafqaziya müftisi, şair Molla Vəli Vidadinin nəvəsi Məhəmməd əfəndi Müftiza, /1805-1872/ qəzadakı ruhani məktəblərini təftişə gələndə cavan müəllim Hüseynin və onun dərs dediyi uşaqların müvəffəqiyyətlərindən çox razı qalır. Bir il sonra Tiflisə dəvət olunan Huseyn Qayıbov Qafqaz canişini knyaz A.İ.Baryatanskinin 31 yanvar 1858-ci il tarixli sərəncamı ilə Tiflis Müsəlman məktəbinə Şərq dilləri müəllimi təyin olunur. O, burada çalışdığı illərdə doğma kəndi Salahlını unutmamışdır. Hər il yay fəsli kəndə gələndə yaxşı oxuyan, lakin maddi çətinlik içində yaşayan uşaqları Tiflisə aparıb mədrəsəyə qəbul etdirmişdir. Mirzə Huseyn Qayıbov 1875-ci ildə Tiflisdə kasıblar üçün xüsusi məktəb açmışdır.

O vaxtlar Zaqafqaziyanın mədəni mərkəzi olan Tiflis ədəbi mühiti çox şey verdi. Yaradıcı ziyalılarla tanış oldu, maraqlı adamlarla bağladı. Gürcü şairi İlya Çavçavadze, Mixail Kipiani, Nikolay Lomouri, şərqşünas alim Adolf Berce və böyük mütəfəkkir Mirzə Fətəli Axundovla dostluğu onu maarifə, gənclərin təlim-tərbiyəsi ilə daha yaxından məşğul olmağa sövq etdi.

Zaqafqaziya müftisi Məhəmməd əfəndi Müftizadədən ərəb və fars dillərini daha kamil öyrəndi, hər iki dildə olan nadir təzkirələri, cüngləri qeyri-adi istedadı ilə az vaxtda mənimsədi. Gənc Hüseyn Tiflis ruhani məktəbinə Şərq dilləri müəllimi vəzifəsinə dəvət edildi. O, həm də M.F.Axundovla birgə Qafqaz Arxeologiya Komissiyası" üçün ərəb, fars dillərindən tərcümələr edirdi. Mətnlərin seçilməsi də ona etibar olunmuşdu.

1860-cı ildə Qafqaz Ordusunun baş qərargahının ştabs-kapitanı Nikolay Qriqoryeviç Stoletovla[23] tanış olub, dostlaşır. Stoletov Hərbçi olsa da, Şərq ədəbiyyatına, Şərq hikmətinə böyük maraq göstərirdi. Şərq xalqlarının ədəbiyyatını və tarixini orijinaldan oxumaq istəyirdi. Ona görə də Stoletov ona rus dilini, Mirzə Hüseyni isə kapitana ərəb-fars əlifbasını öyrətmək haqqında şərt kəsirlər. Bu yolla Mirzə Hüseyn rus dilini də kamil öyrənir.

Məşhur general Əliağa Şıxlinski 1944-cü ildə nəşr olunmuş "Xatirələrim" kitabında yazır:

"...Mirzə Hüseyn Tiflisə gəlir və burada biliyini artırıb, tez bir zamanda fars, ərəb dillərini, bütün fars ədəbiyyatını və ərəb dilində yazılmış elmi kitabları öyrənir. Onun rus dili müəllimi Baş Qərargahın kapitanı Nikolay Qriqoryeviç Stoletov idi. Stoletov özü isə şagirdindən Azərbaycan dilini öyrənirdi. Bu bir-birinə dərsvermə üsulu istənilən nəticəni verirdi. Mirzə Hüseyn rus dilini, N.Q.Stoletov isə Azərbaycan dilini mükəmməl öyrənmişdilər. 1908-ci ildə mən Çarskoe Seloda olduğum zaman piyada generalı, hərbi Şuranın üzvü N.Q.Stoletovla görüşdükdə, o, hər dəfə mənimlə saf Azərbaycan dilində danışardı".

General Şıxlinskinin kitabının başqa bir səhifəsində isə oxuyuruq: "Mirzə Hüseyn Qayıbov Mirzə Fətəli Axundovun çox yaxın dostu idi. O, ərəbcə kitab və təzkirələri oxumağı Mirzə Fətəlidən daha yaxşı bilirdi".

Mirzə Hüseynin Mirzə Fətəli Axundovla yaxın dostluğunu təsdiq edən bir sənəd də var. Axundov əsərlərinin üçüncü cildində /səh.121/ "Şərtnamə"ni imzalayanlardan biri də titulyarni sovetnik /münşi - katib/ Mirzə Hüseyn Qayıbovdur.

Mirzə Hüseyn Qayıbov zəmanəsinin açıqgözlü, savadlı ziyalılarından biri olmuşdur. Ərəb və fars dillərində gözəl təhsilə malik olan M.H.Qayıbov bir müddət Tiflisdə ruhani idarəsinin müsəlman mədrəsəsində şəriət və Azərbaycan dillərindən dərs demiş, Qori Müəllimlər Seminariyasında Azərbaycan şöbəsinin açılması üçun Mirzə Fətəli Axundovla birgə fəaliyyət göstərmişdir. Bu nəcib təşəbbüs dramaturqun ölümündən bir il sonra həyata keçəndə Mirzə Hüseyn seminariyanın Azərbaycan şöbəsində Şərq və Azərbaycan dillərindən, şəriətdən dərs deməyə başlayır. Mirzə Hüseyn Əfəndi seminariya üçün dövlətdən əlavə olaraq min manat xərclik alır və maddi köməyə ehtiyacı olan qırx üç nəfər seminaristi beş il öz xərcinə oxudur. 1879-cu il, sentyabrın iyirmi üçündən Qori Müəllimlər Seminariyasında müəllim işləyən Mirzə Hüseyn 1884-cü il yanvarın birində Qafqaz canişinin dəvəti ilə Zaqafqaziya sünni məzhəbi idarəsinin sədri təyin edilir. O, bu vəzifədə otuz üç il fəaliyyət göstərmişdir.

Müfti vəzifəsinə seçilərkən Mirzə Hüseyn demişdir: "Mən heç bir vaxt ruhani olmamışam və heç bir dini ayin icra etməmişəm. Bundan sonra da icra etməyəcəyəm, lakin mənə təklif olunan vazifəni qəbul edirəm. Çünki bu vəzifədə xalqıma daha böyük fayda verə biləcəyimi güman edirəm".

---

[23] Sonralar general olmuş, 1877-78-ci illərdə rus-türk müharibəcində Şipka müdafiəsinə komandanlıq etmişdir - müəl.

Mirzə Hüseyn ömrünün sonuna kimi bu vəzifədə çalışmış, yüzlərlə azərbaycanlı gənci maarif və mədəniyyətə cəlb etmişdir. O, elmi-pedaqoji fəaliyyətlə yanaşı, dini islahatlar keçirməyi zaruri sayırdı. Doqquz bölmədən ibarət "Tövsiyyənamə"sində göstərirdi ki, bütün insanlar mənşəcə eyni xilqətdən yaranıb, insan məxluqu başqa millətlərə rəğbət bəsləməlidir.

Mirzənin bu vəzifədəki fəaliyyəti barədə görkəmli maarifpərvər yazıçı Soltan Məcid Qənizadə yazır:

"...Mən Həbib bəylə /**H.Mahmudbəyov - Ş.N.** /əvvəlcə bir yerdə müftinin, sonra şeyxülislamın salamına gedib onlardan xeyir-dua alardıq. Bizim bu iki şeyx umumən Tiflis tələbələrinə çox xeyirxah və şəfqətli idilər. Müfti Hüseyn Əfəndi Qayıbov nəhayətcə maarifpərvər bir kişi idi. Sair şəhərlərdən gəlmə tələbələrə mənəvi cəhətcə köməkliyi çox olurdu". /**S.M.Qənizadə, "Gəlinlər həmayili" kitabı, Bakı, 1986, səh.233/.**

Qori Seminariyasının Azərbaycan şöbəsində elmi-ilahiyyatın tədrisi, ana dilimizdə ilk əlifba dərsliyinin yaradılması və maarif sahəsində bir sıra mühüm tədbirlərin həyata keçirilməsi xalqımıza təmənnasız xidmət iki eloğlumuzun adı ilə bağlıdır. Seminariyanın Azərbaycan şöbəsində ilk dəfə bu çətinliklərin öhdəsindən iki məşhur din xadimi gəlmişdir. Tiflis ruhani məktəblərinin elmi-ilahiyyat müəllimi /sünni təriqəti üzrə/ qazaxlı Mirzə Hüseyn Əfəndi Qayıbzadə və Salyanlı şeyxül-islam Əbdüssəlam Axundzadə.

Mirzə Hüseyn seminariyada işlədiyi illərdə /1879-1884/ seminaristlərə atalıq qayğısı göstərmiş, Rəşid bəy Əfəndiyevin, Firudin bəy Köçərlinin, Teymur bəy Bayraməlibəyovun, Məmmədağa Vəkilovun, Səfərəli bəy Vəlibəyovun və başqa ilk seminaristlərin mənəvi atası olmuşdur. O, qabaqcıl maarif xadimlərinin böyük bir dəstəsini yetişdirmişdir.

1884-cü ilin aprelində imperiyanın maarif naziri qraf İ.D.Delyanov ermənilərin fitvası ilə gizli bir əmr vermişdi: "Məhəmməd dininə mənsub olanlar ali tipli xalq məktəblərinə ən zəruri hallarda buraxılsın və institutu bitirən müsəlman müəllimlərinə şəhər məktəblərində işləmək hüququ verilməsin". Şovinist nazirin bu ədalətsiz göstərişi o dövrün bütün müsəlman ziyalıları kimi Mirzə Hüseyn Qayıbzadəni də hiddətləndirmişdi. Sonralar görkəmli maarif xadimi kimi tanınan Abdulla bəy İsmayıl Əfəndi oğlu Əfəndiyev Aleksandr Müəllimlər İnstitutuna qəbul olunmaq üçün beş ildən çox get - gələ salınmışdır. Mirzə Hüseyn Əfəndi Qayıbzadə uzun müddət yuxarılarla yazışdıqdan sonra 1895-ci ildə Abdulla bəyi Aleksandr Müəllimlər İnstitutuna qəbul etdirə bilmişdir.

Ötən əsrin sonunda isə Mirzə Hüseyn Zaqafqaziya canişinliyinin tabeliyində kasıb azərbaycanlı balalarının oxuması üçün xüsusi məktəb açmışdı. Bu nümunəvi məktəb Azərbaycan pedaqoji tarixinə "Müfti məktəbi" adı ilə daxil olmuşdur. Məktəb 1917-ci ilə kimi fəaliyyət göstərmişdir. Təkcə Tiflisdə deyil, Zaqafqaziyanın müsəlmanlar yaşayan kəndlərində Mirzə Hüseynin təşəbbüsü və atalıq qayğısı sayəsində onlarla ibtidai kənd məktəbləri açılmışdır.

1901-ci il oktyabrın yeddisində xeyirxah Hacı Zeynalabdin Tağıyevin Bakıda ilk qız məktəbinin rəsmi açılışı oldu. Məktəbin açılışı münasibətilə Peterburqdan, Simferopoldan, Baxçasaraydan, Orenburqdan, Xarkovdan,

Saratovdan, İsfahandan, Rəştdən, Tehrandan və dünyanın müxtəlif ölkələrinin nüfuzlu şəxslərindən təbrik teleqramları alınmışdı.

Tiflisdən Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadə Hacının adına göndərdiyi teleqramda yazırdı: "Artıq şadlıq və xoşbəxtlik hesab etməklə müsəlmanların təlimi barəsində təsis olunan məktəbin güşadını[24] məxsusən özümün və mənə mütəəliq ruhanilərin tərəfindən təbrik edirəm. Bu böyük və xeyirli işiniz gələcəkdə də bizə ağıllı və mərifətli analar və övrətlər mücdəsinə şamildir..."

ELMİN ÇƏTİN YOLLARINDA

Müfti Hüseyn Əfəndi Qayıbov "Azərbaycanın məşhur olan şüərasının əşarına məcmuədir" təzkirəsini düzüb qoşmaqla millətin mənəvi sərvət xəzinəsində iftixar doğuran və təqdirəlayiq olan sənət nümunələrini aşkara çıxarıb nişan verdi.

Xeyrulla MƏMMƏDOV,
professor.

Mirzə Hüseyn Qayıbov iyirmi iki il /1864-1886/ Qafqaz Arxeoqrafiya Komissiyasının üzvü olmuşdur. "Aktı" məcmuəsinin tərtibində M.F.Axundov, Adolf Berce, Məmmədağa Şahtaxtlı və Səid Ünsizadə kimi görkəmli şəxslərlə birgə çalışmışdır. Cəmi on iki cilddən ibarət olan məcmuənin M.F.Axundovun sağlığında yeddi cildi çap olunmuşdu. Axundovun ölümündən sonra Mirzə Hüseyn Qayıbov qalan beş cildin tərtibində daha yaxından iştirak etmişdir. O, Qafqaz müsəlmanlarının rəvayətlərini, şifahi xalq yaradıcılığından nümunələri, xüsusən azərbaycanlıların həyatı, məişəti, ədəbiyyat və mədəniyyəti haqqında materiallarla çıxış etmişdir.

Tədqiqatçı Məhyəddin Sultanov iki dostun - M.F.Axundovun və M.H.Qayıbovun arxeoqrafiya sahəsindəki fəaliyyətini araşdırarkən haqlı olaraq bu qənaətə gəlir: "Cəsarətlə deyə bilərik ki, M.F.Axundov, M.H.Qayıbov ilk Azərbaycan arxeoqrafları idilər".

Mirzə Hüseyn Əfəndi Qayıbovun təşəbbüsü ilə Qori Seminariyasının tələbələri tətil günlərində doğma kəndlərindən topladıqları folklor nümunələrini arxeoqrafiya komissiyasına göndərirdilər. O, həm də məktub vasitəsilə məscid və mədrəsələrdəki mollalara müraciət edir, onlardan əfsanələri, rəvayətləri və şifahi xalq yaradıcılığı nümunələrini yazıb göndərməyi xahiş edirdi.

---

[24] Açılmasını, açılma.

Belə nadir məktublardan biri fars dilində yazılmışdır. Məktubu 1872-ci ildə Mirzə Hüseyn Qayıbov Qocori yaylağından Adolf Berceyə göndərmişdi.

"Mirzə Fətəlini /**M.F.Axundov - Ş.N./** üç gün bundan əvvəl Baranovski yanına çağırıb "əsasnamə"nin tərcüməsini ona vermişdir. Mirzə onunla məşğuldur. Əlavə Hacı Əfəndinin formulyar siyahısını tərtib edir. Hacı Cəmil Əfəndi xəstələnmişdi, indi yaxşılaşıb və yazır ki, bir cindar tapıb cin və devlərin əhvalatını toplayır, xatircəm olun ki, salyanlı Mirzə Əbdüləli bəy Əlimirzeyev talış, Bakı, Dərbənd evləri barədə müfəssəl məktub yazıb göndərəcəkdir. Mirzə Mustafaya da yazmışam ki, Qarabağın əhvalatını ətraflı yazsın, Hacı Cəmil Əfəndiyə yazıb bildirmişəm ki, Gəncədə olan dostlarından öyrənsin və oraların həyat tərzini təsvir etsin".

Mirzə Hüseyn Qayıbov,
1872-ci il, Qocori.

Mirzə Hüseyn Əfəndi Qayıbov təkcə arxeoqrafiya və maarif sahəsində deyil, həm də tibbi mövzuda məqalələr də yazmış və bu barədə 1882-ci ildə xalq təbabətinə dair ayrıca "Tövsiyyələr" adlı kitab da nəşr etdirmişdir. Kitabda öz həmməzhəblərinə vəba mərəzinin dəf və refinə dair vacib tövsiyyələr verir. Mirzə Hüseyn həm də 1906-cı ildə nəşr etdirdiyi "Zübtədül-Əhkamuş-şəriyyə" /"Ariflərin şəriət qanunları"/ kitabının müəllifidir.

Mirzə Hüseyn hesab və dilçilik tədqiqatı sahəsində də müəyyən xidmətlər göstərmişdir. Qori Seminariyasında işlədiyi illərdə "Nümuneyi-ləhceyi-Azərbaycan", "Müqəddəs tarix və sərfnəhv", "Məbadeyi-təlimi-sibyan" /Yeniyetmələr üçün elmin əsasları/, "Məsaili-aləmi-hesab" /Dünyəvi hesab elminin məsələləri/ adlı dərsliklərini yazmış, tələbələr dərslik kimi ondan istifadə etmişlər. Çərəkə və Quran ayələrini tədris edən ikinci kitab inqilaba qədər kənd ibtidai məktəblərində dərs vəsaiti olmuşdur,

A.İ.Kalaşevin 1894-cü ildə tərtibm etdiyi "Rus-aysori-rus lüğəti" kitabının müqəddiməsində oxuyuruq:

"Sözlərin ərəb-fars və türk dillərində qarşılıqlı mənasını anlamaqda mən Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbovun lütfkar köməyindən çox istifadə etmişəm.

"Qafqazın tayfa və ərazilərinin təsviri materialları" toplusunda yerləşdirilmiş lüğətin rus-aysor hissəsində başlıca olaraq Hüseyn Əfəndi Qayıbovun əlavələri üçün redaksiya, qarşılıqlı sözlərin aysor lüğətində mənasına görə ona dərin minnətdarlığını bildirir".

Ədəbi aləmə yaxşı məlumdur ki, milliyyətcə alman olan, 1850-60-cı illərdə Qafqaz canişinliyində xidmət edən şərqşünas Adolf Petroviç Berce 1867-ci ildə Leypsiqdə Qafqaz və Azərbaycanda məşhur olan Şüəranın əşarına məcmuə"sini çap etdirmişdir.

Mirzə Hüseyn Əfəndi Qayıbovu yaxşı tanıyan, onun ailəsinə çox yaxın olan məşhur ədəbiyyatşünas Firudin bəy Köçərli haqlı olaraq yazır:

"...Cənab Bercenin /Adolf/ məcmuəsini tərtib edən Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbov olubdur ki, ol cənabın şer və ədəbiyyatda artıq meylü-

həvəsi var idi. Bu məcmuə dəxi əlan çox az tapılır". /F.Köçərli, "Azərbaycan ədəbiyyatı", Bakı-1978-ci il, I cild, səh.171/.

Bu fikri Yusif Vəzir Çəmənzəminli hələ inqilabdan əvvəl yazdığı "Azərbaycan ədəbiyyatına bir nəzər" əsərində təsdiq edir. O yazır: "Mərhum Mavarayi-Qafqaz müftisi Hüseyn Əfandi Qayıbov tərəfindən də ədəbiyyatımız tədqiq olunubdur. Xəbərimizə görə, Bercenin də kitabı Hüseyn Əfəndinin qeyri-mətbu əsərlərindən əxz olunub. Mərhum Qayıbovun əlyazmaları qızı Nigar xanımda saxlanılır".

Mirzə Fətəli Axundovun Adolf Berceyə 21 oktyabr 1876-cı il tarixli məktubu bu faktı bir daha açıqlayır: "Biz sizin gəlməyinizi səbirsizliklə gözləyirik. Bu məktubu qurtaran kimi mən şairlərin tərcümeyi-halı haqqında Molla Hüseyn Qayıbovun bu gün Azərbaycan dilində göndərməli olduğu məktubu tərcümə etməyə başlayacağam".

Mirzə Hüseyn dörd cildlik toplusunda söz sənətinin mahir ustadı M.P.Vaqifin şerlərinə geniş yer verilmişdir. Araz Dadaşzadə "M.P.Vaqif" kitabında A.Berce, F.Köçərli, M.Y.Nersesov kimi görkəmli tədqiqatçılarla yanaşı, M.H.Qayıbovun da fəaliyyətini yüksək qiymətləndirir: "A.Berceyə böyük ədəbiyyat həvəskarı, Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbovun da müəyyən köməyi olmuşdur" qənaətinə gəlir.

İnqilaba qədər Vaqifin əsərlərinin toplanmasında, onun qeyri-mətbu şerlərinin aşkara çıxarılmasında M.Y.Nersesovdan sonra ən mühüm rolu H.Qayıbov oynamışdır, M.F.Axundovun arxivindəki bir məktubdan anlaşılır ki, H.Qayıbov ondan "Vaqif və digər müasirin" məcmuəsinin göndərilməsini xahiş edir və açıqca göstərir ki, "Məcmueyi-əşar" hazırlamaq fikrindədir.

H.Qayıbov bu işə hələ altmışıncı illərdən başlamışdır. Onun tərtib etdiyi dörd cildlik məcmuə səksəninci illərdə tamamlanmışdır. O, toplusunda Azərbaycanda tanınmış, məşhur və az tanınan yüz doqquz XVIII-XIX əsr şairlərinin əsərlərindən nümunələr vermişdir. Bu sahədə ilk təşəbbüsü Mirzə Hüseyn göstərmişdir.

"Qayıbov Qori Seminariyasında işləyərkən tələbələrini, Qafqaz müftisi təyin olunarkən ruhaniləri şifahi xalq ədəbiyyatı toplamağa sövq etmişdir. Onun topladığı materiallar M.F.Axundov tərəfindən tərcümə edildikdən sonra "Aktı" məcmuəsində çap olunmuşdur. Bundan başqa o, uzun illər xalqımızın adət-ənənələri, həyat tərzi, ədəbiyyatı ilə bağlı topladığı məlumatlar əsasında "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı antologiyasını tərtib etmişdir. Heç şübhəsiz, onun ən böyük xidməti bu antologiyanın tərtibidir. Onun da meydana gəlməsində M.F.Axundovun səyi və təşəbbüsü təqdirəlayiqdir. Onlar möhkəm dost olmuşlar. Axundovun nəvəsi, fransız dili müəllimi Aliyə xanım Sultanova xatiratında yazırdı ki, babası əlyazmalarının surətini gözəl xətt sahiblərinə çatdırardı ki, onlardan biri də Hüseyn Əfəndi idi. Qayıbovun arvadı ömrünün son günlərində belə Mirzə Fətəlini çox yaxşı xatırlayırdı.

Klassik Azərbaycan ədəbiyyatı nümunələrini əhatə etmək baxımından çox dəyərli olan "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" antologiyası görkəmli ədəbiyyatşünas F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsəri üçün ilk mənbələrdən biri olmuşdur, Sonralar H.Araslı, S.Rüstəmov kimi ədəbiyyatşünaslar

Zakirin və Seyid Əzimin əsərlərinin elmi-tənqidi mətnini tərtib edərkən mötəbər mənbə kimi bu əsərə müraciət etmişlər”.[25]

H.Qayıbov məcmuəsinin əsas məziyyəti ondadır ki, buraya Vaqifin o vaxta qədər məlum olmayan otuzdan artıq qoşması, təcnisi, qəzəli, müxəmməsi, müstəzadı, müəştəri daxil edilmişdir. Ümumiyyətlə, bu məcmuədə Vaqifin yüzə yaxın şeri toplanmışdır.

...H.Qayıbov öz məcmuəsini tərtib edərkən Vaqifin şerlərini iki qismə bölmüşdür: qəti Vaqifə aid olanlar və şübhəli şerlər.

Adolf Berce öz kitabının müqəddiməsində Mirzə Fətəli Axundova ona göndərdiyi əsər və kitaba daxil olan şairlərin tərcümeyi-halına görə təşəkkürünü bildirir. Zəhmət çəkən Mirzə Hüseyn Əfəndi Qayıbov isə heç yada belə düşməyib...

“Aktı” məcmuəsinin yeddinci cildi 1876-cı ildə ələ alınmışdır. Bu məcmuələrə düşmüş Azərbaycan şairlərinin əsərləri və tərcümeyi-hallarını M.F.Axundovun yaxın dostu, görkəmli alim M.H.Qayıbov təqdim edər, M.F.Axundov isə rus dilinə tərcümə edər və hər həftə A.Berceyə göndərərmiş”[26].

Məşhur şərqşünas Ağafangel Yefimoviç Krımski də bu kitabın /Berce kitabının/ tərtibatçısı kimi ancaq Mirzə Hüseyn Əfəndi Qayıbovdan danışır,

Belə məlum olur ki, Mirzə Hüseyn Əfəndi Qayıbovun 1860-cı ildə tərtib etdiyi “Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir” dörd cildlik kitabının bir hissəsini Mirzə Fətəli Axundov tərcümə edərək Adolf Berceyə göndərib. O da həmyerlisi Fridrix Bodenştet kimi Mirzə Şəfi Vazehin məşhur “Nəğmələri”ni mənimsəmiş, öz adına nəşr etdirmişdir.

Kitabı öz adına çap etdirən Adolf Berce ona görə də M.F.Axundova təşəkkürünü bildirir.

Təkcə Adolf Berce yox, yalnız Firudin Köçərlidən başqa, sağlığından ta 1986-cı ilə qədər insafsız ədəbiyyat mütəxəssislərinin demək olar ki, hamısı Mirzə Hüseyn Əfəndi Qayıbovun xidmətini danıblar.

Həmin il “Elm” nəşriyyatında müdrik müftinin kitabını nəşr etdirən professor Cahangir Qəhrəmanov çox doğru olaraq yazır:

“Azərbaycan ədəbiyyatı tarixi ilə maraqlananlar, mütəxəssis-ədəbiyyatşünaslar Qayıbovun toplusundan faydalanmışlarsa da, müəllifin adını çəkməmiş, onun zəhmətini qiymətləndirməmişlər. Halbuki, Hüseyn Əfəndi Qayıbov şeri, şair sənətkarlığını bütün incəlikləri ilə duyan bir ədəbiyyatçı olmuş və məhz onun sayəsində XVIII-XIX əsr Azərbaycan şairlərinin bir çoxunun əsərləri günümüzə qədər gəlib çıxmışdır”.

Professor çox doğru qeyd edir ki, Hüseyn Əfəndi Qayıbov şeri, şair sənətkarlırını bütün incəlikləri ilə duyan bir ədəbiyyatçı olmuşdur.

Əgər Qayıbov şer, sənət xiridarı olmasaydı, 1887-ci ilin mayında böyük Azərbaycan şairi Seyid Əzim Şirvani “siyasi etibarsızlıq” üzündən işdən çıxarılanda ona kömək əlini uzatmazdı. O, maddi ehtiyac içərisində boğulan şairə

---

[25] J.Dadaşov, "Kimdir Hüseyn Qayıbov" məqaləsi, "Azərbaycan" j-lı, 1992-ci il, №9-10-da.

[26] Məhyəddin Sultanov, "M.F.Axundov apxeoqraf kimi", "Ədəbiyyat və incəsənət" qəzeti 20/1-1984-cü il.

havadar olur. Seyid Əzimin məfkurəcə saf, əqidəcə dönməz bir şair, maarif xadimi olması haqqında Mirzə Hüseyn Qafqaz Maarif Sərdarlığına ərizə ilə müraciət edib, yenidən Şamaxıda müəllimliyə qaytarılması üçün icazə alır.

Şamaxıda yenidən altı sinifin ibtidai şəhər məktəbində müəllimlik fəaliyyətinə başlayan böyük şair dostu Mirzə Hüseyn Əfəndi Qayıbova sevinc və minnətdarlıq dolu qəsidəsini yazır. Həmin qəsidədə o, xeyirxahı Mirzə Hüseyni ilk dəfə məktəb bina edən peyğəmbər adlandırır:

Hüseyn-paktinət, müftiyi
Qafqaz kim, anın
Vücudundan bu torpağa
xəvasi-kimya gəldi.
Sanırsan bir yedi-qüdrətdü,
oldu qeybdən-zahir,
Bu Qayıbzadə zahir oldu,
dəhrə yüz cila gəldi.
Qəbul etdi Hüseyn bari-əmanət
ruzi, əzzəldə,
Bu nasut aləmnidə etməyə
əhdəvəfa gəldi.
Yetişdi həkmi-nafiz
imperaturi-müəzzəmdən,
Hüseynin nisbinə fərmani-şahi
zil-üla gəldi.
Hüseyn namında çün məşhur idi
imdada yetməklik,
Vilayət mülkünün şahi,
"Vəliyyü-inəmma" gəldi.
Xülusi-qədr ilə xidmətlər
etdin dövləti Rusə,
Nişanlar imperaturi-müəzzəmdən
əta gəldi.
Vicudin oldu çün öz ülfətində
mürşidi-kamil,
Sənə tədrisdə İdrisdən
yüz mərhəba gəldi.

Seyid Əzim Şirvani əsərlərinin /1967-ci ildə çap olunmuş üç cildliyinin/ tərtibatçısı Süleyman Rüstəmov böyük şairin əsərlərinin nəşri tarixindən danışarkən yazır ki, üç cildliyinin tərtibi zamanı mötəbər mənbə kimi Hüseyn Əfəndi Qayıbovun "Müntəxəbat"ından da istifadə etmişdir.

Qayıbovun xeyirxahlığı S.Ə.Şirvaninin oğlu Mircəfər Seyidzadənin də qəlbində xoş xatirə kimi dərin izlər buraxmışdır. O, hara gedirdisə, atası Seyid Əzim Şirvaninin əsərlərini çap etdirə bilmirdi. "Bir yay tətili bir qədər pul xərcliyi tədarük edib, Tiflisə-müfti Əfəndi Qayıbovun hüzuruna getdim. Müfti Əfəndi çox

xoşluqla mənim arzumu qəbul edib, bu barədə köməkdə bulunmağı öhdəsinə götürdü. Çifaidə, o vaxtı şeyxül-islam mərhum Tahirzadə bu məsələdə müfti ilə həmrəy olmadığı üçün naümid Şamaxıya qayıtdım".

Mirzə Hüseyn Əfəndi Qayıbovu elm və hünər sahibi kimi qiymətləndirən klassik şair Mirzə Ələsgər Növrəs /1836-1912/ də ona dəyərli bir şer yazıb. O, müftini "İsanəfəs" adlandırıb:

Müftiyi-İsanəfəs
mövcidi-rəmzi-nüqat,
Tərzi-kəlamində var
vaqieyi-möcizat.
Daireyi-rənci əql eyləməyib inqilab,
Həsəni-təqvidə ol həll edib müşkilat.
Firqeyi-islamə qıl
hökmi-qəzavət özün,
Ta ki, ola mənəşif mənayi -
hər mənzilat.
Sən kimi yox dəhrdə
sahibi-fərhəngü huş,

Qıldı təfaxür sənə
təbiati-mümk ...
Mətləyi təqdir edək
müftiyi-pagiz;
Mən sizə bir çakərəm
ta nə qədər var hə,
Tul danışsam əgər baisi-tətil o
Bir neçə əfrad ilə şeri-qət
olsun əbyat

* * *

Xalqın qabaqcıl ziyalılarından Mirzə Hüseynin teatr səhnəsində müəyyən xidmətləri olmuş, "Kəşkül", "Səda", "İqbal", "İrşad", "Ziyayiqasiyyə", "Kafkaz", "Molla Nəsrəddin" başqa mətbuat orqanlarında maraqlı yazılarla çıxış etmişdir.

"Qayıbov "Şərqi Rus" qəzetinin da abunəçilərindən idi və bir sıra məqalələrini də burada çap etdirmş. Onun mətbuata rəğbəti getdikcə artmış özü də "İslam aləmi" adlı jurnal nəşr etmək fikrinə düşmüşdü. Görünür Tiflis qubernatoru icazə vermədiyindən jurnal nəşr olunmamışdı".[27]

O, Nəriman Nərimanovun 1903-cü dekabrın on beşində oynanılmış "Dilin bəlası" tamaşasının hesabatını "Şərqi-Rus" qəzetində çap etdirmişdir.

[27] Yadulla Dadaşovun göstərilən məqaləsi.

Onun övladları da teatra, incəsənətə böyük maraq göstərmişlər. Bu barədə "Səda" qəzetinin 1911-ci il on üç fevral tarixli nömrəsində Əlimirzə Səaanin məqaləsində oxuyuruq:

"...Bir sənə bundan müqəddəm əcnəbi dram dəstələrinin təsdiq olunmuş qanunnamələrini cəm edib özləri üçün bir qanunnamə yazıb Mirzə Cəlil Məmməquluzadə və Cahangir bəy Qayıbov cənablarının məsləhətlərilə təzə yazılmış "Tiflis dram cəmiyyəti" qanunnaməsini hökumətə təqdim edib təsdiq olunmasını rica edirlər.

...Yanvarın otuzunda dram cəmiyyətini idarə etmək üçün səkkiz nəfərdən ibarət: ...Nadir bəy Qayıbov, Eynəli bəy Sultanov, Yusif bəy Tahirov, Mir Rövşən bəy Əfəndizadə və Əlimirzə bəy Nərimanov və digərləri seçildilər".

* * *

Azərbaycan Respublikası Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivində akademik Heydər Hüseynovun şəxsi fondunda general-leytenant Əliağa Şıxlinskiyə məxsus çoxlu sənəd və müxtəlif materiallar var.

Beş yüz on dörd nömrəli fondda general Əliağa Şıxlinskinin bir dəftəri də saxlanılır. Qara meşin üzlü zabit dəftərində generalın öz dəstixətti ilə yazdığı şerləri, bədii parçaları tərcümə və qeydləri var. Həmin dəftərin səkkizinci səhifəsində 1908-ci il fevralın altısında Rəhim bəy Qayıbovun Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbova göndərdiyi məktubun mətninə rast gəldim.

"Yanvarın otuz birində azərbaycanlıların nəfinə səmərəli fəaliyyətinizin əlli illiyi tamam oldu. Sizin həmişə həyat şüarınız belə olmuşdur: hər şey xalq üçün, özün üçün isə heç nə. Siz hazırkı şəraitdə görülməsi mümkün olan bütün işlərin öhdəsindən gəlmisiniz. Cəsarətlə deyə bilərsiniz ki, nahaq yerə yaşamamışam. Çox faydalı əməyinizin əlli illiyi münasibəti ilə təbrik edir, Sizə hələ bundan sonra da yaradıcılıq nailiyyətləri arzu edirik".

Mirzə Hüseyn Əfəndi Qayıbovun əvəzsiz xidməti müasirlərinin nəzər-diqqətini həmişə cəlb etmişdir. XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb - yaratmış şair Abbasağa Nazir fəxrlə yazırdı:

Var idi bir müəllimi-mümtaz,
Sözü əlan müftiyi-Qafqaz,
Şəxsi-qabil hünərvər adı Hüseyn,
Əsl ustadu həm müəllimü-eyn.

Hücrədə əyləşib sabah-axşam,
Vəxti tədrisə sərf edərdi müdam.
...Müxtəsər, ol müəllim-fazil,
Elmi-tədrisdə mahiru-kamil.

Mirzə Hüseyn din xidimi olduğuna görə Sovet dövründə onun haqqında var səsimizlə danışa bilməmişik. Tədqiqatçılar, ədəbiyyatşünaslar, tarixçilər ondan bol-bol bəhrələnsələr də onun xidmətini danmışlar. Təkcə məşhur ədəbiyyatşünas-

alimimiz Firidun bəy Köçərli onun əvəzsiz xidmətini yüksək qiymətləndirmişdir. Bir də bu gün bəyənmədiyimiz, yetmiş il tənqid atəşinə tutduğumuz çar hökuməti Mirzə Hüseyni 1878-ci ildə "Qızıl xaç" medalı ilə, Yaxın Şərq xalqları üçün dərsliklər müəllifi olduğuna görə 1884-cü ildə İranın "Şire-Xurşid" ordeni ilə, 1871-ci ildə qeyri-xristianlar üçün təsis olunmuş üçüncü dərəcəli "Müqəddəs Anna", 1876-cı ildə ikinci dərəcəli "Müqəddəs Stanislav", 1879-cu ildə ikinci dərəcəli "Müqəddəs Anna", 1883-cü ildə dördüncü dərəcəli "Müqəddəs Vladimir" ordenləri ilə və dəfələrlə pulla mükafatlandırmışdır.

Xalqımızın böyük alimi, xeyirxah Mirzə Hüseyn Əfəndi Qayıbzadə 1917-ci il fevralın iyirmisində Tiflisdə vəfat etmişdir. Vəsiyyətində demişdir ki, tabutumun üzərinə əklil qoymayın, təmtəraqlı mərasimimə yığılan pulları xeyriyyə işlərinə sərf edin. Mərasimdə yazıçı Soltan Məcid Qənizadə Müftinin xidmətləri barədə çıxış etmişdir. O, böyük məsləkdaşı Mirzə Fətəli Axundovun yanında "Nəbatat bağında" dəfn olunmuşdur.

GÖRKƏMLİ RİYAZİYYATÇI

Vətənim qəryəyi - Salahlıdır,
Suyu Kür adlı gur axan sudur.
Altmış verst iraqadır Tiflisdən,
Gün doğana sarı əgər getsən.
Mənbəi - elm mədənidir, üləma
Məxzəni - fəzu, məskəni - ürəfa.

Abbas ağa Nazir

Qayıbov nəslinin görkəmli oğul və qızları elmin müxtəlif sahələrində fəaliyyət göstəriblər. Doğma Azərbaycan üçün bilik və bacarıqlarını əsirgəməyən bu nəslin yetişdirmələri tibb, ədəbiyyat, hərb, botanika sahəsində fəaliyyət göstərib, jurnalist, şair, münəccim kimi də Vətənə xidmət ediblər. Əbdülkərim bəy Nəsibağa oğlu Qayıbov XIX əsrin görkəmli riyaziyyatçısı və münəccimi kimi elm aləmində məşhurdur.

Əbdülkərim bəy də Əliağa Şıxlinski və Fərrux ağa Qayıbov kimi əvvəlcə Tiflisdə kadet korpusunu, sonra Peterburq topçuluq məktəbini əla qiymətlərlə bitirmişdir. İyirmi bir yaşında hərbi-topoqrafiya məktəbini qurtaran Əbdülkərim bəy bir müddət ordu sıralarında xidmət etdikdən sonra, istefaya çıxıb elmi işlə məşğul olur.

Ərəb, fars və rus dillərini mükəmməl bilən Əbdülkərim bəy Qayıbov iki cilddən ibarət, "İslam təqvimi" kimi kamil bir əsər yaradır.

- Əbdülkərim bəy məşhur şair Molla Vəli Vidadinin qız nəvəsi Fatma xanımın oğludur. - Zülfüqar müəllim cəmi qırx üç il ömür sürmüş görkəmli riyaziyyatçı haqqında həyəcanla söhbət açır. - Onun əlyazma halında olan "İslam təqvimi" əsəri son vaxtlara qədər məndə saxlanılırdı. 1976-cı ildə əsəri Respublika Əlyazmalar İnstitutuna təqdim etdim.

Riyaziyyat və astronomiyadan bəhs edən əsəri müəllif altı fəslə ayırıb:

• hicriyyə-qəməriyyə tarixinin qaydası;
• hicriyyə-qəməriyyə tarixi ilə göstərilən vaxtların həftə günlərinə tətbiq olunması;
• Miladi-yuli, yəni rus tarixi ilə göstərilən vaxtların həftə günlərinə tətbiq olunması;
• hicri-qəməri tarixinin miladi /yuli/tarixinə tətbiqi;
• hicriyyə-qəməriyyə tarixinin 1215-ci ilindən 1422-ci ilinədək və miladi tarixinin 1801-ci ilindən 2001-ci ilinədək qəməriyyə və şəmsiyyə il başlanğıclarının uyğunluğunu göstərən cədvəllərin bəyani və istemalı;
• Qəməri və şəmsi illərin ibtidalarının uyğunluğunu göstərən cədvəllər.

Əbdülkərim bəy Qayıbov "İslam təqvimi"ni tərtib edərkən Uluğ bəyin, Ömər Xəyyamın təqvimindən bir elmi mənbə kimi istifadə etmişdir. Klassik Şərq şairləri tərəfindən işlədilən "Əbcəd" hesabına müraciət etmiş və misal olaraq Məhəmməd adlı birisinin vəfatına dair "maddeyi-tarix" göstərən bir qitəni Əbdülkərim bəy belə qeyd etmişdir:

Cahan tərkin etdi Məhəmməd Driğ,
Ona məskən oldu bu Mərğəd Driğ.
Belə sahibi əql namusu, gör,
Fələk qıldı gözdən nihan səddriğ.
Əgər sorsalar sal fovtun onun,
De tarix-e fovtun Məhəmməd Driğ.

Bu "Məhəmməd Driğ" sözünü "əbcəd" hesabı ilə yoxladıqda onun 1306-cı hicri-qəməri, yaxud 1886-cı miladi olduğu aydınlaşır.

Əbdülkərim bəy Qayıbovun əsərində bürc ayları və onların işarələri barədə də izahat verilmişdir. Həftə günlərinin adları, ərəbcə, farsca, azərbaycanca qeyd edilmişdir. Hicri, rumi, şəmsi, miladi adları və onların astronomik işarələri göstərilmişdir. Məsələn, hansı illərdə fevral ayının iyirmi səkkiz, hansı illərdə isə həmin ayın iyirmi doqquz olması müfəssəl cədvəl ilə göstərilmişdir.

Bu qiymətli əsər haqqında mərhum tədqiqatçı Məmmədağa Sultanov 1948-ci il aprelin on altısında "Kommunist" qəzetində çıxış edərək yazır: - Zülfüqar müəllim, fotosurəti çıxarılmış bir məqaləni həvəslə oxuyur:

"Bu təqvim 1940-cı ildə Sankt-Peterburqda Dövlət Ermitajı tərəfindən akademik İ.Orbelinin redaktəsi ilə nəşr edilmiş sinxronik cədvəldən heç də geri qalmır. Əbdülkərim bəy Qayıbovun bu əsəri Azərbaycan dili nöqteyi-nəzərindən də diqqəti cəlb edir. Əsərdə işlədilən sadə Azərbaycan cümlələri fars və ərəb tərkiblərindən qaçmaq baxımından çox maraqlıdır".

Görkəmli riyaziyyatçı Əbdülkərim bəy Qayıbov hərbi qulluqdan tərxis olunduqdan sonra Tiflisdə yaşayır, özünü elmi axtarışlara həsr edir. "Kəşkül"ün yazdığına görə, Əbdülkərim bəy Qayıbov "Avropa təhsili görmüş ali təhsilli bir ziyalı" idi. Uzun illər paytaxt şəhərində yaşayan Əbdülkərim bəy Qayıbov

səksəninci illərdən sonra Tiflisə köçmüş və burada yaşamışdır. Şərq və Qərb dilləri və ədəbiyyatı ilə tanış olan Əbdülkərim bəy tərcüməçilik ilə məşğul olmuşdur. O, nəşriyyat sahəsində fəaliyyət göstərmiş, Tiflisdə bir teatr heyəti də təşkil etmişdi.

Əldə dəqiq məlumat olmasa da, ehtimal ki, 1887-ci ilin yanvar ayında Tiflisin Arsruni teatrında M.F.Axundovun "Dərviş Məstəli şah" komediyasını tamaşaya qoyan "Müsəlman həvəskarları" elə Əbdülkərim bəy Qayıbovun təşkil etdiyi "teatr heyəti" imiş.

Əbdülkərim bəy Qayıbov eyni zamanda riyaziyyatçı və astronom idi. "Kəşkül" mətbəəsində bədii və elmi kitablar, dərslik, lüğət, habelə "Rus-Azərbaycan təqvimi" çap edilmişdir. Müntəzəm çap olunmuş rus-Azərbaycan təqvimlərinin hazırlanmasında, şübhəsiz ki, Əbdülkərim bəy Qayıbovun böyük əməyi olmuşdur.[28]

Tiflisdə Əbdülkərim bəy elmi işlə yanaşı, həm də müəllimlik edir. O, bacısı Səadət xanımın[29] /1853-1930/ uşaqları - Nadir bəyin, Cahangir bəyin, Bahadır bəyin, Nigar xanımın və Gövhər xanımın təhsil - tərbiyəsilə məşğul olur.

Görkəmli alim Əbdülkərim bəy Qayıbov 1894-cü ildə "İslam təqvimi" əsərini nəşr etdirmək arzusu ilə Sankt-Peterburqa gedir. Qəfildən xəstələnib orada vəfat edir. Hazırda onun qəbri Volxov qəbiristanlığındadır. O, 1851-ci ildə Qazax qəzasının Salahlı kəndində anadan olmuşdur.

XOŞTƏB NAZİR

Nazir, bədənin xakilə yeksan olacaq,
Dərda ki, vücudui evi viran olacaq.
Tən ric'ətedib əslinə xak olsa nə qəm,
Səd heyif ki, gənci-nəzm pünhan olacaq,

Oxucu elə düşünməsin ki, bu rübainin müəllifi hər şeydən əlini üzmüş, həyatdan küskün bir insandır. Xeyr! Müasirlərinin xatırladığına görə Nazir nikbin şair, xeyirxah bir şəxsiyyət olub. O, bu rübaisində öz ölümündən sonra şer xəzinəsinin pünhan qalacağına heyfsilənir.

"Azərbaycanda Sovet hakimiyyəti yaranana qədər yazıb-yaradan şairlərimiz sırasında Nazirin xüsusi mövqeyi vardır. "Molla Nəsrəddin" ədəbi məktəbi mühitində fəaliyyət göstərən Nazir Azərbaycan, Yaxın və Orta Şərq xalqları klassiklərinin əsərlərilə yaxından tanış olmuş, fars və ərəb dillərini yaxşı bilmiş, ana dilində və farsca dərin mənalı lirik əsərlər yazmışdır" /**M.Sultanov, "Rübailər aləmində", səh.242, Bakı, Azərnəşr, 1989-cu il/.**

Sovetləşmədən sonra itirdiklərimizi axtarmaq üçün çox da uzaqlara getmək lazım deyil. Bizdə elə nəsillər var ki, ata-babalarından qalma əlyazmaları, sənədləri və fotoşəkilləri çətinliklə də olsa qoruyub saxlaya biliblər. Vaxtilə qədir-qiymətini bilib üzə çıxarmadığımız, partiya nəzarətindən, DTK-dan ehtiyat etdiyimiz bu

---

[28]Ağarəfi Zeynalov, "Kəşkül"də bədii ədəbiyyat kitabı, **B**akı, 1978-ci il, səh.29-da

[29] Əbdülkərim bəyin iki bacısı vardı. Səadət xanım Müfti Mirzə Hüseyn Əfəndi Qayıbovun, Səltənət xanım isə şair Abbas ağa Nazirin həyat yoldaşı idi - müəl.

əlyazmaların indi "bəxti" açılıb. Ulularımızın bizə qoyub getdiyi bu misilsiz xəzinələrə min cür qulp qoymuşuq: əsərdə partiyalılıq yoxdur, sosializm-realizminin tələblərnə cavab vermir, bəy babanı tərənnüm edirsən, xan, molla surəti əsərdə ön plana çəkilib və daha nə bilim, nələr...

Çox qələm sahibləri yüksək vəzifəliləri başa salmağa çalışıblar ki, axı, bu müəllif ötən əsrdə yaşayıb, sosializm qüruluşu ondan çox sonralar yaranıb. Səlahiyyətli vəzifə sahibi də partokrat kürsüsündə qalstukunu düzəldə-düzəldə: "Partiya məsləhət bilmir, vəssalam" deyib, şübhəli nəzərlərlə bizi süzüb.

Beləcə özümüz özümüzü kökümüzdən ayırmışıq.

Nazir təxəllüslü Abbas ağa Qayıbzadə /1849-1919/ XIX əsrin əvvəllərində yaşayıb-yaratmış, dövrün məşhur şairi Mirzə Nəbi Qayıbzadənin oğludur, Şair Abbas ağa Nazir yüzlərlə lirik, satirik şerlərin, vətənpərvərlik ruhunda yazılmış mənzumə və qəzəllərin, rübailərin müəllifidir. Onun poema və tərcümələri inqilabdan əvvəlki ədəbiyyat xadimlərinin diqqətini cəlb etmişdir.

Fərəhləndirici haldır ki, o, dahi Firdovsinin "Şahnamə"sindən "Rüstəm və Söhrab" dastanını Cəlil Məmmədquluzadənin məsləhətilə ilk dəfə ana dilimizə ustalıqla, orijinala yaxın tərcümə edib. Həmin tərcümə 1908-ci ildə "Qeyrət" mətbəəsində məşhur rəssam İzof Rotterin rəngli şəkillərilə, nəfis tərtibatla nəşr edilmişdir. Az sonra əsər nadir tapılan biblioqrafik kitab kimi mağazalardan yoxa çıxmışdır.

Abbas ağa Nazirin tərcüməsinin təkrar çapı 1959-cu ildə tədqiqatçı-alim Məmmədağa Sultanov tərəfindən olmuşdur. Sevimli xalq şairimiz Səməd Vurğun Ağa Nazirin tərcüməsini yüksək qiyymətləndirərək xatirə-qeydlərində yazırdı:

"Mən "Rüstəm və Söhrab"ın o dövrdəki ilk tərcüməsini necə maraq və məhəbbətlə oxuduğumu yaxşı xatırlayıram..."

Şair Abbas ağa Nazir dahi rus yazıçısı Lev Tolstoyla məktublaşmış, onun "İnsana çoxmu torpaq lazımdır?" əsərini nəzmə çəkmişdir. Bununla əlaqədar 1909-cu il fevralın iyirmi dördündə Yasnaya Polyanaya yazdığı məktubda deyilirdi:

"Hörmətli cənab qraf Lev Nikolayeviç!

Mən bir müsəlman şairi kimi, öz müsəlman həmməzhəblərimi Sizin əsərinizlə tanış etmək arzusu və Sizin "İnsana çoxmu torpaq lazımdır?" başlıqlı əsərinizi tatar-Azərbaycan dilinə nəzmlə tərcümə etmək xoşbəxtliyinə nail olmuşam. Ona görə də Sizdən izhari-hörmətlə xahiş edirəm ki, yuxarıda göstərilən tərcümənin nəşrinə və yayılmasına lütfən icazə verəsiniz.

Hörmət və ehtiramla:
Abbas ağa Qayıbov ",

On gün keçməmiş Abbas ağa Qayıbov Lev Nikolayeviç Tolstoydan aşağıdakı məzmunda cavab məktubu almışdır:

"Mən artıq iyirmi ilə yaxındır ki, arzu edənlərin hamısına mənim 1881-ci ildən sonra yazdığım bütün yazıları istənilən dilə tərcümə və yenidən nəşr etmək ixtiyarı vermişəm, odur ki, üzərinizə götürduyünüz zəhmət üçün Sizə yalnız təşəkkür edə bilərəm.

Lev Tolstoy".

1910-cu il noyabr ayının onunda Nazir böyük rus yazıçısının ölümünə - "Qraf Tolstoyun ölümünə aid" mənzumə yazmışdır.

Lev Tolstoy, ədibi-əzəmi rus,
Dari-dükyadan eylədi rəhmət.
Yəni fot oldu, səd həzar, əfsus,
Nuri-şəmsi-həqiqətü hikmət.

Firudin bəy Köçərli də Abbas ağa Nazirlə məktublaşmış, onun poeziyasını yüksək qiymətləndirmişdir. O 1911-ci il oktyabrın onunda Abdulla Şaiqə yazdığı məktubunda Nazirin xoştəb bir şair, həyalı bir insan olduğunu bildirir:

"Dağların vəsfində Qazax şairlərindən Mustafa ağa Arifin, Kazım ağa Salik və əlan hal-həyatda olan Abbas ağa Nazirin gözəl şerləri var ki, məcmuəmə giriblər...

Abbas ağa Nazirin "Bəyani-halım" namində xeyli məğrub bir əsəri var, oxusanız xoşunuza gələr, əfsus ki, çap olunmayıbdır. Abbas ağa bacarardı öz xərcinə çap etdirməyə, amma utancaq adam olduğuna görə özünü qeyrilərlə tanış etdirməkdən həya edir. Bilmirəm, onun əsərlərindən nəzərinizə yetişənlərdən olubdurmu? "Rüstəm və Söhrab"ın tərcüməsi, "Mövlüdi nəbavi", "Millətə xitab", "Molla və şeytan", "Çoxmu lazımdır insana torpaq?", "Bəyani-halım" və qeyriləri. Abbas ağa çox qabil və xoştəb şairdir. Amma çoxları onu tanımır, o cəhətə ki, özünü nəzərə verən adam deyil".

Firudin bəy Köçərli 1909-cu ildə Abbas ağa Nazirin altmış illik yubileyi münasibətilə yazdığı məqalədə onu millət və Vətən üçün atəşin tərənələr oxuyan həqiqi şair adlandırır.

"Həqiqi şair... millət və Vətən yolunda canlar fəda etmək lazım isə Vətən oğullarının ürəyinə yandırıcı od salıb onları hər qism fədakarlığa və cannisarlığa şövqməd eləsin".

Çıxart cahi-zəlalətdən,
təriqi-həqqə, irşad et,
Həyatın var ta, Nazir, oxu bu fərdi,
fəryad et,
Gözün aç, xabi-qəflətdən oyan millət,
oyan millət,
Nəzər qıl bircə ətrafa, aman millət,
aman millət!

Abbas ağa Nazir isə 1909-cu ildə Firudin bəy Köçərliyə göndərdiyi məktubunda yazır ki, Sizinlə gec tanış olmağıma heyfsilənirəm. Hərgah qırx il bundan əqdəm mənim şerimə Sizin kimi qədr-qiymət verən olsaydı, indiyə kimi otuz-qırx cild kitab yazardım.

1911-ci il dekabrın beşindəTiflisdə M.F.Axundovun yüz illiyi təntənəsində Gürcü Zadəganlar Cəmiyyəti Teatrında məruzə edən F.Köçərli yubiley gecəsini Abbas ağa Nazirin böyük dramaturqa həsr etdiyi on üç bəndlik şeri ilə açmışdır. Nazir şerində M.F.Axundovun təkcə Azərbaycan xalqına və ədəbiyyatına deyil, hətta yaxın Şərq xalqlarına və ədəbiyyatına olan misilsiz xidmətini nəzmə çəkmişdir:

Millətə şahrahi-elm açdın,
Mərhaba, ey mühəndisi-qadir!
Vətənə təxmi-mərifət saçdın,
Sən ey ustadı-kamilü mahir!

Bir əlifbayi-tazə tərh etdin,
Şivəsi xoş, oxunmağı asan;
Rəsmi-təlimi zikrü şərh etdin,
Qoymadın bir qüsuru, bir nöqsan.

Firudin bəy Köçərli 1912-ci ildə çap etdirdiyi "Balalara hədiyyə" kitabına Abbas ağa Nazirin "Vətən", "Qarayazı meşəsinin vəsfi və ovçuların zülmü" və başqa şerlərini daxil etmişdir.

Hələ 1908-ci il dekabrın 5-də Firudin bəy Köçərli Qoridən Abdulla Şaiqə yazırdı: "Rus şairlərinin əsərlərindən türkcə tərcümə etmək üçün Abbas ağa Qayıbov Nazir təxəllüsə müraciət etmənizi səlah görürəm. Cənab Abbas ağanın çox səlamət və rəvan təbi var və özü də rus dilini kamil bilir. Abbas ağadan başqa yenə bir neçə xoştəb şairlər vardır və onlar rus dilini bilmirlər. Abbas ağa Tiflisdə sünni idareyi-ruhaniyyəsinin kargüzarıdır".

Şair Abbas ağa Nazir Qayıbzadə 1919-cu il dekabrın 30-da Qazaxda vəfat etmişdir. Doğma kəndi Salahlıdakı Sudağılan qəbiristanlığında dəfn olunmuşdur.

Nazirin vəfatından kədərlənən dövrünün maarif və mədəniyyət xadimləri onun ölümünü ağır itki kimi qiymətləndirərək mətbuat səhifələrində çıxış etmişlər. Həmin ili Qazax Seminariyasında ədəbiyyat müəllimi işləyən, sonralar görkəmli dövlət xadimi olan Yusif Qasımov "Azərbaycan" qəzetinin 1920-ci il on bir yanvar tarixli nömrəsində böyük bir məqalə ilə çıxış edərək ürək yanğısı ilə yazırdı:

"Onun vəfatı heç kəsi məraqə və təlaşa gətirmədi, o qədər əhali onun vəfatına kəmqeyd və kəmetina qaldı. Onu görən Firudin bəy Köçərli cənabları "Ar olsun bizə, bu böyük şəxsi çox həqiranə, çox beyhörmətanə yola salırıq. Bunun vəfatına çox beyganə baxırıq" - deyə burdakı beş-üç nəfərə etdiyi yanıqlı xitabı çox məqamlı və münasib oldu...

Vətən və millət uğrunda atəşli təranələr çalan bir şəxsin aldığı mükafat iştə bu. Amma ərbabi fikrin (**qələm sahibi - Ş.N**.) çox da təqdirə və mükafata ehtiyacı yoxdur. O, özü-özünün hakimi və məhkumu, özü-özünün tosifi və zəmedicisidir".

Görkəmli maarifçi Fərhad Ağazadə də "Ədəbi tədqiq" adlı məqaləsində Abbas ağa Nazir poeziyasından, onun vətənpərvərlik ruhunda yazılmış şerlərindən qürur hissilə söhbət açır. O yazırdı:

“Mərhum Abbas ağa qayət dərəcədə Vətəni, yəni Azərbaycanı ürəkdən sevən bir şair idi. Vətən yaylalarının gülü-çiçəyi şairi məftun edir”.

Ah, ey safü paki-xaki Vətən,
Nə gözəlsən, nə yaxşısan, nəsən!
Nə gözəldir sənin çölün-çəmənin,
Dağü-bağın, gül ilə yasəmənin.

Onun çox zəngin ədəbi irsi qalmışdır. “Vətən təranəsi”, “1905-ci il inqilab cərəyanına dair”, “Nəsihət”, “Məktəb”, “Könül, aldanma çərxa, biməfadır”, “Bax”, “Təxmisi-qəzəli-Füzuli Bağdadi”, “Molla və şeytan”, “İki qardaş”, “Qış vaxtı varlı və füqəra güzəranı”, “Millətə xitab”, “Ədəbiyyat” və bu gün də öz poetik əhəmiyyətini itirməyən onlarla şer və poemaları indiyədək tədqiq olunmamışdır. Ümid edirik ki, “mühitinin yetişdirdiyi alim və kamil bir şəxs olan” (F.Köçərli) Abbas ağa Nazirin vətənpərvərlik ruhunda yazılmış mənzumələri, rübailəri, qəzəlləri, poemaları, lirik və satirik şerləri gələcəkdə kitabça şəklində oxuculara çatdırılacaq.

1978-ci ildə şairin yaxın qohumu, mərhum Zülfüqar Qayıbovla görüşüb söhbət etdim. O, mənə Abbas ağa Nazirin bir neçə şerini və “Bəyani-halım” poemasının surətini bağışladı. Poemanın əsli Respublika Əlyazmaları İnstitutunda saxlanılır.

Min misradan çox olan poemada müəllif elm və fəzilət sahibi atası Mirzə Nəbinin şairliyini, ilk təhsilini Salahlıda aldığını, Qacarın Tiflisi yandırmasını, Vaqifin Qarabağa köçməyini ilhamla nəzmə çəkmişdir:

Gəncənin həmcüvaridir Qarabağ
Qonşusudur yaxın, deyildir iraq,
Nə Qarabağ o mərifət baği,
Mədəni-fəzl Şişənin dağı.
Məsqətürrəs Zakirü, Asi,
Məxzəni-şerü nəzm dəryası.

Vaqif etmiş onu pənahu məkan,
Olmuş ol yerdə təbi dürəfşan.
Köçübən qəryəyi-Salahludan
Dutmuş anı özünə tazə Vətən.
Qaldır əflakə bərgün, ey Qarabağ,
Zakirin nəzmindən yanıb uca dağ.
Şişənin qələsindən o möhkəm
Edəməz top tüfəng onu bərhəm,
Gələ gər, yüz Ağa Məhəmmədxan
Verəməz nəzm dağma nöqsan.

Poemada Abbas ağa Nazir ana tərəfdən Molla Vəli Vidadinin qız nəvəsi olduğunu tarixi faktlarla vermişdir:

Ana cəddim mənim Vidadidir,
Nəzmi-şerin o ustadidir.
Şairi-haqq süxən, riyadən uzaq,
Məslək-təbi ilticadən uzaq.
Etməmiş mədh kimsəni bica,
Yazmamış həcv bir kəsə əsla.
Şerinin cümləsi dürr gövhər,
Hər kəlamı müzəyyənü xoştər.

Abbas ağa Nazir şerlərinin böyük bir qismi maarif və mədəniyyət mövzusundadır. O, balalarımıza məktəbin ədəb-ərkan ocağı, həm də elm mərkəzi olduğunu aşılayır. Hər bir oğlun, qızın mütləq məktəbə gedib, elmin səmərəsindən bəhrələnməsini tövsiyə edir. Şair çox doğru olaraq yazır ki, harda məktəb yoxsa, ora virandır. Abad o yerdir ki, məktəb var. Hər kim bəxtli olmaq istəyirsə, səadət axtarırsa, məktəbə getsin. İnsanı zülmətdən azad edən də məktəbdir, qəflətdən oyadan da.

Çoxdur elmin gözəl - gözəl əsəri,
Qayəsizdir şirin - şirin səməri.
Hər kimin yoxdur elmdən xəbəri,
Günü bişək keçər yaman, oğlum.

Vətənpərvər şair Abbas ağa Nazir bütün varlığı ilə ədəbiyyata, poeziyaya bağlı idi. O, "Bax" adlı qəzəlində yazır ki, tale məni övlad qismətindən məhrum etdi. Ancaq bunun üçün o qədər də qəm etmirəm, min bir əziyyətlə ana dilimə çevirdiyim "Rüstəm və Söhrab" mənim övladımdır, oğlumdur.

Olmadımsa gər ata, yox isə oğlum,
nə qəmim,
"Zadeyi-təbim" olan "Rüstəmü
Söhrab"imə bax.

Təvazökar şair, pak insan olan Nazir "Bax" qəzəlinin sonunda belə bir səmimi izahat da vermişdir: "Hərçənd "Rüstəm və Söhrab" hekayəsi məlik-üş-şüəra Firdovsinin zadeyi-təbidir, mən isəm ondan türk dilinə nəzmən tərcümə və nəql etmişəm, ancaq bu məqamda münasibi-hal "Zədeyi-təbim" deməgə məcbur olduğundan, bu barədə mana diqqət dutmalarını ərbabi-mərifətdən rica edirəm".

Abbas ağa Nazir maarifçi bir nəslin oğludur. Onun nəsli hələ ötən əsrdə Azərbaycan maarifinə Əbdülkərim ağa, Hacı Rəhim bəy, Səməd ağa, İsmayıl ağa, Süleyman ağa, Osman ağa, Əhməd ağa, Abdulla ağa, İlyas bəy Qayıbov kimi görkəmli maarifçilər vermişdir. Nazir 1849-cu il oktyabrın doqquzunda Qazax mahalının Salahlı kəndində anadan olmuşdur. İlk təhsilini dövrünün məşhur din alimi, əmisi oğlu Mirzə Hüseyn Əfəndi Qayıbzadədən /1830-1917/ almışdır. On

dörd yaşına kimi kənd məktəbində oxuyan Abbas ağa, Zaqafqaziya müftisi[30] Osman Əfəndi Məhəmməd ağa oğlu Vidadovun /**M.V.Vidadinin nəvəsi - Ş.N**./ məsləhəti və köməkliyi ilə Tiflisdəki "Məvarayi-Qafqaz-ruhani idarəsi"nin nəzdində açılmış altı sinifli /üç illik/ məktəbə daxil olmuşdur. Üç illik təhsilini bitirdikdən sonra Abbas ağa doğma kəndi Salahlıya qayıtmış və 1873-cü ilə qədər müəllimlik etmişdir. Həmin ili Tiflisə işə dəvət olunan Abbas ağa Zaqafqaziya Ruhani İdarəsində baş katib köməkçisi, sonra isə baş katib vəzifəsində işləyir. Nazir sonralar həmin ili "Bəyanihalım" poemasında xatırlayaraq yazır:

Oldum əlqissə razı təklifə,
Eylədim nəql şəhri-Tiflisə.
Min səkkiz yüz idi yetmiş üç,
Ki, vətənimdən mən eylədim yenə köç.
Məni baş katibə müavini-əzəl,
Etdi təyinü nəsb o şəxsi-gözəl.
Olubən şüğlə ruzu şəb rağib,
Oldum axırda dəxi baş katib.

NAZİRİN BİR MƏNZUMƏSİ

O zamankı Tiflis ədəbi mühitinin Abbas ağa Nazir yaradıcılığına güclü təsiri olmuşdur. Yüzlərlə vətənpərvərlik şerlərinin müəllifi olan Abbas ağaya Tiflisdə bir neçə kitab nəşr etdirmək də qismət olmuşdur: 1911-ci ildə "Molla və şeytan" (nəzmlə hekayə), 1908-ci ildə "Müsəvvər Rüstəm və Söhrab", 1912-ci ildə "İki qardaş" (mənzum hekayə).

Sovetlər dövründə unudulmuş şairi professor Alməmməd Alməmmədov institut tələbələri üçün nəşr etdirdiyi əsərində az da olsa tanıtmışdır[31]. İlk dəfə Abbas ağa Nazirin "Molla və şeytan" mənzuməsinin elmi əhəmiyyətini araşdıran professor yazır ki, mənzumədə çolaq bir dilənçinin güzəranından söhbət gedir.

Şair dini təlimlə insanları qardaşlığa, xeyirxahlığa və yaxşılığa çağırır. Əsərin qısa məzmunu belədir:

...Bütün günü torbası çiynində dilənçilik edən qocanın son günü yetişir. Ata yeganə oğlunu çağırıb ona vəsiyyət edir: illər uzunu zillətlə sənin üçün pul qazanmışam. Topladığım üç min manatın bir mini mənim can haqqımdır, iki mini isə sənindir, istəyirəm ki, bundan sonra sən zillət çəkməyəsən. Ancaq meyitimi də gərək götürdəsən.

Qoca dilənçi mollaları oğluna tanıtmaq üçün tapşırır ki, avvəlcə Molla Səfiyə müraciət edərsən, lazımi qaydada məni dəfn eləsə, min manatı ona verərsən:

İşdi, qəbul etməsə gər dəvəti,

---

[30] Ikinci Qafqaz müftisi, Hacı Əbdülhəmid Şirvani nəzərdə tutulur - müəl.

[31] Bax: A.Almammədov "L.Tolstoy və Azərbaycan ədəbiyyatı" (dərs vəsaiti), ADPI-nin nəşri, Bakı, 1972-ci il

Ey oğul, etmə ona çox minnəti.

Ata məsləhət görür ki, onda Molla Zəkini çağırarsan. Son sözlərini deyib qoca gözünü yumur. Molla Səfinin dalınca gedən yetim çox çətinliklə onu tapır. Molla Səfi xəstə olduğunu bəhanə edərək, qoca dilənçinin dəfninə gəlmir. Oğlan atasını dəfn etmək üçün Molla Zəkiyə müraciət edir. Molla Zəki uşağı öz evinə gətirir ona ata qayğısı göstərir. Öz xərcilə qoca dilənçini adət və ənənəyə, şəriətə müvafiq şəkildə dəfn edir. Uşağı da öz himayəsinə götürür. Axırda uşaq pul saxlanan sandıqçanı açır və atasının vəsiyyətinə əməl etmək istəyir. Lakin Molla Zəki pulu götürmür, qocaya rəhmətlər oxuyur. Bu pulu əlsiz-ayaqsızlara paylamağın daha xeyirli, daha savab iş olduğunu söyləyir:

Yox təməim, leyk mənim bu pula,
Sərf gərək oluna bu həq yola.
Rizqi yetimü füqərədür bu pul,
Qisməti misginin gədqdır bu pul.
Malıdır bu əlsiz, ayaqsızların,
Xəstə, əlil, pirü dayaqsızların.

Abbas ağa Nazirin "alimi saleh əməl" adlandırdığı Molla Zəki ona çatası pulu sərf edərək yoxsulları şad edir. Yetim uşağı oxumaq üçün məktəbə qoyur və ona atalıq qayğısı göstərir.

Əsas mətləb mənzumənin dördüncü hissəsində başlayır. Bu əhvalatı eşidən Molla Səfinin kefi pozulur, evdə arvadı ilə savaşır, hamını yamanlayır, hətta özünü söyür ki, belə yağlı tikəni əldən çıxarıbdır. Şeytana lənətlər oxuyur, bu pulun hesabına nə qədər yüksələ biləcəyini, nə qədər kef edəcəyini yada salır. Lakin axırda bütün bu işlərin baisi şeytan olduğunu yəqin edir. Onun söyüşlərini eşidən şeytan da acığını Molla Səfinin üzünə çırpır və deyir:

Ey adı molla, özü əhli fəsad,
Öz əmənin heç də eyləməyən yad.
Öz günahın özgənin üstünə yıxan,
Haqq nədir, insaf nədir qanmayan,
Heç görübsənmi mənim heç üzümü
Ki danışırsan bu qədər sözümü?
...Mali-yetim yemədim sən kimi,
Batil işə həqq demədim sən kimi.

Şeytan mollanın bütün fırıldaqlarını açıb söyləyir. Pis əməllərin səbəbi tamahkarlıq, nəfs olduğunu deyir:

Nəfs edər xarü-zəlil adəmi,
Nəfs vurar bir-birinə aləmi.
Olmaya idi əgər aləmdə nəfs,
Qurdla gəzərdi quzu bixovfu-tərs.

Adəmə şər nəfsik ucundan gəlir,
Yoxsa nə şeytanü, iə cindən gəlir.

Şeytan bütün fitnənin, hiylə və şərin binasını mollanın qoyduğunu, Quranı belə öz nəfinə şərh elədiyini onun üzünə deyir. Surələri tərsinə nəql eyləyib, ayələri əksinə kəşf eyləyib, İslamın üzünə tərəqqi yolunu bağlayan da Molla Səfi kimi nadürüstlərin olduğunu dedikdən sonra şeytan çəkinmədən millətlər arasında salınan ədavətdə də mollanın günahkar olduğunu göstərir:

Millətlər arasında salıb qiylü-qal,
Günbəgün etdin onu aşüftə hal.
Açdın əvamın başına yüz oyun,
Nəfsi-təmə qurduna etdin qoyun.
Şəxsində qurban elədin milləti,
Nəfsinə büryan elədin milləti.

Şair belə qənaətə gəlir ki, "o gözəl islami" zəlil edənin, onun adam yerinə qoyulmamağının səbəbkarları fitnəkar mollalardır. Tərs şeytan hirsindən üzünü mollaya tutaraq deyir:

Eyləsə kim xeyir işə iqdam əgər,
Peşinə dərhal çəkirsən çəpər.
Tazə üsul ilə biri versə dərs,
Eylə gedirsən ona ərəkəsü-tərs.
Çökdürüb ətfali dizi üstə sən,
Dərsi verirsən bəüsuli kühən.
Çöpü fəlaqqa ədəbin illətin,
Sillə, söyünc tərbiyəyin hacəti.

Xalqın, millətin geriliyində də şeytan mollanı təqsirləndirir:

Sahibidir özgələr elmin, fənnin,
"Leyli və Məcnun" hələ dərsin sənin.
Elm ilə xəlq uçdu göyə, açdı pər,
Sən oxudursan yenə "zirü-zəbər".
Xəlq bilir ulduzların sayını,
Sən hələ bilmirsən oruc ayını.

Mollanın başqa fitnə-fəsadlarını sayıb, əməllərini oxuduqdan sonra şeytan deyir:

Hər necə pis olsa da şeytan əgər,
Sən kimi yüz əhli-fəsadə dəyər.

Adətən bəd əməllərin timsalı olan şeytan mollaların əhli-fəsad olduğunu sübuta yetirir.

Əsərdən göründüyü kimi, Abbas ağa Nazir, ümumiyyətlə, mollaların deyil, Molla Səfi kimi tamahkar, kəmsavad, hiyləgər, yetim malına göz dikənlərin əleyhinədir. Molla Zəki isə öz hərəkətlərilə, insanlara qayğısı ilə müsbət qəhrəman kimi yüksəlir. Əsərdə həmçinin maarifə, yeni üsullu məktəb və elmə çağırış da vardır.

Şair Abbas ağa Nazir ət yeməzmiş. Buna görə də ona "tolstoyçu" deyərmişlər. Ov ətini, heyvan başı kəsəni o, nadan, yırtıcı və ən böyük cinayətkar hesab edərmiş. Ona görə də "Vətən" şerində yana-yana deyirdi:

Ey Vətən, ey canım sənə qurban!
Neçinəhlin olub sənin nadan?

Abbas ağa nəinki "tolstoyçuluğa" varmış, hətta 1920-ci ildə tədqiqatçı Fərhad Ağazadənin fikrincə, "böyük Tolstoydan daha irəliyə varmış"dır. Müasirlərinin dediyinə görə, ömrünün son üç ilini (1917-19-cu illər) Qazaxda yaşayanda ana Salahlıdan pay göndərilən quzunu saxlayarmış, kəsməyə əli gəlməzmiş. İstər qohum-qonşu olsun, istərsə yad, birinci istəyənə quzunu bağışlarmış. Elə bu faktları bilən müasiri Fərhad Ağazadə şair Naziri yazıçı Lev Tolstoyla müqayisə edərək yazır: "Lev Tolstoy "ne ubey" (yəni insanları öldürmə) şüarı ilə məşhur olduğu halda, bizim şairimiz "insan ilə bərabər heyvanları da öldürmə" şüarı ilə məşhur olur.

Böyük Tolstoydan daha irəliyə varmış Abbas ağa Nazir əfəndi vətənini, millətini sevən bir Azərbaycan şairidir. İnsanlar ilə heyvanların da vətəndə hürr və azadlığı tərəfdarıdır".

Əsrin əvvəllərində Tiflisdə oturan harın çar pristavları və generallar tez-tez Qarayazıya ova gələr, meşə gözəli olan ceyran, cüyür, maral sürüsünü ovlayarmışlar. Meşəni maral nəriltisindən, ceyran mələşməsindən, çüyür gözəlliyindən məhrum edənlərə nifrət əlaməti olaraq Abbas ağa "Qarayazı meşəsinin vəsfi və ovçuların zülmü" şerini yazır. O, cənnətmisal Qarayazı ormanında qan tökənlərin vəhşiliyinə dözmür, fəryad edərək deyirdi:

Dad, səyyad əlindən, ey insan!
Əsl mənada yırtıcı heyvan.
Sürüdən qurd aparsa bir bərrə,
Lənət oxuyursan ona min kərrə.
Sən bütün kəlləni edib də tələf,
Zənn edirsən bunu bir özgə şərəf.
Fikir qıl: yoxmu canı heyvanın,
Sənə şirin deyilmi öz canın?
Demə mən adəməm, o heyvandır,
Can haman can və qan haman qandır.
Can verən ki, deyilsən, ey insan,
Can mən! Bəs neçün alırsan can?

Neştərin zəxminə ki tabın yox,
Neçin axır vurursan özgəyə ox?!

1910-cu ildə, altmış bir yaşında doğma kəndi Salahlıya qayıdan Abbas ağa Nazir məktəbdarlıqla məşğul olmuş və ömrünün axırınadək burada yaşamışdır.

Yatma ey milləti-islam,
gözüm bidar oldu,
Cəhd qıl mənzilə çat kim
yolun asan oldu.
Fikr qıl gör nədi azadəgiyü hürriyyət,
Kuşü huşilə eşit gör necə
dövran oldu.

Qeyrətü hümmət edin, eyüləmayi-islam,
Əhdi-peyğəmbər
əsri-şəhi-mərdan oldu.
İttihad üzrə olun,
canü dililə çalışın,
Xassə kim indi belə fürsətü
imkan oldu.

Salahlıların dediyinə görə, Abbas ağa Nazir varlı və səxavətli kişi olub. Salahlıdakı ən yaxşı, üstü kirəmitli mülklərdən biri də Abbas ağaya məxsus idi. Keçmiş ağaya məxsus olduğuna görə otuzuncu illərdə Şura hökuməti belə gözəl imarəti məhv etdi.

Kasıba əl tutan, kimsəsizə pay verən Abbas ağa Nazir əsrin əvvəllərində şerlərində və söhbətdlərində "xalqıma hürriyyət, millətimə hürriyyət" kəlmələrini tez-tez yazıb işlədirmiş.

Son günlərimizə qədər onun nökərlərindən biri - Cıllet Nəsib və sərkarı Mahmud Yusif oğlu Çıraqov yaşayırdı. Abbas ağanın xeyirxahlığından maraqlı söhbətlər danışan Cıllet Nəsib 1980-ci ildə, yüz on yaşında dünyasını dəyişdi.

...Gün o gün olur ki, hökumət ölkədə hürriyyət elan edir. Abbas ağa Nazir də bu hürriyyətə sevinir və yuxarıda bir neçə bəndini sizə təqdim etdiyimiz "1905-ci il inqilab cərəyanına dair"və "Millətə xitab" şerini yazır. Bir neçə gün sonra onun ilxısını oğurlayırlar. Abbas ağanın ilxıçısı, nökər-naibi Qazaxdan Qaraçöpəcən, Dilicandan Şəmşəddinə və Şəmkirə kimi olan ərazini ələk-vələk eləyirlər, amma ilxını tapa bilmirlər. Çapar hara gedirsə, əliboş qayıdır, ilxını gördüm deyən olmur... Salahlı ağsaqqalları yığışıb Abbas ağaya təsəlli verməyə gəlirlər. Dili dinc durmayan Xocaoğlu zarafata salıb deyir:

- Abbas ağa, çox deyirdin ki, hürriyyət gəlsin, xalqım ayılsın, Bu da sənə hürriyyət, sən arzu elədin, yazdın, o da gəldi. Xalqımız ayıldı, sənin də ilxını oğurladı.

Abbas ağa dözə bilməyib:

- Xocaoğlu, - deyir, səhvin var, bu mən arzulayan hürriyyət deyil, bu dərəbəylikdir. Mən hürriyyəti xalqıma arzulamışdım, oğruya, quldura yox, bu hürriyyət deyil, qor-qodux zamanıdı, oğru-quldur əyyamıdı...

Könül, aldanma çərxə, bivəfadır,
İşi daim onun cövrü cəfadır.

Doxsan il əvvəl Abbas ağa Nazirə "qismət" olan hürriyyət bu gün bizə gələn demokratiyanın, aşkarlığın özü deyilmi? Burda deyiblər ki, tarix təkrar olunur, yaxşı-pis əhvalatları ilə...

* * *

İLK HƏRBİ ŞƏFQƏT BACISI

Hər dəfə Nigar xanım Şıxlinskayadan söz düşəndə istər-istəməz Qafqaz tarixinin mahir bilicisi Vasili Veliçkonun "Nəciblik azərbaycanlıların qanındadır, onlar təbiət etibarilə xoşxasiyyət və rəhmlidirlər, mərd və alicənabdırlar" sözlərini xatırlayıram.

Nigar xanımın ömür yolu ilə tanış olanda görürsən ki, nəciblik sözü onun təbiətinə xas olan xususi bir keyfiyyət imiş, Bu nəcib və xoşxasiyyət qadınla iyirmi iki il ömür sürmüş məşhur sərkərdəmiz Əliağa Şıxlinski yazır:

"1909-cu il oktyabrın 27-də, qırx altı yaşında ikən mən Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbovun qızı Nigar xanımla evləndim... Bu dəyişiklik mənim həyatımı işıqlı bir yola, parlaq səadətə yönəltdi. Bir yerdə keçirmiş olduğumuz iyirmi iki illik həyatın aydın səmasında bir bulud ləkəsi belə görünmədi. Fitrətən istedadlı olan, yaxşı təhsil görmüş, mülayim xasiyyətli Nigar xanım ailə səadəti üçün yaradılmış bir qadın idi. Mən bu səadatə tam mənası ilə nail oldum. Lakin 1931 -ci il avqustun on beşində Nigar xanımın ölümü mənim üçün ən ağır zərbə oldu. Mənim hər şeyim həm səadətim, həm səhhətim onunla getdi".

Nigar xanım 1870-ci ildə Tiflisdə ziyalı bir ailədə dünyaya gəlmişdir. Atası şer-sənət xiridarı, məşhur din alimi Mirzə Hüseyn, anası Səadət xanım isə Qafqaz Qadınlar Xeyriyyə Cəmiyyətinin fəxri sədri idi.

İlk təhsilini evdə ata - anasından və məşhur riyaziyyatçı Əbdülkərim ağa Qayıbovdan alan Nigar xanım Tiflisdəki Nücabə Qızlar İnstitutunu 1889-cu ildə qızıl medalla bitirmişdir. Fransız və rus dillərindö sərbəst danışan Nigar xanım, ərəb və fars dillərini də kamil bilirdi.

Bahadır bəy Qayıbovun akademik Heydər Hüseynova 30 sentyabr 1946-cı il məktubundan:

"...Rəhmətlik Nigar bacı atamdan daha çox şey əxz etmişdir: o, yetkinliyində nəinki İran klassikləri Sədi, Firdovsi, Hafiz, Cami və başqalarını oxumuş, həmçinin bütün Azərbaycan şairlərini - Xaqani, Nizami, Füzuli, Vaqif və

başqalarını mütaliə etmiş, ərəb dilini öyrənmiş və ərəb ədəbiyyatı ilə yaxından tanış idi. Heyif ki, siz onunla yaxından tanış deyildiniz - o, həqiqətən rus dili bir yana, bizim və fars ədəbiyyatının bilicisi idi".

1918-ci ildən Bakıda yaşayan Nigar xanım "Yeni fikir" qəzetində Azərbaycan ədəbiyyatına dair silsilə məqalələri ilə çıxış etmişdir. O, 1923-cü ildə "Proletar mədəniyyəti" şüarı altında klassik irsimizə xor baxan, dilimizin saflığını korlayan cığırdaş qələm sahiblərini cəsarətlə tənqid edir və Nizami Gəncəvinin nə üçün farsca yazmasının tarixi səbəblərinin elmi izahını əsaslı faktlarla şərh edir, Nizaminin azərbaycanlı olmasına şübhə edənləri kütbeyin, savadsız adlandırır. O, Nizaminin azərbaycanlı olmasını yazan ilk tədqiqatçılardan biridir.

Nigar xanım məqalələrində bolşevik fitvasına uyanlara, klassik irsimizi inkar edənlərə, zəngin Azərbaycan dilini mükəmməl bilməyənlərə məsləhət verərək yazırdı:

"...Həmişə və hər yerdə camaat söylədiyi dildə yazmaq olmaz. Hər millətin və camaatın növbənöv şivəsi vardır, amma ədəbi dili birdir. Yazan özü də nə şivədə danışsa da, yazdığı ədəbi dildə olmalıdır. Dilimizdə olan ərəb, fars sözlərini mümkün qədər əvəz edib azərbaycan sözlərini işlətmək lazımdır. Çünki öz dilimizdə azərbaycan sözləri çoxdur. Ərəb və fars sözlərini ancaq azərbaycanca əvəz olmadıqda izahlarla işlətməliyik. Dilimizdə köklənmiş ərəb, fars sözləri işlətmək olar, çünki bunları oxumamışlarımız da bilirlər. Rus dilində də əcnəbi sözlər vardır. Başqa dillərdən iqtibas etməmiş heç bir dil tapılmaz".

* * *

1948-ci il noyabrın 28-də gecə saat ikidə dünyadan köçən dahi bəstəkar Üzeyir bəy Hacıbəyovun pianosunun üstündə bitməmiş bir not qaldı. Üzeyir bəy general Əliağa Şıxlinskinin altı bəndlik "Mənim" şerinin iki bəndinə romans yazmışdır.

1912-ci ildə Çarskoye Seloda yazılan bu şerdə general sonsuz bir məhəbbətlə sevdiyi Nigarını tərənnüm edirdi:

Ey sevdiyim, ey dilrüba,
Səbrim, qərarımsan mənim.
Səd mərhəba, səd mərhəba,
Nə türfə yarımsan mənim.

Görən səni, ey nazənin,
Deyər: pəh-pəh, səd afərin!
Dünyada mislin yox yəqin,
Əcəb dildarımsan mənim!

Gözəl zahirdə surətin,
Gözəl batin, təbiətin.
Gözəl hər işdə qeyrətin,
Namusum, arımsan mənim.

Mənim baharda bülbülüm,
Mənim qızılca sünbülüm,
Gülşənlərdə zərif gülüm,
Bağlarda barımsan mənim.

Səni ziyarət eylərəm,
Sənə ibadət eylərəm,
Həm çox sədaqət eylərəm,
Çün sən Nigarımsan mənim.

Mən aşiqin adı Əli,
Verdin bu dərsi bilməli.
Eşqindən olmuşam dəli,
Sən ahu-zarımsan mənim.

Nigar xanımın fransız dilini mükəmməl bilməsi haqqında mənim bildiyim iki olmuş əhvalat var. Onlardan birini general Əliağa Şıxlinski xatirələrində ötəri də olsa yazıb.

...1912-ci ilin yayında Çarskoye Seloya gələn Fransa hərbi numayəndə heyətinin başçısı general Dezavye general Əliağa ilə səmimi münasibətdə olur. Bir gün Şıxlinski onu evinə qonaq dəvət edir.

Fransızca çətinliklə danışan Əliağaya Ningar xanım da arabir kömək edirmiş. Nigar xanımın fransız dilini incəliklərinə qədər bilməsi general Dezavyeni heyrətə gətirirdi. O, maraqla soruşur ki, neçə il Parisdə yaşamısınız. Onda Nigar xanım gülümsünub deyir ki, heç Parisin üzünü görməmişəm. Heç vaxt Rusiya ərazisidən kənara çıxmamışam. Ona təşəkkür edən general Dezavye demişdir:

- Məni heyrətə gətirdiniz, madam, öz gözəl, təmiz Paris ləhcənizlə...

İkinci əhvalatı isə mənə on il əvvəl Nigar xanımın yaxın qohumu, mərhum Zülfüqar Qayıbov danışmışdı.

...Bir dəfə anası Səadət xanımla doğma Salahlı kəndindən Tiflisə gedən Nigar xanım, Saloğlu stansiyasında qatar gözləməli olur. Bu vaxt Qarayazı çölündən ekspedisiyadan qayıdan iki fransız da qatarın gəlməsini gözləyirmiş. Fransızlardan biri o birinə milli geyimdə olan Nigar xanımı göstərib deyir: - Ora bax, gör türk qızı necə gözəldir, amma heyif ki, çox zövqsüz geyinib.

Fransızların Nigara baxıb nəsə dediklərini hiss edən anası Səadət xanım: - Qızım, - deyir, - onlar deyəsən səndən danışırlar?

- Ana, dinmə, onlar məni və geyimimi təhqir etdilər. Eybi yoxdur, bu saat cavablarını alarlar. Qatar gəlir. Minirlər. Bir xeyli gedəndən sonra Nigar xanım çölə baxıb fransızlardan təmiz fransız dilində soruşur: - Cənab, zəhmət olmasa, deyin görək, saat neçədir, hələ Naftulluğa çoxmu qalır?

Heyrətdə qalan fransızlar özlərini itirirlər. Dönə-dönə Nigar xanımdan və anasından üzr istəyirlər.

* * *

Nigar xanım xalqımızın ilk hərbi şəfqət bacısıdır.

Birinci Dünya müharibəsi başlananda general Əliağa Şıxlinski Çarskoye Selodakı Artilleriya Zabitləri Məktəbində rəis müavini idi. Döyüşən orduya gedən müdavimlərin tədris binası, kazarmaları (qışlaları) yaralı əsgərlər üçün qospitala çevrilir. Zabit arvadları yaralı əsgərlərə tibbi yardım göstərmək üçün "Qırmızı xaç cəmiyyəti" təşkil edirlər. Nigar xanım həmin cəmiyyətə sədr seçilir.

İmperatorun "Qırmızı xaç" cəmiyyətinin səlahiyyətli nəzarətçisi polkovnik Velçinski bir yoxlama zamanı demişdir ki, Nigar xanım Şıxlinskayanın başçılıq etdiyi hərbi xəstəxana hazırkı müharibədə fövqəladə təşkil olunmuş bütün "Qırmızı xaç" cəmiyyəti xəstəxanaları arasında ən yaxşısıdır. Onu da xatırladaq ki, hərbi xəstəxananın rəsmi adı "Topçu zabitləri məktəbi qadın komitəsinin xəstəxanası" olmasına baxmayaraq, hörmət əlaməti olaraq hamı ona "Şıxlinskayanın xəstəxanası" deyirmiş.

Həmin illəri xatırlayan general Əliağa Şıxlinski yazır:

"Mənim arvadım Nigar xanım həmişə xəstəxanada olurdu. Komitənin sədrliyi vəzifəsini ifa etməkdən başqa, əsgərlər üçün rusca, Kazantatarlarının, kazak və özbəklərin dillərində evlərinə məktub yazırdı. Əsgərlər onu ana kimi son dərəcə sevir və onu "mamaşa" - deyə çağırırdılar; tez-tez bu xəstəxanaya getdiyimdən mənə də "papaşa" deyirdilər".

1984-cü ilin oktyabrında Sankt-Peterburqdakı Saltıkov-Şedrin adına kütləvi kitabxananın arxivində saxlanan "Artilleriya zabitləri məktəbinin xəbərləri" jurnalının səhifələrində Nigar xanım haqqında xeyli maraqlı faktlara rast gəldim. Jurnalın 1914-cü il oktyabr (30) nömrəsində (səh. 60-61 -də) yazılıb ki, Nigar xanım Şıxlinskaya "Qadın Xeyriyyə Cəmiyyəti"nin sədri seçilib. Digər bir səhifədə isə daha qırx belə qadının adı, familiyası dərc edilib. Bunlar Qadın Xeyriyyə Cəmiyyətinin üzvləri - Nigar xanımın tabeliyində işləyənlərdir. Daha sonra jurnalın 78-ci səhifəsində Nigar xanımın "Dul qadınlar, yetim uşaqlar və aşağı rütbəli ailələr üçün" adlı müraciət-məqaləsi dərc olunub. Məqalədə göstərilir ki, hökumət müharibədə ailə başçısını itirənlərə yardım verib, təqaüd kəsməlidir.

Həmin ili - 1914-cü ildə Nigar xanım başqa bir mətbuat orqanında çıxış etmişdir. O, "Russkiy invalid" qəzetinin 4 avqust nömrəsində "Əzizlərini müharibəyə yola salan qadınlara" adlı məqaləsini dərc etdirmişdir. Hərbi şəfqət bacısı kimi yaralılara tibbi yardım göstərən xeyirxah Nigar xanım təkcə bununla kifayətlənməmişdir. O, bir ziyalı kimi çıxış edərək demişdir ki, döyüşçünün qadını ağlayıb sızlamaqdansa, saqlamlığını qorumalı, uşaqlarına qayğı göstərməlidir. Qoy Vətən və torpaq uğrunda döyüşən ərin qulağına ailəsi, uşaqları haqqında xoş sədalar yetişsin.

Yetmiş səkkiz il əvvəl xalqımızın fədakar və nəcib ziyalısı Nigar xanım Şıxlinskayanın yazdığı müraciət məqaləsi bu günümüzlə necə də eyni ruhda səsləşir. Ona görə də həmin məqaləni möhtərəm oxuculara təqdim edirəm:

"Əksər hallarda, zabitin döyüşən orduda təyin olunması haqda çağırış gələrkən, onun ailəsindəki qadınlar ağlaşmağa, ümidsizliyə qapılmağa başlayırlar, qorxurlar ki, onların əzizi müharibədə həlak ola bilər. Zənnimizcə, bu, məsələnin

düzgün açıqlanmamasından irəli gəlir. Hər bir mömin qadın əmin olmalıdır ki, yeri-göyü yaradan ulu Tanrı nə vaxt lazım bilirsə, onun istəkli kişisi də məhz o vaxt ölməlidir. Əgər bəndəsinin məhz bu il ölməsi Tanrının meylindən keçərsə, həmin bəndə müharibədə iştirak etmədən də o dünyalıq olar, yəni ömrünü sizə bağışlayar. Belə olduqda, evdə ölməkdənsə, hər bir igid hərbçinin arzuladığı kimi döyüş meydanında şəhid olmaq daha yaxşı deyilmi? O, Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirdiyinə görə dünyasını xoş duyğularla dəyişəcək, onun xatirəsi bizim aləmimizdə cəfakeşlik, müqəddəslik haləsi ilə nurlanacaq: o şəhidin adını tanış-bilişləri də, ucsuz-bucaqsız diyarımızın onu əsla tanımayan zümrələri də ehtiramla, pərəstişlə çəkəcəklər.

Döyüşən əzizlərimizin təhlükəsindən səksəkəyə düşməkdənsə, biz onun səhhətinin, sağlamlığının qeydinə qalmalıyıq. Sülh, əmin - amanlıq çağlarına biz ailəmizin kişi xeylağının qulluğunda dayanırıq: çalışırıq, hər şeyi elə sahmanlayaq ki, ömrümüzün-günümüzün fərəhi xidmətdən qayıdıb gələndə evdə həm; mənəvi, həm də ruhən dincələ bilsin, Əmməli-başlı yeyib-içməyə, istirahət etməyə onun kifayət qədər vaxtı olmadığı üzündən, doğrusu, çoxlarımızın ürəyindən ağrılar keçib. Müharibədə onun vəziyyəti müqayisəolunmaz dərəcədə çətindir. Elə də olur ki, o, mərmi gurultusu, güllə vıyıltısı altında ac-susuz, yuxusuz günlər keçirir. Təsəvvürə gətirəsən gərək - tapşırılan vəzifəni yerinə yetirməkdən ötrü, varlığı titrədən, əsəbləri tarıma çəkən xoşagəlməz şəraitdə öz dəyanətini, zəka aydınlığını qoruyub saxlamaq üçün bizim əzizimizə, görün, nə qədər böyük iradə əzmkarlığı, əsəb gərginliyi lazım gəlir? Bu, hələ harasıdır? Təkcə öz fəaliyyətini deyil, idarə olunması ona tapşırılmış qeyrilərinin hərəkətlərinə başçılıq etmək işində də şəxsi təşəbbüs göstərmək tez-tez onun üzərinə düşür.

Mən qəlbimin dərinliyində əminəm ki, hər bir sevən qadın müharibədə könül həmdəminin görəcəyi işin müəyyən hissəsini öz üzərinə götürməyi, ona kömək etməyi cani-dildən arzulayır. Təəssüf ki, indiki halda bu baxımdan əlimizdən heç nə gölmir. İmkan daxilində gücümüz buna çatar - özümüzü elə tutmalıyıq ki, əzizimizin biz sarıdan beli bərk olsun, evin güzəranı, qayğıları onun müharibədə keçirəcəyi hər cür həyəcanlara əlavə olunmasın, Biz yaxın kimsələrimizi "hara gedirsən, hara? Sənsiz vay günüm qara..." - deyə - deyə uğurlamamalıyıq: biz təmkinlə xeyir - dua verməli, ona təlqin etməliyik ki, o, özünün əvəzinə ailədə - ocaqda zəif, aciz məxluq deyil, ruhən güclü, təhlükənin gözünə düz baxmağı bacaran sadiq, sevən dost qoyub gedir və həmin bu sadiq dost lazım olarsa, uçub gələr onun yanına. Öz nəvazişi ilə ovundurar, qadasını alar onun...

Ruhdan düşməmək, özümüzü möhkəm ələ almaq üçün, əvəzsiz əzizimizə lazım gələn məqamda şəfqət göstərməyə imkanımız olsun, deyə sağlamlığımızı həmişəkindən daha çox qorumaq üçün, yola düşənimizə bəslədiyimiz atəşin məhəbbət bizə həyan olsun".

"Qafqaz qadınlarının Xeyriyyə Cəmiyyəti"ndəki xidmətlərinə görə Müfti Mirzə Hüseyn Əfəndi Qayıbovun həyat yoldaşı Səadət xanım cəmiyyətin fəxri üzvü, qızı Nigar xanım isə ömürlük üzvü seçilmişlər.

Yanvar, 1993-cü il

* * *

ULU VƏSİYYƏTİ FAYDASIZ OLMAZ

General Əliağa Şıxlinskiyə tale övlad qismət eləməmişdi, O, sevimli həyat yoldaşı Nigar xanımın ölümündən sonrakı həyatını tamamilə artıq hesab edirdi. Bu, doğrudanmı belədir, yoxsa şair təbli məşhur sərkərdəmiz ötəri hissəmi qapılmışdı?

1931-ci ildə vəfat edən Nigar xanımdan sonra general on üç il yaşamışdır. Bu on üç ildə tənha yaşayan Əliağa Şıxlinski həyatının bir anını belə Nigarsız təsəvvür etməmişdir. O, hər cümə axşamı sevimli həyat yoldaşının qəbrini ziyarət etmiş, vəfatının ildönümündə ehsan vermişdir.

Görüşdüyüm Şıxlinskilər nəslinin çoxsaylı nümayəndələri mənə dönə-dönə demişdiler ki, generalın ən çox sevdiyi insan yalnız və yalnız həyat yoldaşı Nigar xanım olub. Əliağa Şıxlinski məşhur "Xatirələrim" əsərində, şerlərində və məqalələrində bu barədə söhbət açıb. Biz də bu məhəbbətin ülviliyindən oxuculara az-çox çatdırmışıq.

1983-cü ildə Azərbaycan Dövlət Tarix Muzeyinin arxivindəki "Şıxlinski Fondu"nda araşdırmalar apararkən ağzıbağlı bir məktuba rast gəldim. Mavi rəngli zərfin üstündə rus dilində belə yazılmışdı: "Vəsiyyət. Mən öləndən sonra açmalı".

Məktub əlimdə bir müddət kövrək hisslərin ağır təsirindən quruyub qaldım. Gözlərimdə yaş dumanı, beynimdəsə qarma-qarışıq sözlər fırlanırdı: "Açım, açmayım. Bu müqəddəs kişinin ruhu məni lənətləməz ki..." Məktubu o biri üzünə çevirib yapışdırılmış tərəfinə dönə-dönə baxıram. Məktub bağlıdır. 1943-cü il avqustun 18-də Bakıda vəfat edən generalın ölümündən isə düz 40 il keçir. Kədərlə köks ötürüb çölə boylanıram. Fevral ayının sazağı uğultu ilə içəri dolub varlığımı titrədir. Həyat və fəaliyyətini az-çox öyrəndiyim general Əliağa Şıxlinski, bilirəm ki, çox maraqlı bir insan olub. Güclü muşahidəsi, əla mütaliəsi və geniş dünyagörüşü olan bu adam heç vaxt ötəri və ya başdansovdu iş görməzmiş. Onun şəxsi əlyazmalarını araşdıranda görürsən ki, xırdaca bir qeydi də böyük məna kəsb edir. Mənim yəqinim idi ki, generalın hələ oxumadığım vəsiyyətnaməsində də müdrik sətirlərə rast gələcək.

Bu anda ağlıma qəribə bir fikir də gəldi. Əgər arxiv işçiləri icazə versəydi bu ağzıbağlı məktubu götürüb generalın yaxın qohumlarından birinin yanına gedər və onunla birgə açıb oxuyardım. Məlumdur ki, vəsiyyət, hər şeydən əvvəl, yaxın qohumlar üçün yazılır. Mən də istəyirdim ki, bu məktubu generalın doğması müdrik yazıçımız İsmayıl Şıxlı ilə birgə oxuyam. Amma məktub adi kağız parçası olmadığından bu, mümkün deyildi. Möhürlənib, qeydə alınıb və tarixi bir sənəd olub. Bəs bu tarixi sənəd nə üçün indiyədək heç kəsi maraqlandırmayıb. Bəlkə tədqiqatçıların rastına çıxmayıb? Elə isə mənim uğurumdur qarşıma çıxıb, açsam, heç bir günah sahibi olmaram.

Ehtiyatla qələmin iti ucunu ağzıbağlı məktuba yaxınlaşdırıram. Qırx il qurumuş yapışqan asanca qopur. İçərisindən adi dəftər kağızında yazılmış dörd vərəq çıxır. Birincinin sərlövhəsi: "Ailə vəsiyyətnaməsi", 30 oktyabr 1933-cü ildə yazılıb. İkincisi - "Əziz Bahadır və Varya" /həmin tarixdə yazılıb/. Üçüncü

sərlövəsizdir, yalnız tarixi qoyulub: “3 yanvar 1938-ci il”. Dördüncüsü: “Son rica /xahiş/”, 13 mart 1942-ci ildə yazılıb.

General Əliağa Şıxlinskinin “Vəsiyyətnamə”sinin dördünün də üzünü köçürüb evə qayıdıram. Yol boyu ikinci vəsiyyənamədəki bir cümləni ürək ağrısı ilə öz-özümə təkrar edirəm.

“Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim “əmlakım” mənim dəfnolunma və ən sadə qəbir daşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətim gülünc hal almış olar”.

Oxucum, general Şıxlinskinin vəsiyyətnamələrindəki kədər təkcə bu cümlədə deyil. Onların dördü də tənha yaşayan insanın kədər və həsrətilə doludur. Burda onun sevimli Nigarına ülvi məhəbbətinin də şahidi olacaqsan.

Mən 1983-cü ildə ulu generalımızın kədərinə şərik oldum. Vəsiyyətnamələri Sizə təqdim etməkdə bircə məqsədim var: xalqımız üçün əvəzsiz xidmətlər göstərmiş general Əliağa Şıxlinskinin nikbinliyinə, qayğılarına Siz də şərik olun. Ulu vəsiyyəti faydasız olmaz.

* * *

Ailə vəsiyyətnaməsi

Mənim ölümümdən sonra, əmlakımdan nə qalarsa: mebel, qab-qacaq, geyim şeyləri və başqa əşyalar, eləcə də qalmış nəğd pul məbləğini - həyatımın kimsəsiz illərində mənə qayğı göstərmiş həkim Bahadır Qayıbova[32] və onun arvadı Qayıbovaya[33] vəsiyyət edirəm.

Yazılanları öz şəxsi imzam ilə təsdiq edirəm.

30 oktyabr 1933-cü il,
Bakı Əliağa Şıxlinski

Biz mətnin altında imza atmış şəxslər, aqronom Nəsrulla Əlizadə və texnik Sadıq Əlizadə şahidik ki, Əliağa Şıxlinski 30 oktyabr 1933-cü ildə bizim iştirakımızla vəsiyyətnaməni tərtib edib, imzalayarkən tam sağlam əqlə və yaddaşa malik idi. 1. Nəsrulla Əlizadə, 2. Sadıq Əlizadə.

Əziz Bahadır və Varya!

Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim “əmlakım” mənim dəfnolunma və ən sadə qəbir daşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətnaməm gülünc hal almış olar.

Lakin ona əvəz olaraq, unudulmaz həyat yoldaşım Nigar xanımın vəfatından sonra, siz məni qayğı ilə hərtərəfli əhatə edərək, onsuz yaşadığım günləri mənim

---

[32] Bahadır bəy Mirzə Hüseyn Əfəndi oğlu Qayıbov/1878-1949/ Əliağa Şıxlinckinin qaynıdır. Onlar həm də qonşu olmuşlar.

[33] Varvara Qayıbova doktor Bahadır bəyin arvadı - müəl.

üçün mümkün və dözümlü etdiyinizə görə, mənim sizə qarşı olan minnətdarlığımın həddi-hüdudu yoxdur.

Bu qəni minnətdarlığı mən özümlə qəbir evinə belə aparacağam.

Sizin mənə qarşı mərhəmətinizə görə Allah sizdən razı olsun.

Sizi sevən
Əliağa Şıxlinski
Bakı, 30\X-1933-cü il

3.01.1938-ci il

Vəsiyyətnamə yazılarkən, mənim bəzi qiymətli şeylərim var idi ki, onlar Bahadır və Varyanın mənə göstərdikləri qayğı və mənəvi köməklikdən əlavə, maddi yardımlarını qismən ödəyə bilərdi.

Lakin mən gözlənildiyindən də artıq yaşadım, satmalı nə vardısa, satıb xərclədim və bununla da vəsiyyətnamə öz mənasını itirmiş oldu.

Əgər evdə qalmış əşyaların dəyəri dəfn mərasiminə və sadə qəbir daşına kifayət edərsə, ona da Şükür. Heç bir ehsan və elan lazım deyil.

Qohumlara telefon vasitəsilə, telefon yoxsa, məktubla xəbər vermək olar.

Qəbir daşı yalnız onun üçündür ki, mənim adım unudulmaz həyat yoldaşım Nigar xanımın adı ilə yanaşı yazılsın,

Əliağa Şıxlinski.

Son rica /xahiş/

- Əgər mən yataqda qalası xəstə olsam, məni xəstəxanaya göndərin.
- Əgər xəstəxanada ölsəm, nəşimi evə yox, xəstəxanadan qəbiristanlığa aparın.
- Qəzetdə elan verməyin.
- Dəfnetmə xərclərinin az olmasına çalışın. Yorğan ağına bükülmuş cəsədi rənglənməmiş, üstünə ağ kilim salınmış tabuta qoyun.
- Heç bir ehsan verməyin, bunu etmək həmişə gərəksizdir, muasir çətinlikləri nəzərə alsaq isə qəbahətdir.
- Mənə əziz olan Nigar xanımın qəbri ilə yanaşı qəbri yastı tava daşı ilə örtub, üstündə yazarsınız: Əliağa Şıxlinski - heç bir tarix lazım deyil. Əliağa Şıxlinski

Bakı, 13.03.1942-ci il.

Nə tabutun içinə, nə də tabutun üstünə bir dənə də olsun gül qoyulmasın.

Əliağa ŞIXLİNSKİ.

YADLARIN ETİRAFI

General Əliağa Şıxlinskinin adı daima böyük nüfuza və rəğbətə malik olmuşdur. O, təkcə rus topçularına deyil, Avstriya və Fransa ordusunun keçmiş dairələrində də çox tanınmışdı və son dərəcə məşhurlaşmışdı.

Yevgeni BARSUKOV,
general-mayor, hərb elmləri doktoru,
professor.

İllər keçəcək, zaman, dövr dəyişəcək, amma məşhur sərkərdəmiz Əliağa Şıxlinskinin hərbi-elmi fəaliyyətinə, sərkərdəlik bacarığına münasibət dəyişməyəcək. Yeni gələn nəsil onun hərbi biliyindən bəhrələnəcək, döyüş yolu ilə fəxr edəcək.

Vaxtilə Əliağa Şıxlinskinin müasiri olan minlərlə rus generalı nizami orduda xidmət edir və müxtəlif hərbi-elmi mərkəzlərdə çalışırdı. Hər birinin də özünə görə bacarığı və xidməti vardı. Amma heç bir rus və ya qeyri millətdən olan oğula "artilleriyanın Allahı" kimi fəxri ad qismət olmadı. Bu şöhrət çələngi ancaq bizim eloğlumuzun - Əliağa Şıxlinskinin çiyinlərinə qondu. Nizami ordu generalı Əliağa Şıxlinski hərb elminin alimi kimi qeyri-adi bacarığa malik şəxsiyyət idi. 1912-ci ildə "Şıxlinski üçbucağı" Varşavada nəşr olunanda eloğlumuzun şöhrəti Avstriya, Fransa, Norveç və başqa ölkələrə də çatdı. Həmin il Artilleriya Zabitləri məktəbinə birinci müavin təyin edilən Şıxlinskiyə dünyanın adlı-sanlı topçuları təbrik teleqramı göndərdilər.

Fransa Topçu Zabitləri məktəbinin rəisi, general-mayor Nolle iftixarla yazırdı:

"Rus topçu məktəbinin ikinci şefi (**məktəb müdirinin müavini ikinci rəhbər hesab olunurdu - Ş.N.)** təyin edilməyinizi eşitdim. Sizin simanızda rus artilleriyasını təbrik edirəm".

Rusiya Baş Qərargah Akademiyasının professoru, general-mayor A.A.Neznamov isə yazırdı:

"Sizi və rus artilleriyasını təbrik edirəm".

Yalnız bir şəxsin timsalında bütöv bir ölkənin artilleriya heyətini təbrik etmək... əlbəttə, o şəxsin - Əliağa Şıxlinskinin böyüklüyünün, dahiliyinin təsdiqi, etirafı idi. Üstəlik də yad məmləkətdə, xristian dünyasında tək bir türk-Azərbaycan oğlu Əliağa Şıxlinskinin danılmaz, parlaq qələbəsi idi.

Bu günlərimizdə isə - tarixin olduğu kimi yazıldığı bir vaxtda rus tarixçisi B.Semyannikov ulu babamız Şıxlinskinin doxsan il əvvəlki parlaq qələbəsini etiraf etmişdir. Onun "Rusiya generalı, Azərbaycan oğlu" məqaləsinin "Voennıe znaniya" jurnalında (1995-ci il, noyabr) dərc olunması oxucuda təəccüb hissi doğurmamalıdır. Əksinə, iftixar və sevincə səbəb olmalıdır.

B.Semyannikovun məqaləsi Əliağa Şıxlinskinin hərbi fəaliyyətinin 1917-ci ilə qədərki dövrünü qısaca əhatə edir. Bu da təbii haldır. Əlbəttə, rus tarixçisi, eloğlumuzun Milli Azərbaycan ordusunun yaradılması kimi misilsiz fəaliyyətindən bixəbərdir. Üstəlik də general Əliağa Şıxlinski ömrünün sonuna kimi (1943) milli Azərbaycan diviziyalarının təşkilində, Azərbaycanda ilk dəfə "Hərbi bilik" jurnalının, Hərbi-Elmi Cəmiyyətin yaradılmasında, hərbi lüğətin, hərbi nizamnamələrin yazılması və tərcüməsində əvəzsiz əmək sərf etmişdir.

Bütün bunların tədqiq olunması bu gün Azərbaycan hərb tarixçilərinin vəzifə borcudur.

Rus tarixçisi B.Semyannikovun yığcam, oxunaqlı məqaləsində hər şey olduğu kimi tədqiq olunmuşdur. Hətta bizə məlum olmayan bir neçə fakt yenilik oldu: 1912-ci ildə Peterburqda "Artilleriya Zabitləri məktəbinin jurnalı"nın ilk dəfə Əliağa Şıxlinskinin təşəbbüsü ilə buraxılması, 1917-ci il aprelin 2-də Əliağa Şıxlinskinin general-leytenant rütbəsi alması və s. kimi faktlar Azərbaycan oxucusu üçün yenilikdir.

Yalnız bir faktda rus tarixçisi B.Semyannikov səhvə yol vermişdir. O da Əliağa Şıxlinskinin təvəllüd tarixinin 1866-cı il kimi göstərilməsidir. Bu, əlbəttə, o qədər də qeyri-adi səhv deyil. Ümumiyyətlə götürdükdə, general Əliağa Şıxlinskinin təvəllüd tarixi mənbələrdə müxtəlif cür göstərildiyinə görə mübahisəlidir. Məsələn, generalın vəfatından bir il sonra - 1944-cü ildə nəşr olunmuş "Xatirələrim" kitabında onun təvəllüd tarixi 1863-cü il göstərilmişdir. Sankt-Peterburqdakı Artilleriya Muzeyinin arxivində general öz dəsti-xəttilə: "1865-ci il aprelin 23-də anadan olmuşam"sözlərini yazıb.

1914-cü ildə Çarskoye Selo şəhərində özünün qol çəkib təsdiq etdiyi "Hərbi xidmət kitabçası"nda 1865-ci il aprelin 23-də doğulduğu göstərilir.

General Əliağa Şıxlinski "Xatirələrim" kitabının 98-ci səhifəsində yazır: "1909-cu il oktyabrın 27-də qırx altı yaşında ikən mən öz qohumlarımdan Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbovun qızı Nigar xanımla evləndim". (Ə.Şıxlinski "Xatirələrim", Bakı, 1984-cü il nəşri).

Bu tarixlə hesablayanda generalın təvəllüd tarixi 1863-cü il olur.

Zənnimcə, tarixçi B.Semyannikovun məqaləsində gedən təvəllüd tarixinin yanlışlığı olsa-olsa mətbəə səhvi ola bilər. Şübhəsiz ki, bu fakt tarixçi B.Semyannikovun məqaləsinin istər elmi, istərsə də publisistik dəyərini azaltmır. Bu məqalənin Azərbaycan hərb tarixi üçün qiyməti odur ki, o, bizim xalqın görkəmli oğlunun xidmətini yadlarında etiraf etdiyini təsdiqləyir.

AZƏBAYCAN OĞLU,
RUSİYA GENERALI

Rus ordusunun görkəmli artilleriyaçılarından biri Əliağa İsmayıl Ağa oğlu Şıxlinski 1863-cü ildə Yelizavetpol quberniyası Qazax qəzasının Qazaxlı kəndində qədim nəsildən olan ailədə anadan olmuşdur. Gələcək artilleriyaçının atası İsmayıl ağa cəsur döyüşçü kimi tanınırdı və ailə ənənəsinə görə, oğul da həyatını hərbi xidmətə həsr etməli idi.

Oğlan 1876-cı ilin avqustunda Tiflis hərbi gimnaziyasının birinci sinfinə daxil olmuş, oranı - artıq kadet korpüsünə çevrilmiş gimnaziyanı 1883-cü ildə birinci şagird kimi bitirmişdir. Sonra öz təhsilini Sankt-Peterburqda, Mixaylovsk artilleriya məktəbində davam etdirmişdir. O, orada da nəinki bacarıqlı şagird kimi, həm də əla süvari və gimnazist kimi müvəffəqiyyət qazanmışdı. Yunkerin müvəffəqiyyətləri diqqətdən kənarda qalmamış, təhsilin başlanmasından 7 ay sonra o, unter-zabit olmuş, 1885-ci il oktyabrın 13-də isə portupey-yunkerliyə layiq görülmüşdü. Gələcək alimin müəllimləri məşhur artilleriyaçılar N.L.Kirpiçev, N.V.Maiyevski, A.V.Qadolin idi. Əliağa onlardan bütün yaxşı cəhətləri mənimsəmişdi. Çılğın gənc həmçinin kütləvi mühazirələr və məruzələrdə iştirak etmiş, digər hərbi məktəblərin kurslarını dinləmişdi.

1886-cı il avqustun 11 -də Əliağa Şıxlinski məktəbi, podporuçik rütbəsi verilməklə, birinci dərəcə ilə bitirdi. Xidmətinin birinci ilindəcə öz ilk pedaqoji təcrübəsini qazandı; artilleriya briqadasının tədris komandasının müəllimi, sonra isə briqada komandasının rəisi oldu. O, özünü parlaq artilleriya bilicisi, yaxşı təşkilatçı, bacarıqlı müəllim və tərbiyəçi kimi göstərmişdi. 1900-cü ildə kapitan Şıxlinski Şərqi Sibirə dəyişdirilməsi xahişi ilə müraciət etdi. Onu Əlahiddə Zabaykalye artilleriya divizionunun batareyasında baş zabit vəzifəsinə təyin etdilər. Bundan başqa, Artilleriya Toplantısı Komitəsinin sədri kimi o, dəfələrlə batareya və divizion komandirlərinin səlahiyyətlərini icra etmişdir.

1904-cü il mayın əvvəllərində batareya yaponlara qarşı yürüşə çıxdı. Rus-Yapon müharibəsində Şıxlinski Port-Artur müdafiəsinin qəhrəmanı kimi məşhurlaşdı. Qalanın müdafiəsinin ən mühüm sahələrində olan Şıxlinski yaponların hücumlarının qarşısının alınmasında yarımbatareyanın atəşi ilə düşmənə böyük zərbə vuraraq fəal iştirak etmişdir. Tanınmış hərb tarixçisi general-mayor İ.Krupçenko sonralar yazırdı: “Yapon hücumlarının dəf edilməsində rus artilleriyaçıları böyük rol oynayırdılar. Onlar cəsarətlə topları qabağa çəkərək dəqiq nişangahla birbaşa karteçlə yaponlara böyük zərbə yetirirdilər”. Şıxlinski onların arasında idi. O, döyüşlərdə örtülü və açıq mövqelərdən artilleriya atəşi aparır, qorxmadan topları düz nişangahla atmaq üçün qabağa çəkirdi. Qəhrəmanlığına görə onu “Müqəddəs Georgi Pobedonetsev” ordeni ilə təltif etdilər. Sonralar Şıxlinski yazırdı: “Mən həmişə Port-Artur epopeyasının iştirakçısı olduğunu fəxrlə xatırlayıram”. Yeri gəlmişkən, A.N.Stepanovun məşhur “Port-Artur” romanının səhifələrində də Ə.Şıxlinskinin şöhrətli rus artilleriyaçısı olduğu öz əksini tapır.

Əliağa Şıxlinski 1906-cı ildə artıq podpolkovnik kimi, Artilleriya Zabitləri Məktəbinə (indiki Mərkəzi Artilleriya Zabitləri kursları) oxumağa getməyə nail oldu və oranı fərqlənmə ilə bitirdi. İlk əvvəl onu artilleriya briqadasına ezam etdilər, lakin tezliklə məktəbə qayıtdı. Müəllimlər, əsasən, Artilleriya Akademiyasının təcrübəli və istedadlı, bir ildən az olmayaraq batareyalara ezam edilmiş məzunlarından seçilirdi. Şıxlinski isə hələ təcrübəsi və müvafiq akademik təhsili olmadan bütün müəllimlərdən ən biliklisi hesab olunmuşdu. Biliklərə yorulmaz yanğı, fasiləsiz özünütəhsil və hərbi təcrübə - ona kömək edirdi.

Artilleriya Zabitləri Məktəbində Şıxlinski özünü qabaqcıl ideyaları təcrübədə tətbiq edən yenilikçi zabit kimi göstərirdi. Xidmətdə fərqləndiyinə görə,

ona vaxtından əvvəl polkovnik rütbəsi verildi. O, 1912-ci ildə aeroplanların tətbiqi təcrübələrinin (hərbi aviasiyanın inkişafına təkan verən çox maraqlı təcrübələrin) işlənməsi üzrə komissiyanın üzvü, bir ildən sonra isə məktəb rəisinin köməkçisi (**müavini - Ş.N**.) oldu. Tezliklə, "Artilleriya Zabitləri Məktəbinin xəbərləri" jurnalı çıxmağa başladı. Jurnalın səhifələrində generalın özü də çıxış edirdi.

1913-cü ildə məktəb Şıxlinskinin təklifi ilə bəndlənmiş aerostatdan atəşin, müşahidə və hədəfin kəşfiyyatı üzrə təcrübələrə, həmçinin aerostata və təyyarələrə atəşin əsas müddəalarının işlənib hazırlanmasına başladı. Bu məsələ üzərində Əliağa Şıxlinski çoxdan işləyirdi. Hələ 1911-ci ildə, məktəbdə hava hədəfinə atəşin qaydaları məsələsi müzakirə olunarkən, alim hesabı(baxmayaraq ki, həmin dövrdə təyyarələr yalnız saatda 60 verst uçurdu) saatda 180 verstlə uçacaq təyyarələr üzrə aparmağı təklif etmişdi. Artıq o vaxt Şıxlinski aviasiya və hava hücumundan mudafiənin perspektivini düzgün başa düşmüşdü.

Alim quru qoşunları artilleriyasının inkişafı üçun də çox işlər görmüşdür. O, alaylara artilleriya hissələrinin daxil edilməsinə nail oldu. Doğrudur, bu, yalnız 1924-cü ildə Qızıl Orduda həyata keçirildi və özünü tamamilə doğrultdu. Artilleriya atəşi təcrübəsinə daxil edilən mühüm yenilik - "Şıxlinski üçbucağı" hədəf göstərmənin rasional üslubu oldu. Bu üsul ilkin olaraq batareyaları elə tuşlayır ki, seçilmiş oriyentirdən yayınan, istənilən nöqtədə görünən hədəflər asanlıqla, müəyyən düzəlişlərin köməkliyi ilə ilkin tuşlama əsasında artilleriyanın atəşinin altına düşə bilər. Bu, batareyanı vaxtında hədəfə tuşlamaq imkanı verirdi.

Birinci Dünya müharibəsinin əvvəllərində Şıxlinski gəmilərdən alman desantçılarının çıxarılması ehtimalına qarşı Petroqrad artilleriyasının rəisi təyin edildi. O, şəxsən müdafiə xətti üzrə bütün cəbhəni gəzmiş, batareya qurğularının yerini və atəş mövqelərinin qurulması qaydasını müəyyənləşdirmişdir. O, aeroplanlardan müdafiəyə böyük diqqət yetirmişdi. Onun təşəbbüsü ilə Petroqradın ətrafında general Rozenberqin sistemi əsasında xüsusi platformalarda 1900-cü il nümunəli, 3 düymlü tezatan top qurğuları ilə təyyarə əleyhinə müdafiə təşkil edildi.

Tezliklə Şıxlinskini Şimal-qərb cəbhəsinin artilleriya müfəttişi vəzifəsinə keçirdilər. Orada general tapşırıqların yerinə yetirilməsində artilleriya qruplarına şəxsən rəhbərlik etmiş, geniş miqyasda artilleriya hazırlığı həyata keçirilmişdir. O öz nəzəri işləmələrini döyüş aparılması təcrübəsilə əlaqələndirir, yaradıcılıqla istifadə edir, hərb elmini yeni töhfələrlə zənginləşdirirdi. O, tezliklə çəpərləmə (maneə) atəşi aparılması üçün təlimat işləyib hazırlayır.

1917-ci il aprelin 2-də Ə.Şıxlinski general-leytenant oldu. O, sentyabrda ümumqoşun 10-cu ordusuna başçılıq etdi. Yeri gəlmişkən, bu haqda A.N.Stepanovun "Zvonaryevlər ailəsi" romanında da yazılmışdır.

General oktyabr inqilabını qəbul etmiş və alqışlamışdı. Nəhəng hərbi mütəxəssis, artilleriya işini parlaq bilicisi kimi o, Qızıl Ordunun quruculuğuna öz bilik və təcrübəsini həvəslə verirdi. Ə. Şıxlinski FKQO ali hərbi tədris müəssisələrində müəllim olmuş, Azərbaycanda Qızıl Ordu hissələrinin formalaşmasına köməklik etmişdir. O, əsas fəaliyyətindən başqa, çoxlu hərbi əsəri Azərbaycan dilinə çevirmişdir. Respublikada milli komandan kadrlarının hazırlanması üzrə Şıxlinskinin işini M. Frunze yüksək qiymətləndirmişdir.

Səhhətinə görə 1929-cu ildə Əliağa Şıxlinski Qızıl Ordu sıralarından tərxis olunmağa məcbur oldu, lakin hərbi-elmi fəaliyyətini dayandırmadı. O, "Mənim xatirələrim" kitabı üzərində işləməyə başladı. Bu əsər indiyə qədər nə öz hərbi, nə də tarixçilər üçün rus ordusunun keçmişi haqqında mənbə kimi dəyərini itirmişdir.

Döyüşçü-alim, beynəlmiləlçi və vətənpərvər bir insan olan Əliağa Şıxlinski 1943-cü il avqustun 18-də vəfat etmiş, Bakıda dəfn olunmuşdur. Onun kitabları döyüşçü borcunun və Vətəninə sadiqliyin ən yaxşı abidəsidir.

PORUÇİKİN İGİDLİYİ

"Kim təyyarədə uçmayıbsa, demək,
yerin əsrarəngiz təbiətindən onun
xəbəri yoxdur"

General Əliağa
ŞIXLİNSKİ.

Xalqımızın bahadır oğullarının hərbi şöhrəti çox-çox qədimlərdən gələn möhkəm köklərlə, özüllərlə bağlıdır.

Birinci Dünya müharibəsi cəbhələrində üç mindən çox sıravi, iki yüzə qədər ali rütbəli zabit həmyerlimiz vuruşurdu. Onların sırasında məşhur general Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, Hüseyn xan Naxçıvanski, dörd dəfə "Georgi orden"li, Nijeqorod draqun alayının rotmistri Teymur bəy Novruzov, praporşik Lütvəli bəy Vəkilov, poruçik Osman ağa Gülməmmədov, kornet Sayad Zeynalov, hərbi təyyarəçi Fərrux ağa Qayıbov və başqaları da vardı.

İyirmi üç yaşlı poruçik Fərrux ağa 1916-cı il, oktyabrın on ikisində hava savaşında igidliklə həlak olmuş ilk azərbaycanlı təyyarəçi idi.

Sentyabrın on səkkizində "Petroqrad xəbərləri" qezeti yazırdı: "Ali Baş Qərərgahın komandanlığından xəbər verilir ki, Qərb cəbhəsində bizim təyyarələr Borunı-Krevo rayonunda düşmən qoşunlarının arxasına keçmişlər.

Dəqiq bomba atəşləri ilə müxtəlif məntəqələr partladılmış, düşmən anbarlarında yanğın törətmişlər. Bundan başqa, nəqliyyat vasitələri, dəmir yol stansiyaları, avtomobillər bombalanmışdır.

Uçuş zamanı poruçik Fərrux ağa Qayıbov öz heyətilə düşmən qüvvələrinə qarşı vuruşmuş və dörd alman aeroplanını vurub salmışdır. Onlar iki "Albatros" təyyarəsini də yandırdıqdan sonra düşmən ərazisinə düşərək həlak olmuşlar".

Fərrux ağa Kərimoğlu Qayıbov 1893-cü ildə Qazax qəzasının Qıraq Salahlı kəndində anadan olub. Atasını çox erkən itirən Fərrux dövrünün görkəmli maarifçisi, əmisi Səməd ağa Qayıbovun himayəsində böyümüşdür. Doğma kəndi Salahlıda beş sinifli "Rus-Azərbaycan məktəbi"ni bitirən Fərrux "artilleriyanın Allahı" general Əliağa Şıxlinskinin məsləhətilə Tiflis kadet korpusunda oxuyub. 1910-cu ildə Tiflis kadet korpusunu əla qiymətlərlə bitirəndən sonra Peterburqdakı üç illik Mixaylovsk topçuluq məktəbinə daxil olub. O, məktəbdə iti zehni, gözlə dəqiq ölçmə qabiliyyəti, igidliyi ilə fərqlənmiş, xüsusilə topdan bacarıqla atəş

açdığı üçün birinci mükafat almışdı. Həmin mükafat İsveçrənin "Pavel Bure" firmasında hazırlanmış qızıl saatdan ibarətdir. Mükafat-saatın arxasında "Yunker Fərrux ağa Qayıbov, 1913-cü il" sözləri həkk olunmuşdur.

Yunker Fərrux ağa Qayıbov Mixaylovsk topçuluq məktəbini əla qiymətlərlə bitirmiş və az müddət Azərbaycanda xidmət etmişdir. Birinci Dünya müharibəsi başlananda Qərb cəbhəsindəki on birinci aviasiya korpusuna göndərilmişdir.

Poruçik Qayıbovun hünəri 1916-cı ilin qəzetlərində, hətta alman mətbuatında da öz əksini tapmışdır. Arxivdə saxlanan otuz bir nömrəli qovluqda iyirmi üç yaşında həlak olmuş ilk azərbaycanlı təyyarəçinin on bir fotoşəkli və qəhrəmanlığından bəhs edən maraqlı sənədlər var. Onların arasında general Əliağa Şıxlinskinin "İlk Azərbaycan pilotu" yazısı xüsusi dəyərə malikdir. 1916-cı il sentyabrın 8-də Qərb cəbhəsi aviasiya ordusunun general-mayoru Şidlovski, Hərbi təyyarəçi ştabs-kapitan Lazerev igid şahinin son hünərindən söhbət açır.

...On altıncı hava gəmisinin artilleriya zabiti poruçik Qayıbov qərb cəbhəsi qərargahının tapşırığı ilə bu il sentyabrın 12-də Borunıya hücum etmiş, intendant artilleriya anbarlarını, aerodromu, 89-cu alman-ehtiyat diviziyasını bombardman etmişdir. Rəqibin zenit batareyalarının qasırğa kimi atəşinə baxmayaraq, Qayıbov özünə xas olan böyük cəsarətlə Borunıda düşmənin anbar və qərargahını dağıdıb külə döndərmişdir. Bombardman vaxtı Qayıbovun təyyarəsinə eyni zamanda dörd alman qırıcısı hücuma keçmişdir. Bunların ikisi "Albatros", ikisi isə "Fokker" tipli idi. Qeyri-bərabər döyüş vaxtı igid poruçik Qayıbov düşmənin üç qırıcı təyyarəsini yandırmış, özü isə aldığı ciddi zədədən təyyarəsi ilə bərabər yerə düşmüş və həlak olmuşdur.

Səhəri gün düşmən təyyarəsinin atdığı kağızlarda yazılırdı ki, qəhrəmancasına vuruşaraq həlak olan poruçik Qayıbovu alman əsgərləri şərəflə dəfn etdilər.

İgidliklə həlak olan poruçik Fərrux ağa Qayıbov ikinci dəfə ikinci dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub.

Fərrux ağa Qayıbovun idarə etdiyi dörd motorlu "İlya Muromets-16" təyyarəsində dörd nəfər döyüşçü vardı. Bu təyyarə o zaman üçün dünyada ilk dörd mühərrikli ağır bombardmançı təyyarə idi. 1913-cü ilin sonunda Peterburqun "Rus-Baltik" zavodunda istehsal olunmuşdu. 1914-cü ildə təyyarə bir dəfə yerə enməklə min kilometr məsafəni 14 saat 38 dəqiqəyə qət etmişdi. Bu da o vaxt üçün dünya rekordu sayılırdı.

"İlya-Muromets-16" təyyarələrindən Birinci Dünya savaşında və Vətəndaş müharibəsində düşmənə arxadan zərbə vurmaq üçün istifadə olunmuşdur. Məhz bu təyyarədə avqustun 26-da məşhur pilot-kapitan Pyotr Nesterov tarana getmiş və qəhrəmanlıqla həlak olmuşdur. 1916-cı ildə, sentyabrın 12-də isə aviasiya tarixində ikinci belə şücaəti eloğlumuz Fərrux ağa Qayıbovun heyəti göstərdi.

* * *

General Əliağa Şıxlinskinin şəxsi əşyaları arasında nadir bir əlyazması da var. "Azərbaycanlılardan ilk təyyarəçi" sərlövhəli, cəmi iki səhifəlik yazını general ölümündən bir il /1942-ci ildə/əvvəl qələmə alıb. General Əliağa Şıxlinski yeganə

azərbaycanlıdır ki, Fərrux ağanın qəhrəmanlığının şahidi olub. Həmin ili o, Qərb cəbhəsində döyüşən 10-cu ordunun baş komandanı idi. Generalın yazısı faktlarla zəngin olduğuna görə ondan bütövlükdə istifadə edirik.

"Birinci cahan savaşında iyirmi üç yaşlı Fərrux ağa Qayıbov azərbaycanlılardan birinci olaraq hərbi təyyarəçi peşəsini məharətlə öyrənmişdi. Fərrux ağa "İlya Muromets" adlanan böyük bir təyyarə dəstəsinə qəbul edilmiş və "İlya Muromets-16" təyyarəsinin heyətinə daxil olmuşdu. Fərrux bu təyyarədə topçu zabiti vəzifəsini ifa edirdi. O, bombalar salır, düşmənin müxtəlif tikililərini dağıdır, hava vuruşmalarında pulemyot atır və düşmən mövqelərinin fotoşəklini çəkirdi. Fərrux ağa Qayıbov ilk uçuşu zamanı Neman çayı üzərində böyük hərbi əhəmiyyəti olan bir körpünü dağıtmış və beləliklə də alman qoşunlarının və onların müxtəlif hərbi yüklərinin daşınmasını xeyli ləngitmişdi.

Almanlar "İlya Muromets-16" təyyarəsini güdüb məhv etmək istəyirdilər. Onlar dəfələrlə təyyarədən kağız salıb bizi qorxudurdular ki, cəbhənin qərargahı yerləşən Minsk şəhərinə basqın edəcəklər. Almanlar bir neçə dəfə uçub bu şəhərin üzərinə gəlsələr də, o zamankı sadə təyyarəvuran topların atəşi nəticəsində geri qayıtmağa məcbur olmuşdular.

1916-cı il sentyabrın 12-də bir dəstə təyyarəmiz almanların Vilno tərəfindəki cəbhəsinə hücum etməyi qərara aldı. Bu hücumda on iki yüngül təyyarəmiz və bir "İlya Muromets" təyyarəsi iştirak edirdi. Az sonra qızğın hava vuruşması başlandı. Almanlar onları lərzəyə salan təyyarəni gördükdə dəlicəsinə vuruşmağa başladılar. Nəhayət, almanlar təyyarələrimizin sıralarına soxulub "İlya Muromets-16" təyyarəsini yol daşlarından ayıra bildilər. Bu təyyarənin igid heyəti almanların dörd təyyarəsinə qarşı bir saat vuruşdu. Sonradan almanlar etiraf etməyə məcbur oldular ki, Fərrux ağa Qayıbovun pulemyotu onlara çox ağır tələfat verdi.

Nəhayət, "Albatros" adlanan təyyarələrinin biri "İlya Muromets-16" təyyarəsində yanğın törətməyə və təyyarəni yerə salmağa müvəffəq oldu. Təyyarədəki igidlərin dördü də həlak olmuşdu...

Dövlət Dumasının qərarı ilə təyyarənin komandiri kapitan Dmitri Makşeyev və son nəfəsinədək pulemyot güllələri ilə düşmənə divan tutan zabit Fərrux ağa Qayıbov "Georgi Pobedonetsev" ordeni ilə təltif edilmişdir".

* * *

İgid təyyarəçi Fərrux ağa Qayıbovu yetişdirən Salahlı kəndi Azərbaycan tarixinə görkəmli oğullar bəxş etmişdir. Topoqraf-general İbrahim ağa Vəkilov, məşhur maarifçi Mirzə Hüseyn Əfəndi Qayıbov, Əhməd ağa Mustafayev, Məmməd bəy Qarayev, Zəkəriyyə Vəkilov, Əhməd Gülməmmədov, Səlim Əfəndiyev, İsmayıl Qayıbov, görkəmli riyaziyyatçı Əbdülkərim ağa Qayıbov, ilk hərbi şəfqət bacısı Nigar xanım Şıxlinskaya və iyirminci əsr poeziyamızın fəxri Səməd Vurğun Salahlı kəndinin yetişdirmələridir.

Vaxtsız ölüm ilk səma şahinimiz Fərrux ağa Qayıbovun qısa ömrünə əbədiyyət gətirdi. Onun xatirəsinə Qazaxda bir nömrəli təyyarə abidəsi ucaldılıb. Küçələrdən birinə onun adı verilib. Xalq şairi Səməd Vurğun gözəl demişdir:

O, el üçün keçdi candan,
O, yaşadı insan kimi.
Demə oldu o qəhrəman,
O müqəddəs diləklərdə,
Bir də təmiz ürəklərdə
Yaşayacaq dastan kimi.

İlk təyyarəçimiz Fərrux ağa Qayıbovdan yazmaq, tədqiqat aparmaq ilk dəfə mənə 1975-ci ildə müyəssər oldu.

O vaxtlar, yəni 70-ci illərdə qeyri-rəsmi də olsa çar zabiti Fərrux ağa haqqında yazmaq, onu təbliğ eləmək o qədər də yaxşı qarşılanmırdı.

Fərrux ağa haqqında ilk dəfə 1942-ci ildə general Əliağa Şıxlinski balaca bir məqalə yazıb. Mən həmin məqaləyə 1977-ci ildə arxivdə rast gəldim. Şübhəsiz ki, generalın məqaləsi köməyimə gəldi. Belə bir igid haqqında axtarış aparmalı oldum. Çünki generalın məqaləsi çox qısa idi. Tiflis arxivinə getdim. Qazaxdakı bəzi qocalarla görüşdüm. Bir müddət 1916-cı il qəzet və jurnallarını vərəqlədim. O vaxt 1914-cü ildə nəşr olunmuş "Müharibənin salnaməsi"ni oxudum. Peterburq arxivlərində axtarış apardım. Ən çox köməyimə gələn mərhum Zülfüqar Qayıbov oldu. Hətta Zülfüqar müəllim dedi ki, nahaq zəhmət çəkirsən, bu yazını heç kim dərc etməyəcək. Nə isə... Bir çap vərəqi həcmində "İlk səma şahinimiz" adlı yazını "Azərbaycan " jurnalına təqdim etdim. Baş redaktor İsmayıl Şıxlı şəxsən özü yazını oxuyub "Azərbaycan" jurnalının 1978-ci il ikinci nömrəsində dərc etdi.

Sonra Kinostudiya ilə Fərrux ağa haqqında on dəqiqəlik sənədli film çəkdik. Kinostudiyanın o vaxtkı rəhbərliyi filmi ekrana buraxmadı. "Olmaz - dedi - Lenin Birinci Dünya müharibəsi haqqında belə deyib, elə deyib. Həm də Fərrux ağa çar zabiti olub". Film indi də arxivdə qalır...

1971-ci ildə aviasiya marşalı Pavel Kutaxov Qazax-Tovuz bölgəsindən SSRİ Ali Sovetinə deputat seçilib. Bir il sonra seçiciləri ilə görüşə gələn marşala Qazax ağsaqqalları, ziyalıları deyiblər ki, Birinci Dünya müharibəsində təyyarəçi həmyerlimiz igidliklə həlak olub. Marşal inanmayıb. Ona sənəd, şəkil tapıb sübut edə bilməyiblər. Onda marşal deyib ki, Moskvaya qayıdanda arxivi yoxlatdıraram. Əgər doğrudan da sizin həmyerliniz təyyarəçi olubsa, mən ona bir heykəl, bir nişangah qoydurmağa söz verirəm. Arxivi yoxlatdırıb dəqiqləşdirəndən sonra bir nömrəli heykəl-təyyarə göndərib. Üzərində də belə bir lövhə: "İlk Azərbaycan təyyarəçisi Fərrux ağa Qayıbovun xatirəsinə".

Lakin o vaxtı raykom katibi Fərruxun adına olan lövhəni sökdürüb əvəzində belə bir yazı həkk etdirib: "Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə".

Lakin Qayıbovdan başqa Qazax rayonundan Böyük Vətən müharibəsində təyyarəçi kimi vuruşub həlak olan nə əsgər var, nə də zabit.

Həmin səhv vurulmuş lövhə indi də qalır.

Fərrux ağa çox gənc yaşında həlak oldu. İyirmi üç yaşında. Onun qəhrəmanlığı, igidliyi bu günkü gənclərimizə nümunə qaldı. Bir də 1913-çü ildə Peterburq Mixaylovsk hərbi məktəbini bitirəndə ona əla qurtardığına görə

İsveçrənin “Pavel-Bure” firmasında hazırlanmış saat bağışlanıb. Üstündə belə bir yazı ilə: “Əlaçı yunker Fərrux ağa Qayıbova, 1913-cü il”. Saat hazırda Fərruxun bacısı oğlu Turan Seyidovda saxlanılır. Bir də muzeydə bir yaylıq saxlanılır. Onu muzeyə general Şıxlinski təqdim edib. Üstündə yazılıb ki, bu yaylıq ilk pilotumuz Fərrux ağa Qayıbova məxsusdur.

Hazırda Fərrux ağanın maarifçi nəsli haqqında kitab yazıram. Bir neçə ildir ki, bu sahədə axtarışlar aparıram. Kitabımın adı “Nəsli Qayibdən...”dir. Bu nəsil Azərbaycan tarixinə çox böyük maarifçilər verib. Bu nəsildən Qori və Qazax Seminariyalarında 20-yə yaxın adam oxuyub. O da məlumdur ki, Qori seminariyasında Azərbaycan şöbəsinin 1879-cu ildə açılmasına ilk dəfə təşəbbüs göstərən məşhur din alimi və maarifçi Mirzə Hüseyn Əfəndi Qayıbzadə olmuşdur. Onun dörd cildlik “Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir” adlı çax sanballı əsəri var. Mirzə 1860-cı ildə yazdığı bu kitabı maddi vəsaiti olmadığına görə nəşr etdirə bilməyib. Həmin kitabın birinci cildi 1986-cı ildə, ikincisi isə 1989-cu ildə professor Cahangir Qəhrəmanov və Şamil Cəmşidov tərəfindən nəşr olundu. Bu nəsildə iki nəfər hərbçi olub. Əbdülkərim ağa Qayıbov, bir də Fərrux ağa Qayıbov. Qayıbovlar nəslinin oğlu, qızı bütün varlığı ilə xalqımıza baş ucalığı gətirib. Bu o Qayıbovlardır ki, general İsmət Qayıbov kimi oğulları, ilk pianoçu qadın Xədicə xanım Qayıbova kimi qızları ilə tarixdə yaşayırlar. Taleyin hökmünə bax ki, Fərruxdan 80 il sonra Vətəninin, xalqının səadəti uğrunda İsmət Qayıbov da təyyarədə həlak oldu. Rəhmətlik İsmət deyərdi ki, Şəmistan, bizim nəsildən kitab yaz, özüm nəşr etdirəcəyəm. Qismət olmadı...

* * *

Deyirlər, qədim Misirin qəbirüstü abidələrinin çoxunda belə bir yazı var: “Həlak olanın adını yad etmək onu həyata qaytarmağa bərabərdir”. Bəli, şərəflə ölənlərə ölümsüzlük qismət olur. Əgər oğul döyüş meydanında həlak olursa, o, dirilərin and yerinə çevrilir və xatirəsi əbədiləşir. Ən qorxulu cəza unudulmağa məhkum olunmaqdır. Bu mənada ilk təyyarəçimiz Fərrux ağa Qayıbovun qısa ömrünə, bioqrafiyasına nəzər salsaq, onun ölumsüzlüyünün şahidi olarıq. Fərrux ağa Qayıbov həlak olandan sonra Baş Qərargahın verdiyi məlumatın ikinci cümləsini oxuyanda istər-istəməz fəxr edirsən: “Poruçik Qayıbovu şərəfli ölümü münasibətilə almanlar hərbi ləyaqətlə dəfn ediblər. Məzarı üstündə yaylım atəşi açıblar”.

Əlbəttə, düşmən də olsa cəngavərlərə məxsus hərbi əxlaqi ədalətlə eloğlumuzu 1916-cı il sentyabrın 12-də dəfn etmişdi. Düşmən də olsa, almanlar eloğlumuz Fərrux ağa Qayıbovu öz əsgəri, öz igidi kimi ehtiramla torpağa tapşırmışdı. Bu, bizim Azərbaycan hərb tarixinin solmayan səhifəsi oldu. Təəssüf ki, biz belə qəhrəmanlarımızı və qəhrəmanlıq səhifəmizi nə az, nə çox - düz səksən ilə yaxındı unutmuşuq. Hətta rus marşalının onun xatirəsini əbədiləşdirmək üçün göndərdiyi bir nömrəli heykəl təyyarənin üstünə Fərrux ağa Qayıbovun adının yazılmasına belə razılıq verilməyib. Böyük şairimiz M.Ə.Sabir bu yerdə demişdir:

Dindirir əsr bizi, dinməyiriz,
Atılan toplara diksinməyiriz,
Əcnəbi seyrə balonlarla çıxır,
Biz hələ avtomobil minməyiriz,
Quş kimi göydə uçur yerdəkilər,
Bizi gömdü yerə minbərdəkilər.

M.Ə.Sabirin "göylərə balonlarla çıxmaq" kimi işıqlı arzusunu Azərbaycanda ilk dəfə Fərrux ağa Qayıbov həyata keçirmişdi. Bunun da səbəbi var: Fərrux ağanın əmisi, məşhur maarifçi Səməd ağa Qayıbov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.Ə.Sabir, S.M.Qənizadə, F.Köçərli kimi xalqının gələcəyini, tərəqqisini düşünən görkəmli adamlarla yaxın dost idi. Fərrux ağanın atası Kərim ağa cavankən vəfat etdiyindən o, əmisinin himayəsində böyüyüb tərbiyə almışdı. Böyük M.Ə.Sabir də bu şeri yazdığı illərdə Tiflisdə müalicə olunurdu. Bu yandan da həmkəndlisi "Artilleriyanın Allahı" general Əliağa Şıxlinski Fərrux ağanın bu arzusuna dayaq olmuşdu.

Azərbaycanda təyyarəçilik, aviasiya tarixi 1910-cu ildən ilk şahin Fərrux ağa Qayıbovun adı ilə bağlıdır.

Yaxşı ki, əlyazmaları, arxiv sənədləri yanmır, məhv olmur. İstəyirsən ki, tarixin yaşasın, arabir arxaya da boylanmalısan. Onda Azərbaycan Dövlət Tarix Muzeyinin nadir fondunda saxlanan bir fotoşəklin arxasındakı yazını oxuyacasan: "Birinci Dünya müharibəsi illərində paraşütdən tullanan azərbaycanlı zabit Soltan Əhmədov. 1915-ci il". Bu da say etibarilə ikinci təyyarəçimizdir, səksən ildən sonra yalnız foto-şəklini aşkar etmişik. Tarix isə tükənmir, amma tarixin təkəri fırlanır. Onu irəliyə, gələcəyə fırlatmaq üçün güclü qol, bir də sinədə Vətən üçün döyünən ürək olmalıdır. Yaxşı ki, qehrəmanlıq unudulmur. Səməd Vurğun demişkən:

Unutmaz tarixin böyük günləri,
Dünyaya mərd gəlib, mərd gedənləri.

CÜMHURİYYƏTİN SƏMA ŞAHİNLƏRİ

Azərbaycan dövləti, hərbi hava quvvələrini möhkəmlətmək üçün 1920-ci ildə on iki hidro-plan və altı aeroplan almalı idi.

Arxiv sənədi

1918-20-ci illərdə Milli Ordumuzda hərbi təyyarəçilərimiz olubmu? Bu barədə Azərbaycan Dövlət Yeni Tarix Arxivində məlumata rast gəlmək olur. Müdafiə naziri, general Səməd bəy Mehmandarov 1919-cu il yanvarın 22-də

Gürcüstan Respublikasının nəzdində ADR-in diplomatik numayəndəsi Məmməd Yusif Cəfərovun adına belə bir məktub göndərmişdir:

"Əlahəzrət Məmməd Yusif bəy!

Bizim qoşunların təşkili işində yaxından iştirak etdiyinizə görə Sizdən razıyam və minnətdaram. Radioteleqraf işinin təlimi üçün iki zabiti və ya giziri, lazımi təhsili olan on iki cavanı Sizə ezam edə bilərəm. Onların məktəbə gəlmək vaxtını əvvəlcədən xəbər verməyinizi xahiş edirəm.

Bununla yanaşı, xahiş edirəm aydınlaşdırasınız ki, azərbaycanlıların da Tiflisdə yerləşən təyyarəçilik məktəbinə həmin şərtlərlə qəbulu mümkündürmü?"

Həmin il sentyabrın 14-də hərbi nazir orduda aviasiya dəstəsini yaratmaq haqqında əmr verib. Gürcüstanda doqquz nəfər Tiflis Aviasiya məktəbində üç aylıq kurs bitirib Azərbaycana qayıtmışdır. Bunlar ikinci Bakı alayının praporşikləri Əlihüseyn Dadaşov, Teymur Mustafayev, Gəncinski, birinci Cavanşir piyada alayının podporuçiki Əliyev, birinci artilleriya briqadasından kapitan şahzadə Firidun bəy Qacar, üçüncü Gəncə süvari alayından praporşik Həsənzadə, praporşik Qaraşarov və başqaları idi.

Arxivdə general S.Mehmandarovun və M.Sulkeviçin imzaladığı 370 nömrəli əmr də saxlanılır. 1919-cu il avqustun 19-da verilən əmrdə göstərilir ki, hərbi təyyarəçi podporuçik Xan Teymurçin Əfşar Azərbaycan Ordusunun Baş Qərargah İdarəsində aviasiya dəstəsinin rəisi təyin edilsin. Ona hərbi təyyarəçi kimi maaş verilsin.

Bu barədə Baş Qərargah rəisi, general Məmməd bəy Sulkeviçin 1920-ci il yanvarın 28-də Şuşadan Bakıya, kvartir-meyster generalının adına vurduğu teleqram saxlanılır:

"Gürcü təyyarəçilərinin Svanetidə üsyanı yatırmaq üçün təcrübəsi, çətin keçilə bilən dağ yerlərində bu üsulun əlverişli olduğunu subut etdi. Gürcü təyyarəçilərinin arasında beş pudluq bombanı üsyan etmiş kəndin uzərinə atmış leytenant Makayev də var idi. Bu təcrübədən elə o cür, tez, qəti nəticələr baş verə bilən Zəngəzurda da istifadə etmək olar. Telefon vasitəsilə Tiflislə əlaqə saxlayıb, məsələni aydınlaşdırın, Zaxaryadze ilə gürcü dilində danışın. Bir aeroplan göndərmək olar, özü də təyyarəçi Xan Əfşar Teymurçin ola bilər. Beləliklə, gürcülər gürcü zabitlərinin bizim daxili ekspedisiyalarda iştirakını qadağan edən hərbi konvensiyanı pozmurlar. Uçuşlar qısa olacaq, uçuş radiusu 100 verstdən uzaq olmayacaq. Aviasiya bazası Şuşada və ya Xankəndindədir. Cavabı mənə teleqrafla çatdırın. Yanvarın 29-da Xankəndində, 30-da Yevlaxda, 31-də isə Bakıda olacağam, bu halda cavabı mənə evə çatdırın. Yevlaxa vaqon göndərmək üçün komendanta tapşırıq vermişəm.

Baş Qərargah rəisi M.Sulkeviç".

Qanlı-qadalı iyirminci ilin apreli gəldi. Bu tarixdə daşnak-bolşevik qoşunu ölkəmizə soxuldu. Bu igidlərin də payına sürgün, ölüm və təqiblər düşdü. ÇK-nın qəddarlığı ilə yüzlərlə azərbaycanlı əsgər və zabitin şöhrəti unudulub yaddan çıxdı. Onların adı yalnız məhkəmə protokollarında və xatirələrdə qaldı.

Milli Ordumuzun hərbi təyyarəçisi Xan Əfşar Teymurçin haqqında rast gəldiyim daha bir sənəd görkəmli pianoçu və Bakıda Şərq konservatoriyasının yaradıcısı Xədicə xanım Qayıbovanın dindirilmə protokoludur. 1933-cü ildə "casus" kimi həbs edilən ilk pianoçu Xədicə xanım 1938-ci ildə ikinci dindirilmədə demişdir; "Təyyarəçi zabit Xan Əfşar Teymurçinlə məni indi xalq düşməni kimi ifşa olunmuş Çingiz İldırım tanış etmişdir".

"Dəstəmizə hərbi kadrları könüllülərdən yığırdıq. Onların çoxusu yoxlanılmamış və naməlum adamlar olub. Sənin əqidən Qızıl Orduda xidmət etməyinin ziddinə deyil ki sualıma o, belə cavab verdi:

- Mənim əqidəm mənə veriləcək pulun miqdarından asılıdır.

Bu cavabdan məlum oldu ki, Əfşar etibarlı adam deyil, ona görə də biz onu təyyarəçi vəzifəsinə götürmədik. O, Azərbaycan hava donanmasında işə düzəldi. Bir xeyli işləyəndən sonra Əfşar həkim işləyən həyat yoldaşı ilə qaçıb İrana getdi". /Marşal S.A.Krasovski, "Jizni v aviasii" kitabı, 1960-cı il, səh. 46/.

Vəssalam. Təyyarəçi Xan Əfşar Teymurçinin son taleyi necə olub, məlum deyil.

* * *

1919-cu ildə Milli Ordumuzda təyyarəçi kimi xidmət edən Mahmud Mahmudzadənin 1927-ci ildə Solovki həbs düşərgəsindən yazdığı məktubdan sətirlər:

"...1896-cı ildə Lənkəranda anadan olmuşam. On üç yaşına qədər məktəbdə oxumuşam. Ərəb və fars dillərini öyrənmişəm. İki il Lənkəran üçillik məktəbində ibtidai təhsil almışam, sonra gimnaziyaya daxil olmuşam. 1918-ci il fevralın 23-də gimnaziyanı ekstern yolu ilə bitirmişəm. Ali təhsilimi yarımçıq qoyub əlimə silah alaraq, millətimi, torpağımı təcavüzkarlardan xilas etmək məcburiyyətində olmuşam.

Süvari praporşikliyindən başlayaraq, artilleriyaya keçib 1919-cu ildə Tiflisdə aviasiyaya düşdüm.[34] 1920-ci ildə Bakıya qayıtdım. Azərbaycan Ordusunun Baş Qərargahı məni və dörd dostumu hərbi hava məktəbinə göndərdi.

Məktəbin rəisi, hərbi təyyarəçi Pavlov bizim aviasiya biliyimizi yoxlayandan sonra hamımızı nəzəriyyədən təcrübəyə keçirdi. Bizə M-5 hidro-təyyarəsini starşina Karpuxinin rəhbərliyi ilə yığmağı tapşırdılar. Mənim yoldaşlarım Teymur Mustafayev, Əlihüseyn Dadaşov, Əhədəli Əjdər Həsənzadə, Məlik Mikayıl Mirzə idi.

M-5 sınaq təyyarəsini yığandan sonra növbə ilə uçmağa başladıq. 1921-ci ildə ilk uçan Teymur Mustafayev oldu. O, məşq edib hərbi təyyarəçi rütbəsini aldı. 1922-ci il sentyabrın 22-də mən də uçdum. Məndən sonra Əlihüseyn Dadaşovu və kursant Əsəd Əliyevi uçuşa buraxdılar. Əlihüseyn Dadaşov və mən əlavə imtahan verib hərbi təyyarəçi rütbəsi aldıq.

---

[34] Arxivdə gizir M Mahmudzadənin oxuması haqqında Azərbaycan Respublikasının hərbi attaşesinə göndərdiyi belə bir raport saxlanılır: "Diqqətinizə çatdırıram ki, iyulun 4-də Tiflis şəhərinə çatdım və aviasiya məktəbində dərslərə başladım" -müəl.

1923-cü ildə məni Sevastopol yaxınlığındakı Kaçinski hərbi aviasiya məktəbinə göndərdilər...

1926-cı il oktyabrın 25-də həbs olundum. Səbəbini soruşdum, dedilər ki, 1920-21-ci illərdə xalq arasında milli məsələ ilə bağlı söhbətlər aparmısan. Məndən bir az əvvəl Əlihüseyn Dadaşovu və Teymur Mustafayevi həbs etmişdilər. Bizi əlli ikinci maddə ilə beş il müddətinə Solovki adalarındakı həbs düşərgələrinə göndərdilər".

* * *

Gərgin axtarışlardın sonra Mahmud Mahmudzadənin haqqında danışdığı azərbaycanlı təyyarəçilərdən ancaq birinin kimsəsini tapa bildim - Teymur Mustafayevin qardaşı, ağsaqqal İsrafil müəllimi. Unudulmuş, yaddan çıxmış qardaşının adını eşidəndə qocaman müəllimin uşaq kimi kövrəldiyini təsvir etmək çətindir...

Qardaş həsrətli İsrafil müəllim:

- Qardaşımın adı iyirminci illərdə dastan idi, - dedi, - hamı - böyük də, kiçik də onunla fəxr edirdi. Atam, anam isə bu şöhrətdən bərk narahat idilər.

"Bu xoşbəxtliyi bizə çox görmə, ay Allah" deyib dua edirdilər. Kasıb ailə idik. Teymur işləyəndən sonra güzəranımız yaxşılaşdı. O, məndən böyük idi. 1896-cı ildə Bakıda anadan olub. Atam dülgər; idi. 1919-cu ildə hökumət onu pulsuz-parasız məktəbə götürəndə atam xoşbəxtliyindən özünə yer tapa bilmədi.

1922-ci ildə əlaçı pilot Teymur Mustafayevə iki mükafat verildi. Noyabrın on dördündə yüz səksən nömrəli əmrlə Respublikanın Qırmızı Bayraq Ordeni ilə təltif olundu. Həmin il aprelin iyirmisində Respublika Hərbi Dəniz Komissarlığının yüz otuz iki nömrəli əmrilə Teymur uçuşda qazandığı müvəffəqiyyətlərə görə üstü yazılı qızıl saatla mükafatlandırıldı.

Təyyarəçi Teymur Mustafayev 1924-cü ildə Xəzərin üstü ilə beş yüz - altı yüz metr məsafədən uçarkən dəniz səthinin bir sahəsində yağlı neft ləkələri müşahidə edir. O, bu barədə Neft Təsərrüfatı Nazirliyinə məlumat verir. Həmin illərdə respublikamızda hərbi xidmətdə olan, sonralar Sovet İttifaqı Marşalı, Sovet İttifaqı Qəhrəmanı Stepan Akimoviç Krasovski yazır ki, Xəzərdə ilk dəfə neftin olmasını azərbaycanlı təyyarəçi Teymur Mustafayev kəşf etmişdir, desək, yanılmarıq.

İyirminci illərin sonunda ölkədə ilk siyasi proseslərdən birinə başlandı. Gizli anti-sovet təşkilat olan "prom-partiya" /sənaye partiya/ ittiham edilirdi. Guya bu təşkilat burjua-texniki ziyalılarından ibarət yuxarı təbəqənin bir hissəsini birləşdirir və sərhədin o tayının köməyinə, digər əksinqilabi qüvvələrin yardımına arxalanaraq SSRİ-nin sənaye və nəqliyyat sahələrində pozuculuq fəaliyyəti göstərirmiş. Həmin iş üzrə ölkədə bir çox məşhur aviasiya konstruktorları, təyyarəçi və mühəndislər həbs edildilər.

Azərbaycanlı təyyarəçi Teymur Mustafayev də guya "sərhəddin o tayının köməyinə" gedənlərdən biri olub. Yalan və haqsızlığın qurbanı olan Teymur 1926-cı ildə həbs edilərək əvvəl Solovki adalarına, sonra isə Qazaxıstanın Karaqanda şəhərinə sürgün edilir. Şəxsiyyətə pərəstiş dövrünün ilk qurbanlarından olan

həmyerlimiz burada da fəaliyyətini dayandırmır. O, Karaqandada yenicə açılan daş kömür mədənlərinin inkişafında yaxından iştirak edir. T.Mustafayev "Karaqanda-kömür" mədənlərində müxtəlif məsul vəzifələrdə qaz generatorları qurğusunun hazırlanması və Böyük Vətən müharibəsi illərində cəbhə üçün yük avtomobillərinin əsaslı təmirində böyük əmək sərf etmişdir.

Dövlət onun müharibə illərindəki və müharibədən sonrakı xidmətlərini nəzərə alaraq "Böyük Vətən müharibəsində fədakar əməyinə görə", "Əməkdə fərqlənməyə görə" və "Xam torpaqların istifadəyə verilməsinə görə" medalları ilə təltif etmişdir. Həmyerlimiz həm də "Üçüncü dərəcəli dağ mühəndisi"fəxri adına layiq görülmüşdür.

Ömrünün axırına kimi Vətəndən uzaqlarda yaşayıb işləyən Teymur Mustafayevin səksən illik yubileyini 1976-cı ildə Karaqanda ictimaiyyəti keçirmişdir.

V.Jilkin familiyalı müəllif "İndustrialnaya Karaqanda" qəzetinin 27 oktyabr 1976-cı il tarixli nömrəsində "Yaxşı insan haqqında" məqaləsində yazır:

"Ucaboy, çevik və həmişə gülümsər sifətli Teymur Mustafayevi mədənçilər şəhərində hamı qayğıkeş bir adam kimi tanıyır. O, kiminə xeyirxah məsləhəti ilə, kiminə də mənzil və məişət məsələlərinin həllində kömək edir. Artıq uzun illərdir ki, Teymur şəhər sovetinin xalq nəzarəti şöbəsində ictimai müfəttişdir. O, həm də rayon komitəsində mənzil-məişət komissiyasının üzvüdür. Bizim şəhərdə o, demək olar ki, yarım əsrdir yaşayır və işləyir.

1930-cu ildə Qazaxıstanda daş kömür sənayesinin əsası qoyuldu. Bu sahədə ilk və fəal çalışanlardan biri də Teymur Mustafayev idi. Böyük Vətən müharibəsi illərində o, yük avtomobillərini təmir edib cəbhəyə göndərən sexin rəisi idi. Onun təşəbbüsü ilə yük avtomobillərinin mühərrikləri qaz generatorları ilə işləməyə uyğunlaşdırılmışdı. Bu təşəbbüs cəbhənin ehtiyaclarını ödəmək üçün yüz tonlarla benzin yanacağına qənaət etməyə imkan vermişdi.

Müharibədən sonra Teymur Mustafayev Tixonovski, Novomaykudski, Prişaxtinski avtobazalarının və avtotəmir emalatxanalarının tikintisinə rəhbərlik etmişdir".

Heç bir günahı olmadan sevimli hərbi təyyarəçilik sənətindən ayrılaraq doğma Azərbaycandan uzaqda yaşayan Teymur Mustafayev yetmişinci illərdə bir neçə dəfə öz Vətəninə qonaq kimi gəlib qayıtmışdır. Bir neçə dəfə köçüb Vətəni Azərbaycanda yaşamaq üçün yuxarı dairələrə müraciət etsə də, "yox, sən siyasi dustaq olmusan, xalq düşmənisən..." kimi ədalətsiz ittihamlarla onu məyus qaytarmışlar.

1981-ci ildə qurbətdə Vətən həsrətilə vəfat edən Teymur Mustafayevin hazırda Karaqanda şəhərində iki oğlu yaşayır. Böyük oğlu Yusif dağ mühəndisidir, kiçiyi İsgəndər isə atasının ilk gəncliyində yarımçıq qalmış arzusunu davam etdirir - təyyarəçidir.

Hər şeyin ilki, əzəli və əbədidir. Tarixin müəyyən mərhələlərində onlar unudulsalar da, gec-tez yada düşür, xatırlanırlar.

Haqq nazilir, amma üzülmür. Bu gün adı, şöhrəti doğma xalqına qaytarılan ilk təyyarəçilərimizin - Fərrux ağa Qayıbovun, Xan Əfşar Teymurçinin, Mahmud Mahmudzadənin, Teymur Mustafayevin, Əlihüseyn Dadaşovun, Məlik Mikayıl

Mirzənin, Əsəd Əliyevin, Əjdər Əhədəli Həsənzadənin ömür yolu öyrənilməklə adları əbədiləşdirilməlidir.

"SƏMƏD BƏY NAMINDA BİR KİŞİ GÖRDÜM"

"Borçalı elində bir şəxsi izzət,
Gedib qoca köydə xoş ülfət gördüm".

Aşıq ŞENNİK.

Qənsələrin yanında avtobusdan düşdük. Qaranlıqda minib, qaranlıqdada düşdüyümüzə görə sərnişinlərdən heç biri bizi tanımırdı. Soyuq, çiskinli dekabr havasında hamı evinə, isti ocağına dağılışdı. Çöldə qalan ikimiz olduq. Geniş bir prospektin başında dayanıb Aranın evini soruşmağa adam axtardıq. Yol yoldaşım Mahmud əmi əllinci illərdə burada müəllim işləmişdi. Ötüb-keçən illərin dəyişikliyi, üstəlik də axşamın sazağı, tor qaranlığı onu da çaşdırmışdı. İns-cins olmayan yad küçədə hara istiqamət götürməyə çətinlik çəkirdik. Arxadan gələn ayaq səslərini eşidib geriyə döndüm. İki nəfər düşmən dilində nəyinsə qarasınca deyinə-deyinə ötüb keçdi. Mahmud əmi təəssüflə:

- Əyə, onlardan niyə soruşmadın? - dedi.
- Onların göstərdiyi yoldan xeyir tapmarıq, - dedim.
- Niyə?
- Ermənicə danışırdılar...
- Ə, bu qırılmışları hələ burdan rədd eləməyiblər?

Qarasına prospekt boyu bir az irəlilədik. Sağ tərəfə dönən yolun başlanğıcında, iki yük maşınının işığında da doğma dilimizdə danışıq eşidəndə eynimiz açıldı.

Mahmud əmi irəli durub;

- A qardaşlar, - dedi, - Ağanın evinə yol hardan dönür?
- Düz gəlmisiniz, elə bu küçədir, - dedilər, - odey, darvazasına gur işıq düşən Ağanın mülküdür.

Qazaxdan ta Sarvana /**indiki Marneuli - Ş.N**./ kimi Mahmud əmi mənə Daşdəmir ağa Rüstəm ağa oğlu Paşayev və onun nəsli-nəcabəti haqqında danışmışdı. Demişdi ki, Borçalı mahalında hamı ona "Ağa" deyə müraciət edir. Mənə ləzzət verən də yolda soruşduqlarımızın cavabı oldu. Onlar demədilər ki, hansı ağa...

Ağanın görüşünə getməkdə iki məqsədim vardı: biri ulu babası Səməd ağa haqqında olan əhvalatları eşitmək, biri də onun ana tərəfdən Səməd Vurğunla qohumluğunu öyrənmək.

Evə çathaçatda Mahmud əmi dedi ki, kef bundadı gedək görək Ağa evdə yoxdu.

Həyəcanımı gizlədə bilməyib:

- Nə danışırsınız, - dedim, - bunu Qazaxda desəydin, bu sazaqlı qış havasında, dörd-beş maşın dəyişə-dəyişə bu əziyyətlə gəlməzdik.

- Gəl görək, - dedi, - qardaşoğlu, əziyyətdən keçib, daha gəlib çatmışıq, ya qismət...

- Mahmud əmi, - dedim, - hanı Sarvan camaatı, hələ axşamdandı, amma iraq olsun, elə bil köçüblər?

- Qorbaçovun aşkarlığının işığına yığışıblar, oğul, - köksünü ötürüb - Allah pis rəhbərin evini yıxsın, - dedi, - yıxacaq da... Başıpozuqluqdan burda oğru, quldur çoxalıb. Adam girov aparmaq, ev yarmaq bu saat dəbdi. Ona görə də hamı axşamdan ocağının başına yığılıb. Bir fikir ver, qapı-pəncərə dəmir barmaqlıqlarla necə bərkidilib...

Gur işıq düşən darvazaya çatıb dayandıq. Mahmud əmi:

- Ay ev yiyəsi, ay Ağa - deyib bir-iki ağız çağırdı.

Eyvanın o başında qucağı uşaqlı bir gəlin göründü.

- Qızım, Ağaya de, bir eşiyə çıxsın.

- Ağa yoxdu evdə, kimdi soruşan?

- Hardadı? - Mahmud əminin səsi özü də hiss eləmədən hirsli çıxdı.

- Toya gedibdi. Kimdi ki, Ağanı soruşan?

- Mənəm, Mahmudam, Qazaxdan gəlirəm...

- Bıy, a Mahmud müəllim, sizsinizmi, qoy darvazanı açım, bircə dəqiqə...

İlahi, insan insana necə oxşarmış... Ata-babalarımız yox yerdən deməyib ki, insan ekiz doğulur. Kəndində-kəsəyində olmasa da, hardasa onun oxşarı, tən yarısı var. Şən əhval-ruhiyyə ilə toydan gələn Ağanı bilmirəm iki qardaşdan hansına oxşadım. Səməd Vurğunamı, yoxsa Mehdixan Vəkilovamı?

Boy-boxunda Mehdixan müəllim, danışıqda, təmkində isə Səməd Vurğun idi, dip-diri qarşımda durmuşdu.

- Anamın dediyinə görə, mən süd qohumlarım Vəkilovlara çəkmişəm.

İki gün qonağı olduğum Daşdəmir ağa bunu bircə dəfə təvazökarlıqla, həm də iftixarla etiraf elədi.

- Daşdəmir ağa, - dedim, - qohumun Səməd Vurğunla görüşünüz olubmu?

- Olub, çox gec. O da bircə dəfə. 1955-ci ildə gürcü şairi David Quramişvilinin 250 illik yubileyinə gələn Səməd Vurğun və Osman Sarıvəlli bizim qonşu Hidayət Bayramovla Tbilisidə görüşür. Söhbət zamanı Hidayət müəllim deyir ki, sizin bir qohum Sarvanda bizimlə qonşudur. Saquramoya yubiley şənliyinə gedən Səməd Vurğun Hidayət müəllimə deyir ki, bizim qohuma salam söylə, deynən, onun görüşünə gələcəm.

Bir gün xəbər gəldi ki, Səməd Vurğun və Osman Sarıvəlli Faxralı kəndinə gediblər, sabah Sarvana gələcəklər. On-on beş kişi maşınlara minib Qızılhacılı yolunda onları qarşılamağa getdik.

Hamımız cərgə ilə durmuşduq. Maşından düşən şairlər hamı ilə əl tutub keçirdilər. Səməd Vurğun mənimlə görüşüb dayandı, üzümə diqqətlə baxıb:

- Bizim qohum sən olarsan? - dedi.

- Bəli, - deyən kimi qollarını açıb məni qucaqladı. Öpüşdük, kövrəldik. Niyə kövrəldik, bu günədək özüm də bilmirəm. Onun od kimi isti, xəstəhal nəfəsini indi də üz-gözümdə hiss edirəm. Şair bir addım geri atıb mənə başdan-ayağadək

bir də baxdı: - Ayə, - dedi, sən elə mənim gəncliyimsən ki, qoca Səməd Vurğunla üzbəüz durubsan.

Qonaqları Hidayət müəllimin evinə apardıq. O, əvvəlcədən hazırlıq görmüşdü. Çünki Hidayət müəllim mənə demişdi ki, sizin ailə ilə çox maraqlanır, ananla görüşmək istəyir. Mən nisbətən cavan olduğumdan onlarla çox da həmsöhbət ola bilmirdim. Yemək-içmək başlandı. Elə birinci badələr qaldırılanda Səməd Vurğun hiss elədi ki, bizim evdə deyil. Onda dedi:

- İçin, nuş olsun. Belə çıxır ki, mən buraya Hidayətin evini görməyə gəlmişəm, qohumumun yox...

Durub bizə gəldik. Anamla görüşüb öpüşdü. Yanaşı oturub xeyli söhbət elədi.

- Ay Fatma xanım, - dedi, - bilirsən sən kimə oxşayırsan?

- Bilirəm, niyə bilmirəm, sənin nənən, mənim də xalam Aşa qarıya.

- İcazə ver, səni bir də öpüm. Səni gördüm, elə bil rəhmətlik nənəmlə görüşdüm. Torpağı sanı yaşayasan, - sonra üzünü məclisdəkilərə tutub: - Hə, dostlar, - dedi. Allaha şükür ki, özümün ağalıq evinə qonaq gəldim. İndi özümü burda rahat hiss edirəm.

Bizim raykom katibi Səmədə qıyğacı baxıb kinayə ilə:

- Nə ağabazlıqdır, - dedi, yoldaş Vurğun, ağaynan, bəynən çoxdan qurtarmışıq.

Səməd təfərrünclə ona baxa-baxa:

- Yoldaş, - dedi, - sən hansı vəzifədə işləyirsən?

Bir yaltaq dərhal:

- Bizim raykom katibidir, - dedi, - Səməd müəllim.

Səməd Vurğun iti və sərt baxışlarını katibdən yayındırmadan:

- Danışığından və hərəkətlərindən demaqoq adama oxşayırsan. Təsadüfən bizim ağalığımızı yuxarılara yazmazsan ki...

- Yazardım, şair, nə qabiliyyətim, nə də dəftər-qələmim yoxdu.

Cəməd Vurğun gur və şaqaraq səslə:

- Ayə, onda çalın oynayaq, - dedi, -raykom katibiniz savadsız çıxdı.

Bu, Səməd Vurğunun bizə birinci və axırıncı gəlişi oldu.

* * *

Daşdəmir ağanın ana babası Həsən Əfəndiyev 1905-ci ildö Sankt-Peterburqda universitet bitirir. Rus qızı ilə evlənib Salahlıya qayıdır.

Atası Musa əfəndi oğlunun gavur qızına evləndiyinə bərk əsəbiləşir. Övlad kimi onu vərəsəlikdən məhrum edir. Hirslənən ata:

- Çıx, - deyir, - mənim evimdən, kəndimdən. Sən mənim pak evimə qara ləkə saldın. Eldə-obada məni rüsvay elədin.

Oğlu Həsən yalvar-yaxarla bircə gecə qalmağa rüsxət istəyir. Allahın qəzəbindənmi, yoxsa tərslikdənmi gecə ot tayası uçur, arıq bir camış altda qalıb ölür.

Musa əfəndi haray salıb:

- Oğlum kafir qızı aldığına görə evimə bəla gəldi, - deyib Həsəni evdən qovur.

Türkmənistana gedən Həsən 1908-ci ildə ilk dəfə Aşqabadda rus-tatar məktəbi açır. 1937-ci ildə Ali Təhsil Nazirliyində yüksək vəzifədə işləyən Həsəni nəslən ağa olduğuna görə güllələyirlər. Onun üç oğlu - Aman, İsgəndər və Cavad indi də Aşqabadda yaşayır. Nəslin bir qolu da orada davam edir.

Otuzuncu ildən başlayaraq, Daşdəmir ağanın Qasımlı nəslinə çox zülmlər olub. Hər iki tərəfdən - ana və ata tərəfindən nəslən ağalıq olduğuna görə onları Borçalıda "xalq düşməni" kimi qələmə veriblər. Arada su bulandıranların, yaltaq və buqələmunların əlinə girəvə düşüb. Çuğulların fitvası ilə 1930-cu ildə atası Rüstəm ağa, əmisi İsgəndər ağa güllələnib. Əmiləri Şəmi və Balabəy isə sürgün olunub.

- Nəslimizin başıpapaqlılarının hamısını yığışdırdılar, Mən 1944-cü ildə güc-bəla ilə Sarvan Dövlət Bankında şagird kimi işə düzəldim. Bir il əvvəl babam Səməd ağanın fotoşəklini tapmışdım. Onu Aşa nənəm qorxudan həyətimizdə daşın altında basdırmışdı. Bir az solan şəkli bərpa elətdim, başıma bəla açdım.

Qonşulardan kimsə NKVD-yə xəbər verir ki, ağa nəvəsi Daşdəmir babası Səməd ağanın şəklini saxlayır. Gecə saat ikidə qapımız çox kobudcasına döyüldü. Qapını açan kimi dörd nəfər içəri soxuldu. Podpolkovnik Parikyan, Oruc Məmmədov, milis Göyü Zamanov, Molla adlı birisi də Qızıl - Hacılıdan idi. Oruc içəri girən kimi:

- Əyə, köpək oğlu, - dedi, - Səməd ağanın şəkli hardadı?

- Niyə söyürsən, - dedim, - şəkli istəyirsən bu saat verərəm.

Kamoddan şəkli tapıb verdim. Qəfildən soldat kəməri ilə sol gözümün üstünə vurdular. Səntərləyib kamoddan tutdum. Yıxılmadım, hansısa: "köpək oğlunda doğrudan da ağa gücü var" - dedi. Əməllibaşlı geyinməyə qoymadılar. Maşına basıb Tiflisə apardılar. İki gün sorğu-sual elədilər. Elə sənəd düzəltmişdilər ki, guya mən hökumət çevrilişi eləməyə hazırlaşıram. Bir gecə "rəisin qəbuluna" - dedilər. Üç nəfər oturmuşdu; yuxarı başda general Rapava /millətcə meqrel idi/, mayor Karanidze və Naçqebia da yanında.

General Rapava diqqətlə mənə baxa-baxa astadan gürcücə dedi ki, bu ki, çox uşaqdır.

Onda mənim on dörd yaşım yenicə tamam olmuşdu.

Naçqebia məni azərbaycanca sorğu-suala tutdu:

- Hansı kənddənsən, oğlan?- dedi.

- Qasımlıdan.

- Hansı nəsildən, hansı famildənsən?

- Ağalıq nəslindənəm, - dedim. - Dəli Səməd ağanın qardaşı oğluyam. İsgəndər ağanın da əmizadəsi.

- İşləyirsənmi?

- Bəli, yeddinci sinfi bitirmişəm.

Atam güllələnəndən sonra dolana bilmədik, işə girdim.

- Komsomolçusanmı, kim səni komsomola götürüb?

- Bəli, Cəlal Məmmədov komsomola qəbul edib.

- Oğlan, görürəm çox dilli-dilavərsən, sənə bir sual verəcəm, düz cavab desən, canını qurtararsan...

- And içirəm ki, Sizə düz cavab verəcəm. Onsuz da mənə olan olub. Cavan yaşında atam güllələnib, evimizi hökumət alıb məktəb eləyib. Anamı məcbur elədilər ki, ya sürgünə, ya da ayrı ərə getməlisən ki, ağalıq familini daşımayasan. Anamın getdiyi ikinci əri 1941-ci ildə öldü, dəyirmançı idi. Ondan da üç uşaq qaldı. Mən də yetim bacı-qardaşımı saxlamaq üçün dəyirmanda işlədim. İndi də...

- Bəs sən bilmirsən ki, keçmiş çar zabitinin, ağanın fotoşəklini saxlamaq olmaz? Axı, sən komsomolçusan? . .

- Bu şəkil mənim babamındır. Siz də generalsınız. İllər keçib quruluş dəyişsə, nəvəniz Sizin şəklinizi saxladığına görə onu soldat kəməri ilə başına vurub bihuş etsələr, bu, Sizə xoş gələrmi?

Naçqebia susdu. Köksünü ötürüb mənim dediklərimi general Rapavaya tərcümə elədi. Üzünə xoş təbəssüm qonan Rapava:

- Okro bici var - dedi, yəni qızıl kimi oğlandır. Bununla işiniz olmasın.

Bir kapitan çağırdılar. Dedilər get, bir dəst paltar gətir. Paltarı mənə geyindirdilər. Məni gecəylə aparanda tuman-köynəklə aparmışdılar. Məni gətirənləri içəri çağırdılar, mənə isə dedilər ki, çöldə gözlə. Səhər saat altıdan səkkizə kimi gözlədim. Onların dördü də suyu süzülə-süzülə çıxanda biri dedi ki, mən sizə demədimmi ki, bu çox uşaqdı, bu qədər sənədi niyə hazırlamısınız?

Geri qayıdanda mənə hədə-qorxu gəlib dedilər:

- Bax ha, səni hara apardığımızı gərək heç kəs bilməsin, yoxsa yenə... Yazılı surətdə dilindən iltizam verməlisən.

Namərdlərin planlarının baş tutmamasından ayağım yer almışdı. Bir tərəfdən də general Rapavanın “okro bici var” - deməyi məni ürəkləndirmişdi. Ona görə də cəsarətlə dedim:

- Necə deməyim, vurub gözümün üstünü partlatmısınız, sabah mən işə çıxmalıyam. Hələ bir yoxsa yenə deyirsiniz...

Səhər işə çıxanda bankın direktoru Həsröt İsmayılov məni yanına çağırdı. Özümu saxlaya bilməyib uşaq kövrəkliyi ilə ağladım. Əhvalatı danışdım. Həsrət məni raykom katibi Qoçladzenin yanına aparıb dedi:

- NKVD gecə ilə bunu aparıb döyüb, gör nə kökə salıb.

Qoçladze orqana zəng elədi. Bir az danışıb sarısını udmuş halda dedi ki, hədə-qorxu gəlirlər, deyirlər, siz qarışmayın.

1949-cu il yanvarın iyirmi birində məni yenə həbs elədilər. Bu dəfə nə evimizi axtardılar, nə də şəkil-zad istədilər. Günahım nə idi, bilmirdim.

Mənim Givi Çaparidze adlı bir gürcü dostum vardı, atalığı Valiko Loladze rayon prokuroru idi. Kameradan Giviyə məktub yazıb xahiş elədim ki, atalığına desin, mənə kömək eləsin. Givi görüş alıb yanıma gəldi. Valiko deyib ki, qırx dördüncü ildə məni siyasi dustaq kimi aparanda ona görə buraxıblar ki, on səkkiz yaşım tamam deyilmiş. O vaxtdan səni həbs etmək üçün sənəd hazırlayıblarmış. İndi on səkkiz yaşın tamam olan kimi həbs ediblər.

- Doğrudan da həbs olunan günü -yanvarın iyirmi birində on səkkiz yaşım tamam olmuşdu.

Mənə beş il iş verdilər. Məhkəmədə üzümə elə adamları şahid elədilər ki, heç onlarla salam-kəlamım yoxuydu. Üzümə elə şeylər oxudular ki, heç yatsam yuxuma da girməzdi. Beş il Volqa-Don kanalında siyasi dustaq kimi işlədim. Üç il də səsimi aldılar.

***

Daşdəmir ağanın bu günlərindən olmuş bir əhvalat:

1981-ci ildə ailənin böyük oğlu Nazim Moskvada Ali Milis məktəbini bitirib orqanda işləyir. Nadürüstlərin "yuxarılara" imzasız danos və şikayətləri axışır, nə axışır. Nəhayət, bir gün Gürcüstan Daxili İşlər naziri, general Qevatadzenin özü şikayətə baxmaq üçün Nazimi yanına çağırır:

- Leytenant Paşayev, sənin keçmişin hansı nəsildəndir?

Nazim qürurla:

- Ağalıq, - deyə cavab verir. Cavabdan xoşu gələn general bığaltı gülümsünüb:

- Səndən öz juliklərinizşikayət yazıblar, - deyir, - özü də nə az, nə çox - bir kisə. Cavabından xoşum gəldi, kişi kimi boynuna aldın. Mən də Tavat nəslindənəm... Get, işlə, heç kəsin sənlə işi ola bilməz...

İllər, haqsız təzyiqlər Daşdəmir ağanı çox sıxıb, güzəranı pis də olub, yaxşı da, özü demiş, elə-belə, ortabab da. Əzizlərini, yaxın-uzaq qohumlarını itirib, amma şah vüqarı sınmayıb, ağalıq dəyanətini qoruyub saxlayıb. Ona görə saxlaya bilib ki, nəsli-nəcabəti saf olub. Xoş saatda dünyaya gələn bu insanda yaxşı keyfiyyətləri qısa müddətli görüşdə də aydınca hiss etmək olur. Onun bircə nisgili, bircə intizarı var: nəslimin, kökümün adı itib-batmasın.

* * *

Yüz ilə yaxındı Borçalı mahalında bu nəslin ulusu Səməd ağa haqqında danışılan rəvayət var. Amma bu barədə yazılı heç bir sənəd-filan yoxdu. Artıq yaddaşlarda kök salmış bu rəvayət xalq arasında inanılmış həqiqətə dönüb. Bu gün bizim də ona inanmamağa haqqımız yoxdu. Mən də onu dönə-dönə Qazax və Borçalı aşıqlarından, ağsaqqallarından eşitmişəm.

...Ali bir məclisdən sonra Tiflis zadəganları Nəbatat bağında gəzə-gəzə xanım-xatın gözəllərlə söhbət edirmişlər. Səməd ağa da nəcib bir gürcü gözəli ilə əylənirmiş. Onun yanından keçən erməni generalı Karqanov kinayə ilə söz atır:

- Görəsən, bu gözəllikdə qız vəhşi türkdən nə zövq alır?

Hirslə ayağa duran Səməd ağa general Karqanovu qılıncı ilə yarıya bölür. Səməd ağanı həbs edirlər. Divan məhkəməsi uzun çəkir. Generalı öldürdüyünə baxmayaraq, şəxsiyyəti təhqir olunan Səməd ağanı məhkəmə müəyyən mənada müdafiə edirmiş. Məsələni həll etməkdə çətinlik çəkən Qafqaz canişini Səməd ağanın ərizəsini çar I Nikolaya göndərir. İmperator Səməd ağanın ərizəsinə belə bir dərkənar qoyur:

"Min düşmənimi məhv edən dostum Səməd ağa bir təəbəmi öldürüb. Ona görə də əfv edirəm".

Çar Səməd ağanı müharibələrdə göstərdiyi igidliyinə görə bağışlayıb.

Əfvetmə ilə bağlı el arasında belə bir əhvalat da var:

Deyilənə görə, çar Səməd ağanın müharibədə göstərdiyi qəhrəmanlığına heyran qalıb deyir:

- Səməd ağa, bir şey istə, diləyinə sərəncam verərəm.

Qürurlu Səməd ağa isə belə cavab verir:

- Əlahəzrət, iltifatınız artıq olsun. Mənə heç nə lazım deyil, sayənizdə bəndənizin hər şeyi var. Mənim atamın qızılı çanaqla ölçülür. Beş at mənzili torpaq sahibiyəm. Sizdən bircə diləyim var: acıqımı, hirsimi özümə verin.

Çar məmnuniyyətlə razı olub deyir:

- Səməd ağa, bu mərdliyi ki, səndə görmüşəm, haqsız iş tutmayacağına əminəm. Amma ədalət naminə hirslənib Qafqaz canişinini doğrasanda, səni yenə də cəzalandırmaram. Get, acığın, ədalətin, bir də igidliyin sənə yar olsun!

* * *

El qəhrəmanı Səməd ağa Qasımlı haqqında Borçalı və Qazax ellərində danışılan əhvalatlar çoxdur.

1970-ci ilin qışında Ləmbəli Molla Məhəmməd Əfəndiyevin görüşünə getmişdim. Səksən yaşlı Məhəmməd dayının keçmiş igidlər və aşıqlar haqqında məlumatı çoxdur. Səməd ağa haqqında belə bir əhvalatı ondan yazıb götürmüşəm.

...İmperator I Nikolayın ölümündən sonra Səməd ağanı dolaşdırıb Sibirə sürgün edirlər. O, Sibirdən qaçıb Türkiyəyə pənah gətirir. Başında bir dəstə yaraqlı-yasaqlı, özü kimi qoçaq, vuran-tutan igidləri.

Türkiyənin bir kəndində Kərim adlı kişinin evinə qonaq düşürlər. İgidlər kürd Kərimə deyirlər ki, bu qışı bizi evində qonaq saxla. Görünür, kürd ya xəsis olub, ya da kasıb. Odur ki, etiraz edib deyir:

- Mən sizi necə saxlayım, bu qədər at, adam, məndə bunlara yem hardandı? Səməd ağa cavab verir ki, kürd qardaş, sən bizim burada qalmağımıza razı ol. Yemək sarıdan fikir eləmə. Mənim igidlərim Türkiyədən, Ursiyyətdən, İrandan çalıb-çapıb gətirəcəklər. Sənə də bəs edər, bizə də.

Bu zaman aşıq Şennik də gəlib həmin kəndə çıxır. Xəbər Səməd bəyə çatır. O, kürd Kərimi çağırıb deyir:

- Eşitmişəm, aşıq Şennik sizin kənddədi. Get, onu gətir, bu gecə bizə bir söhbət eləsin. Qürbət eldə kefimizi açsın.

Kürd Kərim gedib aşığı gətirir.

Çuğulun evi yıxılsın, adamın şirin söhbətini yarımçıq qoyandı. Çarığının dabanını bərkidib ajana xəbərə qaçır, Şennik çalıb-çağıran vaxtı kürdün evi üzük qaşı kimi araya alınır. Mühasirəni görən Səməd bəyin adamları türk ajanları ilə vuruşmaq istəyirlər. Bunu görən qeyrətli igid Səməd bəy yoldaşlarına deyir:

- Aya, ay uşaqlar, elə eləyin ki, bircə damcı da insan qanı tökülməsin. Dinbir, dilbir qardaşlarımızı öldürməyin. Taqqıltı-tuqqultu salın, bir təhər aradan çıxaq.

İgidlər mühasirədən çıxandan sonra türk zabiti başında da əsgərləri evə girir. Görür ki, burada əli sazlı bir adam var. Əmr verir ki, tez tutüb qollarını bağlayın. Aşığı qolları bağlı türk paşasının yanına gətirirlər.

Paşa soruşur:

- Yavrum, sən də eşkiyasanmı[35]?

- Yox, əfəndim, mən yanşağam.

- Bəs onda söylə, görək bu qarapapaqlılar kimdi, sən bunlara niyə qoşulubsan?

- Əfəndim, paşam sağ olsun, əmr ver, qollarımı açsınlar, sazla deyim.

Aşığın qollarını açırlar. Şennik sazı sinəsinə sıxıb deyir:

Bir gün Səməd bəyin şəhrinə vardım,
Bu diyarı gəzə-gəzə, əfəndim.
Səməd bəy namında bir kişi gördüm,
Vəsfini qaldırdım sözə, əfəndim.

Alosman elinə talan saldılar,
Cəlalı kürdünə qılınc çaldılar.
İran ölkəsindən xərac aldılar,
Şahı da qoydular yasa, əfəndim.

Səməd bəy, İsmayıl qoşun başları,
Yanında vardı igid yoldaşları.
Mehralı deyilən şahin quşları,
Qalır Koroğludan nəsə, əfəndim.

Səməd bəy bənzərdi Rüstəmi-Zala,
Mahmudoğlu əzəmətli bir qala.
İsmayıl da boyun əyməz krala,
Qıymadılar bircə fəsə, əfəndim.

Səməd bəydir sanki aslan qurumlu,
Vəlli, beydə minar qulac kərimli.
Paşa səltənətli, bir xan verimli;
Baxan deyil çoxa-aza, əfəndim.

Çovuş oğlunun da zəhmi ağırdı,
Mahmudoğlu yüz kazakı dağıdı.
İsmayıl da urus üçün yağıdı,
Düşmə, onlar ilən bəhsə, əfəndim.

Səməd bəy ki, getdi Sibir yerinə,

---

[35] Qaçaq

Neçə min bəlalar gəldi sərinə.
Fərmansız şah olub qılınc zoruna,
Hökm edir Qazağa, Tiflisə, əfəndim.

Şennik mədh edər qoç igidin pirini,
Hər nadana açmaz gizlin sirrini.
Səməd bəylə İsmayılın yerini
Tutan olmaz bu diyarda, əfəndim.

Sonralar Borçalıya tez-tez gələn aşıq Şennik həmişə bu nəslə qonaq düşüb. Türkiyədə 1975-ci ildə nəşr olunan "Aşıq Şennik" /həyatı, şerləri və hekayətləri/ kitabında "Səməd bəy dastanı" daha geniş verilib.

Nüfuzlu Qasımlı nəslində iki Səməd ağa olub. Baba 1880-ci ildə yeni tikdirdiyi mülkdə ustaya göstəriş verərkən çöldən atılan namərd gülləsinin qurbanı olub. Nəvə Səməd ağa da babası kimi igid, vurub-tutan olduğuna görə el-oba ona Dəli Səməd ağa ayaması verib.

1928-29-cu illərdə Şura hökumətində ağa və bəylər təqib olunanda üç qardaş - Dəli Səməd ağa, İsgəndər və Rüstəm Türkiyəyə pənah aparırlar. Otuzuncu ilin ortalarında Lavrenti Beriya Gürcüstan Ali Məhkəməsində işləyən Şabanov familiyalı bir azərbaycanlını çağırıb deyir:

- Eşitdiyimə görə, Dəli Səməd ağa sənlə dost olub. Ona mənim və öz adından məktub göndər. Qoy, başının dəstəsi ilə qayıdıb gəlsin. Çalış, inandır ki, ona toxunmayacağıq. Tökdüyü bolşevik qanının hamısını bağışlayırıq. Torpağını, mülkünü, müsadirə olunmuş nəyi varsa, ona qaytarmağa söz ver.

Məktubu alan Dəli Səməd ağa bu yağlı vədlərə inanmır. Amma Rüstəm və İsgəndər inanıb qayıtmaq qərarına gəlirlər. Onda Dəli Səməd ağa deyir ki, qardaşlarım, öz ayağınızla Şura hökumətinə qurban gedirsiniz.

1930-cu ildə İsgəndər və Rüstəmi Borçalıya qayıdan kimi həbs edib güllələyirlər.

Daşdəmir ağa:

- Atam Rüstəm ağa güllələnəndən sonra dolanışığımız çətin oldu. Anam Stalin adına kolxozda işləyirdi. Əllinci illərdə Sarvanın mərkəzi bağında Stalinin əzəmətli bir heykəli vardı. Anamı ona xidmətçi qoydular. İki il işləyəndən sonra onu Dövlət Təhlükəsizliyi şöbəsinə çağırdılar. Möhkəm danlayıb dedilər ki, səni kim buraya qoyub, axı sən ağa arvadı olmusan. Ağa arvadı olduğuna görə onu işdən çıxartdılar. Kolxoz sədri İsa Xubanovu hədələdilər ki, sən bilmirsən ki, bu ağa arvadıdı, o hansı bir ürəklə heykəli silər, bağın gül-çiçəyini becərər.

Stalinin heykəlini silməyə hər il üç-dörd metr məxmər verirdilər. Bizi ondan da məhrum elədilər.

- Ağa, bəs Türkiyədə qalan Dəli Səməd ağanın taleyi necə olub?

- 1930-cu ildə Türkiyədən qayıdan İsgəndər ağa bir foto-şəkil gətirib. Şəkildə səkkiz nəfər təsvir olunub. Həmin şəkildə bizim nəsildən İsgəndər ağa Qasımlı, Dəli Səməd ağa, Kürüstü Kosalar kəndindən isə Dəli Əhməd var, ayaq üstə duran isə burda yazılana görə türk konsuludur. Qalanlarının kimliyi

yazılmayıb. 1962-ci ildə Türkiyə radiosu xəbər verdi ki, vaxtilə şuralardan bizə pənah gətirən alay komandiri Dəli Səməd ağa vəfat etdi. Sonralar Türkiyə ilə ara elə kəsildi ki, nə Dəli Səməd ağadan, nə də övladlarından heç bir xəbər tuta bilmədik. Gedib-gələnlər onun igidliyindən, səxavətindən danışırdılar.

...Bir türk əsgəri naqanını sökür, amma yığa bilmir. Döyüşçülərdən biri Dəli Səməd ağanı göstərib deyir:

- Apar, ver, əcəmi kürdünə, o yığa bilər.

Səməd ağa da bir anın içində naqanı yığıb qoyur cibinə. Türk deyir:

- Ağa, neylədin, axı naqan mənimdir.

Səməd ağa:

- Yapmasını bilməyən, atmasını da bilməz. Naqan mənimdi...

Bu dəfə daha ciddi görkəm alıb - əfəndim, ətrafımız gavurlarla doludur. İstəyirsən ki, heç vaxt düşmənə hədəf olmayasan, naqanın yapmasını da öyrən, bu, sənin həmişə gərəyin olacaq, - deyib türkün naqanını özünə qaytarır.

Aprel, 1993-cü il

BORÇALIDAN GƏLƏN MƏKTUB

Adam var tez-tez görüşürsən, amma ondan yaddaşında heç nə qalmır. Adam var ki, bircə dəfə həmsöhbət olursan, onun duruşu, davranışı, sözü-söhbəti hafizəndə ömürlük yaşayır. Tez ayrıldığına, ya da mənzil uzaqlığı ucbatından görüşə bilmədiyinə yanıb - yaxılırsan.

Borçalı Daşdəmir ağa ilə yeganə görüşümün bir ili 1993-cü il dekabrın səkkizində tamam oldu. Bu bir ildə Ağa /Borçalıda hamı onu belə çağırır/ üçün mən yaman darıxmışdım. Ağa üçün istək yanğıma ancaq məktubla təsəlli tapmışam. İnanıram ki, Borçalı igidi Səməd bəyin doğma nəvəsi Daşdəmir ağa ilə hər kəs bircə dəfə görüşsə, o da mənim kimi ağa vüqarına, şirin və maraqlı söhbətinə vurğun kəsilər. Nüfuzlu ağa nəslinin nümayəndəsini dinlədikcə Allaha dua-səna qılırdım ki, nə yaxşı bu saf bulağın gözü tutulmayıb. O danışdıqca fikirləşirdim ki, adama tərbiyə vermək, ədəb öyrətmək lüzumsuz bir zəhmət imiş. Gərək insan olan kəs anadan tərbiyəli doğulsun, vüqarlı və nəzakətli yaşasın. Bunun üçün də nəslində ağalıq olmalıdır.

1955-ci ildə Səməd Vurğun Borçalıda qonaq olub. Böyük bir ziyafətdən sonra Daşdəmir ağagilə gələn Səməd Vurğun nahaqdan deməmişdir ki, Allaha şükür ki, özümün ağa evinə qonaq gəldim. İndi özümü burada rahat hiss edirəm. (Daşdəmir ağanın anası Səməd Vurğun nəslindəndir).

İkicə gün ziyarət etdiyim Daşdəmir ağa Rüstəm ağa oğlu Paşayev müdrik bir ağsaqqal kimi yaddaşımda ömürlük yaşayacaq.

Bu günlərdə ondan yenə bir məktub aldım. Ağa mənə aşıq Şenniyin üç şerini göndərib. Şerin biri mərd babası Səməd ağaya, ikisi isə Şulaverin qoruqçularına yazılıb. Borçalıda ağır yığnaqlı toylar keçirən Səməd ağanın dostu Aşıq Şennik "Borçalı Səməd ağa" adlı dastan da yazıb. Qazax və Borçalı aşıqlarının dilində

əzbər olan bu dastan təəssüf ki, indiyədək özümüzdə yox, ancaq Türkiyədə, 1975-ci ildə nəşr olunub.

...Bir gün Səməd ağa ismarıc göndərib aşığı oğlunun toyuna dəvət edir. Uzaq mənzil gələn aşıq Şennik Ləlvər dağını aşıb Şulaver düzündə dincəlmək istəyir. Atını ota buraxır, özü də böyrü üstə uzanıb, dünyanın gərdişini ələk-vələk edirmiş. Bu zaman iki erməni qoruqçusu bərəni bəri aşıb aşıq Şenniyə hədə-qorxu gəlir. Tüfəngi dabana çəkib kişinin atını və üstündəki pul-paranı alırlar. Aşıq nə qədər deyir ki, mən Səməd ağanın qonağıyam, dinsizlər eşitmir ki, eşitmir...

Aşıq Şenniyin payi-piyada gəldiyini və qarət olunduğunu görən Səməd ağa adam göndərib atı da, pul-paranı da aldırır. Düşmənə isə özü cəza verir. Nökərini Şulaver keşişinin belinə mindirib kəndin içi boyunca ləhləyənə qədər qovdurur. Aşıq Şennik də bu əhvalata iki - "Məni" və "Bəyim" şerlərini yazır. Üçüncü şer isə Aşıq Şenniyin qəlb və ürək dostu Səməd ağanın ölümünə yazdığı "Getdi" qoşmasıdır.

İndiyədək ancaq Borçalı, Qazax aşıqlarının sinəsində yaşayan şerləri Daşdəmir ağa mənə aşıq Nurəddin Qasımlının boxçasından yazıb göndərib.

GETDİ

Borçalı mərdi Səməd
bəyin ölümünə

Ay ariflər, gəlin sizə söyləyim,
Səməd bəy namında hökmü xan getdi.
Qazax, Şəmsəddin, külli-Borçalı,
İgidlər içində bəlli can getdi.

Meydana girəndə edərdi çəngi,
Apardı ayağını polad üzəngi.
Gəzdi Alosmanı, gəzdi Firəngi,
Saldı Cəlalıya bir tufan, getdi.

Şennik mədh eyləyib çəkdi dastana,
Yaysın sorağını, yaysın hər yana.
Rüstəm tək səs saldı bütün cahana,
Heyif, əlimizdən qəhrəman getdi.

Məni

Ay qoruqçu, sən Allahı sevirsən,
Cəbr edib salmaynan azara məni.

Asdvasdı, Xristosu sevirsən,
Cəbr edib salmaynan azara məni.

Söylə görüm, nədir aşığın suçu,
Məryəm ana olsun sizə duaçı.
Sevirsən kilsəni, sevirsən xaçı,
Cəbr edib salmaynan azara məni.

Mən Şenniyəm mayıl oldum gülümə,
Təbib olan qulluq edər pirinə.
Məkanım Çıldırdı, göndər yerimə,
Cəbr edib salmaynan azara məni.

BƏYİM

Dilbilməz yağının cənginə düşdüm,
Bizi daşdan-daşa saldılar, bəyim.
Arif məclisində ilham alardıq,
Bizdən də xərac aldılar, bəyim.

Dedim, Səməd bəydi sərdarın özü,
Deyərəm eşidər, öldürər sizi,
Çox yalvardım, eşitmədilər bizi,
Bizi də yalançı saydılar, bəyim.

Tək sənsən Şenniyin öz havadarı,
Sizin üçün gəldim bu yana sarı.
Viran Şulaverin qoruqçuları,
Paramı, heybəmi çaldılar, bəyim!

NURU PAŞANIN QAFQAZ YÜRÜŞÜ

Tanrımızdan başqa güvəndiyimiz xalqımıza Nuru paşanın açdığı hərbi məktəbin məzunları olan zabitlərimizə, Bakının azad olunmasında yanbayan vuruşub böyük qardaşlarından təcrübə almış gənc ordumuza güvənərək yaşamaqda idik.

Qədirbilən Azərbaycan xalqı yardımına gələn türk qardaşlarına, gomandirlərinə, əsgərlərinə olan minnətdarlığını qəlbinin dərin guşəsində saxlamaqda və tarixə qeyd edib nəsildən-nəsilə yaşatmaqdadır.

Nağı bəy Şeyxzamanlı,

Azərbaycan hökumətində
əks-kəşfiyyat idarəsinin rəisi.

- Nuru paşa ilə Əşrəf bəyin görüşlərindən hekayətlər.
- Nuru paşanın xilaskarlıq rolu.
- Nuru paşa 1920-ci ilin aprelində bolşevik ordusu Azərbaycanı işğal edəndə bir qrup türk zabiti ilə Dağıstandan keçərək Şuşaya gəlmiş, Qarabağda bolşöviklərə qarşı döyüşlər aparmışdır.

Yuxarı Qarxunun girəcəyində hündür bir yer var. Adına Domba yeri deyirlər. İyunun ilk günləri idi, Şirvanda istilər çəkilməmişdi. Atlı carçılar kəndbəkənd xəbər verirdilər ki, sabah hamı Qarxuna yığışsın, türk generalı Nuru paşa gəlir, camaatla söhbət edəcək.

Qəbələdən, Göyçaydan, Şəkidən, Zərdabdan və Aran Qarabağdan gələn ağalar, bəylər, süvari dəstələri ilə ayrıca dayanmışdılar. Bir az aralıda mehtərlər onların tərli atlarını gəzdirirdilər.

Günortaya azca qalmış Yevlax yolunda sonu görünməyən qoşun peyda oldu. Öndə gələn tunc rəngli süvarilər eyni rəngli yarımqol sətin köynəkdə idi: onların qıvraq bədənlərinə çalın-çarpaz pulemyot lentləri salınmışdı. Dalısınca nizamla hərəkət edən piyadaların süngüləri yerişin ahəngilə Günəş işığında gah parlayır, gah da yox olurdu. Qoşunun yerişindən, araba təkərlərindən boğucu toz dumanları qalxırdı. İkitəkərli arabalar güllə yeşikləri, tüfəng, pulemyot və ərzaqla yüklənmişdi. Rotalar arasında iki atın yorğun-yorğun çəkib apardığı arabalara toplar qoşulmuşdu. Dəmir körpüdən ta Qarxuna kimi, yolun o tay bu tayında dayanan izdiham ordunu sevinclə qarşılayırdı.

Öndəki süvaridən beş-on addım qabaqda gedən dörd atlı şirin-şirin söhbət edirdi. Qafqaz İslam ordusunun komandanı Fəriq Nuru paşa, Ərəş mahalının bəylərbəyi Əşrəf bəy Qarxunlu, ordunun hərbi müşaviri Ağaoğlu Əhməd bəy və Azərbaycan hökumətinin əks - kəşfiyyat idarəsinin rəisi Nağı bəy Şeyxzamanlı. Oynaq at üstündə qədd - qamətli Nuru paşa vüqarla oturmuşdu. O, gah Nağı bəy Şeyxzamanlı ilə, gah da Əşrəf bəylə şirin-şirin söhbət edirdi. Hiss olunurdu gi, hər ikisilə çoxdan tanışdır. O:

- Nağı bəy, - dedi, - Qazaxdan başlayaraq hər yerdə səni soruşurdum. Elə hey gözüm səni axtarırdı. Ötən il İstanbulda Heydər paşa stansiyasında ayrıldığımızdır. Gəncədə mənə dedilər ki, Yevlağa gəlib Əşrəf bəyin yanında gözləyəcəksen. Nə yaxşı oldu ki, iki dostumu birgə görmək xoşbəxtliyi mənə qismət oldu. Allaha min şükür, Sizi sağ-salamat gördüm, demək səfərim də uğurlu keçəcək.

Əşrəf bəy:

- Paşam, - dedi, bizim torpağa xoş məramla qədəm qoyanı qurbanla, xoş üzlə qarşılayırıq. Pis niyyətlə gələni isə boz üzlü silahla... Bu, bizim babalarımızdan qalma mirasdır. Onu demək artıqdır, biz din və dilbir qardaşıq. Bu ağır günümüzdə bizə hərbi köməklə təşrif gətirmisiniz. Fikir verin, bu yığışanların sevincinə, yayın cırhacırında heç bir silahın gücünə bu qədər əhalini buraya toplaya bilməzsən. Sizin ordunun Qazağa çatmaq xəbərini eşidəndən xalq sevinc içindədir.

Qəlbi kövrək hisslər içində çırpınan Nağı bəy Şeyxzamanlı köksünü ötürüb, atının üstündə bir az da dikəldi; sağa və sola boylanıb:

- İlahi, - dedi, - bu sevinci mənim məzlum xalqıma çox görmə. Ona bu işıqlı istiqlal yolunda xeyir-dua ver.

Yığışan camaatın sevinci yerə-göyə sığmırdı. Yol boyu boğazı qotazlı erkəklər qurban kəsilir, camaat çalıb-oynayırdı. İzdiham dəniz kimi dalğalanır, alqış səsindən qulaq tutulurdu. Ulu Şirvan düzü belə təntənə, təlatüm görməmişdi. Gündə yanıb qaralmış tunc sifətli rəiyyət, kəndli ahəngdar səslə xilaskarı olacaq din qardaşlarını alqışlayırdı. Qarılar, qocalar sevincdən kövrəlib ağlayırdı.

Onlar açıq havada qurulmuş kürsünün yanına çatanda, hazır dayanmış çilovdarlar üzəngini tutdular. Enlikürək, tökmə bədənli Əşrəf bəy qabağa düşüb qonaqları xitabat kürsüsünə dəvət elədi. İzdihama baxanda özü də çaşıb qaldı. Gur və məğrur səslə:

- Camaat, - dedi, - çoxdan gözlədiyimiz qardaşlarımıza qovuşduq.

Hamı sakitləşib diqqət kəsildi. Bayaqkı qarma-qarışıq səslərdən əsər-əlamət qalmamışdı. Ani olaraq nəfəs dərən Əşrəf bəy bir az toxtadı. Gözlərini ümidlə onlara zilləyən adamlar sıx-sıx dayanmışdılar. Bu dərin sükutu bir az aralıda otlayan atların fınxırmaları, kəsik kişnərti pozurdu.

- Yüz ildən çox gavurlar bizim qanımızı sordular, var-dövlətimizin çox hissəsini əlimizdən aldılar. İndi din və dil qardaşlarımızla əl-ələ verib yaşayacağıq. Xoş gəlib, gözümüz üstə yeri var türk ordusunun. Onun komandanı general Nuru paşanı alqışlayırıq.

Bir-birinə qarışan alqış səsləri Şirvanın sinəsini yarıb keçən ana Kürə qədər sakitləşmədən uğuldayırdı.

- Bu gün bizim bir xilas yolumuz var. Ancaq özümüz də cavanlarımızdan əsgər toplamalıyıq. Hər birimiz oğlumuzu əsgər verməsək, ordu yaratmasaq, türk qardaşlarımızla çiyin-çiyinə vuruşmasaq, gavur zəncirini yenidən boynumuza salmış oluruq. Bu saat, bu gün bizim ən böyük təhlükəmiz Bakıdan və Zəngəzurdan başlayaraq, rusla birləşib millətimizi qıra-qıra gələn erməni daşnaklarıdır. Onların qabağına çıxmaq üçün cavanlarımız silaha sarılmalıdırlar. Şərqin müdrik şairi şeyx Sədi Şirazi demişdir:

Oğlunu yanında bəsləsə hər kəs,
Övladı hərb vaxtı döyüşə bilməz.
Bərkdən-boşdan çıxıb güləşən ərlər,
Döyüşdə göstərər böyük hünərlər.
Naz-nemət içində bəslənən insan,
Qorxar hərb zamanı görəndə meydan.

Gəlin ulu müdriklərin vəsiyyətinə əməl edək.

Əşrəf bəy çiyninə toxunan əldən geriyə döndü. Arxasında general Nuru paşa dayanmışdı. O gülümsəyib:

- Müdrik şerə görə çox sağ ol, - dedi. Əşrəf bəy bir addım sola çəkilib, - buyurun, - dedi, - paşam.

Nuru paşa izdihama göz gəzdirib bir anlıq sakitcə dayandı. Əlini məxmər kimi yumşaq Şirvan xalçasının üstündə gəzdirdi. İnsan axını həyəcanla onun dinməsini gözləyirdi. Hiss olunurdu ki, təntənəli qarşılama, alqışlar Nuru paşanı kövrəldib.

- Mənim qan qardaşlarım, - dedi, - şəfəqlərindən nur daman Azərbaycana gəldiyim üçün özümü xoşbəxt sanıram. Osmanlı torpağından tərpənən gündən dayanmadan, durmadan irəliləmişik. Biz yaxşı bilirik ki, sizin bizdən başqa ümidiniz yoxdur. Məstəvsiz erməni xalqınıza qənim kəsilib. Biz sizə köməyə gəlmişik. Bizə ən əvvəl sursat daşımağa at və araba ilə kömək edin, qalanı ilə işiniz olmasın. Əsgəri qüvvəmiz kifayət qədər var. Hələ üç ay bundan öncə mən Gəncəyə üç yüzə yaxın yaxşı təlim görmüş zabit heyəti göndərmişdim. Onlar dostum Əliağa Şıxlinskinin və polkovnik Süleyman bəy Əfəndiyevin rəhbərliyi ilə zabit məktəbi açmışlar. Bu günlərdə həmin məktəbin ilk buraxılışı olmalıdır. Bayaq dostum Əşrəf bəy qeyd elədi ki, sizdən də əsgər toplanmalıdır. Həqiqətən də əsgəri olmayan xalq kimə və nəyə gərəkdir. Əlbəttə, bizim bir türk bölüyünün, heç olmasa, on-on beş qara papaq əsgəri sizdən olmalıdır. Çünki onlar öz torpağının hər dağına, cığır və yoluna bələddirlər.

Mənim din və dilbir qardaşlarım, imkanı olanlar əlindən nə gəlirsə, Allah tərəfindən verilən zəkat köməyini də əsirgəməsin. Çünki siz başqasına yox, sizi qoruyana kömək edirsiniz. Mən və mənim əsgərlərim bura düşmənlə döyüşməyə, gavurları silib bu torpaqdan atmağa gəldik. Biz dönməyə yox, ölməyə gəldik. Sayca az olsada, sizin Azörbaycan Əlahiddə Korpusunda döyüş havasına alışmış komandirləriniz var. Adını, şöhrətini hələ ötən il Qarsda ikən eşitdiyim general Əliaqa Şıxlinski ilə, podpolkovnik Həbib bəy Səlimovla Gəncədə görüşümdən çox məmnun qaldım. Sizin sevincinizi mən yaxşı duyur və buna qəlbən sevinirəm. "Bizim Türk ordusunu Qazaxda sizin azərilər tarixdə görünməmiş bir sevinc və səmimiyyətlə qarşıladı"[36].

Gəncədə, Qarabağda bu səmimiyyətin, sevincin təntənəsi daha çox idi. Gəncə camaatı bir nəfər kimi Artilleriya meydanına - bizim görüşümüzə gəlmişdi. Ötən müharibədə, bilirsiniz ki, ruslar Türkiyənin şərq vilayətlərini işqal etmişdi. O vaxt Gəncənin "Cəmiyyəti-Xeyriyyə"si qardaşlıq naminə o ərazidə sahibsiz qalan uşaqları yığıb gətiribmiş. Hömin uşaqlar da meydanda idilər. Onlar əsgərlərə yanaşır, əl-ayaqlarına sarılır ve haralı olduqlarını soruşurdular. Birdən bərk qışqırıq və ağlaşma qopdu. Doqquz yaşında Sarıqamışlı bir oğlan bizim əsgərlərdən olan atasını tanımışdı. Ətrafdakılar dözə bilməyib sevinc yaşı axıdırdılar. Biz bu yaxşılığı heç vaxt unuda bilmərik. Bu təsirli səhnə indi də gözümün önündən silinmir.

Yenə deyirəm, arxayın ola bilərsiniz, kifayət qədər hərbi gücümüz var. Sizin qarşınızda and içib deyirəm ki, Bakını hücumla alacaq, oranı rus-erməni və sentrokaspi qüvvələrindən təmizləyəcəyik.

---

[36] Sitat türk podpolkovniki Rüşdü bəyin "Bakı yollarında" hərbi məcmuəsindən götürülüb, 1934-cü il, Istanbul, səh. 24-25

NURU PAŞA HAQQINDA
BİR NEÇƏ SÖZ

Azərbaycan xalqı, ziyalılar, xüsusilə bəy və ağalar Türkiyə ordusunu, onun komandanı general-leytenant Fəriq Nuru Paşanı Gəncə və Yevlaxda böyuk sevinclə, mehmannəvazlıqla, duz-çörəklə qarşıladılar. Onun gəlişinə təntənəli nitqlər söylədilər. Məmməd Əmin Rəsulzadənin etirafına görə, musavat əks-kəşfiyyatı Nuru paşanı "göydən enmiş xilaskar-mələk" kimi qarşıladı.

Süvari podpolkovniki Mustafa Nuru paşa 1889-cu ildə İstanbulda hərbçi Əhməd Tofiqin ailəsində anadan olub. Onun atası Əhməd paşa əslən Rumelidən idi. İlk hərbi təhsil almaq üçün Nuru paşa 1906-cı ilin noyabr ayında Quru qoşunları hərbi məktəbinə girib. 1909-cu il avqustun iyirmi altısında Quru qoşunları hərbi məktəbini leytenant rütbəsində bitirib və xidmət üçün üçüncü ordu komandanlığına göndərilib. 1910-cu il yanvarın doqquzunda padşaha məxsus piyada bölüyünə təyin edilib.

1912-ci il oktyabrın on doqquzunda Nuru paşa birinci korpusun altıncı alayının birinci taburunun üçüncü bölüyündə baş leytenant rütbəsində qulluq edib. O, 1913-cü il noyabrın iyirmi altısında kapitan rütbəsinə yüksəlib. 1914-cü il iyulun on beşində Türkiyənin Vyana səfirliyinin Attaşeliyinə və həmin il avqustun on beşində hərbi Attaşenin yavərliyinə təyin edilib.

Trablusqərbdə[37] italyanlara qarşı aparılan müharibələrdə göstərdiyi qeyrətli çalışmalara görə padşahın əmrilə 1916-cı il sentyabrın iyirmi dördündə mayor rütbəsilə təltif olunub. Yenə də Trablusqərbdə italyanlara qarşı apardığı müharibələrdə göstərdiyi qeyrətli çalışmalar və oradakı hərbi bölmələri məharətlə idarə etdiyinə görə, 1918-ci il martın üçündə padşahın əmrilə ona podpolkovnik rütbəsi verilib. Qərbi Afrika qrupları komandanlığının mərkəzi olan Mistratada xidmət edən podpolkovnik Nuru bəy Trablusqərbə göndərilmək üçün İstanbula gəlib.

Ənvər paşa Azərbaycanı və Dağıstanı xilas etmək üçün qörargah təşkil edəndə, Qafqaz İslam Ordusu Komandanlığına podpolkovnik Nuru bəyi dəvət elədi. Padşah, yaveri Nuru bəyə növbədənkənar genaral-mayor rütbəsi verdi.

Nuru paşa 1918-ci il martın iyirmi beşində Mosula gəldi. Altıncı ordudan təşkil olunan zabitlərlə birlikdə 1918-ci il aprelin səkkizində Azərbaycana getmək üçün Mosuldan yola düşdülər. Həmin il mayın iyirmi beşində Qafqaz İslam Ordusunu yaratmağa başladı. 1918-ci il iyulun on yeddisindən sentyabrın on

---

[37] Antanta dövlətlərilə sultan Türkiyəsi arasında imzalanan Mondros barışığından sonra Türkiyə silahı dərhal yerə qoymalı вə öz taleyini qalib dövlətlərin - Antantanın ixtiyarına verməli oldu. Bundan sonra Antantanın oyncağına çevrilən sultan Türkiyəsinin bir çox hissəsini ingilislər, fransızlar işğal etdilər. Türkiyə parçalanmaq təhlükəcində qaldı. - müəl.

dördünədək bir sıra uğurlu döyüş əməliyyatı apararaq işğal altında olan Azərbaycan torpaqlarını azad etdi. Həmin il sentyabrın on beşində Nuru paşanın qoşunları Bakını aldı.

1918-ci il oktyabrın otuzunda imzalanan Mondros barışığından sonra Osmanlı qüvvələri Azərbaycandan çıxarıldı.[38]

Nuru paşa istiqlal savaşında Şərq cəbhəsindəki on beşinci nizami ordudan on ikinci diviziyanı yaratdı. İstiqlal savaşından sonra 1923-cü il oktyabrın dördündə Nuru paşa təqaüdə çıxdı. Savaşın sonunda İstanbulda yaşamış və cümhuriyyət dövründə sənaye sahəsində çalışmışdır. O, İstanbul yaxınlığında poladəritmə zavoduna rəhbərlik etmişdir.

İkinci Dünya müharibəsi illərində İstanbulda ordu üçün minaatan və əl qumbarası istehsalı ilə məşğul olmuşdur. Nuru paşa 1949-cu ildə zavodda baş verən partlayışdan həlak olmuşdur.

Xalqımızın xilaskarı Nuru paşa çətin və əzablı hərbçi ömrü yaşamışdır. İgid sərkərdə qeyri-adi bacarığına görə iyirmi doqquz yaşında general-leytenant kimi fəxri rütbəyə layiq görülüb. Bu yaşda, belə yüksək rütbə hərb aləmində nadir adamlara qismət olur. Döyüşən ordu general-leytenantı Nuru paşanın qəlbi həmişə Azərbaycanla döyünmüş, din və dilbir qardaşlarını bolşevik-daşnak istilasından xilas etmək üçün əzmlə çalışmışdır. Nuru paşa 1920-ci ilin aprelində bolşevik orduları Azərbaycanı işğal edəndə bir qrup türk zabiti ilə Dağıstandan keçərək Şuşaya gəlib, Qarabağda bolşeviklərə qarşı döyüşlər aparıb. O, Tərtər, Ağdam, Bərdə və Zaqatalada xalqı istilaçılara qarşı üsyana qaldırıb.

General Nuru paşanın Qafqaza qısa müddətli hərbi yürüşü onun ömründə yaxşılı-yamanlı izlər qoyub.

Azərbaycan Mərkəzi Dövlət Arxivində "tamamilə məxfidir" qrifilə saxlanan bir sənəd var. Bu teleqram-sənəd 1919-cu ildə Yevlax Cəmiyyətinin üzvləri tərəfindən Azərbaycan Cümhuriyyətinin Parlamentinə vurulub. Teleqramdan məlum olur ki, Azərbaycanı sidq ürəklə sevən, onun xilası və azadlığı uğrunda yorulmadan çalışan general Nuru paşa Mondros sülh bağlanışından sonra da Azərbaycanı tərk etməmişdir. Qafqazın ayrı-ayrı bölgələrində gizlin də olsa çalışmışdır. Teleqramda deyilir: "Keçən il anarxiya nəticəsində baş vermiş ağır günlərdə Nuru paşa Azərbaycanda peyda olmuşdur. O, özünün ədalətli və bacarıqlı hərəkətləri ilə böyük təhlükənin qarşısını ala bilmişdir.

Yalnız onun bu ədaləti və bacarığı sayasində millətlər arasındakı milli müharibə dayandırıldı. Biz azad nəfəs almağa başladıq.

Lakin bizə çatan kədərli məlumata görə sevgi və təşəkkürə layiq olan bizim xilaskarımız xəbis adamların yaydıqları iftiralar nəticəsində həbs olunmuşdur. Vətənimizin sülh şəraitində yaşaması belə nadürüstləri qane etmir.

Biz Yevlax Cəmiyyətinin üzvləri, Parlamentdən xahiş edirik ki, general Nuru paşa təcili olaraq həbsdən azad edilsin. Bununla da qəhrəmanımız Nuru paşanın qəlbi edilən qəsdlərdən xilas olsun.

---

[38] Azərbaycan Respublikasının 1918-20-ci illərdə Batum şəhərindəki baş konsulu Mahmud bəy Əfəndiyev - müəl.

Hörmətlə: Yevlax Cəmiyyətinin üzvləri: Molla Əli Musazadə, İsa bəy Qarabəyov, Əşrəf bəy Tağıyev-Qarxunlu, İsfəndiyar İsmayılov, Aslanov, Qamboy ağa Quliyev-Qaramanlı, cəmisi 27 imza".

Tarixi sənədlərdən və Cümhuriyyətin görkəmli şəxsiyyətlərinin xatirələrindən məlum olur ki, general Nuru paşa Azərbaycan uğrunda həyatı bahasına mübarizə aparmışdır. 1918-20-ci illərdə Azərbaycan əks-kəşfiyyat idarəsinin rəisi Nağı bəy Şeyxzamanlı "Azərbaycan istiqlal mücadiləsi xatirələri" kitabının 85-ci səhifəsində bu barədə geniş məlumat verir. O yazır:

"Günlərin bir günü Gəncədə idim. Eşitdim ki, ingilislər Nuru paşanı tutub Batuma gətiriblər. Orada ingilis hərbi tribunalına verəcəklər. Buna səbəb də guya Bakının azad olunması vaxtı erməni qırğını törədilməsi idi. Tez Bakı ilə telefon danışığı apardım və xəbərin doğru olduğunu öyrəndim. Gəncə ermənilərindən bir arayış almaq lazım idi ki, Nuru paşanın Gəncəyə gəlişində ermənilərə heç bir pislik etmədiyi kimi, erməniləri mühasirədən qurtarıb hürriyyət verdiyini, həyatlarını təhlükəsizlik altına aldığını, bu yaxşılığa qarşı ermənilərin bir heyət göndərərək Nuru paşaya təşəkkür etdiklərini isbat etmək mümkün olsun. Arayışın alınması üçün Gəncənin görkəmli ziyalıları ilə bərabər erməni milli təşkilatına müraciət etdim. Arayışı alacağıma qəti şəkildə inanırdım, çünki həqiqət barədə arayış istəyirdim. Ancaq ermənilər xahişimizi rədd etdilər və dedilər: "Biz uşaq deyilik. Çox yaxşı bilirik ki, əgər Gəncədə erməni qırğını törədilsəydi, Bakının tutulması vaxtı orada bir nəfər erməni belə qalmayacaq idi. O gözlədi ki, Bakını tutub oradakı qırğını bitirsin və ondan sonra bizi qırsın. Ancaq mütarikə (**barışıq - Ş.N**.) oldu, Osmanlı ordusu qırğına vaxt tapa bilmədi".

Biz əliboş geri qayıtdıq. Bakıya gəldim, mərhum Nəsib bəylə (**Usubbəyov - Ş.N**.) görüşərək arayışı almadığımı və çox kədərli olduğumu söylədim. Nəsib bəy dedi: "Bəli, mən səni heç bu qədər kədərli görməmişdim". Mən də dedim: "Nəsib bəy, ermənilər çox naşükürlük etdilər. Nuru paşa üçün haqlı olan arayışı mənə vermədilər". Nəsib bəy gülərək dedi: "Üzülmə, Nuru paşanın azad olunmasının daha asan yolu var. Batumdan xəbər aldım. Hopa bəyləri plan hazırlayıblar. Nuru paşanı basqın ilə qurtaracaqlar. Ancaq pula ehtiyacları var. Sən iki min manat pul götürüb Batuma get". "Əmr et, pul versinlər, axşam yola düşüm", - sevinərək dedim. Pulu alıb Batuma gəldim. Azərbaycan konsulu doktor Mahmud bəylə görüşdüm. Məsələni ona anlatdım və soruşdum. Doktor dedi ki, imkan yoxdur. Ancaq Mürsəl paşa ilə görüşə bilərsən. İngilis komandanlığında nəzarət altındadır. Mən tez gedib Mürsəl paşa ilə görüşdüm. Mürsəl paşa dedi: "Aman, mənə bir şey etməyəcəklər. Ancaq Nuru paşanı edam edəcəklər. Onun qaçırılmasının yolunu tapın". Mürsəl paşa gizli saxladığı bir kağızı mənə verdi. Aldım, oxudum. Bu bəyannaməni Almaniyadan göndərmişdilər. Paşa dedi: "Bunu çoxaldıb İslam dünyasına dağıtmaq. İslam dünyasını böyük cihada çağırmaq. Qurtuluş bundadır, başqa çıxış yolu yoxdur". Onu dinlədikdən sonra dedim: "Ay paşam, bu, bir mərsiyədir. Çox təsirli yazılıb, bu yanıqlı sözlərə ancaq göz yaşı ilə cavab verilir. İslam dünyasında birlik yox, qüvvə yox və olmayacaq. Olsa da bir şey çıxmayacaq. Allahıma inandığım kimi inanıram ki, Türkiyənin bir türk kəndində olan qeyrət, iman, Vətənə, dinə bağlılıq müraciət etdiyimiz İslam dünyasında yoxdur. Bu, boş işdir. Varlıq, qüvvə yalnız milli imandır". Bəyannaməni kimə oxudumsa, hamısı

mənimlə eyni fikirdə oldu. Mən Bakıya geri qayıtdıqdan dörd gün sonra Nuru paşa ilə Bakıda görüşdük”.

Türkiyənin Quru qoşunlarının hərbi arxivindən aldığımız rəsmi sənəddə igid sərkərdə Fəriq Mustafa Nuru paşanın ümumtürk dünyasında göstərdiyi xidmətlərinə görə təltif olunduğu orden və medallar da göstərilmişdir.

1. 1916-cı il, iyulun iyirmi doqquzunda Almaniya imperatorluğu tərəfindən “Dəmir Salib” medalı ilə;

2. 1916-cı il noyabrın iyirmi ikisində Trablusqərbdəki qeyrətli döyüşlərinə görə “Altın Ləyaqət” medalı ilə;

3. 1917-ci il martın on ikisində padşahın qərarı ilə Trablusqərbdəki qeyrətli döyüşlərinə görə vaxtından əvvəl hərbi rütbə verilmişdir.

4. 1917-ci il aprelin üçündə Qərbi Afrika hərbi qruplarına komandanlıq etdiyinə görə Avstriya-Macarıstan dövləti tərəfindən üçüncü dərəcəli fəxri əsgəri fərqlənmə nişanı verilmişdir.

5. 1917-ci il iyunun iyirmi beşində Trablusqərbdəki döyüş xidmətlarinə və hərbi birliklərə əla komandanlıq etdiyinə görə padşahın qərarı ilə “Altın-imtiyaz” medalı ilə mükafatlandırılmışdır.

6. 1918-ci il fevralın altısında üçüncü dərəcəli “Osmani” ordeni ilə (qılıncla birgə) təltif olunmuşdur.

7. 1918-ci il avqustun altısında birinci dərəcəli “Məcidiyyə” ordeni ilə (qılıncla birgə) təltif olunmuşdur.

8. Sarıqamış hücumunda könüllü olaraq on ikinci diviziyaya komandanlıq etdiyinə görə 1929-cu il yanvarın on altısında 15260 saylı “İstiqlal” medalı ilə təltif olunmuşdur.

* * *

1918-ci ilin noyabr ayında podpraporşiklər məktəbinin ilk buraxılış təntənəsində Azərbaycan hökumətinin nümayəndələri ilə birgə Qafqaz müsəlman ordusunun baş komandanı Nuru paşanın atası Hacı Əhməd paşa da iştirak etmişdir. O vaxt həmin təntənədə çıxış edən Azərbaycan xalq təhsili naziri Nəsib bəy Usubbəyov Hacı Əhməd paşaya müraciət edərək demişdir:

- Zati-aliləri! Sizin şanlı oğullarınız Ənvər paşa və Nuru paşanın adları nəinki təkcə Azərbaycanın, eyni zamanda bütün Türk xalqlarının yaddaşında həmişəlik qalacaqdır. Belə qəhrəmanların atasının başını dik tutmağa və xoşbəxt olmağa haqqı var. Sizin kimi atalar azdır. Allah Sizi və oğullarınızı hifz eləsin və Sizin illər boyu köməyiniz olsun.

Türklərin köməyi ilə açılan Gəncə podpraporşiklər məktəbinin buraxılışı günündə on dördüncü Çanaqqala diviziyasının komandiri, polkovnik Nazim bəy də çıxış edib üç ay müddətində azərbaycanlı gənclərin qazandıqları müvəffəqiyyətə görə xalqımıza öz sevincini bildirmişdir:

- Cənablar, Azərbaycanın həyatında bu gün ən xoşbəxt gündür. Biz - sizin uzaqdan gəlmiş qardaşlarınız sizin istedadınız qarşısında baş əyirik və sizi bu günkü ana görə yox, ən çox əldə edilmiş parlaq gələcəyinizə görə təbrik edirik. Mən şəxsən müharibə tərəfdarı deyiləm, amma belə bir söz var: “Əgər sülh

istəyirsənsə, müharibəyə hazırlaş”. Ona görə ki, əgər ölkə güclüdürsə və müharibəyə hazırdırsa, onda heç kəs cürət edib onun üzərinə hücuma keçə bilməz. Cənablar, mən çox şadam ki, siz hərbi işi öyrənmisiniz və əminəm ki, Azərbaycanın şanlı və zəhmətsevər zabitləri olacaqsınız, lazım gəldikdə öz ölkəmizin mənafeyini qorumağı bacaracaqsınız. Bunun üçün güclü ordu lazımdır və ümid edirəm ki, onun yaranmasında siz öz gücünüzü əsirgəməyəcəgsiniz. Mən ölkəni bir də ilk buraxılış münasibətilə təbrik edirəm və inanıram ki, gələcəkdə siz Vətənin iftixarı olacaqsınız (hər iki çıxış “Azərbaycan” qəzetinin (rusca) 8 noyabr 1918-ci il tarixli sayından götürülüb).

* * *

Nuru paşa ikinci gün idi ki, general Əliağa Şıxlinski ilə Göyçaya getmişdi. Müsüslü, Bərgüşad və Göyçay uğrunda döyüşlər gedirdi. Onuncu Qafqaz alayının komandiri Osman bəydən həyəcanlı xəbər alınmışdı. İyunun on yeddisində Göyçayın qərbində vuruşan alay iki yüz nəfərdən çox itki vermişdi. Günah döyüşçülərdə deyildi. Şamaxı və Ağsudan enib gələn bolşeviklərin hərbi qüvvəsinin qəfil zərbəsinə məruz qalmışdılar. General Şıxlinskinin təklifilə dörd yüz nəfərlik Azərbaycan süvarisi və Ərəş alayından bir vzvod Osman bəyə köməyə göndərildi. Nuru paşa gecədən xeyli keçmiş Yevlaxa qayıtdı. Məqsədi sabah axşam üstü Gəncəyə getmək idi.

Dan üzü ağarar-ağarmaz avtomobil Əşrəf bəyin Qarxundakı həyətinə çatdı. Küləfirəngidə yatan bəy maşının səsini eşidib dərhal yataqdan qalxdı, geyinib aşağı düşdü.

- Sabahın xeyir, paşa. Cəbhədə vəziyyət necədir?

- Yaxşıdır, narahat olmağa dəyməz.

- Keçin evə, bir az istirahət edin, yol gəlmisiniz.

Nuru paşa geriyə - Kürə tərəf boylandı, Baxışlarını bir xeyli oradan çəkmədi. Əşrəf bəy də Kürə tərəf baxdı, amma ins-cins görmədi.

Nuru paşa yorğun-yorğun:

- Bəy, - dedi, - yol boyu yaxşıca mürgüləmişəm. İki gündü Şirvanın tozu-torpağı canıma hopub.

Əşrəf bəy dərhal onun fikrini başa düşdü. Darvazanın yanında dayanan oğlu Knyazı çağırıb nəsə dedi. Üzünü Nuru paşaya tutub:

- Biz gedək, paşam, - dedi, uşaq da dalımızca gəlib özünü bizə yetirər.

Yarı yolda onları haqlayan Knyaz iki can dəsmalını atasına verib qayıtdı.

Yarğanın başına çatanda hər ikisi dayandı. Gah sağa, gah da sola dönüb çay boyunca baxan Nuru paşa köksünü ötürdü.

- Nə qılınc çalmalı sudur.

- O nə deməkdir, paşam. Suya qəzəbin var?

- Yox, suya hirslənmirəm. Belə dərin çaylara məhəbbətim var. Bu ağır nəhri gördüm, uşaqlığım yadıma düşdü. Bilirsən, atam Əhməd bəy biz qardaşlara balaca olanda qılınc çalmağı suda öyrədib. Özü sahildə dayanar, bizi isə dizə qədər suya salıb, əlimizə də qılınc verərdi, əlbəttə, qılınc balaca olardı. Sağı-solu və qarşını döyəcləyə-döyəcləyə “düşmənə” qılınc çalmağı öyrənərdik. Kəl belində, at üstündə

Ənvərlə o tay-bu taya keçərdik. Mən Ənvərə çata bilməyəndə hirsimdən ağlayırdım, qardaşım məni bağrına basıb toxdadardı. İndi harda belə əzəmətli çay görürəmsə, elə bilirəm onda qolumun gücü, qəlbimin məhəbbəti var.
Əşrəf bəy məhəbbət dolu nəzərlərlə ona baxıb gülümsündü:

- Böyük Füzuli, - dedi, - sağ olaydı, sizin bu qeyri-adi, qəribə məhəbbətinizi tarixə salardı.

- Bu dan üzünün saflığında nə yaxşı elədin aydan arı, sudan duru Füzuli babamızı xatırladın. Bəy, mənə elə gəlir, hər bir türk oğlu ilk məhəbbətilə yanaşı, qəlbində Füzuli babamızın da sevgisini yaşadır.

- Paşam, xəbəriniz var, Füzuli İraqın Kərbəla şəhərində doğulsa da, atası müfti Süleyman əfəndi bizim Ərəşlidir. Hətta bəzi məlumatlara görə, şairin oğlu Fəzli atasının ölümündən sonra bizim Ərəş mahalına qayıdıb, qohumlarının yanında yaşamışdır.

Nuru paşa Əşrəf bəyin çiynini qucaqlayıb iri, yorğun gözlərini təəccüblə açdı.

- Bu, rəvayətdir, yoxsa özün elə indicə uydurdun. Sırağa gün məclisdə də gördüm, müğənnilərinizelə hey Füzulidən oxudu, Sən də babamız Füzulidən böyük şövqlə şerlər deyirdin.

- Paşam, mən sözümün əvvəlində dedim ki, bəzi məlumatlara görə... Bizim Ağdaşda Çələbilər nəsli var. Bu nəslin qocaları deyir gi, Fəzli onların məhəlləsində yaşayıb. Bir də ki, paşam, narahat olmağa dəyməz, böyük Məhəmməd Füzuli nə sizindir, nə də bizim. O, bütün türk dünyasında şer-sənət soltanıdır.

- Bax, bu fəhminə əhsən, bunu gözəl dedin, bəy. Füzuli böyük türk dünyasının şer-sənət soltanıdır.

Kefi durulan paşa dostunun dirsəyinə toxundu. Aşağı, çaya düşmək işarəsi verdi. Yarğanı enib çaya çatana kimi üç - dörd dəfə: “Füzuli şer-sənət soltanıdır” deyə öz-özünə təkrar etdi.

Dostunun onun sözlərinə qiymət verməsindən məmnun olan Əşröf bəy:

- Amma bir məsələ də var, - dedi. Bizdən bir az əvvəlki və bizim nəsil gün çıxandan gün batana kimi olan türk dünyasını qoruya bilmədik.

- Bunu nə mənada deyirsən, Əşrəf bəy?

- O mənada ki, görün bir nə gündəyik. Bizi yüz iyirmi il əvvəl sarı ruslar parçalayıb. Yarımız o tayda - İranda, - daha nə bilim haralarda. Bu saat elə siz də bizim günümüzdəsiniz. Sultan Türkiyəsi Antanta dövlətlərinin əlində fağır bir ölkəyə çevrilib. Deyilənə görə, Sultan Türkiyəsinin Şərq vilayətlərini Rusiya almaq iştahındadır. Suriya tərəfləri Fransa, Mesopatomiya, İzmir və Aydın dəmir yollarının keçdiyi ərazini ingilislər, Anadoluya isə almanlar göz dikib. Bəs bizim taleyimiz necə olacaq? Əgər o boyda Türkiyənin taleyi belə acı olsa, parçalansa, görün biz Azəri türkləri nə günə düşəcəyik. Paşam, bizim ümidimiz, nicatımız sizədir. Siz də ki, bu gündə...

- Sən lap qardaşım Ənvər paşa kimi yana-yana danışırsan. Onun ən böyük arzusu türkçülük, turançılıq uğrunda mübarizə aparmaqdır. İnşallah, vaxt gələr, səni onunla tanış edərəm. Siz qardaşımla eyni fikirdəsiniz, eyni zindana döyürsünüz.

- Hər bir türk oğlunun borcudur ki, birlik uğrunda eyni zindana çəkic vursun.

- Dərd də bundadır ki, bizim yeni padşah olan Sultan Vahidəddin belə düşünmür. Əşrəf bəy, siyasət söhbəti başımızı qatdı, çimməyi unutduq, - deyib paşa suya atıldı... Beş-on dəfə qol atıb üzə-üzə geriyə döndü. - Çıxanda babamız Füzulidən sənə bir məktub oxuyacağam, - dedi. - Yadıma salarsan.

Yarğanın qaşında on iki yaşında bir oğlan uşağı "ata, ata", - deyə qışqırıb əl eləyirdi. Bu, Əşrəf bəyin kiçig oğlu Məhəmmədəli idi.

- Nə olub? - deyə ata aşaqıdan yuxarı qışqırdı.

- Gəncədən qonağımız gəlib, sizi istəyirlər - dedi.

Sudan çıxan Nuru paşa:

- Gedək, - dedi, - yarğanı çıxana kimi məktubu da sənə oxuyaram.

- Onda tələsmə, əl-ayağını qurula, məktubu da tap, oxuya-oxuya yarğanı çıxarıq.

Nuru paşa gülümsünüb:

- Məktub-zad axtarmayacaqam, o burdadır, - deyib əlilə başını göstərdi.

- Yaddaşındadır?

- Bəli, necə bəyəm, ola bilməz?

- Əhsən sənin yaddaşına, qardaş.

- Sən arada siyasi "dərddən" danışdın. Mənim isə hüsni-xəyalım hələ də babamız Füzulidən ayrılmayıb. Sən Çələbi dedin, Füzulinin Bəyazid Çələbiyə yazdığı məktubu xatırladım. Oğlu Fəzli Ərəşə qayıdıb, Çələbilər məhəlləsində yaşayıbsa, burda bir qanuna uyğunluq var. Kim bilir, bəlkə də Füzuli bu nəsillə qohum imiş. Allah onun torpağını pak, yerini behişt eləsin.

- Paşam, çələbilərin dediyinə görə Füzulinin gəlini, Fəzlinin arvadı bu nəsildən imiş.

- Bəy, onda qulaq as, məktubu oxuyum. Füzuli Sultan Süleymanın oğlu şahzadə Bəyazid Çələbiyə yazır:

"Mənə bir məktub, bəlkə çiçəkli bir bağça gəldi. Onun işıqları gözümün nurunu artırdı. O, ən lətif lövhələr üzərinə diqqətlə təsvir edilmiş gözəl bir şəklə bənzəyir. Onun sətirləri, işarələri ulduzlu səmaya oxşayır. Yazıları budaqlar, ibarələri çiçəklər kimidir. O, mərifət fənlərini əhatə edən bir səhifə, nemət budaqları yetişdirən bir bağçadır. Onun gəlişi göz baqçasını çiçəkləndirdi..."

Əşrəf bəylə Nuru paşa mülkə dönəndə, bir qədər sükut içərisində addımladılar. Buna sükut demək olmazdı. İçlərində lal bir haray vardı. Füzuli harayı idi bu: türk qardaşlarım, çiçəkli bağçamızın viranəliyə çevrilməsinə imkan verməyin!

Və onlar sanki bu harayın təsiri ilə addımlarını yeyinlətdilər...

* * *

Türk qoşunları Azərbaycana ilk dəfə iki qrup halında gəlmişdir. General Nuru paşanın təşkil etdiyi birinci qrup 1918-ci il iyunun 7-də, ikinci qrup isə bir gün sonra Qazağa və iyunun 9-da Gəncəyə çatmışdı. Hər iki qrup üçüncü türk ordusunun beşinci Qafqaz diviziyasından seçilmişdi. Gümrü və Qazax istiqamətində hərəkət edən birinci qrupa onuncu Qafqaz alayı, doqquzuncu və on

üçüncü Qafqaz alayına mənsub iyirmi altıncı batalyon, topçu dar batalyonu, istehkam bölüyü, rabitə vzvodu daxil idi. Bu qrupda yüz qırx zabit və iki min səkkiz yüz on iki əsgəri qüvvə vardı.

Lori nahiyəsi boyunca üzüaşarı gələn ikinci türk hərbi qüvvələrinin yolu Cəlaloğlu şəhərindən sonra Sadaxlı, Körpülü, Kəmərli və Aslanbəyli kəndlərindən keçərək Qazağa iyunun 12-də çatmışdır. On üçüncü Qafqaz alayından təşkil olunan bu qrupda güclü dağ topçu batalyonu, yüz on zabit və iki min yeddi yüz altmış üç əsgəri qüvvə daxil idi.

Türk qoşunlarının gəlişini Lenin və Stalina bildirən daşnak Şaumyan həyəcanla Bakıdan yazırdı: "Türklər Qarakilsədən, Dilicandan keçib Ağstafaya çatıblar. Oradan da birbaşa Bakıya yeriyəcəklər. Bağlanan sülh müqaviləsinə əsasən türklər dəmir yolu ilə qoşunlarını Bakıya və Culfaya daşıyacaqlar. Xəbər verirəm: "Hücum başlanmışdır".

Türklərin gəlişindən bərk qorxuya düşən ermənilər 1918-ci il iyunun 30-da azsaylı rus hərbi qüvvələrinə arxalanaraq qəfildən Göyçaya basqın etdilər, Həmin hadisəyə görə türklərə otuz səkkizinci alaydan ibarət yeni qüvvə göndərildi. Alayda altmış beş zabit, iki min dörd yüz yetmiş beş əsgəri qüvvə, dörd güclü dağ topu və bir güclü dağ batareyası vardı.

İyulun doqquzunda ehtiyatda olan üçüncü türk ordusundan üç yüz əlli əsgəri qüvvə seçilib Bərgüşad və Göyçay uğrunda gedən döyüşlərə göndərildi. Beşinci qrup isə polkovnik Nazim bəyin komandanlığı ilə birbaşa Bakı döyüşlərinə çatdırılmışdı. Azərbaycan Əlahiddə korpusu, yerli əhalidən təşkil olunmuş könüllü dəstələr də türk ordusu ilə çiyin-çiyinə vuruşurdu.

Cənub qrupuna azərbaycanlı polkovnik Həbib bəy Səlimov, Şimal qrupuna isə türk polkovniki Osman bəy komandanlıq edirdi.

"Azərbaycan -Türkiyə qüvvələrinin əks hücuma keçməsi bolşevikləri təşvişə saldı. Bakı Soveti iyulun 12-də hərbi səfərbərlik elan etməyə məcbur oldu. Lakin bu tədbir onları məğlubiyyətdən xilas edə bilmədi. Göyçay ətrafındakı şiddətli döyüşlərdə Azərbaycan - Türkiyə birgə qoşunları parlaq qələbə qazanmışdı. Biçeraxovların, avetisovların Qırmızı Orduya köməyə gəlişi zəfər yürüşünün qarşısını ala bilmədi. Göyçaydan sonra Şamaxını yadellilərdən təmizləyən ordu sürətlə Bakıya yaxınlaşırdı" (**A.Rüstəmli, "Azərbaycan ordusu" məqaləsi, "Həqiqət" qəzeti, 2 dekabr 1992-ci il).**

Həmin döyüşlərin iştirakçısı, türk ordusunun podpolkovniki Rüştü bəy 1934-cü ildə İstanbulda nəşr etdirdiyi "Böyük hərbdə, Bakı yollarında beşinci Qafqasiya piyada firqəsi" adlı memuarında verdiyi məlumata görə, türk hərbi qüvvələrinin ümumi sayı on min nəfər olmuşdur. O yazır: "Şamaxının zəbtindən sonra Bakıya yaxınlaşan ordu avqustun 5-də Bakı şəhərinə yapdığı müvəffəqiyyətsiz bir hücum üzərinə on beşinci firqənin kamilən Azərbaycana göndərilməsi üçün müraciət edilmiş və ingilislərin Bakıya İran tərəfindən yardım göndərmələrini nəzərə alaraq Qarakilsədən Bakıya min iki yüz hərbçi, mövcud firqə qərargahı ilə əlli altı və yüz altıncı piyada alayları da gəlmişdi. Bundan başqa, cəbhədə min nəfərlik bir Azərbaycan qüvvəsi, iyirmi makinalı tüfəng, altı top və bir zirehli qatar Hərb edirdi. Əlavə olaraq artan Türkiyə qüvvələrilə bərabər, Azərbaycan qüvvələri də artmış, Qazax, Gəncə, Şəki, Zaqatala, Cavanşir, Ağdaş, Ağdam, Quba, Səlyan,

Göyçay və Bakı ətrafında süvari milis təşkilatı, silahlı könüllü qrupları vücuda gəlmişdi”.

Bu dövrdə Azərbaycan türklərinin vəziyyəti çox ağır idi. İrəvanda, Zəngəzur və Göyçayda rus hərbi qüvvələrinə arxalanan daşnaklar xalqı qılıncdan keçirir, tonqalda yandırır, daşqalaq edirdi. Yüzlərlə kəndi yerlə-yeksan etmişdilər. Bakıda bolşeviklərin və daşnakların fitvası ilə mart qırğını törədilmişdi. Bu qırğında on beş minə yaxın azərbaycanlı öldürülmüşdü. Ölkədə anarxiya, başıpozuqluluq hökm sürürdü.

Martın 20-də Zaqafqaziya seyminin iclasında çıxış edən musavat lideri Aslan bəy Səfikürdski bütün qafqazlıları bolşeviklərə qarşı mübarizəyə səsləyirdi: “Biz Zaqafqaziya hökumətindən xahiş edirik, bolşevizmi məhv etmək üçün özünümüdafiə şurası yaratsın. Biz müsəlman sosialist bloku adından xəbərdarlıq edirik ki, həmişə bolşevizmə qarşı mübarizə etmişik və bu gün də ona hazırıq. Əgər bu barədə ölçü götürülməsə, biz özümüz bolşevizmi məhv edəcəyik... Bizim tarixdə çox qanlar axıdılıb. Tariximiz başdan-ayağa qanla yazılıb. Biz bolşevizmi əzməklə yenə də tariximizi qanlı hərflərlə yazacağıq”.

Musavat hökumətinin nümayəndələri türklərin qardaş köməyinə arxalanmaqdan başqa yol görmədiklərini açıqdan-açığa bildirirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunan gün Tiflisdəki “Oriant” mehmanxanasında Zaqafqaziya Seyminin üzvlərindən biri Fətəli xan Xoyskidən soruşmuşdu:

- Siz Bakıya döyüşə-döyüşə gedəcəksinizmi?

- Bəli, gedəcəyik.

- Siz döyüşlə Bakıya getsəniz, onda bu imperializm üzərinə ilk hücum olacaq. Amma siz o yürüşü təkbaşına edə bilməzsiniz. Siz Türkiyənin və türk qoşunlarının köməyi ilə Bakını düşmənlərdən azad edə bilərsiniz.

“1918-ci ilin iyun-iyul aylarında erməni hərbi hissələri iki istiqamətdə - Göyçay-Ərəş-Nuxa istiqamətində və Kürdəmir-Yevlax-Gəncə istiqamətlərində irəliləməyə başladılar. Lakin daşnak quldur dəstələrinin Yevlağı ələ keçirmək planları baş tutmadı. Ermənilər burada yerli əhalidən təşkil olunmuş könüllü dəstələrin güclü müqaviməti ilə üz-üzə gəldilər.

Daşnakların qarşısının alınmasında o zaman öz igidliyi ilə Qarabağda ad çıxarmış M.Ə.Rəsulzadənin yaxın dostu və məsləkdaşı Qaramanlı Qamboy ağanın, Qarxunlu Əşrəf bəyin, Bərdəli Sarıtel Aslanın misilsiz xidmətləri və qəhrəmanlıqları olmuşdur. Yaranmış real təhlükəni vaxtında dərk edən Qamboy ağa və Əşrəf bəy öz silahdaşları ilə ətraf kəndlərdən qısa müddətdə minlərlə könüllü yığaraq onları silah, sursat, paltar, ərzaq, at-araba və digər ən zəruri şeylərlə təmin edirlər. Az vaxtda Yevlax ərazisində xeyli könüllü və beş min nəfərdən çox süvari dəstə toplanır ki, bu da sonralar Azərbaycan Xalq Cümhuriyyətinin ilk süvari dəstələrinə çevrilmişdir” (**V.İsayev, “Haradan gəlir bu köç” kitabı, Azərnəşr, 1995-ci il, səh. 50-51).**

* * *

Sonrakı tarixi hadisələr də göstərdi ki, Azərbaycan xalqının Türkiyə və türk ordusundan başqa ikinci bir arxası, xilaskarı olmamışdır.

Türkçülüyə dərin ehtiram, sonsuz məhəbbət bəsləyən gənc bir şairə yaşayırdı Bakıda. 1918-ci il sentyabrın 15-də türk qoşunları ilə birgə qalib kimi Bakıya varid olan Azərbaycan əsgərlərini Ümmügülsüm "Ey türk oğlu" şerilə alqışlamışdı:

Ey türk, sən ey qəhrəman,
igid oğlu türklərin,
Şanlı, ulu babanın öyüdünü unutma!
Sən də yürü o yolu, ad çıxarsın
əsgərin,
Ulular ardınca get, başqa bir yolu
tutma!

Yüz illərcə əzildin,
ayaqlandın yetər, keç,
Yüz illərcə ağladın,
eşidilmədi səsin.
Yüz illərcə dərd-sərin duyulmadı
nədən heç,
Sən şimdi oyan, hayqır,
bitməmişkən nəfəsin!

Əsrin əvvəllərində istiqlalımız uğrunda dönmədən mübarizə aparan on doqquz yaşlı Ümmügülsüm böyük öndərimiz Məmmədəmin Rəsulzadənin əmisi qızı idi. "Azərbaycan xalqının öz ruhundan doğan ümummilli bir hərəkat və hadisədən (M.Ə.Rəsulzadə)" sonra başı bəlalar çəkən şairə Ümmügülsüm cəmi qırx beş illik ömrünün çoxusunu Vətəndən uzaqlarda, Mordoviyada sürgündə keçirmişdir. Bu nəcib və vəfadar şairə görkəmli yazıçımız, otuz yeddinci ilin günahsız qurbanlarından biri olan Seyid Hüseynin həyat yoldaşı idi.

Hələ 1919-cu ildə müstəqilliyimizə qəsd etmək istəyən daşnak-bolşevik qəsbkarlarının təhlükəsindən qəzəblənən Ümmügülsüm yazırdı:

Ey buzlu Şimaldan qopan ruzigar,
Toxunma qəlbimə, atəşim parlar.
Sakın, gəlmə, nəfəsim boğar,
Dəf ol, Vətənimdə görməm səni!

Sən ey murdar çöhrə, ey mənhus sima,
Gözümə görünmə, qarşımda durma!
Nifrətim var sənə, mənə yaxlaşma,
Kinlərim məhv edər yaxın gələni!

TÜRKİYƏNİN HƏRBİYYƏ NAZİRİ ƏNVƏR PAŞANIN

BAKININ XİLASI HAQQINDA 1918-Cİ İL SENTYABRIN 16-DA ŞƏRQ ORDULAR QRUPUNUN KOMANDANI XƏLİL PAŞAYA TƏBRİK TELEQRAMI

Bakıdakı uğurlarınıza görə sizin gözlərinizdən öpür və təbrik edirəm. Bakının xilasından sonra Azərbaycanda hələlik bir diviziya saxlayaraq, qalan qoşunları doqquzuncu ordunun sərəncamına vermək istəyirəm. Nuru paşaya Dərbənd, Petrovsk şəhərlərinin ələ keçirilməsi üçün Şimali Qafqaza bir alay, iki batareya və bir pulemyot dəstəsindən ibarət qoşun göndərməyi tapşırdım. Digər tərəfdən, Ənzəli və Rəşt şəhərlərinin işğalı üçün qoşunların Cənuba göndərilməsinə sərəncam verdim və Təbriz - Qəzvin istiqamətində irəliləyən qoşun dəstəsinin Kiçik xana[39] yardım etməsini və bu məsələ ilə əlaqədar Sizinlə görüşməsini tövsiyyə etdim. Tapşırıqların qısa bir vaxtda yerinə yetirilməsini rica edirəm.

Nuru paşa öz qüvvələrini toplayaraq, yalnız bolşeviklərin irəliləməsinin qarşısını almaqla kifayətlənməlidir.

"DİKAYA DİVİZİYA", yoxsa...

Azərbaycanlılar hərbçilik istedadına,
sönməz daxili ruhi zənginliyə malikdirlər.
Belə xalq həmişə qalib gələr.

Alfons RABBE,
fransız tarixçisi.

1930-cu il martın üçündə Zaqafqaziya Dövlət Siyasi idarəsinin qərarı ilə güllələnən Qarxunlu mərdi Əşrəf bəyi müstəntiqlər ən çox 1918-ci ildə "dinc erməni əhalisi"ni qırdığına və həmin ildə Ərəş mahalında döyüşən əsgəri qüvvə təşkil etdiyinə görə günahlandırmışlar. Bu könüllü hərbi qüvvələrin əksəriyyəti o vaxt Birinci Dünya müharibəsindən qayıdan "Tatar süvari alayı"nın əsgər və zabitləri idi. Əşrəf bəy Qarxunlunun özü də 1918-ci ilin iyun-sentyabr aylarında həmin alayın tərkibində Göyçayı, Müsüslünü, Bərgüşadı, Şamaxını və Bakını düşmənlərdən təmizləmək üçün igidliklə vuruşmuşdur.

* * *

[39] Kiçik Xan Mirzə (1881-1921) - Cənubi Azərbaycanın siyasi xadimi. Rəşt, Ənzəli bə Gilan şəhərlərində şah hakimiyyətinə qarşı inqilabi çıxışların rəhbəri. 1921-ci il mayın 8-də yaradılmış Gilan Respublikası yeni hökumətinin - Inqilab Komitəsinin sədri olub. 1921-ci ilin noyabrında bolşeviklərin əlilə Talış dağlarında öldürülüb - müəl.

Bu gün hamını haqlı bir sual düşündürür: 1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan hərbi qüvvələri necə və nəyin əsasında yaranıb? Axı, deyilənlərə görə, bu tarixdən əvvəl azərbaycanlılar əsgəri xidmətə çağırılmırdı...

Bu suallar qarşısında uzun müddət düşünməli olursan. Ona görə ki, bəzi tarixçilərimiz ordunun yaranmasını alqışlayır, digəri onun komandirlərinə tənqidi yanaşır, başqa birisi də yazır ki, 1918-ci ildə ordumuz "könüllülərdən" yaranıb. Mətləb isə açılmır, bu "könüllülər" yerli mülki əhalidən ibarət idi, yoxsa kənardan gətirilmişdi?

Amma ordunun yaranmasında ilkin mənbə kimi bir faktda var ki, tarixçilər ona da ötəri toxunurlar və bu mənbəyə tənqidi münasibət bəsləyirlər. O da Birinci Dünya müharibəsində iştirak edən "Dikaya diviziya"nın azərbaycanlılardan ibarət nizami "Tatar alayı"nın əsgəri qüvvələridir. 1920-ci ildən ta bu günlərimizə qədər sovet rejimində də "Dikaya diviziya"nın fəaliyyətinə tarixçi alimlərimiz tənqidi yanaşıblar. Açılan arxiv qovluqlarında isə bunların tam əksinin şahidi oluruq. Sənədlərlə tanış olanda düşünürsən ki, 1914-cü ildən 1917-ci ilə qədər rus imperiyasını almanlardan, 1918-20-ci illərdə isə Azərbaycanı daşnak-bolşevik əsgəri qüvvələrindən qoruyan və torpağımızın bütövlüyü uğrunda silaha sarılan "Vəhşi diviziya"nın Tatar-Azərbaycan alayı həm bizim, həm də rus hərb tədqiqatçılarının niyə tənqid obyekti olub. Guya sabəbi də ondan ibarətdir ki, "Vəhşi diviziya" 1914-17-ci illərdə çara, 1918-20-çi illərdə isə Azərbaycan Demokratik hökumətinə xidmət edib. Faktlar göstərir ki, Nuru paşanın ordusu 1918-ci ilin iyun-sentyabr aylarında Bakını düşmənlərdən təmizləyəndə onlarla çiyin-çiyinə vuruşan min nəfərdən çox könüllünün əksəriyyəti "Tatar süvari alayı"nın əsgər və zabitlərindən təşkil olunmuşdu. Bəs süvari alayının o vaxtlarda qoruduğu, uğrunda vuruşduğu torpaqlar bizim deyilidmi?

Bəli, bitib-tükənməyən bu suallara cavab tapmağın vaxtı çatıb. Bunu bugünkü müstəqil Azərbaycan və onun yenidən yazılan hərb tarixi tələb edir. Bəzi məqalə müəllifləri ağızdolusu yazırlar ki, Birinci Dünya müharibəsi illərində şovinist ruslar Qafqaz müsəlmanlarından təşkil olunmuş diviziyaya "Vəhşi" adını təhqir mənasında veriblər. Əvvəla, diviziyanın döyüş yolunu təsvir edən sənədlərdə belə fakta rast gəlmək qeyri-mümkündür. Bütün rəsmi sənədlərdə diviziyanın adı belədir: "Kavkazskaya tuzemnaya diviziya" - yəni Qafqazın yerli əhalisindən təşkil olunmuş diviziya, "Vəhşi" ayaması isə cəbhədaşları tərəfindən diviziyaya qeyri-rəsmi verilib. Müharibənin ilk günlərindən diviziyanın apardığı döyüş əməliyyatları uğurla nəticələnmişdir. Diviziya bütün müharibə boyu məğlubiyyətin nə olduğunu bilməyib, hücumları həmişə zəfərlə bitib. Onların döyüş amalı belə idi: "Nə bir addım geri çəkilməli, nə də əsir düşməli". Ona görə də döyüşlərin ən çətin məqamında düşmən mühasirəsini yarmaq üçün bu diviziyanın təcrübəsindən və gücündən istifadə olunurdu.

Tutaq ki, bizdə bəzi məqalə müəlliflərinin dediyi kimi, diviziyaya təhqir mənasında "vəhşi" adı verilmişdir. Bəs, Koroğlu igidlərinə və Dədə Qorqud qəhrəmanlarına "dəli" ayamasının verilməsi necə, onlar həqiqətənmi "dəli" idilər? Əlbəttə yox!

Hər iki ifadədə incə yumor, sevgi, nəvaziş çalarları var. Niyə uzağa gedirik. Bizim müasirimiz, dünya şöhrətli sərkərdə Əliağa Şıxlinski aydan-arı, sudan-duru

olan “Xatirələrim” kitabında yazır ki, bizim nəsil öz cəngavərliyi, tündməcazlıqı ilə qəzada tanınırdı. Qəzada bizi “dəli qazaxlı” adlandırırdılar. Əli Qazaxoğlu içərisində birinci savadlı adam mənim atam idi.

Sual olunur: hərfi mənada başa düşsək, “dəli” olan bir nəsil “artilleriyanın Allahı” kimi oğul yetirə bilərdimi? Onu da unutmaq lazım deyil ki, Şıxlinskilər nəsli Azərbaycan maarifinə, ədəbiyyatına və hərb tarixinə bütöv, sağlam ziyalı nəsil bəxş etmişdir.

Sonralar (**1917-ci ilin noyabrından - Ş.N**.) həmin diviziyanın Tatar (**Azərbaycan - Ş.N**.) süvari alayının əsgərlərindən ibarət ilk dəfə 600 nəfərlik “Müsəlman korpusu” təşkil olundu. 1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan Zaqafqaziya Seymindən çıxdı. Bu dövrdə ölkədə siyasi durum çox qarışıq və mürəkkəb idi. Bolşevik - daşnak silahlı qüvvələri tərəfindən güclü təhlükə yaranmışdı. Məhz Tatar-Azərbaycan alayının qüvvəsinə arxalanıb, əlavə könüllülər toplamaqla həmin il iyunun 26-da “Əlahiddə Azərbaycan korpusu” yaratmaqla Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov Milli ordunun təməl daşını qoydular.

“...Birləşməyə belə bir ad qoşulanda onun məna mərkəzində müsbət bir münasibət dayanırdı və bununla da “Dikaya diviziya”nın məğlubedilməzliyinə işarə ifadə olunurdu. Xüsusən, daşnak və ifrat bolşevik elementləri “Dikaya diviziya”dan danışarkən heç də bu sözü həmin diviziyanın şücaətinə olan heyranlırına görə işlətmirdilər. Belə münasibət elə sovet tarixşünaslığının özündə də mövcuddur. Bir sıra müəlliflər “Dikaya diviziya”dan danışarkən bu ifadənin nəzərdə tutulan mənasını deyil, məhz “dikiy” sözünün leksik mənasını qabartmağa çalışmışlar. Bununla da həmin birləşmənin hissələrinin hərbi keyfiyyətlərinə, Cümhuriyyət Ordusunun özülünü təşkil etmiş qoşun hissələrinin nizam-intizamına bir istehza ifadə olunmuşdur. Həmin diviziya 1917-ci ildə ləğv edilmiş və bununla da onun mövcudluğuna son qoyulmuşdur. Diviziya ləğv edildikdən sonra azərbaycanlılardan və çeçenlərdən təşkil olunmuş Tatar süvari alayının qalıqları Azərbaycana qayıtmış və onun bazasında Müsəlman korpusunun ikinci süvari alayı yaradılmışdı” (M.Süleymanov, “Azərbaycanda “Dikaya diviziya” olubmu?” məqaləsi, “Hərbi bilik”jurnalı, 1998-ci il, №4). Və bu hərbi qüvvələrin özəyi əsasında da 1920-ci ilə kimi Azərbaycan Demokratik Cümhuriyyətinin tərkibi 40 minə yaxın olan Milli ordusu yarandı. Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov kimi iliyinə qədər hərbçi olan generallar ordunun təməl daşının “dəlilər”dən olmasına razı olardımı?

“Müsəlman milli korpusu”nun əsasında Petroqraddan köçürülən “Vəhşi diviziya”nın “Tatar süvari alayı” dayanırdı.

General Əliağa Şıxlinski ümumi komandanlığı qəbul etdi. Tərxis edilmiş rus ordusunun zabitləri də həmin qoşun birləşmələrinə götürüldü. Bu zaman müsəlmanlara üstünlük verilirdi. Bundan əlavə, 1917-ci il çevrilişindən sonra Bakıdakı kadet məktəbində yerli zabit kadrlarının hazırlanmasına da başlandı”[40].

Ayrı-ayrı sənədlər şahidlik edir ki, Birinci Dünya müharibəsi cəbhələrində üç mindən çox sıravi və kiçik rütbəli azərbaycanlı döyüşürdü. Bunlar müharibə

---

[40] Т.Свјатоčевski, "Rusiya Azərbaycanı. 1905-1920-ci illər" məqaləsi.

başlananda səfərbər olanlar idi. Lakin imperiya qoşunlarının tərkibində yüksək rütbəli zabit və generallarımız da az deyildi. Tam artilleriya generalı Səməd bəy Mehmandarov, general-leytenant Əliağa Şıxlinski, süvari generalı Hüseyn xan Naxçıvanski, general Məmmədsadıq bəy Ağabəyzadə, Əsəd bəy və MirkazımxanTalışxanovlar, rotmistr Teymurbəy Novruzov, təyyarəçi Fərrux ağa Qayıbov, praporşik Sayad Zeynalov və onlarla başqa oğullarımız cəbhədə ad-san qazanmışdılar.

1918-ci ildə ölkəmiz ağır və təhlükəli günlərini yaşayırdı. Həmin ilin yanvar ayında Türkiyəyə hərbi yardım üçün gedən Azərbaycan hökumətinin əks-kəşfiyyat idarəsinin rəisi Nağı bəy Şeyxzamanlı Türkiyənin hərbi naziri Ənvər paşa ilə görüşəndə demişdir:

- Paşam, Birinci Dünya müharibəsidə biz azərilərdən dörd general rus ordusunda ordu komandiri olmuşdular. Qonşularımız erməni və gürcülərdən ordu komandiri çıxmamışdır. Yalnız bir gürcü generalı hərbi korpus komandiri ola bilmişdir. Azərilərdən ordu komandiri Səməd bəy Mehmandarlı rus-yapon müharibəsində hərbi korpus komandiri olaraq rus ordusunun ən yüksəg ordenini almışdır. İkinci general Əliağa Şıxlinskidir. Rus ordusunun topçu baş inspektoru idi. Üçüncü general Hüseyn xan Naxçıvanskidir. Dördüncüsü isə Xan İrəvanskidir. (**N.Şeyxzamanlı, "Azərbaycan istiqlal mücadiləsi xatirələri" kitabı, 1997-ci il, səh.73).**

1914-cü ildə Gəncədə, Şuşada və başqa qəzalarda alaylar təşkil olundu. Şuşalılardan "Tatar süvari alayı", gəncəlilərdən isə "İkinci Gəncə süvari müsəlman alayı" yaradıldı. Bunların hamısı "Qafqazın yerli əhalisindən təşkil olunmuş süvari diviziyası"nın[41] tərkibinə daxil oldu.

Diviziya üç briqadadan və üç süvari alayından ibarət idi: birinci alay Kabardin və dağıstanlılardan, ikinci alay tatar **(Azərbaycan - Ş.N.)** və çeçenlərdən, üçüncü alay inquş və çərkəzlərdən təşkil olunmuşdu. Bundan başqa, osetinlərdən ibarət piyadalar briqadası və Don kazaklarından səkkizinci artilleriya divizionu yaradılmışdı.

Diviziyanın baş komandanı imperator II Nikolayın qardaşı, böyük knyaz Mixail Aleksandroviç Romanov, rəisi isə general-leytenant, knyaz D.P.Baqrationi idi.

Sıravi əsgərləri (aşağı rütbəliləri) "süvari", bəzən də "atlı" deyə çağırırdılar. Zabitlər ayda 25 manat maaş alırdı. Onlardan əksəriyyəti ruslardan və Qafqazın xan, bəy və ağa oğullarından ibarət idi.

Diviziya əsgərlərinin yaxşı təlimi, əla döyüş qabiliyyəti vardı. Bunu "Gəncə alayı"nın komandiri podpolkovnik Polovtsovun 1915-ci il iyulun on birində Gəncə qubernatoru Kovalyovun adına göndərdiyi teleqram da təsdiq edir:

"Qafqazın yerli əhalisindən təşkil olunmuş "diviziya"nın alayları arasında Gəncə süvari alayı birinci olaraq öz komandirinə "Müqəddəs Georgi xaçı" ilə təltif olunmaq şərəfi nəsib etdi. Bu yuksək mükafatla fəxr edərək onu tatar (**Azərbaycan - Ş.A**) süvarilərinin yüksək döyüş bacarığı və fədakar qəhrəmanlığının qiyməti

[41] Bundan sonra "Vəhşi diviziya"nın adı sənədlərdə olduğu kimi yazılacaq - müəl.

kimi qəbul edirəm. Müsəlman süvari döyüşçülərinin misilsiz şücaəti qarşısında mənim dərin heyrətimi qəbul etmənizi xahiş edirəm”.

Görkəmli şairimiz Məhəmməd Hadi azərbaycanlılardan ibarət alaylarla birgə Polşada, Lvovda, Stanislavda, Karpatlarda, Qaliç və Qorodinka şəhərləri uğrunda gedən döyüşlərdə üç il cəbhə həyatı keçirmişdir. Həmyerlilərimizin qəhrəmanlığından ruhlanan böyük şair bu mövzuda silsilə şerlər yazmışdır. O, cəbhədə Azərbaycan alayının imamı olmuşdur. 1917-ci ildə Gəncədə əsgərlər qarşısında çıxış edən Məhəmməd Hadi demişdir:

- Əziz vətəndaşlarım! Alayımızı təşkil edən Azərbaycan türklərinin göstərdikləri hərbi qabiliyyəti və yapdıqları qəhrəmanlıqları söyləməklə bitməz. Ancaq mən burada bir hadisə üzərində dayanacağam. Hərb şiddətlə davam edirdi. General Samsonovun komandasındakı rus ordusu ilə alman qüvvələri şiddətlə çarpışırdı. Samsonovun sağ cinahını “Dikaya diviziya” (Müsəlman diviziyası - Ş.N.) qorumaqda idi. Almanlar çəmbəri daraldarkən ətrafla əlaqəsi kəsilən alay komandanımızın verdiyi əmrlə Alman çəmbərinə hücum edərək, çəmbəri yardı və alayı ikiyə böldü. Yarılan çəmbərin sağ və solunu sıxışdırmağa başladı. Beş alaydan ibarət olan Qafqaziya qardaşları rusları alman çəmbərindən qurtardı. Bu mühüm hadisə həftələrcə rus mətbuatını işğal etdi. Rus çarı bizim alayın bayrağına ən böyük nişan verdi.

Cəbhədə ruhani kimi öz vəzifəsini icra edən şair Məhəmməd Hadi əsərlərində el oğlularımızın igidliyini də vəsf etmişdir:

Bu ağır yük çəkilməz,
Bu ağular içilməz.
Sənsiz, a parlaq dilək,
Qaranlıqlar keçilməz.

Məyus olma amandır,
Məyus olmaq yamandır.
Qorxaq diləksiz yaşar,
Millətim qəhrəmandır.

“Hadi doğma Azərbaycandan minlərlə kilometr uzaqda, Karpat damarında, müharibə alovları içində də Vətənin taleyini düşünməyi, onun təbii gözəlliklərini və gələcək xoşbəxtliyini tərənnüm etməyi çoxsevirdi”. **(Ə.Mirəhmədov, “Məhəmməd Hadi” kitabı, Bakı, 1962-ci il, səh.183)**

İmperiya darılıb, “Dikaya diviziya” buraxılandan sonra Azərbaycanda “Tatar alayı”na kim başçılıq etmişdir? Tiflisdə general-leytenant Əliağa Şıxlinski, Gəncədə polkovnik Süleyman bəy Əfəndiyev (1919-cu ildə general-mayor olub, həmin ili də tif xəstəliyindən vəfat edib), Bakıda isə milyonçu Şəmsi Əsədullayevin oğlu Əli
Əsədullayev Azərbaycan Demokratik hökuməti qurulana qədər “Tatar alayı”nın ayrı-ayrı dəstələrinə başçılıq və himayədarlıq etmişlər. Bu dövrdə Gəncə Milli Komitəsinin üzvü Adilxan Ziyadxanovun və Ərəş mahalının bəylərbəyisi Əşrəf bəy Qarxunlunun başçılığı ilə “Tatar alayı” Gəncə və Şamaxıdakı rus əsgərlərinin

silah anbarını dağıtdı, Şəmkirin Dəllər stansiyasında Qars və Sarıqamışdan qayıdan rusların hərbi eşalonunu tərksilah etdi. Bakıda erməni-bolşevik qoşunu ilə döyüşlər apardı...

1917-ci ilin sonunda könüllülərdən yaranan Milli Azərbaycan korpusunda döyüş və təlim görmüş nizami hissə birinci Azərbaycan süvari alayı idi. "Dikaya diviziya"nın ikinci alayından təşkil edilmiş bu süvarilərə 1918-20-ci illərdə "Tatarski polk" da deyirdilər. Həmin illərdə Milli Ordumuzda döyüş qabiliyyəti ilə fərqlənən ən yaxşı əsgər və zabitlər də bu alayda vuruşurdu. Məşhur sərkərdə Cəmşidxan Naxçıvanski, poruçik Osman ağa Gülməmmədov, praporşik Lütvəli bəy Vəkilov, poruçik Məhəmməd bəy Aslanbəyov, praporşik Paşa bəy Rüstəmov, Sayad bəy Zeynalov və bir çoxları Birinci Cahan savaşında göstərdikləri igidliyə görə imperiyanın ən ali "Müqəddəs Georgi Xaçı" ilə təltif olunmuşlar.

* * *

O vaxt Gəncədə rusların 219 saylı tibb xidməti alayı yerləşirdi. Bu alay Birinci Dünya muharibəsi illərində yaralıları müalicə edib, yenidən cəbhəyə göndərirdi. İmperiya dağılsada, on minə yaxın əsgər və zabiti olan rus alayı hələ də fəaliyyətini davam etdirirdi. Erməni məhəlləsində yerləşən bu rus alayına ermənilər xüsusi qayğı göstərir, onlara ərzaq və silah verir, özlərinin xilaskarı kimi himayədarlıq edirdilər.

Gəncə Milli Komitəsi uzun mübahisədən sonra onların silahlarını alıb döyüşsüz, davasız Rusiyaya yola saldı.

Qafqaz-Türk cəbhəsində sülh bağlandıqdan sonra 1917-ci ilin noyabr ayından başlayaraq, bolşevik əhval-ruhiyyəli rus əsgərləri geri, Rusiyaya qayıdırdı. Yeni yaranan Milli Ordumuza silah lazım idi. İmperiya dağılandan sonra Tiflisdəki silah anbarından biz müsəlmanlara heç bir pay verilməmişdi. Lakin gürcülər hərbi korpus yaratmaq üçün silah paylarını almışdı. Hətta, ermənilər külli miqdarda silahı daşıyıb İrəvana aparmışdılar.

Gəncədəki Müsəlman Milli Komitəsi Qafqaz-Türk cəbhəsindən qayıdan rus hərbi eşelonlarının Azərbaycan ərazisindən gəlib keçəcəyi vaxtı öyrənib həmin günü -1918-ci il yanvarın doqquzunu "döyüş günü" elan etmişdi. Məqsəd onlardan silah almaq idi.

Milli Komitənin başçıları Adil xan Ziyadxanov, Nəsib bəy Usubbəyli, Xəlil bəy Xasməmmədov, Xudadat bəy Rəfibəyov, Aslan bəy Səfikürdski və başqaları gürcü menşeviklərindən aldıqları zirehli qatarla və Gəncədəki Azərbaycan alayının (**bu alay keçmiş "Dikaya diviziya"nın "Tatar alayı"nın əsgər və zabitlərindən ibarət idi - Ş.N.)** qüvvəsilə rus hərbi eşalonunun qabağını Gəncənin otuz kilometrliyində - Şəmkir və Dəllər stansiyaları arasında kəsdilər. Zirehli qatara general-mayor knyaz Maqalov (300 nəfər gürcü əsgər və zabiti ilə birgə), "Azərbaycan-Tatar alayı"na isə polkovnik Süleyman bəy Əfəndiyev komandirlik edirdi. Bu qabaqkəsmədə Gürcüstan menşevi hökumətinin də silah təmənnası vardı.

Yanvarın doqquzunda, səhər saat onda başlayan qanlı döyüş dörd gün davam etdi. İki mindən çox rus əsgəri öldürüldü və yaralandı. On beş min tüfəng, yetmiş pulemyot və iyirmi top ələ keçirildi. Azərbaycan tərəfindən on beş, gürcülərdən isə qırx nəfər əsgər şəhid oldu. Güclü müqavimətə rast gələn rus əsgər və zabitləri perrona çıxıb ağ bayraq qaldırdılar: "Lənət olsun, biz bu silahları verməyə çoxdan razıyıq, bircə evimizə sağ və salamat gedə bilək" - deyib, silahları təhvil verdilər.

Bu, Bakıda özünə yuva qurmuş Sovetlər hakimiyyətinə qarşı Gürcü və Azərbaycan xalqının silahlı mübarizəsi idi. Sonralar isə kommunistlər bu üsyanı "qardaş qırğını" və "Azərbaycan burcua hökumətinin ruslara divanı" kimi qiymətləndirdilər.

Bakıda Şaumyan başda olmaqla, Qafqaz Ölkə Komitəsi bərk qəzəblənib bildirdi ki, "Şamxor cinayətkarları inqilabi məsuliyyətə alınacaq və Zaqafqaziya komissarlığını devirib. Zaqafqaziya fəhlə, əsgər və kəndli deputatları Sovetləri hakimiyyətini təşkil edəcəkdir".

Lakin tarixi dönüşlər daşnak Şaumyana bəd niyyətlərini həyata keçirməyə imkan vermədi.

* * *

Bəs sonralar "Tatar-Azərbaycan alayı"nın əsgər və zabitlərinin döyüş yolu haradan, hansı oddan-alovdan keçib? Arxiv qovluqlarından onların döyüş və ömür yolu barədə əldə etdiyim ilkin məlumat bunlardır:

POLKOVNİK ŞAHZADƏ SEYFULLA BƏHMƏN MİRZƏ OĞLU QACAR-1918-ci il, noyabrın 15-dən Azərbaycan ordusunun Baş Qərargahında intendan şöbəsinin rəisi. 1919-cu il yanvarın 6-dan üçüncü Gəncə piyada alayının komandiri, həmin il iyulun birində xəstəliyinə görə istefaya çıxmış, sentyabrın 15-də yenidən hərbi xidmətə qayıtmış və nazirlikdə hərbi donanmanın qərargah işləri ona tapşırılmışdı.

1864-cü il martın 6-da Tiflisdə anadan olan şahzadə Seyfulla Mirzə Tiflis Ədadiyyə Məktəbinin tam kursunu bitirmişdir. 1886-cı il avqustun 30-da isə Tiflisdəki birinci dərəcəli Yunkerlər Məktəbini qurtaran podporuçik Seyfulla Mirzə 152-ci Vladiqafqaz alayında hərbi xidmətə başlamışdır. Rusiyanın müxtəlif şəhərlərində süvari diviziyalardakı əla xidmətinə görə həmişə fərqlənmişdir. Birinci Cahan müharibəsi illərində Qərb cəbhəsində batalyon və alay komandiri olmuşdur. İvanqorod şəhəri uğrunda gedən döyüşlərdə yaralanmışdır. 1916-cı ilin sentyabrında polkovnik rütbəsi ilə təltif olunan şahzadə Seyfulla Mirzə ən nümunəvi zabit kimi Amur sərhəd alayının komandiri idi.

"Müqəddəs Anna" ordeninin (qılınc və bantla birgə), "Müqəddəs Vladimir" ordeninin üç dərəcəsi ilə, Georgi silahı ilə təltif olunmuşdur.

1920-ci il bolşevik istilasından sonra 1921-ci ilin yanvar ayına kimi respublika konvoy nizami hissəsinin rəisi olmuşdur. Musavat zabiti olduğuna görə etibarsız şəxs kimi işdən çıxarılmışdı. Ağır ehtiyac içərisində yaşayan polkovnik Seyfulla Mirzə Qacar 1924-cü ilin martında belə bir məktubla Azərbaycan SSR Hərbi Komissarlığından maddi kömək istəmişdir: "Azərbaycanda sovetləşmədən sonra bir neçə hərbi xidmət veteranı qalıb ki, yaşlarının keçməsi ilə ağırlaşan çətin

maddi vəziyyətlərinə iltifat göstərərək, hökumət onları ömürlük təqaüdlə təmin edib.

- Bütün gəncliyimi Rusiyada hərbi xidmətdə keçirmişəm. Birinci Dünya müharibəsində əvvəldən axıradək iştirak etmişəm. Sizə məlum olduğu kimi, Azərbaycanın sovetləşməsinin birinci günündən fasiləsiz olaraq hərbi idarələrdə və o cümlədən son bir il yarımında Azərbaycan proletar hərbi məktəbində müəllim vəzifəsində çalışıram. Lakin pozulmuş sağlamlıq (60 yaşım var) mənim işləməyimə son qoyub və mən ötən ilin sentyabr ayından hər cür yaşamaq imkanlarından məhrumam. Ailəmlə birlikdə dərin maddi ehtiyac keçirirəm.

Bu vəziyyətdə yeganə ümidim odur gi, mən, Sizin iltifatınızla yardımla təmin olunacağam və veteran yoldaşlarımla bir sırada qoyulacağam".

POLKOVNİK VƏLİ BƏY SADIQ BƏY OĞLU YADİGAROV - 1918-ci ilin sentyabrından Milli Orduda korpus komandirinin yanında eskadron komandiri olmuşdur. XI Qızıl Ordu Bakıya basqın edəndə üçüncü Şəki süvari alayının pərakəndə dəstəsilə vuruşa-vuruşa Gürcüstan ərazisinə çəkilmişdir. 1921-ci ilin martınadək bolşeviklərə qarşı vuruşmuş və həmin il əvvəlcə Türkiyəyə, sonra Polşaya mühacirətə getmişdir. Polşada "Armiya Krayova" xalq ordusunda əməliyyat şöbəsində süvari rəisi olmuşdur.

Polşada çıxan "Jiçe Varşavı" qəzeti 6 iyul 1990-cı il tarixli nömrəsində polkovnik Vəli bəy Yadigarov haqqında yazır:

"Ötən şənbə Varşava qəbiristanlığında Vəli bəy Yadigar müsəlman-tatar qaydası ilə dəfn olunmuşdur.

Dəfn fəxri qarovulun müşayiəti və hərbçi şöhrəti qaydaları ilə keçirilmişdir. Mərhumu son mənzilə yaxın qohumları, dostları, keçmiş alaydaşları yola salmışlar. Yaylım atəşi açılmış, orkestr Şopenin dəfn marşını çalmışdır. Cənazə üzərində müsəlman ayinini Varşava və Belestok yeparxiyasının imamı Aleksandr Əli Şaletski icra etmişdir.

Bəs polkovnik Yadigar kimdir? Müsəlmandır, Azərbaycan knyazıdır...

Bu qərib Polşa ordusu heyətində vuruşmuş, K.Soskovski adına yeddinci Ulan alayının zabiti olmuşdur. O, 1920-ci ildə tabeliyində olan hissə ilə birlikdə Azərbaycanı tərk etmək məcburiyyətində qalmış, sonra Polşada sığınacaq tapmış, müqavilə ilə polyak ordusu sıralarına daxil olmuşdur.

Qruzdendə süvari məktəbini və Varşavada Ali Hərbi Məktəbi bitirdigdən sonra yeddinci süvari polkunun komandir müavini təyin edilmişdir. Polyak qızına evlənmiş, polyak dilini öyrənmişdir. Keçmiş alaydaşları onu son dərəcə yüksək mədəniyyətə, sağlam həyat tərzinə malik insan, həm də olduqca tələbkar zabit kimi xatırlayırlar.

Vəli bəy Polşaya hücum etmiş hitlerçi qəsbkarlara qarşı 1939-cu ilin sentyabrında təşkil olunmuş müdafiə kompaniyasında iştirak etmiş, Mazovetski süvari briqadasının qərargah rəisi olmuşdur. Polşanın işğalından sonra Armiya Krayovanın (AK) tərkibinə daxil olan "Olen" polkunun komandiri kimi Varşava üsyanında iştirak etmişdir.

Müharibədən sonra Vəli bəy Yadigar Argentinaya mühacirət etmiş, on doqquz il əvvəl Buenos-Ayresdə vəfat etmişdir.

Öz vəsiyyəti ilə Polşada təkrar dəfn edilmişdir. Dəfn mərasimində mərhumun qızı - Züleyxa xanım Yadigar-Kalinovskaya da olmuşdur. O, hazırda milliyyətcə polyak olan əri ilə İspaniyada yaşayır".

Vəli bəy Sadıq bəy oğlu 1897-ci ildə anadan olmuşdur. Borçalının Təkəli kəndindəki nüfuzlu Yadigarovlar nəslindəndir. Bu nəsildən 1918-20-ci illərdə Milli Orduda altı zabit şərəflə xidmət etmişdir: kornet Rəhim bəy, praporşik Adil bəy, ikinci Qarabağ süvari alayında üçüncü bölüyün komandiri, ştabs-rotmistri Məmməd bəy, ikinci Qarabağ süvari alayında ikinci bölüyün rotmistri Daniyal bəy və süvari diviziyasının rəis müavini general-mayor Davud bəy Yadigarovlar. Zadəgan nəslinə məxsus olan Vəli bəy ilk hərbi təhsilini 1909-1915-ci ildə kornet Vəli bəy Əlahiddə Qafqaz ordusunun korpusunda xidmət etmişdir.

POLKOVNİK RÜSTƏM BƏY MƏMMƏDAĞA OĞLU ŞIXLİNSKİ - Topçu hissəsinin və 1918-ci ildə Ağdamdakı pulemyot məktəbinin rəisi. 1919-cu il fevralın 5-dən Əlahiddə Ağır Top divizionunun komandanı. 1920-ci ilin aprelində bolşeviklər tərəfindən Bakıda güllələnmişdir. Məşhur generalımız Əliağa Şıxlinskinin qardaşı oğludur. 1878-ci ildə Qazaxda anadan olub. Tiflisdəki kadet korpusunu və Peterburqda Mixaylov topçuluq məktəbini bitirib. Birinci Dünya müharibəsində iştirak edib.

POLKOVNİK ŞAHZADƏ XOSROV MİRZƏ QACAR - Birinci Dünya müharibəsində Şimal draqun polkunun komandiri, 1918-ci ildən isə Milli Orduda üçünçü Ləzgi polkunun komandiri olmuşdur. 1920-ci ildə Gəncə üsyanından sonra Türkiyəyə mühacirətə getmişdir.

POLKOVNİK ƏHMƏD BƏY MƏHƏMMƏD BƏY OĞLU DİBİROV – İkinci piyada Zaqatala alayının komandiri. 1860-cı ildə Balakən rayonunun Mahmalar kəndində anadan olub. Musavat zabiti olduğuna görə iyirminci ildə həbs edilib. Şəki qalasında bir neçə il saxlanıb. 1930-cu ildə yenidən həbs edilib. İki ay sonra həbsxanada ürək partlamasından vəfat edib.

POLKOVNİK GƏRAY BƏY ABBASQULU BƏY OĞLU VƏKİLOV - 1918-ci ildə yeni yaranan süvari rotalarının təşkilatçılarından olub. Birinci süvari alayının komandiri kimi Gəncədə, Tərtər və Bakıda xidmət edib. 1920-ci ilin əvvəllərində isə Bakıda birinci kadet korpusunda hərbi təhsil hissəsinin rəisi idi.

Polkovnik Gəray bəy 1884-cü ildə Qars şəhərində polkovnik Abbasqulu bəy Vəkilovun ailəsindo anadan olub. Tiflisdəki kadet korpusunu bitirib. Rus-Yapon və Birinci Cahan savaşlarında döyüşən orduda iştirak edib. Döyüş xidmətlərinə görə "Müqəddəs Georgi" ordeni ilə təltif olunub. İyirminci ildən sonra Şəkidə yerləşən ikinci qırmızı kadet korpusunda işləyib. 1924-cü ildə ordudan tərxis olunub. 1952-ci il martın 14-də Bakıda vəfat edib.

POLKOVNİK CAHANGİR BƏY KAZIMBƏYOV - Gəncə alayının komandiri. 1920-ci il mayın 22-dən 30-dək bolşeviklərə qarşı Gəncə üsyanının fəal iştirakçısı. 1888-ci ildə Gəncədə anadan olub. Hərbi təhsilini Peterburqda alıb. Birinci Dünya müharibəsində iştirak edib. 1918-ci ildə Gəncədə Milli Azərbaycan Ordusunun yaradılmasında çalışıb. İyirminci ildə Gəncə üsyanı yatırıldıqdan sonra İstanbula mühacirətə gedib. Az sonra marşal Yuzef Pilsudskinin dəvəti ilə Varşavaya köçüb. Polşa ordusunda diviziya komandiri olub. "Prometey" cəmiyyətində istilaçı ruslara qarşı mübarizədə həyat yoldaşı Vəliyə xanım

Xoyskiylə birgə çalışıb. Onlar Azərbaycan dilində qəzet və jurnal nəşr edir, "Azəri-türk" dərnəyini yaradırlar. Böyük Vətən müharibəsi vaxtı Polşa işğal olunanda əsir düşür. Sovet əsirliyindən qaçıb əvvəlcə Almaniyada, sonra isə İtaliyada yaşayır. Əllinci ildə yenidən İstanbula gəlir, ağır güzəran keçirdiyindən Almaniyaya köçüb, ömrünün sonuna kimi "Azadlıq" radiosunda əməkdaşlıq edir. 1953-cü ildə Amerikada nəşr edilən "Azərbaycan" milli yurnalının 12-ci nömrəsində polkovnik Cahangir bəy Kazımbəyovun "Gəncə üsyanı haqqında xatirələr" adlı sanballı yazısı dərc olunmuşdur.

POLKOVNİK MEHDİ BƏY EYNALI OĞLU SULTANOV - 1880-ci ildə Gəncədə anadan olub. Altıncı Göyçay piyada polkunun (**Bayılda yerləşirdi - Ş.N**.) komandiri. 1920-ci ildə bolşevik istilasından sonra Azərbaycan diviziyasında üçüncü alayın komandiri olmuşdur. 1926-cı ildə Gəncədə gizli fəaliyyət göstərən musavat hərbi təşkilatının üzvü olduğuna görə on il müddətinə Solovetsk həbs düşərgəsinə sürgün edilmişdir.

1937-ci il aprelin 20-də Azərbaycan Xalq Daxili İşlər Komissarlığı xüsusi üçlüyünün qərarı ilə güllələnmişdir.

POLKOVNİK HÜSEYNQULU XAN İSGƏNDƏR XAN OĞLU XOYSKİ - 1917-ci ildə Gəncədə cavanlardan ibarət "Zelyonaya qvardiya" adında əsgəri təşkilat yaratmışdı. 1919-20-ci illərdə Gəncə şəhər qubernatorunun müavini olub. İyirminci ildə bolşevik-daşnak təzyiqindən mühacirətə getmişdir. 1955-ci ildə İstanbul şəhərində vəfat etmişdir. Atası İsgəndər xan Xoyski imperiya ordusunda general-mayor rütbəsində xidmət etmişdir. İsgəndər xan 1820-ci ildə anadan olmuşdur.

POLKOVNİK ŞAHZADƏ SƏDRƏDDİN BƏHMƏN MİRZƏ OĞLU QACAR-1918-19-çu illərdə Bakı qəzasının hərbi rəisi, 1919-cu ilin sonlarından bolşevik çevrilişinə qədər Nazirliyin dəftərxana rəisi olub. 1920-ci ilin aprelində bolşeviklər güllələyib.

Azərbaycan Respublikasının Xalq artisti, müğənni Sürəyya Qacarın atasıdır. Sürəyya xanım atasını belə xatırlayır: "Atam Sədrəddin Qaçar hərbi qulluqçu olsa da, yaxşı skripka çalırdı. Peterburqda təhsil alanda öyrənmişdi. Notları hələ də qalır. Pəsdən zümzümə etməyi də yadıma gəlir. Anam Günəş xanım Tağıbəyovanın da hərdən bir oxumağı vardı. Ev işləri görəndə zümzüməsi kəsməzdi... Atam güllələnəndən sonra ailəmiz Şuşadan Bakıya köçdü..."

* * *

1993-cü ilin iyun ayında Çingiz xanın və sonuncu Krım xanı Şahin Gərayın nəslinin davamçısı əlahəzrət şahzadə Cezar Gəray dədə-baba vətəni Krımda olanda "Moskovskiye novosti" qəzetinin müxbirinə verdiyi müsahibəsində demişdir:

"...Sülaləmizin Rusiyada qalan hissəsinə gəldikdə isə, vətəndaş müharibəsi və inqilab zamanı bolşeviklər bizim ailənin bir neçə üzvünü öldürmüşdülər. Qvardiya zabiti, Qafqaz canişininin müavini, senator, sultan şahzadə Krim Gəray Nikolay Aleksandroviç (1886-1921) ingilis qızı ilə evlənmişdi. Vətəndaş müharibəsi vaxtı o, Petroqradda acından öldü. Ailəmizin digər üzvü, inqilabdan əvvəl imperiya ordusunun generalı, Birinci Dünya müharibəsində "Dikaya

diviziya”nın komandirlərindən biri sultan şahzadə Klıç Gəray (1893-1947) bolşeviklərə qarşı vuruşmuş, sonra mühacirətə getmişdi.İkinci Dünya Müharibəsində o, kazak qoşunlarının komandiri olmuş, generalla birlikdə bolşeviklərə qarşı vuruşmuşdu. Sonra tutularaq Avstriyaya gətirilmiş və SMERŞ-ə verilmişdi. Moskvada isə gizli məhkəmə tərəfindən mühakimə edilmiş və 1947-ci il yanvarın on yeddisində edam olunmuşdu.

PODPOLKOVNİK LƏTİF BƏY MƏMMƏDƏLİ OĞLU İBRAHİMBƏYLİ - Bakı realnı və Tiflis üç illik hərbi məktəblərini bitirib. Birinci Dünya müharibəsində yüz əlli üç saylı Bakı alayının tərkibində zabit kimi vuruşub. Kapitan rütbəsində Qars vilayətinin komendantı olub. Döyüş xidmətlərinə görə orden və medallarla təltif olunub. 1884-cü il dekabrın iyirmi doqquzunda Salyanda anadan olub. Musavat ordusunda Bakı Qala batalyonunun komandiri idi.

PODPOLKOVNİK FUAD XAN HƏSƏN XAN OĞLU TALIŞXANOV - 1896-cı ildə Lənkəranda zadəgan ailəsində anadan olub. Tiflis kadet korpusunu bitirib. Çar ordusunda rotmistr rütbəsinə qədər yüksəlib. 1918-1920-ci illərdə Birinci Cavanşir piyada alayının yaveri olub. Sovetlər vaxtı Qızıl Orduda müxtəlif komandir vəzifələrində çalışıb, podpolkovnik rütbəsinə qədər yüksəlib. 1930-cu ildə Gəncədə hərbi müfəttişlikdə işləyəndə həbs edilib.

POLKOVNİK FİKRƏT ƏBÜLFƏT OĞLU AĞALAROV - 1868-ci il noyabrın 10-da Tiflisdə anadan olub. Şuşa realnı məktəbində və 1885-ci ildən 1888-ci ilədək Nikolayev şəhərindəki hərbi məktəbdə təhsil alıb. Birinci Dünya müharibəsində iştirak edib. Milli Orduda birinci Azərbaycan süvari alayının komandiri idi.

Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun 1919-cu il on dörd iyul tarixli teleqramı:

“Cənab Hərb Naziri Zati-alilərinə!

Qarabağın xalq milisi sıralarında Moskva İnstitutunun tələbələri İsgəndər bəy Sultanov və keçmiş Qarabağ süvari alayının əsgəri Xankişi Nuru oğlu xidmət edirlər. Onlardan birinə - ləzgi alayı ilə birlikdə bolşöviklərə qarşı döyuşlərdə iştirak etmiş Sultanova Türk hərbi ordeni “əcidiyyə” ikincisinə - Xankişi Nuru oğluna axırıncı müharibənin (**Birinci Dünya müharibəsinin - Ş.N.)** Georgi Kavaleri ordeni verilmişdir.

Axırıncı Qarabağ hadisələri (1918-ci il-Ş.N.) zamanı onlar böyük bacarıq və şücaət göstərmişlər. Bu haqda Siz Zati-alilərinə məlumat verərək xahiş edirəm ki, onların birinci zabit rütbəsinə təqdim olunmaları haqqında sərəncam verəsiniz".

ŞTAB - ROTMİSTRİ ALLAHYAR MÖVSÜM OĞLU ƏMİRCANOV - 1897-ci il mayın on birində Nuxada (Şəki) bəy ailəsində anadan olub. 1907-ci ildən 1914-cü ilədək Vladiqafqaz kadet korpusunda hərbi təhsil alıb. Birinci Cahan müharibəsində “Dikaya diviziya”a qulluq edib. Göstərdiyi hərbi şücaətlərə görə dördüncü dərəcəli “müqəddəs Georgi”xaçı ilə təltif olunub.

ROTMİSTR HACIAĞA MƏMMƏDƏLİ OĞLU İBRAHİMBƏYLİ - 1890-cı il dekabrın səkkizində Salyanda məmur ailəsində anadan olub. Bakıda

kommersiya məktəbini və 1913-cü ildə Tiflis hərbi məktəbini bitirib. 1914-15-ci illərdə Birinci Dünya müharibəsində iştirak edib.

1946-cı ildə nəşr olunmuş "Səməd bəy Mehmandarov" kitabçasının müəllifi. Həmin kitabçasında Mehmandarovla ilk görüşünü belə xatırlayır:

"Mehmandarov mənə yaxınlaşıb çox nəzakətlə soruşdu; "Rotmistr, görünür, Siz vaqonda yer tapa bilməmisiniz... Mənim kupemdə bir boş yer vardır"

Mən generala rəsmi təzim edib cavab verdim: "Yox, general həzrətləri, mənim yerim vardır, özü də Sizin kupenizdədir". O, cavabında "Aha, yaxşı oldu, mən çox şadam" - dedi. Bu zaman ikinci zəng vuruldu. General Səməd bəy Mehmandarovla vaqona daxil olduq.

Səməd bəy çox söhbətcil və çox yaxşı yol yoldaşı imiş. O, mənimlə bəzən rusca, bəzən də azərbaycanca danışırdı. O, ahəstə-ahəstə danışırdı, hər sözünü ölçüb-biçirdi, fikrini sadə və düzgün ifadə edirdi. Onun danışıq tərzi, səsi, sakit və qəti tonu, özünü sərbəst hiss etməsi göstərirdi ki, bu adam uzun və maraqlı həyat sürmüş, böyük vəzifə sahibi olmuş, şanlı igid əsgər həyatı keçirmişdir. Səməd bəy Mehmandarov yolda mənə bir çox maraqlı və faydalı şeylər danışdı".

ŞTAB-ROTMİSTRİ ŞAHZADƏ FİRİDUN ALLAHVERDİ OĞLU QACAR -Tiflisdəki Klassik Gimnaziyanı və Müəllimlər İnstitutunu, 1916-cı ildə isə Tiflis kadet korpusunu bitirib. 1892-ci ildə məşhur Qacarlar ailəsində anadan olub. Musavat ordusunda ikinci artilleriya briqadasında birinci batareyanın zabiti.

ŞTAB-ROTMİSTRİ ZEYNAL BƏY SADIQOV - İkinci Qarabağ süvari alayında dördüncü bölüyün komandiri. 1917-ci il iyunun 30-dan "Qafqazın yerli əhalisindən təşkil olunmuş diviziya"nın Azərbaycan alayında hərbi xidmətə başlayıb. Birinci Dünya müharibəsində Qərb cəbhəsində vuruşub. Əla döyüş xidmətlərinə görə 1916-cı il aprelin 30-da üçüncü dərəcəli Müqəddəs Stanislav (qılınc və bantla birgə), iyunun 28-də Buludniki kəndi uğrunda gedən döyüşlərdə ikinci, üçüncü, dördüncü dərəcəli "Müqəddəs Georki" medalı avqustun 30-da üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə) ilə təltif olunmuşdur. Ştab-rotmistri rütbəsini 23 mart 1918-ci ildə Milli Azərbaycan Ordusunda almışdır.

ŞTAB-ROTMİSTRİ ZÜLFÜQAR NƏZƏR OĞLU SULTANOV -1894-cü ildə Zəngəzurun Pircəvan gəndində anadan olub. İkinci Tiflis kişi gimnaziyasını və Petroqrad Hərbi Tibb Akademiyasını bitirib. Musavat ordusunda əvvəl poruçik, sonra isə ştab-rotmistri kimi xidmət edib.

ROTMİSTR SƏLİM BƏY SULTANOV - Kürd süvari divizionunun komandanı.

ŞTABS-KAPİTAN YUNİS ŞƏKƏROV - kürd atıcı batalyonunun komandiri.

ŞTABS KAPİTAN NƏSİB AĞA ƏSƏD AĞA OĞLU VƏKİLOV - 1899-cu ildə Qazaxda anadan olub. Gəncədə praporşiklər məktəbini bitirib. Musavat zabiti olduğuna görə 1940-cı ildən 1955-ci ilə qədər Maqadan və Norilskiyə sürgün edilib, Həmin ili Vətənə qayıdan Nəsib ağa 1963-cü ildə Bakıda vəfat edib.

PORUÇİK OSMAN AĞA GÜLMƏMMƏDOV - 1914-cü il sentyabrın birindən 1917-ci ilin avqustunadək Birinci Dünya müharibəsi illərində süvari alayında döyüşüb. Döyüş yolu Avstriya və Rumın cəbhələrində olub. Sıravi əsgər kimi xidmətə başlayan Osman ağaya 1915-ci ilin avqustunda kiçik uryadnik

rütbəsi verilib. Həmin il Avstriya cəbhəsində Briqen şəhəri uğrunda gedən döyüşlərdə yaralanıb. 1916-cı ilin mart ayında baş uryadnik və 1917-ci ilin iyununda milis-yunkeri rütbəsi ilə təltif olunub.

1918-ci ildə Kürdəmir, Müsüslü, Sanqaçal döyüşlərində bolşeviklərə qarşı vuruşub. Onun süvari dəstəsi düşməndən yüz altı nəfər aşağı rütbəli əsgər, üç zabit, bir həkim əsir alıb, qənimət kimi üç pulemyot götürüb.

Poruçik Osman ağa Gülməmmədov 1918-ci il sentyabrın on beşində Bakı döyüşlərinin ən fəal iştirakçısı olub.

Avqustun on yeddisində Bakıya hücum zamanı bolşeviklərlə döyüşlərdə kornet Osman ağa Gülməmmədov süvari kəşfiyyat dəstəsində olarkən Balaxanı kəndinin şimal-qərb hündürlüyündən rəqibin arxasına keçərək onu Bakı şəhəri istiqamətində geri çəkilməyə məcbur etmişdi. Bu zaman özünü çatdırmış bölük Nobel çənləri yanında mövqe tutmuş və düşmən bölüyünə həmlə etməyə başlamışdı. Düşmən bölüyünün cinahında olan kornet Osman ağa Gülməmmədov pülemyot və tüfəng atəşi ilə qarşılandı. O, yaralıları itirsə də, nadir şücaət və mərdliklə, fədakarcasına igidlik nümunəsi göstərərək rəqibin güclü və sayca çox olmasına baxmayaraq, əlbəyaxa döyüşdə onun müqavimətini qırdı. Həmlə zamanı cəsur kornetin mindiyi at yaralandı, buna baxmayaraq o, düşməni qıra-qıra onun sıralarını məhv etdi. Bu hücuma davam gətirməyən düşmən bir zabit, bir həkim, qırx doqquz əsgər itirdi və üç pulemyotu qoyub qaçdı.

Bakı cəbhəsində bu həmlə qətedici rol oynadı, çünki rəqib qüvvələri sındı. Bizim piyada isə bundan müvəffəqiyyətlə istifadə edə bildi.

Döyüşlərdə göstərdiyi igidliyə görə Osman ağa Gülməmmədova kornet-süvari qoşununda birinci zabit rütbəsi verildi və o, general Nuru paşanın əmrilə Türkiyənin beş qılınclı "Məcidiyyə" ordeni ilə təltif olundu.

Arxiv sənədlərində yazılır ki, təsvir edilmiş döyüşdə adını çəkdiyimiz kornet Osman ağa Gülməmmədovun komandası altında vuruşan süvarilər öz imzaları ilə onun qəhrəmanlığını şəhadət edirlər: Həmzə İsmayıloğlu, milis yunkeri Kərim Yaqubov, praporşik Paşa bəy Rüstəmov, milis yunkeri Dəmir Paşa oğlu və başqaları.

Poruçik Osman ağa Gülməmmədovun 1919-cu il martın altısında tərtib olunmuş şəxsi işindən öyrənmək olur ki, o, 1892-ci il avqustun on altısında Gəncə quberniyasının Qazax qəzasındakı Salahlı kəndində bəy ailəsində anadan olmuşdur.

Birinci Dünya müharibəsi illərində cəbhədə göstərdiyi qəhrəmanlığa görə ikinci, üçüncü və dördüncü dərəcəli "Müqəddəs Georgi" xaçı, ikinci, üçüncü və dördüncü dərəcəli "Müqəddəs Georgi" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası hökumətinin hərbi rütbələr haqqında 16 may 1918-ci il tarixli 26 saylı əmri ilə birinci süvari Azərbaycan taburunun korneti Osman ağa Gülməmmədova hərbi şücaətlərinə görə starşinalıq imtiyazı ilə poruçik rütbəsi verildi, vəzifəsi yüksəldilərək üçüncü bölüyün komandiri təyin olundu. Əmrin ikisini də Hərbi Nazir vəzifəsini müvəqqəti icra edən general-leytenant Əliağa Şıxlinski imzalamışdı.

Osman ağa Gülməmmədov həmin ilin iyul ayında xidmət üçün bölüyü ilə birgə Qusara göndərilir. Şimal sərhədlərimizin qorunmasında general Denikinə

qarşı mübarizə aparan poruçik Osman ağa Gülməmmədov nümunəvi qəhrəmanlıqlar göstərir. 1919-cu ilin yanvar ayında keçirilən baxış-yoxlamasında onun sıralarında döyüşdüyü birinci Azərbaycan süvari alayı Hərbi Nazirin şəxsi təşəkkürünü alır.

1920-ci ilin martında Qarabağ və Zəngəzurda düşmən təhlükəsi kəskin surətdə artır. Erməni-daşnak qoşun birləşmələri martın iyirmi birindən iyirmi ikisinə keçən gecə Xankəndində yerləşən birinci Cavanşir piyada alayının kazarmalarına qəfil basqın edir. Novruz bayramı axşamı Xankəndinə hücum edib Əsgəran yolunu bağlayırlar. Poruçik Osman ağa Gülməmmədov həmin döyüşlərin fəal iştirakçısı olur. Aprelin ikisində onun bölüyü daşnakların Əsgərandan qovulmasında mərdliklə vuruşur.

İyirmi səkkiz aprel istilasından sonra musavat zabiti Osman ağa Gülməmmədov Türkiyəyə mühacirətə getməyə məcbur olmuşdur.

"1937-Cİ İL FEVRALIN YEDDİSİNDƏ MAARİFÇİ-QADIN MƏDİNƏ XANIM QİYASBƏYLİNİN ALTINCI DİNDİRİLMƏSİNDƏN:

SUAL : - Osman ağa Gülməmmədov sizə tanışdır?

CAVAB: - Osman ağa mənim həmkəndlimdir. Mən onu 1919-1920-ci illərdə görüşmüşəm. Azərbaycanın sovetləşməsindən sonra o, Azərbaycan alayı ilə Türkiyəyə getdi.

SUAL: - Sizi musavatçılarla nə bağlayırdı?

CAVAB: - Bizim millətçi nəzərimiz, qohumluğumuz və bu adamların mədəniyyəti".

* * *

1919-cu il fevralın on dördündə praporşik Lütvəli bəy Abbasqulu bəy oğlu Vəkilov Azərbaycan suvari alayının komandirinə belə bir məlumat göndərmişdir:

"Sizin nəzərinizə çatdırıram ki, 1918-ci il iyulun on səkkizində dördüncü Borçalı alayının polkovniki Tuqanov cəbhədəki döyüş xidmətlərimə görə min beş nömrəli əmrlə məni "Müqəddəs Georgi" xaçı ordeninin bütün dörd dərəcəsi ilə təltif olunmağa təqdim etmişdi və buna əsasən mənə birinci Mozdok Dağ Kazakları alayının min yüz qırx altı nömrəli attestatı da verilmişdir. Orada ordenlərimin hər birinin nömrəsi yazılıb, həmin döyüşlərdə mən dörd dəfə yaralanmışam və kontuziya olmuşam. Bunların hamısı Sizə göndərdiyim şəxsi işimdə göstərilib"

Vərəqin o biri üzündə praporşik Lütvəli bəy Vəkilovun dəsti-xətti ilə yazılmış qeydi də var: "Mənim şücaətlərimin və təltifatlarımın cəbhədə şahidi olan rotmistr Çayevski idi. O, hazırda Hərbi Nazirliyin Baş Qərargahında baş zabit kimi xidmətdədir".

Əlbəttə, praporşik Lütvəli bəy Vəkilovun bu məlumatı müasir oxucuya adi ərizə kimi görünə bilər. Lakin günümüzün oxucusu onu da unutmamalıdır ki, o dövrdə belə bir yüksək ordenlə əsgər və zabitlər çox nadir hallarda təltif olunurdu. Qeyri-adi ikidlik göstərən, "Müqəddəs Georgi" ordeninin bütün dörd dərəcəsinə layiq görülən oğullarımızı barmaqla saymaq olar: onlar rotmistr Teymur bəy Novruzov, praporşik Sayad bəy Zeynalov, poruçik Osman ağa Gülməmmədovdur.

Yüz qırx birinci səhifədə Lütvəli bəyin silahdaşı Çayevskinin Baş Qərargaha təqdimatı saxlanılır. O yazır ki, dördüncü Borçalı süvari alayının praporşiki Lütvəli bəy Vəkilovla Birinci Dünya müharibəsinin ilk günlərindən 1918-ci ilin sentyabrınadək döyüşlərdə birgə olub. Onun bütün qəhrəmanlıqlarının canlı şahididir. Qazaxda, Lori dərəsində, Borçalıda erməni daşnaklarına qarşı döyüşlərdə, Bakı, Qarayazı və Şamxorda bolşeviklərlə vuruşlarda onun cəsur süvari kimi igidlik göstərdiyinə zəmanət verir. Belə bir igid zabitin yüksək rütbəyə layiq olduğunu tamamilə qanuni hesab edir.

Rotmistr Çayevskinin Baş Qərargaha iftixarla yazdığı təqdimatı iki general məmnuniyyətlə təsdiq edib, dərkənar qoruyublar: süvari diviziyasının rəisi general-mayor Şahzadə Əmir Kazım Qacar və Qərargah rəisi general Zaxar Amaşukeli.

Çox təəssüf ki, elə buradaca sənədlərin izi itir. 1890-cı il təvəllüdlü praporşik Lütvəli bəy Vəkilovun bundan sonra hansı rütbəyə layiq görüldüyü məlum olmur.

PORUÇİK MƏHƏMMƏD BƏY ASLANBƏYOV - Birinci Azərbaycan süvari alayının zabiti, 1894-cü il martın on altısında Dağıstan vilayətinin Kürə nahiyəsində bəy ailəsində anadan olub. Teymurxan - Şura şəhər ədadiyyə məktəbində və Tiflisdəki böyük knyaz Mixail Nikolayeviç adına hərbi məktəbdə təhsil alıb.

Hərbi xidmətə 1914-cü il oktyabrın birində başlayıb. 1915-ci il fevralın birində Qafqaz cəbhəsindəki döyüşən orduda əla xidmətinə görə praporşik rütbəsi verilib. Həmin il fevralın yeddisində, yüz əlli beşinci Quba piyada alayına keçirilib. Noyabrın birində podporuçik, 1916-cı il dekabrın on ikisində isə poruçik rütbəsi alıb. 1918-ci il martın on dördündə birinci Azərbaycan süvari alayında birinci bölüyün komandiri təyin olunub. Həmin il avqustun iyirmi doqquzunda 1207 nömrəli əmrlə ştab-rotmistri rütbəsilə təltif olunub. Bakı cəbhəsində daşnak-bolşeviklərə qarşı döyüşlərdə igidliklə vuruşub. Poruçik Məhəmməd bəyin qəhrəmanlığını general Nuru paşa Türkiyənin "Hərb medalı" ilə qiymətləndirib.

1918-ci il iyulun səkkizində Baş Qərargah rəisi, polkovnik Həbib bəy Səlimov Birinci Azərbaycan alayının komandirinə belə bir məlumatla müraciət etmişdir:

"Poruçik Məhəmməd bəy Aslanbəyov özünü alayda yararlı zabit kimi, süvari Azərbaycan alayının bir çox zabitlərindən xeyli yaxşı göstərmişdir. Ona görə də, onun təminat almaq üçün alaylardan birinə qəbul edilməsi yaxşı olardı. Alayın bir çox zabitləri Tiflisdə eyş-işrətlə məşğul olduqları halda, o, dəstədə yorulmadan çalışır.

Əla və çalışqan zabit olduğuna görə mən poruçik Məhəmməd bəy Aslanbəyovu dəstədən buraxa bilmərəm. Çox təəssüflər olsun gi, işə can yandıran belə zabitlər çox azdır. Dəstədəki xidmətdən - kimin işə sadiq olduğu, kiminsə paqon və pul üçün xidmət etdiyi aydın oldu.

Namusla xidmət edən zabiti cəzalandırmaq çox acı hal olardı".

Arxiv sənədlərindən məlum olur ki, poruçik Məhəmməd bəy Aslanbəyov Birinci Dünya müharibəsi illərində Azərbaycan süvari alayında da namus və qeyrətlə vuruşmuşdur. O, "İgidliyə görə" medalı ilə və "Müqəddəs Anna" ordeninin dördüncü dərəcəsilə (1915-ci il iyulun 25-də), "Müqəddəs Stanislav"

ordeninin üçüncü dərəcəsilə (bant və qılıncla birgə) 1915-ci il dekabrın 20-də, "Müqəddəs Anna" ordeninin üçüncü dərəcəsilə (bant və qılıncla), 1916-cı il iyulun on yeddisində, 1918-ci ildə Bakı uğrunda döyüşlərdə göstərdiyi igidliyə görə Türkiyənin "Hərbi medalı" ilə təltif olunmuşdur.

PORUÇİK SAYAD ZEYNALABDİN OĞLU ZEYNALOV - 1918-ci ilin noyabrında Gəncədəki podpraporşiklər məktəbini bitirib. Birinci Dünya müharibəsində "Dikaya diviziya"nın Tatar-Azərbaycan alayında xidmət edib. 1975-ci ildə SSRİ Mərkəzi Dövlət Hərbi Arxivindən əldə etdiyim sənəd bir daha bunu təsdiq edir:

"Sizin sorğunuza cavab olaraq bildiririk ki, arxiv materiallarında Tatar süvari alayının yunkeri, praporşik Sayad Zeynalovun xidmət dəftərçəsi saxlanılır. Sənəddə deyilir ki, o, 30 avqust 1886-cı ildə anadan olub. Yelizavetpol quberniyasındakı Qazax qəzasının vətəndaşıdır. 1914-cü ildə könüllü olaraq Tatar süvari alayına daxil olub. 1915-ci ildə praporşik, sonra isə yunker rütbəsi alıb.

1914-cü il sentyabrın iyirmisindən Avstriya-Macarıstan və Almaniya döyüşlərinin iştirakçısı olub. "Müqəddəs Georgi" ordeninin bütün dörd dərəcəsilə təltif edilib.

"Müqəddəs Georgi" ordeni qədim rus ordenlərindəndir. Onun dörd dərəcəsi vardı. Birinci dərəcəli orden ən yüksək hesab olunurdu. Ordenin devizi belə idi: "Əla xidmət və cəsurluğa görə". Odur ki, "Müqəddəs Georgi" ordeninin bütün dörd dərəcəsinə yalnız fövqəladə dərəcədə fərqlənən, xüsusi igidlik, mərdlik, əla əsgəri rəşadət göstərən hərbi qulluqçular layiq görülürdülər".

Həmkəndliləri, Ağköynəkli ağsaqqalların yaddaşında poruçik Sayad Zeynalovun 1915-ci ildə Sarıqamış cəbhəsindən yazdığı şerdən bir bənd yadigar qalıb:

Sarıqamış altında olduq nəzərdə,
Yüyürdük irəli, qalmadıq geridə.
Tatar polkunun adı söyləndi dildə,
Qürbət elə düşdü yolum, neyləyim.

1917-ci ildə Vətənə qayıdan Səyyad Zeynalov 1918-ci ildən Milli Orduda, əvvəlcə birinci Tatar-Azərbaycan alayında, sonra isə üçüncü Şəki süvari alayında xidmət edib. Qarabağda, Göyçayda və Bakıda daşnak-bolşeviklərə qarşı döyüşlərin fəal iştirakçısı olub.

İyirmi səkkiz aprel çevrilişindən sonra Qazax milis şöbəsinin rəisi, "El yardımı komitəsi"nin sədri və Gəncə milis idarəsinin rəisi kimi məsul vəzifələrdə işləyib. Otuz yeddinci ildə Musavat zabiti kimi həbs olunub, 1942-ci ildə sürgündə dünyasını dəyişib.

PORUÇİK MAHMUD İBRAHİM OĞLU ƏFƏNDİYEV - 1890-cı il iyulun iyirmi dördündə Qazax qəzasının Salahlı kəndində kəndli ailəsində anadan olub. Qoridə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində təhsil alıb. 1915-ci ildəTelavi praporşiklər məktəbini bitirib. Musavat ordusunda rota komandiri idi.

PORUÇİK HACIBALA HACIMƏMMƏD OĞLU ABBASOV -1898-ci il iyulun dördündə Şamaxıda kəndli ailəsində anadan olub. Şamaxıda realnı məktəbi və Xarkovdakı texniki məktəbi bitirib. Rus dilini yaxşı bilirmiş, savadlı imiş. 1914-cü ildə Birinci Dünya müharibəsində iştirak edib. Musavat ordusuna 1918-ci ildə könüllü gəlib.

PORUÇİK ƏYYUB MƏQRÜB OĞLU KÖÇƏRLİNSKİ - Vladiqafqazdakı realnı məktəbi bitirib. 1900-cu il avqustun iyirmi ikisində Şuşada zadəgan ailəsində anadan olub. 1918-ci il sentyabrın on beşində Bakının daşnak-bolşeviklərdən azad olunmasında iştirak edib.

PORUÇİK HÜSEYN SƏMƏD OĞLU RƏHİMOV - 1893-cü ildə Bakıda meşşan ailəsində anadan olub. İkinci Tiflis kişi gimnaziyasının beş sinfini və 1920-ci il aprelin iyirmi dördündə Gəncə hərbiyyə məktəbini bitirib.

PORUÇİK MAHMUD MƏMMƏD OĞLU MAHMUDZADƏ - 1893-cü ilin yanvar ayında Lənkəranda meşşan ailəsində anadan olub. Birinci Bakı gimnaziyasını və Gəncə praporşiklər məktəbini 1919-cu ildə bitirib. Fars və türk dillərini mükəmməl bilib. 1920-ci ildən "Azərbaycanın müstəqilliyi uğrunda" gizli hərbi təşkilatın fəallarından biri olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya ÇK-sı həbs edib, sürgünə göndərib.

PODPORUÇİK MİR ƏHMƏD MİR AĞAƏLİ OĞLU MİRCAVADOV - 1895-ci il iyunun on səkkizində Bakıda meşşan ailəsində anadan olub. Bakıda ruhani təhsili alıb. 1919-cu ildə Gəncədə praporşiklər məktəbini bitirib.

PODPORUÇİK MEYDAR ABBAS OĞLU MƏDƏTOV - 1898-ci ildə Bakının Balaxanı kəndində anadan olub. Qusardakı ali-ibtidai məktəbi və 1920-ci il aprelin iyirmi dördündə Gəncə praporşiklör məktəbini bitirib.

PODPORUÇİK HƏMİD İSGƏNDƏR OĞLU MUSTAFAYEV - 1898-ci il sentyabrın səkkizində Qazaxda anadan olub. Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini bitirib. 1914-18-ci illərdə Bakıda müəllim işləyib. 1918-ci ildə Gəncədə türk hərbi məktəbini bitirib.

PORUÇİK MƏLİKMƏMMƏD SƏTTAR OĞLU MƏLİKOV - 1896-cı il martın on birində Bakıda meşşan ailəsində anadan olub. Bakıda üçüncü ali-ibtidai məktəbi və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan hərbiyyə məktəbini bitirib.

PODPORUÇİK MƏSTAN ZEYNAL OĞLU MƏSTANZADƏ - 1899-cu ildə Şamaxıda meşşan ailəsində anadan olub. Beşsinifli Bakı realnı məktəbini və 1920-ci ildə Azərbaycan hərbiyyə məktəbini bitirib.

PODPORUÇİK MİRMEHDİ MİRƏHMƏDOV - 1894-cü ildə Bakıda anadan olub. Ali ruhani təhsili var. 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan hərbiyyə məktəbini bitirib.

PODPORUÇİK MAHMUD ƏSƏDAĞA OĞLU MUSTAFAYEV - 1899-cu il martın on birində Qazax qəzasının Salahlı kəndində anadan olub. 1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib.

PODPORUÇİK TOFİQ ŞƏRİF OĞLU MİRZƏYEV - 1900-cü il dekabrın birində Tiflisdə anadan olub. Tiflis gimnaziyasını və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan hərbiyyə məktəbini bitirib. İran təəbəsidir. Sovetlər

vaxtı Azərbaycan diviziyasının birinci polkunun qərargah rəisi olub, 1930-cu ildə keçmiş Musavatçı kimi həbs edilib.

UNTER-ZABİT CƏMİL BƏY BAĞIR BƏY OĞLU RƏFİBƏYOV - Cəmil bəy Rəfibəyov 1894-cü ildə Gəncə yaxınlığındakı Balabarmanlar kəndində bəy ailəsində anadan olub. 1908-ci ildən 1916-cı ilədək Gəncə şəhər səkkizillik şəhər məktəbində təhsil alıb.

1918-ci ildə Gəncədə altı aylıq unter-zabit məktəbini bitirib. Həmin ili musavat ordusunun birinci piyada polkunda Qarabağda erməni daşnaklarına qarşı vuruşub. Musavat hökuməti süqut etdikdən sonra Qızıl Ordunun on altıncı diviziyasının iki yüz qırx dördüncü polkunda vzvod komandiri kimi xidmət edib. 1921-ci ildə ikinci kəndli süvari polkunda 1924-cü ilə kimi xidmət etdikdən sonra ordudan tərxis olunub. Musavat zabiti olduğuna görə 1928-ci ilin yayında həbs edilib, iyirmi il müddətinə Novosibirsk, Çustinsk və başqa həbs düşərgələrinə sürgün olunub.

URYADNİK HƏSƏN BƏY FƏTƏLİBƏYOV - Birinci Tatar-Azərbaycan süvari alayının kollec registratoru olub, qoşunu ərzaqla təchiz edib və onu mənzillərə yerləşdirib. Dövlət müşaviri, birinci dərəcəli könüllü əsgər[42] olub. Rus-yapon müharibəsinin, Romanovlar sülaləsinin 300 illik xatirə medalı ilə və məişətdə göstərdiyi fəaliyyətinə görə ordeni ilə 1914-cü ildə Qori şəhər pristavı vəzifəsində işləyəndə həmin il iyunun birində "Müqəddəs Vladimir" ordeninin dördüncü dərəcəsilə təltif olunub.

1886-cı il dekabrın on səkkizində Şuşanın Ətyeməzli kəndində zadəgan ailəsində anadan olub. Qori Seminariyasının Tatar-Azərbaycan şöbəsini 1916-cı il martın beşində, 271 saylı şəhadətnamə ilə bitirib. 1917-ci oktyabrın iyirmi doqquzunda Tatar-Azərbaycan süvari alayının ehtiyat bölməsinə könüllü qəbul olunub. Həmin il noyabrın iyirmi üçündə və dekabrın beşində Müsəlman Korpusuna əsgər yığmaq üçün Borçalı qəzasına ezam olunub. 1918-ci il yanvarın dördündə uryadnik rütbəsi verilib. Həmin il, həmin tarixdə Müsəlman Korpusunun komandiri, general-leytenant Əliağa Şıxlinskinin əmrilə oboz (hərbi araba karvanı) komandiri təyin olunub. 1919-cu il yanvarın 4-də ailə vəziyyətinə görə hərbi xidmətdən tərxis olunub.

Həsən bəy Fətəlibəyovun şəxsi işində ailə tərkibi də qeydə alınmışdır: 1896-cı il aprelin 12-də anadan olan arvadı Ədilə xanım, 1913-cü il dekabrın 4-də anadan olan qızı Leyla xanım, 1915-ci il martın 2-də anadan olan oğlu Ənvər bəy.

* * *

KAPİTAN AĞACƏFƏR ABÜTALIB OĞLU SEYİDOV - 1894-cü il mayın 8-də Şamaxıda meşşan ailəsində anadan olub. Bakıda Aleksandrovski məktəbini və ikinci Tiflis kişi gimnaziyasını bitirib. 1915-ci ildən orduda xidmət edir. 1919-cu ildə praporşiklər məktəbini bitirib. Birinci Dünya müharibəsində fəal iştirakına görə orden və medallarla təltif olunub.

---

[42] Bu vəzifənin ruscası belədir: "бывший волноопределйайушая первого разрйада" Tərcüməsi: Müharibə vaxtı könüllü əsgəri xidmət keçirən, ali təhsilli imtiyazlı şəxs - müəl.

ŞTABS-KAPİTAN XANKİŞİ AĞA OĞLU SARVANSKİ - 1897-ci il yanvarın 24-də Şamaxıda meşşan ailəsində anadan olub. Şamaxıda realnı məktəbi və 1915-ci ildə Mixaylov hərbi məktəbini bitirib.

ŞTABS-KAPİTAN DANİYAL BƏY ŞƏRİFOV - 1915-ci ildə Birinci Tiflis praporşiklər məktəbini bitirib. 1891-ci il iyunun 10-da Qazaxda anadan olub. Ağalıq nəslindəndir. Musavat ordusunun Bakı alayında (Salyan kazarmasında yerləşirdi)ştabs-kapitan rütbəsində xidmət edirdi. 1923-cü ildə bolşeviklər həbs edib. Son taleyi məlum deyil.

PORUÇİK ƏLİ ŞƏMSİ OĞLU ƏSƏDULLAYEV - fevral inqilabından sonra Bakıda "vəhşi diviziya"nın əsgər və zabitlərindən döyüşən alay təşkil edib. Qərargahı "İsmailiyyə" binasında yerləşirdi. 1918-ci ilin mart qırğını vaxtı İçərişəhər ətrafında, Çəmbərəkənddə, Şamaxı yolunda və başqa yerlərdə daşnak-bolşevik qoşunları ilə şiddətli döyüşlər aparıb.

Martın iyirmi doqquzunda Əli Əsədullayevin komandanlığı altında Lənkəran musavatçılarına silah yardımı apararkən, "Evelina" gəmisində bolşeviklərlə silahlı toqquşma olub. Martın 30-da Bakı əhalisi "Dikaya diviziya" alayının tərksilah olunmasına qarşı etiraz mitinqləri keçirib. Təcili çağrılan müşavirədə M.Ə.Rəsulzadənin iştirakı ilə silahlar Bakı Soveti İcraiyyə Komitəsindən geri alınıb. Həmin günü "Dikaya diviziya" alayı Şamaxı yolundakı və Tatarski küçəsindəki sovet qoşun hissələrinə hücum edib, Suraxanıdakı qırmızı qvardiya dəstəsini tərksilah etmişlər. Düşmənə xeyli tələfat verməklə yanaşı, çoxlu əsgər və zabiti əsir almışlar.

Poruçik Əli Əsədullayev 1921-ci ilin dekabr ayında Gürcüstanda həbs olunub.

Beriyanın imzaladığı 15 dekabr 1921-ci il tarixli məktuba əsasən, Əli Əsədullayevi Azərbaycan Fövqəladə Komissarlığı tələb edib. Əli Əsədullayev Beriyanın imzaladığı 30 dekabr 1921 -ci il tarixli orderlə həbsdən azad edilərək Bağırovun sərəncamına göndərilib. İş üzrə heç bir təhqiqat işi aparılmayıb.

Sonralar Əli Əsədullayev Bakıda cıdır meydanında işləyirmiş, daha sonra arvadı ilə birlikdə İrana qaçıb.

Müttəhim Mircəfər Bağırov bu barədə istintaq zamanı bildirdi ki, Əli Əsədullayevin nə üçün istintaqa cəlb olunmaması və həbs edilməməsindən xəbəri yoxdur.

Şahidlər Qasımov Əyyub Mikayıl oğlu, Mehdiyev Əliqulu Kür oğlu göstərdilər ki, Mircəfər Bağırovun Əli Əsədullayevlə münasibətləri çox yaxın imiş ("**M.C.Bağırovun məhkəməsi" kitabı, Bakı, "Yazıçı" nəşriyyatı, 1993-cü il, səh. 39-40).**

ZÜLEYXA XANIM ƏSƏDULLAYEVA - VEBER: - Dayım Əli Əsədullayevi Şura hökumətinin adamları buraxmaq üçün külli miqdarda rüşvət istədilər. Ümumiyyətlə, bu illərdə özbaşınalıq, talançılıq, rüşvətxorluq baş alıb gedirdi. "Qızıl əsgər" hara ayağını qoyurdusa, oranı bərbad edirdi. Xalqa divan tutur, günahlı, günahsız adamları həbs edir, güllələyirdilər. Onların arasında dayım Əli də vardı. H.Z.Tağıyev çoxlu qızıl, brilyant verərək onu həbsxanadan azad etdirdi. Xüsusi sənəd hazırladaraq, ailə üzvləri ilə birlikdə, Azərbaycandan çıxmasına nail oldu.

Poruçik Əli Əsədullayev milyoner Şəmsi Əsədullayevin oğlu, Hacı Zeynalabdin Tağıyevin isə kürəkəni olmuşdur. O, Hacının qızı Leyla xanımın həyat yoldaşı idi.

PORUÇİK İSRAFİL BƏY AĞA OĞLU ŞIXLİNSKİ - 1897-ci il sentyabrın 10-da Qazaxda zadəgan ailəsində anadan olub. Qori şəhərindəki seminariyanın Azərbaycan şöbəsini bitirib. 1918-ci ildə Gəncədə hərbi məktəbi bitirib. Məktəbdə ikinci rotanın praporşiki vəzifəsində işləyib. İyirminci ildə bolşeviklər gələndə AÇK yanında qısa müddət xüsusi təyinatlı dəstənin komandiri olub. Musavatın qatı tərəfdarı və Sovet hökumətinin qatı düşməni olduğu üçün ittiham edilib. 1926-cı ildə Solovetsk həbs düşərgəsinə sürgün olunub.

PORUÇİK ADİL BƏY HƏYATOV - İkinci Bakı süvari alayında ikinci batalyonun komandiri, Birinci Dünya müharibəsi illərində eyni adlı batalyonun komandiri olmuşdur. 1918-ci il avqustun 20-də Şuşanın Malıbəyli kəndini ermənilərdən qəhrəmanlıqla müdafiə etdiyinə görə 1918-ci ildə Türkiyənin "Məcidiyyə" ordeni ilə təltif olunmuşdur.

Xankəndində yerləşən Birinci süvari diviziyasının komandanı polkovnik Əfəndiyev və polkovnik Məmmədov 1919-cu il aprelin 7-də poruçik Adil bəy Həyatova belə bir xasiyyətnamə vermişlər: "Alayın təşkil olunmasında özünü layiqincə göstərən, komandirlik etdiyi batalyonda tədris işlərinin, tərbiyənin və intizamın nümunəvi təşkilində xüsusi səylərini və böyük enerjisini nəzərə alaraq podporuçik Adil bəy Həyatova layiq olduğu poruçik rütbəsi verilməsi barədə vəsadət qaldırıram".

PRAPORŞİK PAŞA BƏY RÜSTƏMOV - 1914-cü il iyulun 24-də Azərbaycan süvari alayına qəbul edilib. 1916-cı il dekabrın 5-də kiçik uryadnik, 1917-ci il sentyabrın 15-də baş uryadnik, həmin il oktyabrın 1-də podpraporşik rütbəsilə təltif olunub. 1916-cı il mayın 31-də döyüşlərdə göstərdiyi igidliyə görə "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsi ilə təltif olunub.

1918-ci ilin oktyabrından Milli Azərbaycan ordusunda hərbi xidmətə başlayıb. Qarayazıda yerləşən Azərbaycan süvari alayının komandiri, polkovnik **(sənəddə adını oxumaq mümkün olmadı - Ş.N**.) Azərbaycan Əlahiddə korpusunun komandirinə yazır ki, xalqımıza sidq-ürəklə xidmət edən podpraporşik Paşa bəy Rüstəmovun praporşik rütbəsilə təltif olunmasını tamamilə qanuni hesab edirəm.

Arxivdə saxlanan bir sənddə 1918-ci il oktyabrın 14-də Paşa bəyin bolşeviklərə qarşı döyüşdə göstərdiyi igidliyi təsvir olunmuşdur: "Zığ yüksəkliyi yaxınlığındakı döyüşdə zabitlərin sayının çatışmazlığı üzündən kiçik gizir Paşa bəy Rüstəmov yarımbölüyə komandirliyi qəbul etdi. Onda Hövsan tərəfindən yüksəkliyə hücumu süvari ilə bizim piyada aparırdı.

Kiçik gizir Paşa bəy Rüstəmov Suraxanı tərəfdən rəqibin cinahına çıxaraq, öz cürətli hücumu ilə daşnak və bolşevikləri tutduqları səngərlərdən qovmağa kömək etdi.

Ümumiyyətlə, arxa cəbhədə olduğu kimi, ön cəbhədə də kiçik gizir Paşa bəy Rüstəmov tapşırılmış zabit vəzifələrinin hamısını layiqincə yerinə yetirirdi".

Paşa bəy 1895-ci il mayın 12-də Gəncə qəzasının Yuxarı Ayıblı kəndində anadan olub. Subaydır. Müharibədən əvvəl təsərrüfatda işləyib.

Savadlıdır.

ARTİLLERİYA KAPİTANI TEYMUR CAHANGİR OĞLU XOYSKİ - 1891-ci il noyabrın 27-də Gəncədə zadəgan ailəsində anadan olmuşdur. Gəncə klassik kişi gimnaziyasını və 1915-ci ildə Tiflis hərbi məktəbini bitirib, Birinci Dünya müharibəsində iştirak edib. Musavat ordusunda isə batalyon komandiri olub. 1920-ci ilin iyul ayında həbs edilib. Ailəsi ilə birlikdə sürgün edilmişdir.

KAPİTAN BAHADIR BƏY İBRAHİM AĞA OĞLU VƏKİLOV - 1897-ci ildə anadan olub. Birinci Dünya müharibəsində "Dikaya diviziya"nın Tatar-Azərbaycan alayında qulluq edib. Döyüşlərdə göstərdiyi igidliyə görə "Müqəddəs Georgi"ordeni ilə təltif olunub. 1920-ci ildə parlament bölüyünün komandiri idi. 1920-ci il mayın otuzunda bolşevik-daşnak dəstələri tərəfindən güllələnib.

KAPİTAN AĞAHÜSEYN MİRZƏHADI OĞLU AĞASIYEV - İçərişəhərdə tacir ailəsində anadan olmuşdur. 1919-cu ildə "Hərbiyyə məktəbi"ni bitirən məzunlardan biri idi. 1920-ci ilin əvvəllərində Milli Ordunun "Yardım alayı"nda rota komandiri olmuşdur.

1921-ci il avqustun dördündə Nəriman Nərimanovun təşəbbüsü ilə iyirmi səkkiz nəfərdən ibarət Türkiyəyə gedəcək Azərbaycanın səlahiyyətli nümayəndəliyi təşkil olunur. Onların arasındakı altı nəfər hərbçidən biri də Ağahüseyn Ağasıyevdi. Diplomatik nümayəndəliyin başçısı İbrahim Əbilov təyin olunmuşdu. Kapitan Ağasıyev əvvəlcə Ankarada səfirliyin hərbi attaşesinin əməkdaşı, sonra isə səfir İbrahim Əbilovun müavini kimi məsul vəzifələrdə çalışmışdır. Qazi Mustafa Kamal paşa Atatürklə görüşmüşdür.

1924-cü ildə Tiflisə çağırılan kapitan Ağahüseyn Ağasıyev Surami şəhərindəki hərbi hissəyə komandir təyin edilir. Bir axşam Surami qalası ətrafındakı gözətçi məntəqələrini yoxlayarkən daşnaklar arxadan xəncərlə vuraraq öldürüblər.

PORUÇİK ƏLİAĞA ƏBDÜLSƏMƏD OĞLU MUSTAFAYEV -1898-ci ildə Salyanda anadan olub. Salyan şəhər dörd illik ibtidai məktəbini bitirib. 1919-20 -ci illərdə musavat ordusunda poruçik rütbəsində qulluq edib. İyirmi səkkiz aprel çevrilişində istilaçı-daşnaklara və XI Orduya qarşı fəal iştirak edərək yaralanıb. Otuz yeddinci ilə kimi Salyan və Laçında hərbi komissarlıqda işləyib. Həmin ili Salyan NKVD-nin rəisi Arutunyan tərəfindən həbs edilib. Təqsiri sübut olunmadığına görə azad edilib. 1945-ci ilə qədər Salyan Xalq Maarif şöbəsində və rayon ictimai - təminat şöbəsində mühasib işləyib. Həmin ili Musavat ordusunun zabiti olduğu bəhanə edilərək yenidən on il müddətinə həbs edilib.

* * *

PRAPORŞİK HÜSEYN HEYDƏR OĞLU EYVAZOV - 1895-ci ildə Salyanda kəndli ailəsində anadan olub. Salyan ali-ibtidai məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK AĞABALA ƏLİ OĞLU YUSİFOV - 1898-ci ilin yanvar ayında Bakıda fəhlə ailəsində anadan olub. Gimnaziya təhsili alıb. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK MÜRSƏL HACI MƏMMƏDƏLİ OĞLU İBRAHİMOV - 1899-cu il yanvarın 5-də Şamaxıda anadan olub. Şamaxı şəhər məktəbini və 1918-ci ildə Gəncədə podpraporşiklər məktəbini bitirib. Fars və erməni dillərini mükəmməl bilir.

PRAPORŞİK MƏHƏRRƏM HÜSEYNQULU OĞLU İSKƏNDƏROV - 1895-ci ildə Bakıda anadan olub. Birinci Bakı kişi gimnaziyasının dörd sinfini və 1919-cu ildə Gəncədə praporşiklər məktəbini bitirib. 1918-ci ildə Denikin və daşnaklarla döyüşlərdə iştirak edib.

PRAPORŞİK KAZIM GÜLMƏMMƏD OĞLU KƏRİMOV - 1897-ci ildə Bakıda meşşan ailəsində anadan olub. 1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK İSA QAFAR OĞLU MANAFOV - 1894-cü ildə Naxçıvanın Baş Noraşen kəndində anadan olub. Bakıdakı üçüncü ali-ibtidai və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK LƏTİF ZEYNAL OĞLU SADIQOV - 1899-cu ildə Salyanda anadan olub. Dörd sinifli məktəb təhsili var. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Milli orduda rota komandiri işləyib.

PRAPORŞİK NEMƏTULLA TALIB OĞLU TALIBOV - 1895-ci ildə Maştağa kəndində anadan olub. Bakıda ticarət məktəbini və 1918-ci ildə Gəncədə hərbiyyə məktəbini bitirib.

PRAPORŞİK FƏRRUX ŞABAN OĞLU ŞABANOV - 1900-cu ildə Tiflisdə anadan olub. Gimnaziya təhsili alıb. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK MƏMMƏD CƏFƏRQULU OĞLU RƏHİMOV - 1895-ci il aprelin 2-də Bakıda meşşan ailəsində anadan olub. Bakıda üçüncü ali-ibtidai məktəbdə və mühasibatlar kursunda oxuyub. Fars dilini bilir. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK SALMAN QURBAN OĞLU SƏLİMOV - 1894-cü ildə Bakıda meşşan ailəsində anadan olub. Bakıda rus-tatar məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK ABDULLA BAQİ OĞLU SÜLEYMANOV - 1895-ci ildə Göyçayda kəndli ailəsində anadan olub. Göyçayda iki sinifli məktəbdə oxuyub. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK ABDULLA ŞƏFİ OĞLU ŞƏFİYEV - 1896-cı ildə Bakıda meşşan ailəsində anadan olub. Beş sinifli Bakı gimnaziyasını və 1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib. 1922-ci ildən "Azərbaycanın müstəqilliyi uğrunda!" gizli hərbi təşkilatın üzvü olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya ÇK-sı həbs edib.

PRAPORŞİK HƏMİD MƏŞƏDİ AĞA OĞLU RÜSTƏMBƏYLİ - 1900-cü il oktyabrın on altısında Gəncədə meşşan ailəsində anadan olub. Gimnaziya təhsili alıb. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK MİRMEHDİ MİR YUSİF OĞLU SƏMƏNDƏROV - 1899-cu il mayın 25-də Ordubadda kəndli ailəsində anadan olub. Ali-ibtidai təhsili var. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Musavat ordusunda rota komandiri olub.

PRAPORŞİK AĞASƏLİM SƏFTƏR OĞLU ŞƏRİFOV - 1896-cı il yanvarın 10-da Bakıda anadan olub. Realnı məktəbi bitirib. Musavat ordusunun nəzdində yaranmış tədris komandasında hərbi təhsil alıb.

PRAPORŞİK NƏSİR AĞA CAVADƏLİ OĞLU NUBAZOV - 1897-ci il mayın 15-də Salyanda anadan olub. Salyanda beş sinifli kənd məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK YUSİF HƏMİD OĞLU NƏCƏFOV - 1901-ci il dekabrın 25-də Bakının Saray kəndində anadan olub. Bakıda üç sinifli ali-ibtidai təhsil alıb, 1919-cu ildə Gəncədə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK NEMƏTULLA HƏNİFƏBƏY OĞLU NƏCƏFOV - 1900-cu il martın 1-də Bakıda meşşan ailəsində anadan olüb. Üçüncü Bakı ali-ibtidai məktəbinin dörd sinfini bitirib 1918-ci ildə Milli Orduya könüllü gəlib. Sovetlər vaxtı Ali-pedaqoji kursun tələbəsi olub. 1920-ci ildən musavatçı kimi gizli fəaliyyət göstərib. 1923-cü ilin iyul ayında Zaqafqaziya ÇK-sı həbs edib.

PRAPORŞİK İSKƏNDƏR BƏZİRGAN OĞLU RÜSTƏMOV - 1895-ci ildə Bakıda anadan olub. Bakıda rus-tatar məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK TAHİR NAİB OĞLU QULİYEV - 1901-ci il mayın 27-də Sabunçu kəndində anadan olub. Qusarda ali-ibtidai məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK XOSROV YUSİF OĞLU MƏLİKAHNƏZƏROV - 1901-ci il iyunun 6-da Şuşada zadəgan ailəsində anadan olub. Şuşa realnı məktəbini və 1918-ci il noyabrın iyirmisində Gəncədəki podpraporşiklər məktəbini bitirib.

PRAPORŞİK BALA BƏY MEHDİ BƏY OĞLU MÜRSƏLBƏYOV - 1896-cı il yanvarın 16-da Bakıda meşşan ailəsində anadan olub. Bakıdakı beş sinifli realnı məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK MƏMMƏD İBRAHİM OĞLU BABAŞOV - 1896-cı il martın on beşində Bakının Pirşağı kəndində anadan olub. Bakıda üç sinifli gimnaziyanı və 1919-cu il mayın 5-də Gəncə praporşiklər məktəbini bitirib. Musavat ordusunda vzvod komandiri olub.

PRAPORŞİK SULTAN ƏBDÜL OĞLU DADAŞOV - 1892-ci il yanvarın 2-də Bakının Fatmayi kəndində anadan olub. Bakıda Ali-ibtidai məktəbi və 1919-cu ildə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK RAMAZAN ABUZƏR OĞLU ZEYNALOV - 1897-ci ildə Bakıda anadan olub. Dörd sinifli gimnaziyanı və 1920-ci il aprelin 24-də Azərbaycan hərbiyyə məktəbini bitirib.

PRAPORŞİK MÖVSÜM ABBAS OĞLU İBRAHİMOV - 1895-ci ildə Qazax qəzasının Azaflı kəndində anadan olub. Musavat ordusunda qərargah vzvodunun komandiri olub. İki sinifli kənd məktəbini bitirib.

PRAPORŞİK ABDULLA QAFUR OĞLU AXUNDOV - 1896-cı ildə Bakıda, İçəri şəhərdə Soborni küçəsindəki on yeddi saylı evdə meşşan ailəsində anadan olub. Bakıdakı Ali-ibtidai məktəbin üç sinfini bitirib. 1918-ci il oktyabrın 3-də Gəncədəki praporşiklər məktəbinə daxil olub, 1919-cu ildə həmin məktəbi bitirib. Şimal sərhəddimizdə aqqvardiyaçı general Denikinin ordusuna qarşı

döyüşlərdə iştirak edib. Milli Ordunun yaranmasından əvvəl 1918-ci ilədək "Qafqaz və Merkuri" şirkətində matros kimi xidmət edib.

PRAPORŞİK AĞALAR ABDI OĞLU BƏDİRBƏYOV - 1895-ci ildə Şamxorun Morul kəndində anadan olub. Altı sinifli kişi gimnaziyasını bitirib. 1916-cı ildə Tiflis praporşiklər məktəbində oxuyub. Böyük Vətən müharibəsində mayor rütbəsində vuruşub. 1977-ci ildə vəfat edib. Xalq artisti Leyla xanım Bədirbəylinin atasıdır.

PRAPORŞİK ABBAS ƏLİ OĞLU AĞAYEV - Bakının Aşağı Çəmbərəkəndindəki on bir saylı mənzildə kəndli ailəsində anadan olub. Ali-ibtidai təhsil alıb. 1918-ci ildə Gəncə praporşiklər məktəbinə daxil olub.

PRAPORŞİK HƏBİBULLA ƏHMƏD OĞLU ABAKAROV - Milliyyətcə ləzgidir. 1896-cı ildə kəndli ailəsində anadan olub. Telavi şəhərindəki kişi gimnaziyasının dörd sinfini və 1918-ci ildə Gəncədəki üç aylıq praporşiklər məktəbini bitirib. Milli Orduda praporşik kimi xidmət edib.

PRAPORŞİK ƏLİABBAS ƏLƏKBƏR OĞLU ƏLİYEV - 1900-cu il martın 11 - də Bakıda anadan olub. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK HÜSEYN KƏRİM OĞLU ƏLİYEV - 1897-ci ildə Cavanşir qəzasında kürd ailəsində anadan olub. 1919-cu ildə Gəncədə Azərbaycan praporşiklər məktəbini bitirib. Bundan əvvəl birinci Tiflis kişi gimnaziyasında təhsil alıb.

PRAPORŞİK ƏBDÜLXƏLİL ƏLİBALA OĞLU ƏLƏSGƏROV 1894-cü ildə Bakıda meşşan ailəsində anadan olub. Ev təhsili alıb. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK ƏLİABBAS BABAYEV - 1895-ci ildə Bakıda meşşan ailəsində anadan olub. Bakıda iki sinifli realnı məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK İSMAYIL MƏMMƏD OĞLU BABAYEV - 1900-cu il sentyabrın 23-də Gəncədə kəndli ailəsində anadan olub. Gəncədə altı sinifli gimnaziyanı və 1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib.

PRAPORŞİK ƏLHÜSEYN AĞAHÜSEYN OĞLU DADAŞOV - 1899-cu il avqustun 3-də Bakıda meşşan ailəsində anadan olub. Bakıda ticarət məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Həmin il iyunun 24-də Tiflis aviasiya məktəbinə qəbul olunub. 1920-ci ildə bolşeviklərin istilası ilə əlaqədar təhsilini davam etdirə bilməyib. Musavat ordusunda rota komandiri olub.

PRAPORŞİK MUSA ƏMİRHƏMZƏ OĞLU ƏMİRASLANOV - 1898-ci il dekabrın 31-də Bakıda meşşan ailəsində anadan olub. Bakıdakı üçüncü Ali-ibtidai məktəbini bitirib. 1918-ci il noyabrın 18-dən 1919-cu il sentyabrın 1-dək Gəncədəki praporşiklər məktəbində oxuyub. Sovetlər vaxtı Azdiviziyada dördüncü polkda rota komandiri olub. 1930-cu ildə keçmiş Musavatçı kimi həbs edilib.

PRAPORŞİK AĞAKİŞİ MƏMMƏDQASIM OĞLU HAŞIMOV - 1890-cı il mayın 1-də Bakının Suraxanski küçəsindəki qırx iki saylı evdə anadan olub. Gəncədəki praporşiklər məktəbini 1919-cu ildə bitirib.

PRAPORŞİK HƏSƏN CƏFƏRQULU OĞLU ƏSGƏROV - 1895-ci il yanvarın 7-də Bakıda meşşan ailəsində anadan olub. Musavat ordusunda rota

komandiri. 1918-ci il noyabrın on səkkizində Gəncə praporşiklər məktəbinə daxil olub. 1919-cu il mayın 21-də həmin məktəbi bitirib. Hərbi məktəbdən əvvəl Bakıda Ali-ibtidai təhsil də almışdı.

PRAPORŞİK MƏMMƏDƏLİ HACIBABA OĞLU AĞABABAYEV - 1900-cu il sentyabrın iyirmi birində Bazarnı küçəsindəki yüz on bir saylı evdə meşşan ailəsində anadan olub. Bakıdakı "Səadət" müsəlman məktəbinin dörd sinfini bitirib. 1919-cu ildə Gəncə praporşiklər məktəbində oxuyub. Praporşik kimi milli orduda xidmət edib.

PRAPORŞİK ƏHMƏD ƏLİMƏMMƏD OĞLU ƏSGƏROV - 1895-ci ildə Bakıda fəhlə ailəsində anadan olub. Rus-tatar məktəbini bitirib. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Milli orduda praporşik kimi xidmət edib. 1918-ci ildə Bakı uğrunda döyüşlərdə bolşeviklərə qarşı vuruşub.

PRAPORŞİK ƏLİ MƏŞƏDİ ZEYNAL OĞLU ATAKİŞİYEV - 1890-cı il yanvarın 10-da Gəncədə kəndli ailəsində dünyaya gəlib. İlkin təhsilini iki sinifli rus-tatar məktəbində alıb. 1919-cu ildə isə Gəncə praporşiklər məktəbini bitirib.

PODPORUÇİK ƏLİ HACI MƏMMƏDƏLİ OĞLU MƏLİKOV - 1896-cı ildə Salyanda anadan olub.Gəncədə üçsinifli məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Milli Orduda rota komandiri olub.

PODPORUÇİK FİRİDUN ƏBDÜLRZA OĞLU NAĞIYEV - 1897-ci ildə Bakının Pirşağı kəndində kəndli ailəsində anadan olub. Üçüncü Bakı Ali-ibtidai məktəbində təhsil alıb. 1920-ci il aprelin 24-də Azərbaycan hərbiyyə məktəbini bitirib.

Sovetlər vaxtı orduda təlim rotasının komandiri olub. 1922-ci ildən "Azərbaycanın müstəqilliyi uğrunda!" gizli hərbi təşkilatın üzvü, 1923-cü ilin iyul ayında Zaqafqaziya ÇK-sı həbs edib, sürgünə göndərib.

PODPORUÇİK HÜSYEN KAZIM OĞLU PAŞAYEV - 1897-ci il iyunun birində Qazaxda ziyalı ailəsində anadan olub. Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini bitirib. 1920-ci il aprelin 24-də Azərbaycan Hərbiyyə məktəbini bitirib. 1920-ci ildən 1923-cü ilədək Azdiviziyada qərargah rəisi işləyib. 1923-cü ilin iyul ayında keçmiş musavat zabiti olduğuna görə Zaqafqaziya "ÇK"-sı tərəfindən həbs edilib və SSRİ-nin Şimal sərhədlərinə sürgün edilib.

PODPORUÇİK MİKAYIL CƏBRAYIL OĞLU RƏHİMOV - 1901-ci il martın beşində Bakıda anadan olub. Bakıda texniki təhsil alıb. 1920-ci il aprelin 24-də Azərbaycan hərbiyyə məktəbini bitirib.

PODPORUÇİK CAVAD MİRZƏMEHDİ OĞLU AXUNDOV - 1896-cı il iyunun iyirmisində Bakının Tverskoy küçəsindəki səksən doqquz saylı mənzildə meşşan ailəsində anadan olub. Bakıda rus-tatar və üçüncü Ali-ibtidai məktəbi bitirib. 1918-19-cu illərdə Gəncə praporşiklər məktəbində oxuyub. Milli Orduda pulemyot komandasının rəisi olub. Sovetlər vaxtı Bakı şəhər sığorta kassasında işləyib. 1921-ci ildən "Azərbaycanın müstəqilliyi urrunda!" gizli hərbi təşkilatın üzvü olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya ÇK-sı həbs edib, şimal sərhədlərinə sürgünə göndərib.

PODPORUÇİK HƏSƏNBALA AŞIR OĞLU ƏBDÜSALAMOV - 1894-cü ilin oktyabrında Bakıda meşşan ailəsində anadan olub. Bakıda dörd sinifli Ali-

ibtidai məktəbi bitirib. 1920-ci il aprelin 24-də Gəncə praporşiklər məktəbini bitirib. 1923-cü ildə XI Qızıl ordunun xüsusi şöbəsi tərəfindən həbs edilib.

PODPORUÇİK ƏLİAĞA MƏMMƏDHÜSEYN OĞLU ABDULLAYEV - 1895-ci il fevralın birində Lənkəranda fəhlə ailəsində anadan olub. Lənkəranda dörd sinifli ibtidai məktəbdə təhsil alıb. 1920-ci il aprelin 24-də Gəncədəki Azərbaycan hərbiyyə məktəbini bitirib. Milli Orduda rota komandiri idi. 1923-cü ildə XI Qızıl Ordunun xüsusi şöbəsi tərəfindən həbs edilən əlli iki musavat zabiti ilə birlikdə Nargin adasına sürgün olunub.

PODPORUÇİK FƏRRUX İBRAHİM OĞLU ƏLİYEV - 1896-cı il mayın 17-də Bakının Ramana kəndində kəndli ailəsində dünyaya gəlib.Tiflisdəki dördüncü kişi gimnaziyasını və 1918-ci ildə Azərbaycan hərbiyyə məktəbini bitirib. Musavat ordusunda rota komandiri olub.

PODPORUÇİK XƏLİL PAŞA OĞLU ƏLİYEV - 1896-cı il fevralın 23-də Bakının Nardaran kəndində anadan olub. Bakıdakı üçüncü Ali-ibtidai məktəbini bitirib. 1919-cu il mayın 5-də Gəncədə praporşiklər məktəbini bitirib. 1920-ci il aprelin 27-də bolşeviklər həbs edib.

PODPORUÇİK ƏJDƏR MEHDİ OĞLU HACIBƏYLİNSKİ - 1897-ci ildə İrəvan şəhərində anadan olub. 1920-ci il aprelin 24-də Azərbaycan hərbiyyə məktəbini bitirib. Altı sinifli İrəvan kişi gimnaziyasını bitirib.

PODPORUÇİK İBRAHİM İSMAYIL OĞLU AXUNDZADƏ - 1899-cu il oktyabrın 20-də Gəncədə ziyalı ailəsində anadan olub. 1918-ci ildə Azərbaycan podpraporşiklər məktəbini bitirib. Ondan əvvəl Müəllimlər Seminariyasını bitirib. Gəncə şəhər kitabxanasının müdiri işləyib. Musavat ordusuna könüllü xidmətə gəlib. Sovetlər vaxtı Azsvod hərbi məktəbində tədris hissə müdiri işləyib. 1921-ci ildən "Azərbaycanın müstəqilliyi uğrunda!" gizli hərbi təşkilatın üzvü olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya ÇK-sı həbs edib, SSRİ-nin Şimal sərhədlərinə sürgün olunub.

PODPORUÇİK MƏMMƏDHÜSEYN HACI FƏRRUX OĞLU ƏLİYEV - 1895-ci ildə Bakıda Böyük Krepostnoy küçəsindəki beş saylı evdə anadan olub. Bakıda üç sinifli ticarət məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PODPORUÇİK ƏJDƏR QƏNİ OĞLU BABAYEV - 1900-cu il dekabrın 26-da Bakıda iranlı təəbənin ailəsində anadan olub. Bakıda beş sinifli gimnaziyanı və 1920-ci il aprelin 24-də Azərbaycan hərbiyyə məktəbini bitirib. Sovetlər vaxtı Novoçerkassk Kənd Təsərrüfatı İnstitutunda təhsil alıb. 1922-ci ildən "Musavat gizli hərbi təşkilatı"nın üzvü olub. 1923-cü ilin iyul ayında həbs edilib. Azərbaycan SSR CM-nin 57, 58, 65, 66-cı maddələrilə ittiham olunaraq sürgünə göndərilib.

PODPORUÇİK MÖVSÜM MƏZAHİR OĞLU BƏYDƏMİROV - 1899-cu ildə Bülbülədə kəndli ailəsində anadan olub. Sabunçu qəsəbəsindəki dörd sinifli Ali-ibtidai məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PODPORUÇİK SADIQ ƏSGƏR OĞLU VƏKİLOV - 1895-ci ildə Qazax qəzasının Salahlı kəndində ziyalı ailəsində anadan olub. Musavat Ordusunda üçüncü Gəncə piyada alayında və üçüncü Şəki süvari alayında kiçik zabit kimi xidmət edib. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını və 1918-ci ildə Gəncədəki praporşiklər məktəbini bitirib.

PODPORUÇİK ABBAS ƏLİ OĞLU ZEYNALOV - 1895-ci il mayın 25-də Poltaratsk şəhərində meşşan ailəsində anadan olub. Beş sinifli gimnaziyanı və Gəncədəki hərbiyyə məktəbini bitirib.

PODPORUÇİK SADIQ HƏSƏN OĞLU İMANOV - 1898-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. Bakı rus-tatar və ticarət məktəblərini, 1918-ci ildə isə Gəncə praporşiklər məktəbini bitirib. 1920-ci ilin aprel ayında bolşeviklər Bakıya hücum edəndə həbs edilib, "filtrasiya"adı ilə Nargin adasına sürgün olunub. Sovetlər vaxtı Azərbaycan ticarət idarəsində işləyib. 1922-ci ildən "Azərbaycanın müstəqilliyi uğrunda!" gizli hərbi təşkilatın üzvü olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya ÇK-sı həbs edərək Şimal sərhədlərinə sürgünə göndərib.

PODPORUÇİK AĞAƏLİ HACIƏLİ OĞLU İSMAYILOV - 1895-ci ildə Bakıda meşşan ailəsində anadan olub. Bakı kişi gimnaziyasının üç sinfini və Gəncə praporşiklər məktəbini bitirib. Rus və türk dillərini mükəmməl bilib.

PODPORUÇİK RƏHİM HADI OĞLU İMANOV - 1902-ci il martın 3-də Bakıda doğulub. Bakıda rus-tatar məktəbini və 1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib. Qusar alayanda rota komandiri olub.

PODPORUÇİK AĞARƏHİM BƏHMƏN MİRZƏ OĞLU QULUBƏYOV - 1896-cı ildə Bakıda meşşan ailəsində anadan olub. Bakıda beş sinifli gimnaziyanı və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Milli Orduya könüllü gəlib.

PODPORUÇİK İDRİS İSMAYIL OĞLU QULİYEV - 1899-cu il mayın 20-də Şuşada kəndli ailəsində anadan olub. Şuşada realnı məktəbi və 1920-ci il aprelin 26-da Azərbaycan hərbiyyə məktəbini bitirib. Fransız, alman və erməni dillərini kamil bilirmiş.

PODPORUÇİK ƏMİRCAN MƏMMƏDƏLİ OĞLU ƏKBƏROV - 1894-cü ildə Nuxa şəhərində anadan olub. İlk təhsilini Nuxa şəhər dörd sinifli məktəbdə alıb. 1915-ci ildə poçtda çinovnik olub. 1917-ci ildə Tiflisdə praporşiklər məktəbini bitirib. Milli Orduda podporuçik kimi xidmət edib.

PODPORUÇİK ƏLİ SƏMƏD OĞLU ALLAHVERDİYEV - 1891-ci il mayın 12-də Gəncədə meşşan ailəsində anadan olub. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Milli Ordunun altıncı alayında podporuçik kimi xidmət edib.

PODPORUÇİK ƏLİ İSRAFİL OĞLU AXUNDOV - 1895-ci ildə Şamaxıda meşşan ailəsində anadan olub. Bakıda orta politexnik məktəbini bitirib. 1919-cu il sentyabrın 10-da Milli Orduya hərbi qulluğa çağrılıb. 1920-ci il aprelin 24-də Azərbaycan hərbiyyə məktəbini bitirib.

PODPORUÇİK MALİK HEYDƏR OĞLU ƏLİYEV - 1898-ci ildə Bakıda meşşan ailəsində anadan olub. Bakıda Ali-ibtidai məktəbin dörd sinfini bitirib. 1918-ci il noyabrın 16-da Gəncə hərbi məktəbinə daxil olaraq oranı 1919-cu ildə bitirib.

PODPORUÇİK AĞA DADAŞ OĞLU MƏLİKOV - 1897-ci ildə Salyanda kəndli ailəsində anadan olub. Salyanda iki sinifli məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib.

PODPORUÇİK ABBAS ZEYNALABDİN OĞLU RƏSULOV - 1895-ci ildə Bakıda anadan olub. Üçüncü Bakı rus-tatar məktəbində təhsil alıb. 1919-cu ildə Gəncədə praporşiklər məktəbini bitirib.

PODPORUÇİK RƏHİM ALLAHQULU OĞLU RƏHİMOV - 1893-cü ildə Naxçıvanın Baş Noraşen kəndində anadan olub. Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini bitirib. 1916-cı ildən hərbi xidmətdədir. Tiflis kadet korpusunu bitirib.

PODPORUÇİK CƏLAL ƏLƏSGƏR OĞLU SEYİDBƏYLİ - 1901-ci ildə Goranboyun Sarov kəndində anadan olub. Gəncədə dörd sinifli məktəb bitirib. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Musavat Ordusunda rota komandiri olub.

PODPORUÇİK DƏRAB CABBAR OĞLU SULTANOV - 1902-ci ildə Bakıda meşşan ailəsində anadan olub. Birinci Tiflis kişi gimnaziyasını və Azərbaycan hərbiyyə məktəbini bitirib.

PODPORUÇİK ZAHİD CÜMŞÜD OĞLU ŞIXƏLİBƏYOV - 1897-ci il oktyabrın 6-da kəndli ailəsində anadan olub. Ali-ibtidai təhsil alıb. 1920-ci il aprelin 24-də Azərbaycan hərbiyyə məktəbini bitirib.

PODPORUÇİK MƏMMƏD BƏY ƏLİ OĞLU ŞEYDAYEV - 1902-ci il sentyabrın 18-də Tiflisdə fəhlə ailəsində anadan olub. Beş sinifli ticarət məktəbini bitirib. İran təbəəsidir. 1919-cu ildə praporşiklər məktəbini bitirib.

FELDFEBEL CƏLİL CAVAD OĞLU ƏHMƏDOV - 1895-ci ildə Cəbrayılda kəndli ailəsində anadan olub. Musavat ordusuna könüllü xidmət edib.

FELDFEBEL DAVUD HƏŞİM OĞLU ABDULLAYEV -1895-ci ildə Zaqatalada azəri türkünün ailəsində anadan olub. Musavat ordusuna könüllü xidmət edib. Ailədə təhsil alıb.

FELDFEBEL TAHİR YUSİF OĞLU RAMARANOV - 1900-cu il fevralın 6-da Qaxın İlisu kəndində anadan olub. Zaqatala sənət məktəbini bitirib. Milliyyətcə ləzgidir.

YUNKER PAŞA AĞABALA OĞLU BABAYEV - 1902-ci il aprelin 20-də Bakıda kəndli ailəsində anadan olub. Altı sinifli Bakı realnı məktəbini bitirib. Musavat ordusuna könüllü gəlib. Bakıdakı Azərbaycan hərbiyyə məktəbində təhsil alıb.

YUNKER MUXTAR ABUZƏR OĞLU ZÜLFÜQAROV - 1902-ci il mayın 25-də Qubanın Çiçi kəndində anadan olub. Quba qəzasında ruhani seminariyasını və Azərbaycan hərbiyyə məktəbini bitirib. Beş dil bilib: ərəb, türk, fars, alman və tat.

YUNKER SULTAN MƏMMƏD OĞLU ŞAYLİKOV - 1898-ci il aprelin 25-də Şuşanın Alxaslı kəndində anadan olub. İki sinifli kənd məktəbini və 1920-ci il aprelin 24-də Azərbaycan hərbiyyə məktəbini bitirib. Hərbiyyə məktəbinə 1919-cu ilin noyabrında qəbul olunub.

KVARTİRMEYSTER İBRAHİM AĞAKİŞİ OĞLU ATAKİŞİYEV - 1897-ci ildə Bakıda meşşan ailəsində anadan olub. Bakıda yeddinci rus-tatar və Ali-ibtidai məktəbini bitirib. 1919-1920-ci illərdə Azərbaycan hərbiyyə məktəbini bitirib.

Bu siyahını tamamlamaq çox çətindir. Ona görə ki, iyirminci ilin aprelindən sonra bolşevik-daşnak orduları tərəfindən qətlə yetirilən, sürgün olunan zabit oğullarımız haqqında məlumat çox azdır. Arxiv sənədlərində və ya yaddaşlarda onların bəzilərinin ad-familiyası, bəzilərinin də ya adı, ya da familiyası qalıb. Ona görə də onları olduğu kimi sizə təqdim edirik: polkovnik Hüseynxan Naxçıvanlı, podpolkovnik Yaqub bəy Əhmədzadə podpolkovnik Nağı bəy Əlizadə, mayor İlyas bəy Talışxanlı, ştabs-rotmistr Murad xan Naxçıvanlı, sıravi hərbi qulluqçular: İbrahim bəy Fəttahov, Cəfər bəy Axundzadə, Fərhad bəy Ağalarov, Hüseyn bəy Mirizadə və Mehdizadə.

KAPİTAN YAQUB BƏY SADIQ BƏY OĞLU AXMETYEV - Milliyyətcə tatardır. 1894-cü ildə Tiflisdə anadan olub. 1914-cü ilin sentyabrında Tiflisdəki kadet korpusunu bitirmişdir. 1917-ci ilə kimi Türkiyənin Ərzincan şəhərində yerləşən 39-cu diviziyanın Quba alayında xidmət etmişdir. 1918-ci ildə Azərbaycan Milli Ordusuna könüllü daxil olmuşdur. Bir il sonra Zaqatalaya komendant təyin edilmişdir. 1920-ci il iyulun 9-da Şəki və Zaqatalada bolşeviklərə qarşı başlanan üsyanın başçılarından biri idi. Zaqatala qalasını tutan üsyançılar kapitan Yaqub bəyin başçılığı ilə on beş gün bolşeviklərə qarşı vuruşurlar. İyulun 20-də komendant-kapitan Yaqub bəy Axmetyev yaralanıb ələ keçmiş və bolşeviklər tərəfindən edama məhkum edilmişdir. Az müddət Zaqatala qalasında saxlanan mərd kapitan Yaqub bəy ağır yaralı halda kameranın divarına yazmışdır: "Mən kapitan Axmetyev ölüm hökmü altında yatıram. Heç bir cinayət eləməmişəm. Vətənim Azərbayçanın azadlığı uğrunda bolşeviklərə qarşı vuruşdum. Musavat zabiti olduğuma görə güllələnməyə məhkum olmuşam". Həyat yoldaşı Vəsilə xanım Musabəyova müəllimə idi. Bolşeviklər Yaqub bəyə edam olunması haqqında qərar oxuyanda, "Qorxma, mətin ol, nahaq axıdılan qanının intiqamını unutmarıq" - deyə hayqırdığı üçün Vəsilə xanımı Cənub cəbhəsi tribunalının sədri cəllad Georgi Atarbekov (Atarbekyan) sonralar da "fəxrlə" deyirmiş ki, Vəsilə xanım Musabəyovanı və əri Yaqub bəy Axmetyevi özüm güllələdim.

Ordu quruculuğumuz haqqında bir məsələni də xüsusilə vurğulamaq istərdim. Otuzuncu illərdən sonra Rusiya və Azərbaycanın bədnam tarixçiləri tərəfindən çarizmə və cümhuriyyətə qarşı eyni topdan güllə atmaq, azərbaycanlıların ordu sıralarına çağırılmaması iddiasını əsaslandırmaq, ümumiyyətlə, Azərbaycan Respublikasının ordu quruculuğu üzərinə kölgə salmaq məqsədilə bu ifadə işlənməyə başlamışdır. Halbuki, nə "Dikaya diviziya" vəhşilərdən ibarət idi, nə də qırx minə yaxın ordu təşkil etmiş respublika boş yerdə hərbi quruculuq yaratmışdı. Üstəlik, onu da deyək ki, bu orduya Əliağa Şıxlinski, Səmədbəy Mehmandarov kimi dünya şöhrətli sərkərdələr başçılıq etmişdi.

Tarixi saxtalaşdırmaq - xalqın ömür yolunu çaşdırmaq, keçmişini qaranlıq içərisində itirmək, gələcəyini dumanlığa qərq etməkdir.

Belə unutqan tarixçilərimiz haqqında istiqlal şairimiz Məhəmməd Hadi Qafqaz İslam Ordusunun Bakını işğalçılardan təmizlədiyi gündə - 1918-ci il sentyabrın 15-də "Türk nəğməsi"şerində yazırdı:

Türkün tökülən qanları beyhudə

gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi
hədərmi?
Dörd ildə verilmiş bu qədər can
hədər olmaz,
Məfkurə yolunda tökülən qan
hədər olmaz.
Qan ilə qazandıq zəfəri verməyiz
əldən,
Xövf eyləmədik atəşi dəhhaşe
düvəldən.

Qəribə burasıdır ki, gec də olsa, rus hərb tarixçisi, polkovnik V.V.Popov 1997-ci ildə "Voenno-istoriçeskiy jurnal"ın ikinci sayında "Dikaya diviziya"nın Birinci Dünya müharibəsində və Port-Artur döyüşlərində qəhrəmanlığını etiraf etmişdir. O yazır: "1917-ci ilin oktyabr inqilabına və ondan sonra keçirilən tərxisə qədər qafqazlılar hərbi xidməti rus ordusunun seçmə hissələrində, o cümlədən imperatorun mühafizəsində keçirdilər. Rus-yapon və Birinci Dünya müharibələrində Qafqaz müsəlmanlarından təşkil edilmiş birləşmələr (məsələn, "Vəhşi diviziya" və ya "Tuzemnaya") və süvarilər öz igidliyi və cəldliyilə, cəbhənin ən qorxulu sahələrindəki vuruşmalarda cəsarət və qorxubilməzliyi ilə fərqlənirdilər".

Bəzi musavat əsgər və zabitinin bioqrafiyasında keçmiş imperiya ordusundan qalma istilah və rütbə adlarına rast gəlirik. 1918-1920-ci illərdə işlənən bu sözlərin və rütbələrin oxunuşunda müasir oxucunun çətinlik çəkəcəyini nəzərə alıb onlardan bəzisinin izahını da veririk.

Praporşik - Çar ordusunda orta dərəcəli zabit rütbəsi

Feldfebel - Rota komandirinin təsərrüfat üzrə müavininə verilən hərbi rütbə.

Yunker - Rütbə yunkerlər məktəbini bitirən zadəgan balalarına verilirdi.

Ştab-rotmistri - Süvari qoşununda qərargah zabiti.

Poruçik - Çar ordusunda podporuçiklə ştabs-kapitan arasında olan zabit rütbəsi.

Uryadnik - Orduda taqım komandirinin müavini. Rütbə əsasən Kazak qoşunlarında xidmət edənlərə verilirdi.

Podporuçik - 1920-ci ilə qədər çar və Musavat ordusunda kiçik zabit rütbəsi.

Podpraporşik - Yeni təşkil edilmiş əsgəri heyətdə fərqlənən hərbi qulluqçuya verilən kiçik rütbə.

Kadet korpusu - Aprel inqilabına qədər zadəgan balalarına məxsus qapalı hərbi orta məktəb. Varlı ailələrin uşaqları yeddi-səkkiz yaşında bu məktəbə qəbul olunurdu.

Realnı məktəb - İnqilabdan əvvəl orta məktəb.

Meşşan ailəsi - Şəhərdə xırda alverçilərdən, sənətkarlardan və aşağı təbəqəli qulluqçulardan olan ailələri 1920-ci ilə qədər belə adlandırırdılar.

Dekabr, 1997-ci il.

AZƏRBAYCAN SƏRKƏRDƏLƏRİNİN FACİƏSİ

(1918-1920-Cİ İLLƏR)

Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır. Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər.

Nəriman NƏRİMANOV.

Yurddaşlar, bu qanlı yollarla irəliləyərək biz azadlıq yolunda şəhid olmuş yoldaşlarımızı bir an belə unutmadan çalışmalıyıq. Hamı bilməlidir ki, azadlığın gələcəyi gün uzaqda deyil.

Məmməd Əmin RƏSULZADƏ.

QIRMIZI TERROR

İyirminci il martın iyirmisində, Novruz bayramı axşamı daşnaklar Əsgəran keçidini kəsdilər. Onlar bu yeganə keçidi kəsməklə Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq istəyirdilər. Top və pulemyotlarla silahlanan qiyamçılara İrəvandan gələn daşnak generalı Dro Kanayan komandanlıq edirdi.

Azərbaycan Cümhuriyyətinin Müdafiə Nazirliyi Qarabağı düşməndən xilas etmək üçün fövqəladə tədbir hazırladı. Nazir Səməd bəy Mehmandarovun əmrilə Əsgəran çəbhəsinə güclü qüvvə ayrıldı. Martın iyirmisində Azərbaycan ordusunun əsas hissəsi - iyirmi minə qədər əsgər və zabiti bu cəbhəyə göndərildi. O cümlədən, üçüncü Gəncə, beşinci Bakı, birinci Cavanşir, dördüncü Quba, səkkizinci Ağdam polkları general Həbib bəy Səlimovun komandanlığı ilə Yuxarı Qarabağa yola düşdü. Bu ölüm-dirim savaşı on iki gün davam etdi. Aprelin ikisində Əsgəran keçidi alındı. Azərbayçanın cəsur əsgər və zabitləri ana torpağın hər qarışı uğrunda mərdliklə vuruşaraq Şuşa qalasına və Xankəndinə daxil oldular. Yenilməz fədakarlıqla vuruşan əsgərlərimiz daşnak ordusunu darmadağın etdi. Erməni süvari dəstəsinin başçısı Dəli Qazar öldürüldü. Əsgəranın böyür-başında gizlənən ermənilər xəndəklərdən çıxıb qaçmağa başladılar. Qarabağ dağlarında yenidən

Azərbaycan bayrağı dalğalandı. Bu vaxt cəbhəyə gələn hərbi nazir Səməd bəy Mehmandarov xain düşmən üzərində çalınan qələbəyə görə əsgərlərimizi təbrik edərək demişdi: "Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində bir çox döyüşlərdə olmuşam. Fəqət, sizin qədər qəhrəman əsgərlərə az-az təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz canınızla gənc Azərbaycan ordusunun namusunu mühafizə etdiniz".

Əsgəranda qanlı döyüşlər gedəndə Maqsud Şeyxzadə yeniyetmə bir gənc idi. On səkkiz yaşı yenicə tamam olmuşdu. Qəlbi Vətən eşqi ilə döyünən bu gəncin ürəyi düşmənə, torpağımıza basqın edən ermənilərə nifrətlə dolu idi. Azərbaycan ordusunun yenilməzliyi qarşısında dözə bilməyib geri çəkilən daşnak tör-töküntülərinin məhv edilməsi gənc şair Maqsud Şeyxzadənin də hədsiz sevincinə səbəb olmuşdu. Bu qələbədən ruhlanan şair iyirminci ilin martında "Qarabağ" və "Əsgəran marşı" kimi sanballı şerlər yazmışdır. İkinci şer bu günümüzlə daha çox səsləşir.

Vardı Əsgəranda minlərlə əsgər,
Aslan yavrusu tək sarsılmaz ərlər.
İrəli, irəli, ey islamlarım,
Yağı yuvasını dağıdanlarım.

Dəydi top gülləsi yad ordusuna,
İstərəm alaylar dağılıb sına,
İrəli, irəli, ey tərlanlarım,
Geniş üfüqlərə can atanlarım.

Görək mərd çıxacaq neçənci igid?
Laləzar salacaq neçənci şəhid?
İrəli, irəli, türk oğulları,
Sizsiniz qısaldan uzaq yolları.

Azərbaycan hərb tarixinin səhifələrinə yazılacaq belə parlaq qələbələrin ömrü təəssüf ki, bundan sonra bircə ay davam etdi. Mikoyanın, Qazarovun, Avetisovun, Amazaspın quyruq bulayıb qabaqlarına düşdüyü bolşevik-daşnak ordusu bir ay sonra işğalçı kimi Bakıya soxuldu.

Həyatının son dəqiqələrinə kimi o məşum günü ürək ağrısı ilə xatırlayan xalqımızın böyük oğlu Məmməd Əmin Rəsulzadə yazırdı: "Azərbaycan Cümhuriyyəti hökuməti aprel ayının 27-də yuxusundan sərsəm bir halda qalxdı. Bir tərəfdə Bakı limanında lövbər salan dəniz qüvvələrinin üsyan bayrağı açdığını, digər tərəfdən Benaqazi (Binəqədi) Yanar dağı səmtdən Qızıl Ordunun atəş saçaraq gəldiyini və geri qaçmaq istərkən yolun türkiyəli bir zabitin komandasında olan "Yardım alayı" tərəfindən kəsildiyini gördü".

Bununla da dəhşətli, qorxunc bir dövr gəldi. Xüsusi bir amansızlıqla Vətənimizə hücum edən bolşevik-daşnak ordu birləşmələri vətənpərvər oğullarımızı qan içində boğdu. Ölkəmiz təqibə, böhtana məruz qaldı. Min cür həngamələrlə, izahı olmayan həbslərin dalğası gücləndi. On minlərlə günahsız

adam güllələndi. Azərbaycan Milli Ordusunun min iki yüzdən çox əsgər və zabiti Arazı keçərək o taylı qardaşlarımıza pənah apardı. Təqib olunan minlərlə ziyalımız Türkiyə, Fransa və Almaniyaya mühacirətə getdi. Bolşevik-daşnak təqibinin əzabkeşlərindən biri - zabit Ələsgər Əsgərov Kəngərlinski şahidlik verir ki, "şəxsən özüm tərəfindən yoxlanılmış siyahıya görə, bolşeviklərin Azərbaycandakı ağalığı dövründə ancaq rütbəlilərindən məhv edilənlər: generallar - on iki, polkovniklər - iyirmi yeddi, kapitan və ştabskapitanlar, poruçik və podporuçiklər - qırx altı, praporşik və podpraporşik - yüz qırx səkkiz, qalanları - iki yüz altmış altı (hamısı müsəlman)... 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda qırmızı terrordan qırx səkkiz min adam öldürülmüşdü ki, bunun da çox hissəsi ziyalıların payına düşürdü".

1920-ci il mayın 30-da "Kommunist" qəzeti bolşevik terrorunun alçaqlığına bəraət qazandıraraq, həyasızcasına "Layiqli cəza" adlı bir məqalədə yazırdı: "Ali inqilab tribunalı bu işə yalnız həqiqi proletar ədliyyə orqanları nümayəndələrinə xas olan ehtiyatlıq və təmkinlə nəzər salmışdır. Azərbaycanın azad əmək adamlarının mənafeyini əsas tutan tribunal heç bir "qanuni intiqam" duyğularına yol vermədən özünün soyuq və ölçüb-biçilmiş qərarını vermişdir".

Bolşeviklər "təmkinlə", "soyuq və ölçülüb-biçilmiş" haqsız qərarları ilə Azərbaycan Milli Ordusunu say-seçmə, yüksək rütbəli zabitlərindən və general oğullarından məhrum etdilər. Adı və şöhrəti yetmiş ildən çox bağlı qapı arxasında qalan sərkərdələrimiz haqqında məlumatla bu gün tanış ola bilirik.

GENERALLAR

GENERAL-MAYOR HƏBİB BƏY SƏLİMOV - Baş Qərargah və dəftərxana rəisi. Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 26 fevral 1919-cu ildə, otuz nömrəli əmri ilə general-mayor rütbəsi ilə təltif olunub, 1920-ci ilin martında "Əsgəran müharibəsi" adı ilə məşhur olan cəbhənin qəhrəmanı. 1919-cu ilin iyul ayında briqada generalı Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan milli hökumətini tanımaq istəməyən malakan və rus-erməni silahlı qüvvələri darmadağın edilmişdir. Düşməndən qənimət üçün götürdüyü bir təyyarəni, iyirmi dörd topu və altmış pulemyotu Azərbaycan Ordusuna təhvil vermişdir. Muğan və Lənkəranı ana yurdu Azərbaycana qaytaran Həbib bəy buraya qısa müddətə vali təyin edilmişdir.

1918-ci ildə Qafqaz İslam Ordusunun sıralarında Azərbaycanda olmuş türk podpolkovniki Rüştü bəy "Bakının böyük hərb yollarında" ("**Hərbi məcmuə", 1934-cü il, №93**) kitabında Həbib bəyi igid bir sərkərdə kimi xatırlayır: "Cəsur və döyüş texnikasını gözəl bilən türk ordusunun yüksək rütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən polkovnik Həbib bəy rus ordusunda yetişmiş azərbaycanlı zabitlərdəndir. Döyüşlərdə cəbhə iki yerə ayrılırdı: şimal və cənub qruplarına. Cənub qrupunun komandiri polkovnik Həbib bəy Səlimov idi".

Hərbi tədqiqatçı, polkovnik-leytenant Mehman Süleymanov 1998-ci ildə Türkiyədə yaradıcılıq ezamiyyətində olarkən general eloğlumuz Həbib bəy

haqqında dəyərli məlumatlar əldə etmişdir. Həmin faktlar əyani sürətdə göstərir ki, general Həbib bəy Səlimov daima ön cəbhədə olmuş və Azərbaycanı bolşevik-daşnak hərbi qüvvələrindən xilas etmk üçün mərdliklə vuruşmuşdur.

Həbib bəy Səlimovun komandanlıq etdiyi cənub qrupu Nəvai və Ağbulaq stansiyalarını bolşevik-daşnak qüvvələrindən azad etdikdən sonra o, Nuru paşaya aşağıdakı məzmunda raport göndərdi.

"Birinci - bu gün Ağbulaq stansiyasını işğal edirəm. Yarın (1 avqust 1918-ci il) Ələti düşmən alsa da dəxi Allahın inayəti ilə işğal etmək üzrə irəliləyəcəyəm.

İkinci - mütəaqibən (sonra) Bakı istiqamətində hərəkət edəcəyəm. Fəqət qrupun suyu qətiyyən yoxdur. Susuzluqdan əfrad (bəzi adamlar) bayılmış bir haldadır. Sürətlə su gətirilməsi üçün icab edənlərə əmr bulunmasını təkrar-təkrar rica edirəm.

Üçüncü - Ələtdən sonra qaradan (torpaq yol) hərəkət edəcəyimdən bir minik avtomobilinin təhriki üçün əmr buyrulmasını rica edirəm".

...Avqustun birində cənub qrupunun komandanı Həbib bəy Səlimov Ordu komandanı Nuru paşaya göndərdiyi teleqramında bildirirdi ki, bu axşam Ələti işğal etdim. Dəfələrlə müraciət etməyimizə baxmayaraq, biz hələ də geridən içməli su almamışıq. Döyüşçülər susuz qaldığı kimi, lokomotivlər də su olmadığı üçün işləmir. Polkovnik Həbib bəy Səlimov susuzluğun qrupda ağır vəziyyət yaratdığını və su gətirilməyincə Ələtdən o yana hərəkət etməyin mümkünsüzlüyünü vurğulayır.

H.Səlimovun milli Azərbaycan Ordusunun formalaşdırılmasında da böyük tarixi xidmətləri vardır. Hələ 1918-ci ilin avqustunda Qafqaz İslam Ordusu komandanı Nuru paşanın əmri ilə Azərbaycan korpusu yenidən qurulmağa başlayanda hərbi təcrübəsinə və biliyinə görə bu korpusun qərargah rəisi təyin edilmişdi.

Gəncə-Bakı dəmir yolu ilə irəliləyən Cənub qrupunun komandiri kimi H.Səlimovun göstərdiyi təşkilatçılıq qabiliyyəti və igidliyi Azərbaycan hökuməti tərəfindən layiqincə qiymətləndirildi və elə bolşevik-daşnak qoşunlarına qarşı döyüşlərin gedişində ona polkovnik rütbəsi verildi.

1919-cu ildə Azərbaycan ordusundakı maddi çətinlikləri görən polkovnik Həbib bəy Səlimov hökumətin adına göndərdiyi raportunda ürək ağrısı ilə yazırdı: "Demək olar ki, bütün əsgərlər Azərbaycan əyalətlərində yerli əhalinin hesabına dolanır, yarıac, yarıtox həyat sürürlər. Hətta böyük və varlı şəhər olan Bakıda əsgərlərə yemək tapılmır. Nə polkun, nə də korpusların anbarları yoxdur. Əsgərləri həmişə "un şorbası" ilə yedirtmək olmaz ki... Onuncu polkun çoxlu əsgəri çəkməsiz və corabsızdır. Ordunu yeməksiz, paltarsız, atsız, təchizatsız yaratmaq olmaz. Yarıac, paltarsız əsgər əlbəttə ki, evə qaçmaq istəyəcək.

Ona görə də özümə mənəvi borc bilərək aşağıdakı fikirlərimi çatdırıram:

Günün şüarı ancaq bu olmalıdır: Hər şey ordu üçün.

Kağızda deyil, rəsmi şəkildə bir korpus yaratmaq lazımdır.

Belə korpusun yaradılması və təminatı üçün vəsaiti əsirgəməməli.

Böyük Napoleon Bonapart deyirdi ki, müharibə üçün üç şey lazımdır.

Birincisi pul, ikincisi pul, üçüncüsü yenə də pul.

Ordunu yedirtmək, geyindirmək və bolşevikləri nəzərdən qaçırmadan hər cür xəstəliklərdən qorumaq lazımdır”.

İndiyədək nə fotoşəkli, nə də tam tərcümeyi-halı əldə edilməyən cəsur general Həbib bəy Səlimovun müxtəlif arxivlərdən vətənpərvər ruhda yazılmış bir neçə məktub tələteqramını əldə edə bildik. Bu məktub və teleqramları Həbib bəy Qarabağ ərazi qoşunlarının komandanı olarkən, odlu döyüşlər gedən Şuşa və Ağdamdan göndərmişdi. Bunlar Həbib bəy Səlimovun döyüş yolunu qismən də olsa öyrənməyə imkan verir.

HƏRB NAZİRİNƏ

“Bakı alayında 390 süngü vardır, Noyabrın 23-də Qocaz istiqamətində vəziyyət tədricən bərpa olunur. Düşmən hər tərəfdən Zabuq çayının sağ sahilinə atılmışdır. Ümid edirəm ki, bu günlərdə ... rayonu tuta bilərik. Cəbrayıl dəstəsində vəziyyət tam başqadır. - Ora iki batalyon - 1000 süngü qüvvə göndərilməsə, vəziyyəti düzəltmək mümkün olmayacaqdır. Yaranmış vəziyyətdə bu cür qüvvəni Xaçmaz dəstəsinin tərkibindən çıxarmaq, məncə, mümkün deyildir.

Mən indi sizin barışıq fikrinizlə o şərtlə razıyam ki, barışandan sonra gələcək üçün sürətlə hazırlıq işləri görülsün.

General Həbib bəy SƏLİMOV,
20 aprel 1920-ci il
Şuşa”.

* * *

“Bakı, general-leytenant Əliağa Şıxlinskiyə.

Dünənki döyüş göstərdi ki, ermənilər bütün vasitələrindən istifadə ediblər. Əsgəran cəbhəsində Dilicandan gəlmiş əla təlim edilmiş və çox gözəl döyüş aparan Dəli Qazarın partizanları bir yerə cəmləşiblər. İndiki partizanlara ümid bəsləmək olmaz. Onlara kəsərli söz, xalqa çoxlu pul və bütun başqa vasitələrlə köməklik göstərmək lazımdır ki, onlar Vətənə daha böyük həvəslə xidmət etsinlər. Təkrar edirəm, məsələ çox ciddidir, artıq Ermənistan və Azərbaycan arasında Qarabağda gizli müharibə gedir. Hər tərəfdən patronlar tələb edirlər. Nazırda dövlətin ehtiyatları Gəncədən Araza qədərki ərazidəki cəbhə üçün düşmən ilə müqayisədə həddən artıq azdır. Ancaq etibarlı və yaxşı təşkil olunmuş partizanları müvəqqəti Sizin tərəfə yönəldə bilərlər.

General Həbib bəy SƏLİMOV,
31 mart 1920-ci il”.

* * *

“...Bu vəziyyət yerli əhali arasında çaxnaşma yaratdı. Onlar bizim Ağbulaq yaxınlığında dayanan alayımızı xəbərdar etmədən çaxnaşma salır və qaçırlar. Abdal kəndində olan əsgərlərin bir hissəsini də arxalarınca aparırlar.

Bütün bunlar aralarında iki minə yaxın silahlı şəxslər olan Ağdam əhalisinin gözləri qarşısında baş verirdi.

Bir nəfər belə gülablıların köməyinə getmədi, əksinə, iki-üç yüz ermənininin Gülablıda görünməsi onlarda çaxnaşma saldı, əlbəttə, onlar səsə-küyə salaraq mərkəzə teleqram vurdular və Bakı da tez onların köməyinə gəldi.

Mən Qarabağda baş verən hadisələrdən xəbərdaram və şəraitə görə mümkün olan bütün tədbirlərdən istifadə edirəm. Lakin abdallıların, gülablıların, Xaçinki kənd əhalisinin arzusu ilə qoşunu ata bilmərəm. Ayın on doqquzunda səhər saat 10-da mən özüm Ağdamda oldum, partizanlar üçün məhkəmə qurdum, lazım olan tədbirləri gördüm.

Nəticədə biz Güləbird kəndini, Qızıl hündürlüyünü tutmuşuq, Abdal kəndinə hücumu davam etdiririk.

Mənə inanın ki, mən özümü qorumuram, şəxsən olduğum və komandirlik etdiyim yerlərdə düşmənin qəflətən yaxalanmasına yol verməyəcəyəm.

Tatar alayının dərhal Cəbrayıla gəlməsinin böyük əhəmiyyəti olar, çünki bu alayın əksəriyyətini ləzgilər təşkil edir, bu da Quba qəzasında az fayda verə bilər.

General Həbib bəy SƏLİMOV,
29 aprel 1920-ci il
Şuşa".

* * *

"**Bakı, general-leytenant Əliağa Şıxlinskiyə.**

Dronun **(Qarabağ ərazisində döyüşən erməni-daşnak silahlı birləşmələrin komandiri - Ş.N.)** qüvvələrinin hücumu zamanı Şuşa şəhərinin vəziyyətinin nə dərəcədə ağır ola biləcəyini nəzərə alaraq, ermənilərə Cavad qəzası süvari qoşunlarının köməkliyi ilə Cəbrayıl qəzası tərəfindən güclü təzyiq göstərilməsini lazım bilirəm. Eyni zamanda, İran şahsevənləri Zəngəzur qəzasına soxulsaydılar, daha yaxşı olardı. Geniş hücum əməliyyatı aparmaq üçün tək Cəbrayıl qəzasının vəsaiti kifayət deyildir.

AXC-nin Qarabağ ərazi
qoşunlarının komandanı general
Həbib bəy SƏLİMOV,
31 mart 1920-ci il ".

HƏRB NAZİRİNƏ

"...Bizimkilərin geriyə qaçmalarının qarşısını özüm rəhbərlik etdiyim yüz nəfərlik parlament mühafizə dəstəsi ilə aldım. Artilleriya, xüsusilə Həbibəyovun batareyası əla atışırdı, lakin təəssüf ki, batareya komandiri hissə qapılıb, batareya

ilə həmləyə keçdi. Hal-hazırda ermənilər Əsgəranı, Xanabad kəndini, 3360-cı yüksəkliyi, Daşbaşı kəndini tuturlar.

Ümumiyyətlə, biz döyüşərək ermənilər iki verst geri çəkilməyə məcbur etmişik. Aşağıdakı itgiləri vermişik: alayın..., praporşiki Nəcəfəliyev və on altı əsgər öldürülüb. Parlamentin mühafizə dəstəsindən podporuçik Dauşvili, praporşik Əsgərov, Ərəbov yaralıdırlar. Əsgərlərdən yeddi nəfər ölmüş və on beşi isə yaralıdırlar.

Döyüşçülərin əhval-ruhiyyəsi yaxşıdır. Düşmən çox böyük itkilər vermişdir, tək Xaramutda 60-a qədər düşmən cəsədi sayılmışdır.

General Həbib bəy SƏLİMOV
1 aprel 1920-ci il
Ağdam".

Naxçıvan Mərkəzi Dövlət Arxivində saxlanan səksən iki nömrəli protokol isə cəsur general haqqında ağ yalanla doludur. 1920-ci il avqustun iyirmi ikisində Naxçıvan komyaçeykasının iclasında hərbi komissar Starovun sədrliyi və Fyodorovun katibliyi ilə yeddi nəfər bolşevik, musavat generalı Həbib bəy Səlimovun "fəaliyyəti barədə işə" baxırlar. Lakin cəmi üç nəfər - "troyka" dindirilmişdir.

Birinci şəxs Şaxtaxtinski: "General Səlimov zəhmətkeş xalqın satqınıdır, səbatsızdır. O, Bakıdan İrana qaçdı və oradan Naxçıvana gəlib camaatı dilə tutdu ki, əhali razılıq versin, onun polku 600 əsgər, 10 ədəd top və bir neçə pulemyotla Naxçıvana gəlsin. O, Sovet hökuməti əleyhinə təbliğat aparırdı. Lakin indiki hökumətə qarşı günahını boynuna almır. Polkun silahlarını İranda satıb mənisəmişdir".

İkinci şəxs Rüstəmov "Mən Şaxtaxtinskinin dediklərini təsdiq edirəm və əlavə olaraq bildirirəm ki, general Səlimov yerli əhalini başa salırdı ki, onun başçılığı ilə Naxçıvana yeni polk toplasın və bolşeviklər əleyhinə vuruşsunlar... O, həqiqətən Sovet hökuməti əleyhinə təbliğat aparırdı..."

Üçüncü şəxs Xəlilbəy: "Daşnaklar Şuşaya hücum edəndə (**1920-ci ilin mart ayında - Ş.N.)** Azərbaycan hökuməti korpus təşkil edib Səlimovun başçılığı ilə cəbhəyə, daşnaklarla vuruşmağa göndərdi. Lakin, Səlimovun təcrübəsizliyi və korpusa başçılıq edə bilmədiyindən xeyli yaralı və ölüm hadisələri olmuşdur. Lakin mən işə qarışandan sonra döyüş müvəffəqiyyətlə başa çatdı və daşnak hüçumu darmadağın edildi.[43]

Bütün bunlardan sonra Azərbaycan hökuməti ona 242-ci polka və üçüncü kavpolka başçılıq etməyi tapşırdı. O vaxtkı qırmızılar Bakıya yaxınlaşırdı, mən ona təklif etdim ki, qırmızıları müdafiə etsin. O, söz versə də, sözünü yerinə yetirmədi, satqınlıq elədi. Sovet hökuməti əleyhinə təbliğat aparmağa başladı".

---

[43] Xəlilbəy tamamilə haqsız bə qərəzli danışıb. O döyüşdən yazılan çoxlu xatirələrdə bə arxiv sənədlərində daşnakların 1920-ci ilin martında Şuşa bə Xankəndindən əzilib çıxarılmasının məhz general Həbib bəj Səlimovun komandiplik məharəti sayəsində olduğu dönə-dönə qeyd olunub. Xəlil bəy isə həmin döyüşdə kiçik könüllülər dəstəsinin komandiri olmuşdur - müəl.

Yekunda yoldaş Starov təklif etdi ki, general Həbib bəy Səlimovu həbs edib XI ordunun hərbi sovetinin sərəncamına göndərək.

Təklif bir səslə qəbul edildi".

Burada "sapı özümüzdən..." olan müdrik el deyimini xatırlamaya bilmirsən. Bu yalan və iftiralardan sonra Həbib bəy Hacı Yusif oğlu Səlimovu bolşeviklər güllələdilər.

General-mayor Cavad bəy Məmmədağa oğlu Şıxlinski - birinci piyada diviziyasının komandanı. Zəngəzur döyüşlərinin (1919) fəal iştirakçısı. 1920-ci ilin mayında Gəncə üsyanının təşkilatçısı, həmin üsyandan sonra İrana mühacirətə getmişdir. 1959-cu ildə Türkiyədə vəfat etmişdir. Məşhur sərkərdəmiz Əliağa Şıxlinskinin qardaşı oğludur.

General-mayor Əbdülhəmid bəy Şərifbəy oğlu Qaytabaşı - 1919-cu il dekabrın 10-dan Baş Qərargahın rəisi və növbətçi generalı. Peşəkar hərbçi kimi milli ordu quruculuğunda əvəzsiz xidmətləri olmuşdur. Şəxsi heyətin təşkili, qərargahda növbətçilik sistemi, yeni hərbi idarə və hərbi müəssisələrin yaradılması üçün var qüvvəsi ilə çalışan general Əbdülhəmid bəy Qaytabaşı yazırdı: "Cəmi bir il ərzində Baş Qərargahın fəaliyyəti təşkil olunub qaydaya düşdü. Öhdəmizə düşən bütün vəzifələri qərargahın digər üzvləri ilə birlikdə vicdanla, namusla və yorulmadan yerinə yetirdik". 1920-ci il aprelin 30-da bolşevik ordusunda müvəqqəti Qərargah rəisi olub. Həmin ilin iyun ayında Gəncə üsyanına görə günahlandırılıb gullələnmişdir.

General-mayor Murad Gəray bəy Tlexas - 1918-ci ildə Baş Qərargahda baş Artilleriya idarəsinin rəisi. On doqquzuncu il dekabrın dördündən Bakı şəhərinin general-qubernatoru Azərbaycan Milli hərəkatında və ordu quruculuğunda önəmli yeri var. Milliyyətcə çərkəz idi. 1874-cü ildə Kuban vilayətində hərbçi ailəsində anadan olub. Sankt-Peterburqdakı Mixaylovsk artilleriya məktəbini bitirib. Port-Artur və Birinci Dünya müharibəsində iştirak edib. Hər iki müharibədə nümunəvi döyüş zabiti kimi şöhrət qazanıb. 1918-ci ildə Azərbaycanın ağır günündə, din qardaşı kimi kömək etməyə könüllü gəlib.

1920-ci ildə bolşeviklərin istilasından sonra inqilabçı Əli Bayramovun qatillərindən biri kimi həbs edilib. Mayın 21-dən 29-dək Ali İnqilab Tribunalının məhkəməsində şahid kimi dindirilmişdir. Əli Bayramovun ölümündə günahı sübut olunmadığına baxmayaraq, əksinqilabçı və musavat generalı kimi mayın 29-da gecə saat 2-də güllələnmişdir. İlyarımlıq Azərbaycan ordusundakı əla fəaliyyəti hərb nazirinin və Baş Qərargah rəisinin iki əmrində öz əksini tam tapır. 1919-cu ilin sentyabr və dekabr aylarında verilən 421 və 559 nömrəli əmrlər Azərbaycan Yeni Tarix Mərkəzi Dövlət Arxivində "tamamilə məxfidir" qrifi ilə saxlanılır.

"Bizim üçün böyük əhəmiyyətə malik olan müxtəlif predmetlər, silahlar və başqa hərbi əmlak əldə etmək üçün mən Gürcüstan Respublikasının Tiflis şəhərində Baş Artilleriya idarəsi rəisi, general-mayor Murad Gəray bəy Tlexasın rəhbərliyi altında komissiya göndərmişdim.

Bir sıra ciddi çətinliklərə baxmayaraq, qısa müddət ərzində olduqca sərfəli qiymətlərlə Bakıda və Gencədə qiymətli əmlak kütləsi quraşdırılmış və gətirilmişdir. Əldə edilmiş predmetlərin əksəriyyəti təzə, istifadə olunmuşları isə tam yararlı haldadır.

Mənim komissiyaya verdiyim tapşırığın bu cür əla yerinə yetirilməsini, ona general-mayor Murad Gəray bəy Tlexas kimi qeyrətli, təcrübəli və vicdanlı şəxsin rəhbərliyində görürəm və ona xidməti şəxslər tərəfindən səmimi minnətdarlığımı bildirirəm. Eləcə də alınmış malların baxılmasında, qəbulunda və yola salınmasında iştirak etmiş komissiyanın bütün üzvlərinə minnətdarlığımı bildirirəm.

Hərb naziri,
Artilleriya generalı
Səməd bəy MEHMANDAROV

Baş Qərargah rəisi,
general-mayor
Həbib bəy SƏLİMOV".

(Fond . 2900, siy. 7, sax. V. I. Səh. 7)

"Hərb nazirliyi təşkil edilərkən, ordunun özü kimi, mərkəzi idarələrinin və müəssisələrinin də, demək olar ki, heç nədən yarandığı zaman general-mayor Murad Gəray bəy Tlexas Baş Artilleriya İdarəsinin rəisi vəzifəsini icra etməyə başlamışdır. General-mayor Tlexas doğma ordumuzun təşkil edilməsi işlərində mənim ən yaxın əməkdaşlarımdan biri olmuşdur. **İgid insan və yorulmaz təcrübəli xidmətçi olan Murad Gəray bəy Tlexas** ordunun silahlanması, bütün Azərbaycan boyu səpələnmiş artilleriya əmlakının toplanması, artilleriya anbarlarının və emalatxanalarının qurulması işlərində böyük əmək sərf etmişdir. İndi həmin general respublikanın müdafiə olunması üzrə yüksək dərəcədə mühüm hərbi vəzifələrin həvalə edilməsi ilə əlaqədar olaraq, ümumi işin xatirinə onun Baş Artilleriya İdarəsi rəisi vəzifəsindən azad edilməsini daha faydalı bilirəm.

Bu vəzifənin bir illik yerinə yetirilməsi müddətində göstərdiyi nümunəvi iş, səy və görkəmli nailiyyətlər üçün hörmətli Murad Gəraybəy Tlexasa xidməti şəxslər tərəfindən səmimi təşəkkürümü bildirirəm.

Hərb naziri,
Artilleriya generalı
Səməd bəy MEHMANDAROV

Baş Qərargah rəisi,
general-mayor
Həbib bəy SƏLİMOV

(F. 2900, siy. I, sax. V. I. Səh. 127)

General-mayor İbrahim ağa Usubov (1872-1920) - Milli orduda atıcılıq işləri üzrə müfəttiş və hərbi tədris müəssisələrinin rəisi. 1919-cu ilin avqustundan

isə ikinci süvari diviziyasının komandanı. 1920-ci il iyulun 16-da onu bolşeviklər Nargin adasında güllələyib.

General-leytenant Məmməd bəy Sulkeviç (1865-1920) - Krım hökumətinin sabiq başçısı. 1919-cu ilin martından Azərbaycan Milli Ordusunda Baş Qərargah rəisi olmuşdur. 1920-ci il iyulun on beşində "əksinqilabi fəaliyyətdə" ittiham olunduğuna görə bolşeviklər güllələdilər.

GENERAL-MAYOR ŞAHZADƏ ƏMİR KAZIM MİRZƏ QACAR (1853-1920) -1918-ci il dekabrın 1-dən Azərbaycan ordusunda xidmətə başlamışdır. 1919-cu il dekabrın 18-dən Gəncənin komendantı təyin olunmuşdur, İyirminci ilin iyununda Gəncə üsyanında fəal iştirak etdiyinə görə həbs edilmiş və bolşevik ÇK-sı Tuxareli tərəfindən şaşka ilə doğranmışdır.

GENERAL-MAYOR DAVUD BƏY SADIQ BƏY OĞLU YADİGAROV - Azərbaycan Milli Ordusunda mühafizə diviziyasının rəis müavini. İyirmi üç oktyabr min doqquz yüz on doqquzuncu ildə hərbi nazir Səməd bəy Mehmandarovun 492 nömrəli əmrilə general-mayor rütbəsi ilə təltif olunub.

GENERAL-MAYOR XƏLİL BƏY MİRƏLİ XAN OĞLU TALIŞXANOV- 1918-ci ildə Vətəndaş müharibəsindən Azərbaycana qayıdan "Dikaya diviziya"nın tərkibindəki Tatar (**Azərbaycan - Ş.N**.) alayının komandiri. Həmin il Bakıdakı daşnak hərbi qüvvələri tərəfindən həbs olunmuş, lakin yerli əhalinin haqlı tələbi ilə azad edilmişdir.

1859-cu ildə Tiflisdə anadan olan Xəlil bəy Birinci Dünya müharibəsində iştirak etmişdir. 1920-ci ilə kimi Azərbaycan Ordusunda xidmət etmişdir.

Bolşeviklərin istilasından sonra son taleyi barədə heç bir məlumat yoxdur.

GENERAL-MAYOR ƏLİYAR BƏY MEHDİ OĞLU HAŞIMBƏYOV - 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin Daxili İşlər nazirinin müavini. Birinci Dünya Müharibəsində üçüncü Qafqaz araba karvan briqadasının komandiri olmuşdur. On yeddinci ildə istefaya çıxan general Əliyar bəy 1918-ci ildə Azərbaycan Cümhuriyyətində könüllü xidmətə başlamışdır.

General-mayor Əliyar bəy Haşımbəyov 1856-cı il martın səkkizində Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini ədadiyə (realnı) məktəbində alan Əliyar bəy 1871-ci ildə Tiflisdəki piyadalar məktəbinə daxil olmuşdur. 1918-ci ildən artilleriya qoşunlarının piyada hissələrində xidmətə başlamışdır.

Hərbi xidmətinin otuzuncu ilində - 1908-ci il dekabrın altısında general-mayor kimi yüksək rütbəyə layiq görülmüşdür. Ordudakı qüsursuz xidmətinə görə 1889-cu ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav", 1894-cü ildə üçüncü dərəcəli "Müqəddəs Anna", 1895-ci ildə ikinci dərəcəli "Müqəddəs Stanislav", 1898-ci ildə ikinci dərəcəli "Müqəddəs Anna" və 1904-cü ildə "Müqəddəs Vladimir" ordenləri ilə təltif olunmuşdur.

1919-cu ildə Hərbi İntendant idarəsinin rəisi işləyən general Əliyar bəy Haşımbəyovu 1920-ci ildə bolşeviklər güllələmişlər.

GENERAL-MAYOR TEYMUR BƏY NOVRUZ OĞLU NOVRUZOV - Milli Orduda süvari diviziyasının qərargah rəisi. Birinci Dünya müharibəsində dörd dəfə "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur. Azərbaycan Demokratik Cümhuriyyətinin 1919-cu il iki avqust tarixli əmrilə ordudakı əla

xidmətlərinə görə general-mayor rütbəsi verilmişdir. 20-ci ildə bolşeviklərin təzyiqindən Almaniyaya mühacirətə getmişdir.

GENERAL-QUBERNATOR CAVAD BƏY RZA BƏY OĞLU MƏLİKYEQANOV -1920-ci il sentyabrın on doqquzunda komissar Nersesov tərəfindən həbs edilib. Az müddət Bakıda, Bayıl həbsxanasında saxlanıldıqdan sonra Kareliyanın Keme şəhərinə sürgün edilmişdir. Həyat yoldaşı məşhur maarifpərvər Məryəm xanım Bayraməlibəyovaya 1935-ci ildə sürgündən göndərdiyi məktubunda yazırdı: "...Sən yaxşı bilirsən ki, mən Vətənimi, Azərbaycanımı, xalqımı sevirəm. Hər şeydən əziz tuturam və canımı onlara qurban verirəm..."

Şimal həbs düşərgələrində olmazın əzablar çəkən, 1918-ci ildən Azərbaycan parlamentinin üzvü Cavad bəy 1942-ci il mayın 18-də ürək partlamasından həbsxanada vəfat etmişdir. 1917-ci ildə könüllü surətdə Musavat partiyasına daxil olan Məlikyeqanov Lənkəran şəhərinin general-qubernatoru olmuşdur.

Həyat yoldaşı Məryəmxanım 1937-ci il noyabrın 14-də həbs edilib Arxangelsk şəhərinə sürgün edilmişdir. On doqquz il sonra gözləri şikəst halda Bakıya qayıdan Məryəm xanım Bayraməlibəyova 1967-ci ildə vəfat etmişdir.

GENERAL-QUBERNATOR ƏMİR XAN CAHANGİR XAN OĞLU XOYSKİ - Qubada və Bakıda qubernatorun müavini olub. 1919-cu il oktyabrın on üçündə Qazax qəzasının qubernatoru təyin edilib.

Azərbaycan Cümhuriyyətinin Xarici İşlər naziri Fətəli xan Xoyskinin qardaşı oğludur. 1920-ci il iyunun on doqquzunda əmisi Tiflisdə teatrdan çıxarkən muzdlu erməni qatili tərəfindən öldürüldükdən sonra Əmir xan ailəsi ilə Türkiyəyə qaçmışdır. Ali təhsilli idi: Peterburq Univeritetinin hüquq fakültəsini bitirmişdi. 1966-cı ildə İstanbul şəhərində vəfat etmişdir.

GENERAL-QUBERNATOR XOSROV BƏY PAŞA BƏY OĞLU SULTANOV -1919-cu il yanvarın on beşindən Qarabağın general-qubernatoru. Həmin il martın 21 -dən 30-dək olan Əsgəran döyüşlərində daşnak generalı Dronun quldur dəstələrini darmadağın etmişdir. İyun ayının əvvəllərində gizli yolla Şuşaya silah gətirən erməni Milli şurasının üzvlərini həbs edib, onların Qarabağ hüdudlarından çıxarılmasına nail olmuşdur. Zaqafqaziya Seyminin və Azərbaycan Parlamentinin üzvü idi. 1918-1920-ci illərdə daşnakların Qarabağdan təmizlənməsində qardaşı Sultan bəylə birlikdə misilsiz xidmət göstərmişdir.

Xosrov bəy 1879-cu il martın 10-da Laçın rayonunun Kürdhacı kəndində anadan olub. Orta təhsilini Gəncə klassik gimnaziyasında, ali təhsilini isə Odessa Universitetində almışdır. 1920-ci il aprel çevrilişindən sonra Türkiyənin Trabzon şəhərinə mühacirətə getmişdir. Az sonra daşnak təqibindən İstanbula köçmüş və 1941-ci ildə orada vəfat etmişdir.

GENERAL-MAYOR ŞAHZADƏ FEYZULLA MİRZƏ QACAR - Azərbaycan Demokratik Respublikasının hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun doqquz yanvar min doqquz yüz on doqquzuncu ildə iyirmi nömrəli əmri ilə Gəncədəki süvari diviziyasının qarnizon rəisi təyin olunub.

GENERAL-MAYOR ŞAHZADƏ MƏHƏMMƏD MİRZƏ QACAR - Milli orduda Baş Artilleriya idarəsinin rəisi. 1919-cu il iyulun doqquzunda əla xidmətlərinə görə general-mayor rütbəsi verilmişdir. General Şahzadə Məhəmməd

Qacar haqqında hərb naziri Səməd bəy Mehmandarovun və Baş Qərargah rəisi Həbib bəy Səlimovun həmin il noyabrın 30-da imzaladıqları bir nömrəli əmr onun sərkərdəlik fəaliyyəti barədə nadir sənədlərdən biridir:

"Hərb naziri köməkçisinin məlumatından aydın olur ki, general-mayor Şahzadə Məhəmməd Mirzə Qacar birinci piyada diviziyasına müvəqqəti komandanlıq etdiyi müddətdə Gəncə qarnizonunun rəisi vəzifəsini icra edərkən, batalyon yaradılması və xüsusi təyinatla yola salınması, eləcə də qoşun hissələrinin isti və əsgəri geyimlə təmin edilməsində çoxlu səy və fəaliyyət göstərmişdir. Buna görə də mən ona səmimi minnətdarlığımı bildirirəm".

GENERAL-MAYOR MİRKAZIM XAN MİRƏLİ XAN OĞLU TALIŞXANOV -1855-ci il iyulun on yeddisində Bakıda anadan olmuşdur. Talış xanlarının nəslindəndir. 1917-ci ilə qədər Rusiyanın müxtəlif şəhərlərində rota, alay və batalyon komandiri olmuşdur. Birinci Dünya müharibəsindəki xidmətlərinə görə general-mayor rütbəsi alıb. 1918-20-ci illərdə Lənkəran Dairə müfəttişi vəzifəsində işləmişdir.

General-mayor Mirkazımxan Talışxanov 1938-ci ildə səksən dörd yaşında Bakıda vəfat etmişdir.

GENERAL-MAYOR ŞAHZADƏ ƏMƏNULLA XAN MİRZƏ QACAR - 1918-ci il dekabrın birində könüllü olaraq Milli Orduda qulluğa başlamışdır. Müxtəlif vəzifələrdə işləmişdir. 1920-ci il yanvarın 27-də Xankəndində yerləşən birinci süvari diviziyasının rəis müavini olmuşdur. 1862-ci ildə Şuşada anadan olan Əmənulla xan iyirmi səkkiz il Kuban-Kazak nizami hissəsində xidmət etmişdir. 1917-ci ildə general-mayor rütbəsi verilib. Bolşevik təzyiqindən (1920-ci ildə) İrana mühacirətə getmiş və 1937-ci ildə Tehranda vəfat etmişdir.

GENERAL-MAYOR SƏMƏD BƏY MƏŞƏDİ BƏY OĞLU RƏFİBƏYOV - Tiflis kadet korpusunu 1916-cı ildə bitirib. İlk hərbi xidmətə yeddinci Qafqaz sərhəd alayında başlayıb. 1918-ci ilin yanvarından yeni yaranan Müsəlman korpusunda birinci Bakı atıcı polkunda rota komandiri kimi bolşevik-daşnak dəstələrinə qarşı vuruşmuşdur.

Poruçik Səməd bəy 1918-ci il iyulun 2-də əla xidmətinə görə ştabs-kapitan rütbəsi alır. Nuru paşanın təqdimatı ilə Azərbaycan dəmir yolunun müvəqqəti komissarı təyin olunur.

Respublika Müdafiə nazirinin əmrilə 1919-cu ilin fevralında birinci Cavanşir polkunu və Lənkəran ehtiyat alayını təşkil edir.

Hərb naziri general Səməd bəy Mehmandarovun və müavini Əliağa Şıxlinskinin əmr və raportlarında Səməd bəy Rəfibəyov bilikli, enerjili və qoçaq komandir kimi xarakterizə edilir. Podpolkovnik Səməd bəy Rəfibəyovun birinci Cavanşir piyada polku 1920-ci ilin mart-aprel aylarında Xankəndində və Şuşada erməni daşnaklarına qarşı mərdliklə vuruşub.

Bolşevik istilasından sonra Türkiyəyə mühacirətə gedən Səməd bəy Rəfibəyov hərbi fəaliyyətini dayandırmamışdır. Qoşun komandanlığı vəzifəsinə qədər yüksələn istedadlı eloğumuz böyük Mustafa Kamal paşa Atatürkün yaxın silahdaşı və dostu olmuşdur. Ona 1948-ci ildə general-mayor rütbəsi verilmişdir.

Birinci dərəcəli "İstiqlal ordeni" ilə təltif olunan Səməd bəy Rəfibəyov 1892-ci ildə qədim Gəncənin Balabağban qəsəbəsində anadan olmuş, 1980-ci il oktyabrın 20-də İstanbulda vəfat etmişdir.

GENERAL-MAYOR MƏMMƏDSADIQ BƏY İSMAYIL OĞLU AĞABƏYZADƏ - Şərqşünas-alim kimi daha çox məşhurdur. 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətində daxili işlər nazirinin müavini olmuşdur. 1920-ci ildə İstanbula - əmisi oğlu, professor Əlibəy Hüseynzadənin yanına gedir. Bir il orada yaşadıqdan sonra Fransaya mühacirətə gedir. Ali məktəblərdə fars və türk dillərindən dərs deyən Məmmədsadıq bəy fransızcanı da gözəl bilirdi.

Bəxtinə cəlayi-vətənlik düşən görkəmli Azərbaycan oğlu Məmmədsadıq bəy Ağabəyzadə 1927-ci ildən Lvov universitetinin professoru Ziqmund Smoqcevskinin dəvətilə Lvov universitetində işləyir. O, ərəb, fars, türk dillərindən dərs deyir, islam paleoqrafiyasını, epiqrafiyasını və kaliqrafiyasını tədris edirdi. Məşhur polyak şərqşünasları Teofil Volodarski, Olqa Bak, Tadeuş Levitsin və başqaları həmyerlimiz, general-professor Məmmədsadıq bəyin yetirmələri olmuşlar. Hərbi fəaliyyəti ilə yanaşı şərqşünas kimi də böyük şöhrət qazanan M.Ağabəyzadə 1904-cü ildə rus dilində "Türkmən ləhcəsi", 1931-ci ildə polyak dilində "Türkdili", 1932-ci ildə "Fars dili", 1934-cü ildə "Ərəb dilinin qrammatikası" kimi sanballı əsərlərini nəşr etdirmişdir.

1944-cü ildə Lvov şəhəri faşistlər tərəfindən alınanda bir alman zabiti tənha yaşayan professor Məmmədsadıq bəyin mənzilini öz qərargahına çevirir. Yarıqaranlıq, nəmli zirzəmiyə köçən Məmmədsadıq bəyin zəif vücudu daha da pisləşir. Elm fədaisi və musavat generalı Məmmədsadıq bəy Ağabəyzadəni 1944-cü il noyabrın 8-də sevimli tələbəsi Tadeuş Levitski Lvov şəhər qəbristanlığında dəfn edir. "Əgər qardaşlarım[44] gəlib çıxmasalar, onda nəyim varsa, T.Levitskiyə qoyub gedirəm. Mənə uzunmüddətli sədaqətli xidmətinə görə pani Sverino Vilkoşinskayaya üç yüz zlot, Teodozi Krulyovaya yüz zlot, Olqa Voşçaka, mənim şagirdimə bir kitab və istədiyi üç qramafon val verərsiniz".

Bu, bolşevik təzyiqindən qürbətdə tənha yaşayan görkəmli həmyerlimizin ölümqabağı yazdığı vəsiyyətdən bir parçadır.

General-şərqşünas Məmmədsadıq bəy 1865-ci ildə Göyçayda anadan olmuşdur. İlk təhsilini Bakı realnı məktəbində alan M.Ağabəyzadə Konstantinovsk piyada məktəbini əla qiymətlərlə bitirmişdir. Ona görə də 1876-cı ildə Sankt-Peterburqdakı Mixaylovski artilleriya məktəbinin üçüncü kursuna qəbul edilmişdir. Az müddət Qafqazda qulluq edib. Əla hərbi xidmətinə görə general-mayor rütbəsi alıb. General Məmmədsadıq bəy Ağabəyzadə Birinci Dünya müharibəsində iştirak etmişdir.

GENERAL-MAYOR CAHANGİR BƏRKƏR YUSİF BƏY OĞLU NOVRUZOV- 1894-cü ildə Bakıda hərbçi ailəsində anadan olmuşdur. Bu nəsil Azərbaycan hərb tarixinə aprel inqilabına qədər general-leytenant Mirzə Hacı bəy Novruzovu, qvardiya polkovniki Kərim bəy Novruzovu, 1918-20-ci illərdə isə

---

[44] General-professor Məmmədcadıq bəyin iki qardaşı və bir bacısı olmuşdur - Həzrət bəy, Pəhim bəy вə Badam xanım - müəl.

general-mayor Teymur bəy Novruzovu və mayor Rüstəm bəy Novruzovu bəxş etmişdir.

1920-ci ilin aprelində süvari alayının komandiri, kapitan Cahangir bəy Novruzov istilaçı rus ordusuna qarşı inamlı döyüşlər aparmış, vəziyyətin ağırlığından Vətəni tərk edərək İrana keçmişdir. Az müddət orada qaldıqdan sonra süvari alayı ilə Ərzuruma gələrək Kazım Qarabəkir paşanın ordusu ilə birləşmişdir.

1921-ci ildə Bənliəhməd yaxınlığında daşnak tör-töküntülərinin qaldırdığı Berna meydan müharibəsində böyük qəhrəmanlıqlar göstərərək, düşmən təyyarələrini dəqiq top atəşilə susdurmuşdur. Məhz bu döyüşlərdəki qəhrəmanlığa görə türk komandanlığının və türk paşalarının hörmət, ehtiramını qazanmışdır. Sonralar Şeyx Sait və Ağrı hərbi yürüşlərində uğurlu döyüşlər aparan mayor Cahangir bəy Novruzov 1928-ci ildə təhsilini artırmaq üçün hərbi məktəbə daxil olur.

1929-cu ildə Topçular məktəbini müvəffəqiyyətlə bitirən Cahangir bəy polkovnik rütbəsilə təltif olunur. Kutahiyadakı topçu alayının komandiri olarkən hərb sahəsində qazandığı nailiyyətlərə görə 1948-ci il avqustun 30-da general-mayor kimi fəxri rütbəyə layiq görülür.

1953-cü ilə qədər İzmir istehkamlaşdırılmış rayonunun və arxa cəbhə komandiri vəzifəsində çalışan Cahangir bəy Novruzov həmin ili yaş həddinə görə istefaya çıxmışdır. O, ömrünün axırınadək Boronovada tikdirdiyi təmtəraqsız, sadə bir evdə yaşamışdır. General-mayor Cahangir bəy Novruzov səmimi və saf bir ailə başçısı idi. Onun arvadı Vəzifə xanımdan üç qızı olmuşdur.

Uzun illər generalın komandanlığı altında çalışmış istefada olan süvari polkovniki Baba Behbud Türkiyədə nəşr olunmuş "Azərbaycan" curnalının 1958-ci il 4-5-ci sayında yazır ki, çox hörmətli general Cahan"gir bəy Bərkər Novruzovun bütün həyatı hərb sənətinə sadiqliklə keçmişdir.

General-mayor Cahangir bəy Novruzov 1958-ci il iyunun 17 - də, saat on yeddidə öz mənzilində ürək xəstəliyindən vəfat etmişdir.

* * *

GENERAL-LEYTENANT GENNADİ NİKOLAYEVİÇ TARXANOV- Nazirlikdə Hərbi Mühəndis İdarəsinin rəisi.

GENERAL-MAYOR VASİLİ İVANOVİÇ DUBROVSKİ - Nazirlikdə hərbi gəmi hissəsinin rəisi.

GENERAL-MAYOR KONSTANTİN DAVIDOVİÇ ÇXEİDZE - 1919-cu il dekabrın 8-dən 1920-ci il mayın 21-dək Azərbaycan Hərbi məktəbinin rəisi olmuşdur. Polkovnik Konstantin Çxeidze 1920-ci il martın 21-də Azərbaycan hökuməti tərəfindən general-mayor rütbəsilə təltif olundu. 1920-ci il martın 29-da bolşeviklər general Çxeidzeni həbs etdilər. Sonrakı taleyi məlum deyil.

GENERAL-MAYOR KNYAZ AVEL QAVRİLOVİÇ MAKAYEV- 1919-cu ilin noyabrında Bakıda yerləşən ikinci piyada diviziyasının müvəqqəti rəisi. 1920-ci ildə həmin diviziyanın rəis müavini.

GENERAL-MAYOR ZAXAR VASİLYEVİÇ AMAŞUKELİ - General Zaxar Amaşukeli 1862-ci il iyulun 31-də Tiflisdə anadan olub. 1919-cu ildə Gəncə

süvari diviziyasının qərargah rəisi. 1919-cu il avqustun 3-də hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov 347 saylı əmrində yazırdı: "Yeddi ay ordumuzda sidq-ürəklə xidmət edən general Amaşukeli Qərargah rəisi kimi işə götürülsə də, onun beş ayını diviziya rəisi olmuşdur. Təəssüf ki, indi o, öz ərizəsilə tərxis olunmaq istəyir. O, hərbi hissələrdə ordu xidmətinin tələblərinin həyata keçirilməsində yüksək işgüzarlığı və xüsusi inadkarlığı ilə seçilərək, bununla da ümumi işə böyük xeyir verirdi.

General Amaşukelidən təəssüf hissilə ayrılıram. Ordu sıralarında əla və məhsuldar əməyinə görə ona öz səmimi təşəkkürümü bildirirəm".

GENERAL-MAYOR VASİLİ DMİTRİYEVİÇ KARQALETELİ - 1920-ci il martın 20-də Azərbaycan hökumətinin 167 saylı əmrilə general-mayor rütbəsi alıb. Baş Qərargahda Baş İdarənin rəisi və kvartirmeyster generalı olmuşdur.

Əliağa Şıxlinski əvəzsiz xatirələrində qeyd edir ki, hələ Birinci Dünya müharibəsində Vasili Karqaleteli döyüş xidmətlərinə görə iki dəfə "Müqəddəs Georgi" xaçı ilə təltif olunmuşdur. Onların birinci Sibir korpusundakı tanışlırı barədə general Əliağa Şıxlinski yazır: "Mən əsgərlərə qısa bir nitq söylədikdən sonra komandiri yanıma çağırıb əlini sıxdım və familiyasını soruşdum. Məlum oldu ki, o, Karqaleteli familiyalı bir: gürcüdür. Mən ondan soruşdum:

- Siz Tiflis kadet korpusunu bitiribsiniz?

- Yox.

- Deməli, birinci Tiflis gimnaziyasında oxumusunuz?

- Yox, mən Yelizavetpol (Gəncə) gimnaziyasında oxumuşam. Atam Qazaxda xəzinədar idi, mən və qardaşım isə Yelizavetpol gimnaziyasında oxuyurduq.

- Onda biz həmyerliyik ki, axı, mən də qazaxlıyam.

- Bilirəm, cənab general. Qardaşımla mən Pasxa bayramında Qazaxa gələrdik, Siz də orada olardınız. Qardaşımla mən topçu olmaq istəyirdik, buna görə də həmişə sizin dalınızca düşərdik, amma siz bizi görməzdiniz.

Mən onu qucaqladım. O, çox məmnun idi, Əsgərlərə isə dedim:

- Görürsünüzmü, yoldaşlar, sizin qoçaq komandiriniz mənim həmyerlim imiş. Mən buna çox şadam. **(Ə.Şıxlinski, "Xatirələrim", "Azərnəşr" 1984-cü il, səh. 181-182).**

GENERAL-MAYOR ALEKSANDR MİXAYLOVİÇ PURSELİDZE - hərbi nazirlikdə tapşırıq generalı.

"...Adını xatırlamadığım daha bir neçə qurbanlarımız və şəhidlərimiz vardı. Azərbaycan cəlladı Bağırovun bir məlumatında qeyd olunduğu kimi, əlli ikidən artıq qanlı xalq üsyanlarında fədakaranə ölən minlərcə igid partizanlarımızı da unutmayalım. Gənc ordumuzun şəhid komandanları Həmid Qaytabaşıları, Süleyman paşaları, Murad Gəraylını, İbrahim ağanı (**general-mayor İbrahim ağa Usubov -Ş.N**.), Həbibbəylər Səlimov və bir çox digərlərini də yada salalım" **(M.Ə.Rəsulzadə, "Azərbaycan davası" məqaləsindən**).

1918-ci ildən 1922-ci ilə qədər, əvvəlcə Tiflisdə, sonra isə Türkiyədə hərbi attaşe işləmiş Əsgər Əsgərov Kəngərlinin "Azərbaycan faciəsi" məqaləsindəki kiçik bir epizodu oxuyanda polis əməkdaşı olan erməninin insanlıqda payı

olmadığına şübhə yeri qalmır. O yazır ki, əleyhimə kifayət qədər material olmamasına görə məni Bakı "ÇK" - sına, məşhur cəllad Pankratovun birbaşa pəncəsi altına göndərdilər. Bədbəxtlikdən gəlişim Azərbaycanın bütün ərazisini üsyanların bürüdüyü bir dövrə təsadüf edirdi (**1920-ci ilin may-iyun aylarında Azərbaycanın ayrı-ayrı qəzalarında-Gəncə, Şuşa, Qazax, Şəki və Zaqatalada bolşevik işğalına qarşı guclü üsyanlar başlanmışdı Ş.N.).** Buna görə hərbi məktəb yoldaşlarımın hamısı, ən kiçik zabit rütbəsindən tutmuş hərbi nazirə qədər general Səməd bəy Mehmandarov öz qərargahı ilə burada, "ÇK"-da idi. Bizə tətbiq edilən bütün işgəncə və təhqirləri burada sadalamayacağam. Təkcə onu qeyd edim ki, hamımızın hörmət etdiyimiz ağsaqqal hərbi nazirə ayaq yolunu təmizləmək tapşırılanda biz, gənc zabitlər onun əvəzinə bu işi görməg üçün irəli atıldıq. Lakin keçmiş polis əməkdaşı, erməni növbətçisi bizi kobudluqla kənar edərək: "Ayaq yolunu Mehmandarov təmizləməlidir, özü də saqqalı ilə" - deyə bağırdı...

Görəsən bu sətirləri arvadı erməni olan, ya da "ermənilərlə dost olaq," - deyən azərbaycanlı oxuya bilsə, hansı hissləri keçirərdi?

1995-ci il.

Polkovnik
DANİYAL BƏY HƏLLƏCOV

Ah, o qılıncları, o qalxanları,
Sinəmin üstündən axan qanları,
Nəsildən-nəsilə verdim yadigar,
Üstü zər yazılı bir keçmişim var.

Səməd VURĞUN

İyirminci ildə şəhid olmuş bir milli ordu sərkərdəmizin sorağı ilə 1985-ci ilin noyabrında Tiflisə getdim. Sorağı mənə jurnalist dostum Seyfulla Cəfərli vermişdi. Polkovnik Daniyal bəy Abdulla oğlu Həlləcovun qızı Leyla xanımı evdə tapa bilmədim. O, Kutaisiyə hüzr yerinə getmişdi. İrena adlı mehriban bir qadın məni çox səmimi qəbul etdi. Elə ki, polkovnikin adını çəkdim, bütün müsahiblərimdə olduğu kimi onu da bərk təəccüb hissi bürüdü. Mən onu çox yaxşı başa düşürdüm. Yarım əsrdən çox keçən bir müddətdə birdən-birə bolşeviklərə qarşı vuruşmuş sərkərdənin ömür yolu ilə maraqlanmaq əlbəttə, hamını təəcübləndirə bilərdi.

Özü də 1985-ci ildə, hər dəfə çar və musavat generallarının uzaq, ya da yaxın qohumlarını axtarıb tapanda belə təəccübləri çox görmüşdüm.

İrena xanımı şübhələrdən qurtarmaq üçün "Seyfullanın dostuyam", - dedim, - "Qohumunuzun Sizə salamı var, ünvanınızı da ondan almışam..." Onda İrena xanım sevincindən bilmədi məni harda oturtsun.

Bayaqkı təəccübünə və şübhəsinə görə zadəgan xanımlarına məxsus incəliklə dönə-dönə üzrxahlıq etdi. Uzun illər keçməsinə baxmayaraq,

danışığında, davranışında bəy və zadəgan nəslinə məxsus yaxşı nə varsa, bu səmimi xanım özündə saxlaya bilib. Belə saf keyfiyyətləri hələ də yaşadan ana və bacılarımızı görəndə, istər-istəməz adam hədsiz qurur hissi keçirir. Sevinirsən ki, bu saf bulağın gözü hələ tutulmayıb. Gələcək qızlarımıza onlar ülvi əxlaqı, gözəl və zərif davranışı ilə hələ çox şey verə bilərlər.

Evdə polkovnikə məxsus nə qalmışdısa, İrena xanım səxavətlə mənə göstərdi. Üstəlik də eşidib-bildiklərini nəql etdi. Divardan asılan rəngli rəsm işinin də polkovnikə məxsus olduğunu fəxrlə bildirdi.

Daniyal bəy Abdulla bəy oğlu 1876-cı ildə Balakəndə mülkədar ailəsində anadan olub. Ailəsində altı övlad böyüdən Abdulla bəy onların hamısına ali təhsil vermişdi. İki oğlu Qaraəli bəy və Murtuzəli bəy Peterburq Universitetinin hüqüq fakültəsini, Bəşir bəy isə həmin universitetinin Şərq dilləri və hüquq fakültələrini bitirmişdir. Ən kiçik Məhəmməd bəy Moskva Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakültəsini qurtarmışdır (sonralar Sosialist Əməyi Qəhramanı olmuşdur). Ailənin yeganə qızı Məryəm isə Tiflisdəki Müqəddəs Nina Qızlar İnstitutunun məzunu idi.

Yalnız ailənin üçüncü oğlu özünün arzusu ilə hərb sənətini seçmişdi. Daniyal bəy Stavropoldakı ədadiyə (realnı) məktəbini bitirdikdən sonra bu qərara gəlmişdi. Sonra Peterburqdakı uçillik Mixaylov topçuluq məktəbində oxumuşdu. Artileriya məktəbini əla bitirən podporuçik Daniyal bəy Qars viləyətinin Cəlaus şəhərciyində yerləşən otuz doqquzuncu artileriya briqadasına xidmətə göndərildi. Bu briqadada on ildən çox xidmət edən Daniyal bəy ştabs-kapitan rütbəsinə qədər yüksələ bildi. Xidmətinin on ikinci ilində onu Tiflis quberniyasının Muxrovani şəhərindəki birinci artilleriya polkuna dəyişdilər. Bir az sonra həmin polk Qamboriyə köçürüldü. Cahan müharibəsindən yaralı qayıdan Daniyal bəy 1915-ci ildə uzunmüddətli müalicə məzuniyyətinə buraxılır. Dədə-baba vətəni Balakəndə yaşayır. Bununla da imperiya ordusunda xidmətini polkovnik rütbəsində başa vurur.

1918-ci ildə Azərbaycan Milli Ordusu yaradılanda Müdafiə naziri general Səməd bəy Mehmandarovun şəxsi dəvəti ilə Gəncədə yaradılan korpusa komandir müavini təyin olunur.

Axşam mehmanxanada İrena xanımdan aldığım qeydlərə bir daha göz gəzdirdim. Əlbəttə, onların azlığı məni məyus etdi. Nə vaxt qayıdacağı məlum olmayan Leyla xanımı gözləməyi qət etdim. Vaxt bolluğundan istifadə edib, Qori Seminariyasının arxivində araşdırmalar apardım. Həmsənət dostlarımla görüşüb Tiflisdə anadan olmuş general Firidun bəy Vəzirovun (1850/1925) heç olmasa bir qohumunu tapmaq, görüşmək istədim. General Vəzirov da 1919-20-ci illərdə milli ordumuzda xidmət edib. Hamı təəssüflə bildirdi ki, belə bir generalın adını ilk dəfə eşidir.

Ötən əsrin əvvələrindən başlayaraq, bizim mütərəqqi fikirli ziyalılarımız Tiflisdə daha çox məskən salıblar. Ona görə də inqilaba qədərki ziyalılarımızın hansının ömür yoluna nəzər salırsansa, istər-istəməz Tiflislə bağlılığına rast gəlirsən. Təəssüf ki, belə görkəmli şəxsiyətlərimizin adları əbədiləşdirilmir. Olub-qalan nişanələr isə bir yandan silinib itirilir.

General-topoqraf İbrahim ağa Vəkilovun ötən əsrin sonlarında tikdirdiyi şəxsi mülkü Uş.Çxeidze küçəsində əsl memarlıq abidəsi idi. İki göz istəyirdi tamaşa eləsin. Bu evi mən 1983-cü ildə generalın oğlu Faris bəyin çəkdiyi sxem vasitəsilə axtarıb tapmışdım. Bakıya qayıdanda Faris bəyə dedim ki, eviniz sağ salamatdı, getdim, ziyarət elədim. Onda Faris bəyin necə sevindiyinin bir Allah, bir də mən şahidi oldum. Doxsan dörd yaşlı tənha qoca durub qara şkafın enli siyirməsində saxladığı həmin evin fotoşəklini tapdı, denə-dönə öpüb uşaq kimi kövrəldi.

İkimərtəbəli mülkdə iki gürcü, bir erməni ailəsi yaşayırdı. Soruşdum ki, bilirsiniz bu mülk kimin olub? Cavab verdilər ki, bir tatar (**Azərbaycan - Ş.N.)** generalının.

Bu gəlişimdə də dözməyib evə yenə baş çəkmək istədim. Hansı gözəgörünməz qüvvəsə məni ora çəkirdi. Elə bilirdim orada, o mülkdə, qarşısındakı o cənnətəbənzər bağda Azərbaycanın bir parçası öz oğlunun həsrətindədir. Üstəlik də Faris bəy danışmışdı ki, qapımızdakı ağacların hamısını atam Qarayazıdan, Salahlıdan gətirmişdi. Atam o ağaclarla həmişə həmsöhbət olardı. Onları sığallaya-sığallaya, hər bir ağacın boyunu sevə-sevə böyüdərdi. Uzaq şəhərlərə topoqrafiya çəkilişlərinə gedəndə onlara da salam yazardı. Anama, bizə dönə-dönə tapşırardı ki, ağaclar amanatdı, onlara vaxtında su verin, korluq çəkməyə qoymayın.

Veriyski körpüsünü keçib balaca dikdirə çıxanda gözlərimə inanmadım. Generalın mülkü yox idi, yer üzündən silinmişdi, sanki burda heç belə şey olmayıbmış. Yalnız sahibsiz bağın ağacları qalmışdı. Məni qınamayın, mənə elə gəldi, o ağaclar yetim uşaq kimi ağlaşırdılar. Yaxınlaşıb oxşadım onları. Əlimi gövdələrinə çəkdim. Generalın ruhuna rəhmət oxudum, yaxşı tanıdığım mərhum Faris bəyi yada saldım. Kövrəldim. “Eh, dünya, niyə belə vəfasızsan” - pıçıldadım. Başım üstündə göyə yüksələn ağacların yarpaqları xışıldadı. Küləkmi tərpətdi onları, yoxsa mənim gəlişimə sevinclə pıçıldaşırdılar? Deyə bilmərəm, bircə şeyi bilirəm ki, canıma od saldı o ağacların qürbətdə yetim qalmağı...

Xeyli aralıdakı qonşulardan soruşdum ki, bu mülkü niyə uçurublar? Cavab verdilər ki, guya yanından keçən yolu genişləndirmək istəyiblər, yol-zad da çəkməyiblər. Evi uçurduqlarına da peşman olublar...

Beləcə bizim tarixi abidəmiz, tariximiz keçmiş Tiflisdən silinir. Acınacaqlı haldır ki, bu da bizim səlahiyyətli vəzifə adamlarımızı narahat etmir. O vaxt, 1983-cü ildə ev salamat olanda Bakıda rəsmi idarədə, bir rəsmi vəzifə sahibinə dedim ki, Tiflisdə generalın evi qalır.

- Nə demək istəyirsən? - deyib boz-boz üzümə baxdı.

- Yaxşı olar, - dedim, Gürcüstan hökuməti ilə danışıb mülkə bir lövhə vurdurasınız. Axı, o evdə xalqımızın yeganə topoqraf-generalı İbrahim ağa Vəkilov yaşayıb. General İbrahim ağa Vəkilov tarixi şəxsiyyətdir...

Məni axıra qədər dinləməyən rəhbər şəxs etinasızlıqla:

- Fikirləşərik, - dedi, - indi vaxt yoxdur.

Təəssüf ki, bizim “ağıllı rəhbərimiz” fikirləşməyə vaxt tapana kimi “dəli vurub çayı keçdi”...

* * *

Həmin il Tiflisdə şahidi olduğum bir hadisəyə azərbaycanlı kimi hədsiz sevindim. İndi də unuda bilmirəm. Bir küçədən keçəndə kitab mağazası görüb içəri keçdim. Satıcı yaraşıqlı cavan bir oğlan idi. Eşitmişdim ki, gürcülərin rusca danışan adamdan acığı gəlir. Mən də rusca soruşdum ki, sizdə tarixi mövzuda yaxşı kitab varmı? Saxlancın varsa, ver, neçəyə desən alaram. Oğlan üzümə baxıb, təmiz azərbaycan dilində:

- Var, - dedi, - buyurun, alın, cavan yaşında Gəncədə vəfat etmiş şair Nikolaz Barataşvilinin həyatından sənədli povestdir. Alsanız peşman olmazsınız.

- Azərbaycanlısanmı? - deyə sevinclə soruşdum.

- Yox, - dedi, - gurcüyəm, - fəxrlə -Meydanda yaşayıram. Bizim Meydanda yaşayan bütün millətlər Azərbaycan dilində mənim kimi təmiz danışırlar, hələ sizin mahnıları da oxuya bilirəm, hər bazar gunu saat ikidə "Muğamat saatı"nı səbirsizliklə gözləyirəm.

Dünən general İbrahim ağa Vəkilov mülkünun uçurulması qanımı qaraltmışdısa, bu gün dilimizə, musiqimizə olan hörmət məni göyün yeddinci qatına qaldırdı. Kitab mağazasından sinədolu sevinclə çıxdım.

* * *

Üç gün sonra Leyla xanım Daniyal bəy qızı Kutaisidən qayıtdı. Mən onun görüşünə getdim. Söhbət zamanı şahid oldum ki, İrena xanımdakı yüksək səviyyəli zadəgan zərifliyi ona xalası Leyladan keçmədir.

- Leyla xanım, - dedim, - Sizi çoxusu ona göra gözlədim ki, Azərbaycan Milli Ordusunun yaradılmasının şahidi olmusunuz. Buna yaşınız da imkan verir. Üstəlik də hərbçi qızı olmağınız... O vaxt Sizin on beş yaşınız olub, demək, nəyisə xatırlaya bilərsiniz?

Hələlik sualımı bir yana qoyan musahibimlə aramızda ərkyana belə bir söhbət oldu:

- Siz mənim yaşımı hardan bilirsiniz?

- Mənim dostum, Sizin qohumunuz Seyfulladan, - dedim.

- Kişinin qadının təvəlludu ilə maraqlanmağı keçmişdə qəbahət sayılardı. Mən də keçmişin adamıyam. Amma Sizə bağışlayıram. Ona görə ki, əvvəla, qonağımsınız, ikinci də Siz cavansınız, mən isə qocayam - deyib ürək dolusu güldü. - Nə isə, keçək əsas mətləbə. Bakıda biz az yaşadıq. Tezliklə atamın xidmət yeri Gəncəyə dəyişdirildi. Atam Gəncədə iki dəfə işlədi: bir on səkkizdə, bir də iyirminci ildə.

On doqquzuncu ildə isə atamın Müdafiə naziri Mehmandarovla, müavinləri Əliağa Şıxlinski və şahzadə Əmir Kazım Mirzə Qacarla Azərbaycan ordusunun nümayişini qəbul etdikləri yadımdadır.

Elə ki, XI ordu Bakıya gəldi, xalq möhkəm təşvişə düşdü. Çoxları İrana, Turkiyəyə qaçırdı. Onda atam, xalalarım Leyla, Tamara və mən Gəncədə yaşayırdıq. Qaçmağı atama da təklif elədilər. O, imtina edib dedi ki, anamı, ailəmi Balakəndə qoyub hara gedirəm. Getmədi. Atamın dayısı Livan Həlləcov

Azərbaycan Xarici İşlər nazirinin müavini idi. O getdi İrana. İndiyə kimi də heç bir xəbər-ətər yoxdu.

Mən XI ordunun Gəncədə törətdiyi dəhşətlərin şahidiyəm. Bolşevik ordusu vağzal tərəfdən, ermənilər isə Bağmanlardan şəhəri güclü top atəşinə tütdular.

Bolşeviklər gələn axşamı atam evə bərk hirsli gəldi. Şəhərin komendantı general-mayor Əmir Kazım Mirzə Qacarın, Gəncədə yerləşən birinci süvari diviziyasının komandiri general Cavad bəy Şıxlinskinin vəzifələrindən azad edilmələri onu bərk əsəbiləşdirmişdi. Atamın yaveri dedi ki, XI Ordunun qərargahından gələn zabitlər bizim komanda heyəti ilə çox kobud rəftar edirlər. Azərbaycanlı zabitləri işdən çıxardıb özlərininkini qoymaq istəyirlər. Gözətçi məntəqələrinə öz adamlarını təyin edirlər. On birinci ordudan gələn zabitlərin əksəriyyəti ermənidir. Nə Gəncə atıcı alayının, nə də Şəki süvari alayının əsgər və zabitləri buna razılıq vermirlər. Hamı bir səslə etirazını bildirir.

Oğul, Gəncə qırğınının ilkin səbəbi ermənilərin aravurması oldu. Daha çox onlar özlərini "qalib" kimi aparırdılar.

Mayın iyirmi beşindən iyirmi altısına keçən gecə şəhərin ermənilər yaşayan hissəsindən toplar və pulemyotlardan atəş başladı. Yerli ermənilərin satqınlığı, xəyanəti tam üzəçıxdı. Bizim inadla vuruşan əsgərlərimiz ruslardan çoxlu əsir almışdılar. Yerli əhali üsyan edən döyüşçülərimizə canla-başla kömək edirdi. Mayın iyirmi yeddisi idi, yoxsa bilmirəm, iyirmi səkkizi idi. Bakıdan gələn zirehli qatar stansiyanı ələ keçirtdi. Bundan sonrakı iki gündə də hər iki tərəfdən atəş dayanmadı. Bolşeviklərin qabağına düşüb yol göstərən ermənilər şəhərin müsəlman hissəsində qanı su yerinə axıtdılar. Mayın otuz birində XI Ordu şəhərə girdi. Azərbaycanlılara qarşı vəhşilik, talan, qırğın daha da gücləndi. Şəhərin bütün küçələri insan meyidi ilə dolu idi. Su quyularının hamısı meyidlə doldurulmuşdu. Bolşeviklərlə ermənilər bunu qəsdən eləmişdilər ki, şəhərin müsəlman əhalisi içməyə su tapmasın. Meyidləri basdırmağa imkan vermirdilər, camaata acıq verirmiş kimi meyidləri ata, camışa qoşub şəhərin kənarına atırdılar. Həyatımda bundan dəhşətli səhnə, bundan böyük vəhşilik görməmişəm. Belə vəhşiliyi ancaq sizin kommunistlər eləyə bilər, - deyib çox sərt sifətlə mənə baxdı.

- Mən kommunist deyiləm. Leyla xanım.

- Hə, nə yaxşı - deyib, təəccübləndi, - görürəm bolşeviklərə qarşı vuruşan milli ordu sərkərdələri ilə də ona görə canfəşanlıqla material toplayırsan. Bu daha pis, səni elə kommunist olmadığına görə də dolaşdıra bilərlər.

- Leyla xanım, mənim yaşıdlarımın çoxusu ona görə kommunist olurlar ki, əllərinə vəzifə keçirsinlər. Mənim isə bu barədə iştaham koruşdur. Vəzifə sahibi olsaydım, üç gün Tbilisidə sizi gözləyə bilməzdim. Yoxsa, qayıdan kimi məni vəzifədən qovardılar.

Yaman sərtləşmişdik, az qala dalaşacaqdıq. Mənim kommunist olmamağım çulumu sudan çıxartdı, bizi barışdırdı.

1920-ci ilin avqustunda şəhərə vəba xəstəliyi yayıldı, - deyib köksünü ötürən Leyla xanım söhbətinə davam etdi. Atamdan isə heç bir xəbər yox idi. Deyirdilər ki, general Cavad bəy Şıxlinski, polkovnik Cahangir bəy Kazımbəyov, Sarı Ələkbər, Qaçaq Qəmbər, atam böyük bir dəstə ilə meşələrdə vuruşurlar, bolşeviklərə tabe olmaq istəmirlər. Bir azdan atamın həlak olması xəbərini

eşitdik.[45] Biz bir müddət zirzəmidə yaşadıq. Gəncədə vəziyyət çox pis idi. Əhalini milçək kimi qırırdılar: günahlını da, gunahsızı da, həbsxanalar adamla dolu idi. Yəqin dostunuz Seyfulla Sizə demiş olar, atam həm də yaxşı rəssam olub. O dəhşətli ildə əsərləri it-bata düşdü. Bir neçəsini saxlaya bilmişəm: "Qars mənzərələri", "Balakən dağları"... Qırx altı yaşında həlak olan polkovnik atamın bircə fotoşəkli qalıb, o da at üstündə Qars şəhərində çəkilib.

- Leyla xanım, o qarışıq vaxtda Balakənə necə gəlib çıxdınız?

- Çox çətinliklə, atamın bir dostu bizi xilas elədi. Anamın yanına Balakənə gəldik. Anamla atam 1904-cü ildə Qarsda evləniblər.

Anam briqada komandirinin qızı olub, milliyyətcə polyakdır. Felisin Stanislavovna Krinseviç - Qicdeu. Anam Varşavadakı məşhur zadəgan nəslindən idi. Ailədə iki bacı idik; kiçik bacım Tamara uşaqkən vəfat edib.

- Yenə kinayəli zarafat edir - mənim isə üzüm bərkdi. Hələ də yaşayıram. Bu il səksənin arxasını yerə vuracam.

Bütün bunları daxili təlatümlə, göz yaşlarını içində boğaraq danışan Leyla xanım söhbətimizin sonunda yenə zarafatından qalmadı.

- Özünü gözlə, oğul.

- Nədən, Leyla xanım? - dedim. DTK-dan, milisdən, adam güdənlərdən...

- Niyə ki, neyləmişəm?

- Sən heç nə eləməmisən, hələlik... Mənim isə ağzım qızışdı, çox şeyi danışdım. Dediyimin hamısını yazıb özünü xata-balaya salma.

- Çalışaram, Sizin istəyinizcə olsun, - deyib inamla söz verdim.

Leyla xanımla söhbətimiz 1985-ci il noyabrın 14-də olmuşdu. Bu tarixi mən cib dəftərçəmdə də qeyd eləmişəm. Bu yazını isə 22 iyun 1992-ci ildə qələmə almışam. Leyla xanımın mənə tövsiyə elədiyi ehtiyata ehtiyac qalmadı.

İyun, 1992-ci il.
Mərdəkan sanatoriyası.

Polkovnik ŞİRİN BƏY Kəsəmənli

1918-20 illərdə hansı generallarımız Azərbaycan Ordusunda xidmətdə olub? Sovet Hökuməti suqut etdikdən sonra yeni, azad Azərbaycanımızda bu haqlı sualı tez-tez eşitmək olur.

Əlbətdə, ən əvvəl iki şöhrətli generallarımızın adını xatırlamaq borcumuzdur: Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov. Milli silahlı qüvvələrimizin yaradılmasında və təşkilində bunların xidmətləri əvəzsizdir.

1918-20-ci illərdə Azərbaycan Ordusunda ilk topoqraf generalımız

[45] Keçmiş milli ordu zabiti, 95 yaşlı Pamazan Həmzət oğlu Xəlilov şahidlik verir ki, polkovnik Daniyal bəyi Gəncə ÇK-sının sədri Tuxareli 1920-ci ilin iyununda həbs edib, şaşka ilə doğramışdır. müəl.

İbrahim ağa Vəkilov, Həbib bəy Səlimov, milliyətcə Litva tatarı olan Məmməd bəy Sulkeviç, Firudin bəy Vəzirov, İbrahim ağa Usubov, Şahzadə Əmir Kazımxan Qacar, Cavad bəy Şıxlinski, Davud bəy Yadigarov, Şahzadə Əmənulla xan Qacar, Əbdülhəmid bəy Qaytabaşı, Süleyman Əfəndiyev, Teymur bəy Novruzov, Şahzadə Məhəmməd Mirzə Qacar, Murad Gəray bəy Tlexas, Şahzadə Feyzulla Mirzə Qacar və başqaları milli orduda qeyrətlə xidmət ediblər.

Azərbaycan milli ordusunun on doqquzuncu ilin sonlarında otuz minlik piyadası, on min isə süvari qoşunu vardı,

Çox təəssüf ki, yeni gələn Şura Hökuməti milli ordunun əsgər və zabitləri ilə çox amansız rəftar elədi, Bakıya soxulan XI talançı ordu milli ordumuzun general və zabitlərinin əksəriyyətini 1920-ci ilin may-iyun aylarında məhkəməsiz - filansız güllələtdi. Qalanını isə Sibirə, Qazaxstana və Solovki adalarına sürgün etdilər.

Azərbaycan ordusunda qeyrətlə xidmət edən sərkərdələrdən biri də Şirin bəy Kəsəmənli olub.

Tarixin bir parçasını yaşadan sənədlər, fotoşəkillər ötən qəhramanlıq illərimizdən xəbər verən ən etibarlı mənbələrdir. Tarixin "ağ səhifələri" indi açılır. Bu səhifələr olub-keçmiş hadisələrin gizlin qatlarını araşdırmağa, yeni həqiqətləri aşkara çıxarmağa imkan yaradır.

Yetmiş ildən çox adı heç yerdə çəkilməyən Azərbaycan sərkərdəsi Şirin bəy Cəfərağa oğlu Kəsəmənlinin fotoşəklinə ilk dəfə Respublika Mərkəzi Dövlət Kino foto sənədlər arxivində rast gəldim.

Şəkildə on doqquz nəfərlik zabit heyəti təsvir olunmuşdu. Arxasında isə belə yazılmışdı: "Musavat ordusunun generalları və zabitləri birinci cərgədə, soldan praporşik İsmayılov, Bahadır bəy Vəkilov, kapitan Sadıqov, ikinci cərgədə, soldan üçüncü kapitan Meydayev, beşinci polkovnik Şirin bəy Kəsəmənli və üçüncü cərgədə, sağdan üçüncü kapitan Heydər Vəzirov". Vəssalam. Qalanlarının adı, famili göstərilməyib. Şəkil 1919-cu ildə çəkilib [46].

Polkovnik Şirin bəyin adına inqilabdan əvvəlki sənədlərdə az da olsa, rast gəlmək olur. O, xeyirxahlığı ilə məşhur olan adlı-sanlı bir nəslin oğludur. Bakıda Şirin bəyin yeganə qızı, kimya elmləri namizədi Ləyyə xanımla, qardaşı Həsənin arvadı Tovuz xanımla və nəvələri tarix elmləri doktoru Fuad Məmmədovla, texnika elmləri namizədi Zaur Kəsəmənli ilə görüşüb söhbət etdim.

Tovuz xanımın illərin tufanından qayğı ilə qoruyub saxladığı şəkil və sənədlərlə tanış oldum.

Şəkillərin arxasında yazılmış rəqəmlər, tarix daha çox köməyimə gəldi. Onların vasitəsilə öyrənə bildim ki, Şirin bəy Kəsəmənli 1887-ci ildə Qazax qəzasının Qıraq Kəsəmən kəndində bəy ailəsində dünyaya gəlib. Atası Cəfər ağanın beş yüz desyatin torpağı olub. Onu da xatırladım ki, yazıçı Fərman Eyvazlının "Qaçaq Kərəm" tarixi romanında Şirin bəyin atası Cəfər ağanın obrazı xeyirxah bir ağsaqqal kimi təsvir olunub.

---

[46] Sonralar Ramazan Xəlilov by şəkildən iki nəfəri də tanıdı - general-mayor Murad Gəray bəyi Tlexası və podpolkovnik Cəmşid xan Naxçıvanckini - müəl.

Cəfər ağa on üç yaşlı oğlu Şirin bəyi Tiflisdəki zadəgan uşaqlarının təhsil aldığı hərbi gimnaziyaya oxumağa qoyub. O, hərbi gimnaziyanı 1905-ci il iyulun 23-də bitirib. Bir müddət Qusar alayında qulluq etdikdən sonra hərbi təhsilini artırmaq üçün Kiyevdəki ikinci Konstantin topçu məktəbində oxuyub.

Birinci Dünya müharibəsində polkovnik Şirin bəy Kəsəmənli Qafqaz müsəlmanlarından təşkil olunmuş "Dikaya diviziya"nın tərkibində vuruşub. O, bu müharibədə "İgidliyə görə" medalı ilə və dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə (xatirə qılıncı ilə birgə) təltif olunub.

1916-cı ildə Tiflisə qayıdan Şirin bəy Kəsəmənli ilk azərbaycanlı qadın rəssamı Qeysər xanım Kaşıyeva ilə ailə qurub.

Şirin bəyin yeganə övladı Ləyyə xanımın dedikləri:

- Anama nişan gələndən bir neçə gün sonra Birinci Dünya müharibəsi başlayıb. Ona görə də anam iki il nişanlı qalıb, müharibədən sonra evləniblər.

Mənim ana tərəfim də hərbçi olub. Anam danışardı ki, babam Terek kazakı olub. Stanitsa generalı rütbəsinə qədər yüksəlib. Babam Seyfulla Kaşıyev müsəlmanlığı qəbul edən Palina Yakovlevna Titovaya evlənib, Tiflisə köçüb. Dayım Davud bəy Kaşıyev praporşik idi. İndi bizdə saxlanan şəkildə atam Şirin bəy, anam Qeysər və dayım Davud bəy təsvir olunub. Belə şəkillər bizdə çox idi. Anam qorxudan otuz yeddinci ildə yandırdı.

1917-ci ildə mən anadan olanda atamla anam adqoydu üçün axundun yanına gediblər. Axund kitab açaraq deyib ki, bəxtinizə İbrahim peyğəmbər düşdü. Onun da üç arvadı olub. Sara, Həcər, Ləyyə. Bu adlardan hansını istəsəniz götürə bilərsiniz. Anam Ləyyə adını bəyənib.

Atamı demək olar ki, xatırlaya bilmirəm. Mən bir yaş yeddi aylıq olanda atam vəfat edib. Biz uzun müddət Tiflisdə və Qazaxda yaşamışıq. Mənə çox vaxt Apollonun qızı deyərdilər. Böyüyəndə anamdan soruşdum ki, niyə məni belə çağırırlar. Anam cavab verdi ki, atan Şirin bəy qəddi-qamətli və yaraşıqlı kişi olduğuna görə camaat onu Apollon deyə çağırırdı.

Anam danışardı ki, bizi məscidin darvazasına qədər ötürən axund dilə gəlib dedi ki, cənab zabit, sizdə kişilərə məxsus ilahi gözəllik var, işıqlı Apollon gözəlliyi. Siz təkcə zahiri gözəlliyinizlə yox, həm də parlaq ağlınızla məni heyran etdiniz. Allah sizi hər bəladan hifz etsin.

Anam son nəfəsinə qədər vaxtsız həlak olan atamdan fəxrlə söhbət açardı.

1918-ci ildə, Azərbaycanın ağır günlərində Şirin bəy Milli Ordunun sərkərdələrindən biri olub.

Bir tərəfdən general Tomsonun ingilis hərbi dəstələri, o biri tərəfdən erməni daşnak ordusu Azərbaycanın müstəqilliyini boğmağa çalışırdı. Belə bir vaxtda respublikamızın sərkərdələri sırasında Şirin bəy Kəsəmənli də Qarabağda, Zəngəzurda və Qazaxda erməni daşnak dəstələrinin darmadağın edilməsində əsl komandirlik məharəti göstərirdi.

Polkovnik Şirin bəy Kəsəmənlinin 1918-19 cu illərdə Milli ordumuzdakı fəaliyyətini öyrənmək üçün əlimizdə bircə əsaslı sənəd var. O da Hərbi Nazir vəzifəsini müvəqqəti icra edən tam artileriya generalı Əliağa Şıxlinskinin və Baş Qərargah rəisi general-mayor Əbdülhəmid bəy Qaytabaşının Respublika Yeni

Tarix Mərkəzi Dövlət arxivinin 2894 nömrəli fondunda saxlanan əlyazmasıdır. Həmin sənədin tam mətni belədir:

"Azərbaycan Respublikasının Gürcüstandakı Hərbi attaşesi teleqramla kədərli bir xəbər vermişdir. Yanvarın dördündə ağır geçən bir xəstəlikdən sonra ikinci süvari diviziyasının rəis müavini polkovnik Şirin bəy Kəsəmənli vəfat etmişdir.

Vətənini dərin bir məhəbbətlə sevən Kəsəmənli yeni ordumuzun yaranmasında öz gücünü əsirgəmirdi. Təyin olunduğu vəzifədə, tapşırılan hər bir işin öhdəsindən bacarıqla gəlirdi. Hədsiz enerjiyə malik idi. Heç bir çətinlik qarşısında dayanmırdı. Bütün çətinlikləri fövqəladə bacarığı ilə dəf edib, işlərini uğurla başa çatdırırdı. 1918-ci ildə praporşiklər məktəbinin rəisi təyin edildi. Alayı qəbul edəndə o, xaosla və üstəlik də səpmə yatalaq xəstəliyi ilə qarşılaşdı.

Bu xəstəlik alayda kütləvi qırğına səbəb oldu. Vəziyyətin acınacaqlı olmasına baxmayaraq, polkovnik Kəsəmənli aciz qalmadı, əksinə, tezliklə işə girişərək, dağılmış alayı yaxşı vəziyyətli hərbi hissə səviyyəsinə qaldırdı.

Xaçmaz dəstəsinə təyin olunduqdan sonra da bacarıqlı komandir olduğunu göstərdi. O, dəstənin təşkilində, mövqelərin möhkəmləndirilməsində böyük zəhmət çəkdi. Bacarıqlı komandir dəstənin qarşısına qoyulan vəzifənin öhdəsindən məharətlə gələ bildi.

Cəsarətlə demək olar ki, polkovnik Şirin bəy Kəsəmənli harda olurdusa, o yerdə onun müvəffəqiyyətinə əmin olmaq mümkün idi. Tərəddüdsüz arxayın olmaq gərəkdir ki, ona tapşırılan iş batmayacaq və sözsüz yerinə yetiriləcəkdir.

Polkovnik Kəsəmənli bütün bəlalarda dəstə ilə birgə olduğundan ağır formada qızdırma xəstəliyinə tutulur. İkinci piyada diviziyasına rəis müavini təyin edildiyi vaxtda Tiflisə müalicəyə gedir və orada da vəfat edir.

Polkovnik Şirin bəy Kəsəmənlinin şəxsində ordumuz ağır itkiyə məruz qaldı. Qoy onun adı bizim gənc ordumuzun alaylarında əbədi yaşasın və onun hərbi xidməti alayın hər bir əsgəri üçün nümunə olsun.

Əmr edirəm ki, onun cənazəsinin gətirilməsi və dəfn xərci xəzinə hesabına ödənilsin. Onun ailəsinə isə müalicəyə xərc çəkildiyi üçün on min manat məvacib verilsin".

Otuz iki yaşlı istedadlı sərkərdə Şirin bəy Kəsəmənli doğma kəndi Qıraq Kəsəmən qəbiristanlığında 1919-cu ilin yanvarında şərəflə dəfn olunub. Bakıdan, Gəncədən gətirilən alaylar onun məzarı üstündən yaylım atəşi atıblar.

Tovuz xanım Kəsəmənlinin dedikləri: - Onda mən yeniyetmə qız idim. İldə iki-üç dəfə Qazağa gələn Şirin bəy bizim dərslərimizlə maraqlanardı. Hər dəfə gələndə onlara pay gətirər, pulla yardım edərdi, kasıb uşaqlarını aparıb Qazaxdakı "Üsuli-cədid" məktəbinə oxumağa qoyardı. Anam Şükufə xanım soruşardı ki, ay Şirin bəy, səndə bu qədər pul hardandır? Cavab verərdi ki, axı mən zabitəm, dövlət zabitin zəhməti müqabilində ona pulu çox verir.

Dəfnində bütün Gəncə, Qazax, Tiflis camaatı iştirak elədi. Yaveri Demyan adlı bir rus idi. Uşaq kimi ağlayırdı. Çox vəfalı adam idi. Sonralar da bizə gəlib-gedərdi.

Anam Şükufə xanım Şirin bəyin əmisi qızı idi. Sonralar onun qardaşı Həsən bəylə ailə qurdu. Bizim nəslə Qazaxda "Qəhraman ocağı" deyirlər. Ötən əsrin

altmışıncı illərində taxıla güclü çəyirtkə düşübmüş. Kəndlilər ağlaşırmış ki, taxıl gözündən batdı, bu il aclıq olacaq. Ana babam Ağabəy hansı yollasa çəyirtkəni məhv edib, rəiyyəti aclıqdan xilas edir. Bu yaxşılığı unutmayan camaat imperatora ərzi-hal göndəriblər ki, Ağabəy bu xidmətinə görə mükafatlandırılsın. İmperator da babam Ağəbəyi gümüş medalla təltif edib, üstəlik də Kəsəmənski familiyasını daşımağa rəsmi icazə verib. Bundan sonra bizin nəslin famili rəsmi dairələrdə Kəsəmənli kimi yazılıb.

Şirin bəyin qardaşı arvadı Tovuz xanım mənə bir ünvan da verdi. Dedi ki, Çaylı kəndində yaşayan ağsaqqal qohumu Murad Novruzov Şirin bəy haqqında daha çox məlumata malikdir.

Axtarışlarımda ağsaqqallarımızın, ağbirçəklərimizin yaddaşına çox arxalanmışam. Ona görə də yaxşı yaddaşlı adam mənim təsəvvürümdə canlı arxiv kimidir. Bəzən elə olub ki, bir faktı, bir sənədi tapmaq ümidi ilə günlərlə, aylarla arxivlərə ayaq döyüb, on illərlə kif basmış sənədlərin tozunu udmuşam, bir şey əldə edə bilməyib, qocaların yaddaşına pənah aparmışam. Bu mənada Qazağın Salahlı, Kəsəmən, Ağköynək, Xanlıqlar, Şıxlı və başqa kəndləri mənim üçün xəzinə məkanı olub, Daş Salahlı kəndi ilə Çaylını cəmi-cümlətanı bir kilometrlik məsafə ayırır. İlin hər fəslində Daş Salahlıya yolum düşür. Hər dəfə də Çaylının yanından ötüb sinəsi bayatılarla, şerlə dolu Daş Salahlı qocalarının el qəhramanları haqqında söhbətlərini dinləməyə gedirəm Aşıq Bəhrama, Paşa Salahlıya, Əvəz Avdıoğluna, Əbdüləzim Həsənova qulaq asdıqca eldə-obada nə qədər açılmamış səhifələrin, maraqlı tarixi söhbətlərin şahidi oluram.

Amma heç vaxt ağlıma gəlməyib ki, Çaylıda da müdrik bir qoca yaşayır, onun da el-oba uçün yararlı söhbətləri var. Ağac meyvəsi ilə tanındığı kimi Murad dayı da yaxşı yaddaşına, şirin söhbətinə görə kənddə sayılan, hörmət olunan ağsaqqallardandır. O, inqilabdan əvvəl olub-keçənlərin şahidi deyil. Yaşı buna imkan vermir. Cəmi-cümlətanı altmış üç yaşı var. Amma o illərin əhvalatlarını elə yaxşı təfsilatı ilə danışır ki, dinləyicisi sanki hadisələrin şahidi olur. Danışdığının, bildiyinin hamısı yetmiş il əvvəlin hadisələridir. Dilinin əzbəri keçmişin igid kişiləri - Qaçaq Kərəmdi, İsrafil ağa Kərbəlayevdi, Məmməd koxa Mahmudoğludu, Əliağa Şıxlinskidi, Söyünbəyli Söyün ağadı, bir də bəy və musavat polkovniki olduğuna görə yetmiş ildən çox adı, fəaliyyəti qapalı qalan Şirin bəy Kəsəmənlidi.

Murad dayıdan elin igid, qeyrətli oğlu, qızı haqqında bir söz soruşsan, nə kitab vərəqləyəcək, nə də kağız-qələm axtaracaq. Allahın verdiyi istedadın gücü ilə hələ uşaqkən oxuduğu dastanları, eşitdiyi əhvalatları hafizəsinə yazıb, həkk edib. Tanrının kəramətinə şükürlər diləyirsən: nə yaxşı belə ağsaqqallarımız az da olsa qalıb. Nəslində bəylik var deyib onu da dolaşdırmayıblar. Sibirə, Qazaxıstan çöllərinə sürgün eləməyiblər. Elə bilməyin ki, otuz yeddinin acı tufanı Murad dayıdan yan keçib. Yox, atası Məcid kişi əsl-nəcabətində ağalıq olduğuna görə, nə az, nə də çox, on səkkiz il Sibir sürgünü çəkib. Sağ-salamat qayıdıb, doxsan dörd yaşında Çaylıda vəfat edib.

- Atam həbs edildi, ailəmiz ağır vəziyyətə düşdü. Heç dörd il oxumamış ağır işin qulpundan yapışdım. Əlim işdə oldu, qulağım nənələrin, babaların sözündə,

söhbətində. Nəyi unutsam da aşıq məclisinə getməyi, qoşma əzbərləməyi, əhvalat öyrənməyi unutmadım.

- Murad dayı, polkovnik Şirin bəylə qohumluğunuz varmı?

- Şirin bəyin xalası nəvəsiyəm. Mən Xanım Hacımuradalı qızının oğluyam. Bütün bildiklərimi mənə nənəm danışıb. Şirin bəyin şəkilləri də bizə nənəmdən yadigar qalıb. Yadımdadır, nənəm nağıl elərdi ki, Şirin bəy Birinci Dunya müharibəsindən qayıdanda hamı - bütün kənd camaatı görüşünə gəlmişdi. O, sinəsində "Müqəddəs Georgi" ordenilə gəlsə də, ayağından yaralanmışdı. Bir müddət müalicə olunub, yenidən "Dikaya diviziya"nın tərkibində hərbi xidmətini davam etdirib. Sonra Azərbaycan Demokratik Hökumətinin sıralarında yüksək rütbəli zabit kimi qulluq edib.

- Deyirlər, şair Əfqan Şirin bəyin orden alması münasibətilə şer yazıb.[47] Amma heç yerdə çapda yoxdu. Hətta Çoban Əfqanın yeganə "Şerlər" kitabına belə düşməyib. Siz o şeri bilirsinizmi?

- Oğul, qocalıq üstümü alsa da, yaddaşımdan şikayətim yoxdu. Əvvəla, onu deyim ki, şair Çoban Əfqan bizim nökərimiz olub. Çox təbli, istedadlı şair imiş. Nökər, çoban olmasına baxmayaraq Şirin bəy onunla dostluq edərmiş. 1919-cu ildə Qazağa gələn Şirin bəyi şair Çoban Əfqan şerlə qarşılayır. "Bu bəyin" adlı şeri aşıqlar biz uşaq olanda oxuyardılar. 1930-cu illərdə aşıqlara necə təpindilərsə, xırp səslərini kəsdilər. Şer belədi:

Bir imdad istərəm, ya şahi-mərdan,
Üzülməsin eldən əli bu bəyin.
Bağban da bəslədi bar gətirməyə,
Dağılmasın dəsti-külü bu bəyin.

Özündən də qabaq gəlmişdi namən,
Görüşünə gəldi Qazax, Kəsəmən,
Cəfərağa yurdu çiçək, yasəmən,
Şad olubdu oymaq, eli bu bəyin.

Mahal unudarmı belə canları,
Hacı Axund kəsdiyi qurbanları.
Xələtlə qarşıladı cavanları,
Paylandı qumaşı, alı bu bəyin.

Əl uzatsam əlin mənə yetirsin,
Hər nə qulluq desəm, onu bitirsin,
Toplar qılınclasın, əsir gətirsin,
Qurşasın kəməri əli bu bəyin.

Belə bir ağamla çıxaydım ova,
Qüdrətin şəmşirin çəkərlər suya,

[47] Şeri eşitdiyim kimi də təqdim edirəm - müəl.

Əfqan gecə gündüz eylərdi dua,
Nə xoşdu, danışır dili bu bəyin.

1991-ci il.

İLK HƏRBİ NÜMAYİŞ

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-20-ci illərdəki fəaliyyət dövrünə qısaca nəzər salsaq, bir çox yeniliklərin şahidi olarıq.

1918-ci il Bakıda, ümumiyyətlə Azərbaycanda çox tələtümlü və həyəcanlı keçmişdir. Mart qırğını, yerli bolşeviklərlə döyüşlər, bundan əlavə də türklərin, ingilislərin gəlib-getməsi, o biri tərəfdən də ağqvardiyaçı Denikin ordusunun qara-qorxusu meydana çıxdı. Yalnız on səkkizinci ilin dekabr ayında azad nəfəs almaq mümkün oldu. İndi Azərbaycanda nə dost vardı, nə də düşmən, bircə Dərbənd yaxınlığında gəlib dayanan Denikin ordusundan təhlükə gözlənilirdi. Noyabrın birində hərbi nazir təyin olunan general Mehmandarov həmin ayın 25-də "Azərbaycan vətəndaşlarına" adlı vətənpərvər yazısı ilə xalqa müraciət etdi.

Yeni gələn 1919-cu il daha uğurlu idi. Ordunun sayı 40 minə çatdırıldı. Praporşiklər, artilleriya və minaaxtaranlar məktəblərinin yeni buraxılışı oldu. Bu ildə tam azad nəfəs alan respublikamız Qarabağda qayda-qanun yaratmağı da unutmadı. Marığa yatan, özlərini sakit aparan namərd erməni daşnakları Azərbaycan ordusunun silahının sərt üzündən ehtiyat edirdilər. Andranikin quldur dəstəsi Zəngəzurun böyür-başında hərlənirdi. O, aprel ayında general Cavad bəy Şıxlinskinin yenilməz diviziyası ilə döyüşə girməyə cəsarət etməyib İrəvana qayıtmışdı. Dro ilə birləşib yenidən Qarabağ və Zəngəzura hücum planı hazırlayırdı. İkiüzlü erməni siyasətinə bel bağlamayan Azərbaycan hökuməti 1919-cu il yanvarın ilk günlərində Cəbrayıl, Zəngəzur və Şuşa qəzalarını Gəncə quberniyasından ayırıb Qarabağ general-qubernatorluğunu yaratdı. Xosrov bəy Sultanov general-qubernator təyin edildi.

Mart ayının 19-da Baş Qərargahın Baş İdarəsi yaradıldı. Bilavasitə operativ məsələləri həll edən idarəyə rəis Krım hökumətinin sabiq başçısı, general-leytenant Məmməd bəy Sulkeviç təyin edildi. Nisbətən sakit keçən bu ildə hərbiyyə naziri Səməd bəy Mehmandarov hələ yanvarın 31-də Gəncədə Novruz bayramı münasibətilə hərbi nümayiş keçirilməsinin hazırlığına belə bir əmr verdi:

"Mart ayının 22-də Gəncə şəhərində Novruz bayramı münasibətilə Gəncə qarnizonunun və Azərbaycan ordusunun digər hissələrinin iştirakı ilə, həm də Cavanşir alayından bölük, II Bakı alayından tabor çağırmaqla parad keçirmək nəzərdə tutulur.

Bayram mərasimində qoşunların iştirakı müstəqil Azərbaycan Respublikası xalqının şənliklərinə milli bayram xarakteri veriləcək və bundan başqa bu parad hərbi hissələrin sıra təliminə baxış olacaqdır.

Yuxarıdakıları nəzərə alaraq komandirlərin müəyyən edilmiş müddətə öz hissələrini baxışa əla hazırlaması və təqdim etmələri gərəkdir.

Əslini imzaladı:
Ali Baş Qərargahın rəisi
Polkovnik Həbib bəy Səlimov".

Respublika Mərkəzi Dövlət Yeni Tarix arxivində saxlanılan on doqquzuncu ilə məxsus sənədlərdə göstərilir ki, Novruz bayramını nəinki yerli əhali, Milli Ordu da çox təntənəli keçirmişdir.

Novruz bayramı münasibətilə hərbi nümayiş martın 22-də səhər saat 11-də Gəncənin Artilleriya meydanında keçmişdir. Bu münasibətlə nazirliyin baş mollası əzan çəkmiş və xeyir-dua diləmişdir.

Müdafiə naziri general Səməd bəy Mehmandarov isə Azərbaycan Parlamenti və öz adından gənc ordu heyətini bayram münasibətilə təbrik etmiş və onlara gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

Nizami addımlarla meydandan keçən əsgər və zabitlər həmin təntənə üçün bəstələnmiş belə bir şərqi-marşı oxumuşlar:

Şükür Xuda, şadlıqla Novruz oldu,
Düşmənlərin gözü kor, Novruz oldu.
Neçə müddət möhtac idik düşmənə,
Yaramazdıq onun heç bir işinə.
İndi vurar hər kəs bir daş başına,
Şükür Allaha şadlıqla Novruz oldu,
Düşmənlərin gözü kor, Novruz oldu.

Lazımdır hamı verək əl-ələ,
Başqa millət şanı olmasın belə,
Görməsin Allah, daha zəlzələ,
Şükür Allaha şadlıqla, Novruz oldu.
Düşmənlərin gözü kor, Novruz oldu.

Təbrik edirik şanlı Səməd paşanı[48]**,**
Etsin Allah həmişəlik şanını,
Minə qədər etsin Allah yaşını,
Şükür Allaha, şadlıqla Novruz oldu,
Düşmənlərin gözü kor, Novruz oldu.

Bu, 1919-cu il martın 22-də keçirilən Azərbaycan Ordusunun ilk bayramı oldu. İkinci belə bir bayram-nümayişini ordumuz həmin il mayın 28-də keçirdi. Bayram-nümayiş azad Azərbaycan Respublikasının yaranmasının bir illiyinə həsr olunmuşdu.

---

[48] Müdafiə naziri, general Səməd bəy Mehmandarov - müəl.

1920-ci il martın 22-də keçirilən istiqlaliyyət bayramını bir ay sonra - 1920-ci il aprelin 28-də bolşevik-daşnak ordusu qanla suvardı. Siyasi süquta uğrayan Azərbaycan Demokratik Respublikasının mübarizləri zəfər yürüşlü bayramı son nəfəsə qədər unutmadılar. O bəxtiyar günü ömrünə əbədi həkk edən Mirzə Bala Məmmədzadə mühacirətdə yana-yana yazırdı:

"1920-ci il martın 22-də Novruz bayramı münasibətilə icra edilən son rəsmi keçidi xatırlamamaq qeyri-mümkündür. Əcəba, hansı azərbaycanlı o məsud günü xatırlamır? Ordunun qabiliyyət və intizamı, mənəviyyatı təsəvvür olunmaz dərəcədə fövqəladə idi. Xarici aləm az bir müddət ərzində vəsaitsizlik içində bu qədər müntəzəm təşkilata malik bir əsgəri qüvvə vücudə gətirdiyimizə heyran qalmışdı. Əhalidən çoxu duyduğu həyəcandan ağlayırdı.

O gün Azərbaycanın ən şanlı, ən bəxtiyar günü idi. **(M.B.Məmmədzadə, "Azərbaycan Milli hərəkatı"ndan, "Azərb.Ordusu" qəzeti, 30 sentyabr 1993-cü il).**

Arxivdə saxlanan ən maraqlı sənədlərdən biri də Azərbaycan Respublikasının ordusunda türk dilinin dövlət dili kimi təsdiq edilməsi barədə verilən Ali Baş qərargahın 89 nömrəli əmrnaməsidir. Hərbi nazir haqlı olaraq bildirir ki, Azərbaycan ordusunda xidmət etmək istəyən hər bir şəxs türk dilini öyrənməli və bu sahədə açılan kurslarda savadını artırmalıdır.

İnanırıq ki, yetmiş ildən çox birtərəfli öyrəndiyimiz tariximizin səhifələri bu günkü oxucularımız üçün də maraqlı olacaqdır.

HƏRBİ MƏTBUAT TARİXİMİZDƏN

Hər birimiz bu məcmuəni oxuyub istiqlalımız üçün iş görməliyiz.

Məmməd Həsən TAHİROV

Azərbaycanda hərbi mətbuatın tarixi nə vaxtdan başlanmışdır? Bu sahədə indiyədək araşdırmalar aparılmadığından suala dəqiq cavab vermək qeyri-mümkündür. Əgər söhbət qəzet nəşrindən və hərbi mövzuda yazılardan gedirsə, onun tarixi rusların Zaqafqaziyanı işğalından sonraya düşür.

1828-ci ildən Tiflisdə rus dilində nəşrə başlayan "Tiflisskiye vedomosti" qəzetinin ayrı-ayrı nömrələrində Azərbaycan süvari alayları ilə bağlı yazıları və Əlahiddə Qafqaz ordu qərargahında hərtərəfli biliyə malik alim kimi tanınan polkovnik Abbasqulu ağa Bakıxanovun xidmətini xüsusi qeyd etməliyik. Rəsmi hərbi qulluqda olan Abbasqulu ağa ayrıca qəzet və ya jurnal nəşr etdirməmişdir.

Lakin həmin qəzetin səhifələrində Rusiya-İran və Rusiya-Türkiyə müharibələri barədə orijinal və tərcümə əsərləri ilə çıxış etmişdir.

Bu barədə biz Azərbaycan mətbuatı tarixinin mahir araşdırıcısı, filologiya elmləri namizədi mərhum Nəriman Zeynalovun tədqiqatında əsaslı faktlara rast gəlirik:

"Abbasabad mühasirəsinin təsviri" (1829, №27, 30), "Müasir tarix. Azərbaycan vilayətinin hərbi vəziyyəti haqqında" (1829, №38,43), "Moskvalı dostuma məktub" (1830, №28,53 və b.), Qarabağ əyalətinə tarixi baxış" (1836, №86), "Car və Balakən vilayətlərinə səyahət" (1830, №81-83) və s. Məqalələrində Azərbaycan haqqında, azərbaycanlıların məişəti, yaşayış tərzi və s. haqqında məlumatlar verilirdi.

Qəzetdə azərbaycanlıların şifahi və yazılı ədəbiyyatları haqqında məqalələr də dərc olunurdu. Abbasqulu ağa Bakıxanov qəzetdə tərcümə əsərləri ilə də çıxış edirdi. Onun "Dərbəndnamə" əsərinin tərcüməsi haqqında qəzet yazmışdı: "Lazımi mənbələrin tərcüməsi Qafqazın bu tərəfinin tarixini yeni dünyaya yayar..."

Ötən əsrdə hərbi mövzuda yazılar dərc edən ikinci qəzet alovlu vətənpərvər Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də nəşrə başlayan "Əkinçi" qəzeti olmuşdur. Ana dilli mətbuatımızın təməl daşını qoyan "Əkinçi" 1877-ci ildə "Tazə xəbərlər" şöbəsində hərbi mövzuya daha çox yer vermişdi.

Hərbi mətbuat tariximizdən danışanda vaxtilə şahların, xaqanların və ayrı-ayrı bəylərin, sərkərdələrin yanında mirzə kimi qulluqda olan tarixçilərin yazılarını, hərbi-tarixi əsərləri də xatırlamağı zəruri sayırıq. Əlyazması şəklində yayılan, rus mətbuat orqanlarında dərc olunan bu əsərlər, zənnimizcə, çağdaş jurnalı əvəz edirdi.

Bir xeyli əvvələ - XV-XVI əsrlərə müraciət etsək, Azərbaycan tarixçisi Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" ("Tarixlərin ən yaxşısı") əsərində hərbi qüvvələrimiz haqqında faydalı qeydlərə rast gələrik,

"XV-XVI əsrlərdə qoşunlar mənsub olduqları yerin adı ilə adlandırılmışdır. Məsələn, Muğan, Şirvan, Qarabağ qoşunu və s.

Müharibə gözlənilən vaxt dövlətin hökmü altında olan yerlərə istimalətnamələr (cəlbedici məktublar)göndərilib, çoxlu ənam vəd edirlər və beləliklədə, qoşun toplanışını sürətləndirirdilər. Vilayətlərdə yaşayan əmir və tiyuldarlar fərman alan kimi öz dəstələri ilə şahın köməyinə gələr, müharibə qurtarandan sonra məskənlərinə qayıdardılar.

Müharibə baş tutmayanda, yaxud dövlətlərarası razılıq əldə ediləndə sülhnamə yazılardı", **(Azərb. EA Məruzələri, XXXII c., Ş.F.Fərzəliyevin "Həsən bəy Rumlunun "Əhsənut-təvarix" əsərində bəzi hərbi istilahlar" məqaləsi),**

Demək, indiki qəzet və jurnal vəzifəsini o vaxtkı cəlbedici çağırış məktubları yerinə yetirirdi.

1918-20-ci illərdə isə Azərbaycan Demokratik Cümhuriyyəti dövründə hərbi jurnalın olub-olmaması barədə hələlik əlimizdə heç bir əsas yoxdur. O vaxtlarda hərbi mövzuda yazılar "Azərbaycan", "Açıq söz", "İstiqlal" və başqa mətbuat orqanlarında dərc olunurdu. Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində hərb naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 1919-cu il 2 aprel

tarixli məruzəsi saxlanılır. Nazir məruzəsində göstərir ki, Azərbaycan hərb tarixi və Azərbaycanın müxtəsər tarixi haqqında kitablar yazılıb, jurnal nəşr edilsin. Hər bir əsgər və zabitin milli hərbi tariximizi öyrənməsi məqsədilə həmin ədəbiyyat alay və diviziyalara paylanılsın.

General Səməd bəy Mehmandarovun bu qiymətli təşəbbüsünə ilkin səs verən tarixi əsərlər müəllifi yazıçı Yusif Vəzir Çəmənzəminli olmuşdur. O, "İstanbul elçisi" olanda "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" adlı kitabını 1919-21 -ci illərdə İstanbulda nəşr etdirir. Tarixçi Cahangir Zeynaloğlunun 1920-ci ildə yazdığı "Müxtəsər Azərbaycan tarixi" elmi publisistik və tarixi əsəri də 1924-cü ildə İstanbulda işıq üzü gördü.

İstilaçı rus ordusunun süngüsü ilə süquta yetən Azərbaycan Demokratik Cümhuriyyəti ziyalılarının çox işıqlı arzuları yarımçıq qaldı. Onların ən mühüm arzularından biri də Milli Ordumuzun tarixi salnaməsini yazmaq idi.

Bəs Azərbaycanda ilk rəsmi hərbi jurnal nə vaxt yaranmışdır, onun naşiri kim olmuşdur? "Savadlı Qırmızı Əsgər" adlı ilk hərbi jurnal 1922-ci il sentyabrın 1-də Bakıda nəşr olunmuşdur. Ayda bir dəfə nəşr olunan, əsgərlər və zabitlər üçün nəzərdə tutulan siyasi, ictimai, ədəbi-elmi məcmuə yeni yaranmış Azərbaycan diviziyasının orqanı idi. Naşiri və məsul redaktoru komissar Hüseyn Rəhmanov olmuşdur. Jurnalın əsas mövzusu əsgərlərin savadlanması, onların döyüş hazırlığı, silaha qulluq qaydaları, əsgər və ordu həyatından yumorlar, ədəbi-bədii yazılar dərc etmək idi. Bədii nümunələr də özlüyündə əsgərlərin vətənpərvərlik hisslərinin daha intensiv şəkildə inkişafına xidmət edirdi. Təbii ki, dövrün ədəbiyyatının səviyyəsini bu nümunələrlə müəyyənləşdirmək ədəbi anlaşılmazlığa, yanlışlığa səbəb olardı. Hər halda, jurnal imkanı həddinə əsgərlərin milli ideologiyasını, savadını, dünya duyumunu dolğunlaşdırmışdır. Məsələn: jurnalın 1923-cü ildə, beşinci nömrəsində "İzhari təşəkkür" adlı kiçik bir yazıda oxuyuruq:

"Gəncə qarnizonu alayının savad məktəblərinin müdiri yoldaş Qayıbov İsmayıl əsgər və zabitlər arasında savadsızlığın ləğvi işində ziyadə dərəcədə səy etmişdir".

İlk təcrübə kimi və zəmanəsinin ab-havasına müvafiq olaraq jurnalda gedən yazıların əksəriyyətinin sənətkarlıq baxımından səviyyəcə aşağı olması təbii idi. Lakin bu, jurnalın məramnamə anlamında tarixi xidmətlərinə zərrəcə xələl gətirə bilməz.

Milli Ordumuzu yeni gələn Şura hökuməti məhv etdikdən sonra Azərbaycan Hərbi İnqilab Komitəsi 1920-ci il iyunun 21-də hərbi məhəlli birləşmələrin yaradılması haqqında yeni qərar verdi. Bu birləşmələr "Azərbaycan Birləşmiş atıcı diviziyası" adı ilə fəaliyyət göstərirdi.

1924-1928-ci illərdə ordunun yenidən qurulması üçün ölkədə hərbi islahatlar həyata keçirilirdi. Hərbi mətbuatın kəmiyyət artımına, hərbi nəşrlərin keyfiyyətcə inkişafına diqqət artırıldı. 1920-ci ildən fəaliyyətə başlayan, Azərbaycan diviziyasının orqanı olan, "Qızıl əsgər" qəzetinin nəzdində hərbi yazıçı Hacıbaba Nəzərlinin rəhbərliyi ilə hərbi nəşriyyat yaradıldı. Bu nəşriyyatın buraxdığı kitabların əksəriyyəti tərcümə ədəbiyyatından ibarət idi. Xırda-para nizamnamə və kitabçaları çıxmaq şərtilə nəşriyyatın işıq üzünə çıxardığı orijinal əsərlərdən yalnız general Əliağa Şıxlinskinin iki hərbi əsəri mövcuddur - "Ruscadan türkcəyə qısa

döyüş sözlüyü” (1926-cı il) və “İşçi-Kəndli Qızıl Ordusu topçusunun döyüş təlimnaməsi”. Birinci kitab. “Qoşun topçusu” (1927-ci il).

Həmin illərdə əsgər və zabitlər üçün kiçik yaddaş kitabçaları da nəşr olunmuşdur. 1926-cı ildə Hacıbaba Nəzərlinin “Yaxşı atəş açmağı necə öyrənməli”, komissar Hüseyn Rəhmanovun “Dağ-nişançı diviziyasının on illiyi” (1930-cu il) və başqa əsərlər işıq üzü gördü.

1925-ci ildən Zaqafqaziya respublikalarında hərbi tərcümə kollekiyaları təşkil edilir. Azərbaycan hərbi kollegiyasının baş redaktoru vəzifəsinə keçmiş Azərbaycan ordusunun tam artilleriya generalı Əliağa Şıxlinski **(bu ali hərbi rütbə Əliağa Şıxlinskiyə 28 iyul 1919-cu ildə Azərbayçan Demokratik Cümhuriyyətinin 339 nömrəli əmrilə verilmişdir - Ş.N.)** təyin olunmuşdur. Məşhur “Xatirələrim” əsərində həmin illəri yada salan general Əliağa Şıxlinski sonralar yazırdı:

“Nizamnamələr, təlimatlar, göstərişlər və bəzi hərbi dərsliklər tərcümə edilməli idi. Bizim tərcüməçilər buna qətiyyən hazır deyildilər. Bunların içərisində hərbi işi bilən, lakin öz ana dilini kifayət qədər bilməyən adamlar vardı. Elələri də vardı ki, hər iki dili bilir, lakin hərbi işlə tanış deyildilər. Eləcə də nə hərbi işi, nə də dilləri yaxşı bilmə-yənlər də vardı. Belə tərcüməçilərin hərəsi tərcüməni bir cür qarışıq salırdı... Belə tərcümələri redaktə etmək mənim üçün böyük əzab idi. Hər şeyi yenidən düzəltmək lazım gəlirdi.

Tərcüməçilərin bütün nizamnamə və göstərişləri təhrif etdiklərini görüb, mən “Rusca-azərbaycanca qısa hərbi lüğət” tərtib və nəşr etdim. Bura hərbi istilahların çoxu daxil edilmişdir. Bu lüğət hərbi kitabları tərcümə üçün bir vasitə idi”.

Bu illərdə hərbi kitab nəşrinin sayı ilə yanaşı qəzet və jurnalların da miqdarı artmış və onlarda keyfiyyət dəyişikliyi əmələ gəlmişdi. “Savadlı Qırmızı Əsgər” jurnalı artıq “Qızıl Əsgər” adı ilə çıxırdı. 1928-ci ildən isə bu jurnal həm məzmunca, həm də tərtibat baxımından daha sanballı nəşr olunmağa başlayır. General Şıxlinskinin təklifi ilə jurnala “Hərbi Bilik” adı verilir. Azərbaycan atıcılıq diviziyasınan siyasi şöbəsinin orqanı olan “Hərbi Biliy”in məsul redaktorları komissar Hüseyn Rəhmanov və diviziya komandiri Cəmşid xan Naxçıvanski təyin olunur. İlk hərbi jurnallarımızın nəşr ardıcıllığı belədir: “Savadlı Qırmızı Əsgər”in 1922-24-cü illərdə 14 nömrəsi, Qızıl Əsgər”in 1925-ci ildə 6 nömrəsi və “Hərbi bilik” jurnalının 1928-29-cu illərdə 10 nömrəsi çıxmışdır.

Aparılan tədqiqatdan məlum olur ki, otuzuncu illərin əvvəllərində Sovet ordusunda kadr sistemində yenidənqurma və dəyişikliklər aparılmışdır. İttifaq daxilində olan bütün milli hərbi hissələr və birləşmələr ölkənin vahid ordusuna daxil edilir. Bununla da ayrı-ayrı respublikalarda və milli diviziyalarda hərbi mətbuat bağlanılır, əvəzində dairə və ordu qəzetləri nəşr olunur.

Azərbaycanda ilk hərbi qəzetin tarixi 1920-ci ildən “Qırmızı Əsgər”lə başlayır. Azərbaycan diviziyası siyasi şöbəsinin orqanı olan bu qəzet 1925-ci ildən “Qızıl əsgər” adı ilə nəşr olunmuşdur. Respublika hərbi mətbuatının inkişafında xüsusi yer tutan bu qəzet on ildən çox nəşr edilmişdir. Diviziya və alay qəzetlərini öz ətrafında birləşdirən qəzetin baş redaktoru görkəmli yazıçımız Hacıbaba Nəzərli olmuşdur. İstər jurnallarda, istərsə də qəzetlərdə görkəmli sərkərdələrimiz general

Əliağa Şıxlinski, Qambay Vəzirov, Cəmşid xan Naxçıvanski, komissar Heydər Vəzirov, Hüseyn Rəhmanov, Cabir Əliyev, Cəlil Əliyev, polkovnik Seyfulla Mehdiyev öz maraqlı yazıları ilə yaxından iştirak etmişdir. Bir faktı da qeyd etmək fərəhləndiricidir ki, təkcə 1934-cü ildə rota və alay qəzetlərinin sayı səksənə yaxın idi. "Qızıl əsgər" diviziya qəzeti ilə yanaşı "Dəmir mübariz", "Qızıltopçu", "Döyüşçü səsi", "Qızıl bayraq", "Fəhlə-kəndli Qızıl ordusu" adlı çoxtirajlı alay qəzetləri nəşr olunurdu.

Altmış dörd ildən sonra (1993-cü il) Azərbaycan Müdafiə Nazirliyinin Hərbi elmi-tədqiqat və tarix idarəsi yenidən belə bir jurnalın nəşrini davam etdirdi. Dünyaya şirin dilimizdə yeni hərbi jurnal gəldi. Qədimdən qədim, uludan ulu olan Azərbaycan hərb tarixinin yayıcısı, təbliğatçısı olan "Hərbi bilik" yeni yaranan Milli Ordumuzun doğma övladı kimi xalqımıza xidmət edir. Jurnalda hərbi qəhrəmanlıq tariximizin arxiv künclərində saxlanan səhifələr, ayrı-ayrı ailələrdə mühafizə olunan nadir sənəd və fotoşəkillər, indiyəcən adı anılmayan sərkərdə oğullarımızın ömür yolundan maraqlı yazılar dərc edilir.

1993-cü il.

HƏRBİ ŞƏRQİLƏRİMİZ

Müdrik tədqiqatçılar haqlı deyiblər ki, arxiv işi cəhənnəm əzabıdır, orada ancaq fədakar adamlar işləyə bilər.

Mənbələri tapmaq, toz basmış qovluqları vərəqləmək adamda həvəslə yanaşı, çox böyük səbr və təmkin də tələb edir. Ən dəhşətlisi onda olur ki, axtardığın hər hansı bir sənəd və ya faktın təxmini də olsa istiqamətini bilməyəsən. Belə vaxtda axtarışların bəhrəli olması üçün mütləq arxiv işçilərinə müraciət etmək daha yaxşı olur.

Uğurlu bir axtarışım olanda, yaxın-uzaq dostlar bu münasibətlə məni təbrik edəndə istər-istəməz Fikrət müəllimi xatırlayıram və bu barədə onun özünə də təşəkkürümü bildirəndə: "Borcumdur, axı sən bu işi xalqımız üçün görürsən" - deyib, bu təvazökar adam əvəzində məni tərifləyir. Əlbəttə, bu tərifər mənim üçün xoş olsa da, Fikrət müəllim də yəqin bilir ki, mənim tədqiqatlarımda onun əməyi çoxdur.

İlk dəfə Respublika Yeni Tarix Mərkəzi Dövlət arxivinə gələndə əlimdə müəyyən mənbələrim olsa da, bilmirdim hardan, necə başlayım. Onda qısa bir söhbətdən sonra arxivin direktoru Fikrət Əliyev dəyərli məsləhətlərindən başqa 1918-20-ci illərdə Milli Ordumuzun yaranması haqqında mənə özünün tematik qeydlərini də verdi. Onun qırx səhifədən çox əlyazmasını necə böyük bir əziyyətlə tərtib etdiyini təsəvvür etmək çətin deyil. Bütün bunlar mənə yeni kitabımın yazılmasında gərək oldu.

Əlbəttə, bu, Əməkdar mədəniyyət işçisi Fikrət Əliyevin əzablı axtarışlarının bəhrəli məhsullarından bir parçadır. Etiraf etmək lazımdır ki, belə çətin işin öhdəsindən gəlmək hər ziyalıya nəsib olmur.

Heç kəsdən təmənna və təşəkkür ummayan Fikrət müəllim hər şeydən əvvəl xalqımızın arxiv yaddaşını unudulmağa imkan vermir. O, hər qovluğun, hər sənədin yerini dəqiq bilir. Onların mühafizə olunmasına qayğı ilə yanaşır.

Müqəddəs "Qurani Kərim"in bir surəsində Fikrət müəllim kimi xeyirxahlar üçün deyilir: "Xoşbəxtlik yalnız o kəsləri heç vaxt tərk etmir ki, onlar daim xeyir iş görürlər".

Bir dəfə Fikrət müəllim mənə müxtəlif mənbələrdən topladığı şərqiləri verdi.

- Bunlar, - dedi - 1918-20-ci illərdə yazılmış hərbi şərqilərimizdir. Şərqiləri Gəncə, Quba, Lənkəran, Tərtər, Bakı, Göyçay, Qazax alaylarının komandirləri toplayıb rəsmi sənədlə hərbi Nazirliyə göndəriblər. Bu zəhməti dostum Maarif Teymurla birgə çəkmişik. Arxivimizin 2894 nömrəli fondunda saxlanılır. Ərəb əlifbasından oxuyub müasirləşdirəni isə şərqşünas Adil Aslanidir.

Xalqımızdan toplanıb, xalqımızdan da gizlədilən bu əsgər şərqilərinin hər birində doğma Azərbaycanımıza, müqəddəs torpaqlarımıza ülvi məhəbbət var. Əksəriyyəti müəllifsiz olan şərqiləri xalq özü qoşub, ümidi, istinadgahı olan Milli Ordumuza intəhasız məhəbbətini bildirib.

İştə görün biz əsgərik,
Cənkdən qorxmaz, cənk edərik.
Aç köksünü qarlı Qafqaz,
Sevdiyin Səməd gəlir.
Tufan kimi coşacayıq,
Cahana şan saçacayıq.
Biz türklərin sancağını
Qafqasiyaya asacayıq

İlk dəfə tam artilleriya generalı, hərbi nazirimiz Səməd bəy Mehmandarova, birinci süvari diviziyasının komandanı, general-mayor Teymur bəy Novruzova və başqa komandirlərimizə qoşulmuş şərqilərə də rast gəldik. 1919-cu ildə Gəncədəki 1-ci süvari diviziyasına komandan təyin olunan general Teymur bəy Novruz oğlunu əsgərlər belə bir şərqi ilə qarşılayırmışlar:

Xoş gəldik, ey şövkət-məqam,
Əsgər sənə eylər səlam.
Sən əsgərin göz nurusan,
Minlər yaşa Teymur paşa!
Xoş gəldiniz zəhmət çəkib,
Alayımızı ucaltdınız...

Bunlar hamısı yenidir, oxucu nəfəsi, oxucu üzü görməyib.

İnanırıq ki, bu gün ordumuzun yeni yarandığı bir vaxtda, bu günkü əsgər və zabitlər bu milli şərqilərdən qidalanacaq, komandirinə, torpağına və doğma Azərbaycana olan məhəbbəti daha da artacaq, bu şərqiləri oxuya-oxuya yağılara qarşı daha böyük qəhrəmanlıqla vuruşacaqlar.

ŞƏRQİ

Cihad var, cihad var,
partladalım bombalar,
Məhv olsun, məhv olsun xain,
alçaq yağılar.
Qoşa addım, irəli, vətən fədailəri,
İrəli, irəli, vətən fədailəri,
İrəli, irəli, Azərbaycan əsgəri.
Bu sancaq bizlərə qanlı kəfən olacaq,
Qoşa addım, irəli,
dönməyəlim biz geri,
İrəli, irəli, vətən fədailəri,
İrəli, irəli, Azərbaycan əsgəri.

* * *

Xain düşmən göz dikmiş
vətənimi almağa,
İştə gəldim vətən üçün
şəhid olub qalmağa.
Mülaziləm, göymidən uca
dağlar aşağa,
Ana-baba tərk edərək,
can verməyə qoşaraq.
Gəldim bu gün düşmənimi
bu torpağa basdıram,
Onun kirli bayrağını
Vətənimə asdırmam.
Türk əsgəri tüfənginə,
Allah deyib sarılır,
Qabağında düşmən deyil,
dağlar olsa yarılır.
Allah, Allah, bu nə gündür,
ana-övlad kəsilir,
Uşaqların qafaları
çəkmələrlə əzilir.
Hansı bir türk ərlərdən,
uşaqlardan ucalmış,
Bu alçaqlar, bu hüdudlar
qorxusundan bunlamış.
Komandanım, izn verin qabaq
səfə girəyim,
Baş tərəfdə sancaqdarlıq
vəzifəsin görəyim.

Keç düşməni, keç, aslanım,
budur düşmən, gedəlim,
Arkadaşlar, haydı, haydı irəli
hücum edəlim.
Allah, Allah, Allah, Allah,
həp bir ağızdan,
Marş irəli, sürəlim
düşməni yurdumuzdan.
Mən vuruldum, xain güllə
cikərimi yaxıyor,
Aç sinəmi, bax qanıma,
irmaq kimi çatıyor.
Mülaziləm, düşmənləri
yurdumuza düşürmə,
Al əlimdən bayrağımı,
torpaqlara düşürmə.
Aman, çabuq bir qurtum
su veriniz də içəyim,
İlahimdan mücdə gəldi,
cənnətimə köçəyim,
Tabutumun üzərinə altun
bayraq örtülsün,
Mən tutuşdum Allahıma,
bari Vətən qurtulsun.

*** * ***

Azərbaycan, Azərbaycan,
Ey qəhrəman övladın Vətənin,
Səndən ötrü can verməyə hazırıq,
Səndən ötrü qan tökməyə qadirik,
Üçrəngli bayrağınla məsud yaşa,
Türkük, yaşarıq biz namımızla,
İntiqam doludur sinəmizdə.
Aşarıq Qafqazı ordumuzla,
Boyarıq hər yeri qanımızla.
Türkük, ölərik namusumuzla,
Bombalar, bu qanlı silah əldə.
Qafqasyanın partladar göbəyində,
Boyarıq hər yeri qanımızla.

1993-cü il.

ÜZEYİR BƏYİN NƏRBİ LÜĞƏTİ

Binanın son daşı heç vaxt bünövrə daşını inkar edə bilməz; etsə, özü yuxarılarda dayana bilməz.

Üzeyir bəy HACIBƏYOV.

1948-ci il noyabrın 28-də gecə saat ikidə dünyadan köçən dahi bəstəkar Üzeyir bəy Hacıbəyovun pianosunun üstündə bitməmiş bir not qaldı. O, general Əliağa Şıxlinskinin altı bəndlik şerinin iki bəndinə romans yazmışdı.

Ey sevdiyim, ey dilrüba,
Səbrim, qərarımsan mənim.
Səd mərhəba, səd mərhəba!
Nə türfə yarımsan mənim.

Səni ziyarət eylərəm,
Sənə ibadət eylərəm,
Həm çox sədaqət eylərəm,
Çün sən Nigarımsan mənim.

Bəstəkar Üzeyir bəy Hacıbəyov və general Əliağa Şıxlinski. Birinin əlində qələm, o birinin əlində silah. Hər ikisi xalqımıza təmənnasız xidmət edib, əvəzsiz irs qoyublar. Sənətdə elmin çətin yollarında bəlkə də özlərinin də xəbəri olmadan birləşiblər. Onlarda tale oxşarlığı da var. Bu oxşarlıq könülaçan olmasa da həyat həqiqətidir. Nə Üzeyir bəyə, nə də Əliağaya tale övlad qismət eləmədi. Əsrin əvvəllərində tale onlara bir əməl oxşarlığı qismət elədi. 1907-ci ildə bəstəkar Üzeyir bəy Hacıbəyovun siyasi, iqtisadi, hüquqi, əsgəri və qeyri sözlərə dair "Türk-Rus və Rus-Türk lüğəti" nəşr olundu.

1926-cı ildə isə general Əliaqa Şıxlinskinin "Rusca-türkcə qısa hərbi lüğət"i işıq gördü.

Oxucuların general Şıxlinskinin lüğətindən az-çox xəbəri var. Bu barədə biz ayrı-ayrı məqalə və kitablarımızda söhbət açmışıq. Hərb elmi üçün bu gün ən uğurlu tapıntılardan biri də Üzeyir bəyin lüğətidir. Onu bizə Respublika Əlyazmaları institutunun elmi arxivindən tapıb təqdim edən alim dostumuz Arif Ramazanova səmimi təşəkkürümüzü bildiririk. Bu qiymətli tapıntıyla hərbi lüğətçilik tariximiz düz iyirmi il qədimləşdi. Üzeyir bəyin hərbi lüğətində rast gəldiyimiz bir ad bizi xüsusilə sevindirdi. Onun naşiri "İrşad"ın mühərrirlərindən

biri, xalqımızın böyük oğlu Məhəmməd Əmin Rəsulzadədir. Otuzuncu illərdə qırmızı bolşeviklər onun adının üstündən tuşla qara çəksələr də yenə aydınca oxumaq mümkün oldu. Burda deyiblər ki, yazıya pozu yoxdu.

Əlbəttə, Əliağa Şıxlinskinin hərbi lüğəti ilə müqayisədə Üzeyir bəyin lüğəti həcmcə kiçik və nisbətən kasıb olsa da, ilk mənbə kimi qiymətlidir. Oxucu da nəzərə almalıdır ki, general Əliağa Şıxlinski hələ gənc zabit ikən hərb elmi ilə dilçilik və hərbi lüğət, terminologiya ilə maraqlanmış, bu sahədə çox uğurlu axtarışlar aparmışdır. Əlli ilə qədər qürbətdə, yad bir iqlimdə yaşayan general hərbi lüğətini nəşr etdirməyə imkan tapmamışdır. Onu da etiraf etməliyik ki, generalın hərbi lüğəti ilə bəstəkarın hərbi lüğəti arasında böyük fərq var. Üzeyir bəyin hərbi lüğəti hərb sənətinə ilkin maraq göstərənlər üçün hazırlanmışdır. O, siyasi, hüquqi, iqtisadi və hərbi lüğətdir. Burada izahlar aydın və sadə sözlərlə verilmişdir. Generalın lüğətində isə onların bəzilərindən istifadə olunmamışdır. Məsələn: Admiral Əmir ül-bəhr, ataman - qazax bəyi, vaxmistr - baş çavuş, voevoda qoşun rəisi, qvardiya - xassə qoşunu, qərb - tüğra, yefreytor - onbaşı və s.

General Əliağa Şıxlinskinin hərbi lüğətini isə mütəxəssislər sırf elmi əsər kimi qiymətləndirirlər. O, hərb elminin mütəxəssisləri üçün yazılmışdır. 1907-ci ildə "İrşad", "Bakinskiy den", "Təzə həyat" qəzetləri Üzeyir bəyin lüğəti haqqında çox doğru olaraq yazırdılar ki, bu lüğət müsəlman qəzetə oxuyanlara çox böyük kömək göstərəcəkdir.

Üzeyir bəyin "Lüğət"inə yüksək qiymət verənlərdən biri də akademik Heydər Huseynov olmuşdur. Akademikin fikrincə, "...Üzeyir bəy Hacıbəyov bu lüğəti ilə mədəniyyətimiz tarixində irəliyə bir addım atmışdır. Öz lüğətində bir sıra ictimai-siyasi istilahları izah və şərh edərkən, zəmanəsinə görə olduqca doğru və düzgün cavablar vermişdir".

Doğrudan da, iyirmi iki yaşlı gənc müəllim Üzeyir bəyə xalq arasında yayılmış hərbi istilah və sözləri ilk dəfə xalqına çatdırmaq xoşbəxtliyi nəsib olmuşdu.

Fərəhləndirici haldır ki, ilk nəşrindən səksən yeddi il keçməsinə baxmayaraq, Üzeyir bəy Hacıbəyovun hərbi lüğəti bu günümüz üçün də gərəkdir.

Silahlı Qüvvələrimizin əsgər və zabitlərinə, habelə terminologiya ilə maraqlananlara qiymətli bir vəsaitdir.

"GENERAL TAĞIYEV" MARŞI

"Hacı Zeynalabdin Tağıyevin müsəlman milləti üçün elədiyi xidmətlərini durub burada saymaq fikrinə düşsək, heç olmasa bir ay qəzetimizi ancaq elə bu təfsilatla doldursaq, yenə hamısını deyə bilmərik".

Məşhur naşir Haşım bəy Vəzirov bu sətirləri 1907-ci il aprelin 10-da "Təzə həyat" qəzetində dərc etdirmişdi. Əsrin əvvəllərində Tağıyev bütün dünyada Qafqaz müsəlmanlarının fəxri kimi tanınırdı. Onun xalqımıza göstərdiyi əvəzsiz xidmətlərini bu gün də saymaqla qurtarmaz. Məktəblər açdıran, su kəməri çəkdirən, teatr binası tikdirən, mülklər inşa etdirən Azərbaycanın ictimai, iqtisadi işlərinin başında duran ilkin şəxs Hacı Zeynalabdin Tağıyev idi. Və nəhayət, bu

günlərdə məlum oldu ki, xalqına general kimi xidmət edənlər sırasında Hacı Zeynalabdin Tağıyev də olub. Əlbəttə, bəzi oxucular Hacının general olmasına şəkk-şübhə edəcək. Amma ağıllı oxucu dərhal anlayacaq ki, Hacının xalqa xidməti hər bir generalın xidmətindən qat-qat mənfəətli və xeyirli olub. Şərt nə zər-paqon daşımaqdı, nə də cəbhədə vuruşmaq. Hacı bütün sahələrdə, mülki geyimdə xalqının generalı olub.

Milli ayrı-seçkiliyə fərq qoymayan Tağıyev işində, əməlində böyük bir şəxsiyyət olduğunu əyani olaraq göstərmişdir. Xüsusilə, müsəlman dindaşlarının nəfinə xeyriyyə işlərinə külli miqdarda qızıl və pul xərclədiyinə görə səxavətli Hacıya imperator II Nikolay 1907-ci ildə, yanvarın 25-də həqiqi dövlət müşaviri ali rütbəsi vermişdir. Bu da kontr-admiral, general və oberprokuror rütbələrinə bərabərdi.

Xalqına etdiyi əvəzsiz xidmətlərinə görə 1900-cü ildə Hacı Zeynalabdin Tağıyevin nəsli fəxri vətəndaş adına və senatın 1910-cu il 8 fevral tarixli fərmanı ilə zadəgan rütbəsinə layiq görülür.

Hələ sağlığında Tağıyevə çoxlu şer, publisistik və nəsr əsərləri yazılıb. M.V.Kneydin adlı müəllif isə "General Tağıyev" marşı bəstələmişdir. Marşın mətnini də bəstəkar özü yazmışdır.

General Hacı Zeynalabdin Tağıyevin şərəfinə yazılan nadir not bəstəkar dostum Tofiq Babayevin ailə arxivindən 1991-ci ildə aşkar edilmişdir. Təəssüf ki, notun yazılma və bəstələnmə tarixini dəqiqləşdirmək mümkün olmadı. Üz qabığındakı yazıdan aydın olur ki, "General Tağıyev" mahnısı Bakıda və Kiyevdə ifa olunmuşdur. Ümid edirik ki, doxsan ilə yaxın "əsir" qalan "General Tağıyev" mahnısı bəstəkarlarımız tərəfindən yenidən işlənib ifa olunacaq.

1991-ci il.

ƏLİAĞA VAHİDİN "MEYXANA"SI

Mərhum maarif xadimi Vəli ağa Dilbazi görüşlərimizin birində mənə belə bir əhvalat danışmışdı:

... 1918-ci ildə yeni yaranan Azərbaycan Milli Ordusunun ikinci piyada diviziyası Xaçmazda yerləşdirilmişdi. Ərzaqla, geyimlə pis təmin olunan əsgərlər qaçıb dağılırmış. O vaxt gənc şair olan Əliağa Vahidi Xaçmaza göndərirlər ki, əsgərlərin qaçmaması üçün təbliğat aparsın.

Əliağa Vahid də Xaçmaza gəlir, əsgər və zabitlərin güzəranı ilə tanış olur və şahidi olduğu faktlardan "Meyxana" adlı şer yazır. Uzun illər keçməsinə baxmayaraq onun bircə bəndi Vəli ağa Dilbazinin yadında qalmışdı.

Dərdini insan necə bəs açmasın?
Əzəldən pisdir havası Xaçmazın.
Əsgər it oğlü neyləsin, qaçmasın,
Ölür soyuqdan, necə bəs dolansın?

Bu günlərdə bukinist kitab mağazasından Əliağa Vahidin 1954-cü ildə "Azərnəşr" tərəfindən buraxılmış "Qəzəllər" kitabını aldım. İki cildliyinə və başqa heç bir kitabına düşməyən "Meyxana" şerinə burda rast gəldim. Qəribədir, yetmiş yeddi il bundan əvvəl yazılmış şerin bəzi bəndləri günümüzlə necə də səsləşir.

Doktora rüşvət verib əsgərliyə getməyən milyoner oğulları, qız kimi bəzənib gəzən boynuyoğunlar, orduya kömək lazımdı deyəndə sımsığını sallayan dövlətlilər tənqid olunur.

Bir tərəfdən də şeri oxuyanda qürur hissi keçirirsən ki, o vaxtkı əsgərin pis güzəranı, bəzi zabitlərin kobudluğu bu günkü nizami ordumuzda yoxdur.

Zənnimcə, "Meyxana" şerinin təkrar dərci ona görə lazımdır ki, düşmənlə üz-üzə dayandığımız bu ağır gündə metro stansiyalarının qabağında saqqız, siqaret satan, həkimlərə rüşvət verib yalançı xəstəlik kağızı alan bəzi gənclərimiz bəlkə bu şerdən vətənpərvərlik dərsi aldılar.

MEYXANA

(1918-ci ildə musavat əsgərlərinin
acınacaqlı vəziyyətləri haqqında
deyilmişdir.)

Hər kəs olur əsgər ilə zidd, döyür,
Baş çavuş şeytanlayır, zabit döyür,
Zalımın oğlu elə bil it döyür;
Canı çıxıncan, necə bəs dolansın?

Əsgərliyə düşməyibdir Təhmasib,
Milyoner oğludur, deyildir kasıb;
Altıca min doktora rüşvət basıb,
Kasıb lüt-üryan necə bəs dolansın?

Gəncəyə get, xəstəxana qapısın aç,
Xəlvətə sal, azarlını götür, qaç!
Yoxsul olan xəstəyə baxmır vraç,
Yazıq verir can, necə bəs dolansın?

Qız kimi zabit bəzənibdir özü,
Çarıqlı əsgərləri görmür gözü.
Əsgər əgər söyləsə paltar sözü,
Baş, göz olur qan, necə bəs dolansın?

Desək əgər az qalıbdır ilimizə,
On bir aydır ət dəyməyib dilimizə;
Bir yekə daş bağlanacaq belimizə,
On altı batman, necə bəs dolansın?

Dərdini insan necə bəs açmasın?
Əzəldən pisdir havası Xaçmazın,
Əsgər it oğlu neyləsin, qaçmasın,
Ölür soyuqdan, necə bəs dolansın?

Qazarmaya baxanda zəhlən gedir,
Pol, pataloq yox, elə bir töylədir.
Əsgərlərin bit yaxasından gedir,
Mitilli yorğan, necə bəs dolansın?

Qızıl da yoxdur ki, sataq sərrafa,
Undan ötrü yalvarırıq əllafa,
Məhəllə baqqalı gəlmir insafa;
Yoxsul acından necə bəs dolansın?

Bir evimiz var qapsında yoxdur zamok,
Hay deməmiş dum da gəlir: "Vernaloq!"
Nə pul vardır, nə şey var, qoyaq zaloq,
Bu evi viran, necə bəs dolansın?

Kasıb avamdır, nə desən allanar,
Varlıya dəymə, sımsığı sallanar,
Bəs bizim axır bu yazıq mollalar
Olmasa ehsan, necə bəs dolansın?

Bir kişi gördüm ki, deyir maşında,
(Olardı əlli-əlli beş yaşında)
Raboçilər əyləşsə iş başında –
Sahibi milyon necə bəs dolansın?

Dövlətlilər bir ev tikib kiracdan,
Kasıblarla olmayırlar qracdan.
Çaxır butulkasın asıb ağacdan,
Gündə lül-piyan, necə bəs dolansın?

37-nin general qurbanları

Yüksək sərkərdəlik qabiliyyətini Müsavat ordusunda qazanmış general Qambay Vəzirov, Cəmşidxan Naxçıvanski, polkovnik Seyfulla Mehdiyev, Murtuz Talıbzadə, Məmməd Veysov və başqaları otuzuncu illərdə hərbin çətin

yollarında surətlə irəliləyir və milli diviziyalara komandirlik edirdilər. Onlar qeyri-adi bacarığa malik olan hərbçi oğullarımız Səmədbəy Mehmandarov, Əliağa Şıxlinski, Məmməd bəy Sulkeviç, İbrahim ağa Vəkilov, Şahzadə Əmir Kazım xan Qacar, Həbib bəy Səlimov kimi qüdrətli generallarımızın şinelindən "çıxmışdılar".

Azərbaycan sərkərdələrinin ildırım surətli irəliləyişi Sovet imperiyasında yuxarı dairənin narahatlığına səbəb oldu. Onları məhv etmək üçün hərəsinə bir qara yaxdılar: pantürkçü, müsavat zabiti, trotski-zinovyevçi və daha nələr...

Sibir və Solevetski adalarına azərbaycanlı zabitlərin ucdantutma sürgünü başlandı. Yüksək rütbəlilər - generallarımız isə həbs edilib dar zindanlarda güllələndilər. Milli Azərbaycan diviziyaları isə ləğv edildi.

Böyük Vətən müharibəsi başlananda 1 rus diviziyalarının tərkibində döyüşən azərbaycanlı əsgər və zabitlər addımbaşı diləgəlməz bir söyüşlə təhqir olunur, güllələnirdilər. Onda (1942-ci ildə) ömrünün son aylarını yaşayan məşhur generalımız Əliağa Şıxlinskinin təklifi ilə milli diviziyalar təşkil olundu.

Acınacaqlı haldır ki, "respublikanın sahibi" M.C.Bağırov məhz onda ayıldı ki, bu milli diviziyalara komandanlıq etmək üçun bir nəfər belə azərbaycanlı general qalmayıb, hamısı güllələnib...

Otuz yeddinci ildə günahsız həbs olunub güllələnən hərbi xadimlərimizin acı taleyi məni çoxdan düşündürürdü. O illərdə ən mahir sərkərdə oğullarımız vicdansızcasına məhv edilib, istintaq zamanı onları ağlasığmaz vəhşiliklə döyüb bir-birinin üzunə dirəndiriblər. Nə respublikada, nədə Azərbaycan diviziysında "əksinqilabitəşkilat" olmaya-olmaya onlardan iftiraçı, yalan ifadələr alıblar. Bunların hamısı zorla, qeyri-insani işgəncələrin və amansız cəzanın tətbiqi sayəsində əldə olunmuşdur.

Repressiyaya məruz qalmış belə hərbiçilərin oğlu, qızı, həyat yoldaşına yaxın-uzaq qohumları mənə onların çəkdiyi dəhşətli əzablardan danışanda istər-istəməz Fyodor Dostoyevskinin "Heyvan heç vaxt insan qədər qəddar ola bilməz, insan qədər mahir və yaradıcı qəddarlıq edə bilməz", - sözlərini xatırlayırdım.

Əziz oxucu, əgər vaxt tapıb bu yazıları oxuya bilsən hərbçi oğullarımızın dözülməz əzablarla məhv edildiyinin şahidi olacaqsan.

GENERAL-MAYOR QAMBAY VƏZİROV

Əlini vurmasa oda bir nəfər,
Odun istisini necə hiss edər.

Nizami GƏNCƏVİ

Otuz yeddinci illərdə hərbçilərin tuthatutu başlananda ordu komandanı Oka Qorodovikov marşal Semyon Budyonnıya deyir:

- Semyon, hamını bir-bir aparırlar. Bunun axırı necə olacaq?

Budyonnı təmkinini pozmadan cavab verir:

- Hamını yox, yalnız ağıllıları aparırlar. Bu, nə sənə, nə də mənə aid deyil...

Bu epizodu oxuyanda istər-istəməz həmin illərin günahsız qurbanları olan hərbçi oğullarımızı xatırladım. Diviziya komandiri general-mayor Qambay Vəzirov, briqada komandiri Cəmşidxan Naxçıvanski, komissar Heydər Vəzirov, Cabir Əliyev, polkovnik Seyfulla Mehdiyev, Cəlil Əliyev, Murtuz Talıbzadə, komissar Şəmistan Əyyubov və onlarca başqaları belə ağıllı, bacarıqlı sərkərdələr idi... İyirmi-otuzuncu illərdə milli hərbi kadrların hazırlanmasında, Vətənimizin müdafiə qüdrətinin möhkəmləndirilməsində bu sərkərdələrimizin danılmaz xidmətləri olub. Onların arasında Qambay Vəzirovun xüsusi yeri var. Bu igid komandir Azərbaycan hərb tarixinə beş cəsur general bəxş edən Naxçıvandakı nüfuzlu Kəngərli nəslindəndir.

Ömrünün otuz səkkizinci baharında həbs edilən Qambay Məmməd oğlu Vəzirov 1899-cu il avqustun 19-da Ermənistanın Gümrü[49] (indiki Leninakan şəhəri) şəhərində anadan olmuşdur. İlk yeddi illik təhsilini İrəvan gimnaziyasında alan Qambay on səkkizinci ildə səfərbər olunaraq altı ay Türkiyədə işləmişdir. 1919-cu ildə Azərbaycan Demokratik Respublikası milli ordusunda və hərbiyyə məktəbini bitirən Qambay iyirminci ildən iyirmi ikinci ilə kimi Qazaxda, Cəbrayılda və Qarabağda bolşevizm əleyhinə mübarizə aparan daşnaklara qarşı döyüşlərdə vuruşmuşdur.

Bəs iyirminci ildə bolşevik ordusuna könüllü keçən, sonralar general-mayor ali rütbəsi verilən və diviziya komandiri kimi məsul vəzifə tapşırılan Qambay Vəzirovun otuz yeddinci ildə günahı nəydi?

Arxiv sənədlərində göstərilir ki, guya o, terrorçu-əksinqilabi milli təşkilatın rəhbəri olub. Təşkilatın əsas məqsədi silahlı üsyan təşkil etməklə Bakı qarnizonunun və 77-ci diviziyanın zabitlərini üsyana qaldırıb Azərbaycanı SSRİ-dən ayırmaq idi.

Bunların hamısının yalan və iftira olmasını gec də olsa tarix özü sübut elədi.Ancaq diqqətlə təhlil edib, fikirləşəndə belə qənaətə gəlirsən ki, Qambay Vəzirov kimi istedadlı sərkərdənin "günahı" hərbi pillələri sürətlə keçməsində olmuşdur. Hələ tör-töküntüsü qalan, özümüzdə mühüm vəzifələr tutan daxili düşmənlərimiz bundan qorxuya düşürdülər. Axı, Qambay həm də vaxtilə musavat ordusunda sıravi əsgər kimi xidmət etmişdi. Bir də, həmin illərdə Qarabağda, Qazaxda daşnak ünsürlərinin məhv edilməsində yaxından iştirak etmişdi. İndi, 1937-ci ildə Azərbaycanda XDİK DTİ beşinci şöbəsinin rəisi Avanesyan ondan heyfini alırdı. Qambay Vəzirovu həbs etdirən və yalançı ittihamnamələrlə güllələtdirən də daşnak Avanesyan olmuşdur. Akademik Ziya Bünyadovun otuz yeddinci ildə güllələnmiş kapitan Kəbi Saniyev haqqında "13896 nömrəli istintaq işi" adlı məqaləsindən bir epizodu oxuyanda adam istər-istəməz ürək ağrısı keçirir. 1955-ci il sentyabrın ikisində SSRİ Baş Prokurorluğunun prokuroru keçmiş canilərin birindən soruşmuşdur:

"**Sual**: - Söyləyin görək, sizin Azərbaycan SSR XİDK-də işlədiyiniz dövrdə məhbuslara qarşı cəza tədbirləri tətbiq olunurdumu?

---

[49] Son vaxtlara qədər Qambay Vəzirovun Naxçıvanda anadan olduğu göstərilirdi. İstefada olan polkovnik R.Zeynalovun tapdığı arxiv sənədlərindən məlum olmuşdur ki, atası Məmməd Gümrüdə işlədiyinə görə, Qambay orada anadan olmuşdur - müəl.

Cavab: - Məhbuslara cəza tədbirləri (repressiya) mənim rəhbər olduğum şöbədə tətbiq olunurdu, amma konkret olaraq kimə, - indi deməyə çətinlik çəkirəm. Amma yadımdadır ki, Azərbaycan diviziyasının Siyasi şöbə rəisi Əliyev Cabiri döyürdülər. Başqa familiyalar yadımda deyil. Əliyevi ondan ötrü döyüb əzişdirirdilər ki, o, istintaqa lazım olan ifadələr versin, yəni Vəzirov, Axundov və başqaları tərəfindən idarə edilən "əksinqilabi mərkəz" haqqında ifadələr olsun.

Sual: - Qambay Vəzirovu tanıyırsınızmı?

Cavab: - Tanıyıram. O, Azərbaycan diviziyasının komandiri idi. O, bizim şöbə tərəfindən həbs edilmişdi. Onun işini şəxsən beşinci şöbənin keçmiş rəisi Avanesyan aparırdı. Qambay Vəzirovu dindirmələr zamanı bərk döyürdülər. Onu Avanesyan şəxsən mənim və şöbənin başqa əməkdaşlarının yanında döyürdü. Avanesyan Qambayı şallaqla döyüb ondan tələb edirdi ki, o, özünün əksinqilabi millətçi mərkəzində iştirakı haqda ifadə versin. Qambay əvvəlcə özünü müqəssir bilmədi, döyüləndən sonra isə hər şeyi boynuna alıb lazımi ifadələr verdi. Mən Vəzirov Qambayı döyməmişəm, amma bir daha deyirəm ki, Avanesyanın onu döyməsinin şahidiyəm.

Sual: - Vəzirov Qambayın həbs edilməsi və məhkum olunması əsaslı idimi?

Cavab: - O zamankı, mən bildiyim işlərin arasında heç bir diqqətə layiq iş yox idi. O işlərin hamısı məhbuslara zorluğun, işgəncələrin tətbiq olunması ilə quraşdırılıb və o işlərin hamısı qeyri-obyektiv idi. O cümlədən Vəzirov Qambayın işi də ondan və başqa həbs edilmiş adamlardan zorla və işgəncələrlə alınmış yalan ifadələr üzərində quraşdırılıb. İstintaq zamanı məhbuslar dəfələrlə bu ifadələri rədd edirdilər, amma onların bu ifadələri işlərinə tikilmir, məhv olunurdu. İşlərə yalnız o ifadələr tikilirdi ki, onlar istintaq üçün faydalı idi. Həbs edilənlərin başqa ərizələri və rədd cavabları da heç vaxt işlərinə tikilmirdi".

Qambay Vəzirov tək həbs olunmamışdı. Onunla birlikdə Azərbaycan diviziyasından qırx nəfər, Respublika Hərbi Komissarlığından iyirmi nəfər yüksək rütbəli azərbaycanlı zabit həbs olunub "əksinqilabi hərbi təşkilatın üzvləri" kimi günahsız olaraq güllələnmişlər.

1937-ci il oktyabrın on üçündə 77-ci Azərbaycan diviziyasının komandiri, general-mayor Qambay Vəzirovu güllələdilər. Bu güllə təkcə Qambaya yox, Azərbaycanın hərb tarixinə dəydi. Onun şəxsində biz Azərbaycanın ən yaxşı sərkərdələrindən birini itirdik. Deyirlər, məşhur generalımız Əliağa Şıxlinski onun güllələnmək xəbərini eşidəndə qırx gün yas saxlamış və niyə bikef olduğunu soruşanlara "oğlum Qambay güllələnib, belim qırılıb" - cavabını verirmiş.

General-mayor Qambay Vəzirov həbs ediləndən sonra Azərbaycan diviziyasında qadınlar şurasının sədri işləyən həyat yoldaşı İzzət xanım Qiyasbəyli - Vəzirova və yeganə övladı Yavuz da həbs edilib Qazaxıstana sürgün olunurlar. Səkkiz illik Qazaxıstan sürgünündən xəstə qayıdan İzzət xanım 1976-cı ildə Bakıda vəfat edir.

1937-ci il oktyabrın 22-də İzzət xanım İsmayıl ağa qızı Vəzirova Bakıda ümumi həbsxanada saxlanılmışdır. Onu səkkizinci şöbənin baş müfəttişi, dövlət təhlükəsizlik leytenantı Moşeçkov dindirmişdir.

Sual: - Nə zamandan siz Qambay Vəzirovla ailə qurmusunuz?

Cavab: - 1920-ci ildən onunla ailə qurmuşam və onunla birlikdə o, həbs olunana, yəni 27 iyun 1937-ci ilə qədər yaşamışam.

Sual: - Sizə əriniz Qambay Vəzirovun əksinqilabi fəaliyyəti barədə nə məlumdur?

Cavab: - Qambay Vəzirovun əksinqilabi fəaliyyəti barədə mənə heç nə məlum deyil.

Sual: - İş üzrə siz nə əlavə edə bilərsiniz?

Cavab: - Heç nə əlavə edə bilmərəm. İfadələr mənim sözlərimlə yazılmışdır. Mən onun doğruluğunu öz imzamla təsdiq edirəm.

1937-ci il noyabrın ikisində vətən xaininin arvadı kimi İzzət xanım Vəzirovanın istintaq işi SSRİ XDİK-in xüsusi müşavirəsinə göndərildi. SSRİ XDİK-i yanında Xüsusi Müşavirənin 1937-ci il 9 dekabr protokolundan çıxarış.

Eşidildi: - 1903-cü il təvəllüdlü İzzət İsmayıl qızı müddəti 1937-ci il oktyabrın altısından hesablanılmaqla səkkiz il müddətinə İslah Əmək Düşərgəsinə göndərilsin. İş arxivə təhvil verilsin.

Xüsusi Müşavirənin bu qərarından sonra İzzət xanım Vəzirovanı Qazaxıstanın Akmolinsk şəhərinə 8 il müddətinə sürgün etdilər. Oradan göndərdiyi məktublarda oğlu ilə maraqlanır və Vətəni üçün darıxdığını bildirirdi. 1938-ci il aprelin on dördündə İ.V.Stalinə yazdığı məktubda yeganə övladının günahsız olaraq həbs olunmasından danışır və acizanə surətdə onun buraxılmasını xahiş edirdi" (C.Qasımov, "Bir ailənin faciəsi" məqaləsi, "Sərhəd" qəzeti, 3 fevral 1998-cı il).

* * *

Qambayın yeganə oğlu Yavuz Vəzirov sürgündə olanda Stalinə məktub yazır ki, atam "xalq düşməni" kimi güllələnib. Mən bir sovet gənci kimi atamın günahını yumağa hazıram. İcazə verin, Vətənimizin bu ağır günündə torpağımızın azadlığı uğrunda cəbhələrdə mən də vuruşum...

Cəza batalyonunda döyüşən Yavuz Vəzirov iyirmi iki yaşında, 1942-ci ildə Stalinqrad yaxınlığında qəhrəmanlıqla həlak olmuşdur.

1956-cı il iyulun iyirmi səkkizində SSRİ Ali Məhkəməsinin hərbi Kollegiyasının qərarı ilə ölümündən sonra 77-ci Azərbaycan diviziyasının komandiri general-mayor Qambay Məmməd oğlu Vəzirova bəraət verilmişdir.

Bir müdrik şərq məsəlində deyilir ki, uşaqlıqda eşidilən söz, oxunan elm daşa yazılmış yazı kimidir. İllərin tufanı, qasırğası belə onu poza bilmir. 37-nin qara tufanları başlayanda Fəxrəddin Vəzirovun 12 yaşı vardı, Əmiləri Qambay və Heydər Vəzirovun haqsızlığın qurbanı olmaları onun uşaq qəlbinə ağır zərbə vurdu. Yaddaşında uşaqlıq illərinin ağrılı-acılı xatirələri yaşayır:

Qambay Vəzirov atamın əmisi oğlu idi. Böyük qardaşı Sədrəddin maliyyə işçisi idi. Elmi dərəcəsi də vardı. Kiçik qardaşı Hüseyn də hərbçi idi, Rütbəsi polkovnik olub. Sədrəddin əmimi də xalq düşməninin qardaşı kimi 37-də güllələdilər. Huseyn əmim respublikadan qaçıb, deyilənə görə Gürcüstana gedib, Veziraşvili familiyası ilə yaşayıb. Bu günə kimi də ondan bir xəbər bilmirik...

Bütün bunlardan sonra bizim ailəni, nəsli yenə də təqib edirdilər. Dayım Həqqi və Kamal Kəngərlinskiləri, babamı sürgün etdilər. Qambay əmim tutulanda biz yaylaqda idik. Qayıdanda evimizi dağılıb, talan olmuş gördük. Nəyimiz vardı çölə töküb, kitabları, əlyazmaları, evdə qiymətli nə varsa hamısını aparmışdılar. Bizə olmazın əzab verdilər. Bir hadisəni xatırlayanda indi də xəcalət çəkirəm. Altıncı sinifdə oxuyurdum. Səhər dərsə gələndə gördüm uşaqların hamısını məktəbin qabağına yığıblar. Direktor məni çağırıb dedi ki, gəl, sən çıxış et, de ki, əmilərim və dayılarım "xalq düşməni" olduqlarına görə biz onları istəmirik. Bütün ailəmiz adından bildirirəm ki, onlar "xalq düşməni" kimi haqlı olaraq güllələniblər. Yoxsa səni məktəbə buraxmayacağıq. Oxumaq üçün burnumun ucu göynəyirdi. Məcbur olub direktor deyənləri dedim...

Cəmisi 17 il ordu sıralarında xidmət edən Qambay Vəzirov sıravi əsgərdən general-mayor rütbəsinə qədər yüksəlib. İnsafla demək lazımdır ki, bu da az-az hərbçiyə qismət olub. Xüsusilə milliyyətcə rus olmayan zabitin otuz üç yaşında diviziya komandiri və general-mayor rütbəsi alması Sovet hərb tarixində nadir hadisədir. Adətən başqa millətin oğluna Sovet Ordusunda ali general rütbəsini istefaya çıxanda, qocalıb əldən düşəndə verirdilər. O da nadir hallarda...

1932-ci ilin baharında SSRİ Xalq Müdafiə Komissarı K.Y.Voroşilovun şəxsi teleqramı ilə Moskvaya çağırılan Qambay Vəzirovun Belorusiyadakı hərbi fəaliyyəti yüksək qiymətləndirilir. O, Xalq Müdafiə Komissarının 886 nömrəli əmri ilə Azərbaycan dağ-atıcı diviziyasına komandir təyin olunur.

Qambay hərb sənətinin çətin yollarını çox böyük müvəffəqiyyətlə keçmişdir. Hələ 1922-ci ildə 23 yaşlı Qambay Əlahiddə Qafqaz Ordusu Hərbi İnqilab Şurasının əmri ilə əlaçı siyasi rəhbər kimi batareya komandiri, Frunze adına Hərbi Akademiyaya oxumağa göndərildi. Qambay Vəzirov hərbi akademiyada təhsil alan ilk azərbaycanlı idi. Üç illik hərbi təhsildən sonra o, 1925-ci ilin avqust ayından Birləşmiş Azərbaycan Hərbi-siyasi məktəbinin rəisi təyin olundu. Onun bir illik fəaliyyəti haqqında attestasiyasında Qırmızı Bayraqlı Qafqaz ordusu Ali Hərbi Təhsil Müəssisələrinin baş müfəttişi Artomonov yazırdı:

"Məktəb rəisi işlədiyi bir il ərzində yalnız müsbət keyfiyyətli işinin şahidi olduq. Böyük iradəyə, təşəbbüskarlığa malikdir. Özünə hörmət edən, qətiyyətli, işgüzar və yaxşı metodist müəllimdir. Kursantların, müəllimlərin və komandir heyətinin hörmətini qazanıb. İctimai işlərdə, xüsusilə hərbi-elmi cəmiyyətdə fəal iştirak edir. Ali təhsili var. Böyük inzibati-təcrübi stacı olmasa da, öz qabiliyyəti və əməksevərliyi sayəsində məktəbin rəisi vəzifəsinin öhdəsindən tam gələ bilir (**Sovet Ordusunun Mərkəzi Dövlət Arxivi, Q.M.Vəzirovun 157-871 nömrəli şəxsi işi. 1-ci vərəq**).

Milli hərbi kadrların hazırlanması üçün gərgin fəaliyyət göstərən Qambay Vəzirov məktəbin ikinci buraxılışında "Yüz on yeddi" adlı məqaləsində iftixarla yazırdı ki, fəhlə-kəndli balalarından hazırlanan müdavimlərimiz ordunun ən yaxşı ənənələrini davam etdirəcəklər. Biz inanırıq ki, yüz on yeddi müdavimin şəxsində hərbi hissələrimiz hərtərəfli biliyə və komandirlik qabiliyyətinə malik vzvod komandirləri ilə təmin olunacaqlar.

1927-ci ilin oktyabrında ölkədə hərbi islahatın həyata keçirilməsi ilə əlaqədar Zaqafqaziya milli hərbi ali təhsil məktəbləri birləşdirilib Tiflisə köçürülür.

Həmin il o, Leninakanda yerləşən üçüncü Qafqaz atıcı diviziyasında qərargah rəisi olur. İstedadlı komandir Qambay Vəzirovun rəhbərliyi ilə Azərbaycan atıcı diviziyası 1929-cu ilin avqust-sentyabr aylarında Əlahiddə Qafqaz ordusunun ilk manevrlərində müvəffəqiyyətlə iştirak edir. Bu manevrdə göstərdiyi komandirlik məharətinə görə üstüyazılı silahla mükafatlandırılır.

1930-cu ilin noyabrında ən yaxşı döyüş komandiri kimi Qambay Vəzirova Belorusiya hərbi dairəsindəki 111-ci atıcı alayının komandiri kimi və həm də Cizdra şəhər qarnizonunun rəisi kimi məsul vəzifələr tapşırılır.

1925-ci ildən başlayaraq, ona verilən attestasiya arayışlarında Qambay Vəzirovun hərb sənətini yaxşı mənimsəyən, əla inzibatçı, təmiz və sayıq bir komandir olduğu göstərilir. Diviziya komandiri Cəmşid xan Naxçıvanskinin, diviziya hərbi komissarı Hüseyn Rəhmanovun, hərbi komissar Korobkovun təqdimatında onun diviziyaya, hətta korpusa belə komandirlik edə biləcək bacarığı olduğu iftixarla qeyd olunur.

Onu da xatırladaq ki, Qambay Vəzirovun istedadlı hərbi xadim kimi yetişməsində məşhur generallarımız Əliağa Şıxlinskinin və Səməd bəy Mehmandarovun xüsusi xidmətləri olmuşdur. Məhz onların müdrik məsləhət və köməklikləri ilə Azərbaycan milli diviziyasının atıcıları, topçu və süvariləri istər Hacıkənddə, Qarayazıda, istərsə də Şimali Qafqazda Zaqafqaziya ordusunun taktiki təlim-məşqlərində birinci yeri tutmuşlar.

"Xatirələrim"də 1924-cü ili yada salan Əliağa Şıxlinski yazır ki, Azərbaycan komanda heyəti məktəbi rəisinin xahişi ilə məni ona müavin təyin etdilər, O biri il - 1925-ci ildə məktəb kollektivi Surami şəhəri yanındakı düşərgəyə getdi. Bütün Zaqafqaziya hərbi məktəblərinin kollektivləri buraya yığılmışdı. Ötən il burada hərbi məktəblərin atəş yarışı olmuşdu. Azərbaycan məktəbi hazır olmadığından bu yarışlarda iştirak etməmişdi. Bu, mənə çox toxundu. Silahı sevən gənclərimizin yarışa çıxa biləcək dərəcədə hazırlanmamaları mənə ağır gəldi.

Elmi komitənin ilk iclasında mən göstərdim ki, belə təlim vermək olmaz. Hər kursanta atmağa bircə güllə verilməli və atdığı bu güllənin nəticələrini bildirərkən güllənin nə səbəbə boşa çıxdığını ona izah etməli, buraxdığı səhvi düzəltmək üçün ona ikinci dəfə güllə atdırılmalı və i.a. Məktəb rəisi əmr verdi ki, "müavinimin təklifi protokola qeyd edilsin və ona mütləq əməl olunsun". Bu zamandan başlayaraq, biz atəş məşqində kursantlarımızı "işə çəkməyə" başladıq. Düşərgə toplanışının axırında bizim vzvod yarış atəşinə çıxdı və birincilik qazandı. Mənim azərbaycanlılıq izzəti-nəfsim təmin edilmiş oldu.

Diqqətli oxucu yəqin fikir verdi ki, xatirə müəllifi məktəb rəisi Qambay Vəzirovun bir dəfə də adını çəkmədi. Bunun da səbəbi var: Əliağa Şıxlinski xatirələrini 1942-ci ildə yazıb. Onda keçmiş məktəb rəisi Qambay Vəzirovun həbs olunmasından beş il ancaq keçirdi. Onun tərcümeyi-halında hələ də "xalq düşməni" damğası vardı.

* * *

1935-ci il dekabrın otuzunda Azərbaycan atıcı diviziyasının on beş illiyi qeyd olunurdu. Diviziya SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Qırmızı

Bayraq ordeni ilə təltif olundu. 1936-cı il yanvarın 27-də isə bir qrup azərbaycanlı əsgər və zabitin xidməti Qırmızı Ulduz ordeninə layiq görüldü. Onların arasında diviziya komandiri Qambay Vəzirov, komissar Cabir Əliyev, alay komandiri Seyfulla Mehdiyev, kiçik komandir Rəhim Aslanov və İlyas Verdiyev də vardı. Bu təntənəyə görə Bakıda qarnizon hissələrinin nümayişi keçirildi.

Müasirlərinin xatırladığına görə, Qambay Vəzirov o vaxtkı komandir heyəti arasında ən savadlı, cəsur və hazırlıqlı bir şəxsiyyət olmuşdur. Onun döyüş dostu, respublikanın keçmiş hərbi komissarı polkovnik Ağəli İsmayılov yazır ki, Qambay Vəzirov, necə deyərlər, anadangəlmə sərkərdə idi. O, milli birləşmələrin təşkili və hərbi kadrların artması sahəsində bir sıra mühüm tədbirlərin hazırlanıb həyata keçirilməsində yaxından iştirak edirdi. Mərkəzdən təftişə gələn hərbi şuranın üzvləri belə onun qeyri-adi hərbi bacarığına heyran qalırdı.

Xalqımızın general oğlu mərhum Akim Əli oğlu Abbasov ordu sıralarında çox şərəfli bir ömür yolu keçib. Ona xidmətinin ilk illərində şöhrətli diviziya komandiri Qambay Vəzirovla görüşmək və birgə işləmək nəsib olub. Komandirini general Akim Abbasov xoş sözlərlə xatırlayırdı:

- Yadımdadır, 1935-ci ildə diviziyamız hərbi təlimdən yenicə qayıtmışdı. Bizim diviziya Böyük Qafqaz sıra dağlarına yürüşdə dörd yüz iyirmi kilometr məsafəni qət eləmişdi. Növbəti məşğələ keçirirdik. Bir döyüşçü yaxınlaşıb mənə dedi ki, yoldaş leytenant, sizi diviziya komandiri Vəzirov çağırır. Təcili onun yanında olmalısınız. Mən dərhal qərargaha getdim. Gördüm məndən başqa da dörd zabit var. Diviziya komandiri məni qəbul edib dedi:

- Çox sağ olun, yay təlimində göstərdiyiniz fəallığa görə xalq müdafiə komissarı, marşal Voroşilov sizi saatla mükafatlandırır.

Qambay Vəzirov bizi təbrik etdi. Təlimdə və siyasi hazırlıqda yeni müvəffəqiyyətlər arzulayıb saatı bizə təqdim etdi. Sevimli komandirimin hədiyyəsini bu gün də əziz yadigar kimi saxlayıram.

Bu yürüşdə Kazbek dağının zirvəsinə hamıdan qabaq mənim rotam qalxmışdı. Döyüşçüləri "hücuma" və "müdafiə döyüşlərinə" əla hazırladığıma görə, Qambay Vəzirov özü bu mükafatı mənə təqdim etmişdi. Qambay Vəzirovun xatirəsi mənim üçun son dərəcə əziz olaraq qalır. O vaxtlar onun adı hər bir azərbaycanlı döyüşçü üçün fədakarlıq, igidlik rəmzi idi. Siyasi məşğələlərdə, hərbi təlimlərdə onun hər bir sözünü belə diqqətlə dinləyirdik. O, alovlu natiq olmaqla bərabər, taktiki məşğələlərin də mahir bilicisi idi. Dövrünün texnikasını mükəmməl bilirdi.

1935-ci ilə qədər mənim kimi çox gənc bir azərbaycanlı zabitinin dördüncü dağ-atıcı alayının istehkamçılar rotasının komandiri vəzifəsinə qədər yüksəlməyində unudulmaz komandirim Qambay Vəzirovun böyük əməyi olmuşdur. Qambay orduda, milli birləşmələrdə azərbaycanlı komandirlərin artması uğrunda var qüvvəsi ilə çalışırdı.

"Hərbi bilik" jurnalının nəşri general Əliağa Şıxlinskinin adı ilə bağlıdır. Bu jurnal onun təşəbbüsü ilə yaranmışdı. "Qızıl əsgər" qəzeti isə komissar Cabir Əliyevin təşəbbüsu ilə nəşr olunurdu. Bakıda ilk ordu klubunun yaradılması isə Qambay Vəzirovun və Cabir Əliyevin adı ilə bağlıdır. Hər ikisi möhkəm dost idilər. Heyf ki, ikisi də otuz yeddidə günahsız güllələndi. Biz gənc zabitlər istər

general Şıxlinskinin, istərsə də Qambay və Cabirin hərbi mövzuda yazılarını acgözlüklə mütaliə edərdik.

General Qambay Vəzirov, Cəmşidxan Naxçıvanski, komissar Hüseyn Rəhmanov və Heyder Vəzirov hərb elmində həm də hərbi nəzəriyyəçi kimi yetişmişlər, Qambay rus dilində olan hərbi ədəbiyyatları, nizamnamələri Azərbaycan dilinə tərcümə etmişdi. Milli diviziya və birləşmələr haqqında həm publisistik, həm də elmi məqalələrlə "Qızıl əsgər", "Hərbi bilik", "Kommunist" və "Bakinski raboçi" kimi mətbuat orqanlarında müntəzəm olaraq çıxış etmişdir.

1920-ci ildən həyat və fəaliyyətini xalqının müdafiə qüdrətinin möhkəmlənməsinə həsr edən Qambay Vəzirov respublikanın ictimai-siyasi işində də fəal iştirak etmişdir. Dəfələrlə Respublika Mərkəzi Komitəsinin tərkibinə seçilən Qambay Vəzirov Zaqafqaziya MİK-in və SSRİ Mərkəzi İcraiyyə Komitəsinə də üzv seçilmişdir.

* * *

Təəssüf ki, belə şöhrətli sərkərdəmiz unudulmuş, yaddan çıxmışdır. Bir-iki dəfə anadan olma günü yetmişinci illərdə qəzetlərdə qeyd olunmuşdur. Acınacaqlı haldır ki, Qambay haqqında yazılan quru, ürəksiz və partiyalı olan bu məqalələrin müəllifi milliyyətcə erməni olmuşdur. Bu gün onun adı bircə ünvanda əbədiləşmişdir: Naxçıvandakı 6 saylı orta məktəb Qambay Vəzirovun adını daşıyır.

1989-cu ilin fevralında igid komandir Qambay Vəzirov haqqında "Hünər" televiziya verilişinin səhifələrində söhbət açdıqdan sonra xeyli məktub aldıq. Hətta vaxtilə İzzət xanım Qiyasbəyli - Vəzirovanın qonşusu olmuş Zahidə Mustafayeva redaksiyamıza gəlib Vəzirovlar ailəsinin faciəsindən təsirli epizodlar danışdı. Redaksiyamıza gələn çoxsaylı məktublardan biri daha təsirli olduğu üçün onun qısa məzmunu ilə oxucuları da tanış etmək istərdim. Məktubu vaxtilə igid sərkərdənin əsgəri olmuş, indi elimizdə, obamızda yaxşı tanınan ağsaqqal aşıq Barat Şirvanlı göndərib. O yazır: "Yanvarın on dördündə olan verilişinizə də baxdım. (Tamaşaçıların xahişi ilə Q.Vəzirov haqqında üç veriliş verdik). Həm kədərləndim, həm də sevindim. Sevindim ona görə ki, mənim əziz komandirimi əlli ildən sonra da olsa efirdə görə bildim. Kədərləndim ona görə ki, o illəri xatırladım. Bu ahıl vaxtımda göz yaşlarımı saxlaya bilmədim. Verilişdən sonra bütün varlığım titrəyirdi. Sizə məktubu da əlim əsə-əsə yazıram.

1937-ci ildə Salyan kazarmasında hərbi xidmətdə idim. Əvvəlcə mən kapitan Şahtaxtinskinin yaveri oldum. Diviziya komandirimiz Qambay Vəzirov idi. Vəzirovun Çovğun adlı bir atı vardı, ona da mən baxırdım. Bu yaraşıqlı at sanki dil bilirdi. Onu elə öyrətmişdim ki, hər səhər yəhərləyib-yüyənləyəndən sonra bircə dəfə yüngülvari təpinib deyərdim: get, komandiri gətir. Yüyəni yəhərə bənd olunmuş Çovğun at Salyan qazarmasından birbaşa Qambay Vəzirovun yaşadığı Nizami küçəsindəki mənzilinə gələrdi. Həyətdə iki-üç dəfə kişnəməyi ilə gəlişini sahibinə bildirərdi. Hər səhər əziz komandirimiz Qambay Vəzirovu Çovğun at beləcə işə gətirərdi. Bir dəfə də olsun Çovğun nə yolunu azdı, nə də yüyənini, yəhərini itirdi.

Bir gün siyasi məşğələ keçirdik. Xəbər gəldi ki, komandirimiz Qambay Vəzirovu həbs ediblər. Səhərisi Çovğunun yəhərlənmək vaxtı gələndə kişnərtisindən dayanmaq olmurdu, o dartınır, yerində oyur-oyur oynayırdı. Yerə-göyə sığışmayan Çovğunu göz yaşımla yəhərləyib, həmişəki kimi yüyənini yəhərinə bənd eləyib buraxdım. İzlədim ki, görüm hara gedəcək. Çovğun at yenə birbaşa Nizami küçəsinə, komandirimizin həyətinə getdi. Dalınca gəlib gördüm ki, başıaşağı sakitcə dayanan Çovğun at burnu uzunu göz yaşı tökür. Özümü saxlaya bilməyib məndə zülüm-zülüm ağladım. Zorla onu darta-darta kazarmaya gətirdim. Heç kəsi minməyə yaxın qoymurdu. Kişnəyib şahə qalxan at Salyan kazarmasının həyətini başına götürmüşdü. Qərargah binasına yaxınlaşır, tükürpədici səslə bir-iki ağız kişnəyib, götürülürdü klub tərəfə, məşq meydanına, həyətdə fır-fır fırlanırdı. Sanki dilə gəlib "hanı mənim sahibim?" - deyə nalə çəkirdi. Heç kəs Çovğun ata baxa bilmirdi. Hamı qulağını tutub içəriyə qaçırdı. Bir həftəyə yaxın heç nə yeməyib, nalə çəkən Çovğun çərləyib öldü.

Bax, bu hadisə oldu, məni sizin verilişdən sonra zülüm-zülüm ağladan...

KOMİSSAR HEYDƏR VƏZİROV

Zülmət gecələrin birində "Çornı voron" maşını komissar Heydər Sadıq oğlu Vəzirovun həyətində dayandı. Maşından düşən üç kölgənin biri çöldə qapı ağzında dayanıb, ikisi sürətlə ikinci mərtəbəyə qalxdı. Evi ələk-vələk elədilər, qorxudan titrəşən körpələrə məhəl qoymadılar. Şəkilləri, əlyazma və sənədləri yığışdırıb kəndirlə bağladılar. Gicgahları yenicə ağarmış kişi meşin qovluğu açıb həbs orderini stolun üstünə qoydu, naqanın lüləsini onun son səhifəsinə dirəyib "burdan qol çək" - dedi. Komissar Heydər Vəzirov bir kəlmə danışmadan qol çəkdi. Bilirdi ki, danışmağın, müdafiə olunmağın xeyri yoxdur. "Əmioğlu Qambayı apardılar, ailəsini həbs etdilər. Naxçıvandakı uzaq-yaxın qohumları da apardılar... İndi də növbə mənimdir". O, şinelini geyindi. Əvvəlcə dörd yaşlı qızı Elmiranı öpdü. Uşaq tir-tir titrəyirdi, boynuna sarılıb boğula-boğula ağladı. Onu zorla özündən qoparıb, anası Leylaya verdi. Öz adını qoyduğu böyük oğlu Heydərin alnından öpüb astadan "anandan, bacından muğayat ol. Yaxşı, ayıbdı, sən axı kişisən" - deyib, özü də doluxsundu.

Qambayın əmisi oğlu komissar Heydəri beləcə sorğusuz-sualsız apardılar.

Köpək leşə dadanan kimi onlar da harda xalqımızın yaxşı oğulları, adlı-sanlı nəsilləri vardısa, onlara hücuma keçib "təmizləmə" aparırdılar. Beləcə, 37-ci illərin ağır zərbəsi xalqımızın milli tarixinə, bütun sahələrdə - ədəbiyyat, incəsənət, kənd təsərrüfatı, sənaye və ən başlıcası hərb tariximizə çox dəhşətli zərbələr vurdu. Hər gecə bir komissar, hər gecə yüksək rütbəli zabit, hərbi komisar gedər-gəlməzə göndərilirdi. Əgər o illərin haqsız qırğınları olmasaydı, indi neçə-neçə general, admiral oğullarımızın şan-şöhrəti ilə fəxr edərdik. Stalin, Beriya və Bağırov vəhşiliklərinin ehtirasının qurbanı olan zabitlərimiz günahsız olaraq həbs edilib Sibirin, Qazaxıstanın həyat nişanəsi olmayan qarlı çöllərində, dar və havasız, bir nəfərlik kameralarda üstünə min cür yalan, şər atılmaqla məhkəməsiz və qanunsuz güllələndilər.

İyirminci illərdə respublikamızda ilk hərbi məktəblərin yaradıcılarından biri və Əliheydər Qarayevdən sonra ikinci respublika hərbi komissarı (1924-26-cı illərdə) olan Heydər Vəzirovu 1937-ci ildə respublika torpaq komissarı işləyəndə "pantürkist" adı ilə həbs etdilər.

Görkəmli şairimiz, mərhum Qasım Qasımzadənin yaddaşından:

- Onda mənim on üç-on dörd yaşım vardı. O ilin tətatümlü günlərini indiki kimi xatırlayıram. Kənddə çox nüfuzlu sayılan, sözükeçən şəxsiyyətlər bir-bir dənlənirdi. Bir hadisə gözümün qabağından getmir. Gərək ki, Azərbaycanda Sovet hakimiyyətinin ildönümü idi. Kənddə təntənəli yığıncaq keçirilirdi. Klub ağzına kimi dolmuşdu. Biz məktəblilər yerimizi yaşlılara verib ayaq üstə dayanmışdıq. O zaman hər məruzədən, çıxışdan sonra yer-yerdən rəhbərliyin, xalq komissarlarının şəninə "yaşasın"la başlayan şüar demək dəbdə idi. Məruzə qurtarantək alqışlar başlandı. Bir nəfər kolxozçu - suçu Hüseyn ayağa qalxıb dedi: "Yaşasın Azərbaycanın torpaq komissarı yoldaş Vəzirov!". Onun alqışı təkəmseyrək çəpiklə qarşılandı. Sən demə, bir gün əvvəl Vəzirov "xalq düşməni" kimi "ifşa" edilibmiş. Bir-iki əl çalan da bundan xəbərsizmiş. Rəyasət heyəti bir-birinə dəydi. Sədr ayağa qalxdı:

- Vətəndaş, səhvini geri götür!

Suçu Hüseyn çaşbaş qaldı:

- Vəzirov yoldaşa nə olub ki, səhvimi geri götürüm?

- Demək, bilmirsən nə olub?

- Bilmirəm...

- Başa salarlar bilərsən...

İclas yekunlaşdı. Dağılışdılar. Suçu Hüseyn də belini götürüb, pambıq sulamağa getdi. Aradan iki saat keçməmiş klubun qarşısında iki maşın dayandı. Taxta qoburlu, onatılan tapançalı zəhmli adamlar tökülüşdülər. Az sonra şalvarı dizinəcən çirməkli, ayaqları palçıqlı suçu Hüseyni milisioner qabağına qatıb gətirdi. Əl-ayağını yudurtdular. Evindən ayaqqabısını və bir həftəlik azuqəsini götürtdürüb maşına mindirdilər. Kişi çaşıb qalmışdı. Elə hey soruşurdu:

- Axı yoldaş Vəzirova nə olub ki?!

- Gedərsən yanına, özündən soruşarsan ki, sənə nə olub?

Suçu Hüseyn o gedəndi ki, gedib, xəbərsiz-ətərsiz...

Otuz yeddinin acı burulğanlarında belə mürvətsiz, qansız hadisələr, həbslər çox olub. Çox ailələr başsız qalıb, evi talan olunub. Axşam ailəsi ilə birgə şam eləyib yatan ata, səhər "xalq düşməni" çıxıb. Sumbatovların, borşovların, markaryanların, qriqoryanların murdar əlləri suçu Hüseynlərin günahsız qanını axıdıb. Haqqında söhbət açdığımız nə Qambay, nə də Heydər Vəzirovların ailəsindən bir nəfər belə sağ qalmayıb. Sürgünlər, həbsxanalar onları sağalmaz xəstəliyə yoluxdurub vaxtsız məhv etdi.

1913-cü ildən başlayaraq ömrünün sonunadək xalqına sidq ürəklə xidmət edən Heydər Vəzirov bu günə qədər unudulmuş, yaddan çıxmışdır. Azərbaycan Sovet Ensiklopediyasında onun adı heç olmasa bir cümlə ilə də xatırlanmır, xidmətləri nədənsə danılır. Onun unudulmağının ilkin səbəblərindən birini biz rus dilli sənədlərdə görürük. Çox vaxt Qambay Vəzirovla onu qarışıq salırlar. Rus dilli sənədlərdə Heydər adı da "Q" hərfilə yazılır, Qambay da. Hər ikisi də hərbçi olub.

Ona görə də bir çox tədqiqatçılar Heydərin xidmətlərini bəzən Qambay Vəzirovun adına yazıblar. Bu günə qədər komissar Heydər Vəzirovun nə anadan olmasının ildönümü qeyd olunub, nə də onun adı əbədiləşdirilib.

Heydər Sadıq oğlu Vəzirov 1893-cü ildə Naxçıvanın qədim Nehrəm kəndində ziyalı ailəsində anadan olub. İlk ibtidai təhsilini o vaxtın qabaqcıl maarif ocağı olan "Tərbiyə" adlı üsuli-cədid məktəbində alıb. Heydər Vəzirov həmin məktəbdə məşhur ədəbiyyatşünas Əziz Şəriflə, teatr xadimi Rza Təhmasiblə birgə oxuyub. Məktəbin hamisi məşhur maarif xadimi Məmməd Tağı Sidqi idi.

Naxçıvanda üsuli-cədid məktəbini bitirdikdən sonra atası Sadıq, Məmməd Tağı Sidqinin məsləhəti ilə balaca Heydəri İrəvan seminariyasına qoyur. Seminariyanı müvəffəqiyyətlə bitirən Heydər 1913-cü ildə gimnaziyanın səkkizinci sinfinə imtahan verir. Birinci Dünya müharibəsi başlandığına görə az müddət gimnaziyada oxuyan Heydər Vəzirov səfərbərliyə alınaraq qısa müddətli hərbi məktəbdə təhsil alır, 1915-ci ilin iyun ayında kiçik zabit rütbəsi ilə Qalitsiya uğrunda döyüşlərdə əsir düşür.

Üç il alman əsirliyində qalan Heydər Vəzirov 1918-ci ildə Rusiya ilə Almaniya hərbi əsirləri dəyişəndə yaralılar sırasında Türkiyədən keçərək Qafqaza qayıdır.

1918-ci ilin noyabrından Azərbaycan Demokratik Respublikasının Milli Ordusunda kiçik komandirlər hazırlayan məktəbdə müəllim işləyir. 1920-ci ilin aprel inqilabından sonra Heydər Vəzirov və hərbi məktəbin kollektivi bolşeviklərin tərəfinə keçir. Həmin ilin iyun ayında o, partiya sıralarına qəbul edilir.

Heydər Vəzirov bundan sonrakı bütün şüurlu həyatını milli hərbi kadrların hazırlanmasına sərf edir. Onu "hərbiyyə məktəbi"nin rəisi təyin edirlər.

Hələ iyirminci illərin sənədləri göstərir ki, komissar Heydər Vəzirov komandir şərəfini yüksək tutmuş və bu adı hörmətlə daşımışdır. Onun böyük bacarıqla rəhbərlik etdiyi Azərbaycan Birləşmiş Hərbi Məktəbi Gürcüstanda menşeviklərə, Ermənistanda daşnaklara qarşı hərbi əməliyyatlarda fəal iştirak etmişdir. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun, Xalq Hərbi və Dəniz komissarı Əliheydər Qarayevin verdiyi əmr və sənədlərdə bunu aydın görmək olur.

Əliheydər Qarayevin Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə göndərdiyi 29 iyun 1920-ci il tarixli raportda deyilir: "Mənim adımı daşıyan (**həmin illərdə hərbi məktəb korpus komandiri Əliheydər Qarayevin adına idi - Ş.N.)** hərbi məktəbin rəisi yoldaş Vəzirov Heydər Sadıq oğlu məktəbin təşkil olunmasından bu vaxtadək öz vəzifəsini müstəsna fədakarlıqla yerinə yetirir. İşinin öhdəsindən bacarıqla gələn bir komandir kimi Heydər Vəzirovun təltif olunmasını xahiş edirəm.

Vəzirov yoldaş başda olmaqla məktəb tam tərkibdə Quba, Gəncə və Qazax qəzalarında, habelə Qarabağda daşnaklara qarşı döyüşlərdə bir neçə kursantını və bir qırmızı komandirini itirib. Məktəbin sonuncu yürüşü Gürcüstana, Qızıl Ordunun Tiflisə irəliləyişi zamanı olmuşdur. Buna görə də hərbi məktəb Qırmızı bayraqla təltif olunmuşdur. Məktəbin komandiri Heydər Sadıq oğlu Vəzirovun Qırmızı Bayraq Ordeni ilə təltif olunmasını layiq bilirəm".

Heydər Vəzirov 1923-cü ildə qırmızı Bayraq Ordeni ilə və 6197 nömrəli fəxri fərmanla təltif olunmuşdur. Komissar Heydər Vəzirov hərbi sahədə göstərdiyi fəallığa və qəzalarda banditizmə qarşı mübarizəyə görə dəfələrlə qiymətli silahla mükafatlandırılmışdır.

Respublikamız üçün ağır illər olanda Heydər Vəzirov mərd, mübariz dövlət xadimləri və məşhur generallarımız Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, mayor Hacı ağa İbrahimbəyli ilə birgə işləmişdir. İyirminci illərdə Azərbaycanda işləyən general-leytenant Aleksandr Todorski sonralar "Bakinski raboçi" qəzetində (22 fevral 1958-ci il) bir sıra görkəmli Azərbaycan oğullarının əvəzsiz xidmətini xatırlayaraq yazırdı: "İllər keçsə də mən hərtərəfli hərbi biliyə malik olan, yaraşıqlı, vüqarlı Azərbaycanın o vaxtkı hərbi komissarı Heydər Vəzirovu yaxşı xatırlayıram. Qəlbən təmiz, xalqını ürəkdən sevən Heydər yorulmaq bilmədən çalışan adam idi".

İstedadlı sərkərdə, SSRİ Hərbi Təhsil Müəssisələri Baş İdarəsinin rəisi İ.E.Yakir 1925-ci ilin martında hərbi məktəblərin və Azərbaycan diviziyasının taktiki hazırlığını yoxlamağa gələndə hərbi milli kadrların hazırlığında Heydər Vəzirovun xidmətini xüsusilə qeyd etmişdir.

Xatırladaq ki, həmin illərdə Heydər Vəzirov bir neçə mühüm vəzifədə işləmişdir: Azərbaycan Sosialist Şura Cümhuriyyətinin hərbi komissarı idi. O, həm də mətbuatda hərbi mövzularda maraqlı yazılarla müntəzəm olaraq çıxış edirdi. "Qızıl əsgər" qəzetində hərbi təlimin keçirilməsi, hərbi dərslərin keyfiyyəti, döyüş taktikası, hərbi nizamnamələrin hazırlanması və çapı barədə maraqlı yazıların müəllifi idi.

Cəmi 44 il ömür sürmüş komissar Heydər Vəzirovun bir hərbçi kimi xalqımız qarşısında əvəzsiz xidmətləri var. O, 1925-ci ildə Göyçay Qəza İcraiyyə Komitəsinin sədri, 1927-ci ildə Zaqafqaziya Sosialist Federativ Şura Cümhuriyyəti Xalq torpaq komissarı, 1933-cü ildə isə Azərbaycan SSR torpaq komissarı təyin edilir.

Otuzuncu illərdə ölkədə Stalinin cəza tədbirləri sənayeni, kənd təsərrüfatını, elm və maarifi gücdən saldı. Sovet Ordusu da, Azərbaycan milli diviziyası da özünün ən yaxşı komandirlərini itirdi. Diviziya komandirləri Cəmşid Naxçıvanski, Qambay Vəzirov, polkovnik Seyfulla Mehdiyev, Murtuz Talıbzadə, Abdulla Məlikov kimi oğullar repressiyanın qurbanı oldular.

1937-ci ildə Azərbaycan SSR Xalq Torpaq Komissarlığının ünvanına "Əks-inqilabçı burjua, millətçi-üsyankar, terrorçu-ziyankar təşkilatın işi" adlı saxta bir ittiham yaradıldı. Bu azmış kimi, şəxsən komissar Heydər Vəzirovun işinə bir söz də əlavə elədilər: "Pantürkist". DİN ayrı, NKVD işçiləri bu sözü ona görə əlavə elədilər ki, bu barədə komissarla "dopros" aparmağa əldə tutarlı "əsas" olsun. Axı, Vəzirov Birinci Dünya müharibəsindən qayıdanda Türkiyədən keçib gəlmişdi. On səkkizinci ildə musavatın hərbi məktəbində işləmişdi, üstəlik də onun musavat ordusunda birgə işlədiyi zabitlərin çoxu Türkiyədə özlərinə sığınacaq tapmışdılar. Bu saxta ittihamlarla komissarlığın bir neçə əməkdaşı və komissar Heydər Vəzirov ailəsi ilə birgə məhv edildi.

1938-ci ildə Mircəfər Bağırovun Moskvaya göndərdiyi bir hesabatı oxuyanda adamın inanmağı gəlmir. Təəssüf ki, bu faktdır və ən başlıcası

sənəddir. Ona inanmamağa haqqımız yoxdur. Orada yazılır ki, 32 rayon partiya komitəsinin katibi, 28 rayon icraiyyə komitəsinin sədri, 18 xalq komissarı və müavinləri, milli diviziyanın 88 komandiri və hərbi-siyasi işçilər həbs edilərək "xalq düşməni" kimi məhv edilmişlər.

SAHİBƏ XANIMLA SÖHBƏT

Bakı, Ələsgər Ələkbərov küçəsi, Dadaşovların mənzili. Bura komissar Soltanhəmid Paşayevin kürəkəni Xeyrullanın evidir. Eşidəndə ki, "37"nin haqsız qurbanı olan komissar Soltanhəmid Paşayevin həyat yoldaşı Sahibə ana qızı Rəfiqə xanımgildədir, nəvə-nəticələrini görməyə gedib, fikirləşdim ki, həyat yoldaşının ömür yolunu ondan yaxşı bilən ikinci bir adam tapmaq hələlik qeyri-mümkündür. Hələlik ona görə deyirik ki, bizim yazımızdan sonra bəlkə onunla birgə işləyən keçmiş hərbiçilərdən kimsə Soltanhəmidin fəaliyyətindən daha ətraflı məktub yazıb, məlumat verəcək.

Onu da xatırladım ki, Sahibə ana 1932-ci ildən partiyanın üzvü olub. Əri tutulandan 23 il sonra yenidən onu partiya sıralarına bərpa ediblər.

- Sahibə ana, həyat yoldaşınız Soltanhəmid günahsız olaraq həbs ediləndə uşaqların neçə yaşı vardı?

- Oğlum Rəfiqin 10 yaşı vardı. Onu çox tez itirdim, Rozanın 8, Elmiranın 5, Rəfiqənin isə cəmi 1 yaşı vardı. Bir sözlə bir oğul, üç qız anası idim. Soltanhəmid tutulandan sonra özümü itirmədim.

Dəyanətimi saxladım. Onları min bir əziyyətlə də olsa böyütdüm. Oxutdum, ali təhsilli elədim. Təkcə ciyərparam Rəfiqi itirdim. İndi yeddi nəvəm, dörd nəticəm var. Sağ olsunlar, ağıllı balalardı. Hamısı ali təhsil alıblar. Tahir ali təhsilli həkimdir, Gülnarə elmlər namizədidir.

- O vaxtın qara günlərindən yaddaşınızda ən çox hansı məqamlar qalıb?

- 1926-cı ildə Soltanhəmidlə ailə qurduq. Xoşbəxt də yaşayırdıq. O, komissarlıqda işləyirdi. El-obada yaxşı hörməti vardı. Çox keçmədi, onu Şamaxıya hərbi komissar təyin etdilər. Otuz yeddinci il gəlib çatdı, gündə bir xəbər çıxdı: "Filankəsi apardılar, filankəs xalq düşməni çıxdı". Bu filankəs deyilənlərin də hamısı hörmətli, partiyaya sadiq, xalqını sevən adamlar idi. Hamı qorxu içində, səksəkədə yaşayırdı. Axşam olub, qaranlıq düşəndə, bir şaqqıltı, bir səs eşidəndə deyirdilər ki, filankəsi aparmağa gəliblər. O "çornı voron" deyilən maşın nə qədər yaxşı adamları aparıb məhv elədi. Eh, uzun dərddir, bala. Nə qədər günahsız adamlarımız "xalq düşməni" ləkəsi ilə məhv edildi.

- Soltanhəmid həbs edilən gün, il yəqin ki, yadınızdıdır. Bu müdhiş hadisə nə vaxt olub?

- 1937-ci ilin avqust ayı idi. Daha dəqiq, avqustun 17-si idi. Mən balalarımla Sulut kəndinə getmişdim. Soltanhəmid də axşama qayıtmalı idi. Şamaxıda yığıncaqları vardı, ləngidi, gəlmədi. Səhərisi Rozanın ad günü idi. Tezdən gəlməyə söz vermişdi. Kənddə, tanış müəllimgilə gedib patefonu istədim, şənlənməyə. Min cür bəhanə gətirib vermədi. Mənə çox müəmmalı, ikibaşlı cavab verdi. Kor-peşman geri qayıtdım. Yolda milis işçisi Ələşrəfə rast gəldim. Şamaxıdan gəlirdi,

Hal-əhval tutmaq istədim. Başını aşağı salıb xəcalətlə bircə bunları dedi: “Dadaşım Soltanhəmidi tutub apardılar”. Daha sonrası yadımda deyil...

Səhərisi yığışıb Şamaxıya qayıtdıq. Öyrəndim ki, onu yığıncaq vaxtı aparıblar. Onunla birgə Şamaxı Rayon Partiya Komitəsinin birinci katibi Xəlfə Hüseynovu, ikinci katibi Avalovu, torpaq şöbəsinin müdiri Yuxanovu, 6 nömrəli şərabçılıq sovxozunun direktoru Əlisahib Məmmədovu, rayon prokuroru Əhməd Əmirovu, Padar Kənd Sovetinin sədri Babalı Bəkirovu da həbs etmişdilər...

Bir sözlə, Şamaxı ziyalılarına süpürgə çəkirdilər. Kimin evində ərəb əlifbası ilə kitab, əlyazması tapılırdısa, pantürkist, panislamist damğası ilə cəzalandırılıb həbs edilirdi.

NKVD-nin sədri Şamanbəyovdan evimizin açarını istədim. Qapımıza qıfıl vurmuşdular. Sumbatov-Topuridze də orada idi. Mənə tərs-tərs baxıb: “Deyəsən, öz ayağınla gəlmisən, rədd ol burdan, bu saat səni də həbs edərəm” deyib özündən çıxdı.

O gündən həyatımın faciəsi başladı....

- Sahibə xanım, Soltanhəmidin “günahı” nə oldu?

- Sonralar öyrəndim ki, bir ambardarı döyməklə Soltanhəmidin üzünə şahid ediblər. Guya o deyib ki, biz komissarın kabinetində, evində tez-tez yığıncaq keçirirdik. Komissar Paşayevin rəhbərliyi ilə silahlı üsyana hazırlaşırıq. O, bizə güllə atmağı öyrədirdi.

Komissar Paşayev məni əsgərliyə ona görə göndərmədi ki, təşkilatın işində yaxından iştirak edirdim. Təşkilata silahı mən tapıb alırdım.

- Görüşməyə necə, icazə verirdilərmi?

- Yox. Ayda iki dəfə “yemək” götürürdülər. Yemək, ərzaq aparmaq qadağan idi. Ancaq dəyişmək üçün paltara icazə vardı. Bir dəfə, bir nəfər nə yollasa ondan barmaq boyda kağız gətirdi.

Yazmışdı ki, Sahibə, mən “xalq düşməni” deyiləm. Mənim vicdanım təmiz və ləkəsizdir. Bunları balalarımıza da başa sal ki, gözükölgəli böyüməsinlər. Üçüncü dəfə dalınca gedəndə dedilər ki, 20 il həbs cəzası kəsilib. Dalınca da əlavə elədilər ki, əriniz güllələnib, daha gəlməyə bilərsiniz...

“Güllələnmək” sözünü eşidəndə ağlım başımdan çıxdı. Handan-hana özümü ələ aldım. Düşmənlərin əhatəsində olduğumu xatırladım. Körpələrimi fikirləşdim. Sağ olsun, yaxın-uzaq qohumlar, o çətin illərdə gizli də olsa “xalq düşməni”nin ailəsinə arxa oldular.

Soltanhəmid Paşayevin ömür yoldaşı Sahibə xanım o ağrılı-acılı illərə qeyrətlə, kişi dəyanəti ilə dözmüş, övladları Rozanı, Elmiranı, Rəfiqəni böyüdüb ərsəyə çatdırmış, komissar ərinin, nüfuzlu ziyalı nəslinin adına layiq vəfalı ömür yaşamışdır.

İllərin əzabından saçı qar kimi ağarmış nurani Sahibə ana ilə söhbət edəndə elimizin müdrik sənatkarı Abbasqulu ağa Bakıxanovun sözlərini xatırladım: “Namuslu qadın kişi üçün elə bir sərvətdir ki, onun misli yoxdur”.

Onu da xatırladaq ki, Soltanhəmid Cəbrayıl oğlu Paşayev 1898-ci ildə Şamaxıda ziyalı ailəsində dünyaya gəlib. İlk təhsilini Şamaxıdakı realnı məktəbində alan Soltanhəmid sonralar Bakıdakı Azərbaycan hərbiyyə məktəbini bitirib. Zabit kimi ordu sıralarında sidq-ürəklə xidmət edən Soltanhəmid Baskal

Qəsəbə İcraiyyə Komitəsinin sədri, Göyçay hərbi komissarlığında komissar köməkçisi (1925-30-cu illərdə) işləmişdir. Yaxşı hərbi fəaliyyətinə görə dəfələrlə mükafatlandırılan Soltanhəmid məşhur şairimiz Məhəmməd Hadinin doğmaca xalası oğludur.

1991-ci il

SONUNCU KƏNGƏRLİ GENERALI

(Cəmşid xan NAXÇIVANSKİ)

Azərbaycan öz süverenliyi, tam azadlığı barədə fikirləşirsə, o ilk növbədə öz milli ordusu, milli zabitləri barədə fikirləşməlidir. Mən bunların hamısını düşünürdüm...

İyirmi beş il öncə mən Azərbaycanda əvvələr heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq iyirmi beş il keçəndən sonra özüm də yüksək qiymətləndirirəm.

Heydər ƏLİYEVİN
1990-cı ildə Moskvada
verdiyi müsahibədən

Hər şeyin ilki gözəl və yaddaqalan olur. İlk müəllim, ilk general, ilk kosmonavt, ilk məhəbbət.... Bunlar ilk övlad qədər şirin və əzizdir. Bu gün hərbi qüdrət tariximizin zabit heyətindən söz düşəndə istər-istəməz general Cəmşid xan Naxçıvanski adına hərbi litseyin məzunlarını yada salırıq.

Fəxr etməliyik ki, Cəmşid xanın "şinelindən çıxmış" bu zabitlər suveren Azərbaycan Milli Ordusunun sıralarında torpaqlarımızın qəsbkarlardan təmizlənməsi uğrunda şərəflə vuruşurlar.

1918-ci ilin iyun ayında məşhur sərkərdəmiz Əliağa Şıxlinski Gəncədə milli yunkerlər məktəbinin banisi oldu. Totalitar rejimin sərt mənqənəsində ikinci dəfə belə bir məktəbin 1971-ci ildə yaradılması Heydər Əliyevə qismət oldu. Əlbəttə, o dövrün acı abı-havasını udanlar yaxşı bilirlər ki, həmin illərdə Milli zabit heyətinin yetişdirilməsi üçün nəinki məktəb açmaq, hətta fikirləşmək belə böyük cəsarət və risq tələb edirdi. Bütün zamanlarda xalqını düşünən Heydər Əliyev haqlı olaraq millətimizin sonsuz məhəbbətinə layiq şəxsiyyətdir.

Cəmşid Naxçıvanski Kəngərli nəslindən olan axırıncı generaldır. Onun general babaları Ehsanxan, Kəlbalı xan, Hüseynxan və İsmayılxan qoca yaşlarında öz əcəlləri ilə vəfat ediblər. Tale Cəmşid xana cəmi 43 il ömür qismət elədi. Onun da 26 ilini hərbi fəaliyyətdə keçirdi. Ömrünün ən qaynar çağında otuzuncu illərin haqsız qurbanlarından biri oldu. Günahı da bu idi ki, qardaşı Davud xan və Kəlbalı xan İranda şah qvardiyasında xidmət edirdi. Guya Cəmşid xan da başçılıq etdiyi "casus təxribatçı dəstəsi" ilə onlarla sıx əlaqə saxlayırdı. Azərbaycanda şura hökuməti qurulanda hər iki qardaş rəsmi şəkildə icazə alıb İrana getmişdilər. Tezliklə İran ordusunda ad-san qazanıb yüksək rütbə almışdılar. Lakin otuzuncu illərdə şahənşah onlara inamını itirdi. Səbəbi qardaşları Cəmşid xan Naxçıvanskinin Qızıl Orduda briqada komandiri olması idi. Vaxtilə onların ata-babaları rus qoşunlarının tərkibində İran ordusuna qarşı vuruşmuşdular. Görünür, şahənşaha bu məlumat da çatdırılıbmış... Ona görə də şah onları güllələtdirdi. Bu tayda, 1938-ci ilin mayında Cəmşid xan həbs edildi. Həmin il avqustun iyirmi altısında güllələnəndə artıq 4 il əvvəl qardaşları İranda qətlə yetirilmişdi. Onda C.Naxçıvanski Moskvada M.Frunze adına Ali Hərbi-Siyasi Akademiyanın ümumi taktika kafedrasının rəisi kimi yüksək vəzifədə işləyirdi.

1938-ci il avqustun on ikisində "Sovet Hökumətinin qatı düşməni, müqəssir" Cəmşid xan Naxçıvanskiyə olunan ittihamnamədən:

Birinci: - Azərbaycan Milli Mərkəzi adlanan Azərbaycan antisovet millətçi təşkilatın fəal iştirakçısıdır. O, təşkilata Qarayev tərəfindən cəlb olunmuşdur.

İkinci: - Azərbaycanda Sovet hökumətinin devrilməsi planının hazırlanmasında və Azərbaycanın Sovet İttifaqından ayrılmasında fəal iş aparmış, Azərbaycanda hərbi üsyan planını şəxsən özü hazırlamışdır.

Üçüncü: - İran ordusunda xidmət edən qardaşı, mühacir Kəlbalı xanla əlaqə saxlamışdır. Azərbaycanda üsyan başlanarkən mühacirlərindən ibarət kömək məqsədilə qardaşına hərbi dəstələr göndərmək tapşırığını vermişdir.

Dördüncü: - 1931-ci ildə həbsdən azad olunduqdan[50] sonra Moskvaya gələrək Qarayevlə yenidən əlaqə yaratmışdır. Azərbaycan Milli Mərkəzində antisovet fəaliyyətini daha da gücləndirmiş və mərkəzin işlərində yaxından iştirak etmişdir.

Beşinci: - Antisovet hərbi qəsdlə bilavasitə əlaqə saxlamış və onlara Azərbaycan Milli Mərkəzinə konkret kömək göstərəcəyi barədə razılıq vermişdir.

Altıncı: - 1921-ci ildən 1926 cı ilə kimi cəsusluqla məşğul olmuş, Az. Pambığının keçmiş sədri Məmməd Hacıyev vasitəsilə qardaşı Kəlbalı xana ordu bərəsində /RKKA/ tam məxfi məlumatlar vermişdir.

Bu ittihamnamələrdən 14 gün sonra SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası bağlı məhkəmə iclası keçirdi. Hərbi Kollegiyanın sədri V.V.Ulrixin və 3 nəfərin şahidliyi ilə cəmi 15 dəqiqə çəkən məhkəmə iclası saat 12.50-də general Cəmşid xan Naxçvıvanskiyə ölüm hökmü oxudu. Hökm oxunandan sonra ona son sözünü deməyi təklif etdilər. Döyülüb ağıryaralar almış Cəmşidxan kəkələyə-kəkələyə danışmağa utandı. Bir də ki, şər və iftira dolu ölüm hökmü kəsiləndən

---

[50] Cəmşid xanı antisovet millətçi təşkilatın fəal üzvü kimi birinci dəfə 1931-ci il fevralın 22-də Zaqafraziya Baş Siyasi Idarəcinin xüsusi şöbəsi Tiflisdə həbs etmişdi - müəl.

sonra vida sözünü deməyi xan qururuna sığışdırmadı. Həmin gecə onu Moskvada güllələdilər...

"Onun dalınca gecə gəldilər. Axtarış aparmaq üçün şahid gərək idi. Dalandar şahidlik etməkdən boyun qaçırdı: "Kim olsaydı gedərdim, bircə Naxçıvanskidən başqa. Mən onun gözünə necə baxaram?". Həbs barədə orderlə qara "Emkada" gələnlərdən biri pillələri tələsik qalxdı. Qapını açan ev sahibəsinə hövlanak dedi: Qiymətli nəyiniz varsa, gizləyin". Qızıl ordunun xan nəsilli briqada komandiri Cəmşid Naxçıvanski pula, mala qətiyyən tamah salmayan bir insan idi.

Vidalaşarkən o, qızı Aliyənin yuxulu gözlərindən öpdü, arvadını bağrına basdı: "Özündən və uşaqlardan muğayat ol. Mənim heç bir günahım yoxdur. Tezliklə qayıdacağam" - dedi.

"O, uzun illər keçəndən sonra qayıtdı. Qayıtdı ki, xalqın yaddaşında əbədi qalsın" **/Qreqori Akselrod, "Xan nəsilli briqada komandiri". "Nedelya" qəzeti №17, 1988-ci il/.**

Repressiya illərində haqsız güllələnən briqada komandiri Cəmşid xan Naxçıvanski, diviziya komandiri Qambay Vəzirov, komissar Heydər Vəzirov, Cabir Əliyev, polkovnik Cəlil Əliyev, Seyfulla Mehdiyev, Qalib Vəkilov və Soltanhəmid Paşayevin sənədləri ilə tanış olanda, sağ qalan müasirlərindən general-mayor Akim Abbasovun, professor Əyyub Əsgərovun və onların ailə üzvlərinin xatirələrini dinləyəndə yanıb-yaxılırsan. Adamı yandıran odur ki, bu igid komandirlərin fəaliyyətində yeni quruluşa qarşı hardasa zərrəcə inamsızlıq, səhv və büdrəmələr tapa bilmirsən. Bəs haqsız qan niyə axıdılıb, onların ailələri sürgünlərdə niyə min bir əziyyət çəkib? Stalinin əshabələri - Beriya, Bağırov belə görkəmli hərbi xadimlərimizi qanlı "təmizləmə" maşınında niyə məhv ediblər? Suallar, suallar...onlara cavab tapmaq çətindir.

Otuzuncu illərdə bağları doğradılar ki, bəylər salıb, bəhrəsini yemək olmaz. Mülkləri uçurdular ki, ağalardan, xanlardan qalıb. Məscidləri bağlayıb Allahsızlar ittifaqı yaratdılar. Oğulları həbs edib öldürdülər ki, nəsli bəy olub, xan olub. Musavat hökumətinə qulluq edib.

Bu gün tarix bu səhvləri etiraf edərək otuz-qırxıncı illər dövründə və əllinci illərin əvvəllərində repressiya qurbanlarına bəraət verir. Onların şərəfinə abidələr ucaldır, küçələrə, meydanlara adları verilir. Nəhayət, gənc nəsil gec də olsa görkəmli ata-babalarının xatirəsi önündə mənəvi borcunu yerinə yetirir.

Heç bir "casus-təxribatçı dəstəsi" olmayan (əslində belə bir dəstə yox idi), İrandakı qardaşları ilə heç vaxt məktublaşmayan Cəmşid xan da o vaxt çox adi bir hala çevrilən müdhiş cəzanın qurbanı oldu.

* * *

Haqqında söhbət açdığımız Kəngərlilərin xan nəsli Azərbaycan hərb tarixinə qızıl səhifələr yazmış Cəmşid xanı 1895-ci ildə dünyaya bəxş etdi. O, 7 yaşına çatanda anası Fərəntac xanımdan Azərbaycan dilində yazmağı, dayəsi Anna İvanovna Nikolayevadan isə rus və fransız dillərində danışmağı öyrənmişdi. Rus ordusunun zabiti olan atası Cəfər xan 8 yaşlı Cəmşidi Tiflisdəki yunkerlər məktəbinə qoydu. 1914-cü il noyabrın 8-də onu Qərbi Ukraynadakı Yelizavetqrad

(**indiki Kirovqrad -Ş.N**.) qvardiya məktəbinə göndərdilər. 1914-cü ildə praporşik rütbəsi ilə həmin məktəbi bitirdi. Birinci Dünya müharibəsi başlananda mperiyanın müsəlman ailəsindən təşkil olunmuş tatar süvari eskadronunun komandiri təyin olundu.

Cəmşid xan Naxçıvanski öz hərbi məharəti ilə ilk dəfə Birinci Dünya müharibəsində ad-san qazanmışdı. "Brusilov cəbhəsi"nin yaranmasında iştirak etmiş, "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsilə təltif olunmuşdu. Avstriya və Rumıniya cəbhələrində üç dəfə yaralanan Naxçıvanski igid bir süvari zabiti kimi 1916-cı ilin fevralından 1917-ci ilin yanvarınadək xidməti müddətində gümüş silahla təltif edilmiş və ikinci, üçüncü və dördüncü dərəcəli "Anna", ikinci, üçüncü dərəcəli "Stanislav" ordenləri ilə mükafatlandırılmışdır.

Cənub-qərb cəbhəsi dağıdıldı. Ştabrotmistri Naxçıvanski başçılıq etdiyi süvari alayı ilə birgə doğma Azərbaycana qayıtdı.

1918-ci il sentyabrın 15-də Türk qoşunları Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakını düşmənlərdən təmizlədi. Əlahiddə Korpusun sıralarında Azərbaycanın müstəqilliyi uğrunda Cəmşid xan da inamla vuruşurdu... Füsunkar Qarabağın Şuşa şəhərində yerləşən Cəmşid xan Naxçıvanskinin alayı 1920-ci ilin martında daşnak tör-töküntülərinə və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarında fəal iştirak etdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan bir neçə gün sonra Respublika Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov Şuşaya təcili teleqram göndərdi. O, alay komandiri Cəmşid Naxçıvanskiyə təklif edirdi ki, dərhal Bakıya qayıtsın və Milli Ordu hissələrinin təşkilinə başlasın. Cəmşid Naxçıvanskinin komandirlik etdiyi ikinci Qarabağ süvari polku könüllü olaraq sovet ordusu tərəfinə keçdikdən sonra birinci fəhlə-kəndli polku adı ilə XI Ordunun tərkibinə daxil edildi. Podpolkovnik Cəmşid xan Naxçıvanskinin özü isə ilk Azərbaycan Birləşmiş Komanda məktəbinin rəis müavini, az sonra isə rəisi təyin olundu. İgid komandir kimi ilk günlərdən ləyaqətlə xidmət edən C.Naxçıvanskiyə həmişə müsbət xasiyyətnamələr verilmişdir.

İstedadlı sərkərdənin xalqına, Vətəninə sədaqəti, yüksək hərbi biliyi XI Ordunun komandanı M.İ.Levandovski, Hərbi İnqilab Şurasının üzvü S.Orconikidze, Azərbaycan Hərbi Dəniz Xalq Komissarı Əliheydər Qarayev tərəfindən yüksək qiymətləndirilmişdir.

1921-ci il martın 14-də ordu komandanı M.İ.Levandovskinin Cəmşid Naxçıvanskiyə verdiyi xasiyyətnamədə oxuyuruq:

"Korpus da daxil olmaqla bütün hissələrə operativ, taktiki cəhətdən komandanlıq etməyə tam layiqdir... Sakit, təmkinli, fəal və təşəbbüskardır... Azərbaycan MİK-in və Zaqafqaziya MİK-nin tərkibinə seçilmişdir. Diviziya komandirliyi vəzifəsinə tam uyğundur".

İllər keçdi. Qızıl Ordunun məşhur komandanlarından biri olmasına baxmayaraq, otuz yeddinci ilin qara tufanlarında M.İ.Levandovskiyə də inam, etibar azalıb yox dərəcəsinə endi. 1938-ci ilin martında onu həbs etdilər. Martın 23-də çekistlər ondan zor gücünə Cəmşid xanın əleyhinə belə bir ifadə aldılar:

"Mənim Cəmşid xan Naxçıvanski ilə 1927-ci ildən yaxın dostluq əlaqəm vardır. Elə o zaman - 1927-ci ildə Naxçıvanski Azərbaycan MK-nın keçmiş katibi

Qarayev (**Əliheydər Qarayev - Ş.N**.) tərəfindən burjua-millətçi əksinqilabi təşkilata cəlb olunmuşdu. Bu barədə mənə şəxsən Qarayev özü demişdi. Eyni zamanda o, mənə bilmirmişdir ki, Naxçıvanskinin nüfuzunu orduda artırmaq üçün onu Sov.İKP sıralarına keçirmək lazımdır.

Qarayev öz kabinetində mənə kollektivin zəmanətini öz imzası ilə hazırlamışdı. Xatırlaya bilmirəm, deyəsən Bakı şəhər partiya komitəsinin keçmiş katibi Levon Mirzoyan da ona imza atmışdı. Az.KPMK-nın Naxçıvanskiyə həsr olunmuş iclasında qərar qəbul olunmuşdu ki, mən "şəxsən" açıq şəkildə onunla söhbət aparmalıyam.

Mən Cəmşid xan Naxçıvanskini "Avropa" mehmanxanasına öz yanıma çağırdım. Ona aid olan ittihamların hamısını dedim. Yəni ki, onun qubernator işləyən əmisi ilə əlaqələri və casusluq işləri barəsində danışaraq ittiham etdim. Naxçıvanskini qorxutduqdan sonra mən ona mənimlə birgə keçmiş zabitlərin əksinqilabi təşkilatın üzvü kimi işləməyi təklif etdim. Naxçıvanski razılıq verdi. Mən ona məsləhət gördüm ki, şübhələri öz üzərindən götürmək üçün yığıncaqlarda çıxış etmək, riyakarlıq edərək sözdə Sovet hökumətini müdafiə etmək mövqeyində durmalıdır. Bundan sonra Naxçıvanski mənə bildirdi ki, onun tərəfindən təşkilata Azərbaycan alayının keçmiş komandiri Veysov[51] və digərləri də cəlb olunmuşlar".

* * *

Milli diviziya yaratmaq işindəki fəallığına görə Cəmşid xan Naxçıvanskiyə 1921-ci il dekabrın 19-da Azərbaycan Hərbi Dəniz - Xalq Komissarlığı təşəkkür elan etmiş və mükafat olaraq ona gümüş dəstəkli qılınc hədiyyə vermişdi. O, yeni yaradılan Azərbaycan dağatıcı diviziyasına komandir təyin olundu.

1923-cü ildə Moskvadakı qısa müddətli Ali Akademiya kursuna göndərilən Cəmşid xan Naxçıvanski 1924-cü ilə qədər orada hərbi təhsil almışdı.

Ön cərkədə soldan oturanlardan 3-cü C.Naxçıvanski, ayaq üstə soldan 3-cü polkovkik Murtuz Talıbzadə Azərbaycana qayıdandan sonra yenidən diviziya komandiri təyin edilmişdi. Üç il sonra o, ikinci dəfə Hərbi Akademiyaya oxumaqa göndərilmiş və 1928-ci ildən 1929-cu ilədək məşhur generalımız Əliağa Şıxlinskinin təşəbbüsü ilə Azərbaycan dilində nəşr olunan "Hərbi bilik" jurnalının redaktorlarından biri olmuşdur.

Mərhum general Agim Abbasov vaxtilə Naxçıvanskinin komandir olduğu diviziyada xidmət edib. Onun dediklərindən:

- Cəmşid Naxçıvanski qətiyyətli komandir idi. Onun gözəl cizgili siması, səliqəylə yana ayrılıb daranmış qara saçları və qalın qaşları altında açıq, aydın baxışları indi də gözümün önündədir. O, yaraşıqlı qaməti, hərbçilərə məxsus dəyanəti ilə müasirlərindən seçilirdi. Biz - Cəmşid Naxçıvanskinin diviziyasında xidmət edənlər, bu istedadlı sərkərdədən hərbi peşənin sirlərini öyrənmiş komandirlər onu iftixarla xatırlayırıq. Biz bu gün də keçmiş ənənələrə görə onu "Xan Naxçıvanski", döyüş təxəllüsünə görə "Şamo" deyə yad edirik. Xanlar

---

[51] Polkovnik Məmməd Kərim oğlu Veysov (1900-1972) M.V.Frunze və V.I.Lenin adına Ali Hərbi Akademiyanı bitirmişdir. Otuz yeddinci ildə həbs olunmuş, günahsız olaraq doqquz il Sibir sürgünü çəkmişdir - müəl.

rayonu ərazisində iki kilometr cənub-şərqdə yerləşən dağı biz komandirlər və qızıl əsgərlər, həmçinin yerli sakinlər komandirimizə ehtiram əlaməti olaraq "Xan Naxçıvanski dağı" adlandırırdıq. Cəmşid xan komanda məntəqəsini bu dağda qurmuşdu. Buranın relyefi elədir ki, həmin dağdan ətrafda, Azərbaycan diviziyasının təlim meydançaları aydın görünürdü.

Cəmşid Naxçıvanski hərtərəfli mütəxəssis, siyasi cəhətdən hazırlıqlı, hərb işinə sədaqətli zabit idi. Məhz bu yüksək keyfiyyətlərinə görə 1923-cü ildə Hərbi İnqilab Şurasının əmri ilə Cəmşid Qızıl Ordunun Ali Komanda Heyəti kursuna dinləyici qəbul olundu. Bu kursu müvəffəqiyyətlə bitirən Naxçıvanski 1931 -ci ildən M.V.Frunze adına Ali Hərbi Siyasi Akademiyanın xüsusi qrupunda təhsilini davam etdirdi. Buranı da fərqlənmə diplomu ilə başa vuran Cəmşid Naxçıvanski Xalq Müdafiə Komissarının əmri ilə akademiyada müəllim saxlanıldı.

Həmin dövrdə C.Naxçıvanskiyə verilmiş attestasiya sənədində oxuyuruq:

"C.Naxçıvanskiyə əvvəllər verilən müsbət rəylər öz qüvvəsində saxlanılsın. O, hər cəhətdən inkişaf etmişdir. Cəmşid Naxçıvanski hərbi təlimlərdə, operativ taktiki təlimatlarda özünü bacarıqlı sərkərdə kimi göstərmişdir. C.Naxçıvanskidən korpus komandiri kimi də istifadə etmək olar... O, təmkinli, sakit təbiətlidir, tükənməz enerjiyə malikdir, təşəbbüskardır, gözəl inzibatçıdır, yaxşı təşkilatçılıq qabiliyyəti vardır..."

Bu da Hərbi Akademiyanın kurs rəisi və komissarı, sonralar Sovet İttifaqı marşalı Boris Şapoşnikovun həmin attestasiyanın təsdiqi barədə rəyi:

"Cəmşid Naxçıvanskinin attestasiyası ilə razıyam, atıcı diviziyasının komandiri vəzifəsinə münasibdir".

Vaxtilə süvari qoşunun qızğın pərəstişkarı olan Cəmşid xan orduda bu qoşun növünə vətəndaş müharibəsinin təəssüratı ilə həddən artıq aludə olanlarla razılaşmır. Akademiyanın dinləyicilərini köhnəlmiş şablonlardan tezliklə yaxa qurtarmağa çağırırdı. Sübut edirdi ki, gələcək müharibədə cinahların dövrələnməsi üstünlük təşkil edəcək; döyüş meydanlarında o kəs qalib gələcək ki, müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətini təmin edə bilsin, döyüşün idarə olunmasına yaradıcı şəkildə yanaşmağı öyrənsin. Toxum münbit zəminə düşmüşdü. Lakin bu toxumun cücərməsi..."[52]

Bəli, nadanlar, şər və iftira düşgünləri bu toxumun cücərməsinə imkan vermədilər. Onun tərbiyə edib yetirdiyi müdavimləri - S.Biryuzov, A.A.Qreçko, P.F.Batistki marşal rütbəsinə çatdılar. Özü isə günahsız məhv edildi. Onun fəaliyyətinə verilən xasiyyətnamələrlə, rəylərlə tanış olandan sonra Cəmşid Naxçıvanskinin "xalq düşməni" olmasına inanmaq çox çətindir. Bu, ağa qara demək kimi bir şeydir. Ona görə də polad kimi əyilməyən Cəmşidi sındırdılar. Lakin o, istintaqda heç bir iftiranı boynuna almayıb, özünün günahsız dostlarını satmayıb, xalqının, nüfuzlu nəslinin adını ləkələməyib.

İllər keçdi. Başqaları kimi sonralar ona da bəraət verildi. Vaxtilə haqqında ürək dolusu ilə danışa bilmədiyimiz bu görkəmli komandir haqqında gənc nəslə

---

[52] Akselrod. Göstərilən oçerk.

məlumat vermək imkanı yarandı. İndi onun adına Bakıda Hərbi litsey var. Boya başa çatdığı Naxçıvanda isə ev muzeyi açılmışdır.

Bakı Dövlət Universitetinin müəllimi, hüquq elmləri doktoru, professor Əyyub Əsgərov vaxtilə yetmiş yeddinci Azərbaycan atıcı diviziyasının sıralarında zabit kimi xidmət edib. O, istedadlı sərkərdə Cəmşid xan Naxçıvanskinin son günlərinin şahidi olub:

- 1937-ci ilin payızında Sankt-Peterburqda keçirdiyim məzuniyyətdən geri qayıdırdım. Moskvada hərbi kursda oxuyan yoldaşlarımla görüşmək üçün Frunze adına Akademiyaya getdim. Yaxın dostum və Akademiyanın müdavimi Hacıbaba Zeynalovun qonağı oldum, həmyerlilərimiz Cəlil Əliyev, Əhmədəli Əliyev, Bayram Şıxıyev, Fərhad Şahbazov və başqaları ilə də burada görüşdüm.

Bir gün Hacıbaba Zeynalovun otağında şam yeməyinə toplaşmışdıq. Bu vaxt C.Naxçıvanski otağa girdi. Biz hamımız ayağa qalxdıq, ehtiramla, rəsmi təzim edərək onu salamladıq. Görkəmli sərkərdə hər birimizlə ayrı-ayrılıqda görüşdü. Üz-gözündə xoş təbəssüm cilvələnirdi... O, 77-ci Azərbaycan atıcı diviziyasında xidmət etdiyimi biləndə məni söhbətə tutdu. Azərbaycan xalqının həyatı ilə yaxından maraqlandı, diviziyanın siyasi döyüş hazırlığı sahəsində əldə etdiyi uğurlar barədə məlumatları çox diqqətlə dinlədi və ürəkdən sevindi. O, Vətənin müdafiə qüdrətini daim möhkəmləndirməyin, dövrün tələblərinə uyğun olaraq, yüksək bilikli kadrlar hazırlanmasının, xüsusilə yeni texnikaya yiyələnməyin vacib olduğunu bildirdi. Sonra: “Oğul, bizim xalqımıza yaxşı hazırlıqlı kadrlar lazımdır”, - dedi. Gedərkən hamıya müraciət etdi: “Bu ali hərbi məktəb - Akademiya əsl siz gənclərin yeridir, sizin üçündür, əfsus ki, bizim nümayəndələrimiz burada çox azdır”. Üzünü mənə döndərdi: “Çalışın, qoçaq olun, mən elə sizi də burada görmək istərdim”.

* * *

Xan nəsilli generalın Naxçıvandakı ev muzeyində 1898-ci ildə çəkilmiş köhnə bir şəkli var. Tən ortada oturmuş ana - Fərəntac xanım körpə qızını bağrına basıb. Yanında şux qamətli üç oğlu - Ehsan xan, Kəlbalı xan və Cəmşid xan əyləşib. Çərkəzi geyimdə olan üç qardaşın duruşundan yaşlarına uyuşmayan ciddilik, mərdanəlik və vüqar oxunur. Həyatın hələ dinclik və rahatlıq dövrüdür. Yastığın üstündə oturan 2 yaşlı Cəmşid xan uşaqlara məxsus heyranlıqla obyektivə baxır. Dünyaya uşaq marağı ilə baxan, 2 ildən sonra başlanacaq yeni əsrdə onu nələr gözlədiyindən hələ bixəbərdir. Dünyanın inqilab tufanı, həyat qasırğası və müharibənin alovları balaca Cəmşidi 16 il sonra polad kimi bərkitdi... Hələ qarşıdakı həyat faciəsinə bir qərinədən çox qalırdı. Elə bir faciə ki, orada Cəmşid xan yox, onun qardaşları Ehsan xan, Kəlbalı xan və hansı təsadüfdənsə bu fotoşəklə düşməyən Davud xan da məkr və böhtanın qurbanı olacaq.

1920-ci ilin iyulunda Cəmşid xanın xidmət etdiyi ikinci Qarabağ süvari alayı Şuşada yerləşirdi. Podpolkovnik Naxçıvanski nizami hissə üzrə müavin idi. Bir gün gecədən xeyli keçmiş qaldığı evin qapısı döyüldü. Qardaşı Ehsan xan onun qonağı idi. Yaşda ondan kiçik olan Ehsan xan da peşəkar hərbçi idi. O, Moskvada zadəgan balalarına məxsus kadet korpusu məktəbini bitirmişdi. Bir müddət Ulan

alayında xidmət etmişdi. Azərbaycan ordusunda isə Bakıda Nazirlər Soveti yanında süvari alayının komandiri olmuşdu. İndi isə 3-cü Şəki süvari polkunda Qərargah zabiti idi. Göstərdiyi qəhrəmanlığa görə Ehsan xanın da rütbəsi podpolkovnikə çatmışdı. Cəmşid xan böyük qardaş kimi onun şücaətinə, döyüşlərdə aldığı ordenə və rütbədə sürətlə irəliləməsinə çox sevinirdi. Podpolkovnik Ehsan xan Qarabağı daşnaklardan qorumağa gəlmişdi. Azərbaycana soxulan silahlı bolşeviklər hər şeyi tar-mar eləmişdi. Azərbaycan hökuməti buraxılmış, ordusu dağılmışdı. Bolşeviklər Bakıda və Gəncədə talan həftəsini yenicə qurtarmışdılar. Amma musavat əsgər və zabitlərinin sorğu-sualsız güllələnməyi hələ də davam edirdi. Qapı döyüləndə Ehsan xan hamıdan tez ayıldı. Cəmşidin oyanmasına qıymayıb durub qapını açdı. Bolşevik-daşnak əsgərlərinin tüfənglərindəki süngülər ay işığında parıldadı. Taxta qoburlu mauzeri olan daşnak zabiti soruşdu: "Cəmşid xan Naxçıvanski sizsiniz?" Ehsan xan dərhal məsələni anladı. Bir anlığa ləngidi, kandarı o tərəfə adlayıb qapını bağladı. "Bəli, Cəmşid xan mənəm" - dedi.

Onu şəhərin kənarına aparıb musavat zabiti olduğuna görə sorğusuz-sualsız güllələdilər...

Otuzuncu illərin axırlarında isə İran ordusunda xidmət edib yüksək rütbələrə çatan Davud xanı və Kəlbalı xanı şah öz əli ilə qvardiyaçılarına güllələtdi. Çünki bu taydan gedən bolşevik-daşnak donoslarına əsaslanan şah, igid Kəngərli qardaşlarına inamını itirmişdi.

Dörd qardaşdan heç biri otuzuncu illərin tufanlarından salamat çıxmadı...

İyul, 1991-ci il.

GENERAL-QUBERNATOR MƏMMƏD KOXANIN ACI TALEYİ

Ömrün yollarında çox əsrarəngiz mənzərələrin şahidi olmuşam: keçilməz meşələr, yamyaşıl talalar, başı buludlara dəyən dağlar görmüşəm. Gördükcə, seyr etdikcə gözümdə Avey yaşayıb, Avey ucalıb. Avey dağı varlığıma hopub, səyyar xəyalım ildırım sürətilə ona qanadlanıb, ona uçub, Bu anlarda Daş Salahlı igidlərilə həmdərd, həmsöhbət olmuşam.

Müəllif

Gözlərindən qəm yağan qocanın fotoşəkli bir müddət yazı stolumun üstündən "mənə baxdı". Düşünürdüm onu otağımın harasından asım ki, bizə gələn qonaqlar dərhal görsünlər. İstəyirdim və çox arzu edirdim ki, bu şəkildəki qocanı

hamı görüb tanısın. Mənim nəslimdə onun ancaq adı yaşayırdı, bir də mərdliyi barədə danışılan əfsanəyə bənzər əhvalatlar. Amma indiyədək heç kəs, hətta yaxın qohumlar belə onun fotoşəklini görməmişdi. Onu görüb xatırlayan qocaların çoxusu həyatdan getmişdi. Nəvə-nəticələrin yaddaşında isə mərd babamız yavaş-yavaş unudulurdu. Tapılan yeganə şəkil bizə onu elə bil yenidən qaytardı. Üstəlik də yaralarımızı göynətdi.

Milli Təhlükəsizlik Nazirliyinin arxivindən aşkar olunan keçmiş Qazax general-qubernatoru Məmməd Koxa Mahmud oğlunun (1859-1933) fotoşəkli danışa bilsəydi, biz çox mətləblərdən hali olardıq. Bu nadir fotoşəklin bizim nəslə və bütün Daş Salahlı camaatına nə qədər sevinc bəxş etdiyini təsəvvür etmək mümkün deyil.

Altmış beş il əvvəl 1929-cu ildə çəkilən bu fotoşəklə baxanda adamın ürəyi göynəyir. İnsanın üzündə, baxışında nə qədər qəm, kədər olarmış, İlahi... ovuc içi boyda şəkli böyütdürdüm. Sənətkar dostum Seyfəddin Məmmədvəliyev onun surətini elə ustalıqla çıxartdı ki, üstündən zərif ağ xətlər gedən köynəyinin rəngi belə indi aydın seçilir. Biri üzbəüz, digəri yandan çəkilən şəkildə Məmməd Koxanın bütün dərdi-qəmini kilidlənmiş dodaqlarından, adamın yeddi qatını dəlib keçən baxışlarından görmək olurdu. Köynəyinə yapışdırılmış "801" rəqəmi onun dustaq nömrəsidir. Bəli, Daş Salahlının dustaq koxasının, Qazax general-qubernatorunun bəxtinə belə bir nömrə düşüb. 1929-cu il sentyabrın 14-də yetmiş yaşlı qocanı Sovet hökumətinin düşməni kimi həbs ediblər. Vaxtilə Qarayazıda, Ceyrançöldə, Mehrab düzündə kəhər at belində gəzən igidin əl-ayağı qandallanaraq dustaq edilib. Niyə, nə üçün, hansı günahın sahibi idi Məmməd Koxa?

Siyasi idarənin əməkdaşı Revaz Xaçikyan bu suallara "əsaslı" cavab tapıb: 1918-20-ci illərdə general-qubernator olub, mülkədar - ağa nəslindəndir və ən başlıcası, Qazax mahalındakı "Həqiqət Ordusu" adlı gizli antisovet təşkilatının fəal iştirakçısıdır. Ona görə də Daş Salahlı sakini, yetmiş yaşlı Məmməd Koxa Mahmud oğlu, yenə həmin kəndin sakini, səksən yaşlı Miralayev Mustafa ağa, Poylu kənd sakini Rəhim bəy Hacıqasımov, Aslanbəyli kəndinin ağası, doxsan yaşlı Aşır Heyne oğlu, Dəmirçilər kənd sakini Mehdiyev Mustafa ağa Mehdi ağa oğlu cinayət əməllərinə görə (26 nəfərlə birlikdə) Azərbaycan SSR Cinayət Məcəlləsinin 64-cü maddəsilə həbs ediliblər.

Məmməd Koxa əhvalatının mübahisə doğuracağını bəri başdan bildiyim üçün bu yazıda Qazax ağsaqqallarının xatirələrinə arxalanmışam. Çalışmışam ki, olub-keçənləri olduğu kimi yazım. Ona görə də uzun illər boyu tələsmədən, arxivlərdə araşdırmalar aparmışam. O hadisələrin şahidi olan qocalarla görüşüb söhbət etmişəm. Nə yaxşı ki, aşkarlıq da gəlib çıxdı. Yoxsa tarix bu əhvalatların üstündən sükutla keçər, el arasında danışılan bu hadisələr də həmişəlik bağlı qalardı.

İşdir, müəyyən fakt və hadisələrlə bağlı ziddiyyət doğuran fikirlər ortaya çıxsa, təhriflər müəyyən edilsə, bu barədə mənə məlumat verəcək yoldaşlara irəlicədən təşəkkürümü bildirirəm. Mərd babamız Məmməd Koxa Mahmud oğlu barədə susmağa haqqım olmadığı üçün bu əhvalatları qələmə almağı özümə borc bildim.

MƏMMƏD KOXA ƏHVALATI

Daş Salahlı kəndində uzun illər koxalıq etmiş çox müdrik, nüfuzlu bir şəxs vardı. Onun adına Məmməd Koxa deyərdilər.

Mirvarid DİLBAZİ
Xalq şairi

Qiymət qoyar aca, toxa,
Alardı hədəfə, oxa,
Daş Salahlı Məmməd Koxa,
Səni açıq bazar gördüm.

Həsənəli bəy ƏSGƏRXANOV
Qazax pristavı

Daş Salahlıda nər biləkli, düz qamətli, əyrilərə yağı kəsilən bir kişi olub. El qeyrəti, oba təəssübü çəkən Məmməd Koxa Mahmud oğlu Mahmudovu müdrik yaşlı qocalarımız xeyir-şər məclislərində "qeyrətli kişi, çörəkli kişi" kimi tez-tez yad edirlər. 1914-20-ci illərdə daşnak dəstələrinin burnunu ovduğuna, haqq sözündə dönməz olduğuna görə ona el arasında Boz Məmməd də deyiblər. Otuzuncu illərdə cah-cəlalı dağılan, sürgün olunan Məmməd Koxanın günahı hürriyyət vaxtı Qazaxda qubernator olmağı idi.

Qırx ilə yaxın Daş Salahlıda kənd koxası olan Məmməd baba doğma kəndinin xoş güzəranı üçün az iş görməyib. O, ötən əsrin sonlarında Tiflisə, Qoriyə gedib Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadə ilə, Qori Seminariyasının Azərbaycan şöbəsinin müdiri Aleksey Osipoviç Çernyayevski və görkəmli maarif xadimi Firudin bəy Köçərli ilə görüşüb, öz xərcinə kənddə səkkiz otaqlı ibtidai məktəb açmağa nail olub. Vaxtilə həmin məktəbin məzunlarından sağ qalanlar var.

Məmməd Koxanın xeyirxah əməllərinin nişanələri indi də qalır. O, Daş Salahlıda dəftərxana binası tikdirib, 1914-cü ildə Avey dağından kəndə bulaq çəkdirib - daş salahlılar indi də bu bulağın suyundan içirlər. Bulağın açılışına məşhur el aşığı Əsəd Rzayevi dəvət edib. Üç gün, üç gecə keçən bu el şənliyində aşıq Əsəd Qazax bəylərinin, Daş Salahlı igidlərinin vəsfini saza-sözə çəkib.

Daş Salahlı Məmməd Koxa,
Gəl səni mərdanə deyim.
Eşidib hər qubernat
Əvvəl İrəvana deyim.

Gizlətməyim bu vəsfini,
Şəril[53]-Naxçıvana deyim.
Kəmərini qurşamağı
Ol şahi-mərdanə deyim.

... 1917-ci ildə, fevral-burjua inqilabından sonra imperiyanın hər yerində olduğu kimi, Azərbaycanın qərbindəki Qazax mahalında da hərc-mərclik yaranır, oğurluq, soyğunçuluq həddini aşır. Hamı tüfəngli gəzir, kimin kimdən xoşu gəlmirsə, yerindəcə güllələyir. Basqınlar, ev yarmaq, naxır-sürü oğurlamaq dəb düşür. Obada talançılıqdan fəlakətlər törəyir. Ziyalılar, başbilənlər kimi qubernator seçirlərsə də, vəziyyət düzəlmir ki, düzəlmir... Mahalda ikitirəlikdən günahsız qanlar, haqsız ölümlər çoxalır.

Obanın tarixinin mahir bilicisi, Daş Salahlı ağsaqqalı Əhmədağa Paşayev:

Belə bir vaxtda Tiflisdəki menşevik hökuməti iddia irəli sürür ki, Şəmkir çayından bəri olan sahələr Gürcüstana qatılmalıdır, çünki Nadir şahın 1736-cı il fərmanına[54] əsasən həmin ərazilər Gürcüstan valisinin ixtiyarına verilib.

Xalq belə qarmaqarışıqlıqlardan, ərazi iddiasından hiddətlənmişdi, Qazağın məşhur bəyləri, vurub-yıxan qoçuları daha dözə bilməyib xalq arasında tanınmış şəxs olan Yuxarı Salahlı kənd sakini Məmmədağa Vəkilovun yanına məsləhət-məşvərətə yığışdılar. Məclisdə təklif olundu ki, bir nəfər rəhbər seçilsin və belə bir ağır zamanda qəzanı idarə etsin. Yerbəyerdən qəza pristavı vəzifəsində işləmiş Cahangir bəy Şıxlinskinin namizədliyi irəli sürüldü. Cahangir bəy isə öz namizədliyini geri götürdü və məsləhət gördü ki, bu vəzifəyə bəylərdən yox, rəiyyətdən seçilsin, çünki indiki vəziyyət belə tələb edir.

Qazax mahalı quberniya olmasa da, nəhayət, çox söz-söhbətdən sonra daş salahlı Məmməd Koxaya qubernator adı verərək Qazax mahalına inzibati rəhbər seçdilər. Məmməd Koxa gecəni gündüzə qataraq çalışırdı ki, əmin-amanlığı qorusun. O, cəzaları özü təyin edirdi. Prokuror da, məhkəmə də özü idi. Quldurluq edənlərin gözünü qorxutmaq üçün bir nəfəri soyğunçuluq üstündə qulağından teleqraf dirəyinə mıxlatmışdı.

Tiflis menşevikləri qazaxlıların onların əmrlərinə tabe olmamaqlarından, özbaşınalıqlarından qəzəblənir, torpaq iddiasını daha israrla irəli sürürdülər. Məmməd Koxa savadsız olsa da, çox böyük milli qürura malik idi. Ona görə də gürcüləri saya salmırdı. Hətta bir dəfə torpaq iddiası ilə yanına gələn gürcü elçilərini qovmuş, vaxtilə Qazağı Gürcüstana ilhaq edən Nadir şahı da söymüşdü.

Gürcüstan menşevik hökuməti hərbi müdaxiləyə hazırlaşmağa başladı. Gürcü zabitləri Tiflisdən və ətraf kəndlərdən gürcülərin əlaltısı olan müsəlmanlardan əsgəri hissə düzəldib, qısa təlimdən sonra Ağstafa tərəfdən Qazağa hücum etdilər. Şiddətli mübarizə başlandı. Məmməd Koxadan narazı olan oğrular, əyrilər də ayağa qalxdı. 1918-ci ilin may ayında olan döyüşlərdə gürcülər şəhərin bir sıra mühüm obyektlərini ələ keçirdilər. Axşam qaranlıq çökəndə

---

[53] Şərur

[54] Nadir şah belə bir fərmanı ona görə verib ki, 1736-cı ildə Muğanın Cavad şəhərində keçirdiyi özünü şahseçmə qurultayına qazaxlılar gəlməmişdi müəl.

Qazağın din xadimi Mirseyid ağa əlində ağ bayraq Məmməd Koxanın qərargahına gəldi. Dedi ki, ay Məmməd Koxa, çıx şəhərdən, arada camaat qırılır, görürsən ki, bu həna o hənadan deyil. Bədbəxt müsəlman özünü içəridən "yeyir", qardaş-qardaşı qırır. Arada gavur barmağı var... İgid Məmməd Koxa bir qədər məsləhətdən sonra cavab verdi ki, heç vaxt təslim olmayacağam, amma gecə yarı müvəqqəti şəhərdən çıxaram. Ona görə ki, düşmən gülləsini atan özümüzünküdür...

Beləliklə, qubernator Məmməd Koxa mərdi-mərdanə çıxıb getdi. Qazax şəhəri isə topun, pulemyotun və satqın adamların köməyi ilə gürcülər tərəfindən müvəqqəti alındı.

MƏMMƏD KOXANIN səxavəti:

1911-ci ildə Sibir sürgünündən qayıdan bir qaraçöplü Qazağa kimi zor-güclə gəlib çıxır. O qədər yoxsul imiş ki, evinə gedib çatmaq üçün çibində bir qəpiyi də yoxmuş. Bir xeyirxah ona məsləhət görür ki, bu gün bazardı, get ora. Daş salahlı Məmməd Koxanı soruş, tap. Pul-para üçün ağız açsan, əl tutan adamdı, kömək eləyər. Daş salahlı Məmməd deyə-deyə axtaran qaraçöplüyə Cəbioğlu Məmmədi nişan verirlər.

Cəbioğlu Məmməd şübhəli-şübhəli yuxarıdan-aşağı sürgündən qayıdana baxır. Elə zənn edir ki, bazarın lotuları sataşmaq üçün bu yoxsulu onun üstünə göndəriblər. Fəqirlə bir neçə kəlmə kəsəndən sonra:

Oğul, - deyir, - gəlməyinə düz gəlibsən, sənə düz nişan veriblər. Pulum, varım boldu. Qapımda yüzə yaxın qızıl yelinli inəyim sağılır, kəhər erkək atlarım kişnəşir, subay malımın, qoyun sürümün sayını-hesabını bilmirəm... Amma mənim əlim pul verməyə öyrəşməyib, almağa, yığmağa öyrəşib. Mən Cəbioğlu Məmmədəm. Pul verən, əl tutan bizim əmizadə koxa Mahmudoğlu Məmməddi, pulunun dəlisi odu. Bəri dur, onu göstərim. Odey, xəz kürklü, qarayanız, qara bığlı Məmməd Koxadı, iki nəfərlə söhbət edir. Get, pulu ondan istə.

Qaraçöplü gözləyir ki, Məmməd Koxanın yanındakılar aralanıb getsin, sonra yaxınlaşıb sözünü desin. Məmməd Koxa bir az aralıda gəzinən fəqirin ona nəsə demək istədiyini hiss edib:

- Oğul, - deyir, - nəsə sözlü adama oxşayırsan, yaxın gəl görüm kimsən, nə istəyin var?

- Ay ağa, dustaqlıqdan qayıdıram, yol pulum qurtarıb, mənə bir az xərclik ver, gedim evə çıxım.

Məmməd Koxa kürkünün ətəyini geri atıb əlini cibinə salır, bir dəstə pul çıxardıb saymadan hamısını ona verir.

Dustaq özünə bir dəst paltar alıb yola düşür. Bir ay sonra geyimli-gecimli, boynu qotazlı erkəklərlə dörd fayton adam Daş Salahlıya gəlib Məmməd Koxanın qonağı olurlar. Onlar dustaq qaraçöplünün qohumları idi. Sən demə, sürgündən qayıdan qaraçöplü də əsilli-nəsilli ailədən imiş. Bu əsl-nəcabətli ailənin dostluğu 1920-ci ilə qədər davam edib.

1912-ci ildə Məmməd baba yeganə oğlu Həmid bəyi Tiflisdəki birinci klassik gimnaziyaya oxumağa göndərir. Həmid bəy həmyerlisi Vəli ağa Dilbazi ilə birgə təhsil almışdı. Onların 1913-cü ildə birgə çəkilmiş fotoşəkli də yadigar qalıb. 1918-ci ildə Tiflis gimnaziyasını bitirən Həmid bəy atasının məsləhəti ilə

azərbaycanlı gənclər üçün Gəncədə yenicə açılmış "hərbiyyə məktəbi"nə qəbul olunur.

1919-cu il mayın beşində həmin məktəbin ilk buraxılışı oldu. Hərb naziri Səməd bəy Mehmandarovun 236 nömrəli əmri ilə bir qrup yunker praporşik rütbəsilə təltif edildi. Məktəbi birinci dərəcə ilə bitirən Həmid bəy Mahmudova da praporşik rütbəsi verildi. Hərbi xidmətini davam etdirmək üçün o, üçüncü Şəki süvari alayına göndərildi.

İyirminci ilin aprelində zabit Həmid bəy Gəncə üsyanında iştirak edir. Vətənini yadlardan xilas etmək istəyən Həmid bəyin faciəsi də o gündən başlayır. O, Vətənində qaçaq düşür. Başına topladığı zabit dostları ilə Qarayazı, Tatlı meşələrində, Avey və Odun dağlarında düşmənə qarşı vuruşur. Şura hökumətinin təşkil etdiyi erməni milis dəstəsi onun dəstəsini qarabaqara təqib edir. Həmid bəyə görə atası Məmməd Koxa Sibirə sürgün olunur. Nəslin başıpapaqlıları günün-günortaçağı məhkəməsiz güllələnir. Bir sözlə, 1926-cı ildən başlayaraq, Məmməd Koxanın nəslinə kor gözlü bəla gəlir

İDEYA SİLAHDAN GÜCLÜ İDİ

Hər dəfə xeyir-şər məclislərində Həmid bəyin faciəsindən, Məmməd Koxanın mərdliyindən danışılanda ürək ağrısı ilə qulaq asır və düşünürdüm ki, nə üçün bunlar "xalq düşməni"dirlər. Axı, Vətəni yadlardan qoruyan oğul da düşmən olarmı? Suallarıma cavab tapa bilmirdim. Ona görə ki, beş-üç il əvvəl bəzi adamlar məclislərdə Məmməd Koxanın qeyrətindən, Həmid bəyin dönməzliyindən danışır, söhbətinin yekununda isə "hökumətin düşmənidirlər" deməkdən çəkinmirdilər. Onların danışığından belə məlum olurdu ki, bəy, ağa, xan, koxa, qubernator, pristav titullu adamların hamısı dövlətin, xalqın düşməni olublar. "Həmid bəy musavat zabiti olub" sözlərini partiyaçının, komsomolçunun, hətta kolxoz sədrinin iştirfk etdiyi məclisdə demək belə mümkun deyildi.

Amma tez-tez görüşdüyüm aqsaqqal ziyalılar və hadisələrin şahidi, iştirakçısı olan Daş Salahlı sakinləri Əmrahoğlu Mədəd, Əhməd ağa Paşayev, Əbdüləzim Həsənov, Zuraboğlu Məcid, Əvəz Avdıoğlu, Rəsul dayı, Seyidoğlu Həsən və başqaları Məmməd Koxanın, Həmid bəyin "düşmən" olduqlarını tamamilə inkar edirdilər. Fəxrlə deyirdilər ki, kişi kimi yaşayıb, igid kimi də öldülər. Xüsusilə, doxsan dörd yaşlı Zuraboğlu Məcidi dinləyəndən sonra düşünürdüm ki, Azərbaycan Demokratik hökumətinin zabitlərində ideya silahdan da güclü olub.

- Gürcülərin Qazağı almasının səbəbkarı özümüzünkülər oldu. Qubernator Məmməd Koxa az vaxtda Qazaxda tam əmin-amanlıq yaratdı. Qoçuların, başıpozuqların əl-ayağını yığışdırdı. Onun sərtliyi, məğrur səsi yaramazların hamısını elə bil zərərsizləşdirdi. Ev yaranlar, oğrular yoxa çıxdı. Ona Kosalardan Süleyman uşağı, Salahlı bəyləri, Söyünbəyli Söyünağa, Kəsəmənli Hacan, Alsöyün, Molla Zal uşağı çox kömək elədilər. Koxa Sınıq körpüyə gözətçi dəstəsi qoydu. Bütün Qazax sərhədləri möhkəmləndi. İcevan, Dilican tərəfdən bəd xəyala düşən bir erməni başını qaldırıb bəri baxa bilmirdi. Özünə güvənən cavanları səfərbər edib sərhəd kəndlərinə göndərdi.

Məmməd Koxanın şərti belə idi: kim Qazağı dağıtmaq xəyalına düşsə, əlində oğurluq tutulsa, güllələdəcəm. Özgə cür mümkün də deyildi. Başıpozuqların, yetim malı yeyənlərin, ev yaranların və bir neçə bəyin gözü bunları götürmədi. Çünki onların atişləməz yollarını Məmməd Koxa bağlamışdı. Belə olanda onlar gürcü menşeviklərinə yaltaqlanaraq, torpaq iddiasını irəli atdılar. İki polk, top və silahlı əsgər gətirdilər. Bir bəy və bir uçitel Qazağa yiyələnmək istədi.

Bizim kənddən bu döyüşdə gürcülərə qarşı Mahmud Qaragözoğlu, Seyidoğlu Mikayıl, Avdı Mahmudoğlu, İlya Osman oğlu, Həmid bəy Məmmədoğlu igid kimi vuruşurdular. Mən, İlya Osmanoğlunun dəstəsində döyüşürdüm. Yazbaşı, taxılın sünbüllənən vaxtı idi. Gecə Ağstafa çayını keçib kəndə gəldik. Həmid bəynən İlya çox fikirli idilər. Sabah kəndə hücum gözlənilirdi. Axşam üstü Ürkməzli bozunda, Məhəd bəyin təpəsi deyilən yerdən gürcü qoşunu top atəşinə başladı. Əsas hədəf Məmməd Koxanın imarəti idi. Tüfənglə qabağını alammadıq, bizim topumuz yox idi. Evdən arvad-uşağı çıxardıq. Koxa salahlılı Annax bəyə və Xanoğlu İsmayıl ağaya pənah apardı. Bir para nanəciblər evinə basqın eləyib, var-dövlətini dağıtmaq istəyirdi. İsmayıl ağa qoymadı. Dedi ki, Koxa yoxdu, onun hörməti-izzəti burdadı. Kim irəli yerisə güllələyəcəyəm. Koxanın heç nəyinə toxunmadılar.

1914-cü ildə Məmməd Koxanın kəndə bulaq çəkdirməyi də çox yaxşı yadımdadır. Qazıntı vaxtı bulağın gözündən iri bir qaya çıxdı. Usta dedi ki, bu sal qaya çıxarılsa su bütün kəndə bəs eləyər. İki qardaş - Səməd və Əsəd Qurbanoğlu daşı çıxartdılar. Məmməd koxa onların hərəsinə bir sağmal inək bağışladı...

Sonralar Şura hökuməti Məmməd Koxanı incitməkdə çox haqsız iş gördü. O, yetimlər atası, elin oğlu, obanın ağsaqqalı idi. İndinin özündə də bizim Daş Salahlını Məmməd Koxa kimi igid, xeyirxah kişiyə görə tanıyırlar.

Doxsan dörd yaşım var, bir ayağım gordadı. Yalan danışa bilməyəcəyəm. Koxanın özünə layiq, özü kimi də igid, qorxmaz oğlu vardı. Bu günə qədər Həmid kimi əla tüfəng atana, cəld igidə rast gəlməmişəm. O, savadlı bir zabit idi. Yazbaşı taxıllıqnan kəndə gələndə Həmid bəylə yanaşı gedirdik. Mənə elə gəlirdi ki, Həmid bəyin yerişindən, zəhmindən yer titrəyir...

NAMUSLU DÜŞMƏN

Yazımızın əvvəlində Məmməd Koxa haqqında xalq şairi Mirvarid xanım Dilbazidən epiqraf verdiyimiz onun şifahi söhbətindən deyil. Mirvarid xanım da o döyüşlərin şahididir. O, həmin hadisələrdən “Namuslu düşmən” adlı xatirə-hekayə də yazıb (Bax. M.Dilbazi “Abşeron bağlarında” kitabı, Bakı, 1984-cü il, səh,61).

Xatirə hekayənin məzmunundan məlum olur ki, hürriyyət vaxtı Məmməd Koxa ilə Mirvarid xanımın babası Mustafa ağanın yeniyetmə əmisi oğlanları arasında qan davası duşür. Qan düşmənçiliyinin həmişə əleyhinə olan, kəndin hörmətli ağsaqqallarından biri Mustafa ağa tündməzac, ehtiraslı cavanları yola gətirə bilmir. Hər iki nəsildən ölən və yaralananlar olduğuna görə düşmənçiliyin kökü daha da dərinləşir. Musavat dövründə isə Hacı Kərim Sanılı Gürcüstandan gətirdiyi qoşunun köməyi ilə Məmməd Koxanın evini top atəşinə tutur.

Onda atam ölmüşdü, biz babamgildə idik. Top güllələri tez-tez Avey dağa da gəlib çatır, dağı söküb dağıdırdı.

Belə vəziyyətdə arvad-uşağın ələ keçməməsi və top atəşilə məhv edilməməsi üçün Məmməd Koxa qohumlarını başına yığıb deyir:

- Namussuz dostdan namuslu düşmən yaxşıdı. Mustafa ağa düşməndir, lakin namusludur.

Məmməd Koxa arvad-uşağını və evdə qiymətli nə varsa arabalara yüklədir. Bu hadisə mənim yadımdadır.

Axşam şər qarışmışdı. Bir də gördük qapımızda arabalar dayandı. Arabalarda al-şal içində qızlar, ahıl arvadlar bər-bəzəkli oturmuşdular. O biri arabalarda xalı-zili, ev avadanlığı yüklənmişdi.

Əhvalatı gələnlər babama, nənəmə danışıb dedilər:

- Məmməd Koxanın ailəsidi.

Arvad-uşağı hörmətlə qarşılayıb, onları qonaq otağına apardılar. Gətirdikləri əşyaları da himayə etdilər. Arabaçıları da yedirtdilər. Dərhal qoyun kəsildi, samovar buğlandı. Arvadlar ağlaşırdılar, nənəm onları sakit etdi.

Bir neçə gündən sonra ara sakitləşdi, gələnlər ehtiramla yola salındı, keçmiş kişiləri mən belə xatırlayıram".

Mirvarid xanımın kiçik xatirə hekayəsində hadisə real verilib. Buna söz yoxdur. Lakin qoy, anamız Mirvarid xanım bizdən inciməsin, onun bircə cümləsinə iradımız var: "Məmməd Koxanın bir sözündən inciyib, özünü təhqir edilmiş hiss edən Hacı Kərim Sanılı günlərin birində yaxın məsafədən onun evini top atəşinə tutdurdu".

Məmməd Koxanın evi Sanılıya dediyi təhqiramiz sözə görə topa tutulmayıb. Aravuran casuslar Sanılıya demişdilər ki, Qazaxdan çıxan Məmməd Koxa Daş Salahlıdakı evinə yenidən qoşun yığır. Ona görə də Sanılı Koxanın evini atəşə tutdurdu. O vaxtlar sol menşevik partiyasının üzvü Hacı Kərim Sanılı gürcülərin köməyi ilə Qazaxda qubernator oldu. Amma bu vəzifənin ömrü onun üçün çox gödək oldu. Ay yarımdan sonra türklər gəldi. Yerli əhalinin tələbi ilə türklər Sanılını vəzifədən azad edib yenidən Məmməd Koxanı Qazağa qubernator təyin etdilər.

Gürcülərin birinci hücumunu qubernator Məmməd Koxa 1918-ci ilin yazında Sınıq körpünün yanında Şıxlı, Salahlı, İncə dərəsinin say-seçmə igidləri ilə geri oturtdu. Bu döyüşdə İncəli Uzun Allahverənin, kosalardan Müseyib Məşədi İbrahim oğlunun, Orta Salahlıdan Mədəd bəy Annax bəy oğlunun, Şıxlıdan Tomtu oğlu Əmiraslanın, Qara Məşədinin, Qiyas bəy Şıxlinskinin, Körpülüdən Süleyman ağa Naziroğlunun və başqa igidlərin süvari dəstələri xüsusilə fərqləndilər. İkinci dəfə dəmir yolu ilə hücuma keçən menşevik zirehli qatarının qabağını Soyuqbulaq stansiyasında ağac kötükləri ilə kəsib, əsgərləri tərksilah etdilər. Bir nəfərin belə burnunu qanatmadan geriyə -Tiflisə qaytarırlar. Üç yüz nəfərlik menşevik alayı Tiflisə tərksilah olunmuş, üzü qara, gülünc vəziyyətdə qayıdır. Bu, menşevik hökumətini bərk qəzəbləndirir.

Üçüncü hücumda qoşunun sayı artırılır. Bir neçə xırda çaplı yüngül "Don" markalı toplar əlavə olunur. Bu dəfə hərbi eşalonu arxadan köməkçi topçu zirehli qatar da müşayiət edir. Qoşuna daha təcrübəli gürcü menşevik zabitlərinin

komandanlığı tapşırılır. Sanıoğlunu, Tat Əbdüləlini, Kəsəmənli Taharı da onlara qoşub bərk-bərk tapşırırlar ki, gürcü zabitlərini qoruyun, gərək onlardan birinin belə burnu qanamasın. Hərbi eşalon o taydakı Salahlı stansiyasına çatıb dayanır. Top və pulemyotların lülələrini Kür sahilindəki binələrə tuşlayıb, həyəcanla fit verirlər. Danışığa gələn nümayəndələr tələb edirlər və şərt qoyurlar ki, on gün əvvəl eşalonu tərksilah edib aldığınız silahları qaytarın, yoxsa binələri yerlə-yeksan edəcəyik. Onlar şərtə əməl olunmadığını görüb Ağstafa tərəfdən hücuma başlayırlar...

İllər keçib, milli qürurlu Məmməd Koxanın ərazi iddiası üçün yanına gələn gürcü nümayəndələrinə verdiyi sərt cavabı qazaxlılar hələ də zərb-məsəl kimi danışırlar.

Məmməd Koxa onlara demişdir:

- Sizin Tiflis menşeviklərinin atının üzəngisini basmağa bizim təhərimiz yoxdur. Buna qeyrətimiz yol vermir. Biz göstərişi özümüzün Musavat hökumətimizdən alırıq. Bizə göstərişi Bakıdan və Gəncədən verirlər, Tiflisdən yox.

- Bəs Nadir şahın fərmanı? Ona əməl olunmalıdır...

- Elə bir fərman verməkdə Nadir şah çox böyük qələt eləyib, ata-babası ilə...

Gəlin sizə isnad verim,
Salahlıda Annax bəyi.
Kəsmək ona adət imiş
Hər qonağa bir inəyi.
Gecə-gündüz yığışmayıb
Süfrəsinin bol çörəyi.
Salahlı Məmməd Koxanın,
Əyilməyib nər biləyi.
Əyrilərə şılğam çəkib
Dolaşıb aşkara deyim[55]**.**

Gec də olsa gəlib çıxan aşkarlıq sübut elədi ki, tarixdə elə faktlar, hadisələr var ki, onları yazmaq üçün müəyyən müddət gözləmək lazımdır. Dövr, zaman tarixi faktı təsdiq eləməlidir. Əhvalatlar,
hadisələr olduğu kimi işlənəndə sənədli əsər ölmür, əhəmiyyətini itirmir. Olub keçmiş hadisələrə bu günün gözü ilə yox, məhz olan vaxtın ab-havası ilə baxmaq daha yaxşıdır. Quruluş xatirinə onu öz zamanından, dövründən qopardıb şişirtmək, tənqid və təhrif etmək ən azı insafsızlıqdır.

Dahi Lev Tolstoy nahaqdan yazmırdı ki, mən tarixi faktları qələmə alanda, xırda təfsilatlara qədər həqiqətə sadiq qalmağı sevirəm. Bu mənada Mixail Şoloxov cəsarəti bir çox sənədli əsər yazan yazıçılara nümunə olmalıdır. O, məşhur "Sakit Don"u yazanda kommunistlər - Stalin və Beriya kimi əcdaha "senzorlar" hakimiyyətdə ola-ola əsərində bolşevikləri güllələdi. Bu olmuş faktlar müəllifə baş ağrısı, ağır sarsıntılar qismət elədisə də "Sakit Don" misilsiz tarixi əsər kimi dünya ədəbi xəzinəsinə daxil oldu.

---

[55] Bənd el şairi Qulu çaylının "Deyim" müxəmməsindəndir.

“Hacı Kərim Sanılı Gürcüstandan qoşun çəkib” - xəbərinə Məmməd Koxa inanmadı. “Balağı açıq müəllim hara, qoşun hara? - deyə güldü. Lakin xəbər səhihləşəndə “komurnat”ın fikrindən keçdi ki, Hacı Kərimə yəqin, Ağamalıoğlu kömək edib. Bu işdə Əliağa Şıxlinskinin də əli olmamış olmaz... Yoxsa bu baldırıaçıq “uçitelə” heç kim etibar edib əsgər verməzdi”. O, müxtəsər məktub yazdırıb Sanıoğluna göndərdi. Məktubda yazmışdı ki, Zəyəmdən o üzü sənə verirəm. Qazaxdan gözünü çək. Qoşunu qırdırıb özünü gülünc eləmə. Dilicandan Mesrop bəy min atlı ilə köməyə gəlib, İrəvandan Xatisov topxana və iki alay qoşun göndərib”.

Bu kiçik epizod mərhum yazıçımız Nəsib Əfəndiyevin “Qızıl quşa atılan güllə” sənədli romanındandır. Burda bircə Ağamalıoğlunun menşevik olmağı düzdür. Qalanı qeyri-dəqiqdir: - Əliağa Şıxlinski həmin il, həmin vaxtlarda Azərbaycanda deyildi. O, Tiflisdə Azərbaycan korpusunu təşkil edirdi. Əgər Qazaxda olsaydı da, general Şıxlinski Sanılının tərəfində ola bilməzdi. Ona görə ki, onun mənsub olduğu Şıxlinskilər nəsli Məmməd Koxanın tərəfdarı idilər. Şəxsən qəza rəisi Cahangir bəy Şıxlinski öz namizədliyini geri götürüb, Məmməd Koxanın qubernator olmasını məsləhət bilmişdi. Sanılı ilə döyüşdə də o, Məmməd Koxaya yaxından kömək edirdi. İkincisi, Məmməd Koxaya nə Dilicandan Mesrop bəy min atlı, nə də İrəvandan Xatisov topxana və iki alay göndərməyib. Belə faktı Qazaxda heç bir qoca təsdiq eləmədi. Axı, biz o vaxtlarda da indiki kimi ermənilərlə düşmən idik...

Ədalət naminə demək lazımdır ki, burada müəllifi o qədər də günahlandırmağa haqqımız yoxdur. Nəzərə almaq lazımdır ki, Nəsib Əfəndiyev əsərini aşkarlıqdan əsər-əlamət olmayan bir dövrdə yazıb, 1983-cü ildə isə çap etdirib. Bu o vaxtlar idi ki, qubernatoru, bəyi, xanı, koxanı müsbət obraz kimi vermək qeyri-mümkün idi.

Əsərdə belə bir cümlə var: “O, (**H.Sanıyev - Ş.N.**) Məmməd Koxanın çapoçularından Qazax mahalını təmizləmək üçün belə qərara gəlmişdi”. İnanıram ki, burada da qubernator vəzifəsi, koxa titulu, koxa sözü Məmməd Koxanın başına qaxınc olub. Hazırda Qazaxda, Daş Salahlıda yaşayan qocaların heç biri Məmməd Koxanın döyüşçülərinin “çapoçular” olduğunu təsdiq etmirlər. Əksinə, onlar haqqında el qeyrəti çəkən, torpaq uğrunda vuruşan mərd igidlər kimi danışırlar. Torpağını, obasını gavura vermək istəməyən igidlər görəsən niyə “çapoçu” olublar?

Bütün bunlara baxmayaraq, Məmməd Koxa şəxsiyyətinə tənqidi yanaşan müəllif onu müsbət obraz, igid el başçısı kimi təsvir etmədən ötüşə bilməyib.

“Məmməd Koxa əlini çənəsinə dirək verib fikrə getdi. O, qarayanız, hündür-boy, cüssəli və zəhmli bir adam idi. Əynində gümüş vəznəli çərkəzi çuxa, ayağında uzunboğaz çəkmə, başında buxara papaq; həmişə qaşqabaqlı olan Məmməd Koxanın iri gözləri indi daha qorxunc görünürdü. Təpədən dırnağa silahlı idi. Başını ülgüclə qırxdırmış, qara, qalın bığını yatımına sığallamışdı”.

Tarix elmləri namizədi, ağsaqqal tədiqatçımız Teymur Miralayev Gəncə-Qazax qırmızı partizanlarının inqilabdan əvvəlki fəaliyyətindən iki kitabça çap etdirib. 1963 və 1970-ci illərdə çap olunan hər iki kitabçada Teymur müəllim xırda

bir epizodu təkrar verib, istehza ilə Məmməd Koxanı “güclü qolçomaq”, “istismarçı” adlandırır.

1916-cı ilin avqust ayında başının dəstəsi ilə Daş Salahlıdan Qazağa gedən Məmməd Koxanı əsgərlikdən qaçan Aslan İsgəndəroğlu və Nəbi Əli oğlu tikanlıqdan atdıqları güllə ilə yüngül yaralayırlar. Əvəzində Məmməd Koxa ona güllə atan Nəbi Əli oğlunu vurub öldürür, Aslan İsgəndəroğlu isə qaçaq düşür.

Çox maraqlıdır, əsgərlikdən qaçan, vergi verməkdən imtina edən, üstəlik də yolunu kəsib ona qəsd etmək istəyən adama Məmməd Koxa bəs nə eləməli idi? Müəllifin zorla “qırmızı partizan” adlandırdığı Aslan İsgəndəroğlunu bir il keçməmiş - 1917-ci ilin fevralında Salahlı qaçağı Matus öldürdü. Atalar demişkən, su çanağı suda sındı.

Tale məni bir təsadüfdən gözəl maarif xadimi Vəli ağa Dilbazi ilə 1983-cü ildə Bakıda görüşdürəndə sevincimin həddi-hüdudu olmadı. Ömrünün son illərini yaşayan bu qoca mənim axtardığım adam idi. İlk dəfə Həmid bəyin 1913-cü ildə çəkilmiş fotoşəklini də onda gördüm. Üzünü çıxartdırıb özümdə indidə yadigar saxlayıram. Hələ o vaxtlar hiss eləmişdim ki, vaxt gələcək, Həmid bəyin faciəsini yazmağa imkan düşəcək. Yetmiş il Həmid bəyi “xalq düşməni” zənn edənlərin acığına aşkarlığın işığı onun qaranlıq taleyinə gec də olsa şəfəq saçdı.

Rəhmətlik Vəli ağa Dilbazi gimnaziya illərindən danışanda tez-tez köksünü ötürər, iri ala gözlərini üzümə zilləyib sükuta dalardı. O, bəylərə məxsus bığlarını fikirli-fikirli qurdaladıqca sanki sözünə, danışdığı əhvalatlara da sığal verirdi.

- Həmid bəy də yada düşərmiş, nə vaxtsa yazdıqlarını oxuyan olacaqmı? - Sinədolusu nəfəs alıb əlavə elədi. Heyif səndən, Həmid bəy. Səksən yaşı ötürmüşəm, hələ onun kimi cəsarətli oğul görməmişəm.

Həmid bəy birinci klassik gimnaziyasında oxuyanda əvvəlki tanışlığımız dostluğa çevrildi. Mən üçüncü klassik gimnaziyasında oxuyurdum. İkimiz də Mariya Vasilyevna Obolonskayadan fransız və rus dillərində əlavə ev təhsili alırdıq. Bu qadın Məmməd Koxanın tanışı idi. O, bizim hər ikimizi gimnaziyaya qəbula hazırlaşdırmışdı. Həmid bəy iti zehinli və qoçaq bir cavan idi. Rus və gürcü dillərini mükəmməl bilirdi.

Obolonskayanın çox mahir dərs keçməsi vardı: Zadəgan nəslindən olan bu yaraşıqlı qadın sözləri və cümlələri avazla, xüsusi ahənglə tələffüz edərdi. Həmid bəy onun bircə deyimindən hər şeyi qavrayıb özününkü edərdi.Mənə isə iki-üç dəfə təkrar söylərdi. Bir dəfə heyrətini gizlədə bilməyən Mariya Vasilyevna dedi ki, fəxr edirəm, Həmid bəy kimi yetirməm var. Heyif ki, tatardır (**Azərbaycanlı - Ş.N**.). Gimnaziyanı qurtarandan sonrakı əzabını indidən duyuram. Bunu başa düşməyəcəklər. Həmid bəy də od olub özünü yandıracaq. Onda böyük şəxsiyyətlərə məxsus inadkarlıq görürəm.

Həmid bəy o vaxt söhbətlərində tez-tez Mirzə Hüseyn Əfəndi Qayıbovun, Firudin bəy Köçərlinin, Məmmədağa Vəkilovun, İbrahim ağa Vəkilovun, İsa bəy Abakarovun adını çəkər, onlarla görüşlərindən danışardı. Heç vaxt hakimiyyətə inanma, o fahişə qadın timsallı bir məxluqdur - deyərdi - elə ki, dediyini eləmədin boz üzünü göstərəcək. Ayağı çarıqlı kəndlinin etibarı daha çoxdu, nəinki, xrom çəkməli qrafın, knyazın, dövlət məmurunun...

1920-ci il mayın 22-dən 30-dək olan Gəncə qiyamında Həmid bəy Musavat zabiti kimi iştirak etmişdi. Qiyam iştirakçılarının çoxusu rus və erməni terrorunun təzyiqindən qorunmaq üçün xaricə getdi. Həmid bəy isə Qazağa gəldi. Çox keçmədi, onu həbs edib Bakıya apardılar. Bir ay keçmədi qayıdıb gəldi...

KİM OLSA DA, QONAQDI...

1919-cu ilin sentyabrında bolşevik Əliheydər Qarayev qəzada kəndli qurultayı keçirmək üçün Qazağa gəlir. Meydanda çıxış edib deyir ki, möhtərəm kəndlilər, xəbəriniz varmı, Rusiyada fəhlə-kəndli qardaşlarımız inqilab edib, mülkədarın torpağını, sahibkarın zavod, fabriklərini özlərinki eləyiblər?

Yerlərdən:

- Bəli, xəbərimiz var - deyə, cavab verirlər.

- Bəs onda siz kimi gözləyirsiniz, kim gəlib varlıların əlindən torpağı alıb sizə verəcək? deyir.

Bu, bir para Qazax ağa və bəylərinin qəzəbinə səbəb olur. Onu kürsüdə çıxış edərkən vurmaq istəyirlər, amma nədənsə ehtiyat eləyirlər. Onsuz da bu bolşevik Qarayev gecə qatarına minmək üçün Ağstafaya gedəcək, yolda qətlə yetirərik deyirlər.

Bunu Məmməd Koxa eşidir. “Kim də olsa, qonaqdı, onu öldürmək obanın adına ləkə gətirər”, - deyə, etiraz edir. Bir neçə etibarlı adamla bolşevik Qarayevi Tovuza göndərir. - Aparın, çıxardın, bizim obadan o tərəflərdə başına nə gəlir-gəlsin, amma bizim eldə qonaq qanı axıdılmasın. Həmid bəy Gəncə qiyamına görə həbs olunanda yeri dara düşən Məmməd Koxa ona əl boyda bir kağız göndərir. Bu yaxşılığı unutmayan Əliheydər Qarayev Həmid bəyi həbsdən azad elətdirir. Qarayev rəsmi kağız da göndərmişdi ki, ona Qazax qəza hərbi komissarlığında iş verin. Mən də o vaxt hərbi komissarlıqda işləyirdim. Birgə işlədik. Həmid bəy bütün günü Qızıl Ordudan nifrətlə danışardı. - Bu - deyərdi, - Qızıl yox, qəlp ordudur, talançı ordudur, qan tökən, istilaçı ordudur. Mən özüm şahidəm, Samur çayını keçəndən sonra XI Qızıl Ordu bizim xalqın başına nə müsibətlər açdı. Dinəni yerində güllələdi. “Qalib qızıl ordu” Bakını alandan sonra bir həftə talançılıqla məşğul oldu. Evlərə girib ana və bacılarımızın qulağından sırğanı, barmağından üzüyünü zorla çıxardır.

Həmid bəy Şura hökumətinə zərrəcə inam gətirmirdi. Mən yeni quruluşu tərifləyib, müdafiə edəndə sərt-sərt üzümə baxıb deyərdi:

- Yaxşı, sən Allah, bəsdi, az tərifə, görünən dağın dibi yaxındır. Sənin də başını bişirib yeyəcəklər. Amma Vəli ağa, mən Şura adlı hökumət tanımıram, ona da qulluq etməyəcəyəm. Mən bir hökumət tanıyırdım, ona da az-çox zabit kimi qulluq etmişəm. O da Azərbaycan Xalq Cümhuriyyəti idi.

İyirmi gün keçmədi, ipə-sapa yatmayan Həmid bəy yoxa çıxdı. Sorağı Qarayazı meşəsindən, Ceyrançöldən gəldi. Sonralar iki dəfə tutdular. Birində Şəkərin qalasından, o birində isə Bakıdan qaçdı. Bakı qalasını bilmirəm, amma Şəkərin qalasından qaçmaq hər oğulun işi deyildi. Bu sərt rejimli qaladan indiyədək cəmisi üç dustaq qaça bilib: 1914-cü ildə Orta Salahlı kəndinin sakini

Cahangir Kərim oğlu, 1920-ci ildə Kosalar kəndindən Müseyib Məşədi İbrahim oğlu. Həmid bəy sonuncu oldu...

MƏZƏM ƏHVALATI, OPERASİYA İLLƏRİ

1926-cı ildə təqib olunan Məmməd Koxa qardaşı Avdını və Hasanı da götürüb Türkiyəyə pənah aparır. Koxa hiss eləmişdi ki, güclü tufan gözlənilir. "Operasiya əməliyyatı" Qazağa və onun kəndlərinə də ayaq açmışdı. Nəsli bəy olanların, şuralaşmadan qabaq yüksək vəzifə daşıyanların, çar və musavat ordusunda qulluq edənlərin "səsi alınır", var-dövləti talan olunurdu. Gecənin bir vaxtı yerli milislərin köməyi ilə Qızıl Ordu əsgərləri kəndi mühasirəyə alır, zərrəcə şübhələndiyi adamları bir yerə toplayıb xəncəri, tüfəngi təhvil verməyi tələb edirdilər. Bəzilərini "troykanın" aktı ilə kənddə güllələyirdilər. Nə məhkəmə, nə də prokuror sorğu-sualına ehtiyac qalmırdı. Aslanbəylidə Nəcəfoğlu Mahmudu, Kosalarda Nəbi və Müseyib Məşədi İbrahim oğlunu, Poyluda Hacan Əbdülkərimoğlunu, Salahlı, Əskipara, Çaylı, Allout kəndlərində "troyka" çox belə günahsızları güllələdi. Onların ailələrini Qazaxıstana və Sibirə sürgün elədi.

1929-cu ildə Türkiyədən qayıdan Məmməd Koxa da belə bir odun-alovun içinə düşdü.

Məmməd Koxanın qardaşı oğlu Əvəz Mahmudov:

Doğru deyib atalar, uşağın yadından heç nə çıxmaz. Onda on altı yaşım vardı. O faciəli günlər yadımda apaydın qalıb.

1931-ci il fevralın birində şiş papaqlı əsgərlər səhər tezdən kəndimizi mühasirəyə aldılar. Ev-ev gəzib silahları yığdılar. Camaatı kənd meydanına topladılar. Atamı axtardılar, tapmadılar. O, çöldə, kolxozun pambıq yerində işləyirdi. Atlı əsgərlər çaparaq gedib onu atdöşü meydana gətirdilər. Camaatın arasından dörd nəfəri - atam Avdını, Nəziroğlu Abdullanı, Hacırəhimağa Miralayevi və Alı ağa Vəli ağa oğlu Halaybəyovu ayırdılar. Məmməd Koxanın tikdirdiyi məktəbin divarına qasnadılar.

Komandirləri dedi ki, Koxanın qardaşı Avdı bunları başına yığıb hökumət əleyhinə danışdığına görə "xalq düşməni" kimi güllələnirlər.

Atam bircə bunu dedi ki, ay camaat, haqsızlırın, yalanın özünüz şahidisiniz. Sizdən bircə təvəqqim var, axirət haqqımı halal eləyin.

Mən dözə bilməyib atamın əl-ayağına düşdüm. İri gövdəli bir soldat məni caynağına alıb qırağa elə atdı ki, ağrıların yeri indi də gizildəyir.

Onda əmim Məmməd Koxanı Sibirə sürgün eləmişdilər. Nəslimizin faciəsi bununla qurtarmadı. 1932-ci ildə əmim Mehdi ağanın iki oğlunu - Hüseyni və Əsədi günün-günorta çağı Qazaxda məhkəməsiz güllələdilər. Oruc əmimin oğlu Mahmudu, Koxanın qızı Badını, kürəkəni İlyası, bacısı oğlu Qara Vəlini, əmim Mehdi ağanı ailəlikcə sürgün elədilər. 1941-ci ildə növbə mənə çatdı. Səbəbi də bu oldu ki, əmin Məmməd Koxa Qazax qubernatoru olub, atan "xalq düşməni" kimi güllələnib. Mən 1947-ci ildə sürgündən qayıtdım. Amma əmim Mehdi ağanın ailəsindən bir nəfər belə qayıtmadı.

Yadımdadır, 1929-cu ildə sürgün edilən əmim Məmməd Koxa 1933-cü ildə gəldi. Şux yerişli, dolu bədənli Məmməd Koxadan heç bir nişanə qalmamışdı. Kişi

bərk qocalmışdı, dərd onu içəridən yemişdi. Vaxtilə xrom çəkmə, gümüş vəznəli çərkəzi çuxa geyinən cüssəli əmim indi daş kimi ağır kerzi sapoqda, nimdaş sırıqlıda camaat içinə çıxmağa utanırdı. Nəslinin darmadağın olduğunu görüb lap bihuş olmuşdu. Durub-oturub ağlaya-ağlaya Həmid deyirdi. Qocalar onu inandırmağa çalışırdılar ki, Həmid sağ-salamatdı, Türkiyədə yaşayır. O isə inanmırdı:

Siz yalan deyirsiniz, - Həmid sağ olsaydı, qardaşım Avdını güllələməzdilər, - deyirdi.

1933-cü ilin payızında huşunu tamam itirdi, ürəyi partlayıb öldü.

Əvəz əmi, dedim, necə olub ki, sürgündən Məmməd Koxanı vaxtından əvvəl buraxıblar?

Bunun da səbəbi var, oğul, yenə Məmməd Koxanın səxavəti, vaxtilə elədiyi yaxşılığı, halal tikəsi orda da ovsanata keçib. Əmim özü danışırdı ki, sürgün yerinə çatan günün səhərisi hamını cərgəyə düzüblər. Qalabəyi polkovnik onlarla tanış olmağa gəlir. Bir-bir hamıya baxa-baxa keçəndə əmimin qarşısında ayaq saxlayır. Ona diqqətlə baxıb yanındakı yavərinə:

Bu kişini mənim kabinetimə apar, deyə əmr edir.

Əmim qorxuya düşür. Polkovnik gələnə qədər ürəyini yeyə-yeyə onun kabinetində oturub gözləyir. Bir azdan içəri girən polkovnik:

Koxa, sən hara, bura hara, bu nə ağır səfərdir?

Əmim çaşıb qalır. Matı-mutu qurumuş halda polkovnikə baxır, amma bir şey anlaya bilmir.

Polkovnik gülümsünüb:

- Deyəsən məni tanımadın, yaddaşını bir yoxla, - deyib tanışlıq verir - 1915-ci ildə Tiflisdə mənə elədiyin yaxşılığı nə tez unutdun? Biz sənlə duz-çörək kəsmişik. Səhərə qədər davam edən məclisin haqq-hesabını da sən verdin, dostları nə tez unutdun, Məmməd Koxa?

- Məndə indi dost tanımağa hal qalmayıb.

- Fikir eləmə, müdrik bir Azərbaycan məsəlində deyilir ki, igidin başı qalda gərək. Tale bizi gör harda görüşdürdü. Hər halda xətrinə dəymərik, nə qədər mən burdayam, hörmətini saxlayacağam. Çalışarıq sağ-salamat qayıdasan.

Xeyirxah polkovnik, əmim Məmməd Koxanı mətbəxdə baş aşbaz təyin edir. Bir gününü üç gün yazıb, dörd ildən sonra onu buraxdırır. Əmim Kazan şəhərinə gəlib çıxır, biletini alıb stansiyada qatar gözləyirmiş. Burda bir nəfər ağlaya-ağlaya dilənçilik edirmiş, canıyanan əmim onu yanında oturdub pul-para verir. Dilənən deyir ki, dustağam, buraxılmışam, pulum yoxdu ki, bilet alıb evimə gedəm. Əmimin yazığı gəlir, ona da bilet alır, birgə yola düşürlər. Yol boyu əmim buna öz faciəsini, polkovnikin ona yaxşılırını, sürgündən də pullu-paralı sağ-salamat qayıtdığını açıb danışır.Üç sutka yol gəlirlər. Gecə su üstünə çıxan əmim qayıdıb görür ki, nə bilet aldığı yol yoldaşı var, nə də özünün çamadanları. Namərd, əmimin nəyi varsa, oğurlayıb aradan çıxır. Əmim bu əhvalatı danışanda bərk sarsıntı keçirərdi, yana-yana: “Niyə insanlar korlandı, - deyərdi. İyirminci ildə var-dövlətimi, mal-qaramı Şura hökuməti alanda heç belə sarsılmadım”.

“Troyka”nın dalınca “Məzəm iclası” başlandı. Qəfil iki nəfər Məzəm kəndində peyda oldu. Özlərini Bakıdan ezam olunmuş türk nümayəndələri kimi

təqdim etdilər. Məzəmdə oturub təbliğata başladılar ki, yaxın vaxtlarda Türkiyə ilə müharibə olacaq. Müharibədə Türkiyə qalib gələcək, Azərbaycanı gavur dövlətinin caynağından xilas edəcək. Kəndlərə təbliğatçılar göndərirdilər ki, kim hansı silahı almaq istəyir, üzərinə hansı vəzifəni götürürsə "Məzəm iclası"nın üzvü olsun.

Xoşbəxtlikdən iclasın üzvlüyünə yazılan olmadı. Az sonra məlum oldu ki, bu, şura hökumətinin sınaq təbliğatı imiş. Şura hökuməti bilmək istəyirmiş ki, Türkiyəyə rəğbət bəsləyənlər kimlərdir. Ezam olunanlar da, Bakıdan yox, Yerevandan gəlmə, vaxtilə Türkiyədə yaşamış erməni daşnaklarıdır.

"Məzəm iclası"nın üstünü açan iki erməni qaçağı oldu. Daş Salahlı qaçaqlarına sığınan qaçaq Vanoy və Hampoy God kəndində şəxsi düşmənlərini öldürüb qaçaq düşmüşdülər. Müsəlmanlara tələ quran da onların qan düşmənləri imiş.

HƏMİD BƏYİN ÖLÜMÜ

Şura hökuməti qurulandan sonra Həmid bəy ona tabe olmaq istəmədi. Dövlət orqanlarının heç bir təklifini qəbul etmədi. Heç kəsə toxunmur, qabaq kəsib soyğunçuluq da etmirdi. O, yalnız ona hucum edən erməni milis dəstəsinə və ona toxunanlara qarşı vuruşurdu.

Əhməd ağa PAŞAYEV.

Yeni gələn şura hökuməti Azərbaycan Demokratik hökumətinin əsgər və zabitləri ilə çox amansız rəftar elədi. Bakıya girən "azadlıq" ordusu Milli Ordunun 12 generalını, 48 zabitini və çoxlu sayda əsgərini 1920-ci il mayın 25-də məhkəməsiz güllələtdi. 600-ə qədər zabiti olan Azərbaycan ordusunu bolşevik istilası pərən-pərən saldı. Onların əksəriyyəti İrana, Türkiyəyə, Almaniya və Fransaya qaçmağa məcbur oldu. İmkan tapıb qaça bilməyənləri Sibirə, Qazaxıstana və Solovetsk adalarına sürgün elədilər.

1920-ci ildə polkovnik Rüstəm ağa Şıxlinski günahsız güllələnəndə Həmid bəy şura hökumətinə inamını tamam itirdi. O, İrana keçdi. Diviziya komandiri, general-mayor Cavad bəy Şıxlinski ilə görüşdü. Cavad bəydən öyrəndi ki, atası Məmməd Koxa Türkiyənin Sarıqamış mahalındadır. Atasının yanına gəlib xeyli birgə yaşadılar. Bu vaxt Sovet hökuməti ölkədən qaçanların bağışlanması və əfv olunması haqqında fərman verdi. Bu fərman Vətənə qayıtmaq həsrətilə üzülən Məmməd Koxanın ürəyincə oldu. Amma oğlu Həmid bəy qayıtmağa razılıq vermədi.

- Ata, - dedi, - sən koxa da olmusan, general-qubernator da, amma nəsli-nəcabətinlə rəiyyətsən. Qayıdıb kənddə əkin-biçininlə məşğul olsan, bəlkə də şura hökuməti sənə dəyib-toxunmaz. Unutma ki, mən musavat zabitiyəm, dövlətə, yeni hökumətə qarşı qiyamçı olmuşam. Yeni hökumət mənə Gəncə qiyamında elədiklərimi bağışlamaz. Bir də bu fərmandakı əfv olunmaya heç inanmıram. Səncə, bu, sənin, mənim kimisini çağırıb yenidən tora salmaq deyilmi? Gedin,

əmim Avdı da gedir, uğurunuz xeyir olsun, yenə deyirəm, amma ehtiyatlı olun, bu bağışlanmadan heç gözüm su içmir. Bu, bolşevik bicliyinə daha çox oxşayır.

Məmməd Koxa bir neçə yaxın adamı ilə geri qayıtdı. Həmid bəy isə Annaxoğlu Mədəd bəylə 1930-cu ilə kimi Türkiyədə qaldı. Az sonra Vətən, torpaq həsrəti onu da çəkib gətirdi. Onda Məmməd Koxa sürgün olunmuşdu.

Uzaqgörən Həmid bəyin gəlişi "operasiya əməliyyatı" illərinə, güclü təqib, tuthatut günlərinə düşdü. O, başının dəstəsilə qaçaq kimi gəzməkdən başqa çarə tapa bilmədi. Yenidən Avey və Odun dağları, Ceyrançöl düzənləri, Xanlıqlar meşəsi onun məskəni oldu. Tale onun cavan ömrünə nöqtəni bir təsadüfdən qoydu.

...Dustaq Məmməd Koxa nimdaş palazı yerə atdı. Dizlərini cütləyib aşağı çökdü. Namazını qılıb qurtardı. Ani olaraq başı aşağı sükutla dayandı. Birdən üzünü Allahın dərgahına tutub dua elədi.

- Pərvərdigara, - dedi, qürbətdəki bircə oğlumu hifz edib qoru, qoy onun qışı mülayim, yazı yağışlı keçsin. Cəlayi-vətən olanların, həbsxana küncünə atılanların, yetim-yesirin dadına yet. İlahi, bircə balamı, bütün məxluqatı şeytan şərindən, zənən məkrindən qoru.

Müdrik atanın xeyir-duası yeganə oğlunu 1932-ci ilin yayına kimi qoruya bildi.

...Onlar bir axşam Dağ Kəsəmən meşəsindəki Hacı Yusif ağanın yataq damlarına gəldilər. Yataq bom-boş idi. Yaylağa qalxan el Alpout yurduna, Dəlik daşın yanına düşmüşdü. İlyas o taya, Qarayazıya keçməyi məsləhət bildi:

- Gedək, dədə-babamızın Mehrab yatağına...

Həmid bəy etiraz elədi:

- Ora uzaqdı, uşaqlar yorulub, əldən düşüblər. Həmdə oranı otryad bərk güdür. Bura meşəlik olduğundan erməni dəstəsi qorxusundan gecələr yaxın düşə bilmir.

Gecəni burda qalaq, səhər tezdən Dilbazilər meşəsinə çəkilərik.

Gecə yarısı gözətçi qoyulan Tapdığı bərk yuxu təntitdi. Aşağı bulağın üstünə enib, əl-üzünü yudu. Axarın aşağısında hörüklənmiş atlara baş çəkdi. Yuxarı qaşa çıxıb Avey dağına, Daş Salahlıya həsrətlə baxdı. Kənddə nöqtə boyda közərən bir-iki çıraq işığından başqa heç nə görə bilmədi. Oturan kimi yenə mürgülədi, yuxu ona aman vermirdi. Qayıdıb İlyası oyatdı. Yarıyuxulu İlyas gözlərini övkələyə-övkələyə:

- Abdullanı oyat - dedi, - o dözümlüdü.

- Əyə, insafın olsun, o yazıq ötən gecə də yatmayıb, dur, bir azdan dan ağaracaq, bir tikə çimir alım, gözlərim acışıb yanır...

İlyas tüfəngini götürüb çölə çıxdı. Yuxusunu dağıtmaq üçün damların arxasına keçib, sal qayanın çökəyindəki yağışdan qalma sudan üzünə vurdu.

Kəsik-kəsik at kişnərtisi eşidəndə əli havadan asılı qaldı. Təpənin aşağısında yəhərli-yüyənli bir at dayanmışdı. Səksəkə ilə ona baxan atın üstündə heç kəs yox idi. İlyas aşağı sindi. Arxasınca adam gəlib-gəlməyəcəyini gözlədi. At gah yeri iyləyir, gah da kəsik-kəsik qorxu ilə gümüldənirdi. O sinə-sinə bir tikanın dalından o birisinə keçdi. Atın qabağına durdu. Xırdaca bir daş atıb ona ərklə, sahibisayağı təpindi. Aşağıda İlyasgilin atlarından biri kişnəyəndə nabələd at onlara tərəf götürüldü. Atlar bir-birini imsilədi. İlyas ehtiyatla yaxınlaşıb pişik cəldliyi ilə onun

yüyənindən yapışdı. At bərk geri dartınıb ilan kimi fınxırdı, gözlərini bərəldib heyrətlə İlyasa baxdı. İlyas onu şirin-şirin muçqurdu, ehtiyatlı addımlarla yaxınlaşıb, oxşaya-oxşaya əvvəlcə üzünü, sonra yalmanını sığalladı. Cibindən bir tikə çörək tapıb ona uzatdı. Çörəyi yeyən at gərili ayaqlarını tamam boşaltdı. Çidar üçün boğazına dolanmış çatını açanda, ram olmuş at heç bir müqavimət göstərmədi. İlyas onu ağaca bağladı. Əyilmiş yəhərini düzəltdi, yəhərüstü zərif xalçaya yapışmış yabanı otları təmizlədi. Gözü xalçanın üstündəki əyri-üyrü yazıya sataşdı. Nə illah elədi oxuya bilmədi. Erməni atıdı - deyə fikirləşdi.

O, geri qayıdıb yoldaşlarını oyadanda artıq dan yeri ağarmışdı. Bulaqda əl-üzlərini yuyub atlandılar.

- Bu nə atdı, ay İlyas, kimindi? - Abdulla soruşdu.

Hamı yüyəni çəkib dan qaranlığında yad ata baxdı. Tapdıq lap yaxın gəlib:

- Bu at mənə tanış gəlir, - dedi, - qardaşlar, - bir az duruxub - Həmid, bu bilirsən kimindi, Ballı qaya kəndində özündən deyən bir dığa var - Cahan dığanındı bu at. Görünür, həftə bazarına gedirmiş, at onu yıxıb qaçıb.

- Düz deyirsən, bu gün də bazardı, ola bilər.

İlyas necə bir fəndlə atı tutmağını danışdı. Həmid bəy ona axıracan qulaq asmayıb:

- Nahaq tutmusan, - dedi - gərək buraxaydın çıxıb gedəydi, nəyimizə lazımdır?

- Həmid bəy, insafın olsun, belə ceyran kimi atı da əldən buraxmaq olarmı?

- Sonra da bütün obaya, elə səs yayılacaq ki, Həmidgilin dəstəsi soyğunçuluqla məşğuldurlar. Kimi inandıracaqsan ki, at öz ayağı ilə gəlib çıxıb.

Atları sürüb o taya keçdilər. Sola burulub, qalın meşədə görünməz oldular. Günəşin qızılı şüaları göyün ətəyini qızardanda Dilbazilər talasına çatıb çörəyə oturdular. Atları bir az aşağıda, talanın qırağında hörüyə açdılar. Həmid bəy üzü atlara tərəf oturmuşdu.

- İlyas, - dedi, - dığanın atı şeşələnib kəsik-kəsik kişnəyir, elə hey gümüldənir, heç otlamır. Ya qurd-quş görüb, ya da çöllüyə alışa bilmir.

Üzülmüş elə hey boylanır... İlyas oturduru yerdə geriyə dönüb, lağla, ata baxa-baxa:

- Əyə, bu köpək oğlunun atı niyə farağat durmur, bəlkə erməni dığası dalınca gəlib, ona gümüldənir.

Hamı gülüşdü. Atlardan gözünü çəkməyən Həmid bəy yerində dikəlib ayağa durdu. O, ayağa duran kimi iki güllə dalbadal açıldı. Həmid bəy əvvəl ombasını, sonra qarnını tutub iki qatlandı. İlyas çörək əlində heyrətlə Həmid bəyə baxdı. Cəld tüfəngi götürüb ayağa durdu.

Abdulla qışqırdı:

- Dığadı, odu, qaçır, - deyib gülləni-güllə dalınca ata-ata üzü aşağı endi.

Yaralı Həmid bəyi götürüb üzüaşağı endilər. Xeyli getdilər, qanı saxlamaq mümkün deyildi. Həmid bəy əlilə “dayanın” işarəsi verdi.

- Məni aparmağın xeyri yoxdu, - dedi. - Gecdi, qoyun rahatca ölüm... Doluxsunan İlyas aşağı əyilib onun üzündən öpdü, təsəlli verdi:

- Ay qağa, nədi danışdığın, ölüm nədi, zad nədi, bir az da aşağı enək, Cəfərlidən türkəçarə həkimlərdən birini gətirərik... Səndə heç nə yoxdu.

- Yox İlyas, gecdi. Ölümüm çox ucuz oldu... - Sağ əlini heysiz halda yuxarı qaldırdı. Ovcu al qan içindəydi. Son dəfə zorla gülümsünüb: - Sən Allah, dığanın ceyran atını kor Qəniyə ver, qoy minib kef eləsin, - deyib gözlərini yumdu.

1991-ci il, aprel

GENERAL CƏFƏR MƏMMƏDZADƏ

Bizim ki, atamız, anamız birdir,
Qəlbimiz, eşqimiz ayrı deyildir.
Düşdü qılınc kimi ortadan Araz...
Fəqət yaman günün ömrü çox olmaz.

Səməd VURĞUN

İllərlə azadlığa çıxmaq üçün dönmədən mübarizə aparan o taylı qardaşlarımız 1945-ci il dekabrın on ikisində Azərbaycan Milli hökuməti yaratdılar. Xalqı, ölkəni müdafiə edəsi kadrlar hazırlamaq üçün iki illik zabitlər məktəbi açıldı. Fədai dəstələri yenicə yaradılan Xalq qoşunları ilə birləşdi. Azərbaycan Milli hökumətinin Xalq Qoşunları Nazirliyi yarandı. Qısa müddətdə on dörd polkovnik, üç yüz nəfər müxtəlif rütbəli peşəkar zabit heyəti yetişdi. Onlar şəxsi heyəti on səkkiz mindən çox olan Azərbaycan xalq qoşunlarında şərəflə xidmət edirdilər. Xalq Qoşunlarına böyük fədakarlıq və bacarıqla başçılıq edən igid zabitlərin bir neçəsi - Əbülqasım Əzimi, Möhsün Milani, Əbdülrza Azər, Abdin Nəvai, Mahmud Pənahi, Qulam Yəhya, Mirzə Rəbi Kəbiri və Cəfər Məmmədzadə general kimi yüksək rütbəyə layiq görüldülər.

Bu yazımızda onlardan yalnız biri - general Cəfər Məmmədzadə Kavian haqqında danışacağıq...

Ata qulluqdan gec qayıtdı. Çaydan bir-iki qurtum alıb yorğun halda yerinə girdi. Son vaxtlar ingilis və Amerika casusları ilə aparılan mübarizə gücləndirilsə də, ayrı-ayrı fədailərə edilən sui-qəsdlər yenə də azalmadığından nə gecəsi vardı, nə də gündüzü. Azadlığa çıxmış Cənubi Azərbaycan xalqını Amerikanın muzdlu nökərləri yenidən şah üsuli-idarəsinə qaytarmaq, qanı bahasına qazanılan azadlığı boğmaq iddiasında idilər. Qapının sağ yanındakı taxt cırıldadı. Generalın böyük oğlu Gavə də yata bilmirdi. Son günlər milli hökumətin başı üstünü alan təhlükə onun rahatlığını pozub, yuxusunu ərşə çəkmişdi. Oğul da azadlıq ordusunun fədailərindən idi. Ata qayğı ilə soruşdu:

- Hələ yatmamısan?

- Yuxum gəlmir, ata, elə bil ərşə çəkilib.

- Niyə, sənə nə olub? İdarənizdə vəziyyət necədir?

- Necə olacaq, ata, bütün şəhəri ağzına alan şayiələr bizdə də danışılır.

Deyirlər, tiryəki acanlar Sultan Əli Şəqaqi, Seyfulla Bağmeşəli, Mirşərif, baqqal Hacıələkbər "şah azadlığı" sevdasına düşüblər. Bizim demokrat

partiyamızı devirməyə hazırlaşırlar. Xaricdən silah, əsgər alıblar ki, fədailəri qılıncdan keçirsinlər.

Ata yorğun səslə, bikef halda:

- Eşit, inanma, - dedi, - belə xəbərləri bizə də çatdırıblar. Suyu bulandıran Amerikadır. Onların arxası Amerikadırsa, bizim də dostumuz Sovetlərdir.

- Azadlıq pərisi iki dəfə xalqımızın başına qonub, ata. Onu əyiblər, amma sındıra bilməyiblər. Mütləqiyyətin zülmü, zorakılırı azadlığımızı boğub. Deyəsən bu dəfə də...

Ata hirslə yorğanı üstündən atıb, yerində oturdu:

- Nə demək istəyirsən, bu dəfə nə olacaq?

Gavə ehtiyatla:

- Mən... mən demirəm... bütün şəhər danışır ki, Sovet ordusunun İrandan çıxarılması haqqında o tayda şuralarda fərman imzalanıb, Sovet ordusu buradan çıxıb getsə, bizim milli hökumət Səttarxan və Xiyabani hərəkatı kimi...

Gavənin dili gəlmədi desin ki, məhv olacaq.

Bu bəd xəbər ataya məlum olduğundan son günlər əsəbi idi. Oğlunu ruhdan salmamaq üçün dərindən nəfəs alıb kədərlə:

- Bu çox böyük namərdlik olar, - dedi. Gecədən xeyli keçənə kimi general yata bilmədi. Qaranlıq otaqda fikri-fikrə calandı...

...Cəfər Məmmədzadə Cənubi Azərbaycan milli hökumətinin müdafiə naziri idi. Xalqının azadlığı uğrunda çalışan general çətin və mürəkkəb həyat yolu keçmişdi. İlk gəncliyindən gizli inqilabi işə qoşulduğundan o, iki adla fəaliyyət göstərmişdi. Gəncliyində onun gizli adı Məşədi idi, Cənubi Azərbaycan milli hökumətinin milli qoşunlar vəziri olanda isə general Cəfər Kavian kimi tanınmışdı. Onun atası Təbriz yaxınlığındakı Səhlan kəndindən idi. Ağır həyat yoxsul kəndli olan Məhəmmədəli kişini dözümlü və iradəli etmişdi. Kəndli həyatının sərt güzəranı, ağa torpağı becərmək onu cana doydurmuşdu. Əsrin əvvəllərində Səttarxan hərəkatı başlananda səhlanlı Məmmədəli kişi böyük qardaşı İsrafillə mücahidlərin sırasına qoşuldu. Dəmir iradə və şəxsi bacarıq onu siyasi cəhətdən şüurlu bir fədaiyə çevirdi. O, oxumaq, yazmaq öyrəndi. Xalq qəhrəmanı Səttarxanın tanınmış mücahidlərindən biri və gizli inqilabi hərəkatın məşvərətçisi oldu. Səttarxan 1910-cu il aprelin 15-də Tehranda böyük təntənə ilə qarşılananda mücahidlərlə birgə çəkdirdiyi şəkildə - ön cərgədə səhlanlı Məmmədəli kişi də vardı. Həmin tarixi şəklin əslini nəvəsi Maqsud indi də saxlayır.

Səttarxanın azadlıq hərəkatı mürtəce İran hakimləri tərəfindən yatırıldıqda, səhlanlı Məmmədəli də həbsə alındı. Həbsdən azad olandan bir az sonra çəkdiyi işgəncələrdən vəfat etdi.

Məhəmmədəli Səhlanlının obrazı Makulu Pənahinin “Səttarxan” romanında öz əksini tapıb. General Cəfər Məmmədzadənin böyük qardaşı İsrafil də inqilabi işdə fəal çalışan fədailərdən olub. O, Azərbaycanın şanlı oğlu Heydər Əmioğlunun mübarizə yoldaşı olmuşdur.

...General 1974-cü ildə öz dəst-xətti ilə yazdığı tərcümeyi-halında qeyd edir ki, inqilabi fəaliyyətə 1908-ci ildən, on üç yaşında[56] gənc bir fədai kimi Səttarxan hərəkatından başlamışam. O vaxta qədər Təbrizdə dini təhsil almışam.

İnqilab məğlubiyyətə uğrayanda o, qardaşı İsrafillə şah təzyiqindən qaçıb Bakıya pənah gətirir. İki il Bakıda dərzilik edən Məşədi Cəfər yenidən Təbrizə qayıdır. Qulamhüseyn xan Rzazadənin evində təşkil olunmuş İran sosial-demokrat firqəsinin beşinci Hövzə iclasında iştirak edir. Şeyx Məhəmməd Xiyabani hərəkatında fədai başçılarından biri olur.

İftixarla demək olar ki, general Cəfər Məmmədzadə çox zəngin və keşməkeşli inqilabi həyat yolu keçib. Onun həmin dövrdəki gizli fəaliyyəti Əkrəm Səlimzadənin və Rzabala Nurəliyevin məşhur çekist İslam Əliyev haqqında yazdıqları "Son döyüş" kitabçasında da təsvir olunub:

"İslam Təbrizdə Məşədi ilə görüşdü. Söhbət zamanı Məşədi dedi:

- Partiyamızın növbəti, ikinci qurultayına hazırlıq görülür, Mərkəzi Komitə belə məsləhət görür ki, sizi Təbrizə çağıraq. İndi burada daha ciddi işlər gedir. Siz bu işlərdə bizə daha yaxşı kömək edə bilərsiniz.

- Nə işdə? - deyə İslam soyuqqanlıqla soruşdu.

- Silahlı dəstələrimiz var. Onlara rəhbərliyi sənə tapşıracağıq.

İslam etiraz etmədi.

O, Mərənddən Təbrizə köçdü.

...1922-ci ilin fevral ayının ilk günlərində Təbriz çox narahat idi. Küçələrdə tez-tez nümayişlər olurdu. Şah istibdadından cana doymuş xalq acanları döyür, hökumət idarələrini tanımaq istəmirdi. Həmin ayın 9-da Məşədinin gizli şəraitdə yaşadığı evinə bir neçə adam toplaşmışdı. Onların arasında Məşədi, İslam, şair Lahuti, doktor Rəhim xan, Tağı Şərqi, Bürhani və başqaları var idi. Onlar kiçik müşavirə keçirdilər. Tez də dağılışdılar. Bu hadisədən bir-iki saat sonra Təbrizin müxtəlif məhəllələrində atışma başlandı, bütün gecəni davam etdi. Səhər isə hökumət artıq xalq fədailərinin əlində idi".

Xalqımızın azadlığı uğrunda özünü oda-közə vuran Məşədi Cəfər 1922-ci ildə məşhur şair Əbülqasım Lahuti hərəkatında yaxından iştirak edərək fədai başçısı olur. Bir az sonra şahlıq rejimi bu hərəkatı da yatırdır. Məşədi Cəfər ikinci dəfə doğma Bakıya pənah gətirir, təhsilini artırmaq üçün partiya kursuna daxil olur.

1924-cü ildə Azərbaycan Kommunist Partiyasının sərəncamı ilə Məşədi Cəfər Naxçıvandakı dağ-mədən fəhlə həmkarlar ittifaqının sədri vəzifəsinə işə göndərilir. Üç il sonra üçüncü Kominternin tapşırığı ilə yenidən İrana göndərilən Məşədi Cəfər Təbrizdə, Rəştdə və Tehranda gizli inqilabi iş aparır.

1930-cu ilin sonlarında ajanlar onu həbs edir. Məhkəmənin 3472/14 nömrəli qərarının surəti oğlu Maqsudda indi də qalır. Qərarın mətni belədir: "Cəfər Kavian ona görə məsuliyyətə alınır ki, Bir may münasibətilə intibahnamələr nəşr etdirib Tehranda yayırmış. O, Kommunist Partiyasına mənsubdur. İrandakı və xaricdəki kommunistlərlə yaxından əlaqə saxlayır. İran məmləkətinə və onun istiqlaliyyətinə zidd bir adamdır. Ona görə də Cəfər Kavianın yoldaşları İran qanun məcəlləsinin

---

[56] General Cəfər Məmmədzadə Kavian Təbrizin yaxınlığındakı Səhlan kəndində anadan olub - müəl.

iyirmi yeddinci maddəsi ilə, Kavianın özü isə həmin qanunun iyirmi səkkizinci maddəsi ilə mücazat olunub həbs olunurlar. Hökm yerinə yetirilir".

Altı il yeddi ay Qəsri-Qacar zindanının uca və qalın divarları, dəmir qapıları da mərd Azərbaycan oğlu Cəfər Kavianın mübarizə əzmini qıra bilmir. Qəddar Rza şah hakimiyyəti həbsdən sonra onu Zəncan şəhərinə sürgün edir. O, Sovet ordusu İrana gəldikdən sonra, 1941-ci ildə sürgündən azad olunur. 1944-cü ilə qədər Təbrizdə müxtəlif təşkilatlarda çalışan Kavian ziddi-faşist, xalq partiyası və başqa partiyaların yaradılmasında iştirak edir.

1945-ci il degabrın 12-də Cənubi Azərbaycanda silahlı üsyan nəticəsində xalq Azərbaycan Demokratik firqəsinin banisi Seyid Cəfər Pişəvərini milli hökumətin baş naziri təyin etdi. O taylı qardaşlarımız çoxdan arzuladıqları günə çatdılar. Onlar İran çərçivəsində milli muxtariyyət aldılar. Azərbaycan dili rəsmi dövlət dili oldu. Ana dilimizdə orta və ali məktəblər açıldı. Səkkiz saatlıq iş günü bərpa olundu. Səttarxana və Bağırxana heykəl ucaldıldı. Azərbaycanlıların həyatında tam yeni yüksəliş dövrü başlandı. Həmin gün tarixə "21 Azər hərəkatı" kimi daxil oldu.

FədailərAzərbaycanın şəhər və kəndlərini istilaçı İran qoşunlarından təmizlədilər. Fövqəladə bacarıqa və hərbi məharətə malik olan Cəfər Kavian Azərbaycan Milli hökumətinin qərarına əsasən general-mayor rütbəsinə təltif olunaraq müdafiə naziri təyin edildi.

Həmin ili "Nəcate-İran" qəzeti yazırdı:
"General Kavian hal-hazırda Azərbaycanın həm qoşun hissəsinə, həm də Azərbaycan milis idarələrinə başçılıq edir. Bu şəxs qədim mübariz İran azadxahlarından biri olub və Azərbaycan Demokratik hərəkatında iyirmi beş il qabaqdan ta indiyə kimi iştirak edibdir. O, Rza şah dövründə illərlə həbsdə olmuş və həyatının çox dövrünü zindanda keçirmişdir. "21 Azər hərəkatı"nda Cəfər Kavian canfəşan fədai dəstələrinin rəhbərliyini öz əlinə almış, gözəçarpan dərəcədə fədakarlıq göstərmişdir. Ona görə də Azərbcayan Demokratik hökuməti Cəfər Kavianı hərbi vüzarətxananın vəziri təyin etdi. O, öz silahdaşları - Azadxan Seyid Cəfər Pişəvəri, Şəbüstəri, doktor Cavid və başqaları ilə Azərbaycan Demokrat Partiyasını, milli hökumətin fəaliyyətini yüksəkliklərə qaldıraraq mürtəce irticanı çıxılmaz vəziyyətdə qoymuşdur. Azərbaycan Demokrat Partiyası və milli hökuməti Cəfər Kavianın xalq qarşısındakı xidmətlərini yüksək qiymətləndirmişdir. C.Pişəvərinin imzası ilə Mərkəzi Komitənin 1946-cı ilin sentyabr tarixli əmrində deyilir ki, ağaye-general Cəfər Kavian, xalq qarşısında əməyinizə və əncam verdiyiniz xidmətlərə görə Mərkəzi Komitənin təsvibi üzrə Siz Səttarxan ordeni ilə təltif olunursunuz.

General Cəfər Kavian həm də hökumətin yeni təsis etdiyi "21 Azər" medalı ilə təltif olunmuşdur.

Generalın şəxsi işləri arasındakı bir sənəd diqqətimizi xüsusilə cəlb etdi. 0 tayın burulğanından keçib gələn bu qiymətli sənədi general-mayor Cəfər Kavian öz dəst-xətti ilə yazıb:

"Azərbaycan Xalq Qoşunları vəzirinin bir nömrəli fərmanı ilə Azərbaycanın milli mənafeyini və müqəddaratını müdafiə etmək üçün Azərbaycanda rəsmi xalq qoşunu təşkil olunur.

Azərbaycan xalq qoşunu vaqeyi bir milli qoşundur. Hər bir azərbaycanlı sinif və məzhəbindən asılı olmayaraq, bu qoşunda xidmət etməyə borcludur. Bu qoşunda xidmət edən hər bir namuslu şəxsin müqəddəs vəzifəsi Vətəni yadlardan qorumaqdan ibarət olmalıdır...

Azərbaycan Xalq Qoşunları vəziri
Cəfər Kavian

AZADXAHLARIN SON SÖZÜ

Vuruşdular:
son gülləyə,
son süngüyə
son qundağa qədər.
Vuruşdular:
hər şey qırmızı geydi;
Daşdan torpağa qədər.
Vuruşdular:
alt dodaqdan
üst dodağa qalxa bilməyən
səsə qədər.
... Söykənib qala divarına
öldülər ayaq üstə
çiyin-çiyinə...

Rəsul RZA,
("Ərk qalası" şerindən)

1946- cı il noyabrın axırlarında Amerika imperializminin köməyi ilə İran hökuməti iyun müqaviləsini pozdu. Cənubi Azərbaycanı yenidən fəth etmək üçün onun üzərinə hücum etdi. Qoşun yeridib fədailərin azadlığını vəhşicəsinə boğdu. Zəncanda, Sərabda, Ərdəbildə, Təbriz və başqa şəhərlərdə "fatehlər" qanlı cinayətlər törətdilər. Azadxahları işgəncə ilə öldürən vəhşilər onların uşaqlarını belə dara çəkdilər.

Dekabrda mürtəce idarə üsulu bərpa olundu. İranın baş naziri Qəvamulsəltənə ilə Stalin Azərbaycanın milli mənafeyini sarsıdan təkliflər irəli sürdülər. Bu böyük azadlıq hərəkatını qanla suvardılar. Canilər, müstəmləkəçilər

böhtan atırdılar ki, Azərbaycan İrandan ayrılmaq və onun torpağına sahib olmaq istəyir. Əslində isə Cənubi Azərbaycanda az müddətdə böyük mübarizə ilə qazanılmış azadlığı fədailər bütün İranda həyata keçirmək istəyirdilər.

Cənubi Azərbaycan Demokratik Respublikasının süqutu M.C.Bağırovun köməkçilərindən biri olan Mütəllim Babayevin yaddaşında: "1944-cü ildə Faşist Almaniyasına qarşı İkinci Cəbhə hücuma başlayanda İ.Stalinin yeni göstərişini aldıq: "Sovet silahlı qüvvələri Cənubi Azərbaycandan çıxarılsın!". Lakin bu tapşırığı M.C.Bağırov çox həvəssiz və ləng yerinə yetirirdi. Çünki yaxşı bilirdi ki, qoşun çıxarılsa, şah ordusu Demokratik Respublikanın bütün qurumlarını darmadağın edəcək, adamlara divan tutacaq. Özü də bu divandan təkcə Şimaldan gedənlər - inqilab "ixrac edənlər üçün" deyil, şah rejimindən zinhara gəlib, böyük ümidlə demokratik harəkata qoşulan bütün iranlılar üçün pay düşəcəkdi.

Pişəvəri tez-tez zəng edir, vəziyyətin gündən-günə pisləşdiyini həyəcanla xəbər verir, kömək tələb edirdi. M.C.Bağırov telefon xəttində hər şeyi açıb-ağartmaq istəmir, konkret tapşırıqlar verirdi: "Mərkəz gözləmək istəmir, silahlı qüvvələrin çıxmasını tələb edir..." Sonra deyirdi: "Qoşunun orada olmasından istifadə edib yığışın, adamları və gərəkli avadanlığı sərhədin bəri tayına keçirin". Pişəvəri isə bu qərarla heç cür razılaşmaq istəmir, telefon xəttində az qala qışqırırdı: "Bu xəyanətdir, biz belə danışmamışdıq..." Moskva ilə əlaqə telefonu uzun zəng çaldı. Dəstəyi götürdüm. "Yoldaş Stalin Bağırovla danışacaq, yarım saatdan sonra raxətdə olun", - dedilər. Bu barədə rəhbərə məruzə etdim. Mənim xəbərimi o qədər də ruh yüksəkliyi ilə qarşılanmadı. Görünür, ölkə rəhbərliyindən nə eşidəcəyini bilirmiş...

Düz yarım saatdan sonra telefon yenə uzun zəng çaldı. Dəstəyi qaldırdım. "Xətdə yoldaş Stalindir, cavab verin, - dedilər. M.C.Bağırov da o tərəfdən telefonun dəstəyini qaldırmışdı, "Baqirov sluşaet, - deyib, İ.Stalinin səsini gözləyirdi. Maraq mənə güc gəldiyindən dəstəyi yerə qoymurdum. Deməli, iki rəhbərin telefon danışığını eşidə biləcəkdim. Bu, vəzifə səlahiyyətimə zidd olsa da, daxili istəyim güc gəldi. Həmin danışığın mətni həmişəlik beynimə həkk olundu:

İ.Stalin: "Tovariş Baqirov, ti kto?" M.C.Bağırov susur, İ.Stalin bir də təkrar edir: "Spraşivayu, tı kto?". M.C.Bağırov cavab vermir: "Vı je znaete kto ya: Pervıy sekretar ÜK Kompartii Azerbaydcana". İ.Stalin: net, tı bolşoy durak, tovariş Baqirov!" Bağırov susur, Stalin davam edir: "ti xoçeş tretuyu mirovuyu voynu sozdat? Xoçeş ştobı amerikantsı nam podarili atomnuyu ataku?" Sonra Stalin birbaşa mətləbə keçir: "Tovariş Baqirov, poçemu ne vıpolnyaeş moe ukazanie o vıvode voorucennıx sil iz Yujnoqo Azerbaydjana?" M.C.Bağırov əsəbi halda izahat postepenno vıvodyatsya iz İrana. No..." İ.Stalin dərhal soruşur: "Çto no?.." M.C.Bağırov: "Tovariş Stalin, jivoy kontinqent sovetsqoy divizii skorom vremeni pokinet svoyu pozitsiyu, a çast vooruceniy, dumayu pridetsya ostavlyat mestnım citelyam molodoy respubliki dlya samooboronı, ibo şaxskaya qvardiya qotova istrebit ne tolko naşix poslantsev, i mestnıx demokratov..." İ.Stalin bir qədər də hündürdən: "Naprasno tak dumaeş. Nikakoy otdaçi oruciy çucim rukam! Amerikantsı davno nablyudayut za naşimi deystviyami v İrane, i uprekayut

nas v naruşenii soyuzniçeskix doqovorov...” M.C.Bağırov daha müqavimət göstərə bilmir, astadan deyir: “Kak prikajete, tovariş Stalin, budet sdelano!”

Telefon danışığı - CADR-ın taleyini həll edən tarixi söhbət başa çatdı. Bir qədərdən sonra M.C.Bağırov məni yanına çağırdı. Sifətində qan əlaməti yox idi, əlləri titrəyirdi. Danışanda hiss etdim ki, səsi də titrəyir. Tapşırıq verdi: “Yoldaş Pişəvərini və “Cənub” əməliyyatı qrupunun komandirini təcili yanıma çağırtdır. Gecə saat birdə onları gözləyirəm”.

Tapşırığı yerinə yetirdim. Çağırılan adamlar deyilən vaxtda qəbul otağında oldular. M.C.Bağırov əvvəlcə 46-cı ordunun komandirini qəbul etdi. Onların nə danışdığını eşitmədim. Amma sonralar bildim ki, M.C.Bağırov baş komandan İ.Stalinin tapşırığını “pozaraq” yüngül silahların yerli fədailərə paylanması barədə ordu komandirinə sərəncam vermişdi.

Sonra Seyid Cəfər Pişəvəri adəti üzrə sürətlə və səs-küylə rəhbərin kabinetinə keçdi. Hətta qapını arxasınca kip bağlamağı da unutdu. Mən bunu görsəm də görməməzliyə vurdum, çünki onların söhbətini eşitmək istəyimi boğa bilmədim.

Pişəvəri hündürdən və kəmhövsələ danışaraq vəziyyətin böhran halına çatdığından, qoşunun sərhədə doğru geri çəkilməsini duyan şah ordusunun fəallaşmasından, gənc demokratik respublikanın böyük təhlükə ilə üz-üzə əliyalın dayanmasından misallar çəkdi. Axırda söhbətini belə yekunlaşdırdı: “42-də bizi Moskvada qəbul edib, CADR-ın təsis sənədinə qol çəkəndə yoldaş Stalin bizi əmin etmişdi ki, arxamızda duracaq, bizi axıracan müdafiə edəcək. Bəs bu vədləri nə tez unutdu rəhbərimiz? Görəsən dünya kommunistlərinin başçısı hiss edirmi ki, bununla Azərbaycan xalqına amansız xəyanət etmiş olur? Tarix bu xəyanəti unutmayacaq...” M.C.Bağırov deyilənləri səbrlə dinlədi, özü də bunları əlavə etdi: “Mikoyanın hiyləsi bu dəfə baş tutdu... Zaqafqaziyada vahid Azərbaycan dövləti yaranması ehtimalı nə onu, nədə başçını təmin edə bilməzdi...” Sonra isə Pişəvəriyə konkret tapşırıq verdi: “Gecəykən qayıdarsan Təbrizə. Ordu komandirinə tapşırmışam, yüngül çaplı silahları sizə verəcəklər, gənc respublikanın fəallarını, fədailəri silahlandırın, bacardıqca az itki verməklə adamları və lazımi avadanlığı Arazın bəri tayına keçirin...” Bir qədər fikrə dalıb dedi: “Neyləməli, qismət belə imiş” **(Yusif Kərimov, “Pərişan eşqim” əsəri, Bakı, 1998-ci il, səh.316-319).**

* * *

İstibdad kabusu o taylı Azərbaycan xalqına qanlı divanlar tutdu. Azadxahların başında duranlardan biri - igid general Əbdülqasım Əzimi güllələndi. O, son nəfəsində qürurla demişdi:

- Xatircəm olun, hər bir azadxah azərbaycanlı sabah bir general Əzimi olacaqdır. Xalqın intiqamını gözləyin! Tökdüyünüz qanlara, etdiyiniz vəhşiliklərə görə gələcək nəsil sizdən intiqam alacaq!

Sərdari Milli Səttarxanın və Salari Milli Bağırxanın heykəlləri uçuruldu. Cəmisi bir ildə Azərbaycan kəndlərində ana dilində açılmış iki mindən çox məktəb bağlandı. Azərbaycan dilində olan əlyazmaları və kitabxanalar yandırıldı. Rza

şahın cəlladları general Mirzə Rəbi Kəbirini (1889-1947) dara çəkdilər. General Əbülqasım Əzimi, Firudin İbrahimi, mayor Ramitin Məmmədəli oğlu, polkovnik Seyid Yusif Mürtəzəvi, Mahmud Qazi Əsədullahi, Əhməd Cövdət, Dəbirniya, Həsən Zəhiri, Ehsani, Məmməd Agahi, Şükür Qaffari, Əbdülsəməd İmrani və Şeyxi kimi mərd oğullar, igid zabitlər ölümü vüqarla qəbul etdilər.

SƏRAB FƏDAİLƏRİNİN BAŞÇISI POLKOVNİK QULAMRZA CAVİDANIN DAR AĞACI ALTINDA DEDİYİ SON SÖZLƏR:

- Siz bu gün mənim səsimi boğazımda boğursunuz. Lakin məzlum xalqları öz haqlarını almağa çağıran bəşəriyyətin azadlıq səsi dunyanın hər yerində yüksələcəkdir. Siz isə bu göy kimi guruldayan səsi boğmaqdan acizsiniz. Mən Azərbaycan xalqının azadlığı uğrunda öz muqəddəs borcumu verirəm. Mən ölurəm, azadlıq ölməyəcəkdir, Azərbaycan azad olacaqdır.

HAŞİYƏ: Mərd polkovnik Qulamrza Cavidanın bu sözlərini "Kommunist" qəzetinin 23 aprel 1949-cu il sayında oxuyan Səməd Vurğun dörd gün sonra həmin qəzetdə "Qəhrəmanlara eşq olsun!" məqaləsilə çıxış edərək yazırdı: Qardaş! Sənin bu məslək eşqində, bəşəriyyətin xoşbəxt istiqbalına inanan qəlbində duyduğumuz inqilabi romantikaya eşq olsun! Sənin qartal vüqarı ilə tufanları, fırtınaları yarıb keçən yaxın və uzaq gələcəkdə belə səslənəcək bu qadir səsinə, həyat və mübarizə iradənə eşq olsun! Sənə döşlərindən süd vermiş anaya, nizamilər, füzulilər rübabına ilham vermiş Babək, Koroğlu, Səttarxan qılıncına qüdrət vermiş Azərbaycan torpağına eşq olsun! Mən bu sətirləri yazdığım zaman ürək bədahətən polkovnik Qulamrza Cavidanın xatirəsinə dil açdı:

Öz müzəffər bayrağıyla gəlib
keçdikcə illər
Bir əbədi bahar kimi gul açacaq
xatirən...
Yad edəcək hörmət ilə səni gələn
nəsillər,
Heykəl kimi ucalırsan qəlbimizdə
bu gün sən.

Al qanınla suvardığın Azərbaycan
torpağı
Öz başını əyməyəcək cəlladlara
Bir daha!
Vüqarına and içdiyin bu azadlıq
bayrağı,
Sənin ölməz adını da aparacaq
sabaha...

Ölüm yoxdur qəhrəmana! Söyləyirəm
mən yenə,
Şəfəqlərdə sayrışacaq sabah sənin
də türbən...

Ordu kimi salam verib o əziz
xatirənə,
Hüzurunda baş əyirəm öz şerimlə bu
gün mən...

MƏRD ZABİT HƏSƏN QASİMİNİN TƏBRİZ HƏBSXANASINDAN ATASI YUSİF QASİMİYƏ YAZDIĞI MƏKTUB:

"Əziz atam! Biz günahsız vətənpərvər zabitlər hökumətin bəyannaməsi nəticəsində təslim olduq. Lakin təəssüf ki, Tehran hökuməti öz əhdini pozaraq bizi edama məhkum etdi. Biz sabah məhəbbət dolu möhkəm ürəklə, mətin addımlarla ölümə gedəçəyik. Mənim müsibətimə səbrlə dözün. Bu son nəfəsdə deyirəm: Qələbə bizimlədir! Yaşasın Azadlıq! Uzaqdan əlinizi öpüb həmişəlik sizinlə vidalaşıram, Sizin nakam və təqsirsiz oğlunuz Həsən Qasimi".

MARAĞA QARNİZONUNUN POLKOVNİKİ QULU SÜBHİ NURİNİN (1907-1947) DAR AĞACI ALTINDA SON SÖZLƏRİ:

- Bu titrək bina çox da yaşamayacaqdır. Bu qanlı üsuli-idarə daha davam etməyə qadir deyildir. Ölüm üçün heç kimdən minnət götürmək fikrində deyiləm. Xalq uğrunda, azadlıq yolunda ölümə getməklə əbədi bir şərəfə qovuşmaq, ucuz yaşamaqdan min dəfə xoşdur.

Sübhini dar ağacına qaldırıb ipi boynuna salırlar. İp dərhal qırılır. Yerdən çəld qalxan polkovnik Qulu Sübhi Nuri qəzəblə qışqıraraq deyir:

- Cəlladlar, indi mənim dediklərimə inandınızmı? Sizin hətta dar ağacınızın ipi də çürümüş və davamsızdır.

Ana yurdumsan, ey şanlı Vətən,
Həmişəlik yaşa Azərbaycan...

Bu, mərd polkovnik Qulu Sübhinin son sözləri oldu...

HƏBS OLUNMUŞ MƏRD FƏDAİ DADAŞ TAĞIZADƏNİN (1902-1947) SON NİTQİ:

- Mən Azərbaycanın ləyaqətli oğluyam, budur, Azərbaycan xalqının azadlığı uğrunda başı uca can verirəm. Güman etməyin ki, mənim və yoldaşlarımın ölümü ilə azadlıq boğulacaqdır. Şübhəsiz ki, bizi muhakiməyə çəkib dar ağacına tərəf aparan cinayətkarlar millət məhkəməsində cavab verməli olacaqlar.

Cavan **NƏZMİYYƏ ZABİTİ SƏDİNİ** anasının gözü qabağında küçədə güllələdilər. Təbrizin fədakar həkim oğlu Bağırının evini güllə-boran elədilər, Tankla evi dağıdıb, həkim Bağırını küçədə xeyli sürüdülər, onu müqavimət göstərdiyinə görə balalarının yanında avtomatla dəlik-deşik etdilər. Beş gün mühasirədə qalıb təkbaşına cəlladlara qarşı vuruşan igid **ŞAHSEVƏNLİ QIZI SƏRİYYƏNİ** aldatdılar ki, əfv olunacaqsan, səngərdən çıx və silahı yerə qoy. Səngərdən çıxan kimi güllələnməyə gətirilən Səriyyə üzünü cəlladlara tutub demişdi:

- Bu, sizin üçün qələbə deyil. Tarix əhd-peyman pozanların adını nifrətlə yad edəcəkdir. Adam öldürən canilər bu işdən xeyir görə bilməyəcəklər.

Azərbaycan oğulları mənim intiqamımı alacaqlar. Azadlıq ağacı şəhidlərin qanı ilə suvarıldıqca daha çox bar verəcəkdir.

Meşkin şəhər **FƏDAİ BAŞÇISI ŞEYX POLAD ƏHMƏDİNİN** (1886-1946) dar ağacı altında son sözləri: - Mən qocalmışam, bu gün də ölməsəm, sabah öləcəyəm. Lakin mən mübarizə yolunda, azadlıq uğrunda öldüyümə görə iftixar edirəm.

Şahın əmrilə iyirmi altı nəfər azərbaycanlı zabitlə birlikdə Təbrizdə güllələnən polkovnik **CƏFƏR SULTANİ** azad (1917-1947):

- Mən biganələr nümayəndəsi olan Şah əlindən aldığım dərəcəni atıb, qəhrəman Azərbaycan xalqının azad əli ilə yaradılmış xalq qoşunlarının şərəfli dərəcəsini qəbul etməklə şadam! Mən yenə də var qüvvəmi Azərbaycanın azadlığı uğrunda sərf edəcəyəm.

Hadisələrin iştirakçısı **FƏDAİ ABBAS CƏFƏRİNİN** "Azərbaycan, xalqımızın mübarizəsinin ön səngəridir" məqaləsindən:
"Şaxta kəsirdi, qar yağırdı, canilər isə Azərbaycanın qəhrəman oğullarının cənazələrini küçələrin daşları və xiyabanın asfaltı üzərində sürüyürdülər. Qarətgirlər zərrəcə utanmadan elm və sənət ocaqlarına da hüçum etdilər. Əyalət Əncumənininin kitabxanası, filarmoniya və dövlət teatrı qarət edildi".

* * *

Vəziyyətin ağırlığından bir çox fədailər kimi general Cəfər Kavian da bu tay Azərbaycanına pənah gətirdi. Ömrünün axırınadək - 1975-ci ilədək o taylı Vətənin həsrətilə yaşadı.

Generalın üç oğlu və üç qızı Bakıda yaşayır. Maqsud Cəfər oğlu atasının o tay Azərbaycanımızdan çox çətinliklə gətirdiyi tarixi əhəmiyyətə malik sənəd və şəkilləri ən əziz, ən müqəddəs yadigar kimi hifz edib saxlayır. Bunların arasında xalqımızın mətin oğlu Seyid Cəfər Pişəvərinin general Cəfər Kaviana yazdığı məktublar, sənədlər, əmr və nizamnamələrin surəti, Səttarxanla babası Məhəmmədəlinin birgə çəkilmiş nadir fotoşəkli var.

1944-cü il iyunun on birində Seyid Cəfər Pişəvəri yazırdı:

"Kavian həzrətləri! Ümid edirəm ki, özünüz, uşaqlar və bütün dostlar hamı səlamətdir. İşlərimin çoxluğundan əlim gəlmədi bundan tez sizə məktub yazım. Özün də bilirsən ki, məktub yazmaqda əvvəldən bir az tənbələm. Amma əməldə dostlarımı heç vaxt unutmamışam. İstəyirdim ağayi Çavuşiyə də məktub yazım, ünvanını mənim üçün yazın. Bütün dostlara mənim tərəfimdən salam söyləməyə sizə icazə verirəm və deyərsiniz ki, Pişəvəri məktubunda sizə rəsmən xüsusi salam göndərir. Göndərdiyin yataq dəsti çatdı. Çox sağ ol. İşlərim haqqında ola bilsin ki, "Acir" qəzetində oxuyubsunuz. Məclisdəki nitqim "Ajir" də ixtisarla çap olunub. Verin dostların hamısı oxusun. Əgər Zəfiri bacara bilsə, ayrılıqda onu çap edib, pulsuz xalqa çatdırsa yaxşı olar. Pulum olmadığından bu mövzunun üstündən keçirəm. Ola bilsin ki, Biriya və Padeqan bacara bilsinlər, onu karigərlərin məcələsində oxusunlar. Əlbəttə, başqa qəzetlər də müxtəsər olsa da bu haqda yazmışlar. Biz "Ajir" də bir az müfəssəl yazdıq. Nəqdən biz məsləhət görmüşük ki, Azadlıq fraksiyonunda olaq. Tudə partiyası üzvlərinin bir qədər xoşları gəlmədi.

Ancaq çarə yox idi. Təbrizin bütün nümayəndələri Müctəhididən başqa hamımız bir fraksiyondayıq. Ümidim var ki, bacara biləm qeyrətli Təbriz camaatının arzusunu yerinə yetirəm. Sərtibzadə də Azadlıq fraksiyonundadır. Rəsmi şəkildə Salam-əleykimiz var. Bir-birimizin əleyhinə olmasaq da, yaxın da deyilik. Oranın vəziyyətindən məni xəbərsiz qoyma. Sizə qurban Mircəfər".

General Cəfər Məmmədzadə Kavianın ölümündən bir ay sonra Hizbi-Tudeyi İranın Azərbaycan Demokrat Partiyasının orqanı "Azərbaycan" qəzeti 1975-ci il, iyirmi səkkiz fevral sayında şəkli ilə birlikdə onun haqqında nekroloq vermişdi. Azərbaycan oğlunun azadlıq yolunda çəkdiyi əziyyətlər qəzetdəki bu yazıda da öz əksini tapıb:

"Cəfər Kavian gənc yaşlarından ölkənin əsarətdə olmasını və xalqın məşəqqətli həyatını müşahidə etmiş, minlərlə gözüaçıq Azərbaycan oğlu kimi mübarizəyə qoşulmuşdur. O, Azərbaycan Demokrat firqəsinin müəssisələrindən biri idi. Xalq nehzətinə və azadlıq yolunda fəaliyyətini nəzərə alaraq, Azərbaycan Milli Məclisi, milli hökuməti Kaviana generallıq dərəcəsi verərək onu xalq qoşunları vəziri təyin etmişdir. "21 Azər" nehzətinin nailiyyətlərini qoruyub saxlamaq uğrunda geniş mübarizədə Cəfər Kavianın da böyük xidmətləri vardır.

Azərbaycanda milli demokrat hərəkat qan dəryasında boğulduğu zaman minlərlə demokrat və fədai kimi Cəfər Kavian mühacirət etməyə məcbur olub. Lakin mühacirət illərində də Kavianın bütün fikri Vətənin və xalqın həyatı ilə bağlı olmuşdur. O, xalqın qalib gələcəyinə, azad, xoşbəxt İranın yaranacağına dərin inam bəsləyirdi. Bu yolda bu inamla mübarizə aparırdı. Kavianın ölümü ilə azadlıq nehzəti və İran zəhmətkeşləri sabiqədal yoldaşlarımızdan birini itirdi".

Generalın şəxsi sənədləri arasından dörd bəndlik şer yazılmış bir vərəq də çıxdı. Şerin müəllifi onun mübarizə yoldaşı şair Məhəmməd Biriyadır. Müəllif "Yadigar" adlı şerinin ithaf yerində öz dəst-xətti ilə belə yazmışdır:

"Məhəmməd Biriyadan öz tarixi dostu, milli qoşunların şanlı vəziri Ağayi Cəfər Kaviana yadigar. Bakı, 19 oktyabr, 1969-cu il".

Xalqımın uğrunda illərdən bəri,
Döyüşdən, vuruşdan dönmədin geri.
Vətən iftixarı, elin əsgəri,
Ürəkli, hünərli rəşid Kavian.

Çoxdur siyasətin mərdi, məciri,
General içində yoxdur naziri.
Milli qoşunların şanlı vəziri,
Əqilli, elmli, qoca Kavian,
Çox əllərdən əli uca Kavian.

Ana yurdumuzun iftixarısan,
Şərəfi, şöhrəti, etibarısan.
Milli hökumətin yadigarısan,
Düşmənə verməyən aman Kavian,
Bizi ayırmasın zaman, Kavian.

Uzaqdan-uzağa tanırsan məni,
Biriya ömründə unutmaz səni.
Yadından çıxarma əziz Vətəni,
Cəfər iradəli, adı Kavian,
Dostlu, aşinalı, yadlı Kavian.

Noyabr, 1998-ci il.

GENERAL - MAYOR MAHMUD ƏBİLOV

Şahdağın döşünə sığınmış Qusar rayonunun Ukur kəndini ilk dəfə görəndə ulu Zərdüştün sözlərini xatırladım: "Ormanı sevirəm. Şəhərlərdə yaşamaq pisdir, oralarda azğın çoxdur".

Hələ Sovetlər vaxtı general Mahmud Əbilov haqqında televiziya üçün veriliş hazırlamağa gedəndə bu kəndin əsrarəngiz təbiəti məni valeh eləmişdi. Göyləri dələn xan çinarları, min bir boran görmüş, yenilməz qəhrəmanlar kimi məğrur dayanan qocaman palıdları adamı heyran edirdi. Xoş simalı, şirin ləhcəli, qonaqpərvər insanları isə bu kəndin yetirdiyi sərvətdir. Səfər yoldaşım, şair Oqtay Rzanı da ilhama gətirən bu yerin gözəlliyi oldu. Şair oradaca "General" şerini yazdı.

Vüsala yetməyə səbrim tükəndi,
Xatirə çiçəyi dərdim, general!
Ərzə göz açdığın səfalı kəndi,
Mən də öz gözümlə gördüm, general!

Müdrik, unudulmaz, fədakar insan!
Ən gözəl abidən mərd elindədir;
Özün Bakıdakı xiyabandasan,
İlk izin Uğurçay sahilindədir.

General Mahmud Əbilovun anadan olmasının 80 və 90 illiyi münasibətilə veriliş hazırlamağım xoş xatirəyə döndü. Hər gün, hər il sürətlə Samur və Uğur çayının dum-duru suları kimi gəlib keçdi. Zaman da, quruluş da dəyişdi...

1898-ci il sentyabrın 15-də Əbdülrza kişinin ocağında dünyaya gələn general Mahmud Əbilovun müstəqillik qazandığımız bir şəraitdə yüz yaşı tamam oldu.

Uşaqlıq və gəncliyi əzablı keçən Mahmud Əbilovun orta məktəb yoldaşları onda sağ-salamat idi. Ağsaqqal Məhəmməd Əşrəfovun, Pirseyid Heybətovun, Şövkət Həsənovun generalın uşaqlığından danışdıqları nağılabənzər xatirələrini indi də unuda bilmirəm.

Məhəmməd kişi nağıl edirdi ki, 1908-ci ildə kəndimizdə tif xəstəliyi yayılmışdı. İnsanlar milçək kimi qırılıb məhv olurdu. Bu xəstəlikdən balaca

Mahmudun əvvəl atası, sonra da anası vəfat etdi. Kəndimizin mollası Nəcməddin Əşrəfov bir qırmızı inəyi kəndin dörd yanına dörd dəfə dolandırıb qurban kəsdi. Bununla da xəstəlik dayandı.

Pirseyid Heybətov: - On yaşlı Mahmudun ata-anası vəfat etdikdən sonra mənim atam onu öz himayəsinə aldı. O vaxt kəndimizdə rus-tatar məktəbi vardı. Onu 1912-ci ildə şamaxılı müəllim Hüseyn Musayev açmışdı. Atam Mahmuda ibtidai təhsil verdikdən sonra Yalamaya apardı. 1920-ci ilə kimi Mahmud atamın himayəsində yaşadı.

Təlatümlü illərdə, qarışıq zamanda Bakıya gələn gənc Mahmud Vətənin müdafiəçisi olmaq kimi şərəfli bir peşə seçir. O, 1921-ci ilin fevral ayında Tiflisə gedib komandirlər məktəbinə daxil olur.

Gənc zabit Mahmud Əbilov 1924-cü ilin yayında Hərbi İnqilab Şurasının əmrilə 77-ci Azərbaycan atıcı diviziyasında rota komandiri kimi fəaliyyət göstərir. Bu diviziyada o, general Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, Qambay Vəzirov, Cəmşid xan Naxçıvanski kimi görkəmli sərkərdələrin rəhbərliyi ilə hərb elminin sirlərinə daha mükəmməl yiyələnir. Hərbçi taleyi, hərbçi işi gənc zabit Mahmud Əbilovu xüsusi tapşırıq dalınca ölkənin bir guşəsindən o birinə göndərirdi. İstər Qorki şəhərində, istərsədə Uzaq Şərqdəki Voroşilov adına korpusun tərkibində qulluq edən kapitan Əbilov prinsipiallığı, hərbi nizam-intizamı ilə nümunəvi zabitlər sırasında olurdu. 1928-ci ildə Moskvada Baş Qərargahın ali akademik kursunu mayor rütbəsində bitirən Mahmud Əbilov alay komandiri təyin olunur. O, Monqolustanın qızmar səhralarında, Xasan gölünün sahillərində əsgərləri ilə yapon samuraylarına qarşı vuruşmuşdur.

Uzaq Şərqin sərt iqlimində qazandığı hərbi əzmkarlıq Böyük Vətən müharibəsi illərində podpolkovnik Mahmud Əbilovun karına gəlmişdir. Cəbhədə Qafqazın mərd oğlu adını qazanmış 70-ci atıcı diviziyanın komandiri, general Mahmud Əbilov 1943-cü ildə Smolensk və Roslavl şəhərlərini düşməndən azad edir. Bu hərbi əməliyyatı Sovet qoşunlarının uğuru kimi qiymətləndirən Ali Sovetin sədri M.İ.Kalinin yazırdı:

"Hörmətli Mahmud Əbdülrza oğlu! Smolensk və Roslavl şəhərlərinin alınması əməliyyatına bacarıqla rəhbərlik etdiyinizə və faşist işğalçılarına qarşı döyüşlərdə qazandığınız müvəffəqiyyətlərə görə SSRİ Ali Soveti Rəyasət Heyəti Sizi 1943-cü il 28 sentyabr tarixli fərmanı ilə ikinci dərəcəli "Kutuzov" ordeni ilə təltif etmişdir.

Həmin ordeni sizə göndərir və əlinizi möhkəm sıxıram.

M.İ.Kalinin".

Böyük Vətən müharibəsi cəbhələrində mərdliyi, şəxsi nümunəsi və yüksək komandirlik bacarığı ilə fərqlənən general Mahmud Əbilov Brandenburq darvazası önündə qələbəni qarşılıyanlardan olmuşdur. Burada onun diviziyası müttəfiqlərin qoşunları ilə görüşmüşdür. (General Əbilovun qvardiyaçıları birincilər sırasında Elba sahilinə çıxmış və ona Amerika ordeni təqdim edilmişdir. ABŞ prezidenti Harri Trumenin imzaladığı sənədin surəti hazırda Qusar rayon diyarşünaslıq muzeyində saxlanılır. Orada yazılır:

“Ağ ev, Vaşinqton. İnformasiya legionu üçün sitat. Qızıl Ordunun diviziya komandiri Mahmud Əbilov 1943-cü ilin avqustundan 1945-ci ilin may ayınadək çox böyük mərdlik göstərmiş və ona etibar olunan döyüşlərə bacarıqla rəhbərlik etmişdir.

Diviziya onun komandanlığı altında döyüşə-döyüşə Desna çayını keçmiş, Narev çayının sahillərini tutmuş və faşist qoşunlarının böyük bir qrupunu darmadağın etmişdir. Bununla da ordunun əsas qüvvələrinin Berlinə doğru irəliləməsini asanlaşdırmışdır.

General Mahmud Əbilovun cəsur hərəkəti, şəxsi nümunəsi, rəşadəti və mərdliyi diviziya qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə çox kömək etmişdir...”

General Əbilov hünərinə və qəhrəmanlığına görə Amerikanın fəxri “Legionof-merit” ordeni ilə təltif olunmuşdur.

İgid sərkərdə “Lenin” və beş dəfə “Qırmızı Bayraq”, sərkərdələrə məxsus “Kutuzov”, “Suvorov”, “Boqdan Xmelnitski” və Polşa Xalq Respublikasının “Virtuti-Millitari” ordenləri və çoxlu medallarla təltif olunmuşdur.

İki xalqın - Azərbaycan və ləzgi xalqlarının igid oğlu general Mahmud Əbilov istefaya çıxdıqdan sonra Bakı Dairə Zabitlər evi yanında hərbi-elmi cəmiyyətin üzvü olmuşdur. O, 1972-ci ildə yetmiş dörd yaşında vəfat etmişdir.

Qədirbilən xalqımız Mahmud Əbilovun xatirəsini daim əziz tutmuşdur. General-mayor Mahmud Əbilovun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 avqust 1998-ci il tarixli sərəncamı ilə əlaqədar görülən tədbirlər də bu ehtiramın təzahürüdür.

İyun, 1998-ci il.

Vaxt gələr, açılar bağlı qapılar,
Əsrin arxivindən nələr tapılar.

Məmmədhüseyn ŞƏHRİYAR.

UNUTSAQ, UNUDULARIQ...

El şairlərinin sözləri o qədər narın, o qədər incədir ki, insanın ürəyi o sözlərdən öz payını almamış sovuşa bilmir. Onların bəzisini oxuyanda adamın könlü qızılgül qönçəsi kimi çıtlayıb, dodaqlarında gülümsənmək görünüb, gözləri də şəhlalanır. Qəmli, qussəli bir parçası söyləndikdə, qayğı oxları kimi, qulaq asanların qəlblərini dəlik-dəlik edib ilan kimi qıvrıldır.

Solman MÜMTAZ,
Tədqiqatçı-ədəbiyyatşunas.

NÖVCAVANLAR VAR OLSUN...

Biz türklərdə hissiyyat və qədrşünaslıq yoxdur. Şan və şərafətimizə, Vətən və millətimizin sərəfrazlıqına səbəb olan, dilimiz və ədəbiyyatımıza rövnəq verən əziz və möhtərəm vücudların qədr və mənzilətini bilmirik. Onların asari-güzidələri ilə iftixar etmirik. Milliyyət hissi bizlərdə ayılmayıbdır, Vətənimizin, dilimizin və ədəbiyyatımızın qədrini bilmirik.

Firidun bəy KÖÇƏRLİ,
Ədəbiyyatşünas.

Uzaq mənzil gedəcək qonaqlar obaşdan durdular. Cilovdar atları yəhərləyib yüyənləmişdi. Qaynana Tükəzban, gəlini Pəri Soltanla xurcunları qabğarırdı. Tənha tutun altında çilovdar Vaqifin yəhərli-yüyənli atını oxşaya-oxşaya gəzdirirdi.

İki dost isə bir az aralıda sakitcə söhbət edirdilər. Vaqifin dediklərini başıaşağı dinləyən Vidadi sükuta getmişdi. O, ahəstəcə qaldırdığı əlini ustadının çiyninə qoyub:

- Gəl, sən məndən incimə, - dedi ustad, Mələk Cahanı uzağa vermək istəmirəm. Məni düzgün başa düş, balalarıma fərq qoymuram. Dörd balam var, dördüdə mənim üçün əzizdi, doğmadı. Bir də, elə düşünərsən ki, Pəri Soltanın sizin ocağa düşməyinə peşimanam. Yox, vallah, əsla elə deyil. Axı, mən də qoçalmışam, qəlbim nazikləşib, düşkün könlümdə Mələk Cahan balama ayrıca istək var. Ona görə də balamın uzağa düşməyindən ağzım yanıbdı...

Söz tapmayan Vidadi:

- İşi düzəltməməyin xatirinə sən də özünü qoca sanırsan, a Mehdioğlu? Səni anlayıram, rəhmətlik Mədinə xanımın son yadigarıdır, yəqin ona görə... - deyən Vidadi ilk dəfə şagirdini məzəmmət elədi.

- Ustad, bəlkə də sən deyən kimidir. Axşam da bir işarə vurdun, mən də bütün gecənib düşünüb-daşınmışam. Hey fikirləşirəm, görürəm yox... Mələk Cahan anamın, həm də Mədinə xanımın tən oxşarıdır ki, mənə təsəlli üçün dünyaya gəlib. Hər ikisinin iyini ondan alıram. Ona görə də istəməzdim uzağa düşsün.

Molla Vəli incik halda:

- A saqqalı ağarmış, nə vaxtdan doğulduğun el-oba sənin üçün uzaq oldu? Gəncliyindəki şıltaqlıq hələ də qalıb haa... Birdə ki, özgə evinə gəlmirki... öz babası evinə, öz ocağına gəlir də... Sən məni anlamadın, yəni bizim Qazax, Borçalıda qız qəhətliyidi, amma mən istəyirəm ki, Osman ağaya halal adamın südünü əmmiş bir gəlin rast düşsün. - Başını yırğalayıb, təsbehini əsəbiliklə çəkən Vidadi - Yox, yox, səni başa düşə bilmirəm. Onda açıq de, bəlkə başqasına söz vermisən?

Vaqif oğul ərkilə ustadını qucaqlayıb:

- Yaxşı, yaxşı, sən Allah, incimə, - dedi, - Ondan ümid və intizarla cavab gözləyən qocanın kefini açmaq üçün zarafatla: - Günah qızım Pəri Soltandadı...

- Niyə - deyə Vidadi dərhal sərt səslə soruşdu - Mənim gəlinimin günahı nədədi?..

- Günahı odu ki, sizə yaxşı baxıb, əgər Pəri Soltan sizin pişiyinizi ağaca dırmaşdırsaydı Mələk Cahana da elçi düşməzdiniz. Sonra ciddi görkəm alıb, - Axı, bir ailədə iki bacının gəlin olmağına xalq, el-oba necə baxar, ustad? Üstəlik də mən kimsəsiz və yetim qalıram. Mən necə də olsa qürbətdəyəm, ustad məni də düşün. Bir dərdim-sərim olanda kimin yanına gedim, kimlə bölüşüm?

- Bunlar hamısı xırda-xuruş bəhanələrdir. Nə sən yetimsən, nə Qarabağ qürbət deyil. İkincisi də, ay saqqalı ağarmış, iki könül bir olandan sonra kimin ona sözü ola bilər. İki bacının bir evdə gəlin olmağı isə tək bizdə görünməyib ha. Bu, bütün müsəlman dünyasında var, eldə-obada olan adətdir. Osman istəyir, Mələk Cahan da razıdır. Səndən, məndən gizlin uşaqlar işi düzəldiblər. Bir də ki, bunun nəyi pisdi, daha yaxşı, bir evdə iki hava yox, bir hava olar. Dedi-qodu da olmaz, mehribançılıq daha çox olar.

- Sən elə həmişə sakitlik axtarmısan. Azacıq aşım, ağrımaz başımdı, səninki. Söz vermirəm. Qayıdım Qarabağa, Qızxanıma qızın ağzını aradım. Bu xəbəri ilk dəfə sizdən eşidirəm. Doğmaca atası mənəm, bu işdən xəbərim yoxdu. Sən isə deyirsən ki, cavanlar sövdələşiblər. Kefi durulan Vidadi arxayınçılıqla:

- Biz elə hazırlaşırdıq gəlməyə, yaxşı oldu, sən özün gəlib çıxdın, danışdıq ürəyim rahat oldu.

- Ay ustad, deyəsən siz elə toy tədarükündəsiniz?

- Bilmirəm, nə eləyirsən elə, qayıdanda Qarabağa səs sal ki, Mələk Cahana Şıxlıdan nişan gəlir. Qoy Qarabağ igidləri ondan gözünü çəksin. Sən də məni sinnimin ağır vaxtında incitmə, özgə qapısına göndərmə. Danışdıq, vəssalam, - deyib Vaqifə yol tədarükü görənlərin yanına getdi.

Vaqif heç nə demədi. Dan üzünün təmiz havasını udub səmaya boylandı. Açıq səmada yanan alaseyrək ulduzlardan xeyli aşağıda pənbə buludlar sürünürdü. Rütubətli, sərin meh çiskin ətri gətirirdi. Gəmi qayasına yaxınlaşıb dayandı. Çılpaq at üstündə, camışların belində o tay Qarayazıya keçdiyi uşaqlıq, gənclik günlərini xatırladı. Ağzı qaralan Qurd damı tənha gözü ilə bu geniş vadinin keşiyini çəkirdi. Yarğanın dibini yalayıb keçən Kür təbiətin dərin yuxusunu pozmamaq üçün sakitcə axıb gedirdi. Kəndin bir neçə yerində xoruzlar ağız-ağıza verəndə o, geri qayıtdı. Səhər dumanından hələ sıyrılıb çıxmayan kəndə baxa-baxa: "Doğma yurd əzəlim də sən olmusan, axırım da sən olacaqsan. Ya qismət!!!" Vidadi onun qoluna toxunanda diksindi.

- Yenə öz-özünə nə gümüldənirsən? Yəqin doğma yerlər səni ilhama gətirib

- Bu yerlər kimi ilhama gətirməyib ustad, şər deməsən, xeyir gəlməz. Birdən başıma bir iş gəlsə, istərdim ki, əzəlim olan yerdə axırım da olsun.

- O nə sözdü, oğul, səfər üstəsən, ağzını xeyirliyə açsana, heç olmasa ya qismət de...

- Demişəm. Fələyin işini bilmək olmaz. Toxuduğu tor yaman sıxdı. Dünya yaman qarışıb, ustad. Qabağından yeməyənlər, mənəm deyənlər farağat durmur.

- Eh, oğul, doxsan ildi bu dünyanı belə qarışıq görmüşəm. Düzələn tərəzi döyül...

Onlar asta addımlarla qapıya qayıtdılar. Vaqif hamı ilə görüşüb cilovdarın tutduğu ata yaxınlaşdı. Dəri iyi verən yəhərin quşqunundan tutub bir anlığa dayandı. İçəridən sürətlə çıxan Pəri Soltan kəlağayısını düzəldə-düzəldə:

- Ata, bəs mənnən görüşmürsən? -deyib onun boynunu qucaqladı. Bir anlığa atasının boynunu buraxmayıb qulağına pıçıltı ilə nəsə dedi:

Vaqif qızının alnından öpüb kövrək səslə:

- Bəs mənə yazığınız gəlmir, qızım? Mən tənha qalım?.. Of, Mədinə, məni yetim qoydun... - deyib hirslə yəhərə sıçradı.

...Bir aydan sonra Vaqifdən gələn məktub Vidadinin kefini durultdu. Salam-kəlamdan sonra onun yazdığı bircə bənd qoşma Qoca Vidadinin qəddi qamətini düzəldib, kefini xoşhal eləmişdi.

Novcavanlar qoy həmişə var olsun,
Amma ki, bizlərdən xəbərdar olsun.
Vaqifin duası sənə yar olsun!
Səni, haqq saxlasın ömrü dövlətdə.

* * *

Molla Pənah Vaqifin Qafqaziyada vücuda gələn şairlərin babası, ustadı adlanmağa haqqı vardır. Tamam Qafqazda ondan müqəddəm və müqtədir ədib, xoşkəlam və mövzuntəb şair zühur etməyibdir ki, ibtidai-süxən onun adı ilə başlansın.

Firidun bəy Köçərli,
Ədəbiyyatşünas.

Ədəbiyyat tariximizdə Vidadi və Vaqifin dostluğundan çox yazılıb, çox da danışılıb. Hətta namizədlik dissertasiyası da müdafiə olunub. Lakin Vidadi ilə Vaqifin həm də qohum olduqları indiyədək araşdırılıb oxuculara çatdırılmayıb.

On səkkizinci əsrin ortalarında Qazax və Borçalı camaatı tez-tez II İrakli hökumətinə qarşı üsyana qalxırdılar. Üsyanın əsas səbəbi ağır vergi və sərhəd məsələləri idi. 1736-cı ildə Nadir şah tərəfindən Gürcüstana ilhaq olunan Qazax[57] torpağından gürcü tavatları ağayana istifadə etmək eşqinə düşmüşdülər. Onlar Qarayazı meşəsini sərbəst ov yerinə, Ceyrançölü isə mal-qaraları üçün otlaq eləmək istəyirdilər. Bu da Qazax camaatının haqlı narazılığına səbəb olurdu. Basqınlardan, qarət və müharibələrdən cana doyan Qazağın Salahlı, Dəmirçihəsənli, Alpout, Qızılhacılı, Kəngərli, Qaraçarlı, Qaraqoyunlu, Xəlfəli, Boyəhmədli, Səfikürd, Cinli kəndləri Qarabağa köçdü.

---

[57] Həmin ili Qazax mahalı ona görə Gürcüstana ilhaq olunmuşdu ki, Nadir şah Əfşarın Muğanın Cavad şəhərində keçirdiyi şahseçmə qurultayına qazaxlılar gəlməmişdilər. Şahseçmə qurultayına Gəncə xanı Ziyadxanoğlu da gəlmədiyinə görə Nadir şahlıq taxtına əyləşdikdən sonra onun gücünü zəiflətmək naminə Qarabağın Kəbirli, Cavanşir, Otuzikilər və başqa adlı-sanlı tayfalarını Xorasanın Sərəxs vilayətinə köçürmüşdür. Borçalı, Qazax mahallarını isə Gürcüstana ilhaq etmişdir - müəl.

1759-cu ildə bu keçənlər arasında məşhur şair Molla Pənah Vaqifin ailəsi də vardı. Onda Molla Pənah qırx iki yaşında idi. Vaqif Qarabağa köçəndən bir il sonra arvadı Mədinə xanım vəfat edir. Vaqifin yaxın dostu, qazaxlı şair İsrafil Sail onun arvadının ölümünə mərsiyə yazmışdır. Həmin mərsiyənin yaddaşlarda ikicə misrası qalmışdır:

Biçarə Vaqifin - Molla Pənahın,
Hayıf oldu, Mədinəsi yıxıldı.

"Azərbaycan gəncləri" qəzetinin 24 iyun 1978-ci il tarixli nömrəsində Ələmdar Fərzəliyev "Naməlum bir müxəmməs haqqında" məqaləsində yazır:

"Vaqif şerlərində Mədinə həm şəhər, həm qadın adı mənalarında işlənmişdir. "Riyazül-aşiqin" təzkirəsinin müəllifi Məhəmməd ağa Qarabaği, görkəmli tədqiqatçı Salman Mümtaz Mədinəni Vaqifin arvadı hesab etmişlər. Sonrakı tədqiqatçılar da bu mülahizənin doğruluğunu təsdiq etmişlər. "Mədinə" rədifli müxəmməs bu fikrin düzgünlüyünü bir daha sübuta yetirir... Şer 1935-ci ildə Şuşada yazıya alınıb. Respublika Əlyazmaları İnstitutunda saxlanılır".

Vaqifəm, cün ona mən canımı
qurban deyərəm,
Dəhanə, abi-həyat, çeşmeyi-heyvan
deyərəm.
Taqi-əbruyə kəman, kirpiyə
peykan deyərəm,
Bu sifətdə adəm olmaz,
ona qılman deyərəm,
Müxtəsər, türfə mələkdir,
degil insan Mədinə.

Mədinənin Vaqifin birinci arvadı olması faktını Vaqifin müasiri Aşıq Əli Kəlibəri Qaracadaği də təsdiq etmişdir:

Əli çəkər gecə-gündüz ahü zar,
Kəsildi müdəra, getdi ixtiyar,
Vaqif olsun bu mənadan xəbərdar,
Mədinə kuyinə Səkinə gəlmiş.

Firidun bəy Köçərli yazır ki, Səkinə Aşıq Əlinin arvadının adıdır. Qaracadağdan Qarabağa gələndə Aşıq Əli öz hərəmini özü ilə gətirmişdi və Molla Pənahın övrəti Mədinə ilə Səkinə görüşübdür.

Molla Pənah Vaqif ikinçi dəfə Cinlu Dürbənd bəyin qızı Qızxanımla evlənmişdi. Dürbənd bəy çox zəngin, varlı bir şəxs idi. Torpaq mülkünün böyük bir hissəsi Yevlax ərazisində olub. Ötən əsrin sonlarında həmin torpaqları məşhur milyonçu Hacı Zeynalabdin Tağıyev almışdır.

Görkəmli tədqiqatçımız Salman Mümtaz yazır ki, Qızxanım hüsnü kəmalı ilə öz vaxtının ən məşhur gözəli hesab olunurdu. Onu istəyənlər çox olsa da Dürbənd bəy həmşəhərlik münasibətilə Vaqifə verilməsini məsləhət bilmişdi.

Vaqif fövqəladə gözəlliyə malik olan Qızxanımla evləndikdən sonra oğlu Qasımağa dünyaya gəlir.

Bəzi tədqiqatçılar arxiv sənədlərində Vaqifin Qasımağa adlı oğlu olduğuna rast gələndə onu möcüzəli bir tapıntı kimi mətbuat səhifələrinə çıxarır və az qala Səməd Vurğunu ittiham edirlər ki, o, "Vaqif" pyesində Qasım ağanı dəyişib Əliağa edib. Guya qafiyə xatirinə. Bu, dayaz tədqiqatın nəticəsidir. Vaqifin birinci arvadı Mədinədən olan oğlunun adı Əliağa, ikincisi Qızxanımdan olan oğlu isə Qasım ağa idi. Əliağa "Alim" təxəllüsü ilə şerlər də yazmışdır. Müfti Mirzə Hüseyn əfəndi Qayıbzadə "Məcmuə"sində Vaqifin oğlu Əliağa Alimlə şerləşməsini də vermişdir.

Hətta Səməd Vurğunun sağlığında Moskvada rusca nəşr olunmuş (1948-ci ildə) seçilmiş əsərlərində Əlibəyin adının qarşısında "Vaqifin birinci arvadından olan oğlu" sözləri yazılmışdır. Bu izahat sonrakı rusca nəşrlərinin hamısında saxlanılmışdır. Amma əsərin Azərbaycan dilində olan nəşrlərində "Əlibəy Vaqifin oğlu" yazmaqla kifayətlənmişlər.

1950-ci il avqustun 1-də Osman Sarıvəlli Kislovodskidə istirahət edən Səməd Vurğuna yazırdı: " ...Pyeslərin ikinci korrekturası gəldi, sənlə görüşüb məsləhətləşmək istəyirdim. Nə etməli, görüşə bilmədik. Özüm bildiyim kimi düzəltməli oldum.

Səməd! Pyeslərin orijinalında "iştirak edənlər" yox idi (düşmüşdü), yalan-yanlış özüm yazmalı oldum".

"İştirak edənlər" möhtərəm Osman Sarıvəlli tərəfindən yalan-yanlış yazıldığına görə Vaqifin oğlu Əli bəy pyesin Azərbaycan nəşrinin hamısında səhvən "Vaqifin oğlu" kimi verilmişdir. Rusca nəşrində Əli bəyin "Vaqifin birinci arvadından olan oğlu" kimi verilməsindən məlum olur ki, Səməd Vurğun bu faktı bilirmiş, hətta bu fakta "Vaqif" əsərinin özündə də rast gəlirik.

Əli bəy biləndə ki, ögey anası şöhrət naminə İbrahim Xəlil xana ərə getmək istəyir, onda atasına - Vaqifə deyir:

- Ata, qoy öldürüm o mürvətsizi!

VAQİF:

- Əli bəy, alçaldar cinayət bizi:
Bir bax əllərinə, yaraşarmı qan?
Oğlum, yaşatmağa yaranmış insan.

ƏLİ BƏY:

- Bunda qalmamışdır nə namus, nə ar, Vəfasız olurmuş ögey analar... İkinci arvadı Qızxanımın vəfasızlığını Vaqif öz poeziyasında
açıq- aydan bildirir. O, məşhur "Görmədim" müxəmməsinin son bəndində yazır:

Baş ağardı, ruzigarım oldu
gün-gündən siyah,
Etmədim, səd heyf kim, bir mahi

ruxsarə nigah,
Qədr bilməz həmdəm ilə eylədim
ömrü təbah[58];
Vaqifə, ya Rəbbanə, öz lütfünü
eylə pənah,
Səndən özgə kimsədə
lütfü-inayət görmədim.

Bəs, Molla Pənah Vaqifin birinci arvadı Mədinə xanımdan neçə, övladı olmuşdurmu?

Tədqiqat göstərir ki, iki qızı, bir oğlu olmuşdur. Pəri Soltan, Mələk Cahan və Əliağa. Vaqif hər iki qızını yaxın dostu Molla Vəli Vidadinin oğlanlarına ərə vermişdir. Vaqiflə Vidadi şer, sənət dostluğundan başqa iki dəfə quda olmuşlar. Vidadinin böyük oğlu Məhəmməd ağa Vaqifin böyük qızı Pəri Soltanla, kiçik oğlu Molla Osman isə Vaqifin kiçik qızı Mələk Cahanla ailə qurmuşdur.

XIX əsrin tanınmış ədəbiyyatşünası, məşhur maarif və din alimi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin "Azərbaycanda məşhur olan şüaranın əşarına məcmuədir" dörd cildlik toplusunda Yəhya bəy Qazaği adlı şairin bir neçə şeri verilib.

Kimdir Yəhya bəy Qazaği? Ədəbiyyat tariximizdə çox az şerləri qalan bu şair nədənsə unudulub, tədqiq olunmayıb.

Şair Yəhya bəy Qazaği Vidadinin oğul, Vaqifin isə qız nəvəsidir. Onun atası Məhəmməd ağa, anası isə Pəri Soltandır. Bu qohumluq haqqında Firudin bəy Köçərli daha dəqiq məlumat verir. O "Azərbaycan ədəbiyyatı" kitabında yazır: "Yəhya bəy mərhum Molla Vəli Vidadinin fərzəndi Məhəmməd ağanın oğludur ki, əhli elm və sahibi-təb olduğu ilə belə, bir az zarafatcıl və hərzəku imiş... Mərhum Yəhya bəy rövşənzəmin və xoştəb bir şair imiş və özü də iki böyük şairin nəvəsi olduğu üçün babaları Vidadi və Vaqifin təbi-şeriyyəni irsən almışdır" (1-ci səh. 282,283-də). Yəhya bəy cavan yaşında, 1841-ci ildə vəfat etmişdir. Məzarı Birinci Şıxlı kəndindəki qədim qəbristanlıqdadır. Yəhya bəyin müasiri, məşhur şair Kazım ağa Salik Şıxlinski onun ölümündən ağır sarsıntı keçirmişdir. Bunun əyaniliyi Kazım ağa Salikin şairin qəbir daşına yazdırdığı altı misralıq şeridir.

Bu məzarın sahibi Yəhya bəki –
rövşənzəmir,
Şairi-kani-süxən hüsnü-kəlami
binəzir.
Ol Vidadi Xəstənin fərzədinin
fərzəndidir.
Vaqif ol kim, Vaqifin həm bintinin
peyvəndidir,
Çünki, getdi bu cəhandan, buldu

[58] Təbah - puç, məhv, heç, çürük

rəsmi-məğfirət,
Oldu tarixi-vəfatı, Salika,
no axirət.

Kazım ağa Salik Yəhya bəyin ölümünə təkcə şer-sənət dostu kimi yanmırdı. Yəhya bəy həm də onun kürəkəni idi. Kazım ağanın qızı Xeyransa xanım Yəhya bəyin həyat yoldaşı idi. Yəhya bəyin ölümünə dözməyən Xeyransa xanım düz bir ildən sonra -1842-ci ildə dünyasını dəyişəndə dərdli Salik yazırdı:

Cahan, Salik, bizə çünki fədadır,
Duadır, xeyrimiz, ancaq fənadır.
Ağarmış saqqalım gər sürx[59] görsən,
Dü çeşmim qanıdır, sanma hənadır.

Mirzə Hüseyn Əfəndi Qayıbzadənin məcmuəsində Kazım ağa Salikin şair dostu Yəhya bəy Qazağiyə ünvanlanmış beş nəsihət şeri var. Şerlərin məzmunundan hiss olunur ki, Yəhya bəy ədalətsizliyə dözməyən, həmişə haqqın tərəfini saxlayan kəskin ruhlu bir şair imiş. Mahalda dərəbəylik edənləri həcvə tutduğuna görə onu ölümlə hədələyənlər də az olmamışdır. Salik ona nəsihət edərək deyirdi:

Yəhya bəy, əl götür hərcayi sözdən,
Bir şey hasil eylə olmadan həlak,
Kedər cani pak.
Bir gün səndən oğul-uşaq yad olur,
Salıb gedər səni anda dərnak,
Yəni ziri xak.
Yəni ziri-xakə qoyarlar səni,
Mürdəşirlər tamam soyarlar səni,
Anda oyum-oyum oyarlar səni,
Olur qərargahın bir dərin məğak,
Görünməz əflak.

Cavan olmasına baxmayaraq, Yəhya bəy Qəzaği dövrünün görkəmli şairləri Dağkəsəmənli Mustafa ağa Nasirlə, Mirzə Məhəmməd ağa Qayıbovla, Kazım ağa Saliklə, Şıxlı Əbdürrəhman ağa ilə, Kəmərli İbrahim ağa Qiyasbəyovla, Salahlı Sədəfoğlu Süleyman koxa ilə sənət meydanında şerləşmişdir.

Araşdırmalar vasitəsilə öyrənə bildik ki, şair Yəhya bəy Qazağinin yeganə qızı Fəxrənsə xanım şair Mirzə Nəbi əfəndi Qayıbzadənin (1810-1869) həyat yoldaşı olmuşdur. Mirzə Nəbinin oğlu isə XIX əsrin məşhur şairi Abbasağa Nazir Qayıbzadədir.

---

59 Sürx - qırmızı.

Respublika Əlyazmaları İnstitutunun elmi arxivində şair Abbasağa Nazirin çap üzü görməmiş "Bəyani halım" adlı qiymətli bir poeması saxlanılır. Nəsli-nəcabətini, doğulduğu mahalın tərifini nəzmə çəkən şair yazır:

Min səkkiz yüz idi, qırx doqquz
Ki, vücudum ədəmdən etdi büruz.
Doqquzuncu günündə oktyabrın
Məskənim oldu səfhəsi dəhrin.
Adımı qoydular mənim Abbas,
Şöhrət etdim bu adla bəynünnas.
İsmi Mirzə Nəbi idi atamın,
Adı Fəxrünnisə idi anamın.
Əsrin əllaməsidi[60] **desəm atam,**
Zənn olunmaz mübaliğə bu kəlam.
Bir xirədmənd mərdi-danəmənd
Zirəkü durbinü qeyrətmənd
Sahibi elm, əhli fəzlü-kəmal
Nitqi şirin, çox fəsihməqal.

1993-cu il.

ŞİRVANLI
ŞAİR NASEH

1903-cü ildə Firidun bəy Köçərlinin "Azərbaycan türklərinin ədəbiyyatı" kitabı Tiflisdə nəşr olundu. Kitabı ədəbi ictimaiyyət çox böyük maraqla qarşıladı. "Tiflisskiy listok" qəzeti yazırdı: "Müasir oxucunun böyük əksəriyyətinə Azərbaycan ədəbiyyatı haqqında heç bir şey məlum deyildir. Onunla ancaq bəzi mütəxəssislər tanışdırlar. Buna görə də bir neçə gün əvvəl haqqında müxtəsər məlumat verdiyimiz Firidun bəy Köçərlinin yenicə çıxmış, azərbaycanlıların ədəbiyyatına həsr olunan kitab xüsusi maraq doğurur".

Araşdırmalar göstərir ki, Firidun bəyin "Azərbaycan türklərinin ədəbiyyatı" kitabının nəşr olunması ziyalılar üçün tam bir sevinc olmuşdur. Kiyevdə təhsil alan azərbaycanlı tələbələr, Bakı, Tiflis, İrəvan ziyalıları, Dərbəndin bir qrup din xadimi, Novorossiya imperator Universitetinin tələbəsi Nəriman Nərimanov, Omsk şəhərinin sakini Məhəmmədov və başqaları Firidun bəyin bu zəhmətini millətimiz və xalqımız üçün əvəzsiz töhfə kimi qiymətləndirirdilər.

Kitabı qəza mərkəzində yaşayan ziyalılar da maraqla qarşıladılar. Onlar vaxtilə şairlik etmiş ata-babaları haqqında Firidun bəyə məlumat verir, sandıqçalarda saxlanan əlyazmalarını, cünkləri ona göndərirdilər.

---

[60] Dərin bilikli, alim, bilici - müəl.

Şamaxıdan Ağaəli bəy Əfəndizadə Şirvan şairlərinin bir bağlama şerlərini göndərmişdi. Onların arasında Naseh təxəllüslü şairin də bir neçə qəzəli vardı. Firidun bəy bağlamadakı şerlər içərisində ən çox Nasehin qəzəllərini bəyənmişdi. Ona görə də Ağaəli Əfəndizadəyə məktub yazıb rica edirdi ki, yeni kitabına daxil etmək üçün Naseh təxəllüslü şairin qəzəllərindən bir neçəsini yenə göndərsin.

Bir neçə gündən sonra Abbas Səhhətdən aldığı məktub Firidun bəyi heyrətdə qoydu. Səhhət yazırdı ki, Sizə şerlərini Naseh təxəllüsü ilə göndərən Ağaəli bəy Əfəndizadənin özüdür. Ağaəli bəy utancaq və təvazökar olduğuna görə Sizə özü barədə məlumat verməmişdir.

Sonralar Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" kimi sanballı əsərinin "Şirvan şairləri" fəslində şamaxılı Ağaəli bəy Nasehi hörmət və məhəbbətlə yad edirdi:

"Ağaəli bəy Naseh şerləri qayət dərəcədə gözəldir. Ol şəxsin özü isə farsca, rusca savadlı bir şəxsdir. Hətta ərəbcəni də yaxşı bilir. Xüsusən Ağaəli bəy Nasehin haqqı bizim boynumuzda artıq dərəcədədir ki, Şamaxı şüərasının tərcümeyi-hallarına dair bir çox məlumat bizə cəm edib göndərmişdi. Bu barədə ol cənaba səmimi-qəlbdən razılıq izhar edib, Cənabi-həqqdən ona xoşbəxtlik və tuliəmr mərhəmət olunmasını təmənna edirik".

Müasirlərinin xatırladığına görə, Firidun bəy Köçərlinin bu sözləri Ağaəli bəy Nasehə verilən ən düzgün qiymətdir.

İndiyədək ədəbiyyatşünaslığımızda tədqiq olunmayan Naseh təxəllüslü şair Ağaəli bəy Hacı Məhəmməd oğlu Əfəndizadə 1856-cı il sentyabrın 10-da Şamaxıda anadan olmuşdur. İlk təhsilini Şamaxıdakı "Üsuli-cədid" məktəbində almışdır. Atası tacir olduğundan ona ticarət işlərində köməkçi olan Ağaəli bəy on altı yaşına çatdıqda fars və türk dillərində aldığı təhsillə kifayətlənməyib rus dilində də oxumağa həvəs göstərmiş və üç sinifli şəhər məktəbində dörd il təhsilini davam etdirmişdir.

Respublika Əlyazmalar İnstitutunun xəzinəsində "Nasehin tərcümeyi-halı" adlı əlyazma saxlanılır. Əlyazmanın müəllifi göstərilməsə də, üslubundan və faktlardan onun müəllifinin məşhur maarifçi Camo Cəbrayılbəylinin olduğunu biz şəkk-şübhəsiz təsdiq edirik. Çünki Camo Cəbrayılbəylinin 1966-cı ildə nəşr olunmuş "Xatirələrim" dəki faktlarla Əlyazmalar İnstitutunda saxlanan "Nasehin tərcümeyi-halı"ndakı faktlar arasında çox böyük oxşarlıq var. Camo xatirələrində etiraf edir ki, Nasehin tərcümeyi-halını ondan yaxşı bilən yoxdu. "Mən hələ uşaq ikən ailəmiz Nasehgil ilə yaxınlaşmış, Naseh böyük bacımla evlənmişdi".

Camo Cəbrayılbəylinin Əlyazmalar xəzinəsində saxlanan yazısı Nasehin ilk gəncliyi haqda daha "maraqlı faktlarla zəngin olduğu uçün bir parçanı diqqətinizə çatdırırıq:

"Babası Hacı Baba Əfəndi zəmanəsinin adlı adamlarından olub öz övladları üçün bir qədər maddi ehtiyat qoymuşdu.

Hacı Məhəmməd bir müddət ticarətlə məşğul olduqdan sonra kasıblığa düşüb vəfat etmişdir. Ağaəli bəy yalnız öz təşəbbüsü ilə uyezdnoye uçilişe adlı məktəbə girib orada oxumağa başlamış, bərabər olaraq türk, ərəb və farsca dəxi Molla Camı adlı şəxsin mədrəsəsində təhsilə davam edirmiş.

Rusca məktəbə girməsindən qoca anası və əqrəbası məmnun deyillərmiş. Çox vaxt anası Pərizad rus dilində yazılmış kitabları gizlədərmiş, ya da çölə tullarmış. Bununla belə az bir zamanda təhsilində müvəffəqiyyət qazanıb yavaş-yavaş fars kitabları oxumağa başlamışdır. Ehtiyac məcbur etdiyi üçün təhsili buraxmış və uyezdnoye uçilişenin üçüncü sinfindən çıxıb qulluq etməyə məşğul olmuşdur. Bir müddət əvvəl Kürdəmirdə, sonralar Şamaxıda silistçi dilmancı vəzifəsində çalışaraq dolanmışdır. Həm rusca, həm də türk, ərəb və farsca mütaliə edərək təhsilini daim artırmağa çalışmışdır. Nəhayət, rus və türkcə mükəmməl savadlı olduğu üçün o vaxtkı mülahizələrə görə, bir qədər də tərəqqi edərək mirovoy sudda katib müavini vəzifəsinə cəlb olunumuş.

Hələ çocuq ikən şer yazmağa həvəsi olduğu üçün doqquz yaşında yazdığı məktubu nəzmlə yazmağa can atmışmış. Bir tərəfdən çarizm siyasətinin boğucu təsiri, o biri tərəfdən zəmanəsinin şairlərlə rəqabətsizliyi, nəhayət, ən cüzi bir dolanacaq ehtiyacı vaxtını əsər yazmağa sərf etməyə imkan verməmişdir. Şerlə yalnız imkan bulduğu zaman məşğul olurmuş. Ərəb və farsca biliyi o dərəcədə idi ki, istər ərəbcə, istərsə də farsca kitabların üzərilə göz gəzdirib hekayə kimi nəql edərdi.

Çocuq ikən başına toplanıb “Min bir gecə” dən hekayə söyləməsini rica edərdik. Şerlərini Sabir, Səhhət, Tərrah, Hacı İsmayıl Veysov və bir-iki nəfər sair yaxın adamlardan ibarət olan məhramanə məclisdə oxuyurdu.

Çox zaman Firidun Köçərli ilə yazışaraq öz əsərlərini ona göndərərdi. İlk zamanlar Naseh Köçərliyə kim olduğunu söyləməyib Nasehin şerləri haqqında onun rəyini sorurdu. Köçərlinin məktubunun birində “Nasehin şerləri fil-həqiqət qüvvətlidir və xoşuma gəldi” yazısını şəxsən özüm 1912-ci ildə oxumuşam. Səhhət, Sabir, Tərrah da öz şerlərini Köçərliyə Naseh vasitəsilə göndərirdilər.

Zatən çox utancaq və başıaşağı bir adam olduğu üçün yazdıqlarını hələ-hələ meydana çıxarmazdı və yalnız ən yaxın adamlar üçün oxuyurdu”.
Naseh çox gənc ikən Şamaxıdakı “Beytüs-səfa” şairlər məclisinin fəal iştirakçısı olmuşdur. “, Məhəmməd Səfa, Ələkbər Qafil, Qafar Rağib, Molla Ağa Bixud, Ağababa Zühuri, Mirzə Mahmud Zui, Mirzə Məmmədhəsən Nalə, Salik Şirvani kimi klassik üslubda yazan şairlərlə şerləşmişdir.

Şerdə, sənətdə ən yaxın dostları Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məhəmməd Tərrah və Məhəmməd Hadi olmuşdur. Məclislərdə oxunan şerlərə ən düzgün qiyməti Naseh verdiyinə görə dostları onu öz aralarında Mizanüşşüəra - şairlərə qiymət verən ən düzgün tərəzi adlandırırdılar. Seyid Əzim Şirvanidən sonra Şamaxı şairlər məclisinin rəhbəri Ağaəli bəy Naseh olmuşdur.

Nasehin qaynı, məşhur maarifçi Camo Cəbrayılbəyli xatirələrində yazır ki, Mirzə Ələkbər Sabirin rus dilini az-çox öyrənməsində hamıdan çox Nasehin təsiri olmuşdur.

Nasehin məsləhətilə Abbas Səhhət tədriclə rus dilində oxuyur, klassikləri öyrənirdi. Onun üçün aydın olmayan cümlələr və kəlmələrin izahı haqqında Nasehə müraciət edirdi. Naseh isə hər bir sözün həqiqi və məcazi, dar və geniş mənasını cümlə içərisində konkret misalla izah edirdi. Nasehlə Səhhət arasındakı belə elmi mübahisədən mən daha çox qazanırdım. Birindən rus dilinin incəliklərini, o birindən Şərq ədəbiyyatının qüdrətini öyrənirdim.

Abbas Səhhət də bu yaxşılıqları unutmamış, 1912-ci ildə məslək dostuna "Naseh" adlı gözəl bir şer həsr etmişdir.

Naseh, ey nüsxeyi-kübrayi-kamal:
Naseh, ey gövhəri-dəryayi-kamal!
Lütf ilə bizləri şad etmişdiz.
Sabiri, bəndəni yad etmişdiz.
Oldu məktubi-şərifiz vasil –
Dəsti-şükranımıza, əlhasil.
Oxuduq cümlə nəsihətlərizi,
O gözəl, dadlı məzəmmətlərizi. ...
Doğrudur, sözləriniz, can Naseh,
Ey hünərməndi-süxəndan, Naseh!

Ağaəli bəy Naseh təbiətən çox ciddi adam olmuşdur. Həmişə qəmli və fikirli gəzən Naseh Şamaxı divanxanasında katib vəzifəsində işləmişdir. Altı nəfərdən ibarət ailəsini güclə saxlayan şair həm də mirzəlik etmişdir.

1911-ci ildə Jupranski adlı bir nadanın Şamaxı qəza rəisi və qaragüruhçu, şovinist Kolomentyev familiyalı bir rusun divanxana rəisi təyin olunması bütün Şamaxı maarifçilərinin ruhdan düşməsinə səbəb oldu. Heç kəslə hesablaşmayan, kimsəni belə saymayan Jupranski qulluqda olan azərbaycanlıları incidir, yersiz bəhanələrlə şərə salıb işdən çıxarır, söyüb təhqir edirdi. "İdarəmiz rus idarəsidir, iş başında da mütləq ruslar olmalıdır" - deyən Jupranski bacarıqlı, savadlı azərbaycanlıları xidmətdən kənar edirdi. Ömrünün otuz ilini məhkəmə idarəsində keçirən əlli beş yaşlı Nasehi də nadan Jupranskii yaramaz sözlərlə təhqir edir, onu qulluqdan qaçırmağa çalışırdı. Saf qəlbli Naseh nə Jupranskinin, nə də Kolomentyevin şovinist hərəkətlərinə dözə bilmirdi. Bu millətpərəstləri şerlə qamçılamaqdan başqa çarəsi yox idi.

Basıb aləmləri bidadu ədalət yoxdur,
Qövllər kizb, əməl ləğv,
sədaqət yoxdur,
Həsədü büğzdən özgə dəxi adət yoxdur,
Heç bir kəsdə vəfa,
sidqü dəyanət yoxdur,
Nasəza föhşü iza, qeybətü
böhtan görürəm.
Çəkilib hər biri bir guşəyə
ərbabi-ədəb,
Matü heyran dayanıb, qönçə kimi
açmaz ləb,
İtib ortada nəcabət, yox olub
əsli nəsəb,
Kim ki, bir şapka geyib, gördü də
üç gün məktəb,

İddiasında onu saniyi-loğman
görürəm.

Naseh bu müxəmməsində yana-yana deyir ki, dünyanın işlərini nadanlar idarə edir, haqqın yerini nahaq tutub, ədalət və mürvət əvəzinə zülm, yalanlar meydan oxuyur. İnsanlar daş qəlbli olub, məhəbbət və ülfətdən qeyb olublar - deyə, şair fəryad edir.

Lakin bu nikbin şairin təsəllisi də var. İnsana, əsl-nəcabətli adamlara inamı da.

Ülfəti, sədaqət və dəyanəti də şair Naseh nücabə insanlarda görür və bununla da özünə "Səbr eylə" mürəbbesində təsəlli verir.

Məhəbbət əhli, Naseh,
təneyi-əğyardan qaçmaz,
Cəfalar gəlsə güldən bülbülə,
gülzardan qaçmaz,
Yanar hicran ilə pərvanələr tək,
nardan qaçmaz,
Vəfa göstər, nisar et canını canana,
səbr eylə!

Təəssüf ki, klassik şairimiz Ağaəlibəy Nasehin bir neçə şer, qəzəl və mürəbbeləri, müxəmməsləri qalmışdır. Onun əsərləri 1902-ci ildə Şamaxı zəlzələsində və 1918-ci ildə ermənilər Şamaxını yandıranda itib-batmışdır. Onun Seyid Əzim Şirvaninin ölümünə yazdığı "Getdi" qəzəli saf dili, məna tutumu ilə oxucunu heyrətdə qoyur.

Qan ağla, gözüm,
sərvəri-dövran getdi,
Sərdəftəri-əhli-fəzlü ürfan getdi.
Əfsus o şairi ədəbü kamil,
Əhbabı edib zarü pərişan getdi.
Ayineyi-ovqat idi ol zati-şərif,
Səngi-əcəl ilə sındı əlan getdi.
Heyrətdəyəm, ey xak, necə sığdırdın
Ağuşuna, ta o bəhri-ümman getdi.
Cufində çox idi gərçi
kani-zərü ləl,
Dəfn olmağa səndə başqa
bir kan getdi.
Etmişdi qəza gər səni əmvatə məqam,
Fəxr et ki, bu dəm cismin üçün
can getdi.
Naseh dedi tarixi-vəfatın qəm ilə,
Səd heyf ola, Seyyidi-Şirvan getdi.

Şamaxıda məhkəmə katibi vəzifəsində çalışan Ağaəli bəy Naseh Əfəndizadə 1914-cü ildə vəfat etmişdir. Onun vəfatının şahidi olan qaynı Camo cəbrayılbəyli xatırlayır ki, Naseh bir dəfə evə çox əsəbi gəldi. Hirslənərək dedi ki, bu qulluq adamı lap inək edərmiş... Vicdansız Kolomentyevin üzünə tüpürüb istefa üçün ərizəmi verdim, həqarətdən qurtardım, başqa çarəm yox idi. Əsəbləri pozulan saf qəlbli Naseh yatağa düşdü.

Bir gün eşitdim ki, çox ağırdır. Əhval-pürsan olmağa getdim. Naseh şiddətli hərarətin təsirindən sayıqlamaqda davam edirdi. Azca ayılan kimi uşaqlarını çağırıb üzlərinə güldü. Bu zaman gözlərinin dolduğunu gizlətmək üçün üzünü divara çevirdi.

Beş-altı gün ağır xəstə yatdı. Nəhayət, ürəyi davam gətirmədi və altı xırda uşağını gözü yaşlı qoyub bizi həmişəlik tərk etdi.

Şer-sənətdə böyük Sabirin, Səhhətin, Hadinin xeyirxah məsləhətçisi olan saf qəlbli Nasehdən bizə şerləri ilə bərabər Respublika Əlyazmaları İnstitutunda saxlanan bircə fotoşəkil qaldı.

Nasehin son oğul yadigarı Cümşüd Əfəndizadə ötən il işıqlı dünyamızı tərk etdi. Əlli ildən çox Bakı Dövlət Universitetində çalışan Cümşüd müəllimlə görüşüb söhbət etmək bizə qismət oldu. Şair atası Naseh haqqında məlumatları da bizə rəhmətlik Cümşüd müəllim verdi.

1994-cü il

ŞAİR DİLBAZOĞLU

Hörmətli redaktor!

Bu günlərdə qəzetinizdə[61] “Böyük türklər” rubrikası ilə verilmiş yazıçı dostum Əlisa Nicatın “Cavadxan” oçerkini maraqla oxudum. Yüz səksən səkkiz il unutduğumuz yenilməz Cavad xan haqqında demokratiyanın işığında haqlı olaraq çox yazılır və danışılır. Bu məğrur igid buna layiqdir. Bu yazıdakı faktların yeniliyi məni daha çox heyran etdi. Bunun üçün zəhmətkeş qələm dostuma ürəkdən təşəkkür edirəm.

Sizə müraciət etməkdə bir məqsədim də ondan ibarətdir ki, böyük şairimiz Molla Pənah Vaqif əsrinin müqtədir sənətkarı Əbdürrəhman ağa Dilbazoğlu “Şair” təxəllüsü ilə Cavad xana yazdığı “Eylədi” adlı qoşmasını oxucularınıza təqdim edim.

Sağlığında Kor Əbdürrəhman ağa adı ilə tanınan şairin çox az əsərləri bizə gəlib çatıb. İlk dəfə onun şerlərini yazıya alan məşhur din alimi, maarifçi Mirzə

[61] Məktub-məqalə 1992-ci ilin iyulunda "Novruz" qəzetinə yazılıb - müəl.

Hüseyn əfəndi Qayıbzadə olmuşdur. O, 1860-cı ildə M.F.Axundovun məsləhəti ilə tərtib etdiyi dörd cildlik "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" toplusunda Əbdürrəhman ağa Dilbazoğlunun "Dağlar", "Ağlaram", "Eylədi" qoşmalarını və Cavad xana yazdığı otuz doqquz bənddən ibarət müxəmməsini daxil edib. Şair Əbdürrəhman ağa yenilməz Cavad xana bir qoşma və bir müxəmməs yazmışdır.

Ədəbiyyatşünaslığımızın atası, müqtədir tədqiqatçı Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" adlı iki cildlik sanballı əsərində Əbdürrəhman ağanın yaradıcılığından danışanda onun məhz Cavad xana yazdığı müxəmməsini yüksək qiymətləndirir. O yazır:

"Mərhum Əbdürrəhman ağanın əsərlərində ən əhəmiyyətlisi Gəncə xanı Cavad xan Ziyadxanoğlunun rus qoşunu ilə 1804-cü səneyi-miladidə etdiyi cəngin və xaniməfhumun göstərdiyi rəşadət və hünərin və filcümlə onun sərgüzəştinin barəsində yazdığı müxəmməsdir".

Firidun bəy Köçərlinin şair Əbdurrəhman ağa Dilbazoğlu haqqında tədqiqatı bir də ona görə əvəzsizdir ki, burdan oxucuya məlum olur ki, qırx iki yaşında şairi gürcü çarı II İrakli gözdən nəyə görə məhrum edib. Axı, 1799-cu ilin yayında Ağa Məhəmmədşah Qacarın Tiflisə müzəffər yürüşündə Cavad xan da fəal iştirak etmişdi. O vaxtlar Qazax qəzası Gürcüstanın himayəsində idi. Əli bir yana çatmayan II İrakli çuğulların fitvası ilə Cavad xanın qəhrəmanlığını tərənnüm edən şair Əbdürrəhman ağanın gözlərini çıxartdırır. Bu barədə Firidun bəy Köçərli daha dəqiq məlumat verir:

"Bəzi müfsidlərin ki, (**fəsad salan, düz işi pozan - Ş.N**.) Əbdürrəhman ağa ilə şəxsi ədavətləri var imiş, şeytənət ilə Gürcüstan hakimi İrakli şah şairdən bədgüman olur ki, guya Əbdürrəhman ağa Qazax mahalının Cavad xana tabe olmasına səy və güşiş edir və Cavad xan ilə həmsirdir. Onların mabeynində bir para siyasi və mühüm məsələlər barəsində məxfi gövtükulər olunur. İrakli şahın qəzəbi cuşə gəlib şairin haqqında böyük zülm və siyasət edib gözlərini çıxartdırır.

Bilmək gərəkdir ki, Əbdürrəhman ağa ziyadə maddəli, fəsih və dilavər bir adam imiş ki, doğru söyləməkdən əsla ehtiyat xövf etməz imiş və öz eli içində nüfuzlu və möhtərəm və sözü ötgün sayılırmış. Tamami hünər və səyini öz elinin və vətəndaşlarının xeyir və səlahı yolunda sərf edərmiş. Vəli mərhumun bədxahı və düşmənləri də çox imiş. Öz işi və səlahını unudub camaat dərdinə yanmaqdan axrı düşmənlərinin hiylə və şərarəti ucundan çeşmi-cahanbinindən məhrum olur".

Bəli, belə qədir və qiyməti bilinməyən millət bahadırlarının haqqında deyirlər ki: "El üçün ağlayan gözsüz qalar!" Maraqlıdır ki, 1804 -cü ildən ta bu günlərimizə qədər Əbdürrəhman ağadan başqa heç bir şair cəsarət edib ruslara qarşı vuruşan, torpağını, elini istilaçılardan qoruyan mərd Cavad xana belə bir qəhrəmanlıq nəğməsi yazmamışdır.

Qaldı tənha ol Cavadxan, gör necə ad
eylədi,
Urdu tiğin sərbəsər küffarə bidad
eylədi,
İki bürcün saldatın çox qırdı,

bərbad eylədi,
Əhli beytin möhnətin ol dəmdə kim, yad
eylədi,
Ya İlahi, saxla sən der, intizarəm
yardən.
Çağırur ərşdə mələklər, mərhəba,
ey xan Cavad,
Din yolunda qıldın axır ömrünü viran
Cavad,
Məsnədi-ücbadə oldun sahibi-dövran
Çavad,
Mənzilindir, durma gəl,
bu rövzeyi-rizvan Cavad,
Seyr qıl cənnəti-təcri
təhtiha -inəhardən
Ol Ziyad, oğlunu sanma mülki əbədi
viran ola,
Hardadır anlar kimi sərdar,
əgər meydan ola,
Hər zaman zün-intiqamdan əmr ola,
fərman ola,
Şaira, heyraniyəm ol gün ki, bu divan
ola,
Ol Ziyad oğlu deyən bir gün gələn
sərdardən.

Ruslar Gəncəyə hücum edəndə ermənilərin satqınlığını, "Tiflis Qapısı"nı açıb gavur həmməzhəblərini qalaya buraxmasını, Cavad xanın tənha qalmasını da ürək yanğısı ilə qələmə alıb:

Ermənistan gördi rusi, döndi birdəm
hər nə var,
Şəmsəddin xəlqi əzəldən çıxdı,
getdi bərkənar.

Əbdürrəhman ağanın mənsub olduğu Dilbazilər nəsli ötən əsrlərdə bir neçə görkəmli şair yetişdirmişdir. Onun iki bacısı oğlu - Mustafa ağa Arif Şıxlinski (1774-1845), Kazım ağa Salik Şıxlinski (1781-1842) və əmisi oğlu, "Vəhidi" təxəllüslü Hacı Rəhimağa Dilbazov (1822-1875) zəmanənin, dövrün məşhur şairləri olmuşlar.

Firidun bəy Köçərli, Mirzə Hüseyn əfəndi Qayıbzadə, Salman Mümtaz, Feyzulla Qasımzadə, Həmid Araslı kimi müqtədir ədəbiyyatşünaslar bu şairlərin yaradıcılığı haqqında məhəbbətlə söhbət açıblar. Əbdürrəhman ağa bu günümüzün görkəmli şairi Mirvarid xanım Dilbazinin ulu babasıdır.

Hörmətli redaktor, şair Əbdürrəhman ağa Dilbazoğlunun Cavad xana yazdığı otuz doqquz bəndlik müxəmməsi bir poema həcmindədir. Təbiidir ki, qəzetinizin belə böyük həcmli müxəmməs dərc etmək imkanı yoxdur. Ona görə də şair Əbdürrəhman ağanın altı bəndlik "Eylədi" qoşmasını möhtərəm oxucularımıza təqdim edirəm.

EYLƏDİ

Gəncənin fəth və zəbti babındadır,
Dövləti-rusiyyə ilə Cavad xanın
cəngi və qətlə yetişməgi
xüsusundadır.

Ey qazilər, gəldi qəzadan bəla,
Bir olmaz müsibət dövran eylədi.
Yüz verdi qövqayi-dəşti-Kərbala,
Ruslar Gəncə şəhrin viran eylədi.

Ruslar Gəncəyə oldu havalə,
Döküşdü Cavad xan, gəldi zəvalə,
Gəlmədi Azərbaycan bu qeylü qalə,
Nə bir kömək Şəki, Şirvan eylədi.

O zaman ki, Rəsul ruzi-rəğayib,
Buyurmuşdu, ümmətim görər əcayib,
İza təmm-ül-qürab təril-əcayib,
Hədisin peyğəmbər əyan eylədi.

Mövla ki, oldu Cavad xandan razı,
Pozulmaz təqdirdə yazılan yazı,
Xəbərdar olmadı xunkar qazı,
Nə bir mədəd şahi-İran eylədi.

Cavad xan ki zühur oldu anadan,
Bir mərd idi əzəl başdan, binadan.
Şəhid oldu, çıxdı dari-fənadan,
Mənzilin rövzeyi-rizvan eylədi.

Şair onda məzlum olan canların,
Həqq eylər divanın ol yamanların,
Mən də heyraniyəm ol zamanların,
Görəm Uğurlu xan fərman eylədi.

Hələ ötən əsrlərdə igid Cavad xanın qəhrəmanlığı elə yüksək məqama qalxmışdı ki, hətta düşmənlərimiz belə onun yenilməzliyini etiraf etməyə məcbur olmuşlar. XIX əsrin rus hərb tarixçisi İ.Dubrovin yazır ki, Cavadxan son dərəcə fəndgir və qisasçı, həmçinin ağıllı, hazırcavab və sərt, sözü ötən, çevik siyasətçi, hər çətin məqamda vəziyyətdən çıxmağı bacaran bir şəxsiyyət idi.

1992-ci il.

KAZIM AĞA SALİK ŞIXLİNSKİNİN BAYATI BOXCASI

Hər dəfə Respublika Əlyazmalar İnstitutunda işləyən dostum Seyfəddinin yanına yön salanda maraqlı bir faktın şahidi oluram.

...Təxminən on-on iki il əvvəlin söhbətidir. Bir günorta üstü yenə dostuma baş çəkməyə gəldim. İş otağı bağlı idi. Geniş foyenin açıq pəncərəsindən onun məşhur alim Məmmədağa Sultanovla yanaşı oturduğunu gördüm. Həyətə düşüb onlarla görüşdüm. Məmmədağa müəllim Seyfəddinə ötən illərdə görüşdüyü xas kişilərdən maraqlı söhbətlər edirdi. Belə söhbətlərin vurğunu olduğumdan cınqırımı çıxarmadan mən də oturub diqqət kəsildim. Bu nurani kişi, gözəl alim elə dəqiqliklə və yığcam danışırdı ki, adam istər-istəməz ona həsəd aparırdı. Fasilə vaxtı olduğundan o, bir-iki dəfə ötəri saatına baxıb ayağa durdu. Bir neçə addım atar-atmaz zəndlə mənə baxıb:

- Seyfəddin, - dedi, - səni qonağın gözləyir, məni də hökumət işi. Gedək...

Seyfəddin əlini çiynimə qoyub:

- Qonağım jurnalistdi, - dedi, tarixi əhvalatlarla, Sizin haqqında danışdığnız kişilərin söhbətlərilə çox maraqlanır.

Məmmədağa müəllim təəccüblə mənə baxıb:

- Suyu şirindi, tanış gəlir - dedi.

- Mənim dostumdu. Tez-tez gəlir bura.

Televizorda da görə bilərsiniz. Hərbi verilişlərdə çıxış edir.

- Generallardan, sərkərdələrdən danışır, eləmi?

- Özüdür ki, var. - Seyfəddin sevinclə cavab verdi.

Mən ürəklənib:

- Məmmədağa müəllim, - dedim, təkcə generallarla yox, həm də şairlərlə maraqlanıram. Xüsusilə, ötən əsrin və bu əsrin əvvəllərində yaşayıb-yaratmış sənətkarların həyatından mütaliə eləməkdən çox xoşum gəlir. Sizin bu sahədə xidmətiniz çox böyükdür. Amma icazə verin, soruşum, niyə indiyədək Abbasqulu ağa Bakıxanovun tam külliyyatı nəşr olunmayıb? Siz bu sahə ilə neçə illərdi ki, məşğul olursunuz. Nə vaxtadək təkrar-təkrar bir cildliyi oxuyacağıq? Orada əsərlərinin əksəriyyəti də ixtisarla nəşr olunub. Qarşıdan Qüdsinin 190 illiyi gəlir, heç olmasa onda oxuya biləcəyikmi?

- Haqlı sualdı, haqlı tələbdi, oğul. Hələ bir neçə il əvvəl (o dəqiq dedi, amma mən unutmuşam) Abbasqulu ağanın əsərlərinin tam külliyyatını nəşrə hazırlayıb təqdim etmişəm. Nəşriyyata

gedib-gəlməkdən daha utanıram. Hələ dəqiq bir şey hasil olmur. Yüz doxsan illiyinə söz verirlər, amma bilirəm ki, yalan deyirlər. Üzüm də gəlmir deyəm ki, ay nəşriyyat işçisi, oğul, mənə niyə yalan danışırsan? Görək, ya qismət, amma laqeyd millətik, laqeyd... Sən ondan dissertasiya yazırsan, nədi?

- Yox, - dedim, sadəcə olaraq yaradıcılığının vurğunuyam. Bir də mənim ən çox xoşuma gələn şair Abbasağa Nazir Qayıbzadədir. Siz onun rübailərini "Keçmişimizdən gələn səslər" almanaxında dərc etdirmisiniz. Məndə birBəyani-halım" adlı poeması və xeyli də şerləri var. İstəyirəm, onun və inqilabdan əvvəl yazıb-yaratmış qazaxlı şairlərin əsərlərini toplu halında nəşr elətdirəm. Bir xeyli toplamışam. Amma sizin köməyiniz olmasa bu işin öhdəsindən çətin gələm...

- Yaxşı fikirdi, xüsusilə, Nazir inqilabdan sonra tədqiqatsız qalan şairdir. Bilirsənmi Nazir harda dəfn olunub?

- Bilirəm, Qazaxda, doğma Salahlıda, qəbrini ziyarət də eləmişəm. 1919-cu il dekabrın 31-də vəfat edib. Onun ölümü Firidun bəy Köçərlini yandırıb yaxıb.

Getməyi unudan Məmmədağa müəllim həvəsə düşüb:

- Qulaq as, gör bir Nazir yana-yana nə deyir:

Nazir, bədənin xakilə yeksan olacaq,
Dərda ki, vücudun evi viran olacaq.
Tən riğət edib əslinə xak olsa nə qəm,
Səd heyf ki, gənci-nəzm pünhan olacaq.

Buradan oxucu elə başa düşməsin ki, Nazir hər şeydən əlini üzmüş, həyatdan küskün bir insandır. Xeyir. Nikbin bir şair olan Nazir bu rübaisində deyir ki, mən öz ölümümə heyfsilənmirəm. Heyfsilənirəm ki, məndən sonra şer xəzinəsi pünhan olacaq.

Məndə şair Abbasağa Nazir Qayıbzadənin şerləri, qəzəl və tərcümələri çoxdur. Bu günlərdə Kazımağa Salik Şıxlinskinin də bayatılarını tapmışam. Gələrsən yanıma verərəm, sal onları da kitaba.

Müdrik söhbətlərindən doymasam da, onun ayaq üstə qalmağına qıymırdım. Məmmədağa müəllimi pilləkənin yanına kimi öturdüm. O, ayaq saxlayıb:

- Gələn çərşənbə gözləyəcəyəm - deyib asta addımlarla mərmər pillələri qalxdı.

Onun dediyi vaxtda görüşünə gəldim.

- Otur, mən deyim, sən yaz - dedi.

...Xalqımız üçün qiymətli poetik söz xəzinəsi qoyub getmiş görkəmli şairimiz Kazımağa Salik Şıxlinskinin (1781-1842) bayatılarını möhtərəm oxucularımıza təqdim edirəm.

Heç vaxt oxucu nəfəsi görməyən, bu dadlı-tamlı söz incilərində doğma Qazağın füsunkar təbiəti və Salikin vüsalına yetmədiyi ilk məhəbbəti vəsf olunur. Bayatıları mənə təqdim edən mərhum professor Məmmədağa Sultanova Allah rəhmət eləsin. Qoy, müqəddəs torpaq ona qu tükü qədər yumşaq olsun.

Yol düşdü Didvana,
Ərzini de divana,

Salik, gəldi həmdəmin,
Aqilə de divana.

Zəmin nədir, səma nə,
Daşa tutar zəmanə,
Qəm xərmənində Salik,
Axır döndü səmanə.

Görünən Qaraçaldı,
Canım qaraçı aldı,
Sinəndən öpdü Salik,
Ağzını qara çaldı.

Guş etmə hər ədnayə,
Gəl gedək hər ədnayə,
Sana kim dedi Ceyran,
Yoldaş ol hər ədnayə.

Dərya var, yazı vardır,
Kağızda yazı vardır,
Salik, hicran qışının,
Demək ki, yazı vardır.

Görünən haçaqaya,
Şir ver ha bu çağaya,
Salik, günəş camalın,
Dəyişər haçaq aya.

Yapışıb yüzmə zəli,
Danışır yüz məzəli,
Salik dost ətəyindən,
Ölüncə yüzməz əli.

Xədənkin yay iləndir,
Xasilar yayiləndir,
Ceyran, zülfün həlqəsi,
Ya əqrəb, ya ilandır.

Kamanın ox ilandır,
Həriflər oxilandır,
Kiysu deyil yüzündə,
Ceyran qaç, ox, ilandır.

Çəkməsin mərdim azar,
Mərd deyil, mərdi məzar,

Bulud zülfündə Ceyran,
Gəzməsin mərdimazar.

Məclisin nə şamı var,
Nə Bağdad, nə Şamı var,
Salik, dəli Ceyranın,
Nə sübhi, nə şamı var.

14 fevral 1995-ci il.

ŞİRİN DİLLİ MOLLA ZAL

Məşhur ədəbiyyatşünasımız Firidun bəy Köçərli Qıraq Kəsəmənli Mollazal oğlu İsgəndərin ziyadə fəsih (**sözü aydın və düzgün deyən, söz ustası -Ş.N.),** dilavər və cəsur bir kişi olduğunu iftixarla yazıb, Molla Zalın müasiri və dostu şair Mirzə Əfəndi Qayıbov (1810-1889) "Əhli- dövran" şerində çərxi-fələyi lənətləyir ki, dünyadan Molla Zal kimi igidləri də apardı.

Gör necə məğşuşluq olubdur əhval -
Kim, güncü heyrətdə qalıb nitqi lal,
Fəsih sözlü, şirin dilli Molla Zal
Məgər üzün örtüb bel ilə kürək?

Məşhur Qaçaq Kərəmin babası Molla Zal oğlu İsgəndər XIX əsrin əvvəllərində yaşamışdır. Elin yaddaşında bircə şeri və çoxlu müdrik hazırcavablıqları qalıb. O, Bəhlul Danəndə, Molla Nəsrəddin sayağı lətifələri və şerlərilə Qazax, Borçalı mahalında məşhur olmuşdur. Molla Zal deyərmiş: Dindarlar deyir ki, cin "bismillah"dan qaçar, ancaq indi elə dövran gəlib ki, cin özü "bismillah" deyir. Molla Zal yenə deyib ki, südün üzlü olsun, ancaq qonağın üzlü olmasın. Bir də deyib ki, dilini saxlaya bilən, başını da saxlaya bilər.

Bizə gəlib çatan yeganə "Yaxalanmamış" şerində Molla Zal dövrünün haqsızlığını tənqid edir, ərşə çıxan harayında qadir Allahdan kömək diləyir.

Aman təbib, mənə bir əlac eylə,
Sinəm eşq oduna yaxalanmamış.
Ölüb bu dünyadan həsrət gedirəm,
Bir ağ buxaq öpüb yaxalanmamış.

* * *

Versə idin sən mürğinə təzə dən,
Dəxl olmazdım bu azara təzədən,
Yar da mənə yara vurdu təzədən

Köhnə yaralarım yaxalanmamış.

* * *

Molla Zalam, işim yetdi haraya?
Bayram ayı demək olmaz hər aya.
Qadir Allah, özün yetiş haraya
Canım Əzrayıla yaxalanmamış.

QAÇAQ KƏRƏMİ
DOĞAN ANA

"İgidi qılınc yox, qeyrət yaşadar"

Qaçaq Kərəm.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi bayram kimi imperiyanın hər yerində qeyd olunur. Bu münasibətlə çar II Nikolay Rusiyanın mühüm şəhərlərinə ziyarətə gedir. Tiflisə gələn çar şəhərin görkəmli yerlərini gəzir, məktəblərə gedir. Bir aya yaxın bal-ziyafətlərdə eyş-işrət keçirən çar, Dərbənd yolu ilə Peterburqa qayıtmalı olur. Qatar Gürcüstan ərazisini keçəndə soruşur ki, indi hansı mahaldan, hansı stansiyadan keçəcəyik.

- Əlahəzrət, Qazax mahalından və Ağstafa stansiyasından keçəcəyik.

İmperator duruxur və bir neçə dəfə:

- Kazaklar, yoxsa Qazaxıstan... demək istəyirsiniz - deyə soruşur.

- Çar sağ olsun, bura nə Kuban kazaklarının, nə də Orta Asiya qazaxlarının yurdudur. Burada Qafqaz tatarları, azərbaycanlılar yaşayır. Bir azdan keçib gedəcəyimiz yerin, mahalın adı Qazaxdır.

- Aha, xatırladım! Qafqaz igidi Qaçaq Kərəmin vətənidir?

- Bəli, bəli, əlahəzrət, özüdür ki, var...

- Maraqlıdır, görəsən Qaçaq Kərəmin nəslindən qalan varmı? Məmnuniyyətlə, görüşüb kəlmə kəsərdim.

Qatar Ağstafada dayananda Kərəmin anasını ehtiramla ona təqdim edirlər. Çar böyük bir səmimiyyətlə ananın əllərindən öpüb:

- Ana, - dedi, oğlun Kərəmin igidliyi, adı külli-aləmə bəllidi. Qəlbən etiraf edirəm ki, onun adı gələndə yasavuldan tutmuş Qafqaz canişininə kimi rütbəli şəxslər qorxudan tir-tir əsirdilər. Bizim hökumətə qarşı vuruşdu. Heç kəsə boyun əymədi. Təəssüf ki, Tehranda dünyasını tez dəyişdi.[62] Şəxsən mən onun qorxmazlığını yüksək qiymətləndirirəm, Ana, möhtərəm ana, indi de görüm, Kərəm kimi igidi yenidən doğa bilərsənmi?

İmperatorun oğlu haqqında dediyi tərifdən qürurlanan ana qəddini daha da şax tutub:

---

[62] Qaşaq Kərəm 1910-cu ildə Tehranda öz əcəlilə ölmüşdü - müəl.

- Kərəm kimi oğulu yenə doğaram, dərdin alım, niyə doğmaram. Əgər ərim Molla Zal oğlu İsgəndər kimi kişini mənə qaytara bilsən. Karvan getdi, igidlər öldü, zaman dəyişdi, dərdin alım...

Sadə kəndli qadından bu müdrik cavabı gözləməyən çar heyrətlə geri çəkilib:

- İnanıram, - dedi, - inanıram ki, belə hakimanə cavab verən ana Qaçaq Kərəm kimi igid doğa bilər.

8 oktyabr 1997-ci il

ŞAİR MƏHŞƏRİ CƏNNƏTZADƏ

1931-ci ilin payızı sərt və acı gəldi. Təbiət isə gülürdü, onda nə duman vardı, nə də çiskin, sazaqlı payız yağışları hələ başlamamışdı. Amma həyatda ağlayan, ah-vay edən çox idi. İyirminci ilin aprelindən başlanan tuthatut yenə də davam edirdi. Ölkədə musavat zabiti adı ilə tutulmağa, güllələnməyə adam qalmamışdı. İndi də ziyalıları, molla və axundları həbs edib sürgünə göndərirdilər. Üç il əvvəl (1928-ci il) yaranan "Tanrısızlar Cəmiyyəti" nə bolşevik rəhbərləri zor-xoş xeyli üzv toplamışdılar. Onların əksəriyyəti savadsız rəiyyətdən, keçmiş nökərdən və çoban-çoluqdan ibarət idi. Bolşevik-daşnak göstərişi ilə məscidləri uçurdanlar, bəy-xan bağlarını doğradanlar, ərəb əlifbasında yazılan kitabları yandırtdıranlar yeni cəmiyyətin fəal nümayəndələri idilər.

Sədi Şirazinin ərəb əlifbasında kitabı evindən tapıldığı üçün Ömər əfəndi də payi-piyada Ağstafa vağzalına aparılmış və ordan "xalq düşməni" adı ilə gedər-gəlməzə göndərilmişdi.

Seminarist Mustafa Əfəndiyev bu xəbəri eşidən kimi saymazyana darvazaya tərəf üz tutdu. İsrafil ağanın hamamının yanına çatanda qorxulu-qorxulu geriyə boylandı. Heç kəsi görməyib sürətlə kəndə tərəf götürüldü.

Evə çatan kimi anası Nabatdan babası Hacı İmam Cənnətzadənin divanını istədi.

- Neynirsən oğul, odey divan həmişəki yerində, kitab taxçasında.

Qazaxdan Dağkəsəmənə kimi yüyürə-yüyürə gələn Mustafa alnında puçurlanmış təri silib:

- Ana, - dedi, - müəllimimizi dünən həbs edib aparıblar.

- Niyə, bala, neyləmişdi ki?

- Evindən ərəb əlifbası ilə yazılmış kitablar tapılıb. Kişinin abrını alıblar ki, sən niyə İslam dinini təbliğ edirsən. Demək, sən gizli musavat təşkilatının üzvüsən. Kim köhnə əlifbada nə oxuyursa oxusun, onu sürgün edirlər. Unutma ki, bizim nəslə də "Molla evi" deyirlər. Mütləq bizim evi də axtaracaqlar.

- İndi sən neyləmək fikrindəsən, oğul? Ağlını başına yığ, birdən kitabı oda-zada atıb yandırarsan. - Gözləri hədəqəsindən çıxmış Nabatana heyrətlə: - Elə şey eləmə, Allahın sənə qəzəbi keçər, bala. Əllərin quruyar, gözün tutular...

Rəhmətlik Hacı İmam babanın ruhu da bizi dinc qoymaz. Evimizə, ailəmizə bəla gələr.

- Ana, yavaş danış, hay-küy salıb, qonum-qonşunu bura tökmə. Mən o qədər də qansız döyüləm. Babamın divanını nə odda yandıracam, nə də suya atacam. Onu yaxşı qurumuş dəriyə bükəcəm, gecə ilə aparıb qəbrinin yanında torpağa basdıracam. Vaxt gələr, dünya düzələr, çıxardarıq.

Ana fikrə getdi. Handan-hana:

- Yox, oğul, - dedi, qəbrin yanında məsləhət döyül, bax, elə çəpərimizin sağ yaxasındakı dağdağan ağacının dibində basdıraq. Ora həmişə quru olur. Dağdağanın dibinə su vermirik ki... Dağdağan yüz ilin möhkəm ağacıdır, nə qədər güclü küləkəssə də, onu yıxa bilməz. Qalan meyvə ağacları il pis gələndə quruyur, həm də onlar dağdağana nisbətən kövrək olur. Bərk tufan qopanda sınar, yerini itirərik.

Nabat ana divanı Mustafadan alıb bikef halda o biri otağa keçdi. Gəlinlik cehizini yığdığı sandığı açıb rəngbə-rəng parçaları bir qırağa tökdü. Qalın Şiraz ipəyindən olan yaylığını tapdı. Baş yaylığını ona qaynatası Hacı İmam Məşhəd ziyarətinə gedəndə alıb gətirmişdi. Gəlin vaxtı Nabat ana onu bir-iki dəfə örtmüşdü. Qıymadığından övladı Mustafanın toyu üçün saxlamışdı... Divanı üç dəfə öpüb gözünün üstünə qoydu. Gəlin-ana qaynatasının hər bir şerini Quran ayəsi qədər sevib əzizləyirdi. Divanı ipəyə bükə-bükə:

- İpək parça çox gec çürüyür, oğul, üstündən də keçi dərisinə bükərik. Qaç get, zirzəmidə bir az mum var, onu da gətir, üstündən çəkək, onda yüz il də qalsa, heç nə olmaz. Bir də ki, dünya belə qalmayacaq ha... Bolşeviklər ömürlük gəlməyiblər ki, yəqin bir gün rədd olub gedəcəklər. -

- Ana köksünü ötürüb: Ay Allah, sən bu gavurların bəlasını ver, gör bizi nə günə qoydular. Evimizin bərəkətinə də əl uzatdılar...

* * *

El şairi Hacı İmam Molla Mikayıl oğlu Cənnətzadənin əlyazma divanının torpağa basdırıldığı gündən düz 63 il keçdi. Bolşeviklərin "Tanrısızlar cəmiyyəti" nin təbliğatı o qədər güclü idi ki, bu müddətdə heç kəs cəsarət edib divana əl uzada bilmədi. Nabat ana da, oğlu Mustafa da dünyasını dəyişdi. Ömrünün son günlərində Mustafa Əfəndiyev ehtiyatla övladlarına pıçıldamışdı ki, əgər dünya düzəlib, hürriyyət olarsa, babamın divanını dağdağanın dibindən çıxardıb nəşr etdirərsiniz.

Bu xoşbəxtlik 1994-cü ilin yazında şairin nəticəsi Fəyyaz Əfəndiyevə qismət oldu. İki yüz yetmiş səhifəlik divan 63 ildən sonra işıq üzü gördü.

1803-cü ildə Qazax qəzasının Dağkəsəmən kəndində anadan olan Hacı İmam Cənnətzadə şerlərini "Məhşəri" təxəllüsü ilə yazmışdır. Əsl adının Mahmud olduğunu, lakin el arasında Məhşəri kimi tanındığını şerlərinin birində özü də qeyd edir. O, ilk təhsilini kənddəki dini məktəbdə almış, mütaliə yolu ilə biliyini artırmışdır. Oğul nəvəsi, Sosialist Əməyi Qəhrəmanı Mustafa Əfəndiyevin xatirələrindən məlum olur ki, babası səliqəli, yaxşı iş görən usta kimi eldə, obada məşhur olmuşdur. Daş üzərində nəfis oyma işləri görən, yazılar həkk edən Məhşəri

dülgərlik sənətinin də mahir bilicisi olmuşdur. 0, araba və fayton düzəldər, ev tikib, məişət alətləri hazırlayarmış.

Məşhur ədəbiyyatşünasımız Firidun bəy Köçərli özünün qiymətli tədqiqat əsəri olan "Azərbaycan ədəbiyyatı" kitabında şair Cənnətzadənin bircə yerdə adını çəkir və təəssüflə bildirir ki, əfsuslar olsun, belə gözəl təbli şairin divanı əlimizə düşmədi.

Şair Hacı İmam Cənnətzadə 1896-cı ildə doxsan üç yaşında doğma kəndi Dağkəsəməndə vəfat etmişdir. Özünün vəsiyyəti ilə "Gördüm" qəzəlinin on misrası baş daşına yazılmışdır:

Bu dünyada vəfa hərgiz tapılmaz
heç bir insanda,
Kimə bel bağlayıb hərdəm inandımsa
zərər gördüm.
Mənə bu nəfsi-əmmarə[63]; qılıb hərdəm
üzü qara
Nədir ya Rəb çarə dolanır dərdə-dər
gördüm.
Dəni nəfsə uyub, hər gün dolanıb
olmuşam bədyəmin,
Bilir ol qadirü biçun[64] nəfe[65] etdim
kədər gördüm.
Mühəssəl, yoxdur bu çərxdən vəfa
hərgiz bu dövranda,
Kimi gördüm cəfa söylər, özümdən beş
betər gördüm.
Əla[66] ey Məhşəri qafil, oturma!
Bir tədarük qıl,
Gəlir ruzi qiyamət açılır çox
nələr gördüm.

El şairi Məhşərinin 1885-ci ildə öz dəsti-xəttilə qələmə aldığı divanında əsasən qəzəllər toplanmışdır. Onun yaradıcılığında Füzuli, Nəsimi, Qövsi Təbrizi, Qasım bəy Zakir və Molla Pənah Vaqif kimi klassiklərin təsiri duyulur. Xüsusilə, dahi Füzuliyə nəzirə və bənzətmələri onun ustad şairdən bəhrələndiyini açıq-aydın göstərir:

Dil nədir, dilbər nədir, aləmdə
bir kəs bilmərəm,
Eylə məst etmiş gözüm eşqində

---

63 Əmmarə - insanı pisliklərə məcbur edən mey

64 Biçun - əvəzi olmayan Allah

65 Nəfe - fayda, xeyir

66 Əla - agah ol; dinlə; bax

hər dəm görməni,

Təbiət gözəlliyinin aşiqi olan Məhşəri fəsli-baharın gəlişini həsrətlə gözləyir. “Gələcək” rədifli qəzəlində Azərbaycan təbiətinin misilsiz gözəlliyini, bol və bəhrəli olduğunu ilhamla tərənnüm edir:

Şükrillah ki, bahar oldu
gülüstan gələcək,
Qümrülər qu çəkəcək, bülbüli xoş
xan gələcək.
Rövzə çün ali Əba Səbzi libasın
geyinib
Bağü bostan bitəcək, laləvü reyhan
gələcək.

Ərəb əlifbası ilə yazılmış 272 səhifəlik bu divanda bir-birindən oxunaqlı qəzəl, qəsidə, mərsiyə, nət, minacat, mənzum məktub və qoşmalar farsca yazılmış qəzəlləri vardır:

Səd həzəran aşiqi-mövzun qədd
Əz qəmi-hicrət şudəndü həmçu dal.

(Yəni sənin ayrılığının həsrətindən dal kimi - Ərəb əlifbasının “d” hərfi kimi olmuşam.).

Şairi ağıllı-bilikli adamların ehtiyac içində yaşaması qəmləndirir. O, zamanından şikayət edir. Arif adamların pis gündə, ehtiyacda qalmasını, axmaqların və varlıların belində qızıldan kəmər olduğunu “Gördüm” qəzəlində yana-yana deyir:

Qalıbdır zari-sərkərdan,
tühi-dəstarifi-dana
Həmişə gövdəni əhməq belində
zərkəmər gördüm.

Məhşəri təxəllüslü el şairi Hacı İmam Cənnətzadə yüz doxsan bir il bundan əvvəl dünyaya gəlmişdir. Doxsan üç il ömür sürmüşdür. Doxsan səkkiz il bundan əvvəl doğma kəndi Dağkəsəmində vəfat etmişdir. Lakin bu illərin heç birində onun zəngin yaradıcılığı tədqiq olunmamışdır. Adı nə ədəbiyyat tariximizdə, nə də el şairləri sırasında çəkilməmişdir.

İnanırıq ki, bu gün yaşadığımız demokratiya və aşkarlığın işığı şair Məhşərinin zəngin yaradıcılığına nur salacaq. Totalitar rejimin dini şair kimi qəbul etmədiyi Hacı İmam Cənnət zadə tədqiqatçılarımız tərəfindən öz layiqli qiymətini alacaq.

16 avqust 1994-cu il.

Məhşəri qoşmalarında böyük sələfi Vidadi və Vaqifin də təsiri var:

Məhşəriyəm, qan ağlaram, gülmənəm,
Qanlı yaşım gözlərimdən silmənəm.
Zəhd nədir, təqva nədir bilmənəm,
Rahi-xərabatın nə pərvanəsiyəm.

"ANNAX BƏY" ŞERİNİN TARİXİ

Qazax bəylərindən qonağı gəldi,
Bir həftə ziyafət göyə yüksəldi,
Şah Abbas şülənli məclis düzəldi,
Hatəm süfrəsini aşdı Annax bəy.

Bu misraları ulu Aşıq Ələsgər 1916-cı ildə Salahlı Annax bəyin oğlu Mədəd bəyin toy məclisində deyib. Altmış ildən əvvəl çap olunan "Annax bəy" şerinin yazılma tarixi bu günə qədər heç kəsə məlum deyil. Nədənsə, tədqiqatçıların marağına səbəb olmayıb. Şübhəsiz ki, onları "bəy" sözü qorxudub. Əgər aşıq, Annax bəyə həcv yazmış olsaydı, tədqiqatçılar da onu tənqid atəşinə tutardılar. Amma ustad Ələsgər şeri elə yazıb ki, tənqidə zərrəcə əl yeri qoymayıb.

Müdrik Aşıq Ələsgər Annax bəyə həcv yazmadığı halda, yenə insafsız tərtibçilər "Annax bəy" şerini aşığın seçilmiş əsərlərinin "həcv və hərbə-zorbalar" fəslinə daxil ediblər. Kimliyi barədə isə heç bir izahat verməyiblər ("Aşıq Ələsgər", I kitab, səh.201. "Elm" nəşriyyatı, 1973-cü il).

Kimdi Annax bəy və Ələsgər kimi ustad sənətkar necə olub ki, ona belə bir gözəl şer yazıb?

...Salahlı Annax bəyin çoxdankı arzusu imiş ki, gözünün ağı-qarası bircə oğlu Mədəd bəyin toyunu aşıq Ələsgər aparsın. Bu arzu ilə də, 1916-cı ildə Göyçəyə adam göndərib ustadı xeyir işinə dəvət edir. Bir həftəlik xeyir işində səxavətli bəyin özünə bərabər adlı-sanlı Qazax bəyləri, ağaları da iştirak edir. Ağköynəkli İsmayıl ağa Qiyasbəyli, Qıraq Kəsəmənli İsrafil ağa Kərbalayev, Salahlı Mədəd bəy Vəkilov, Əskiparadan Mikayıl ağa, Söyünbəyli Söyün ağa Sübhanverdixanov, Daşsalahlı Məmməd koxa Mahmudov, şair Abbas ağa Nazir Qayıbov, Borçalıdan Sadıq bəy Yadigarov, Əbdürrəhman ağa Dilbazi, Gəncədən Nağı xan və başqaları.

Həftə tamam olur, toyun son günündə bəylər, ağalar Aşıq Ələsgərə xələt verirlər ki, bizə Annax bəyin tərifini de.

Müdrik Ələsgər dinmir. Fikirli-fikirli meydanda gəşt eləyir. Bəylərin arasına pıçhapıç düşür: bəlkə aşığın xələti az oldu, bəlkə Annax bəyə layiq söz tapa bilmir, - deyənlər olur. Aşıq Ələsgər görür ki, fikirlər gedib ucuzluğa calanır. Bu vaxt üzünü məclisə tutub deyir:

- Həzərat, sizin hər birinizi yaxşı tanıyıram. Yaz gəlib Göyçənin yolları açılandan ta payız qırovu düşənədək sizin süfrənizdə çörək kəsirəm. Annax bəyin şərəfinə sinəmdə bir neçə bənd söz var, deyəcəm. Amma gərəkdi, kimsə inciməsin, aşıq gördüyünü çağırar. Mən də bir həftədə şahidi olduğumu deyim, eşidin. Bununla da məclisi bağlayaq. Ömürdü, gündü, bəlkə bu yerlərə bir də güzarım düşmədi...

Eyvanın, otağın mübarək olsun,
İmarəti al qumaşdı, Annax bəy!
Bu yerdə gördüyüm bəylər içində,
Səxada hamıdan başdı Annax bəy.

Bəylərin bəyisən, xanların xanı,
Unutma insafı, satma imanı,
Əldə əsas tutma qəni dövranı,
Neçələri gəldi keşdi, Annax bəy.

Vaxt olacaq, ömür yetəcək başa,
Hörmət qoy hamıya, hörmətli yaşa.
Bu dünya işinə qılsan tamaşa,
Mal-dövlətin sonu puşdu, Annax bəy.

Yazıq Ələsgərin çoxdu nalası,
Silinmir, könlünun açılmır pası,
Hər zaman qəm çəkir, saxlayır yası,
Gəşt eyləyir gözü yaşdı, Annax bəy.

Ağsaqqalların dediyinə görə, bu, Dədə Ələsgərin Qazağa sonuncu səfəri olub. “Qulaqlı yer” Qazax bəylərinin gileyini ustada çatdırıb. Sən demə, bəylərin bir parası Aşıq Ələsgərin Annax bəyə dediyi bir misradan daha çox incik düşüblər: “Bəylərin bəyisən, xanların xanı” - deyimi bəzi bəylərin xətrinə dəyib. Gözü götürməyən qəlbi qaralar Annax bəyə deyilən həqiqi tərifdən rəncidə olublar.

Bu günümüzün el şairi Qulu Çaylının da elin igid oğlu Annax bəyin səxavətinə “Deyim” adlı müxəmməsi var:

Gəlin sizə isnad verim,
Salahlıda Annax bəyi.
Kəsmək ona adət imiş,
Hər qonağa bir inəyi.
Gecə-gündüz yığılmayıb
Süfrəsinin bol çörəyi,
Daş Salahlı Məmməd koxanın,
Əyilməyib nər biləyi.
Əyrilərə şılğam çəkib,
Dolaşıb aşkara deyim.

Hazırda Annax bəyin nəsli Orta Salahlı kəndindədir. Onlar Annaxbəyovlar familini daşıyırlar.

Qazaxda olanda ağsaqqal Müseyib Dilbazi ilə görüşdüm, bir axşam qonağı oldum. Keçmiş igidlərdən, bəy və ağalardan xoruz banına qədər söhbəti-söhbətə caladıq.

Müseyib əmi:

- Məndə - dedi, - Annax bəy Salahlının, İsrafil ağa Kərbəlayevin və babam Əbdürrəhman ağa Dilbazinin 1890-cı ildə Batum şəhərində birgə çəkdirdikləri şəkilləri var.

Şəklin üzünü çıxartdırmaq üçün Müseyib əmidən icazə istədim. Səxavətli Müseyib əmi:

- Bağışlayıram, - dedi - bu şəkli sənə, oğul, amma itirmə, çalış dərc elətdir.

On ildən çox şəxsi arxivdə dustaq qalan bəylərin şəklini aşkarlığın işığında oxuculara təqdim edirəm. Dilbazilər ocağının xeyirxah ağsaqqalı Müseyib əmiyə yüz yaşlı şəkli mühafizə edib saxladığına görə minnətdarlığımı bildirirəm.

1990-cı il, 20 sentyabr.

AŞIQ ƏSƏDİN BİR MÜXƏMMƏSİ

Əziz “Bulaq”!

Avqustun 17-də elin böyük ozanlarından birini - aşıq Əsədi yada saldığınıza görə Sizə və yaradıcı kollektivinizə minnətdaram. Arzu edirəm, el yolunda gördüyünüz xeyir iş bəhrəli olsun. Milyonlarla dinləyiciniz kimi mən də hər bazar günü Sizin - xüsusilə Məhluqə xanımın rəvan, məlahətli səsini həsrətlə gözləyirəm (Heyif ki, Səməndər Rzayevsiz. Allah ona rəhmət eləsin).Gün o gün olsun ki, düşmənlərimizə qalib gəlmək xəbərini də ilk dəfə Sizdən eşidim.

Verilişinizdə aşıq Əsəd Rzayevin adını eşidəndə yadıma onun arxivimdə saxladığım, heç yerdə dərc olunmayan “Deyim” adlı müxəmməsi düşdü. Bu müxəmməsi iyirmi iki il əvvəl mərhum aşıq Bəhram Həsənovun yaddaşından yazıya almışam. Rəhmətlik Bəhram əmi məşhur el şairi Daşsalahlı Mirzə Səmədin qardaşı oğlu idi. Aşıq Sadığın şagirdi Bəhram əmi şair Mirzə Səməddən, aşıq Əsəddən də çox şeyləri də görüb-götürmüşdü. Yaxşı hafizəyə, güclü səsə malik olan Bəhram əmi eldə, obada sayılan, hörmət olunan aşıqlardan biri idi.

Toylarda, şənliklərdə Bəhram əmi aşıq Əsədin “Deyim” müxəmməsini ayrı şövqlə, ayrı tamda, ləzzətdə oxuyardı. Müxəmməsdə adı çəkilən igid həmkəndlilərinin hər biri haqqında ilhamla danışardı.

Öncə aşıq Əsədin müxəmməsi nə münasibətlə yazdığını sizin qulluğunuza çatdırmaq istərdim. Onu mənə Bəhram əmi danışmışdı.

1914-cü ilin yayında Qazağın xeyirxah kişilərindən biri, məşhur mülkədar Məmməd koxa Mahmud oğlu Mahmudov Damcılıdan bir az aşağıdakı bulağı

abadlaşdırır. Öz xərcilə Avey dağının ətəyindən həmin bulağı kəndə çəkdirir. Daşsalahlılar indi bu bulağın suyundan içirlər. Məmməd baba bulağın açılışına məşhur el aşığı Əsəd Rzayevi dəvət edib. Üç gün, üç gecə keçən bu şənlikdə aşıq Əsəd Daş Salahlı igidlərinin vəsfini "Deyim" müxəmməsində saza-sözə çəkib.

Daşsalahlı Məmməd Koxa,
Gəl səni mərdanə deyim.
Eşidibdi hər qubernat,
Əvvəl İrəvana deyim.
Gizlətməyim bu vəsfini
Şəril-Naxçıvana deyim.
Kəmərini qurşamağı
O şahi-mərdanə deyim!

Mən gəzmişəm hər şəhəri,
Həmid kimi çayçı hanı?
Kofe ilə şirin çayı,
Laləzardı istəkanı.
Turşu xiyar, dolma, kabab.
Olmadı hesabı-sanı.
Əkülənin düyüsündən
Yetim-yesir oldu qani.
Əlli baş erkək toğlu da,
Kəsildi Yan-yana deyim.

Səd-afərin, molla Adgözəl
Saatda min paket yazar.
Kalamın Allah bəyənib,
Qələminə verib bazar.
Müsəlmanlıqla xaçpərəst
Adam gəlir xəbər-xəbər.
Doqquz rəngli fayton gəldi
Məhlə oldu çarşı-bazar.
Gəncədən də bir xan gəldi,
Açdı dəftərxana deyim.

Səhər bulaq görüşünə
Gəncədən bir xan yeridi.
Məmməd Koxa şölə saldı,
İlyanın cavan yeridi.
Mustafa bəy inək kəsdi,
Qoç, toğlu qurban yeridi.
Nar dəsmalı tucun-tucun.
Dərdimə dərman yeridi.
Aşırlının bu hörmətin,

Yeddi Dağıstana deyim.

Aralığa səf çəkilir
Ortalığa baqi gəlir.
Hər tərəfdən adlı bəylər,
Gəncədən də Nağı gəlir.
Alqış deyir yetim-yesir.
Abdının yığnağı gəlir
Mirzə Səməd cavanlıqda
Bu dünyaya baqi gəlir.
Atlıları atdan düşür,
Gündə yüz qonağı gəlir.
Aşıq Əsəd şövq eyləyib
Gəlib xoş meydana, deyim.

Fikir verirsinizmi, şerdə Məmməd koxa necə də böyük ilhamla tərifənir. Ağsaqqalların dediyinə görə, igid Məmməd koxa həqiqətən tərifə layiq kişi olub. Bunu eldə, obada danışılan əhvalatlar da təsdiq edir.

1914-16-cı illərdə, hürriyyət vaxtında vəziyyət elə indiki kimi imiş, anarxiya, başıpozuqluluq da baş alıb gedirmiş. Qazax və onun kəndlərini özünəməxsus qoçularımız dağıdırmışlar. El-obanın başbilənləri, qeyrətli oğulları məsləhətə, məşvərətə yığışırlar. Polkovnik Cahangir bəy Şıxlinskinin təkidi ilə Məmməd koxanı qubernator seçirlər.

Gecəni-gündüzə qatan Məmməd koxa əmin-amanlığı qoruyur, cəzaları özü təyin edirdi. Prokuror da, məhkəmə də özü olur. Quldurluq edənlərin gözünü qorxutmaq üçün bir nəfəri soyğunçuluq üstündə qulağından teleqraf dirəyinə mıxlatdırmışdı.

Qubernator Məmməd koxa Dilican və İcevandan torpaq iddiası ilə bəri boylanan erməni daşnaklarının burnunu ovub geri elə oturdur ki, düşmənlərimiz bir müddət belə xam xəyala düşə bilmirlər.

Haqq sözündə dönməz olduğuna görə onu el arasında "Boz Məmməd", xeyir-şər məclislərində kasıba əl tutduğuna görə qeyrətli kişi, "çörəkli kişi" kimi müdrik qocalarımız bu gün də tez-tez yad edirlər.

Xalq şairi Mirvarid xanım Dilbazi "Namuslu düşmən" adlı xatirə-hekayəsində Məmməd koxanın dəyanətindən, kişiliyindən iftixarla söhbət açır. O yazır ki, Daşsalahlı kəndində uzun illər koxalıq etmiş çox müdrik, nüfuzlu bir şəxs vardı. Onun adına Məmməd koxa deyərdilər.

Vaxtilə Qazaxda pristav olmuş Həsənəli bəy Əsgərxanov da "Gördüm" şerində onu çörəkli kişi kimi yad edir:

Qiymət qoyaq aca, toxa,
Alardı hədəfə, oxa.
Daşsalahlı Məmməd koxa,
Səni açıq bazar gördüm.

Qırx ilə yaxın Daşsalahlıda kənd koxası olan Məmməd baba doğma kəndinin xoş güzəranı üçün az iş görməyib. Ötən əsrin sonlarında Tiflisə, Qoriyə gedib Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbzadə, Qori seminariyasının Azərbaycan şöbəsinin müdiri Aleksey Osipoviç Çernyayevski və məşhur ədəbiyyatşünas Firidun bəy Köçərli ilə görüşüb öz xərcinə kənddə səkkiz otaqlı ibtidai məktəb açıb.

Aşıq Əsəd müxəmməsində "Həmid kimi çayçı hanı?" - deyə xatırlanan şəxs əslində çayçı deyil, Məmməd koxanın yeganə oğlu Həmid bəydir. O vaxtlar Tiflisdəki birinci klassik gimnaziyasında oxuyurdu. 1918-ci ildə Tiflis gimnaziyasını bitirən Həmid bəy atasının arzusu ilə Gəncədə yenicə açılan hərbiyyə məktəbinə qəbul olunur.

İyirminci ilin aprelində bolşevik daşnak istilaçılarına qarşı Gəncə üsyanında fəal iştirak edən Həmid bəy yeni gələn şura hökumətinə boyun əymir. O, Avey və Odun dağlarında, Qarayazı və Tatlı meşələrində bolşeviklərə qarşı vuruşur...

Sovet hökuməti otuzuncu illərdə sürgünə göndərilən Məmməd koxanın cah-cəlalını dağıtdı. Qardaşı Avdını, qardaşı oğlu Hüseyni və Əsədi, oğlu Həmid bəyi güllələdi, qardaşı Mehdi ağanı, qızı Badını, bacısı oğlu Vəlini ailəsi ilə sürgün elədi.

1933-cü ildə sürgündən qayıdan Məmməd koxa yeganə oğlunun güllələndiyinə, qohum-əqrəbasının sürgün olunduğuna dözə bilmədi. Huşunu itirdi, az sonra ürək partlamasından vəfat etdi.

Məmməd koxanın qohumu aşıq Bəhram otuzuncu illərdə bu faciələrin şahidi olmuşdu. Necə olursa, əllinci illərdə bir məclisdə Bəhram əminin "saqqızını oğurlayıb" belə bir söz oxudurlar.

Duman gəldi, dağ başını bürüdü,
Sarı gavur yurdumuza yürüdü.
Neçə canlar çekalarda çürüdü,
Bəs mən ağlamayım, kimlər ağlasın?

Bundan sonra Bəhram əmini get-gələ salırlar. Milis, raykom, DTK sorğuları başlanır. Anası namaz üstə olan aşıq Bəhramın bəxtinə təsadüfən Səməd Vurğun gəlib Qazağa çıxır. "Bəhramın nə günahı varsa, mənim adıma yazın. Sənətkar ağrısını sənətkar çəkər" - deyib onu orqanın laxa ağzından xilas edir.

Avqust 1992-ci il

AŞIQ İBRAHİMİN "KÖRPÜLÜ ƏHVALATI"

Ağlım kəsəndən, dilim söz tutandan bir əhvalat eşitmişəm. Eşitmişəm, dinləmişəm deyəndə ki, bu hadisə bizim kənddə olub. Toyda, yasda, hətta beş-on adam bir yerə yığışıb aşıqdan söhbət açanda da bu əhvalatı danışırlar. Ən çox da toy şənliklərində. Qazax, Tovuz, Borçalı aşıqlarından eləsi yoxdur ki, bu əhvalatı

bilməsin. Xüsusilə, hörmətli aşığımız Əkbər Cəfərov "Körpülü əhvalatı" nı toy şənliklərində ayrı tamda, xüsusi ləzzətlə, şövqlə danışır. Mərhum Hüseyn Saraclı bu əhvalatı elə gözəl, bər-bəzəkli nəql edər və oxuyardı ki, dinləyənin yaddaşına ömürlük həkk olunardı.

Bəzən bu əhvalatı Şulaverin adına danışan və yazanlar da var. Bu da həmişə mübahisəyə səbəb olur. Əslində Şulaver stansiyasında belə bir əhvalat olmayıb. "Şulaver əhvalatı" adı ildə bəzi aşığın danışığı tamam-kamal uydurmadır. Bu əhvalatın şahidi olanlardan hələ də sağ qalanlar var: Əmrah Şəmilov, Cavad Həkimli, Alşan Mahmudov, Qədir Süleymanoğlu və Borçalıda, İncə dərəsində bir çox qocalar, ağsaqqallar bu əhvalatın Şulaverdə olmasını tam inkar edirlər. Əhvalatın tamam-kamal bilicisi aşıq Göyçə Məhəmməd oğludur. Sinədəftər el ağsaqqalı ilə Borçalı mahalının Qaçağan kəndində görşüb 1928-ci ilin payızında olmuş "Körpülü əhvalatı"nı söz-söz, misra-misra yazıb götürdüm. Hadisə İncəlioğlu Əsədin uşaqlarının kiçik toyunda baş verib. Toya iki aşıq dəvət olunub. Bir-birindən xəbərsiz. Burada da ikitirəlik düşüb.

Üç gün, üç gecə olmuş aşıqların deyişmə əhvalatı uzundu, demək olar ki, dastanlıqdır. Ona görə də qalsın boynumuzda, onu ayrıca möhtərəm oxucuların qulluğuna çatdırmaq bizə borc olsun.

Kimdi "Körpülü əhvalatı"nın səbəbkarları? Biri el şöhrəti qazanmış, məşhur aşıq Hüseyn Bozalqanlıdır ki, haqqında hamının məlumatı olduğuna görə biz onun həyat və yaradıcılığına burada müdaxilə eləmirik. Digəri isə indi yaşlı adamların zorla xatırladığı aşıq Quşçu İbrahimdir. Ona görə zorla xatırlanır ki, aşıq Quşçu İbrahim Böyük Vətən müharibəsinin odlu-alovlu cəbhələrindən qayıtmayıb. Bu istedadlı el aşığı harda faşistin namərd gülləsinin qurbanı olub, indiyədək məlum deyil. Quşçu İbrahimin dədə-baba çırağını indi yeganə oğlu Bəhram İsmayılov yandırır. Bu günədək unudulmuş el aşığının qısa ömür yolunu da Bəhram müəllimdən öyrəndim.

Aşıq İbrahim İsmayıl oğlu 1895-ci ildə Borçalı qəzasının Muluxaslı kəndində dünyaya gəlib. Atasını erkən itirdiyindən nə qarnıdolusu çörək yemiş, nə də təhsil ala bilmişdir. Sazlı-sözlü Borçalı mahalında mayası şerlə yoğrulan balaca İbrahim el sənətinə vurğunluqdan saz çalıb, qoşmalar yazırmış. Obanın el sənətkarı məşhur ustad Dollu Abuzərin ustad himayəsini də kimsəsiz İbrahimə çox görür. Abuzər vəfat edəndən sonra Quşçu kəndində yaşayan el şairi Ağacan Cabbarlı (o, əslən Gümrü mahalından idi) İbrahimin sənətdən kəm qalmasını rəva bilmir, onu öz himayəsinə götürür. Şair Ağacanın İbrahimin kamil sənətkar kimi yetişməsində haqqı-sayı unudulmazdır. O vaxtdan da aşıq Quşçu İbrahim kimi eldə-obada hörmət qazanır. Təsadüfi deyil ki, "Körpülü əhvalatı"nda, aşıq Hüseyn Bozalqanlı ilə deyişmədə yeri dara düşən İbrahim öz ustadı Ağacanı "sahib zaman" deyə köməyə çağırır:

İbrahiməm, mən çəkirəm zamanı,
Çağırram imdada Sahib-zamanı.
Hüseyn bir şairdir tutub dünyanı,
Şəyirdin qolundan tutasan gərək.

Aşıq İbrahimin oğlu Bəhramda atasının iki şagird dəftəri şeri qalır. Təəssüf ki, onlar indiyədək çap üzü görməyib. Möhtərəm oxuculara təqdim etdiyim şair Ağacanla, aşıq İbrahimin deyişməsini aşıq Göyçə Məhəmməd oğlunun yaddaşından yazmışam.

Aşıq İbrahim:

Başına döndüyüm şair Ağacan,
Bir neçə urvatda söz mənə göndər.
Yaman düşdüm aşıq Söynün cənginə,
Mənasın, cümləsin düz mənə göndər.

Şair Ağacan:

Demədimmi çıxma dağlar başına,
Tüpü olar, boran-qar olar onda.
Əl uzatma gözün görən yuvaya,
Gürzə olar, şahmar, mar olar onda.

Aşıq İbrahim;

Dörd maraldı[67], dörd ovçudu,
dörd də dağ,
Dörd bağbandı, dörd boxçadı,
dörd də bağ.
Dör ölüdü, dördxəstədi, dörddə sağ,
Bunların mənasın tez mənə gödər,

Şair Ağacan:

İşin nədi bu Rüstəmi-Zalınan?
Girmisən meydana qeylü qalınan.
Dananı qoşasan qoca kalınan,
Görərsən hansına zor olar onda.

Aşıq İbrahim:

İbrahim də dəryalara dalıbdı,
Şirin canı eşq oduna salıbdı,
Hüseynin önündə acız qalıbdı,
Tirmədən, atlasdan tez mənə göndər.

[67] Hüseyn Bozalqanlı tərəfin dörd olmasına işarə edir.

Şair Ağacan:

Bir nə iş var o şairin canında,
Dayanıbsan indi dur, meydanında.
Yüz il qalsan Ağacanın yanında,
Bilməzsən neçə cür tor olar onda.

Mart, 1989-cu il.

ŞAİR HƏVƏSKAR AĞKÖYNƏKLİ

Nə vaxtdandı yazı masamın üstündə bir şagird dəftəri dolu şer var. Ötən yay (1992-ci il) Qazaxda olanda, onu mənə Rayon polis idarəsinin rəisi Fikrət Məmmədov vermişdi. "Elə keçmiş babalarımızdan yazıb, onları tərifləyirsən. Al, eloğlu, yolboyu oxuyarsan, özün şahid olacaqsan ki, mənim ağköynəklim Arif, Məzahir Daşqın, Bəhmən Vətənoğlu, Əli Qurbanov, Qurban Şıxlı (Musayev), Mikayıl və Gülarə Azaflılar, Vaqif Nəsib, İslam Türkay, daha nə bilim kimlər...

Kimlər el yaddaşından güc almışdısa, kimlər el-oba folkloru ilə qidalanırdısa, kim aşıq sənətinin vurğunu idisə, podpolkovnik Fikrət onların dostu, həmdəmi idi. Taleyin hökmünə bax, ona ölüm də şair Aslan Kəmərli və yazıçı-jurnalist Valeh Şıxlı ilə birgə necə gözəl şerlər yazır", - demişdi.

Podpolkovnik Fikrət Məmmədov on doqquz il polis işçisi olmasına baxmayaraq, durub-oturduğu adamların hamısı şer-sənət xiridarı idi. Şairlərdən kiminlə dost deyildi: mərhum Hüseyn qismət oldu. 1992-ci il oktyabrın 26-da Qazağın üç ziyalı oğlu sərhəd kəndlərindən qayıdanda maşın qəzasında həlak oldular.

Fikrət şair Həvəskarın şerlərini tərifləyə-tərifləyə mənə verəndə kabinetində üçümüz idik. Valeh, Fikrət, bir də mən. 0, üzünü Valehə tutub:

- Ayə, a qıldıqsız, tərifləməkdən yoruldum. A Valeh, şair haqda sən də bir-iki yaxşı söz de, qoy bu da qələminin yağlı yeriynən yazsın, mənim kəndçi şairim haqqında...

Fikirli-fikirli pəncərə ağzında dayanan Valeh:

- A Şəmistan, - dedi, - mən tərif-zad deməyəcəm. Sən onun şerlərini "Həvəskar" təxəllüsü ilə yazmağına fikir vermə, o, həqiqi mənada püxtələşmiş şairdir. Özün məndən də yaxşı bilirsən, Qazaxda elə bir xeyir iş, toy-nişan yoxdur ki, aşıqlar, müğənnilər onun şerlərini oxumasınlar. Gileylənməkdə Fikrət haqlıyıdı. İndiyə kimi heç birimiz Həvəskar barədə heç nə yazmamışıq.

Təəssüf ki, el şairi Həvəskar haqqında mənim yazımı oxumaq nə Valeh, nə də Fikrətə qismət oldu. Onlara vaxtsız ölüm qismət olmasaydı, mən də yazımı belə kədərli bir notla başlamazdım...

Onun əsl soyadı belədi: Allahverdi Vəli oğlu Hacıalıyev. Amma onu bu soyadla kənd sovet sədrindən başqa heç kəs tanımır, Qazaxda bu soyadla adam axtarsan müsahibin dodaqlarını büzər, üzünə təəccüblə baxıb deyər ki, belə adam

tanımıram, qardaş. Elə ki, şair Həvəskar sözlərini də əlavə eləsən, onda: “elə de dana, a sağ olmuş, məni niyə dağa-daşa salırsan”, - deyərlər.

1929-cu ildə Ağköynək kəndində dünyaya gələn Həvəskarın cəmi-cümlətanı dörd illik təhsili var. Ehtiyac, ağır güzəran balaca Allahverdinin yaxasından düymə kimi asılanda oxumağın daşını birdəfəlik atıb.

Qırx il yazıb-yaradan Həvəskar təxəllüslü eloğlumuz ağbirçək şairəmiz Mirvarid Dilbazidən başqa heç kimin yadına düşməyib.

Təsadüfən Mirvarid ana ilə görüşən Hövəskarın şerləri onun xoşuna gəlib. On il bundan əvvəl, kiçik bir ön sözlə bir neçə şerini ilk dəfə “Azərbaycan gəncləri” qəzetində dərc etdirib.

Həvəskarla atüstü söhbət eləyirdim. Qeyd-filan da götürmürdüm. Çünki onu özüm də az-çox tanıyırdım, yaradıcılığına da bələd idim. Birdən məndən soruşdu ki, niyə xəbər almırsan ustadın kim olub.

- Nəyini xəbər alım, yəqin deyəcəksən, ustadın el olub, oba olub.

- Yox, - dedi, - el-oba öz yerində, orası elədi. Amma mənim ustadım, mənə şer yazdıran böyük Səməd Vurğun olub.

- Yəqin onunla görüşmüsən.

- Yox, görüşməmişəm. O əvəzsiz insanı bircə dəfə 1953-cü ildə təsadüfən Bakıda cıdır meydanında cıdırçıya nəmər verəndə görmüşəm. Ay tövbə, o kişi ilə kəlmə də kəsməmişəm. Onu görəndə, elə bil dünyam dəyişdi. Həmin andan -1953-cü ilin payızından, o nağıllarda, dastanlarda deyilən kimi, ilahi bir qüvvə mənə şer yaz, deyirdi. Durammadım, dözəmmədim, yazdım. 1966-cı ilə kimi yazdığımı üzə çıxara bilmədim. Cəsarətə gəlib Səməd Vurğunun altmış illiyində ona yazdığım şeri bir nüfuzlu məclisdə oxudum. O şer dillərə düşdü. Qazax, Borçalı mahalı da Həvəskar adlı bir el şairini tanıdı.

Bilmirəm, elə bir naşı oxucu tapılarmı ki, şair Həvəskarın sözünə inanmasın. Şəxsən mən ürəkdən gələn bu səmimi sözlərə inandım. Oxucunun şəkk-şübhəsi onda ola bilər ki, Həvəskarın şerləri xoşuna gəlməyə. Bir şer ki, elin-obanın toy-bayramında aşığın, müğənninin dilində gəzir, inanıram ki, oxucuların da xoşuna gələcək. Ona görə ki, Həvəskar bu günümüzün nəbzini tutan şairdir.

Qarğalar qartala meydan oxuyur,
Sərçənin qırğını əyən vaxtıdır.
Sıxılma, ürəyim, həyat belədir,
Nadanın loğmana söyən vaxtıdır.

Torpağımıza göz dikən namərd ermənininəsil-nəcabətini yaxşı tanıyan şair üçcə bəndlik şerində daşnaklara keçmişini elə ustalıqla xatırladır ki, ermənininruhu da “incimir”.

Mən çətin günlərdə görəndə sizi,
Həmişə demişəm: “fağır erməni”.
Daşımaqdan odun, kömür şələsi,
Beliniz olmuşdu yağır, erməni.

Şair Həvəskarın tərifə ehtiyacı yoxdur. Zənnimcə bunu oxucular da hiss edəcəklər. Şair eloğlumun yaradıcılığından bir neçə nümunəni oxuculara təqdim edirəm.

Oktyabr, 1993-cu il.

OLMUYA

Mənim Yaradandan bir diləyim var,
Bəxtim ola, taxtım-tacım olmuya.
Əlimdən həmişə yaxşılıq gələ,
Yamanlıqda hec əlacım olmuya.

Min nemət yetişə yaz yağışımda,
Məni sarsıtmaya qarlı qışım da:
İstərəm heç kəsə ilk baxışımda
Nə kədərim, nə də acım olmuya.

Süfrəm çəmən ola, yerim dağ ola,
Sərvətim sadəlik, canım sağ ola,
Həvəskaram, saç-saqqalım ağ ola,
Bir loqmana ehtiyacım olmuya.

ERMƏNİ

Mən çətin günlərdə görəndə sizi,
Həmişə demişəm: "fağır erməni"
Daşımaqdan odun, kömür şələsin.
Beliniz olmuşdur yağır, erməni.

Cibində olmurdu bir abbasın da,
Qapında mal-qoyun, evdə hasın[68] da.
Səndən üz döndərib astavasın[69] da,
Mənim Allahımı çağır, erməni.

Gələrdiniz Ağköynəyə, Çaylıya,
Dilənməyə Salahlıya, Poyluya.
Bir istərəm tutam salam toyluya [70]
Deyəm ki, acından çığır, erməni.

---

[68] Allah
69 Ermənicə çörək deməkdir

[70] Yəni tövləyə

VAXTIDI

Qarğalar qartala meydan oxuyur,
Sərçənin qırğını əyən vaxtıdır.
Sıxılma ürəyim, həyat belədir,
Nadanın loğmana söyən vaxtıdır.
Deyir ki, aliməm hər ağıldan səy,
Laçına qıy vurur havada leylək,
Dərə xəlvət olub, tülkülər də bəy,
Çaqqalın döşünə döyən vaxtıdır.
Həvəskar, ilham al obadan, eldən,
Vüqarı dağlardan, qüvvəti seldən.
Qızılquş yorulub düşübdür əldən
Saxsağan özunü əyən vaxtıdır.

Gəlmişəm

Sizə deyiləsi sözüm var, dağlar,
Hüzuruna bir minnətə gəlmişəm.
Üzümü sürtməyə ocaq daşına,
Qəbul eylə ziyarətə gəlmişəm.

Ağlar qoydun gədiklərdə Kərəmi,
Ələdin başına hicranı, qəmi.
Günahkar sənmisən, yoxsa Lələmi,
Sizdən sizə şikayətə gəlmişəm.

Budur ehtiyacım, gəlmişəm vara,
Varına yox demə, sən həvəskara.
Qoluma qüvvətə, gözümə nura,
Dizlərimə dəyanətə gəlmişəm.

BİR ÖTƏRGİ QONAQ OLDU GƏNCƏDƏ

Yolum Gəncəyə düşmüşdü. Qədim və ulu, adı özünə qaytarılan Gəncəyə. Şəhərin görməli yerlərində çoxlu şüarlar gördüm. Yaxşı ki, bunlar əvvəlkilərə bənzəmirdi. Heç biri könül bulandırıb, xəyal küsdürmürdü. Hər yerdə “Ulu adın mübarək, Gəncəm!”, “Xoş gəldin, Gəncəm!” - sözlərini oxuyanda adam fəxr edib sevinirdi. Nizami vüqarlı, Məhsəti ismətli şəhər adama əvvəlkindən doğma və əziz görünürdü. Uzun ayrılıqdan sonra ulu Gəncə adı istər-istəməz şair misralarını yada salırdı:

Nənəm Məhsətinin öpdüm əlindən,
Sevincdən gözlərim doldu Gəncədə.
Nurani, pirani Nizami babam,
Qolunu boynuma saldı Gəncədə.

Fikrət Əhmədoğlu ilə şəhəri dörd dolandıq. Hamını sevinən, şadlanan gördük. Şəhər toy-bayram içindəydi. Gəncəçayın sağ sahilindən soluna keçəndə:

- Gəl səni yeni bir gəncəli ilə tanış edim - dedi. Bizimlə üzbəüz gələn alcaq boylu, mavi gözlü bir kişi ilə səmimi görüşüb, hal-əhval tutdu. - Bu da indicə şerini zümzümə elədiyim şair Bəhmən Vətənoğlu. Kəlbəcərlilərdən zorla qopartmışıq. - Zarafatla: - bir də geri verdi yoxdu ha... Nizami torpağında yazıb-yaratmalıdı bu şair... Darıxmırsan ki?..

Şair isə fikirli-fikirli:

- Hər şey yaxşı idi, bu gün Kəlbəcərdən aldığım məktub məni möhkəm tərpətdi - dedi. - Yadımdan çıxmayan dağlar yenidən gözümdə peyda oldu, tüstüm təpəmdən çıxdı. Bu gün əmioğlu İqbaldan nəzmlə yazılmış bir məktub almışam. Yazır ki:

Kimdən küsdün... niyə küsdün bilmədik,
Bu dağları qoyub getdin, a Bəhmən.
Aynası mürəkkəb, lilpari çəmən,
Bulaqları qoyub getdin, a Bəhmən.

Səni qucağına alan Gəncənin.
Nizamisiz gözü dolan Gəncənin,
Etibarı min il olan Gəncənin,
İlqarına uyub getdin, a Bəhmən.

- Şair, - dedim, - adınızı, şerlərinizi həmişə toylarda aşıqların və tamadaların dilindən eşitmişəm. Xüsusilə, məşhur saz ustadımız Ədalət Nəsibov apardığı məclislərin hamısını sizinlə başlayıb, sizinlə də qurtarır. Mən bunun dönə-dönə şahidi olmuşam. Sizi göydə axtarırdım, yerdə əlimə düşmüsünüz. Allah rast gətirdi, görüşdük.

Böyük şairimiz Səməd Vurğunun 1955-ci il iyunun 22-dən avqustun 8-dək Kəlbəcərdə olmağını yəqin ki, siz də bilirsiniz. Bir xatirədə oxumuşam ki, o vaxt siz də şairlə görüşüb ona "Dağlar" şerinizi oxumusunuz. Hətta "Unudulmaz günlər" adlı xatirənin müəllifi yazır ki, böyük şairlə axırıncı dəfə Keyti dağına səyahətə çıxdıq. Bu dəfə üç nəfər idik. Bəhmən Abbasov adlı bir gənc də bizə qoşuldu. Onun şer yazmaqda səriştəsi vardı. Bizə qoşulmuşdu ki, fürsət düşərsə, böyük şairdən müəyyən məsləhətlər alsın. Təzə tanış olmasına baxmayaraq, Vurğun onunla arabir zarafat da edirdi...

Bura çatanda Bəhmən Vətənoğlunun məni axıra qədər dinləməyə səbri çatmadı.

- Yalan şeydi, - dedi, - ay tövbə, elə şey olmayıb. O xoşbəxtliyi Allah mənə nə vaxt qismət elədi? Mən Səməd Vurğunun heç üzünü görməmişəm.

Deyirlər ki, ceyran olmaz dağlarda,
O kürd qızı ceyran deyil, bəs nədir?
Deyirlər ki, tərlan süzər səmada,
O, yerdədir, tərlan deyil, bəs nədir?

Bu misralarla başlanan şerimi bir gün Kəlbəcərin o vaxtkı raykom katibi Səfər Verdiyev şairə oxuyub. Deyilənə görə, Səməd Vurğun çox bəyənib. Axırıncı günü geri, Bakıya qayıdan Səməd Vurğun "Rus bulağında" dayanır. Bulaq başında şerdən, sənətdən söhbət düşür. Səməd Vurğun:

- Ə, Verdiyev, - deyir - srağagün dediyin şeri bir də de! Yaman xoşuma gəldi kürd qızına yazılan şer.

Səfər Verdiyev "Bəs nədir" şerimi böyük şairə bir də oxuyub. Səməd Vurğunla mən yox, şerim belə görüşüb. Onun vəfatı gününü yaxşı xatırlayıram. Yadımdadır, radioda onun nekroloqu oxunurdu. Hamı gözü yaşlı, kədərlə qulaq asırdı. Birdən Kəlbəcərə qara buludlar gəldi, elə bil dağları ildırım, gurşad döyürdü. Bir qarış qalınlığında dolu yağdı. Dolu kəsəndən sonra yer-göy dümağ idi... Onda ilk dəfə xalqımın Vurğunsuzluğunu hiss-edib Səməd Vurğuna şer yazdım.

Mərd oğullar anasısan,
Qoyma keçə uzun zaman.
Qadan alım, Azərbaycan,
Bir də yarat belə Vurğun!

- Bəhmən müəllim, indi yazan çoxdu, xüsusilə şer. Tədqiqat göstərir ki, ötən əsrlərdə də belə olub. Bizim xalqın şerə, poeziyaya marağı çox güclüdür. Hətta Nizami dövründə deyirlər, guya qardaşı ondan da məşhur şair olub. Sizcə hər yazana şair demək olarmı?

- Mənim aləmimdə şair o adamdır ki, onun özü və yaradıcılığı yada düşəndə təbiətin də hər hansı bir lövhəsi xəyalınızda canlana bilsin. Bax, aşıq Ələsgərin şerlərini xatırlayanda elə bilirəm ki, çiçəkli bir yaylaq yolu ilə gedirəm. Hər tərəfim sonsuz laləzardır...

Səməd Vurğun şerlərini xəyalıma gətirəndə isə gözümdə belə bir lövhə canlanır: Kəpəz dağı nəhəng bir kürsüdür. Anam Qarabağdan belə bütün aran düzlərində sonsuz insan axını var. Ağsaçlı Səməd Vurğun həmin kürsüdən çıxış edir. Dərdimizi, sərimizi danışır, ona məlhəm axtarır.

Dədə Şəmşir şerlərində isə elə bilirəm ki, uzaqlarda, haradasa aşağılarda, meşəli talalarda yetişmiş taxıl görünür.

- Ən çox sevdiyiniz şair?..

- Ölüsünü deyirsən, yoxsa dirisini? - zarafat elədi. - Hüseyn Arif yaradıcılığını çox sevirəm, çox mütaliə edirəm, - dedi. Səbəbi də odur ki, təbiətin verdiyi cılxaca istedadın gücünə şer yazır. Plan ödəmir Hüseyn Arif.

Başı min bəlalar çəkən millətin,

Bir şairin dilidi, Hüseyn Arif.
Arif balasını yola salanda,
Layla mürgülüdü Hüseyn Arif.

Təhsil gücünə şair olmağın əleyhinəyəm. Elm, savad gücünə alim olmaq olar. Ən ləziz xörəyə bir çimdik duz atarlarki, ləzzət versin. Daha bir ovuc yox.

- Bəhmən müəllim, bəs özünüzün təhsiliniz? Yeri gəlmişkən, şerləriniz el aşıqlarının dillərində, şer həvəskarlarının ciblərində gəzir. Mən özüm bunların şahidi olmuşam. Amma oxucular tərcümeyi-halınızdan çox "kasıbdırlar!".

- Dörd il Zərdabi adına KəndTəsərrüfatı İnstitutuna imtahan vermişəm, qəbul ola bilməmişəm. Dörd il aldığım dörd dənə "dörd"lə məni konkursa salıblar. Beşinci ili cəsarət eləyib Bakıya getdim. İşlərimi Bakı Universitetinin tarix fakültəsinə verib dörd dənə "dörd"lə qəbul olundum.

1932-ci il dekabrın otuz birində Kəlbəcərdə anadan olmuşam. Bəhmən - ilin son ayı deməkdir. Ona görə də dayım adımı belə qoyub. Ata babam İmamqulu şair təbli olub, çox az şerləri qalıb. O, Gədəbəyin Arıxdam kəndindən köçub Kəlbəcərə gəlib. İlk qoşmamı onuncu sinifdə oxuyanda yazmışam.

Yaltaqlıq eyləyib girmədim qına,
Arifim, Bəhməni istəsən sına,
Düşüb ehtiyacın təmənnasına,
Ruhumu min vara dəyişməmişəm.

İlk şerlərim 1958-ci ildə rayon qəzetində dərç olunub. Bir gün onlardan birini dədə Şəmşirə oxuyublar. Şerin oxunuşu qurtaran kimi ustad aşıq deyib:

- Bah, bah, bunun bir sözünün, kəlməsinin belə remonta ehtiyacı yoxdur.

Bu, ustad Şəmşirin mənə "yazdığı" uğurlu yol oldu. İyirmi il Seyidlər kəndində müəllim işləmişəm.

- Bəhmən müəllim, artıq bir ilə yaxındır ki, Gəncədəsiniz, ömrü boyu dağlar mələyi Kəlbəcərdə yaşadıqdan sonra birdən-birə şəhər həyatı sizi darıxdırmır? Bəs, o yalçın qayalı dağlar, lilparlı bulaqlar yada düşmür?

O, köksünü ötürüb dərindən nəfəs aldı. Körpünün məhəccərinə söykənib üzü qarlı dağlara həsrətlə baxa-baxa:

- Bir oğlan - dedi - öz kəndindən üzü çöllərə fışqırıq çala-çala gedirmiş. Qabaqdan gələn kəndlisi soruşur:

- Əyə, nə gəzirsən?

- Olan-qalan bir danam var idi. Onuda itirmişəm, axtarmağa gedirəm.

- Əyə, var-yoxunu itirmisən, kefi kök adam kimi bə bu nə fışqırıqdı çalırsan?

- Canın üçün, ümidim o görünən dağın dalınadı, orda da dananı tapmasam, ağlaşmamı, vay-şivənimi eşidərsən.

İndi qışdı, yaz gəlsin, dağların lala vaxtı olsun, onda mənim Kəlbəcər ağlaşmama baxarsan. Axı, mənim əksər şerlərimin mövzusu dağlardır. İlhamı o dağlardan almışam.

On doqquzuncu əsrin əvvəllərində bizim tərəflərdə olan bir alman səyyahı yazır ki, kim Tərtər vadisi boyunca gəzməyibsə, İsveçrənin gözəlliyinə yalnız o

heyran ola bilər. Onu da deyim ki, Nizami yurdunun ab-havası mənə düşür. Dostum Fikrət şahiddir, buraya gələndən xeyli yazıb-yaratmışam. Bu torpaqda həqiqətən müqəddəslik var.

Şair əlini dostu Fikrət Əhmədoğlunun çiyninə qoyub:

Qoy qayıdım o dağlara, qadası,
Yada düşdü Dəlidağın lalası.
Deməyin ki, kəlbəcərli balası
Bir ötərgi qonaq oldu Gəncədə.

Fikrət isə yarızarafat, yarıciddi dostunun qayıtmasına etiraz edirdi. O, Bəhmən Vətənoğlunun dadlı, duzlu şerlərindən vəfa, etibar haqqında olan bəndləri, bəzən də bütöv şeri əzbər deyirdi. İndi başa düşdüm ki, milis podpolkovniki Fikrət Əhmədoğlu ilə şair Bəhmən Vətənoğlunu belə səmimi dost edən məhz poeziyadır. Əl çəkməyən Fikrət:

- Şair, - dedi, Qurban Şıxlı demişkən:

Sözünə bələdəm, ay şair Bəhmən,
Özünü görməyin marağındayam.
Qoca Abdal kimi yollar üstündə
Vəfalı dostların sorağındayam.

- Bəs mənim cavabımı niyə demirsən, a Fikrət, - deyən Bəhmən Vətənoğlu 1984-cü ildə şair Qurban Şıxlıya nəzmlə yazdığı məktubu əzbər dedi:

Şirin sözlərinə qurban,
Qurban, Qədir bilənlərin dodağındayam.
Məni görmək elə müşkül iş deyil,
Qocaman Murovun qucağındayam.

Bəhmənəm, sakini cənnət məkanın,
Körpə balasıyam Azərbaycanın.
Dədə Ələsgərin, şair Qurbanın,
Şəmşirin müqəddəs ocağındayam

* * *

Gəncədən Bakıya qayıdanda Bəhmən Vətənoğlu ilə görüşümüz haqqında düşünürdüm. Onun insan kimi sadəliyinə, səmimiliyinə və əvəzsiz yaddaşına heyran qalmışdım.

Lakin bir fikir mənə rahatlıq vermirdi: görən ömrün bu çağında onu Kəlbəcərdən - dağlar qoynundan Gəncəyə köçməyə vadar edən nə olub? Görüş zamanı, etik baxımdan, ona bu sualı vermədim. Və görüşümü xatırladıqca bu sualın cavabı getdikcə mənə aydınlaşırdı.

Bəli, uzun müddət Bakıdan uzaqda - kənddə-kəsəkdə yaşayıb yaradan şairi ədəbi ictimaiyyət "görmürdü", qəzet-jurnal redaktorları isə onun çox zaman, necə

deyərlər, qadağan olunmuş “baş ağrısı gətirən” mövzularda yazılmış şerlərini yaxına buraxmaq istəmirdilər. Ancaq bu “baş ağrısı gətirən” şerlərdə xalqın qara dərdindən başqa heç nə yox idi. Çünki Bəhmən Vətənoğlu xalqın içində, bu dərdin içində yaşayırdı.

Yaşı əllini çoxdan ötmüş şairin indiyə kimi əl boyda bir kitabı çıxıb. Bu kitabdan da şair çox narazıdır. Özü demişkən, insafsız naşirlər çox şerləri “redaktə” ediblər və... evini yıxıblar.

Məmməd Səid Ordubadi Üzeyir bəy Hacıbəyov haqqında xatirəsində yazır: “Səid! Təəccüb edirəm ki, nə üçün Ordubadda qapanıb qalmısan. Sən yığışıb Bakıya gəlsən, öz yazılarına çox geniş səhifələr tapa bilərsən, sənlə yaxından tanış olarıq, sənin irəli getməyin üçün imkan yaradarıq”.

Təəssüf ki, Üzeyir bəylər az-az dünyaya gəlir.

Bu misalı niyə gətirdiyimi izah etmək artıqdır. Bəlkə də kənd-kəsəkdə bu göz-könüldən iraqlıq, qayğısızlıq yorub Bəhmən Vətənoğlunu? Hansı ümidlə, hansı işığa söykənib Gəncəyə köçüb, görəsən şair Bəhmən? Bəlkə dostu Fikrət Əhmədoğluna pənah gətirib şair?

Bakıya qayıdanda Fikrət Əhmədoğluna zəng eləmişdim. Arada şairin də kefini soruşdum. Fikrət dedi ki, Kəlbəcərdən nəzmlə gələn məktubun ardı-arası kəsilmir. Hətta bir nəfər yazıb ki, Bəhmən Vətən oğlu deyil, daha biz ona Vətənsiz Bəhmən deyirik, Kəlbəcər kimi Vətənini atıb getdiyinə görə. Şair də cavab yazdı ki, mən Kəlbəcərdə də Vətən oğluyam, Gəncədə də...

Deyirlər ki, dağlar məndən inciyib,
Allah qoysa, barışaram, barışar!
O dağların ayağına baş əyib,
Əhvalını soruşaram, soruşar!

Məni dağlar qoruyubdu əzəldən,
Ürək dönməz o füsunkar gözəldən,
Ölüm gəlsə... macal allam əcəldən,
Torpağına qarışaram, qarışar!

Gözü, könlü dağlarda olan şair Bəhmən Vətənoğlu bir ay keçər-keçməz üzünü dağlara tutub onlarla barışığa, əbədi və əzəli torpağı olan Kəlbəcərə köçüb getdi. Uçan quş yuvasına qayıtdı...

Mart, 1990-cı il.

GÜNYAZI
XATIRLA BARI...

Görəsən torpağın varmı xəbəri
Qoynunda Günyaz tək bir xəzinə var!
Günyaz yerişinin dəniz ləngəri
Qaldı yer üstündə, qaldı yadigar

Məmməd Elli.

- Uğur olsun, əmioğlu, hara belə, deyəsən səfər üstəsən?

- İstəyirəm ayaqüstü Qazağa dəyim, ordan Şıxlıya keçib Gami qayasından Kürə, o tay Qarayazıya tamaşa eləyim. Narahat olma, tez qayıdacam...

- Yaxşı eləyirsən, sağ get, salamat qayıt - deyirdim, daxili təlatümüm o gedib qayıdana kimi kəsmirdi, Fikrim, zikrim qalırdı onun yanında.

Beləcə xəstəhal (iki dəfə infarkt keçirmiş) Günyaz Nəzirli ildə iki-üç dəfə el-obaya səfər eləyərdi. Ləngərli yerişini saxlayıb bir-birinin dalınca papiros çəkə-çəkə o tay Qarayazıya tamaşa eləməkdən doymazdı.

"Tez qayıdacam, əmioğlu". O, geriyə dönüb, gülümsünər, bu üçcə kəlməni deməkdən sanki ləzzət alardı. Bilirdi ki, onun xəstəliyinə görə evdə Aşa ana narahatdı, Seyid, Xalidə, Vaqif, Aydın və bütün qohumlar intizarda qalır. Bunları bilə-bilə el-oba istəyini saxlaya bilmirdi.

Bəzən yarızarafat, yarıciddi onun "uzaq Qazax səfərindən" narahat olub deyərdim:

- Ay əmioğlu, nəyin var orda, niyə gedirsən, evin yox, ailən yox, nə var?

- Ayə, - deyərdi, - a insafsız, heç nəyim olmasa da, dolaylarda uşaqlıq cığırlarım var, bunlar bəs döyülmü? - Sonra gülümsünər, qoluma girib çox sevdiyi "Cığırlarım dolaylardan soruşar" şerindən asta, sakit səslə bir-iki bəndini oxuyardı.

O dağlarda obasında qaldığım,
Sinə dolu havasından aldığım...
Bulaq üstə pərdə-pərdə çaldığım –
Ürəkdimi, kamandımı, tardımı?!

Sellər, sular kür çaylara qovuşar,
Duman gələr dəyələrdən sovuşar!
Cığırlarım dolaylardan soruşar:
Günyaz adlı bir qonağın vardımı?!

Xoşu gəlməzdi, kimsə onun şer yazmağını bilsin, ya da eşitsin ki, Günyaz şer oxuyur. Ən yaxın adamlarına, ürək qızdırdığı dostuna, özü demiş, şer qanana şer oxuyardı. Folklorçu-alim Elxan Məmmədova, Elməddin Əlibəyzadəyə, Cümşüd Hacıyevə, Vurğun Əyyubova, Məmməd Elliyə şer oxumaqdan ləzzət alardı. Onların irad və düzəlişlərinə də uşaq kimi əməl edərdi.

Mənə yadigar qoyduğu qovluqlara Xəlil Rzanın, Elxanın, Vurğunun, Ağa Laçınlının qeydlərini də əlavə edib.

Görkəmli şair Xəlil Rzanın 1979-cu ildə "Günaydın, əziz Günyazımız!" adlı dörd səhifəlik, od-alov saçan üsyankar məktubundan:

"Mərdlik qanunları izin vermir ki, Sizin şəxsi fəzilətlərinizi Sizdən asılı olduğum bir məqamda açıb söyləyim. Yalnız bunu deməklə yetinirəm ki, ziyalılarımızın mühüm bir qismi Sizi Azərbaycanın pak, uca başlı və cəsur oğlu

kimi tanıyır. Elə məhz buna görə də ürək qızdırıb Sizə məktub yazıram. "Heydərbabaya salam" dastanında ustad Şəhriyarın bir beyti var:

"Burda bir şir darda qalıb bağırır,
Mürüvvətsiz insanları çağırır!"

Sonra Xəlil Rza insafsız nəşriyyat işçilərinin "Məqsud Şeyxzadə" kitabının çıxmasına mane olduqlarından, buqələmun vəzifəpərəstlərin yersiz iddialarından şikayətlənir və dostu Günyazdan kömək umaraq yana-yana yazır:

"Yalnız bu kitabçanın işıq üzü görməsi deyil, ümumən Azərbaycan ləngiyir. Ümumbəşəri tərəqqidən nə qədər geri qaldığımızı yəqin, sən özün də bir Azərbaycanlı olmaq etibarı ilə sezirsən. Bunun səbəbi, məncə, işcil və qüdrətli oğulların azlığıdır. Alcaq və rəzil adamların müqavimətinə rast gəlirəm. Onlara baş qoşmağa vaxtım, macalım yoxdur. Domino və nərd oynayan ziyalıları görəndə məni gülmək tutur. Vaxta bax, imkana bax, məgər bu adamların ciddi bir işi yoxmu?

...Doğrudanmı, Azərbaycanda şair fədakarlığını, elmi işçi qüdrətini qiymətləndirməyə qadir bircə nəfər də tapılmayacaq? Tərcüməçilik də, elmi işçilik də, şairlik də mənim üçün baş məqsəd deyil, vasitədir. Bunu dərk etməyə qadir Günyaz kimi beş-on oğul tapılarsa, mükafatımdır".

Eldə, obada Günyazın dostları, onu sevənlər çox idi. Xüsusilə, sənət adamları onun hörmətini daha çox saxlardı. Günyaz da onlara köməyini, qayğısını əsirgəmirdi. El aşığı Kamandar, Aydın Çobanoğlu, şair Həmid Abbas, Söhrab Tahir, Ağa Laçınlı, Ələmdar, Əhməd Həpo, İslam Sadıq, Kəmalə və oturub-durduğu onlarca istedadlı gənclər bu gün də onun xatirəsini əziz tuturlar.

10 may 1974-cü ildə Moskvadan şair Ağa Laçınlı yazırdı:

"Unudulmaz və yaddançıxmaz böyuk
qardaşım Gunyaz!

Adam uzağa gedəndə, tək olanda, darıxanda ürəyinə yaxın əzizləri, istəkliləri yada düşür. İndi gecənin bu qəribanə dərinliyində Sizsiz darıxdığımı boynuma alıram. Çünki Siz yaxşı mənada qiyamət adamsınız. Mən Sizinlə hələ şəxsən tanış olmazdan qabaq bir çox adamlardan, o cümlədən əzizim, can-ciyərim Əhməd Həpodan haqqınızda xoş sözlər eşitmişdim. Budur, ilk tanışlığımızdan illər keçib, Sizi həmişə xeyirxah, səmimi, canıyanan görmüşəm. Təcrübə göstərir ki, ən böyük yaxşılıq çətin ayaqda, ən böyük vətəndaşlıq hissi çətin işdə üzə çıxır. Sağ olsun, çətin işləri asan edənlər. Sağ olsun, xalqı ilə quruluş arasında körpü salan ziyalılar...

Bir də Sizin müdrik olmağınız təbiidir. Axı, elə gözəl şerlər müəllifi başqa cür ola bilməz.

Əzizim, indi mən burda, Moskvada kursdayam. Ayrı otaq veriblər. İşləməyə imkan var. Allah qoysa, iyunun ortalarında Bakıya qayıdanda gəlib görüşəcəm. Xahiş edirəm, bu məktubu Sizə olan hörmətimin nişanəsi kimi qəbul edin və

mənim salamımı istəkli dostlara, o cümlədən, Əhmədə, Hafizə çatdırın. Hafizə deyin ki, tapşırığı yadımdadır. Əhmədə zəng vuracam.

Öpurəm Sizi: Ağa Laçınlı".

Şair Vaqif Səmədoğlunun "Ulduz" jurnalına (1989-cu il, №11) verdiyi müsahibədən:

- ...Və hətta senzuranın özündə, qlavlitdə, o dövrdə, o "durğunluq" dediyimiz dövrdə mənim "Bəxt üzüyü" pyesimi, açıq deyirəm, heç bir qlavlit, heç bir yerdə, lap Tallinin özündə də buraxmazdılar, bizim qlavlit buraxdı, o zaman bizim qlavlitdə Günyaz işləyirdi. Rəhmətlik Günyaz Nəzirli çox müsbət adam idi, mehriban adam idi...

Bu gün yaşayıb-yaradan müasir şairlərin əksəriyyətinin qəlbində Günyaz Nəzirli ünvanına poetik çələng toxunub. Məmməd Elli, Mikayıl Məxfi, Mobil Quluzadə, aşıq Kamandar, Abbas Abdulla, Vurğun Əyyubov, İslam Sadıq, Qaçay Köçərli və başqaları Günyaz həsrətli şerlərin müəllifidir.

Bir ulduz şığıdı göylərdən yerə,
Bir niskil Günyazın niskilliyinə,
Alışdı zirvələr, yandı dağ-dərə,
Bir küskün Günyazın küskünlüyünə.

Qoyuldu məzara gözəl şəxsiyyət,
Oyuldu gözlərdə xoş səmimiyyət,
Yazıldı ülviyyət, həm əbədiyyət,
Bir yetkin Günyazın yetkinliyinə.

Aşıq Kamandar

* * *

Bir qoşmanın iki sözü,
Bir ocağın qoşa közü,
Qardaşıdı Günəş özü,
Günyaza bax, Günyaza sən.

İslam Sadıq

* * *

Gözü yoxdur yad aşında Vurğunun,
Torpağında, ya daşında Vurğunun,
Bir ad yaşar yaddaşında Vurğunun,
Günyazındır, Günyazındır, Günyazın.

Vurğun Əyyubov

* * *

Yox, Günyaz yaşayır, ölməyib hələ,
Min Günyaz olsa da, bu azlıq edər,
O gərək təzədən qayıdıb gələ,
Bizim aramızda knyazlıq edə.

Mobil Quluzadə

Şair Vaqif Cəbrayılzadə:

- Heç kəsə göstərmədiyi, hər cür imkanı ola-ola çap etdirməkdən çəkindiyi şerləri onun övladlarıydı... Şerləri onu sinəsində dərd balalayan, dərdlə canbir olan, ayrılıq sazını özü çalan, səhralarda Məcnun kimi öz bəxtiylə yarışan, fələklə dağların oyununa baxmaq üçün bu dünyaya gələn, budaqlar çiçəkdən bar alan kimi torpağı canından baralan Günyazı ata kimi tanıyırdılar.

Biz isə onu vaxtsız ağarmış, ancaq şuxluğunu, gəncliyini saxlayan saçlarından tanıyırdıq. Dünyanın hər şeyini bilə-bilə adamlara diqqətlə və səbrlə qulaq asardı, belə diqqət, belə səbr ancaq Günyaz müəllimdə ola bilərdi.

Şerimizdə Araz mövzusu haqqında dediyi sözlər heç vaxt yadımızdan çıxmayacaq.

- Dünyanın işini bilmək olmaz. Bəlkə yüz il, iki yüz il bundan sonranın adamları bu xalqın Araz adlı yarası olduğunu ancaq şairlərin şerlərindən bildilər.

Araz mövzusunun vacibliyi haqqında bəlkə heç kəs bu dəqiqliklə söz deməyib.

...bizdədi,
Şəki, Şirvan bizdədi.
Günyaz özü bu tayda -
Ürəyi Təbrizdədi.

... bizimdi,
Şimal, Cənub bizimdi.
Azərbaycan gözlərim -
Giləsi Təbrizimdi.

Günyaz Nəzirli poeziyasının mövzusu əsasən məhəbbətdir. Açıq, saçıq məhəbbət və olub-olacaq məhəbbət. Kimsə bu şerləri oxuyanda dinləyici istər-istəməz diqqət kəsilir. Məhəbbətin ülviliyi odunda bir an, bir saat da olsa qovrulur, qeyri-ixtiyari özünün ilk sevgisini xatırlayır. Ona görə də Günyaz şeri hələ çap olunmamış dillərdə oxunur, ciblərdə qat kəsmiş kağızlarda gəzir. Belə "dərc yolu" Günyazın dostlarının, onu sevənlərin xidmətidir.

* * *

Bir günorta üstü redaksiyamıza cavan bir oğlan gəldi. Tanış olduq. Sovet İttifaqı Qəhrəmanı Mərdan Musayevin oğlu idi. Atası haqqında veriliş hazırlamağı planlaşdırdıq. Birdən zəndlə dönüb mənə baxdı.

- Siz Günyaz Nəzirlinin qohumu deyilsiniz? - deyə soruşdu. Məndən "hə" cavabı alandan sonra dərindən köks ötürüb:

- Məndə - dedi - mərhumun öz əlilə yazıb bağışladığı şerləri var. Biz yaxın dost idik.

- Hansı şerlərdi, yadında varsa...

- Niyə yadımda deyil, onun şerlərini unutmaqmı olar, mənim üçün onları bir-iki dəfə eşitmək, ya da oxumaq kifayətdir, - deyən Tariyel Günyazın "Görmüşəm", "O mənəm, o sənsən", Qayıtmaz daha" və başqa şerlərini bir nəfəsə əzbər söylədi.

- Günyazın - dedim, - bütün külliyyatı məndədir, onun öz əlilə bağladığı şer çələngində sizin dediyiniz şerlər yoxdur. Görüşək, mən onların üzünü köçürüb kitabına daxil edim.

- Mən onları cib dəftərçəmə köçürmüşəm, yaddaşıma isə əbədi həkk etmişəm. Əlyazmalarını sizə məmnuniyyətlə qaytara bilərəm.

Səhərisi, dediyi vaxtda Tariyel Musayev həmin şerlərin əlyazmasını da gətirdi.

* * *

Günyaz öz əlilə tərtib etdiyi poeziya çələnginə 15 may 1958-ci ildə yazdığı ilk şeri "Sənsiz" dən başlayıb. Şerə bircə çümlə də izahat verib: "Cavanlığımda bu qoşmanı kimə oxuyurdum, deyirdilər, guya M.P.Vaqifdən oğurlamışam..."

Sənsən ilk rübabı sinəmdə sazın,
Sənsən ilk müjdəsi baharın, yazın!
Eşqinlə yaşayan - sənin Günyazın
Bircə an, bircə gün yaşarmı sənsiz?

Günyaz Nəzirlini həmişə məhəbbətlə, yana-yana xatırlayan şair Məmməd Aslan deyir ki, Günyazın gözündə, xəyalında bir qızın əbədi sevgisi yaşardı. O qız kim idi, bizə məlum deyildi. Bəlkə də çirkin idi, bəlkə də elə-belə az-çox gözəlliyi vardı. Amma Günyaz bütün qızlardakı gözəlliyi o qızda - öz sevgi ilahəsində cəmləşdirmişdi. Başqa bir qızdakı gözəl birçəyi, ilahi gözləri, aypara qaşı öz gözəlində təsvir edirdi, ona poetik nəfəs verirdi. Bizim tanıdığımız qızlardakı yaxşı keyfiyyətləri də Günyaz öz poeziya gözəlinə məharətlə köçürə bilirdi. Biz də Günyaz poeziyasının gücü ilə o qızı tanısaq da, tanımasaq da sevirdik.

Günyaz şəxsiyyəti, Günyaz təmizliyi...

İnsanın üzündə nə qədər nur olarmış, İlahi? Günyaz başdan-başa nur yağışında xəyalımda, huşumda yaşayır və həmişə də yaşayacaq...

1928-ci ildə Qazax rayonunun Muğanlı kəndində dünyaya gələn Günyaz Osman oğlu Nəzirli 1987-ci il yanvarın səkkizində çıraq kimi qəfil söndü. O, Kür qırağındakı Şıxlı kəndinin qədim qəbiristanlığında qara torpaqa qovuşdu.

Künyaz, ölüm nədir - gətirdin yada,
Yaşamaq gözəldi - ölüm olsa da!
Neçə ki, gözəl var gözəl dünyada-
Bulud tək boşalıb-dolmağa dəyməz!

Günyaz Nəzirlinin imzası ədəbiyyat aləmində çox az tanınırdı. O, lirik qoşma, gəraylı və müxəmməslər müəllifi idi. Ara-sıra qəlbini qəm çulğayanda bayatılar da qoşardı. Mətbuatda ilk qoşmaları Cənubi Azərbaycan üçün çıxan "Səhər" jurnalında (№ 8, mart 1984) dərç olunub. Bizə yadigar qoyduğu dörd qovluq külliyyatından əl boyda bir vərəq və iki səhifəlik vəsiyyət çıxdı. Vərəqdə "baş daşıma yazılsın" sözlərindən sonra üç bənd bayatı yazıb:

Aylar, illər ötəndi,
Ömür sona yetəndi.
Torpağına baş qoydum -
Vətən yenə Vətəndi.

Sinə daşı - baş daşı,
Necə tapıb daş-daşı!
Gəlmiş idim, qayıtdım -
Nəyə gərək göz Yaşı!

Ağlamışam, gülmüşəm -
Elə bilmə ölmüşəm!
Sinəm dərdlə dolmuşdu
Bu torpaqla bölmüşəm.

"Seçmələr" adlı şer dəftərinin ilk səhifəsində Günyaz Nəzirli "Etiraf" adlı ön sözündə özü haqqında təfsilatı ilə məlumat verir. Onu olduğu kimi oxuculara təqdim edirəm:

"Nə aşıq olmuşam, nə şair. Adicə şer hevəskarı idim. Uşaqlıqdan sazı sevmişəm, amma çala bilməmişəm.

Çox erkən - on-on iki yaşımdan şer yazmışam, daha doğrusu, uydurmuşam. Yazdıqlarım özümü qane etmədiyindən bu həvəsimdən uzaqlaşmağa çalışmışam; arabir pyesə əl atmışam, rəsm çəkmişəm, səhnəyə çıxmışam, orta məktəbdə.

Jurnalist təhsilim var. Qəzet-jurnal səhifələrində ara-sıra imzam görünüb. Lakin poeziyaya olan məhəbbətim bütün arzularıma üstün gəlib. Di gəl, cəsarət etməmişəm. Bir müddət susmuşam. Nəhayət, qırx-qırx beş yaşlarında yenə şerə üz tutmuşam... Ona görə belə deyirəm ki, "üz tutmaq" hələ şerdən "üz görmək"deyil.

Gözəlliyi çox sevirdim. Bəlkə də bu səbəbdən qələmim qoşma yazmağa öyrəndi. Axı, məndə bu həvəsi M.P.Vaqifin şirin qoşmaları oyadıb. Onun kimi yazmağa çalışmışam, amma onun kimi deyə bilməmişəm...

Şerlərimdə bəzən həyatımdan "şikayətim" də olub, necə deyərlər, "sızıldamışam" da. Əslində bu "şikayət-sızıltılar" mənim deyil, danışdığım dilim

zəngin leksikonunun - sözün məna çalarlarının "sızıltıları"dır. İstəmişəm, sözləri "sevindirdiyim" kimi, bir az da "kövrəldim". Söz də insan kimi qəmlənsin. Sevinc olan yerdə kədər də olur... Məndən soruşsalardı: poeziyaya necə baxıram? Deyərdim: gözəl şerdən əvvəl gözəl şair yaranır. Deməli, yaranan özü həm də yaradan olur. Yaradan isə yaratdığını heç vaxt şikəst istəməz. Şer gözəllikdir, gəlin kimi sığal sevir. Bu fikri qoşmalarımın birində belə demişəm: "Şairsən - sığal ver gözəl sözə sən".

Günyaz Nəzirlinin şerlərinə və şəxsiyyətinə yaxşı bələd olan mərhum xalq şairimiz Osman Sarıvəlli 1979-cu ildə ona həsr etdiyi "Bizim Günyaza" adlı şerində yazır:

... Lakin mən dediyim ayrı Günyazdır,
Misli-bərabəri onun çox azdır.
Biz eyni iqlimdə tapdıq pərvəriş,
Onun qışı qışım, yazı yazımdır.
Başqa Günyazlarla yoxdur oxşarı -
O mənim öz dostum, öz Günyazımdır.

İşıqlı dünyamızdan vaxtsız gedən, dostlarının zarafat-doğru "yaxşı adamların yaxşısı" - deyə qiymətləndirdiyi Günyaz Nəzirlidən bizə çoxlu şerlər, qoşmalar, bayatılar, mahnı mətnləri, publisistik yazılar, iki səhnə əsəri qaldı.

Amma bu bir həqiqətdir ki, elini-obasını dünyalarca sevən şair ölmür. Bunu Günyaz özü də deyib şerlərinin birində:

Bu dünyadan köçməyimə baxma sən –
Əbədiyəm, ölməmişəm, sağam mən!
İstəmişəm yağış olub, sən gəzən
O yerlərə göz yaşımla yağam mən!

Günyazın həmişəyaşar qoşmaya, lirik şerə müraciət etməsi təsadüfi deyildi. O, ulu həmkəndlisi Molla Vəli Vidadinin, Mustafa ağa Arifin və Kazım ağa Salik Şıxlinskilərin poeziyasından qidalanıb.

Bizdən ayrılıb haqq dünyasına qovuşan Günyazın haqqında düşünürəm, onun bu dünyamızda nəyi qaldı: oğlumu, qızımı, nəvə-nəticəsimi?.. Təəssüf ki, Günyazımıza tale bunun heç birini qismət eləmədi. Amma təsəllimiz də var ki, onu bu dünyada heç vaxt unutmayan dostları qaldı. Saf bir ömür yaşayan Günyazımızı dostları ülvi bir məhəbbətlə hələ də yad edirlər.

13 fevral, 1987-ci il.

"AY ÇİÇƏK" MÜƏLLİFİ İLƏ GÖRÜŞ

Artıq ötüb keçmiş illər o gündən,
Neçə yol açmışdır güllər o gündən.

Demə ki, yadımdan çıxdın, ay Çiçək,
Niyə gülümsəyib baxdın, ay Çiçək?

Bu mahnını dəfələrlə eşitmişəm. Hər dəfə mənə elə gəlib ki, müəllif Gəncənin, Göyçayın məşhur çinarlarını tərənnüm edib. Mənə elə gəlib ki, yel əsdi, titrədi, səsləndi şamlar, - yazan müəllif məhz ulu Şirvanı və onun əsrarəngiz təbiətini nəzərdə tutub. Lap bu yaxınlarda bildim ki, şerdə Şirvan yox, onun ulu qardaşı Muğan tərənnüm olunur. Hadisə də bu torpağda olub, şer də bu torpaqda boy atıb cücərib, dillər əzbəri olub. Amma heç vaxt ağlıma gəlməzdi ki, "Ay çiçək" şerinin müəllifi Ukrayna şairidir. İki il əvvəl xalq şairi Nəbi Xəzrinin Petro Qoretskinin kitabına yazdığı müqəddimədə bu fakta rast gələndə təccübləndim və tərcümənin məharətinə heyran qaldım. Respublikamızda xalq mahnısı kimi şöhrət tapmış "Ay Çiçəy" in demə müəllifi varmış...

***

Qeydiyyatdan sonra Truskavetsin əsrarəngiz təbiətində gəzmək istədim. Qərbi Ukraynanın bu guşəsinə təbiətin fusunkar gözəlliyi səxavətlə bəxş olunub. Hara gedirsən, nəyə baxırsan könülaçan mənzərənin şahidi olursan. Bir-birinə arxa olan Karpat dağlarının yam-yaşıl ormanları insanı valeh edir.

Axşamüstü toran qovuşanda dəmir darvazanı açıb pansionatın sakit guşəsinə daxil oldum. Cəmi on dörd yazıçının istirahət edib, müalicə olunduğu "Naftusiya" pansionatında nəinki həmyerlimiz, heç Zaqafqaziya respublikalarından belə nümayəndə yox idi.

- Siz Bakıdan gəlmisiniz?

Alaqaranlıqda eşitdiyim səsə geriyə döndüm. Dərhal da "bəli" deyə çavab verdim.

- Görüşək - dedi, - biz "həmyerliyik", Petro İqnatyeviç Qoretski - çox şadam ki, "həmyerlimə" rast gəldim.

- Familiyanız - dedim, - nəsə mənə tanış gəlir, amma harada, nə vaxt tanış...

- Biz elə indi tanış oluruq. Görünür, siz mənim familiyama 1984-cü ildə Azərbaycanda çıxan "Ay çiçək" kitabımda rast gəlmisiniz.

- Hə, xatırladım, demək "Ay çiçəy"in müəllifi sizsiniz?

- Bəli, bəs yox yerdən demirəm ki, biz "həmyerliyik". Azərbaycanlı görəndə, onunla söhbət edəndə elə bilirəm ki...

Nəğmə dinləyirəm Odlar elində,
Könül belə yerdə gəlməzmi cuşa?
Muğan cöllərində köhlən belində
Yenə də Vurğunla səkirik qoşa...

Petro Qoretski 1919-cu ildə Ukraynanın Marinski rayonunun Maksimyanovka kəndində doğulsa da, Azərbaycanı özünə Vətən sayır. O, 1939-cu ildə Ordu sıralarına çağrılanda Prişib sərhəd zonasında hərbi xidmətdə olub.

İmişlinin Qaradonlu kəndindəki komendaturada siyasi şöbə rəisi müavini işləyən Qoretski bu yerin adamlarını indi də hörmət və məhəbbətlə xatırlayır.

Qaradonluda xidmət edəndə bizim komendaturanın yanında poçt idarəsi vardı. Atası poçtalyon işləyən Fatma[71] adlı bir qız çox vaxt atasının əvəzində poçtu aparmağa gəlirdi. Mən də hər gün hissəmizə aid olan məlumatları orda qəbul edərdim.

On dörd - on beş yaşlı Fatma rus dilini zəif bilsə də çox zərif və lətafətli danışardı. Onun kənd qızlarına məxsus dağınıq birçəkləri həyalı yanağını tül kimi örtərdi. Bu lirik təəssüratın gücü ilə, çiçəklərin timsalında, 1943-cü ildə Azərbaycan qızı Fatmanın obrazını yaratdım. İndi illər keçsə də, Muğanı və onun gözəlliklərini xatırlayanda istər-istəməz Fatmanı da yada salıram.

Petro İqnatyeviç, - dedim dostunuz Nəbi Xəzri haqlı olaraq yazır ki, Ukrayna şairinin sədaqət və məhəbbət mahnısı Azərbaycan xalqının ürəyində isinərək səmimi və şirin bir nəğməyə çevrilib dillərdə səslənir. Bu, əsl dostluq nəğməsidir.

- Əlbəttə, bir müəllif kimi mən buna çox şadam. Şerimin Azərbaycanda belə şöhrət tapmasında şair dostum Nəbi Xəzriyə və həvəskar bəstəkar Xaləddin Xəlilova, bir də onu ifa edən müğənni Ramiz Hacıyevə, Qulu Əsgərova minnətdarlığımı bildirirəm.

- Azərbaycanda neçə il hərbi xidmətdə olmusunuz?

- Dörd il. Sonra cəbhə yollarından keçdim. Bir müddət ölkəmizin müxtəlif şəhərlərində xidmətdə oldum.. Astaralı Həsənlə mənim Ukraynam uğrunda çiyin-çiyinə vuruşduq. 1956-cı ildə yaradıcılıq ezamiyyətinə Azərbaycana getdim. Nə gizlədim, doğma Muğanın qonaqpərvər və mehriban adamları üçün yamanca darıxmışdım. Bir vaxt qulluq elədiyim yerləri gəzdim, dostlarımla görüşdüm. Bakıda Nəbi Xəzri ilə görüşdüm, tanış oldum. Nəbi mənə dedi ki, bəlkə Azərbaycan haqqında şeriniz var? O vaxtlar Nəbi "Azərbaycan" jurnalında işləyirdi. "Ay çiçək" şerimi ona verdim. Şer jurnalın onuncu nömrəsində dərc olundu. İkinci dəfə gələndə Nəbi dedi ki, Petro, sənin şerinə mahnı yazılıb, indi sən Azərbaycanda məşhursan.

Ukraynanın Rusiyaya birləşməsinin 300 illiyi yubileyində Azərbaycanda Ukrayna ədəbiyyatı həftəliyi keçirilirdi. Orada bizim məhşur söz ustalarımızdan Leonid Vışeslavski, Aleksandr Pitsuxa, Dmitri Belorus, İqor Muratov və başqaları iştirak edirdilər. Azərbaycan Elmlər Akademiyasında keçirilən poeziya axşamında ilk sözü mənə verdilər. Bu görkəmli şairlərin arasında ilk sözün mənə verilməsi böyük fəxr idi. Dmitri Belorus zarafatla dedi ki, ilk sözü Petroya ona görə veririk ki, bizim Ukrayna hamı onu Azərbaycan şairi kimi tanıyır. Mən yolda yazdığım "Salam, Bakı" şerimi oxudum.

Sənin hər bir küçən, hər bir meydanın,
Musiqiylə dolu, axarla dolu.

---

[71] Əlli ildən sonra P.Qoretskinin "Ay çiçək" şerini həsr etdiyi Fatma Talıbovanı axtarıb tapdım. Şairi respublikamıza dəvət etdim. Sabirabad rayonunun Əbdülyön kəndində yaşayan səkkiz uşaq anası Fatma ilə şairi görüşdürdüm. P.Qoretski bu ailədə çox mehriban qarşılandı - müəl.

Bakı, sənin ruhun, sənin lisanın,
Sabirin ruhudur, Vurğunun dili.

Şerim qartal kimi havalan bu an,.
Dostun ümmanına qarış, ilhamım.
Bakı, mənim sənə, bil, Ukraynadan
Çox-çox salamım var,
qardaş salamım.

- Petro İqnatyeviç, tərcümə ilə məşğul olursunuzmu və Azərbaycan şairlərindən kimləri tərcümə etmisiniz?

- Təkcə Azərbaycan yox, rus və belorus şairlərinin şerlərini də Ukrayna dilinə çevirmişəm.

1954-cü ildə Bakıda olanda Səməd Vurğun, Mehdi Hüseynlə, Mirzə İbrahimovla və Süleyman Rüstəmlə tanış oldum. Özümlə gətirdiyim "Colten" / "Oktyabr"/ jurnalında Səməd Vurğunun "Səadət nəğməsi" şerini Ukrayna dilinə tərcümə etmişdim. Onu böyük şairə təqdim etdim. Səməd Vurğun: "Oxuyun, görüm - dedi - Ukrayna dilində necə səslənir?" Oxudum. Şair təşəkkür edib razılığını bildirdi.

- Daha hansı Azərbaycan şairlərinin şerlərini Ukrayna dilinə tərcümə etmisiniz?

- Süleyman Rüstəmin, Əhməd Cəmilin, Mirvari Dilbazinin, Rəsul Rzanın, Zeynal Cabbarzadənin, Bəxtiyar Vahabzadənin poeziyasından numunələri tərcümə etmişəm.

1981-ci ildə Nəbi Xəzrinin "Şerlər" kitabını çap etdirdim. İş elə gətirdi ki, həmin il özümün də şerlər kitabım tematik plana düşdü. Nəşriyatda mənə dedilər ki, bir ildə həm tərcümənizi, həm də şerlər kitabınızı çap edə bilmərik. İkisindən biri qalmalıdır. Onda mən öz kitabımı geri götürdüm. Dedim, qoy dostum Nəbinin kitabı çıxsın. Öz kitabım isə 1982-ci ilə qaldı.

Bir neçə il əvvəl Minskdə Yanka Kupalanın 90 illik yubileyində Nəriman Həsənzadə ilə tanış oldum. O, mənə şerlər kitabını bağışladı. Nəriman şerlərinin axıcılığı, onlardakı hiss-həyacan məni bir şair kimi valeh etdi. Özünü isə səmimi bir insan kimi sevdim, vuruldum ona. Artıq Nərimanın dörd şerini tərcümə etmişəm Ukrayna oxucularını onun ürəyə yatımlı şerləri ilə sevindirəcəyəm, ayrıca kitabını hazırlayıram.

- Azərbaycan mövzusunda gələcək planlarınız?

- Bəxtiyar Vahabzadənin şerlər kitabı artıq hazırdır. Nəşriyata təqdim etmişəm. Nəbi Xəzrini bizim Ukraynada sevir və maraqla oxuyurlar. Altı il əvvəl çıxan kitabı az bir vaxtda satıldı.Ona görə də yeni, daha samballı nəşrini hazırlayıram.

- Bütün bunlarla yanaşı, mənə Ukraynam qədər doğma olan Azərbaycanı tərənnüm etməkdən nə yoruluram, nə də doyuram. akılılar haqqında silsilə şerlər üzərində işləyirəm.

- Azərbaycanda sonuncu dəfə nə vaxt olmusunuz?

- Son üç ildə iki dəfə getmişəm. 1986-ci ilin payızında və 1986-cı ilin yazında. Mən Azərbaycanın bütün fəsillərini görmüşəm və sevmişəm. Hər dəfə gələndə Muğanı, Qaradonlunu, Biləsuvarı, Xan Arazın sahillərini qarış-qarış gəzirəm. Bunun də səbəbi var. Məqsədim ötən illərdə olduğum Muğanı elə-belə gəzmək deyil. Muğan haqqında roman yazmaq istəyirəm. Azərbaycana, onun füsünkar təbiətinə yüzdən çox şer yazmışam, yenə də ürəyim soyumur. Mənə belə gəlir ki, sözümün hamısını deyib qurtarmamışam.

Mənim Muğanda olmağım müharibənin ilk illərinə təsadüf edir. O illərdə Azərbaycan xalqının cəbhəyə köməyini, ağır pambıq işində gecəli-gündüzlü əzmlə çalışanların şahidi olmuşam. Bu sadə zəhmət adamları necə də cəsur idilər. Romanda hünərvər Muğan camaatının güzaranını təsvir edəcəyəm. Sərhəddə olan hadisələr də burada öz əksini tapacaq. Muğanlıların min bir əziyyətlə qazandıqları çörəyi öz boğazlarından kəsib cəbhəyə göndərmələrinin mən şahidi olmuşam.

Bəzən yuxum ərşə çəkilir, yata bilmirəm. Yadıma bilirsiniz nə düşür? Yazbaşı Qaradonludan Biləsuvara qədər olan çöldə qanqırmızı lalələrin Xan Arazdan əsən mehdən azacıq titrəməsi. Cəmi on-on beş gün bizim zastavanın dörd yanı lalələrdən cənnət olardı. Sonra ulu Muğanın tamam yeni bir mənzərəsi peyda olardı.

Əriyib getsə də illər uzaqda...
Ancaq xatirimə gəlir ki, bu dəm:
O Qaradonluda, elə bu çağda,
Yasəmən ətrindən şərbət içmişəm.

Yaşıl, taravətli çinarsa, fəqət,
Yenə də oxuyur əvvəlki kimi.
Şerimdə, nəğməmdə bir
kövrək həsrət,
Yandırır, dindirir bu gün qəlbimi.

- Petro İqnatyeviç, bəs Ukraynada necə, sizin şerlərinizə musiqi yazılıbmı?

- Əvvala onu deyim ki, Ukrayna mərkəzi mətbuatında ilk şerim 1937-ci ildə çap olunub. “Boqatır haqqında mahnı” şerim məhşur xalq qəhramanı Nikolay Şorsa həsr olunub. Bəstəkar isə bu mahnıya “Sıx ağcaqovaq altında” adı verib. Azərbaycanda “Ay çiçək” xalq mahnısı olub, bu da Ukrayna xalq mahnısı kimi şöhrət tapıb. Hər iki mahnıda adım çəkilməsə də xoşbəxtəm ki, hər iki xalqın qəlbində, dilində sözlərim mahnıya çevirilib, dillər əzbəri olub. Məni düzgün başa düşün, bunu təsəlli üçün demirəm. Hələ altmışıncı illərin əvvəlində dostum Nəbi Xəzri deyəndə ki, Petro, şerinə musiqi yazılıb, sən Azərbaycanda məşhursan, bu sözlər qəlbimin dərinliyində hələ də şirin bir laylay kimi yaşayır.

İllər keçdi, yaşımın üstünə yaş gəldi. Yetmişi haqlayıb qocaldım. Amma əlli il əvvəl Muğanın qoynunda gördüyüm çiçəkləri, qan-qırmızı lalələri hələ də unuda bilmirəm. Mən ölkəmizin elə bir guşəsi yoxdur ki, orada olmayım. Qarlı Sibirdən tutmuş günəşli Azərbaycana, Ukraynaya qədər gəzib görmüşəm, çox yerlərdə hərbi xidmətdə olmuşam. Hər yerin gülünü, çiçəyini görmüşəm, ətrini dadmışam. Nə

gizlədim, Muğanda bitən nadir və gözəl çiçəkləri heç yerdə görməmişəm. Ona görə də Azərbaycan çiçəyinə şer yazmışam.

Truskovetsk-Bakı
1988-ci il

"ETİRAF EDİRƏM QƏLBƏN"...

Bir səhvimi yadıma salanda heç vaxt özümü bağışlaya bilmirəm. Bu səhv on altı ildir qubar olub ürəyimi didir, parçalayır. Elə bir tarixi şəxsiyyətin, əvəzsiz insanın yaradıcılığında səhv iş tutmuşam ki, yadıma düşəndə məni od götürür. Mən bununla gələcək tədqiqatçıları da çaş-baş salıb onları pis vəziyyətdə qoya bilərəm. Ona görə də fikirləşdim ki, neçə ki, sağam, möhtərəm oxucular qarşısında, Səməd Vurğunun pak olan ruhu naminə bu səhvimi etiraf eləməliyəm.

1976-cı ildə böyük şairin uşaqlıq və seminariya dostlarını dinləmək üçün Qazağa getdim. Mərhum Mirqasım Əfəndiyev kimlərlə mütləq görüşməyi qeyd dəftərçəmə bir-bir yazdırdı.

- Bir başa Qazax rayon Partiya Komitəsində üçüncü katib işləyən Qəmbər Orucovun yanına get, - dedi, - ona sənin haqqında demişəm. Nə çətinliyin olsa sənə kömək edəcək...

Qəmbər müəllimin doğrudan da şairin dost və qohumları ilə görüşməkdə mənə çox böyük köməyi oldu.

İşimi qurtarıb Qəmbər müəllimə təşəkkür eləməyə getdim. Bir ağsaqqal, xeyirxah adam kimi ona minnətdarlığımı bildirdim. Məni diqqətlə dinləyən müsahibim:

- Bir de görüm, kimlərlə görüşdün? - deyə, məndən soruşanda şairin bibisi qızı Qızxanım Axundovanın, uşaqlıq dostu meşəbəyi Cəfəroğlu Mahmudun, əmisi oğlu Rüstəmağa Vəkilovun, müəllimi Əli Əliyevin, Abdulla Babanlının, seminariya dostu Hüseyn Nəsibovun, Əhməd Əhmədovun, Əsgər Xasməmmədovun, həmkəndlisi Mahmud Alıoğlunun, aşıq Məhəmməd Şıxlının və başqalarının adını çəkdim.

Bəs Mirpaşa Nəsibov? Onunla görüşmədin?

- Yox, - dedim, - o tay Saloğluda yaşayır, yolu uzaqdı, ismarıc da göndərdik gəlmədi. Bizim maşının da benzini yoxdu, qalsın gələn dəfəyə. Bir də...

Qəmbər müəllim:

- İnanıram ki, Mirpaşa müəllimə xəbər çatmayıb. O, Səməd Vurğunun adını eşitsə mütləq gələrdi. Nə danışırsan, - dedi. - O tay Qarayazıdan bu yağışda, qiyamətdə səksən beş yaşlı ağsaqqal Cəfəroğlu Mahmud Səməd Vurğunun adını eşidən kimi dilbozunu minib, haray-həşirlə axan Kürü keçib gəlib. (Dörd gün ara verməyən yarışlara görə o tay Qarayazıya gediş-gəliş tamam kəsilmişdi.) Yox, sən Mirpaşa müəllimlə mütləq görüşməlisən, yoxsa heç yerə, Bakıya-zada buraxan deyiləm. Qal, sabah maşını mən özüm təşkil edəcəm, axşam da yola salacam Bakıya...

Əslində xeyirxah Qembər müəllimin təklifi ürəyimcə idi. Bu maraqlı adam haqqında çox eşitmişdim, amma onunla söhbət eləmək qismət olmamışdı. Uzaqdan-uzağa elə-belə tanıyırdım ağsaqqalı. Rayonda ona hamı Səməd Vurğunun yaxın dostlarından biri kimi hörmət və ehtiram göstərirdi. Toy məclislərində Mirpaşa müəllim mütləq Səməd Vurğunun və özünün yazdığı şerlərlə sağlıq deməyi xoşlardı.

Səhər tezdən komsomolun birinci katibi Qasım Əliyevlə birgə o tay Saloğluya Mirpaşa müəllimin görüşünə getdik.

Mirpaşa Nəsibov söhbətinə çox-çox uzaqlardan başladı: Qazağın qədim tarixindən, görkəmli maarifçi Əhmədağa Mustafayevdən, şairin ulu babalarından bildiyini, eşitdiyini bizə söylədi. Nəhayət, mən söhbətin yönünü dəyişib seminariya illərinə gətirdim. Onda Mirpaşa müəllim fəxrlə dedi ki, məndə Səməd Vurğunun heç yerdə dərc olunmamış bir şeri var.

- Nə vaxt yazıb? - deyə soruşdum.

- Seminariya illərində, Dürrəyə dəlicəsinə vurulan vaxtı. Amma şeri Sizə verməyəcəm. Yetmiş illik yubileyidi, özüm dərc etdirəcəm.

- Nə olar - dedim, özünüz bilən məsləhətdir.

Seminariya illərindən maraqlı epizodlar danışan Mirpaşa müəllim birdən nə fikirləşdisə:

- Yaz - dedi, - şeri də deyim, yaz. Bu əhvalatdan sonra da şeri dərc etdirmək yerinə düşər. (Mirpaşa Nəsibovun danışdığı əhvalat inandırıcı olmadığına görə "Ulduz" jurnalının redaktoru Əhməd Cəmil ixtisar eləyib ancaq şeri saxladı, - Ş.N.)

Mən şeri da yazıb götürdüm.

Quş budağa gəlib qonu,
Alacadır onun donu.
Qərib elə düşüb yonu,
Ay ürəyi yara Səməd.

Gecə-gündüz yarı andın,
Kərəm kimi oda yandın.
Bivəfaya sən inandın,
Yox dərdinə çarə, Səməd.

Fələk verməz nüsrətini,
İtirmisən hörmətini,
Çək illərlə həsrətini,
Sən, ey bəxti qara Səməd,

Bakıya qayıdanda Qazax təəssüratımı - "Vurğun keçib bu yerlərdən" silsiləmin birini də yazıb "Ulduz" jurnalına təqdim etdim. Dostum Səyavuş Sərxanlı o vaxtlar nəsr şöbəsinin mudiri idi. Yazını oxuyub bəyəndi. Vərəqləyib şer olan səhifəni tapdı. Çox incə bir eyhamla:

- Sarı Şəmistan, (o mənə zarafatla belə müraciət edir) - dedi, nəsə bu şerdən gözüm su içmir, düzü heç Səməd Vurğunun şerinə oxşamır. Zəif deməyə də dilim gəlmir. Mən toxunmayıb Əhməd müəllimə (Əhməd Cəmil) təqdim edirəm. Görək ağsaqqal nə deyəcək.

Aradan yarım saat keçər-keçməz Əhməd müəllim əvvəl Səyavuşu, sonra məni də yanına çağırdı. Özünə məxsus ağır, ahəstə səslə:

- Gəl, burda yaxında əyləş, oğul - dedi, dərindən nəfəs alıb - oxudum, yazını, çox sağ ol, silsilənin bu hissəsini də oxunaqlı yazmısan, maraqlı faktların var. Səməd Vurğunun ulu babaları haqqında olan əhvalatlar xüsusilə xoşuma gəldi. - Sonra az qala pıçıltı ilə - bu şer məni açmadı, heç elə bil Səmədin deyil, - deyib duruxdu, fikrə getdi.

Mən cəsarətlənib:

- Əhməd müəllim, - dedim, - istəyirsiniz çıxardın. O boyda Səməd Vurğunun bir zəif şerə məncə çox da ehtiyacı olmaz...

- Yox, niyə çıxardaq, tapıntıdır, - dedi. - Sən gəl, bir zəhmət çək, bu şeri apar Osman Sarıvəlliyə göstər. O, bu işin xiridarıdır. Hər halda Osman baxsa yaxşıdır. Onlar seminariyada birgə oxuyublar. Şer də o vaxtlar yazılıb.

Yazını götürüb Osman müəllimgilə getdim. Nizami küçəsi ilə gedəndə hədiyyələr mağazasının yanında təsadüfən Osman əmi ilə üzbəüz gəldim. Salamlaşdıq.

- Hara belə a bala, başı alovlu?

- Sizə gedirdim, Osman əmi.

- Xeyir ola?

- Qazağa getmişdim. Səməd Vurğun haqqında bir yazı hazırlamışam. Mirpaşa Nəsibov da dərc olunmamış bir şerini verib. Mən də onu yazıya daxil eləyib, “Ulduz”a təqdim eləmişəm. Əhməd müəllim dedi ki, balaca şübhəm var, şerin Səməd Vurğunun olmasına, qoy ona Osman da baxsın...

- Hanı şer, hardadır?

- Budu, məndə.

- Ver bura, gedək ittifaqa, orda baxaram.

Osman müəllim şeri birinci dəfə oxuyub:

- Əlbəttə, Səmədindi - dedi. - Amma xeyli başını qaldırmayıb şeri iki-üç dəfə yenidən oxudu, xırda bir düzəliş də elədi. - Ver, - dedi - getsin, cavanlıq vaxtı yazıb. Bir az da ola bilər Mirpaşa yaddaşında itirib. Onun özünün də bala-bala yazmağı var, yəqin ki, unutduğu misranı özündən toqquşdurub. Mirpaşanın cavanlıqdan özündən toxumağı, gopu var...

- Bəs qol-zad çəkmək lazım deyil? - soruşdum.

- Nə qol əyə, buxalter kağızı-zaddımı? Bu saat - deyib, Osman əmi dəstəyi götürdü. Xoş-beşdən sonra: - Əhməd, şerə baxdım, ver getsin, düzdü, bir az təhrifləri var, amma nə bilim, deyəsən Səmədindi. Zalım oğlunda səliqə varıydımı ki...

Şer yazı ilə birgə 1976-cı ildə “Ulduz” jurnalının beşinci nömrəsində dərc olundu.

Jurnal çıxan kimi həmin nömrəni götürüb sevinclə Mirqasım əmigilə getdim Lütviyyə xalada, Mirqasım əmi də məni mehribanlıqla qarşıladılar. Lütviyyə xala:

- A Mirqasım, sonra oxuyarsan, ver bir mən baxım, deyəsen Səmədin şəkli var, orda gözümə dəydi...

Lütviyyə xala jurnalı alıb vərəqlədi. Səməd Vurğunun şəklini dönə-dönə öpüb:

- Can, can a Səməd, hayıf olan Səməd - deyib kövrəldi.

Çay süfrəsi arxasında Mirqasım əmi yazını oxuyurdu. Lütviyyə xala ilə mən də Qazaxdan, qohum və tanışlardan danışırdıq. O, Mehdi Hüseynin, Səməd Vurğunun, Osman Sarıvəllinin cavanlığından danışa-danışa "yadındadımı a Mirqasım, Səməd bizim Nazimin toyunda tamada olanda"...

Birdən Mirqasım əmi hirslə:

- Bu nədi, - dedi, - gör neyləmisən, mən elə bilirdim ki, Mirpaşa səni gopları ilə əfsunlayacaq. Bu şer Səmədin döyül, bu şer bizim seminariya müəllimimiz Mirzə Mehdi Vəlizadənindir. Mirqasım əmi yana-yana hirslə: - Gör bir neyləmisən, bütün zəhmətini də batırmısan...

- Mirqasım əmi, düzdü, şerin Səməd Vurğunun olmamasına Əhməd müəllim də şübhələndi. Apardım Osman müəllim də baxdı, təsdiq elədi ki...

- Top aparsın Osmanın başını, top. Həlvət qocalıb ağlı azalıb, - deyib telefona tərəf getdi. Zəng eləyib: - Əyə, Osman, - dedi, Nazarlıdan bir yaxşı müəllimimiz vardı, adı nəydi onun? Mirzə Mehdi Vəlizadə! Ay sağ ol, bə, həncəri sən onun şerinin Səmədin adına olmağını təsdiqləyibsən? Bə, yadında döyülmü onun gözəl, lirik və satirik şerləri... "Tələbə əfkarı" adlı divar qəzetimizdə onun şerlərini oxumağını nə tez unutdun? Sən də, mən də bütün seminaristlər əzbər bilirdik. Əyə, Şəmistanı uşaq görüb aldadıb bə, sənə nə olmuşdu? Bilmirəm, neyləyirsiniz eləyin, sən də, Əhməd də, Şəmistan da oxuculardan üzr istəyib, günahınızı yuyun, yoxsa...

Lütviyyə xala hirsli Mirqasım əmiyə təskinlik verib:

- Dünyamı dağılıb, yıxılmışın oğlu, mən də deyirəm nə olub? Əsəbiləşib özünə qəsd eləmə, havayıca yerə...

Mirqasım əmi hirslə:

- Sən belə şeyi bilməzsən, dağılıb, əlbəttə, daqılıb. İki dağ boyda adamın ruhunu birdən təhqir eləyiblər. Alının papağını Vəlinin başına qoyublar...

Lütviyyə xala ərklə danlaya-danlaya kişini ram elədi. Bir-iki stəkan çay içib toxdayan Mirqasım əmi:

- Mirzə Mehdi Vəlizadə - dedi, - bizim tələbə dram dərnəyimizin rəhbəri və ədəbiyyat müəllimimiz idi. Tarix-coğrafiyanı Əli əfəndi (Əli Molla Vəli oğlu Hüseynov. Yazıçı Mehdi Hüseynin atası - Ş.N.) deyirdi. Fars dilini direktorumuz Firidun bəy Keçərlinin özü keçirdi. İbrahim əfəndi Qayıbzadə ilahiyyat, Alay bəy Şıxlinski riyaziyyat, Əli Mustafayev nəğmə, Əhməd Gülməmmədov rus dili, Yusif Əfəndiyev ədəbiyyat müəllimimiz idi.

Təsərrüfat müdirimiz Yusif ağa Vəkilovun (Səməd Vurğunun atası-Ş.N.) vəfatından sonra İlyas Kazımov oldu. Çaylı kəndindən olan bu cavan oğlan yenicə yaranan komsomoldan gəlmişdi. Kasıb İlyasın var-yox bircə inəyi vardı. Bir gün 1922-ci ildə Çaylı kəndindən xəbər gəldi ki, inəyi canavar yeyib. Bərk dilxor olan İlyas kəndə getdi. Axşamüstü çox pərişan halda qayıtdı. Qəm-qüssə içində gəzən İlyasa müəllimimiz Mirzə Mehdi Vəlizadə nə qədər təsəlli verdisə, qaşı-qabaqı

açılmadı ki, açıl-madı... Onda Mirzə müəllim İlyasa bir şer yazdı. Şerin bircə bəndi yadımda qalıb:

Zavxozun sərdar inəyi,
Yeyibdi murdar, inəyi,
Deyib: yenə var inəyi,
Yeyib canavar inəyi...

Səməd Vəkilov isə ona belə bir cavab yazmışdı:

Gəlin qeydinə qalaq,
Zavxoza inək alaq!
İlyas kəndə haylasın,
Südün sağıb paylasın.

Həmin ili (1976-da) "Azərbaycan" jurnalının beş və altıncı nömrələrində Səməd Vurğunun qardaşı Mehdixan Vəkilovun "Mənim qardaşım" xatirə povesti dərc olundu. Jurnalın beşinci nömrəsində Mehdixan müəllimin bu cümlələrini oxuyanda mənə tam aydın oldu ki, aldanmışam. Mehdixan müəllim yazırdı:

"Səməd Vurğun haqqında xatirə yazanlar, məsələn, onun məktəb yoldaşı Mirpaşa Nəsibov, bəzən Səmədi az qala anadangəlmə siyasi xadim kimi ifrat dərəcədə bəzəyirdi. Mirpaşa on beş-on altı yaşlı Səmədin dili ilə elə kəskin siyasi mülahizələr söyləyir ki, belə mühakimələr hətta müasir savadlı gənclərin siyasi bilik səviyyəsini üstələyir."

Professor Mehdixan Vəkilov Mirpaşa Nəsibovun şair haqqında 1966-cı ildə "Ədəbiyyat və incəsənət", "Qalibiyyət bayrağı" qəzetlərindəki yazılarını oxuyandan sonra bu qənaətə gəlmişdi.

İnsafla desək, rəhmətlik Mirpaşa müəllimdə Səməd Vurğunun şəxsiyyətinə, poeziyasına elə bir güclü ilahi məhəbbət vardı ki, o, həyatda yaxşı nə varsa onu Səməd Vurğuna şamil edərdi...

Bundan sonra Səməd Vurğun haqqında nə yazırdımsa, Mirqasım əmiyə oxuyur, onunla məsləhətləşir, sonra çapa verirdim. Şair haqqında yazdığım beş kitabın hər sətrində, hər fəslində Mirqasım əminin əməyi var. Onun güclü hafizəsi, maraqlı söhbətləri yazılarımın daha dolğun, daha məzmunlu çıxmasına kömək edirdi. Saxta bir deyimi, uydurma əhvalatı Mirqasım əminin "senzura"sından keçirmək qeyri-mümkün idi. Bu ağıllı və xeyirxah insanın mənə yaxşılıqlarını deməklə, saymaqla qurtaran deyil. Bu gün də Səməd Vurğun haqqında nəsə yazanda, istər-istəməz vaxtilə mərhum Mirqasım əmidən götürdüyüm qeydlərə baxmağa ehtiyac duyuram, onunla "məsləhətləşir" və "dəqiqləşdirirəm". Rəhmətlik o qədər saf, doğru danışan idi ki, artıq-əskik, şişirtməli söhbət eləyən adam görəndə "ölüm də yoxdu ki, bu bədbəxti bizdən ala, canımız qurtara" - deyərdi.

O vaxtdan illər keçib. Mənə bu səhvi elətdirən Mirpaşa Nəsibov, səhvimi tutan Mirqasım Əfəndiyev də dünyasını dəyişib. Allah onlara rəhmət eləsin. Səhv isə ağır yük olub mənim boynumda qaldı. Axı, şeri mən dərc elətdirmişəm. Və

gələcək tədqiqatçılar da bu səhvə görə şübhəsiz ki, məni ittiham edəcəklər. Qoy, oxucu məni düzgün başa düşsün: məqsədim Mirpaşa müəllimin pak ruhuna xələl gətirmək deyil. Yalnız vicdanımın səsi məni məcbur elədi ki, səhvimi etiraf edim. Bəs nəyə görə o vaxt - 1976-cı ildə "Ulduz" jurnalının səhifələrinin birində üzr istəyib səhvimi boynuma almadım? Buna mərhum Əhməd Cəmil razı olmadı.

- Əvvəla bu səhvi yuxarılara (Mərkəzi Komitəni nəzərdə tuturdu -Ş.N.) başa salmaq mümkün olmayacaq. İkincisi də, Səməd Vurğunu və Şəmistanı istəməyən nadanların əlinə tənqid üçün girəvə düşəcək. Hələlik qalsın... - deyib Mirqasım əmini razı saldı.

1.09.92

BİR GÖRÜŞDƏN XATİRƏ VƏ YAXUD

XALQ ŞAİRİ OSMAN SARIVƏLLİ HAQQINDA XATİRƏLƏRİM

1976-cı ildə böyük şairimiz Səməd Vurğunun yetmiş illik yubileyi hər yerdə, hər obada təntənə ilə keçirdi. Məktəblərdə, kitabxanalarda tez-tez maraqlı görüşlər təşkil edilirdi. Kitabxanalardan biri "Səməd Vurğun və gənclik" adlı sərgi açmışdı. Məni də vurğunşünas kimi oraya dəvət etmişdilər.

Şairin gənclik dostları haqqında bildiyim faktları, əhvalatları danışdım. Danışdıqca fikrim-zikrim Səməd Vurğunun iki misrasının çevrəsində cövlan edirdi:

Gəncliyim bir oddur,
yandıqca sönməz,
İnad bir insanam,
sözümdən donməz...

Görüş iştirakçılarının nə danışdığını daha eşidə bilmirdim. Xəyalən "Gəncliyim bir oddur"... adlı verilişin səhifələrini vərəqləyirdim. Yubiley münasibətilə yazacağım ssenarinin mövzusunu və adını elə bu görüşdən tapmışdım.

Redaksiyaya qayıtdım. Baş redaktor Yusif Kərimova və şöbə müdiri Həqiqət xanımla kimlərin çıxışını vermək barədə birgə plan tutduq. Axtarışlarım zamanı şairin 1933-cü ildə yazdığı "Muradxan" mənzum oçerkinin qəhrəmanı Muradxan Musa oğlu Hacıyevi tapıb görüşdüm. Çox maraqlı, nurani bir ağsaqqal idi. Onu dinləyəndə, hazırcavablığının şahidi olanda fikirləşirdim ki, Səməd Vurğun poemasına Muradxan kişini qəhrəman seçməkdə heç də səhv etməyib. Sumqayıta gedib onun gənclik dostları barədə söhbətini lentə yazdıq.

Daha sonra maarifçi Mirqasım Əfəndiyevin, professor Yusif Yusifovun və şairin ən sadiq gənclik dostlarından biri - əziz şairimiz Osman Sarıvəllinin çıxışını

verməyi nəzərdə tutduq. Elə həmin anda zəng edib Osman müəllimə fikrimi bildirdim. Daha doğrusu, bu mövzuda bizim verilişdə çıxış eləməsini xahiş etdim. Telefonda ani olaraq susan Osman müəllim:

- Ay yoldaş, adınız necə oldu? - deyə soruşdu.

- Şəmistan - dedim.

- Bəs familyan?

- Nəzirli - deyə, cavab verdim.

- Vaxtınız varsa, durun gəlin bizə, oturaq bir əməlli-başlı söhbət edək. Görək hardan başlayıb, harda qurtaracağıq. Belə sanballı mövzunu telefonda həll etmək olmaz - dedi.

Həmin günü Osman müəllimin görüşünə getdim, O illərdə televiziyada kinolentin qıtlığı ərşə qalxmışdı. Moskvanın şovinist rəhbərləri bizim respublikaya kinolenti cirə ilə verirdi. Ondan da, o vaxtın ən mühüm partiya və sovet tədbirlərində istifadə olunurdu. Hər verilişə çəkiliş üçün lent verilmədiyindən əksəriyyətində foto-şəkildən istifadə edirdik. Bu da ən yaxşı ssenarini belə yarıbayarı keyfiyyətcə aşağı salırdı. Kinolent veriləcəyinə ümidim yox idi. Fotoqraf dostum Seyfəddin Məmmədvəliyevdən Osman müəllimin görüşünə birgə getməyi xahiş elədim.

Osman müəllim hər ikimizlə ehtiramla görüşüb "xoş gəldin" elədi. Yazı masasının yanında ayaq üstə dayanıb ikimizə də diqqətlə baxa-baxa:

- İkiniz də bir-birinizə oxşayırsınız; əsl sovet uşaqlarısınız, elə bil nə çörək yemisiniz, nə də su içmisiniz. Əyə, nə yaman arıqsınız - deyib bizi zarafatla qarşıladı. Asta, ağır addımlarla yaxınlaşıb əlini ərklə mənim çiynimə qoydu - İncimədiniz ki?..

- Yox - dedim, niyə inciyək ki, olanı deyirsiniz.

- Yaxşı, mənnən telefonda danışan hansınız idi?

- Mən idim, Osman müəllim.

- Demək Şəmistan Nəzirli də sənsən?

- Bəli, mənəm.

- Lap yaxşı, lap yaxşı, - diqqətlə, fikirli-fikirli mənə başdan ayağa kimi baxıb - indi de görüm, sən bizim hansı Şıxlıdansan?

- Mənim babalarım Şıxlıdandı, vaxtilə köçüb Körpülüdə məskən salıblar. Şıxlıdan bir az yuxarıda...

Osman müəllim bığaltı gülümsünüb, sol çiyni üstə döndü.

- Ağız, a Səyalı, bəri çıx, qohumun gəlib - deyə həyat yoldaşını çağırdı. Sol tərəfdəki qapının pərdəsi titrəyib aralandı. Səyalı xala görünən kimi:

- Durma, mərcimi gətir, mən uddum. Buyur, bu da sənin Körpülü qohumun - deyib, məni göstərdi.

Səyalı xala canıyananlıqla:

- Boy - dedi, - onda bu, Süleyman əminin nəvəsidir.

- Bəli, bəli Süleyman katdanın... Sənə demədimmi bu, sənin Nəzirli qohumlarından olacaq. - Üzünü bizə tutub: - əyləşin, ay uşaqlar, siz gələnə kimi Səyalı xalanızla əməlli-başlı mübahisəmiz oldu. - Zarafatla: - Allaha şükür ki, heç olmasa, bir dəfə Nəzirli tayfasının hesabına mən də muştuluq yeyəcəm. Sən də, a Səyalı, gör orda nəyin var, təzə qohumuyun hesabına bizə bir görüm-baxım elə...

Səyalı xala:

- Eləyərəm, niyə eləmirəm - dedi. Süleyman əmimin nəvəsi də xoş gəlib, onun dostu da... Osman müəllim söhbətinə ilk gəncliyindən, Səməd Vurğunla, Möhsüm Poladovla, Şəmistan Əyyubovla, Allahverdi Namazovla, Mirqasım Əfəndiyevlə, İbrahim Mirzəyevlə tanışlığından başladı. Seminariyadakı təhsil illərindən maraqlı əhvalatlar danışdıqca mən də qısa qeydlər götürdüm. Dostum Seyfəddin isə şair Osman Sarıvəllinin bolluca foto-şəkillərini çəkdi. Bu nadir fotoşəkillərdə, 1976-cı ilin sentyabrından bizə yadigar qaldı. Verilişin hazırlanmasından bir həftə əvvəl rəhbərliyə məlumat verdim ki, burda Osman Sarıvəlli də çıxış eləməyə söz verib. Osman müəllimə görə sədr Elşad Quliyev bizim verilişə səxavətlə limitdən kinolent verdi. Veriliş efirdə səslənəndən sonra həmin süjetin kino-lentini götürdüm. İndi də özümdə həmin verilişi yadigar saxlayıram.

Osman əmi ötən günləri yada saldıqca başını bulayır, yanıqlı-yanıqlı gənclik dostlarından danışırdı. İnqilab illərində, otuz yeddinin acı tufanlarında itirdiyi və günahsız həbs olunanlardan söz düşəndə o, Dağkəsəmənli igid Şəmistan Əyyubovun vaxtsız ölümünə heyfsləndi. Asta, ağır səslə Səməd Vurğunun bir bənd şerini əzbər dedi:

Biz az döyüşmədik qoca dünyada,
Qorxub çəkinmədik isti qanlardan.
Atımız ölüncə getdik piyada,
Çıxdıq o qarışıq imtahanlardan.

Sonralar o ağır illəri xatırlayan professor Mehdixan Vəkilov yazırdı: “Səməd Vurğunla Osman Sarıvəllinin həyat, mübarizə və yaradıcılıq yolları bu illərdən (1930-cu illər) başlayaraq birləşir. Əlbəttə, mən, seminariya illərini demirəm. Onların arasında yaranan səmimiyyət, fədakarlıq və mənəvi yaxınlıq ömürləri boyu davam etmişdir. Bu iki ədəbi simanın dostluğu, qədim yunan əsatirində söylənən, Homer nəğmələrində oxunan əfsanəvi dostluğu xatırladır.

- Osman müəllim, - dedim - Səməd Vurğunun gənclik illərindən hansı epizodu tez-tez xatırlayırsınız?

- Eh - dedi, ay oğul, birdimi, beşdimi... 1929-cu ildə Səməd Vurğun, Əkrəm Cəfər, bir də mən Moskvaya Maksim Qorki adına “Ali Ədəbiyyat kursları” nda oxumağa getdik. Bizi - Azərbaycan proletar yazıçılarını çox böyük hörmət və izzətlə qəbul elədilər. Yataqxanada yer paylananda Səmədi itirdim. Axşam el yatanda gəlib çıxdı. Komendantdan yerzad ala bilmədi. “Osman, bu axşam başayaq yataq, sabaha özümə yer alacam”. Bu minvalla ay yarıma yaxın mənimlə baş-ayaq yatan Səməd özünə yer almadı. Axırda da nə desə yaxşıdır: “Əyə, Osman, vallah, sənə elə öyrəşmişəm, heç ayrılmaq istəmirəm”.

- Sən atanın goru - dedim, məndən əl çək, səhərə qədər bir böyrü üstə yatmaqdan qabırğalarım əzilib.

Gördüm Səməd öz kefindədi, mənim isti, yumşaq, halalca çarpayımdan getmək istəmir. Onda məcbur olub özümə gün ağladım, köhnə bir çarpayı tapıb, sınıq-salxaq yerini təmir elədim. Səmədin “çarpayısı” ilə yanaşı qoydum.

Moskvadan danışdıq, oğul, yadıma bir əhvalat da düşdü. Onu da deyim ki, Qazax seminariyasında da, Moskvada da mən Səmədlə bir sinifdə, bir kursda oxumuşam.

Moskvada oxuyanda ikimiz də İvan Turgenevin yaradıcılığından kurs işi yazıb, imtahan verməli idik. Mən günümü kitabxanalarda keçirir və Turgenevin əsərlərini oxuyurdum. Ən çox da yazıçı haqqında olan tədqiqatları mütaliə edir, yaradıcılığını öyrənirdim. Amma Səməd adlı adam nə kitabxanaya gəlir, nə də kurs işi yazırdı. Bütün günü şəhərdə gəzməkdə, öz kefində idi. Axşamlar da uşaqları başına yığıb skripka çalardı. Bəzi hallarda məndən kitabxanada nə oxuyub öyrəndiyimi soruşardı, danışdıqlarıma diqqətlə qulaq asardı. Özünün dediyinə görə, Turgenevin iki əsərini oxumuşdu: "Asya" və "Bahar suları".

İmtahan günü gəlib çatdı. Mənim danışdıqlarımdan Turgenevin yaradıcılığını öyrənən Səməd "əla" qiymət qaldı. Mən isə "kafi". O zaman da ikicə qiymət vardı: "kafi" və "əla".

- Ay oğul, Səmədlə belə günlərimiz çox olub, lap çox. Mənim indi huşum qalmayıb - deyib, əlini ağ saçlarının üstünə qoydu. "Bax, ağrının hamısı burdadır, beyin də ki, ağrıdı, heç nə... düşünməyin, fikrin motoru, mühərriki budu, bu...

Xeyli sükutla dayandı. Dostum Seyfəddin ona yaxınlaşıb:

- Osman müəllim, - dedi, yorğunluqdandır, işləməyi bir az azaldın, nə qədər işləmək olar. Sizin indi istirahət vaxtınızdır. Allah canınızı sağ eləsin, onsuz da Siz xalqımız üçün çox iş görmüsünüz.

O, Seyfəddinə təfərünclə baxıb:

- Oğul, - dedi. - İstər şair olsun, istərsə yazıçı. Gecə də, gündüz də işləməlidir. Atalar deyir ki, at ölənə qədər otlayır. Demək şair, yazıçı da son nəfəsinə qədər yazmalıdır.

Seyfəddin stolun üstündən götürdüyü "Səməd Vurğun" foto-albomunu ona göstərib soruşdu:

- Bu kitabı tez-tezmi oxuyursunuz?

- Burda oxumağa bir şey yoxdu. Rəhmətlik Səmədin, mənim, bizim dostlarımızın yaxşı şəkilləri var burda. Darıxanda vərəqləyib Səmədlə keçirdiyim günlərin azlığına heyfslənirəm.

Osman əmi kitabı vərəqləyəndə Seyfəddin onun müxtəlif rakuslardan şəklini çəkdi. Biz getmək üçün yığışdıq. Osman müəllim də ayağa durdu. Asta addımlarla yaxınlaşıb mənimlə üzbəüz dayandı, sağ əlini ərklə çiynimə qoyub:

- Yaxşı, - dedi. - a Körpülü balası, bayaqdan sən sual döşəyirsən, mən də cavabını verirəm. İndi sən mənim bircə sualıma cavab ver görüm. Sizin kənddə körpü varmı?

- Yox - dedim.

- Bə, niyə kəndinizin adı Körpülüdür?

- Deyirlər, XVIII əsrdə Sınıq körpünün bir qolu uçub dağılıbmış, bizim kəndin də qoçaq kişiləri onun tikintisində fəal iştirak ediblər. Onda Şıxlı varıymış, Körpülü yox. Körpünün tikintisində işləyənlər Şıxlıdan ayrılıb gəlib indiki Körpülüdə məskən salıblar. Amma Osman əmi, bu nə dərəcədə dəqiqdi, yalandı, bilən yoxdu...

Osman müəllim mənalı-mənalı gülümsünüb:

- Hə, - dedi, yəqin ki, elədi. Amma mənim yaxşı yadımdadır ki, bizim ağsaqqallar sizin kəndçiləri görəndə zarafatla deyərdilər:

Körpülünün yoxdu körpüsü,
Dəysin ona Tanrı törpüsü.

Sonralar görüşəndə də Osman əmi bu iki misranı təkrar-təkrar deməyi xoşlardı.

Ayrılanda, elə qapının ağzında Osman əmi Səməd Vurğundan yenə bir əhvalat danışdı.

- 1952-ci ildə Səməd Akademiyada vitse-prezident idi. Mən də bilmirəm nəyə görəsə yanında idim. Bu vaxt Mehdixan və Yusif Yusifov da gəldi. Telefon tez-tez zəng eləyirdi. Yadımdadır, Səməd iki nəfərə məsləhət verib yol göstərdi, üçüncüyə isə kömək elədi.

Səmədin xətrini çox istədiyi, zarafatla "yetim Yusif" çağırdığı professor Yusif Yusifov dedi:

- Hamıya iş düzəldib, kömək edirsən, bəs bizə nə vaxt arxa, dayaq olacaqsan?

- A yetim, nə sənə, nə də qardaşım Mehdixana karyera dalınca qaçmağı məsləhət bilmirəm. Siz Əli əfəndi, Firidun bəy Köçərli, Əhmədağa Mustafayev kimi kişilərdən, görkəmli maarifçilərdən bilik almısınız. İllərin ağır sınağından çıxmış adamlarsınız. Sizin hər ikinizi müəllim, maarifçi kimi el-oba yaxşı tanıyır. Gedin, peşənizdən bərk yapışın. Elm dalınca gedin. Vəzifə, rəyasət boş şeydir, qardaşlarım.

Səmədin məsləhəti ilə hər ikisi elmin çətin yollarından keçib elmlər doktoru, professor və əməkdar elm xadimi kimi yüksək ada layiq görüldülər.

1992, noyabr

UNUDULMAYAN YAXŞILIQ

Min doqquz yüz altmış üçüncü ildə Qazaxıstanın Türatam stansiyasından yüz yetmiş kilometr aralıda yerləşən hərbi hissədə xidmət edirdim. O vaxtlar yenicə-yenicə ədəbiyyat həvəskarı idim. Əlimə keçən qəzet və jurnalların demək olar, hamısını mutaliə edirdim. Özümlə evdən götürdüyüm Azərbaycan dilində olan üç-beş kitabı dönə-dönə oxudum. Məsafə uzaq olduğundan doğma Azərbaycan dilində nə mətbuat, nə də kitab tapa bilmirdim. Hissəmizdə yeganə azərbaycanlı mən idim. Bərk darıxırdım. Vətən üçün, doğma dilimdə oxumaq üçün burnumun ucu göynəyirdi.

Bir gün uzun götür-qoydan sonra "Azərbaycan gəncləri" qəzetinə bir məktub yazdım. Məktuba on manat pul da əlavə elədim ki, məni qəzetinizə bu pulla abunə yazın. Üç aydan çox bir vaxt keçdi, nə qəzet gəldi, nə pul geri qayıtdı.

Xeyli müddət məyus halda gəzdim. Gündə poçtalyonun qabağına yüyürürdüm. Evdən alacağım məktubdan çox "Azərbaycan gəncləri" qəzetini

gözləyirdim. Bir səs-soraq çıxmadığını görüb, bu dəfə qəpik-qəpik yığdığım əsgər pulundan on beş manat "Azərbaycan" jurnalına - baş redaktorun ünvanına göndərdim. Əlavə bir məktub da yazdım ki, hərbi hissədə tək azərbaycanlı mənəm, bərk darıxıram. Xahiş edirəm, məni bu xərclə jurnalınıza abunə yazasınız.

Ay yarım keçər-keçməz məni təcili qərargaha çağırdılar. Siyasi işlər üzrə rəis, mayor Levçenko stolun üstünə bir bağlama atıb, sərt-sərt üzünü mənə tutdu:

- Bu nədir? - dedi, - sən kimsən ki, bu bağlamanı sənə göndəriblər?

- Bilmirəm, - dedim, - icazə verin oxuyum, baxım...

- Yox, olmaz - deyə mayor əsəbiliklə qışqırdı. Əvvəl de görüm, sən kimsən?..

- Mən sıravi əsgər...

- Lal ol, onu bilirəm. Sən sıravi əsgər yox, şpionsan, bizim başa düşmədiyimiz dildə ədəbiyyat almağa sənə kim içazə verib? Hərbi Nizamnaməni pozduğuna görə beş sutka qauptvaxta salınırsan.

Üç sutka dörd divar arasında həbsdə qaldım. Məni siyasi sayıqlığını itirmiş əsgər kimi ciddi rejimli kamerada saxlayırdılar. Xəyalım min bir ünvana qanadlanırdı. Mayor qarşıma bağlamanı atanda üstündəki iri qara şriftlə yazılmış üç söz oxuya bilmişdim: "Azərbaycan Yazıçılar İttifaqı". Bu nə bağlama idi? Onu kim mənə göndərmişdi? Yazıçılar İttifaqı hara, mən hara? Suallar beynimi didirdi. Amma cavab tapa bilmirdim... İnsafsız mayor da qoymadı ki, axıracan oxuyam.

Dördüncü günü rota komandirim kapitan Stasenko İvan Petroviç mənim görüşümə gəldi. Məni görəndə həmişə müharibə vaxtı azərbaycanlı döyüş dostunu xatırlardı. Bakıda bir həftə qonaq olmağını məhəbbətlə yad edərdi. Bizim xalqı səmimi qəlbdən sevirdi. Bu səbəblərdən də mənə hörmət edib, xətrimi istərdi. Kapitan Stasenko özü ilə həmin bağlamanı da gətirmişdi. Mənə bağlamanı açdırdı. Bağlamadan dörd "Azərbaycan" jurnalı çıxdı. Bir də balaca konvertdə məktub və on beş manat pul vardı. Kapitan Stasenkonun təkidi ilə məktubu oxudum. İndiki kimi yadımdadır, məktubda belə yazılmışdı:

"Əziz əsgər oğlum Şəmistan! Yazdığın səmimi məktubu aldım. Sənə hələlik jurnalın dörd nömrəsini göndərirəm. Çox sağ ol ki, ana dilini unutmursan. Məktubundan hiss etdim ki, yaxşı qulluq edirsən. Azacıq darıxdığın da mənə əyan oldu. Darıxma, özunə yaxşı dostlar tap, rus dilini öyrən, onda darıxmazsan. Sənə hər ay "Azərbaycan" jurnalı göndərəcəyəm. İncimə, pulunu geri, özunə qaytarıram. Axı, sən əsgərsən, sənə lazım olar. Sənin yaxşı qulluğun bizim mükafatımızdır. Əsgər dostlarına salam söylə!

Hörmətlə: Qılman Musayev".

Bu qısaca, səmimi məktubun təsirindən məni kövrək hisslər bürüdü. Özüm də hiss eləmədən gözlərim yaş dumanı ilə doldu. Kapitan Stasenko isə mənə təsəlli verib, bir de görüm orda nə yazılıb, - deyə məndən əl çəkmədi. Mən Qılman müəllimin məktubunu bacardığım qədər rus dilinə tərcümə elədim.

Kapitan maraqla soruşdu:

- Bu yazıçı sənin nəyindir?

- Şəxsi tanışlığımız yoxdur - dedim.

- Əsərlərini oxumuşam...

Kapitan:

- Stranno, stranno - deyib duruxdu, - daje denqi vernul, i eşe obeşayut do kontsa slujbı...

O çıxıb getdi. Yarım saat sonra özü gəlib məni qauptvaxtdan azad etdirdi. "O öküz-mayor, dedi, - səndən və sənin alicənab xalqından üzr istəməlidir. Ancaq neyləməli ki, o, rütbəcə məndən yüksəkdir".

Mən kapitan Stasenkonun tapşırığı ilə Qılman müəllimə təşəkkür məktubu yazdım. İki il yarım isə müntəzəm olaraq "Azərbaycan" jurnalını alıb mütaliə etdim. O iki il yarımda jurnalın səhifələrində İsa Hüseynovun "Tütək səsi", Seyfəddin Dağlının "Kəcil qapısı" kimi maraqlı əsərlər oxudum.

Hərbi xidmətim bitəndən sonra "Azərbaycan" jurnalının bütün nömrələrini və azərbaycanca olan kitablarımı hissəmizin kitabxanasına hədiyyə elədim. Yalnız iki nömrəsini (1965-ci il, 1,2) özümlə Vətənə gətirdim. Ona görə ki, bu iki nömrədə yazıçı Hacıağa Cümşüdlünün "Badisəba" sənədli povesti dərc olunmuşdu. Povest böyük ədəbiyyatşünasımız, görkəmli maarifçi Firidun bəy Köçərliyə və onun vəfalı həyat yoldaşı Badisəba xanıma həsr olunduğuna görə mənim üçün çox əziz idi. Düzü, bu iki nömrəni verməyə əlim gəlmədi. Jurnalın həmin nömrələrini indi də özümdə yadigar saxlayıram.

Bu gün xalqımın inqilabdan əvvəlki maarifçi-ziyalıları haqqında apardığım araşdırmaların qəlbimə ilk ziyası o jurnalların mütaliəsindən keçib desəm, səhv etmərəm. Bunun üçün Qılman müəllimə minnətdaram.

Aradan otuz il keçməsinə baxmayaraq, yenə məni kövrək hisslər ağuşuna alır. Və qeyri-ixtiyari olaraq fikirləşirəm ki, İlahi, görəsən indi də vəzifədə olanlardan Qılman müəllim kimi xeyirxah adamlar varmı?

Qılman İlkin müsahibələrindən birində bu barədə çox gözəl deyir: "Biz o vaxt inzibati qaydaları güdməzdik. Axı, o yerdə ki, insan taleyi, insan müqəddaratı var, orada inzibati qadağanlara boyun əymək düz deyil".

Mənə belə gəlir ki, bu sözləri əlindən ancaq yaxşılıq gələn, xeyirxah, adam deyə bilər. Bu gün özümü xoşbəxt sanıram ki, belə bir insan mənim də xeyirxahım olub.

Bəlkə də, Qılman müəllim mənə elədiyi xeyirxahlığı unudub. Adətən, yaxşı adamlar belə şeyləri danışmır və yaddaşında da saxlamır. Amma mən istərdim ki, möhtərəm oxucularımız bilsin ki, Qılman İlkin yaxşı yazıçı olmaqla bərabər, həm də gözəl və xeyirxah insandır. İki il yarım qürbətdə mən o jurnalları alanda necə sevinmişəm, onu bir Allah bilir...

ÜRƏKDƏN GÜLƏN ADAM

Yaradıcı adamlar ölmürlər, onlar ancaq dünyasını dəyişir. Çünki onların yaratdığı xalqa qalır. Xalq varsa, yaşayırsa, yaradıcı adamlar da yaşayır. Böyük şairimiz Səməd Vurğun nahaqdan demirdi ki, dünyada qalacaq yalnız yaradan. Bu mənada yazıçı Nəriman Qoca oğlunun bizim Azərbaycan nəsrində, xüsusilə uşaq ədəbiyyatında xüsusi yeri var. Bizdən sonra gələn nəsillər də onun dadlı-tamlı, ürəyə yatımlı hekayə və povestlərindən qidalanacaq.

Nəriman müəllim maarifçi ailəsində böyüyüb tərbiyə almışdı. Ona görə də, onun danışığında, davranışında yüksək bir ziyalılıq vardı. Onun atası Qoca bəyin yaratdıqları bu gün də yaşayır. Qoca bəy Qori Müəllimlər Seminariyasını bitirəndən sonra xeyli Bakıda işləmiş və sonralar bizim Körpülü kəndində məktəb açmışdı. Rəhmətlik anam Güllü həmişə iftixarla danışardı ki, Qoca bəy atana da, mənə də dərs deyib. İyirminci illərin sonunda Qoca bəy bizim Körpülüyə maarif işığı gətirəndə kənddə beş, ya da altı təhsilli adam olar, ya da olmazdı. Əllinci illərdə kəndimizin ən bilikli, savadlı maarifçisi sayılan Nadir Əsgər oğlu Nəzirov və onlarca müəllimi Qoca bəyin tələbəsi, yetişdirməsi olmağı ilə fəxr edərdi. Bütün bunlar mənim uşaqlıq yaddaşımda yaşayırdı. Sonralar "Qoridən gələn qatar" sənədli povestimi yazanda, tez-tez Qori şəhərinə gedir, Gürcüstan Maarif Muzeyində əsərim üçün araşdırmalar aparırdım. 1986-cı ilin yayında Qori Müəllimlər Seminariyasının arxivində işləyəndə Qoca bəyin sənədləri ilə maraqlanıb sifariş verdim. Onun şəxsi işilə tanış oldum və gördüm ki, 1893-cü ildə qəbul olunan Qoca bəy 1897-ci ilə qədər orada təhsil alıb. Qoca bəy məşhur maarifçi-şair Hacıkərim Sanılı, Üzeyir bəy Hacıbəyovun qaynı Məmmədhənifə Terequlovla, Əsgər bəy Eyvazov və başqa görkəmli şəxslərlə birgə oxuyub. Qoca bəyin qiymətlərinin isə hamısı "əla" idi.

1993-cü ildə "Azərnəşr"də nəşr olunmuş "Qoridən gələn qatar" povestimin "Gələcəyin şəfəqi" fəslində "Həmid bəy" kimi yaratdığım obraz əslində Qoca bəydir. Mən Qoca bəyi çox qoca yaşlarında görmüşdüm. Balacaboy, göyçək kişi idi. Ona görə də kitabımın 166-cı səhifəsində belə bir cümlə yazmışam: "Fəxri əsgər kimi düz yeriyən sıx qara saqqallı, balacaboy Həmid bəy bu kəndə gimnaziyanı qurtarandan sonra gəlmişdi..."

Yaradıcılıq yollarımda İsmayıl Şıxlı, Əhməd Cəmil kimi Nəriman Qoca oğlu da mənim xeyirxahım olub.

1976-cı ildə böyük şair Səməd Vurğunun Muğan səfərindən "Arabaçı" adlı sənədli bir hekayə yazmışdım. Onu "Azərbaycan gəncləri" qəzetinə vermişdim. Beş-on gün sonra Nəriman müəllim axşam bizə zəng elədi. Kənddən qohumları soruşandan sonra, ötəri Səməd Vurğün haqqında axtarışlarımla maraqlandı. Nə yazıram, Səməd Vurğunla bağlı kimlərlə görüşmüşəm, haralarda olmuşam və başqa suallar vardı.

- A Şəmistan-dedi, - sən bu işə təzə-təzə başlayanda elə bilirdim, ötəri hisslərdi, bir-iki məqalə yazıb qurtaracaqsan. Bu yaxınlarda "Ulduz" jurnalında "Vurğun keçib bu yerlərdən" silsiləni oxudum, bitkin bir iş görübsən... Xüsusilə, Mixail Şoloxovla görüşünü...

Təxminən iki-üç həftə keçdi. Bir şənbə günü qəzet aldım. Gördüm ki, hekayəmə Nəriman müəllim əla bir "Uğurlu yol" yazıb. Ömrüm boyu bəlkə də elə sevinməmişdim. İki-üç abzaslıq bu "Uğurlu yol"u Nəriman müəllim necə səmimi, necə böyük məhəbbətlə yazmışdı. Burada nə təmtəraq vardı, nə də yersiz tərif...

Təngnəfəs evə gəldim. Zəng eləyib təşəkkürümü bildirdim. Nəriman müəllim sözümü kəsib: "Aya, bir de görüm, orda gənc nasir Şəmistan Nəzirli sözləri qalıbmı, yoxsa çıxardıblar".

Mən sevinclə:

- Var, - dedim, - qalıb...

- Bir o yeri oxu görüm.
Oxudum. Sonra dedim:
- Nəriman müəllim, tərifin dozası bir az çoxdu. Qorxuram bizim qohumluğumuzu bilənlər desinlər ki, Nəriman Süleymanov öz qohumunu tərifləyib göylərə qaldırıb...
- A Şəmistan, düzü, tərifin dozası sən oxuyandan da çox idi. Onun belini mənim yanımdaca bir adam qırdı. Amma and verdi ki, gənc nasir sözləri qalacaq. Sağ olsun ki, onusa saxlayıb...
Mən bundan sonra özümə söz verdim ki, daha böyük məsuliyyətlə işləyəcəyəm. Çunki ağır təbiətli, saf insanın etimadını doğrultmalıyam. Zarafat deyildi, Nəriman Süleymanov kimi zərif qələmli, az və mənalı yazan yazıçı məni nasir adlandırmışdı. O, hər iki gündən bir bəziləri kimi kiməsə "Uğurlu yol" yazan nasirlərdən deyildi...
Bir dəfə yazıçı Konstantin Paustovskidən bir sənədli hekayə tərcümə eləmişdim. Məqsədim tərcüməçi olmaq deyildi. Sadəcə olaraq tərcümədə özümü sınamaq istəyirdim. O vaxt indiki İstiqlal küçəsindəki iş yerindən pilləkənlərlə düşəndə üzbəüz gəldik.
- Bizim jurnala verməyə bir şeyin varmı? Bəlkə Səməd Vurğunun uşaqlıq, gənclik illərini yazasan, biz də dərc edək...
Mən ani olaraq duruxdum. Və özümü danladım ki, doğrudan da bu mövzunu indiyədək niyə yazmamışam...
- Nəriman müəllim, - dedim, - bu barədə bolluca faktlarım var, yazaram, amma bir az vaxt verin...
- Onu yazana kimi bizə hazır nəyin var, ver...
- Tərcüməm var Paustovskidən...
- Sabah gətir baxım... Gətirdim. Bir az sonra yenə "Azərbaycan gəncləri" qəzeti redaksiyasına gəlmişdim. Təsadüfən orada görüşdük. Dedi ki, tərcümən mətbəədə yığılıb gəlib, vaxtın varsa gedək, oxu, düzəlişlərini elə.
Tərcüməni oxuya-oxuya gördüm heç mənim cümlələrimə oxşamır. Orijinala baxdım. Gördüm ki, mənim tərcüməmdən əsər-əlamət yoxdur. Nəriman müəllim onu böyuk səy və zəhmətlə əməlli-başlı yenidən işləmişdi.
Özumə söz verdim ki, daha tərcumə ilə məşğul olmayacağam. Bu, mən bacaran iş deyil. Amma Paustovskidən elədiyim tərcumə dərc olundu...
...Bir dəfə televiziyada çıxışımda igid təyyarəçi Hüseynbala Əliyevdən danışırdım. Çıxışımda dedim ki, Moskvanın "Molodaya qvardiya" nəşriyyatında "Əbədiyyət qabaqladı ölümü" adlı kitab çıxıb. Əsər bütövlükdə eloğlumuz Hüseynbalaya həsr olunub. Təəssüf ki, ana dilimizə bu əsər tərcümə olunmadığına görə gənclərimiz onu oxumayıblar.
O vaxtlar Nəriman müəllim tez-tez televiziyanın uşaqlar üçün verilişlər redaksiyasına çıxışa gələrdi. Foyedə görüşdük. Xoş-beşdən sonra:
- O gün Hüseynbala Əliyev haqqında çıxışına baxdım. Kitabdan danışdın, gəlsənə onu tərcümə eləyəsən, bizim jurnalda hissə-hissə verək.
- Nəriman müəllim, - dedim, - kitab həqiqətən əla və şirin dillə yazılıb. Amma mən tərcümə eləyəmmərəm. Andım var...
- Niyə? O nə anddı elə?

- Konstantin Paustovskidən sonra Sizə zəhmət vermərəm. Tərcümə çətin işdi. Mən bacaran döyül...

Rəhmətlik ləzzətlə güldü. Pəncərəyə dirsəklənib dalbadal papiros çəkə-çəkə: - Aya, - dedi, - hamı elə başlayıb, hamı elə çətinliklə ədəbiyyata gəlib. Mirzə İbrahimov yazıçı ola-ola ayda bir əsər tərcümə eləyir. Elə bilirsən, ilk vaxtlar elənən tərcümələrin kimsə ustundə şum aparmayıb? Gözləyəcəyəm, sabahdazadda gəl, kitaba bir mən də baxım, sonra başla tərcüməyə.... Bilirsən, Şəmistan, sənin üzünə demək olmasın, yazı dilin şirindi, tərcumə ilə məşğul ol ki, həm biliyin artsın, həm də yazı dilin daha da cilalansın. Rus yazıçılarından başqa dilə ən çətin tərcumə olunan Konstantin Paustovskidir. Onun əsərləri təmiz və qəliz rus dilində yazılıb. Sən onu tərcümə eləməyə başlamısansa, demək səndə bu sahədə bacarıq var... Mən sənin Paustovskidən tərcümənə heç nə eləməmişdim. Onu ancaq jurnal üçün işləmişdim... Gəl, gözləyəcəyəm.

Başa düşürdüm və anlayırdım ki, Nəriman müəllim ancaq və ancaq məni həvəsləndirirdi. Fikirləşdim ki, Hüseynbala haqqında kitabı aparacağam, amma tərcüməni boynuma götürməyəcəyəm.

Kitabı aparıb getdim. Xeyirxah Nəriman müəllim məni necə dilə tutdu, ərklə nə dedisə razılaşdım. “Əbədiyyət qabaqladı ölümü” sənədli povesti “Pioner” jurnalında mənim tərcüməmdə hissə-hissə dərc olundu.

1985-ci ildə isə “Gənclik” nəşriyyatında həmin kitab mənim tərcüməmdə nəşr olundu. Əlbəttə, bu xeyirxahlıq da unudulmaz ustadım, mehriban qohumum, qayğıkeş yazıçı Nəriman Süleymanovun sayəsində oldu.

* * *

Nəriman Qocaoğlu 1956-çı ildə kiçik bir hekayə ilə yaradıcılığa başlayıb. Bu kiçik hekayə sonralar “Balaca atlı” adlı, cəmi 34 səhifəlik kitab oldu. Onda o kiçik kitab əllərdə gəzirdi. Kəndimizin ilk yazıçısının ilk nübarına, nemətinə hamı sevinirdi. Biz uşaqlar o kiçik kitabı çöldə quzu otaranda da çantamızda “Ana dili”, “Hesab” kitabları ilə yanaşı gəzdirib oxuyurduq.

Yazıçı Nəriman Süleymanov bundan sonra kəndimiz Körpülüyə gələndə ona heyrətlə, həsədlə baxırdıq. Baxırdıq və təəccüb edirdik ki, bu nə təhər yazıçıdı, bu da elə bizim kimi danışır. Heç dilini dəyişməyib. İlxıçı Həmidlə, traktorçu Ayvazla, naxırçı Usufnan deyib-gülür. Heç sərçə Səməd kimi özünü dartıb demir ki, aya, bir az məndən aralı dur, şalvarımın ütüsünü pozarsan, a zalım.

Kəndimizdəki belə obrazlar yazıçı Nəriman Süleymanovun əsərlərinin “qəhrəmanı”dır.

Nəriman müəllim belə məzəli söhbətləri eşitməkdən ləzzət alardı:

- Aya, - deyərdi, - Batdaxlı bulağında Mehralı kişi kimin üçün gəmi tərsanəsi düzəltmək istəyib?..

Belə söhbətlərə cavab alanda Nəriman müəllim gülərdi, sinəsi atdana-atdana gülərdi. Ürəkdən gülərdi. Təmiz insan kinsiz-küdurətsiz gülərdi.

Sonrakı əsərlərində mənə məlum oldu ki, Nəriman Süleymanov saatlarla kəndçilərimizdən söhbət edəndə “Lal”, “Qaraçı qızı”, “Dağ havası”, “Quşlar yuvalarını unutmurlar”, “Yetər nənə” və başqa əsərlərinə mövzu, obraz toplayırmış.

Yanvar, 1996-cı il

Mərdəkan.

BİR ŞƏKLİN TALEYİ

İyirmi ilə yaxındır ki, bir nadir fotoşəkli şəxsi arxivimdə saxlayıram. Onu mənə sənətkar dostum Seyfəddin Məmmədvəliyev verib. O vaxt çox çalışdım ki, qəzetlərin birində dərc etdirim, mümkün olmadı. Bir bolşevik jurnalist "dostum" şəkli iki aydan çox redaksiya qovluğunda saxlayıb özümə qaytardı. -

Buradakıların əksəriyyəti Sovet hökumətinin düşmənləri olub, - dedi - dərc etsək, sənin də başın ağrıyar, bizim də. At getsin...

Mən isə "tənbəllik" elədim, atmadım. Saxladım. Ona görə saxladım ki, bu nadir şəkildə xalqımızın çox qiymətli oğulları təsvir olunub. Bu günlərdə basırıqda qalmış qovluqlarımdan birini açanda yenidən həmin şəkillə üzbəüz gəldim. Sanki şəkildəki qırx bir adam birdən dilə gəldi: "Nə oldu, ay oğul, bolşevik hökuməti də yıxıldı. Biz yenə də oxucu üzü görməyəcəyikmi?"

O illərdə professor Fatmaxanım Vəkilova ilə tez-tez görüşərdim. Bu səmimi ana ilə söhbətimiz çox vaxt Səməd Vurğundan, Firidun bəy Köçərlidən, atası İsmayıl ağa Vəkilovdan, general Əliağa Şıxlinskidən və başqa görkəmli maarif, elm xadimlərindən olurdu. Bir dəfə onun ev albomundan Səməd Vurğunun Moskvada azərbaycanlı ziyalılarla birgə çəkilmiş nadir bir şəkli çıxdı. Onu alıb "Sovet kəndi" qəzetində dərc etdirdim. Görüşlərimizin birində qırx bir ziyalının təsvir olunduğu bu şəkli də apardım ki, onları tanımaqda mənə kömək etsin. Eynəyini taxıb şəklə baxan Fatma xanım kövrələ-kövrələ:

- Bunların əksəriyyəti mənim müəllimlərim olub - dedi. 1927-ci ildə Bakı Darülmüəllimatında oxuyanda Mədinə xanım Qiyasbəyli, Atababa Musaxanlı, Hüseyn Cavid, Şəfiqə xanım Əfəndizadə, Abdulla Şaiq, Böyükağa Talıblı, Əhməd Cavad, Soltan Məcid Qənizadə, Cabbar Əfəndizadə mənə dərs deyiblər.

Fədakar tədqiqatçımız Salman Mümtazın şəxsi arxivində mühafizə olunan bu şəkli 1924-cü ildə Əlibəy Hüseynzadə çəkib. Bir qrup Azərbaycan yazıçı və şairləri Darülmüəəlimatın tələbələri ilə görüşə gəliblər.

Fatmaxanım Vəkilovanın köməkliyi ilə aşağıdakıları dəqiqləşdirə bildik: Soldan oturanlar Mirzə Əbdülbaqi Əraqi, Əliağa Vahid, Əli Hüseynzadə, Adil Əfəndiyev, Əhməd Cavad, Cabbar Əfəndizadə, Atababa Musaxanlı, Mikayıl Rəfili, şair Həmmal, Xəlil...

İkinci cərgədə Fəna Mirzə Rəhim, Səməd Mənsur, Azər Buzovnalı, Mədinə xanım Qiyasbəyli, Həbib Cəbiyev, Fuad Köprülüzadə, Böyükağa Talıblı, Şəfiqə xanım Əfəndizadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədzadə, Ağadadaş... (?), Mirzə Cəlal Yusifzadə, Bədrəddin Seyidzadə, Salman Mümtaz, Süleyman Sani Axundov, Abdulla Şaiq, İsmayıl Hikmət, Hüseyn Cavid, Əli Kərimov, Qulam Mirzəzadə, Soltan Məcid Qənizadə, Əhməd Pepinov, Cəfərov, Seyid Hüseyn.

Şəkildəki ziyalılarımızın əksəriyyəti 37-ci ilin qara günlərində bolşevik-kommunist rejiminin haqsız qurbanları olmuşlar.

Tariximizin bir çox qatları kimi fotolara köçürülmüş məqamları da qaranlıqdır. Dünənə qədər bəzi adamların qoruyub saxladıqları belə nadir şəkillər mətbuat, kitab səhifələrinə çıxarıla bilməyib. "Düşmənlərimizin" özləri kimi şəkilləri da repressiyaya uğrayıb. Təbiidir ki, tariximizlə bağlı nadir şəkillər əvəzsiz sərvətdir.

10 fevral 1992-ci il.

UNUDA BİLMƏRƏM

Mən İsmayıl Şıxlının yoxluğuna inanmıram. O, cismən aramızdan getsə də ruhən həmişə, hər an bizimlədir. Necə ki, "Dəli Kür" var, onun səhifələrindən sərt baxışlı Cahandar ağanın zəhmli səsi gəlirsə, İsmayıl Şıxlı yaşayır və yaşayacaqdır.

Məgər onun biz gənclərə 70-ci illərdə elədiyi köməklikləri, yaxşılıqları unutmaq olarmı? Mənim cızma-qaralarımı səbr və təmkinlə oxuyub verdiyi ağıllı məsləhətlərdən, göstərdiyi doğru yoldan qazandığım nailiyyətlərin sevincini unuda bilərəmmi?

O, qızıldan qiymətli vaxtını təkcə mən arxasıza, köməksizə yox, Azərbaycanın onlarla gəncinə sərf etmişdir. Mənim kimi onlarla azərbaycanlı indi iftixarla deyir ki, ədəbi aləmdə mənim müəllimim İsmayıl Şıxlı olmuşdur. Onun yetirmələrinə heç kəs irad tutub şübhə ilə baxa bilmir. Çünki İsmayıl Şıxlı adı saflıq, təmizlik mücəssəməsidir.

Bu gün şəxsi arxivimdə saxladığım onun mürəkkəbli qələmlə yazdığı qeydlərinə baxır və istər-istəməz kövrəlirəm. Onun ağayana, zəhmli səsi varlığımı titrədir: "Burda cızığından çıxdın", "Uydurmusan", "Yenə deyirəm, obraz şişirdilib, özü də üfürtməli danışır", "Qız, qadın yanında Səməd Vurğun belə danışa bilməzdi". Onun bu qeydləri tənqid yox, mənim üçün iftixar idi, baş ucalığı idi. Hələ neçə il əvvəl telefonda İsmayıl Şıxlının dediyi sözlər mənim üçün nə qədər əziz və doğmadır: "Oxudum əsərini, sabah səhər saat 12-də gəl kafedraya, bir neçə məsələdə "dərsini verim". Bəli, elə bu dərslər məni böyük şairimiz Səməd Vurğun, məşhur generalımız Əliağa Şıxlinski və Azərbaycan generalları haqqında kitabların müəllifi elədi. Bütün bunlar üçün ancaq və ancaq xeyirxahım İsmayıl Şıxlıya ömürlük minnətdaram.

Ötən ilki - 1994-cü il söhbətlərimizin birində deyəndə ki, İsmayıl müəllim, general Əliağa Şıxlinskinin hərbi elmi əsərlərini çapa hazırlayıram, kitabdan nələri verəcəyimi dinləyəndən sonra sevinə-sevinə öz təkliflərini də əlavə etdi. Bu xoş xəbərdən xəstəliyini belə unutdu. Onda kimlərin söhbətlərini xatırlamadı, atası Qəhrəman əfəndinin, dayısı Qiyas bəyin, Alay bəyin və nüfuzlu Şıxlinskilərin bir çoxunun... Mənim sevincimin üstünə bir sevinc də əlavə etdi İsmayıl müəllim: "Allah qoysa, ayağa durum, yaranalın (bu sözü deməyi yaman xoşlardı) kitabına müqəddiməni özüm yazacağam".

Ümidəxanım: “İsmayıl, çay buza döndü”. Qalın qaşlar gah çatılır, gah da yarğan kimi yarılırdı. Sanki yaraşıqlı üzündə Kür nəhri axırdı. Bu anlarda adam ona baxmaqla doymurdu... Xəyal İsmayıl Şıxlını hara aparmışdı, onu bir Allah bilirdi... Mən də başımızın tacı, ömrümüzün varlığı İsmayıl Şıxlını sevindirə bilməyimlə özlüyümdə fəxr edirdim. Handan-hana əlini kreslonun dirsəyinə vurub:

- Nə gözəl fikrə düşübsən. Generalın kitabını bu gün eləməsək, gələcəkdə heç kəs nəşr etdirməyəcək.

Bundan sonrakı söhbətlərimizdə, telefon zənglərində ilk sorğusu general haqqında olardı.

- Yaranalın kitabı nə yerdədi? - deyə soruşardı - tələs, bir az tələsmək lazımdı, mən o kitabı görmək istəyirəm...

Ürəyinə nəsə daman İsmayıl Şıxlının “tələsmək lazımdı” sözlərində dərin bir kədər vardı...

İyul, 1995-ci il.

KİŞİ SÖZÜ

Heç də təsadüfi deyil ki, şerimizin ölməz klassiki Səməd Vurğunun böyük istedadını haqsız hücumlardan müdafiə edənlərdən biri, bəlkə də ən birincisi Əli Vəliyev olmuşdur. O da məlumdur ki, Əli Vəliyevi inandığı fikrindən çəkindirmək çətin işdir: “Belədir, vəssalam!”

İlyas ƏFƏNDİYEV

Qazaxda keçiriləcək gənc aşıqların festivalına getmək xəbərini eşidəndə həm sevindim, həm də təəccüb elədim. Sevindim ona görə ki, mən aşıq sənətinin hədsiz dərəcədə vurğunuyam. Saz səsi eşidəndə əlimdəki ən vacib işi belə buraxıb ona diqqət kəsilirəm. Yanımda top atılsa, bəlkə də onu eşitmərəm. Təəccüb elədim ona görə ki, görəsən bu xeyirxahlıq kimdən keçib?

Az sonra öyrəndim ki, məni bu festivala sevimli şairimiz Əhməd Cəmilin məsləhəti ilə nümayəndə göndərirlər.

“Ulduz” jurnalı redaksiyasında yazıçı Sabir Azəri ilə nə vaxt yola düşmək barədə məsləhətləşirdik. Bu vaxt Əhməd müəllim içəri girdi:

- Nə baş-başa veribsiniz? - dedi. -Yenə nəyisə planlaşdırırsınız? Yəqin Səməd Vurğun haqqındadır?

Sabir Azəri:

- Əhməd müəllim, Qazağa, gənc aşıqların festivalına getmək haqqında fikirləşirik, - dedi.

- Hə, bu tədbirin planı tutulanda mən də orda idim. Alı Qaraoğlu Sabir Azəri adını eşidəndə bizi bir kupeyə yazın, - dedi. Sabir rahat adamdı, onunla yolyoldaşı olmaq mənə xoşdur. Mən Şəmistanı da sizin kupeyə yazdırdım. - Üzünü mənə tutub - Belə səfərlərin sənə çox xeyri var, aşıq Şəmşir də gələcək, onunla görüşərsən, bəlkə Vurğunun ayrı bir dostunu da tapa bildin.

İş elə gətirdi ki, Sabir Azəri, rəssam Elmas və mən maşınla getməli olduq. Gecəni Ağstafada - Sabir Azərinin qohumu gildə qalıb, səhər saat doqquzda Qazax rayon Mədəniyyət evinə gəldik.

Nümayəndələrin hamısı burda idi. Hamı ağsaqqal Əli Vəliyevin başına toplaşmışdı. O, əziz dostu Səməd Vurğundan danışırdı. Biz bir epizod eşidər-eşitməz festivalın başlanmasını bildirdilər. Hamı kluba axışdı.

Nahar fasiləsində yenə Əli müəllimin başına toplaşan çox idi. Söhbət yenə Səməd Vurğundan gedirdi. Şairin yetmiş illik yubileyinə az qalmışdı. Əli müəllim dedi ki, altmış illiyində Səməd haqqında sözümün hamısını deyə bilmədim. İndi ürəyimi boşaldacam. Xalqımızın qəlbində əbədi heykələ dönən Səməd Vurğun haqqında daha məqalə yox, kitab yazmaq lazımdır. Bizim dostluğumuzun tarixi məqaləyə sığmaz:

- 1937-38-ci illərdə Yazıçılar İttifaqında işləyəndə daha yaxın dost olduq. Səmədlə ağlı-qaralı günlərimiz çox olub. Ona hücumların, özü də yersiz hücumların şahidiyəm.

Əli müəllim "Kommunist" qəzetində işlədiyi illəri xatırladı. Səməd Vurğun böyük bəstəkarımız Üzeyir Hacıbəyova yazdığı "Bəstəkar" şeri və "Bakının dastanı" poeması qəzetdə çap olunandan sonra bədxahların şairə hücumunu yada saldı. Səməd, - dedi - elə bir güclü istedad idi ki, qabağına çıxan çətinliyi az vaxtda dəf edə bilirdi. Kəlbəcər səfərindən, şairin zəif yeyib-içməyindən yana-yana danışdı.

Sabir Azəri:

- Əli müəllim, - dedi, - bizim "Ulduz" jurnalında silsilə yazılar veririk. "Vurğun keçib bu yerlərdən", heç vaxt tapıb onları oxuya bilirsinizmi?

- Balam, Sabir, böyük və xeyirxah iş görürsünüz. Mən Əhmədə (Əhməd Cəmil) neçə dəfə təşəkkürümü bildirmişəm. Bu, çoxdan olmalı idi. Bu yaxşı adam kimsə, çox gözəl iş görür. Dəmir çarıq geyinib, dəmir əsa götürən müəllif xatirələrin izi ilə gör nə qədər el-oba gəzir.

Sabir Azəri əlini çiynimə qoyub:

- O xeyirxah adam budu, Sizin qarşınızdadır, yəqin tanımırsınız, özünü Vurğun yolunda fəda eləyən Şəmistan Nəzirli budur.

Əli müəllim təəccüb dolu nəzərlərlə mənə baxıb, əlini irəli uzatdı:

- Gəl, təzədən görüşək, - dedi, - mən elə bilirdim, sən ağsaqqal adamsan. Cavan imişsən ki... Qazaxda yaşayırsan?

- Xeyir, - dedim, - Bakıda.

- A bala, Səməd haqqında bu qədər yazdın, çox sağ ol. Bunları niyə vermirsən nəşriyyata bir kitab olsun...

- Vermişəm, Əli müəllim.

- Yubileyə çıxacaqmı?

- Yox, nə yubiley, heç yubileydən sonraya da ümidim yoxdur. Hər il deyirlər ki, gələn ilin planına daxil edəcəyik, amma hələlik ortada bir şey yoxdur.

- Hansı nəşriyyatdadır?

- "Gənclik"də.

- Əzizə xanımın yanında olmusanmı?

- Xeyir. Şöbənin işçiləri, bir də baş redaktor söz verir.

- Boş şeydir, papağı nahaqdan günə yandırmısan. Nə vaxt Bakıya qayıdacaqsan?

- Burdan kəndimizə gedəcəm, anamın yanına. Yaxındır, bir-iki gün qalacam, uzağı ayın 26-da Bakıya qayıdacam.

- Ayın iyirmi altısında axşam mənə zəng elə, qalanı ilə işin olmasın. - Sonra səsinin avazını bir az qaldırıb, yanıqlı, həm də təəssüflə: - yaxşı, o nəşriyyat Səməd Vurğun haqqında kitabı çap eləmirsə, bə nə iş görür?.. Qayıdanda mənə zəng elə. Sənə bir adam deyəcəm. Mirqasım Əfəndiyevi tanıyırsanmı?

- Bəli, - dedim, - tanıyıram.

- Bəs Səmədin Mirqasımdan yaxın dostu var? Mirqasımnan Səməd Vurğun dostluğunu niyə yazmamısan? Yoxsa yazmısan, mən oxumamışam?

- Əli müəllim, yazmışam, hələ çap elətdirməmişəm.

- Sən Mirqasım Əfəndiyevdən möhkəm yapış. Ondan çox şey öyrənə bilərsən. Səməd Vurğuna Mirqasımdan yaxın ikinci bir adam olmayıb. Heç qardaşı Mehdixana açmadığı sirri Səməd Mirqasıma deyib. Bunu Mehdixan özü də mənim yanımda dönə-dönə etiraf edib.

Bu vaxt Qazax rayon qəzetinin fotoqrafı Ələddin İbrahimov yaxınlaşıb Əli müəllimə dedi:

- Əli müəllim, icazə verin, bizim qəzet üçün şəklinizi çəkim.

- Elə tək mənimmi? - deyə Əli müəllim təccəüblə soruşdu.

- Bəli, tapşırıq belədi.

- Niyə tək mənim, bax burada oturacam. Bu cavanlarla mənim şəklimi birgə çək, - deyib uca qovaq ağacının altındakı skamyada oturub hamımızı yanına çağırdı.

Bu şəkml 1975-ci ilin mayında belə yarandı.

Əli müəllimə söz verdim ki, qayıdanda zəng eləyəcəm. Düzü, çox könülsüz söz verdim. Nədənsə, onun köməyinə heç ümidim yox idi. Ona görə ki, çoxları mənə dönə-dönə: “sənin kitabını özüm plana saldıracam, özüm də redaktoru olacam” - demişdilər. Bu vədlərin hamısı da havadan asılı qalırdı. Yalnız bircə adam canidildən çalışırdı ki, mənim kitabım çap olunsun. O da sevimli şairimiz Əhməd Cəmil idi.

Heç yadımdan çıxmaz. Bir dəfə Əhməd Cəmil məni yüksək vəzifəli bir şəxsin yanına apardı. Səməd Vurğun xatirəsindən, onun poeziyamızda əvəzsiz xidmətindən, bəşəri insani keyfiyyətlərindən söhbət açan Əhməd müəllim:

- Bax, bu cavan bir xeyirxah izə düşüb, - dedi, - Vurğunun eldə-obada itib-batmaqda olan xatirələrini toplayır. Bacardığı qədər məqalələr, sənədli hekayələr yazır, oxucular da pis qarşılamır. Bizim jurnal bu yazıları dərc eləyəndən sonra Vurğunla bağlı xeyli məktub alıb. Bu yaxınlarda Masallıdan da bir nəfər yazmışdı ki, mən Novorossiyskdə Səməd Vurğunla görüşmüşəm. Xahiş edirəm, Vurğun haqqında yazan müxbiri göndərin mənimlə görüşsün. Bu cavanı göndərdik getdi, yaxşı da material gətirib, hazırdı, yaxın nömrələrin birində dərc edəcəyik. İndi gəldim ki, Sizdən xahiş edim, Şəmistanın kitabını plana salmağa kömək edəsiniz. Bu, məncə Vurğun xatirəsinə dərin ehtiram olardı.

Əhməd müəllim danışdıqca bu yüksək vəzifəli şəxsin etinasızlıqla əlində qələm oynatmağı, bəzən də dodaq büzüb, qaşının birini qaldırıb, o birini salmağı

mənim heç xoşuma gəlmirdi. Əhməd müəllimin böyük ümidlə danışmağına baxmayaraq, ürəyimə dammışdı ki, indicə bu "ali" şəxs onun qanını qaraldacaq. Fikirləşirdim ki, ya da sonugörünməz bir vəd verəcək: "Hə, gələr yanıma, zəng vurub tapşıraram". Ancaq belə olmadı, vəzifəli şəxs çox kəsə, həm də kobud danışdı.

- Yox, mümkün deyil, - dedi. - Rəhmətliyin oğlu, öz kitablarımız plandan kənarda qalıb, özümüzə gün ağlaya bilmirik... Buna nə var, bu cavandı, hələ qoy işləsin, baxarıq...

Bircə dəfə ötəri Əhməd müəllimin sifətinə baxa bildim. Bu xəstəhal insan necə də sarsılmışdı. Hiss elədim ki, mən yanında olduğuma daha çox xəcalət çəkir. İndicə pilləkanı çıxa-çıxa bu yüksək vəzifəli şəxsi tərifləyən Əhməd müəllim, böyük bir ümidlə gəlirdi. Qapıya baxdım, bir bəhanə eləyib çıxmaq istədim. Nə deyim, nə bəhanə gətirim, deyə fikirləşirdim. Birdən ağlıma yalançı-qəfil fikir gəldi.

- Əhməd müəllim, - dedim, - indi yadıma düşdü. Səyavuş Sərxanlı rayona telefon sifariş verib, danışacığımız adam məni tanıyır, Səməd Vurğun haqqında... - O, heysiz əlilə mənə dayan işarəsi verdi. Kişi özünü elə itirmişdi ki, mənə elə gəldi, o udqunur, söz tapa bilmir, nəfəsi təngiyir, başa düşə bilmirdim. Araya dibi görünməyən qaranlıq kimi çox ağır bir sükut çökmüşdü. - Əhməd müəllim, - mən gedim, - deyib dözə bilmədim. Qapıya yaxınlaşdım. Qapıya gedə-gedə Əhməd müəllimin səsini eşidirdim:

- Bu kitab Səməd Vurğun haqqındadır... Sağlığında onu çox incitdiniz... Neçə ildi ölüb, yenə şöhrətindən qorxursunuz...

Ordan birbaşa işə gəldim. Bir müddət "Ulduz" jurnalı redaksiyasına getmədim. Yersiz incidilmiş bu saf adamla - Əhməd müəllimlə üz-üzə gəlməyə xəcalət çəkirdim. Onun sözünün yerə düşməyi mənə çox ağır təsir eləmişdi.

İndi fikirləşirdim ki, Əli müəllim bir söz idi dedi. İlan vuran ala çatıdan qorxan kimi, mən də verilən vədlərin hamısından qorxurdum. Daha doğrusu, heç birinə inanmırdım. O günləri fikirləşəndə indi şükür edirəm ki, yaxşı ki, bu inamsızlıq yazı-pozuma, daha doğrusu, işləməyimə təsir etməyib. Mən başıaşağı topladığım materialları bacardığım kimi işləyirdim.

Bakıya qayıdanda əvvəlcə Mirqasım Əfəndiyevə zəng elədim. Əli Vəliyevlə Qazaxdakı söhbətimi təfsilatı ilə danışdım. Dedim ki, mənə belə bir vəd verdi. Düzü, heç inamım yoxdu. Bu boyda yazıçının vaxtı hardandı, mənim kitabımla məşğul ola. Zəng eləyib, narahat etmək istəmirəm.

Mirqasım əmi Əli Vəliyevi bolluca tərifledi:

- Yox, - dedi, - mütləq zəng elə, o çətin illərdə hamı qorxusundan qaçıb dağılanda Səmədə dayaq olan Alı Qaraoğlu oldu. Alı Qaraoğlu sözü təmiz sözdü, oğul. O, vicdanlı və dönməz insandır. Ölər, dediyindən dönməz. Yenə deyirəm, o çətin illərdə Səmədə görə nə qədər döyüldü, söyüldü, başı ağrıdısa, yenə Alı Qaraoğlu Səmədden dönmədi.

Mənim də heç ağlıma galməyib Alı Qaraoğluna ağız açmaq. Elə bu saat mənnən danışıb qurtaran kimi ona zəng elə...

Zəng elədim. Dəstəyi Əli müəllim özü götürdü. Adımı deyən kimi:

- Hə, gəzib gəldinmi? Yaxşı eləyib, xoşca da gəlmisən. Sabah saat on ikinin yarısında Əzizə xanımın otağında səni gözləyirəm. Danışdıq, vəssalam!

Dəstəyi yerə qoyandan sonra məni təəccüb bürüdü. Heç mən demədim nəyə görə zəng eləmişəm. Heç kitab söhbəti olmadı. Heç aman vermədi deyəm ki, Əli müəllim, demişdiniz zəng elə, kitabının plana düşməyinə kömək edərəm.

Yəni, bu beş-altı gündə mənim kitab məsələm Əli müəllimin yadından çıxmayıb. Mənə elə gəldi ki, bu beş-altı gündə bu adam ancaq mənim haqqımda fikirləşib.

... Katibənin yanında heç kəs yox idi. O, başı aşağı makinada nəsə yazırdı. Yaxınlaşıb Əli müəllimin buraya gəlib-gəlmədiyini soruşdum. Katibə əl saxlayıb:

- Siz kimsiniz, - dedi, - adınız nədir?

Mən adımı deyən kimi o, durub direktorun kabinetinə getdi. Katibədən əvvəl Əli müəllim özü çıxdı. Sol qolunu irəli uzadıb, gülə-gülə:

- Hardasan, - dedi, - gör neçə dəqiqə gecikmisən, - saatını pəncərə işığına tutub - nə az, nə çox, önca dəqiqə, üzün ağ olsun, gəl içəri görüm. Heç nə demədim. Əslində deməyə sözüm də yox idi. Mən sadəcə olaraq Əli müəllimin bu qədər dəqiq adam olduğunu bilmirdim. Qeyri-ixtiyari Mirqasım əminin sözlərini xatırladım: “Alı Qaraoğlu sözü bütöv insandır, dəqiq adamdır”.

Ağlım bəzi böyük adamların çağırışına getmişdi. Gəl, deyib saatlarla qapıda gözlədənlərə, katibəyə “mən yoxam” deyib dal qapıdan çıxıb gedənlərə.

- Əzizə xanım, sənin yanına bu cavanın kitabı üçün xahişə gəlmişəm. Gərək işi ancaq və ancaq Səməd Vurğunun xatirəsinə ehtiram olaraq düzəldəsən. Bu cavanın zəhmətini batırmaq da insafsızlıq olardı.

Əzizə xanım:

- 1979-cu ilin planında nəzərə alaram, - dedi, - üzünü Əli müəllimə tutub: - özünüz bilirsiniz ki, yubileyə artıq gecdir.

Əli müəllim fikrə getdi. Gah mənim üzümə baxdı, gah da Əzizə xanımın. - Bu kişinin əsəri hazırdır, - dedi, niyə çox uzağa salırsan? Bəlkə mənim xatirimə bir il qabağa çəkəsən, qoy 1978-ci il olsun.

- Onu da eləyərəm, ancaq beşcə çap vərəqinə zorla imkan var. Şəmistanın əsəri isə səkkiz çapdan çoxdur.

Əli müəllim yenə əli çənəsində susdu.

- Rəhmətlik Səməd demişkən, sən həmişə arxasız cavanlara arxa olmusan, ay Əzizə xanım, indi nə oldu ki, bu cavana üçcə çapı qıymadın.

Əzizə xanım mehriban, xoş təbəssümlə gülümsünüb:

- Olan yerdən Əli müəllim, - dedi, mənim özüm də Şəmistanın axtarışlarını izləyirəm...

Mən buna da razı idim. İstəyirdim deyəm ki, Əli müəllim, elə beş çap da bəs eləyər, amma işin sonunu gözləyirdim. Fikirləşirdim ki, bəlkə artdı.

Əli müəllim:

- Eybi yoxdu, qoy beş olsun, - dedi, üzünü mənə tutub - fikir eləmə, yaxın vaxtlarda yeni “Yazıçı” nəşriyyatı açılacaq, onda sənin əsərini özüm bütöv çap elətdirəcəm.

Çıxdıq. Pilləkənləri düşə-düşə Əli müəllim mənə axtarışları davam etdirməyi tövsiyyə edirdi.

- Kitaba görə ruhdan düşmə, gec-tez çap olunacaq, - dedi. İşin başlanğıcı həmişə çətin olur. Onu da sənə məsləhət görürəm ki, çağırılan yerə vaxtında gəlməkdən çəkinmə. Çağrılmısansa, demək burda utanmağın, çəkinməyin yeri yoxdu. Birdən mən hövsələli olmayaydım, olardı hövsələsizin biri, çıxıb gedərdi. Başqa bir idarədə də sənin kimi işi düzəlməyənin biri məni gözləyir. O yazığa da söz vermişəm...

Bu sözlərdən hiss elədim ki, Əli müəllim mənim kimi hansı arxasızınsa köməyinə gedir.

Xəcalət çəkə-çəkə üzr istədim. Daha deyə bilmədim ki, inamsızlıq məni gecikdirmişdi.

Kitabım 1978-ci ilin tematik planına daxil oldu. Aradan üç, ya da dörd ay keçmişdi. Nəşriyyatda işləyən yaxın dostum bir dəfə məni görüb dedi:

- Sənə bir sirr deyəcəm, amma gərək öz aramızda qala. Mən dəqiq öyrənmişəm.Sənin kitabını Mətbuat Komitəsində plandan çıxardıblar. Hələ gec deyil. Bircə çarəsi var. Üç-dörd günə kimi o kişini tapıb desən işin bəlkə də düzələr. Əli Vəliyevsiz heç nə eləmə, heç oralara hərlənib demə ki, mənim kitabımı plandan niyə çıxartmısınız.

Getməyin işi daha da korlaya bilər.

Yazıçılar İttifaqına gəldim ki, bəlkə Əli müəllimi tapıb dərdimi deyəm. Dedilər ki, o, yarım aydan çoxdu Kəlbəcərdə istirahət edir. Elə bil qol-qanadımı qırdılar. Bikef, fikirli evə gəldim. Birdən ağlıma gəldi ki, qoy zəng eləyim, bəlkə gəlib, evdədi.

- Əli müəllim, yaxın bir dostum dedi ki, kitabın başı üstündə qara buludlar oynaşır. Deyəsən...

- Əyə, kəsə de, görüm nə olub?

- Kitabı plandan çıxardıblar.

- Bu, başqa məsələ. - Ani olaraq duruxdu. - Hə... sən belə elə, sabah saat altı tamamda mənə zəng elə. Mən hər şeyi öyrənərəm...

- Bəs, mənim gəlməyim lazım deyil? Lazımamsa gəlim, indi gecikməyəcəyəm...

Gülə-gülə:

- Yox, lazım deyilsən. Sabah zəng elə, cavabını al, vəssalam.

Onun dediyi vaxtda zəng elədim.

- Ə, Şəmistan, - dedi, - sənin kitabını plandan çıxardanın gərək yeddi başı olsun. Çox sağ ol ki, vaxtında demisən, bir az da gec desəydin, doğrudan qanın batmışdı. Get, o dostun kimdisə, ona yaxşı bir qonaqlıq ver. O düz deyirmiş. Dediyin buludları pərən-pərən elədim.

Bəli, yaxşıların yaxşısı olan, xeyirxah insan Əli Vəliyevin köməkliyi və qayğısı sayəsində mənim ilk "Vurğun keçib bu yerlərdən" kitabım 1978-ci ildə çap olundu. Mən heç vaxt, heç bir qohumumun, doğma adamımın belə mənə eləyə bilmədiyi Əli Vəliyev yaxşılığını unuda bilməyəcəyəm. İndi səkkiz kitabın müəllifiyəm. Amma nədənsə, ilk kitabım mənə ilk övladım qədər əziz və doğmadır. Bu doğmalıq üçün də Əli Vəliyevə minnətdaram. Hər dəfə irili-xırdalı məclislərdə olanda, kitabdan, qayğıdan söhbət düşəndə Əli Vəliyevin mənə elədiyi bu təmənnasız yaxşılırı fəxrlə danışıram. Hamı heyranlıqla, təlaşla qulaq asır. Yer-

yerdən təkcə mənə yox, onlarla gənc şair və yazıçıya əvəzsiz qayğı göstərən Əli Vəliyevə rəhmət oxuyurlar.

Gənc şair dedim, yadıma bir əhvalat düşdü. Bu da Əli müəllimlə bağlıdır. 1978-ci ilin mayında işimlə əlaqədar Cəbrayıl rayonuna ezam olunmuşdum. Azərbaycan müəllimlərinin altıncı qurultayı münasibətilə gənc şair, Böyük Mərcanlı kənd orta məktəbinin müəllimi İsmayıl İmanovdan televiziya oçerki yazmalı idim.

Bizim gəlişimizə axşam İsmayıl bir qonaqlıq düzəltmişdi. Qonaqlıqda müəllimlərdən biri mənim Səməd Vurğun haqqında yenicə çıxan kitabımı tərifledi.

- O gün olsun, - dedi, - İsmayılın da belə bir kitabı çıxsın.

İsmayılın "dərdi" açıldı.

- Yox qardaş, - dedi, - bu mümkün deyil. Gedib-gəlməkdən daha cana doymuşam. Mətbuat Komitəsində, nəşriyyatlarda mənə nə qədər vəd verirlər, amma bir şey çıxmır. Gedib-gəlməkdən özüm də xəcalət çəkirəm...

Mən gördüm yeridi, Əli Vəliyevin mənə köməyini təfsilatı ilə danışdım. Müəllimlərdən biri:

- İsmayıl, - dedi, - götür sən də o kişiyə bir məktub yaz, kömək istə, lap şerlərini də göndər. Nə olar, olar...

Elə oradaca İsmayıl kağız-qələm götürüb, Əli müəllimə bir məktub yazdı. Şerlərindən bir neçəsini də məktuba əlavə elədi.

Mən Bakıya qayıdandan iyirmi gün sonra İsmayıl da gəldi. Əli müəllim ona məktub yazmışdı ki, şerlərini də götür gəl.

1980-ci ildə İsmayıl İmanovun da "Səni soraqlaram" adlı ilk şerlər kitabı Əli Vəliyevin qayğısı sayəsində çap olundu.

Sevimli xalq yazıçımız Əli Vəliyev sözündə belə düz adam idi.

May. 1991-ci il.

SƏNGƏR ƏHVALATLARI

Adam ilk gəncliyində yumor oxumağa daha çox meyl edir. Ədəbiyyatın bu janrı insanı saflaşdırmaqdan başqa qısa danışmağa, az sözlə mənalı, məzmunlu bir əhvalatı oxucuya çatdırmaqda ən gözəl vasitədir. Şəxsən mən yumoru, hazırcavab əhvalatları ona görə çox sevirəm ki, burda sözlərin yeri dar, mənası geniş və çəkisi ağırdır. Məhz bu keyfiyyətlərə görə də Molla Nəsrəddin və Bəhlul Danəndə əhvalatları əsrləri adlayıb, gəlib, uzaqmənzilli olub.

İlk dəfə Molla Nəsrəddin əhvalatlarını nə vaxt oxumuşam, yadıma gəlmir. Bircə o yadımdadır ki, kəndimizin kitabxanasından onu alıb gələndə yerdə güclü qar vardı. Qarşıma çıxan müəllim əmim oğlu:

- Ver görüm, nədi oxuduğun? - dedi. Alıb təəccüblə üzümə baxdı - apar geri ver, əvəzində Süleyman Sani Axundovun "Qorxulu nağıllar"ını, ya da "Qaraca qız"ını al oxu, hələ tezdi sənə bu kitabı oxumaq, böyüyəndə...

Bikef halda kitabxana tərəfə qayıtdım. Çathaçatda geriyə boylandım, gördüm əmioğlu üzü o yana dayanıb. Tini sürətlə burulub evə qaçmaq istəyəndə

ayağım sürüşdü, üzü ustə yıxıldım. Qara bələnən kitabı çırpa-çırpa durub evə qaçdım.

Gecədən xeyli keçənə qədər çıraq işığında Mollanın lətifələrini oxudum. Oxuduqca burdakı əhvalatların kəndimizdə oxşarı olduğunun şahidi oldum.

İllər keçdi. Universitet tələbəsi olanda elektrik qatarı ilə dərsə gedib gələrdim. Onda hələ Bakıda metro yox idi. Dərsdən evə gələnə qədər kəndimizi və orada olan əhvalatları xatırlayıb, elə yoldaca onları dəftərimin künc-bucağına qeyd edərdim.

Həmin qaralamalar bu günlərdə şəxsi arxivimi araşdırarkən əlimə keçdi. Oxudum. Özümün də dodağıma təbəssüm qondu. Bəzi tiplərin ancaq adını dəyişmişəm. Bu adamların kimisi qohum, kimisi qonşu, kimisə də eləcə həmkəndlidi. Hələ universitet yoldaşlarımın da bəziləri burada var... İndi onların özləri də bilmədən tarixin, ədəbiyyatın kiçicik bir səhifəsinə dönüblər.

Sonralar jurnalist sənətim məni Borçalıdan Dərbəndə qədər Azərbaycan torpağında çox ailələrin qonağı etdi. Bu yolda maraqlı adamlarla görüşdüm. Onların ulu babaları haqqında iftixarla danışdıqları söhbətləri dinlədim. Bakıda, Tbilisidə, Moskva və Sankt-Peterburqda sayı-hesabı olmayan arxiv sənədlərində araşdırmalar apardım.

Bu səfərlərimdə el şairlərinin şerlərini, sərkərdələrimiz haqqında sənədlər, foto-şəkillər toplamışam. Böyük şairimiz Səməd Vurğunun çoxsaylı dost-tanışları ilə görüşmüşəm. Görüşlərimdə müdrik qocalarımız, sinədəftər ziyalılarımız eşidib bildikləri əhvalatları da danışıblar. Bu əhvalatlardan yeri gəldikcə yazılarımda istifadə etmişəm. Bəziləri senzor qəzəbinə düçar olduğu üçün nabor səhifələrindən çıxarılıb, ev arxivimdə "dustaq" qalıb. Bəzilərini isə sovet rejiminin xofundan heç qələmə ala bilməmişəm.

Zamanın bulanıq suları duruldu. Vaxt, dövran dəyişdi. Müdrik babaların sözü nə irad tutmaq qadağasının səddi yarıldı. Hər şeyi öz adı, öz ünvanı ilə deməyin, çağırmağın zamanı gəldi. Allaha min şükür ki, uzun illər qeyd dəftərçələrimdə dustaq qalan bu əhvalatları oxuculara təqdim etməyə imkan yarandı.

TƏRƏZİNİZİ DİBİNDƏN ÇIXARDAN OĞULLAR DA VAR

1880-ci ildə Tiflis kadet korpusunda təhsil alan kursant Əliağa Şıxlinski bir gün dostları ilə şəhərə gəzməyə çıxır. Kursantlar güclərini sınamaq üçün güctərəzisinə yaxınlaşırlar. Hamı bir-bir gücünü göstərir. Əliağaya da təklif edirlər. O deyir ki, gəlsəniz mən bunu divardan tamam qopardam. (O vaxtlar güc sınanan tərəzi yumruqla vurulmurdu. Divara bərkidilirdi, güc sınayanlar onu özlərinə tərəf dartırdı).

Yoldaşları deyir:

Əliağa, zarafat eləmə, altıya-yeddiyə qədər çəkə bilsən, qalibsən.

Tərəziçi:

- Bala, əvvəl çək, sonra öyün, - deyib kinayə ilə baxır.

Əliağa var qüvvəsi ilə elə çəkir ki, güc sınanan tərəzi divardan yerli-dibli qopur.

Tərəziçi:

Bala, - deyir, - sən doğrudan da güclü imişsən, bu güclə öyünməyə haqqın var. Beşə qədər çəkənə altı manat düşür. Sən isə onu yerli-dibli qopartdın. Al, mükafatın on manatdır.

Əliağa:

Mənə on manat lazım deyil. Mən istədim biləsiniz ki, tərəzinizi dibindən çıxardan oğullar da var, - deyə cavab verir.

İMELS ƏHVALATI

Bir dəfə Yazıçılar İttifaqında Adil İsgəndərovla Səməd Vurğun söhbət edirmiş. Birdən Adil İsgəndərov bərkdən gülür.

Nə oldu Ədil, yenə nə yadına düşdü?

Səməd, xəbərin var filankəs oğlunun adını İMELS qoyub.

- O nə deməkdi, mənası nədi?

- Yəni İnstitut Marksa, Engelsa, Lenina i Stalina.

Səməd Vurğun dəstəyi götürüb zəng edir:

- Ayə, filankəs, axşamın xeyir, eşitdim oğlun olub, adını İmels qoymusan. Böyük oğlan olsun, hə... nə olar, lap yaxşı... Arzu edirəm, bir oğlun da olsun adını "ÜİLK/b/P tarixinin qısa kursu" qoyasan. Filankəs, bu arzumdu, təklifim də var: Sabah bir get özünü həkimə göstər.

Səməd Vurğunun iradından sonra filankəs uşağın qırxı çıxmamış adını dəyişir.

XOŞBÖXTƏM Kİ, OĞLANLARIMI EL AĞLAYIR...

1922-ci ilin payızında yeni gələn Şura hökuməti nəslimizin qan düşmənlərinin fitvası ilə İsa və İsmayıl əmimi güllələdirlər. Səbəbi də bu olur ki, Süleyman ağanın oğlu olduğuna görə hökumətə boyun əymirdilər. İki çavanın yasında bütun el-oba, kənd ağlayırmış. Amma Zeynəb nənəm heykəl kimi donub qalıbmış. Bu məğrur qadın şübhəsiz ki, gimnaziya və seminariya qurtarmış, günahsız öldürülmüş oğlanlarının intiqamını almaq haqqında düşünürmüş...

Ağlaşmada qadınlardan biri üzünü Zeynəb nənəmə tutub təəccüb və heyrətlə deyir:

- Ay Zeynəb xanım, niyə ağlamırsan, ana deyilsənmi, günahsız öldürülən bu cavanlar sənin deyilmi?

Göz yaşlarını qəlbində boğan nənəm:

- Oğlanlarım məndən dünyaya gəlib, eldən gedir. Eldə onları ağlayır, - deyir.

- Xoşbəxtəm ki, oğlanlarımı el ağlayır.

Onlar mənim yox, elin-obanın balalarıdır. Onları mən itirməmişəm, el itirib.

Az sonra nənəm iki oğlunun əvəzinə Daş Salahlı igidi İsrafilin köməkliyi ilə düşmənin altı nəfərini qanına qəltan elətdirir.

POSTDA SALAM NEPOLOJENO...

Bolşeviklər yenicə gələndə Poylu Alxan kişiyə silah, şinel verib Tamaşa körpüsunə gözətçi qoyurlar.

Səhər obaşdan araba ilə ot gətirməyə gedən həmkəndlisi Mansır körpünün qənşərində əlisilahlı şax dayanan Alxana iki dəfə dalbadal salam verir, amma cavab almır.

Otu yükləyib geri qayıdanda görür ki, Alxan yenə körpünün yanında dim-dik gəzinə-gəzinə gözətçilik edir.

- Salam, Alxan, hər vaxtın xeyir olsun. Alxan kişi yenə dinib-danışmır.

Hirslənən Mansır arabadan düşüb yaxına gəlir:

- Əyə, belə filan oğlu, gedəndə də salam verdim, gələndə də, de görüm salamımı niyə almırsan? Bəlkə arada umu-küsün var mənimlə. Tez ol cavab ver, yoxsa yabanı soxacam qarnına. Alxan kişi özünü daha da şax tutub:

- Poşol, poşol, - deyir, - postda salam nepolojeno... Həmin gündən Poylu Alxana el-oba Poşol Alxan ayamasını verir.

NİYƏ YEMƏYİB...

Daş Salahlı Murad Qazax bazarında yağ satırmış. Bir Kürqıraqlı yaxınlaşıb yağın qiymətini soruşur.

- Otuza verirəm, əzizim, səhərdən iyirmi kilo satmışam. Otuz manatdan götür, təzə inək yağıdı, yaylaqda tutulub.

- On beş manatdan ver, iki kilo alım. Daş Salahlı Murad ona zəndlə baxıb:

- Səhv eləmirəmsə, sən Kürqıraqlısan, kəndiniz də meşənin lap yaxınlığındadı.

Kürqıraqlı tanış tapdığına sevinir:

- Hə, - deyir, - Kürqıraqlıyam, kəndimiz də meşəyə lap yaxındı.

- Əzizim, sizin o meşədə canavar olur?

- Olur yox e, doludu canavarla, nə olub ki?...

- Bəs sənin kimi eşşəyi indiyə kimi o canavarlar niyə yeməyib...

URUS QAYITDI

Üç il əsgəri xidmətdə olan qonşumuz daz Nağı qayıdıb gələnə kimi atası Qəfər kişi krışanın kirəmitini dəyişib şifer vurdurmuşdu. Əsgərlikdən gələndə daz Nağı həyətlərində durub təəccüblə evlərinə baxırmış. Anası Səba xala:

- Ay oğul, - deyir, - yeri içəri keç qoca atanla görüş, evə niyə döyünə-döyünə baxırsan?

- Mama, a poçemu naş dom ala buladı... Səba xala əlini dizinə çırpıb:

- Boy Allah, mənə ölüm ver - deyir, gül kimi uşağım əsgərliyə musurman gedib urus qayıtdı.

BAŞIN QİYMƏTİ

Ağstafalı Cəbi kişi dəlləkdən soruşur:

- A bacı oğlu, bir başı neçəyə qırxırsan?

- Əmi, o baxır başın qiymətinə.

- Onda oturum, qırx mənim başımı. Dəllək tər tökə-tökə Cəbi kişinin başını qırxıb qurtarır. Ayağa duran Cəbi kişi əlini cibinə salıb 10 qəpik tapır və qoyur dəllək stolunun üstünə. Dəllək təəccüblə:

- Bu nədi, a kişi, başının qiymətini ver, bu heç odekalon pulu da deyil...

- Ay oğul, demədin ki, hər şey başın qiymətindən asılıdır. Mənim də başımın qiyməti 10 qəpikdi.

HAÇA QURBAN

Ağaların kef məclisində kesəmənlilərdən söhbət düşür. Deyirlər ki, bu kəndin camaatı igidliyi və baməzəliyi ilə yanaşı həm də hazırcavabdırlar.

Kim Kəsəmənə gedibsə ona bir ayama qoşublar. Qurban ağa:

- Gəlin mərc gələk, - deyir, o kəndə gedib-gələrəm, mənə heç bir ayama da qoşa bilməzlər.

Çox deyiləni az eşidən Qurban ağa atını minib Kəsəmənə gedir.

Kəndin girəcəyində atını saxlayır. Günorta üstü olduğundan kənddə heç kəs yox imiş. Bir də baxır ki, bulaq başından iki qadın gəlir. Təşəxxüslü ağa atın üstündə yanakı oturub əlini çənəsinə dayayır. Su gətirən qadınlara:

- A bacı, bu kəndin gişiləri hanı, heç biri də gözə dəymir?

- Qardaş, obaşdannan durub meşəyə gediblər.

- Xeyir ola belə tez?...

- Sənin çənənin altına haça kəsib, gətirməyə gediblər.

"Payı"nı alan Qurban ağa elə ordan da kor-peşiman geri qayıdır.

O gündən el-obada onu Qurban ağa yox, ölənə qədər Haça Qurban deyə çağırırlar.

ŞER ƏHVALATI

Qubaya tez-tez yolu düşən Səməd Vurğun rayon komsomol komitəsinin katibi Camo Mahmudovla dostlaşmışdı. Xasiyyətlərində oxşarlıq olduğundan aralarında bərk zarafatları da vardı. 1950-ci ilin payızında Qubaya seçiciləri ilə

görüşə gələn deputat Səməd Vurğun Camonu rayonda tapmır. İş yoldaşı Musa Mustafayevdən Camonun harada olduğunu soruşur.

- Səməd, dostun Camo Misxora sanatoriyaya getdi. Gedəndə tapşırdı ki, şair buralara gəlsə, mənə bir şer yazıb qoysun. Onda biləcəm ki, Səməd Qubaya gəlib, məni yoxlayıb. Səməd Vurğun elə oradaca bir bənd şer yazıb Musaya verir ki, çatdırarsan Camoya.

Camo gedibdir Misxora,
Qızlar onu salıb tora.
Səməd şer yazan deyil,
Yoldan ötən gorbagora.

CƏHƏNNƏM AŞIĞI

Aşıq Kərəmoğlu kənddə sayılıb-seçilən kişi olsa da sənətkar kimi toy şənliklərinə onu öz kəndçiləri nadir hallarda dəvət edərdilər. Ona görə yox ki, o, zəif aşıq idi Sadəcə olaraq həmkəndliləri onun qədr-qiymətini bilmir, aşıqlığına o qədər də hörmət etmirdilər.. Soruşanda ki, a Kərəmoğlu, niyə sən burada dura-dura həmkəndlilərin kəndbəkənd düşüb aşıq axtarırlar. Yaralı yerinə toxunulan Kərəmoğlu deyərdi:

- Mənim həmkəndlilərim toyqabağı düşürlər kəndbəkənd yaxşı aşıq axtarmağa. Yaxşı aşığın da biri deyir, beh almışam, gələmmərəm, digəri səfərdə olur, başqa birisi xəstə... Nə isə, yaxşı aşıq tapılmayıb, əlləri hər yerdən üzüləndə deyirlər, əşi cəhənnəmə ki, gedək aşıq Kərəmoğlunu gətirək, toyumuzu yola versin.. Ona görə də el-oba mənə "çəhənnəm aşığı" ayamasını verib.

ANDIMI POZMAMIŞAM

İsrafilin atası eşidir ki, oğlu kənddəki rus feldşeri Fenya ilə eşqbazlıq edir. Bir gün onu güdür və qızın yanında tutur. Oğlunu qabağına salıb evə gətirir. Üç-dörd qonşunu çağırıb Quranı da stolun ustünə qoyur.

- Oğul, - deyir, - dur, bu qonşuların yanında əlini bas Qurana və and iç ki, bir də gavur qızının qapısından içəri keçməyəcəksən.

İsrafil atası deyənə əməl edir. Durub muqəddəs kitaba əl basıb and içir...

Bir həftə keçmir ata eşidir ki, oğlu Fenyanın yanına yenə gedir. Yenə gəlib oğlunu Fenyanın yanında tutur və danlayır:

- Ay naxələf oğul, bəs sən mənə söz verdin və Qurana da and içdin ki, bir də bu gavur qızının qapısından içəri girməyəcəksən.

İsrafil:

- Ata, mən sənə söz verdim, Qurana da and içdim ki, bu qapıdan bir də içəri girməyəcəyəm. Ona görə də bu dəfə pəncərədən gəldim... Mən andımı pozmamışam.

NİYƏ OTURUBSAN

Xalq yazıçısı Mehdi Huseyn 40-cı illərdə Azərbaycan radio verilişləri idarəsinin rəisi işləyəndə orkestrin rəhbəri Qəni Qəniyev imiş. Qəni iki illiyə xarici ölkəyə işləməyə gedir. Onun yerinə Cabbar Cabbarovu təyin edirlər. İki ildən sonra qayıdıb gələn Qəni öz yerində işləmək istəyir. Lakin Cabbar orkestrin rəhbəri vəzifəsini əldən vermək istəmir. Sədr Mehdi Huseynin otağında Qəni ilə Cabbarın mubahisəsi duşur. Bu ara telefon zəng çalır.

- Mehdi danışan mənəm, Üzeyir bəy...
- Buyurun, eşidirəm, Üzeyir bəy...
- Nə var, nə yox, nəylə məşğulsan?

Mehdi Huseyn cavab verir ki, Qəni [72] xaricdən qayıdıb gəlib öz yerini istəyir, Cabbar da vermir. Onların mubahisələrini həll edirik.

Üzeyir bəy ani olaraq susur və handan-hana soruşur.

- Nə deyir Cabbar?
- Mubahisə eləyirlər... o, Qəniyə eşşək deyir...
- Bəs Qəni?
- Qəni də Cabbara eşşək deyir. Üzeyir bəy:

- Mehdi, əzizim, sən ki, o iki eşşəyin arpasını bölə bilmirsən, bəs orda niyə oturubsan?[73]

VURĞUNUN BABALARI DEYİB Kİ...

- Əyan sağ olsun, o, dayçanın cinsindən asılıdır, bir yaşında, ya da yaş yarımında. Amma qatırla eşşəyi heç vaxt qırxmazlar.

NEÇƏ YAŞINDA

Xalq şairi Səməd Vurğunun ulu babası Alı ağa uzun müddət Qazax mahalının vəkili olmuşdur. Bir dəfə onu İrana şahın yanına nümayəndə göndərməli olurlar. Tədbirli, savadlı Vəkil Alı ağa İrana çatanda üzünü tərtəmiz qırxdırıb əvvəlcə əyanların hüzuruna gedir. Əyanlardan biri Alı ağanın çox gənc olmasına və üzünü tərtəmiz qırxdırıb saqqal saxlamamasına görə sataşmaq məqsədilə belə bir sual verir:

- Vəkili-Mahali-Qazax Alı ağa, lütfən deyin görək sizin obada dayçanı neçə yaşında qırxırlar?

---

[72] Hər iki bəstəkarın adı dəyişdirilib.
[73] Əhvalatı mənə 1990-cı il, avqustun 28-də xalq yazıçısı Ismayıl Şıxlı danışıb - müəl.

Saqqallı əyanın nəyə işarə vurduğunu başa düşən uzaqgörən, hazırcavab Vəkil Alı ağa təmkinlə belə cavab verir:

- Əyan sağ olsun, o, dayçanın cinsindən asılıdır, bir yaşında, ya da yaş yarımında. Amma qatırla eşşəyi heç vaxt qırxmazlar.

SONRA BAĞLAYA BİLƏCƏKSƏNMİ

Gürcü padşahı II İraklinin şəxsi dostu olan Vəkil Alı ağa bir vasitəçi kimi İran, Rusiya və başqa ölkələrin nümayəndələrilə görüşdə, diplomatik danışıqlarda həmişə yaxından iştirak etmişdir.

...Bir dəfə II İrakli Vəkil Alı ağanı məsləhət üçün yanına çağırıb deyir:

- Vəkil, mən Daryal dərəsini müvəqqəti də olsa açmaq istəyirəm, buna necə baxırsan? Rus qoşunlarını Qafqaza buraxmaq istəyirəm...

Uzaqgörən Vəkil Alı ağa fikirli-fikirli belə cavab vermişdir:

- Hökmdar sağ olsun, özünüz bilən yaxşıdır, açmaq asandır, amma sonralar görün bağlaya biləcəksinizmi?

KEÇ YUXARI BAŞA

Vəkil Alı ağanın böyük oğlu Hacı Məmmədxan ağanı bir dəfə dağ kəndinə toya çağırırlar. Hacı Məmmədxan ağa məclisə bir az tez gəlibmiş. Keçib oturur məclisin yuxarı başında. Qonaqlar yığışdıqca toy babası gələnləri yuxarı başa dəvət edir. Hacı Məmmədxan ağanı, görünür, tanımır.

- Paho, xoş gəlmisən, ağa, bir az o yana otur, - toy babası üzünü yeni gələnə tutur: - buyur, bura yuxarı. Mən ölüm buyur, öz həmyerlimsən. Mən ölüm, keç başa, - deyib hamını başa keçirir.

Hər yeni qonaq gəldikcə Hacı Məmmədxan ağa bir az o yana oturub, bir də baxır ki, gəlib düşüb lap qapının ağzına, yanında da bir ala-bula küçük, quyruğunu bulayıb ondan pay umur. Hirslənmiş Hacı Məmmədxan ağa küçüyün boğazından yapışıb düz yuxarı başa fırladır və acıqla:

- Köpəy oğlunun küçüyü, sən də bunların həmyerlisisən, mən ölüm, keç yuxarı başa, - deyib məclisi tərk edir.

QARA ZAĞIN QAYDASI

Vəkil Alı ağanın oğlu Hacı Məmmədxan ağa ərəb kimi qara bir adam imiş. O, Xədicə Sultan xanım adlı qənirsiz bir gözələ evlənir. Onun tərifi bütün mahala yayılıbmış. Qohumunun ağıllı və gözəllikdə tayı-bərabəri olmayan bir qızla evlənməsi şair Kazım ağa Salik Şıxlinskiyə (1781-1842) də çatır. Salik atını minib Xədicə xanımı görməyə gəlir. Hacı Məmmədxan ağa evdə olmadığından, Xədicə Sultan xanım ağzı yaşmaqlı onun qabağına çıxır. Buyurub düşməsini təklif edir. Salik atdan düşür, onun gözəlliyini yaxından

görmək üçün soyuq su istəyir. Xədicə Sultan su gətirir. Su içəndən sonra şair Salik deyir:

Evləri var bağ ağzında,
Gül bitirər dağ ağzında,
Bir xınalı kəklik gördüm
Bir dümqara zağ[74] ağzında.

Bunu deyib, Salik atını sürüb gedir. Axşam Hacı Məmmədxan ağa evə qayıdanda Xədicə Sultan xanım xəbər verir ki, bu gün şair Kazım ağa Salik gəlmişdi. Onu evdə tapmadı, bu bayatını deyib getdi. Hacı Məmmədxan ağa gülümsəyir və cavabında deyir:

Ələm qardan almaqdı,
Qovğu cana salmaqdı,
Qara zağın qaydası
Xınalı kəklik almaqdı.

İGİDLİYƏ BAĞIŞLAYIRAM

Hacı Məmmədxan ağanın igidliyi haqda eldə, obada danışılan əhvalatlara Səməd Vurğun heyranlıqla qulaq asarmış. Mehdixan müəllim yazır ki, atam Yusif ağa babamız Hacı Məmmədxan ağanın hərbi əməliyatlarda təşkil etdiyi könüllü süvari dəstələrinə məharətlə başçılıq etməsindən tarixi söhbətlər edərdi.

...Bir dəfə necə olursa, hökumət işində Hacı Məmmədxan ağanın əlindən xəta çıxır. O, qaçaq düşüb İranla Zaqafqaziya arasında dolaşırmış. Gürcü çarı II İrakli təkidlə tələb edirmiş ki, üzə çıxıb təslim olsun. Vəkil Alı ağanın ikinci oğlu Vəkil Yusif ağa bu işi özünün ağıllı bir tədbiri ilə sahmana salmışdır. II İrakli Ceyrançöldə ov edərkən uzaqdan, qabağına ceyran sürüsü qatıb ildırım sürəti ilə gələn bir ağ atlı görür. Sürü hökmdarın qarşısından keçəndə atceyranın birini yaxalayır və üstündəki igid qılıncla ceyranı yerə sərir. Bu mənzərəyə heyran qalan II İrakli üzünü Vəkil Yusif ağaya tutaraq:

- Vəkil, bu igid adam kimdir? - deyə soruşur.

Tədbirin baş tutduğunu duyan Vəkil Yusif ağa:

- Padşah sağ olsun, - deyir, - nökəriniz Hacı Məmmədxan ağadır, sizə düşmən olan xanlardan birinin ərəb atını gətirib sizin qarşınızda sürür. Qardaşının işarəsilə Hacı Məmmədxan ağa atdan düşür və qılıncın tiyəsini hər iki əlində tutaraq II İraklinin qabağında hörmətlə təzim edir. Hökmdar isə əlini Hacı Məmmədxan ağanın çiyninə qoyub:

- Mərhəba, - deyir, - sən əsl igidsən, bütün günahlarını igidliyinə bağışlayıram.

---

[74] zağ - qarğa.

QAŞQA AT ƏHVALATI

Vəkil Yusif ağa[75] hər il köçünü yaylaqdan qaytaranda "Qaşqa tala" adlı mənzərəli bir yerdə dayanacaq edərmiş. Qonşu kənddən aşıq çağırtdırıb, məclis qurar, kef edərmiş. Məclisin sonunda aşığa ayağı səkili bir at bağışlarmış.

Kişinin qoca vaxtı imiş. Yenə yaylaq köçündən qayıdır. Adəti üzrə aşığı çağırtdırıb oxudur. Birdən yadına düşür ki, var-yox bir ayğır atı, bir baş da dayçası var. Bəs aşığa nə bağışlasın. Aşıq isə ötən illərdəki kimi şirin-şirin şövqlə oxuyur. Və ona yenə ayağı səkili qaşqa at bağışlayacağını gözləyirmiş.

Vəkil Yusif ağa arvadı və böyük oğlu ilə məsləhət eləyir ki, bu il ayğır at bağışlamağa imkanımız yoxdur. Gərək dayçanı verək, amma qorxuram aşıq inciyə. Onların söhbətini dəyənin kölgəsindö əyləşib nəfəs dərən aşıq eşidib ayağa durur və belə bir söz oxuyur:

Əzizim Qaşqa tala,
Şəmşivar, Qaşqa tala.
Ağa istər day verə,
Aşıq istər qaşqa at ala.

Vəkil Yusif ağa üzünü oğluna tutub:

- Oğul, - deyir, aşıq bizi qabaqladı. Qaşqa atı var minib getsin. Kişiyə halaldı.[76]

BOLUŞ BƏY

Qarabağ xanı İbrahimxəlil xanın dövründə Boluş bəy adlı bir cavan xanlığa və onun adamlarına boyun əyməyən cəsur bir igid kimi ad-san qazanıbmış. Dağlarda mal-qara və qoyun sürüsü saxlayan Boluş bəy yarımqaçaq, öz sürülərinin içində dolanırmış. Xan və onun adamlarının əlinə keçməmək üçün tez-tez yerini dəyişib sərt və qayalı dağlarda məskən salarmış..

İbrahimxəlil xan adamlarına əmr edir ki, Boluş bəyi tutmaq üçün müəyyən yerlərə gözətçilər qoyun, çalışın diri tutun, tuta bilməsəniz də öldürün. Xan fikirləşirdi ki, Boluş bəyin ona tabe olmamağı, ağayana hərlənməyi qalan rəiyyətlərə də rəvac verər. Uzun zaman güdəndən sonra xanın adamları Boluş bəyi tutub xanın hüzuruna gətirirlər. Boluş bəy Şuşa qalasına gətiriləndə axşam tərəfi

---

[75] Gürcüstan Mərkəzi Dövlət Arxivində saxlanan sənədlərdə Salahlı vəkil Yusiv bəyin 1799-cu ildə Gürcü çarı XII Georginin sarayında eşik ağası vəzifəsində işləməsi göstərilir - müəl.

[76] Əhvalat Respublika Əlyazmaları Institutunda saxlanan (F.27.C.B.1615) Isgəndər Ismayıl oğlu Vəkilovun "Azərbaycan xalq şairi Səməd Vurğun haqqında"yazısından götürülmüşdür. Isgəndər Vəkilov həmin yazısını 1962-ci ilin noyabrında yazıb göndərmişdir - müəl.

imiş. Xan əmr edir ki, onu bu geçəlik dama salsınlar, sabah divanına baxıb, cəzasını verər.

Bu zaman vəzir Molla Pənah Vaqif dostları ilə başmaq seyrinə çıxıbmış. Görür ki, xanın adamlarının qabağında ucaboylu, pəhlivan cüssəli, neçə illərdi xana meydan oxuyan el qəhrəmanı Boluş bəy gətirilir. Onun tutulmağı Vaqifi bərk kədərləndirir. Gözətçilər vəziri görəndə dustağı dayandırıb ona hörmətlə təzim edirlər. Boluş bəyə canı yanan vəzir Vaqif ona kömək məqsədilə deyir:

Xan mən olsam, Boluşu
sabaha qoymaram,
Boluş da mən olsam, sabaha qalmaram.

Boluş bəy Vaqifin işarəsindən anlayır ki, işi xarabdır; səhərə qalsa, xan onu ya qayadan atdıracaq, ya da dar ağacından asdıracaq. Ona görə də bütün gecəni yatmır, əlinə keçən dəmir parçası ilə damın arxasından yarıq açıb dağlara qaçır.

Qəzəbli İbrahimxəlil xan Boluş bəyi nə qədər axtartdırırsa, tapa bilmir. Bundan sonra Boluş bəy Vaqifin məsləhətilə oturub-durur. Bir gün Vaqif ona xəbər göndərir ki, mal-qarasını, qoyun sürüsünü də götürsün, ev-eşikli köçüb Salahlı kəndində yaşasın.

Məhəd bəy Vəkilov 1941-ci il martın 25-də yazdığı bu əhvalatın sonunda qeyd edir ki, o vaxt Qarabağdan köçüb gələn Boluş bəyin nəslindən bizim Salahlı kəndində indi də yaşayanlar var, Boluş şəxsən mən yaxşı tanıyırdım. Boluşlular kəndin ucqarında ayrıca məhəllə kimi yaşayırdılar. Yayda yaylağa çıxanda da, boluşlular dağın ən sərt yerində "Atqırılan" qayasının dibində çətin yollu sarp yerlərdə dəyələrini qurub yaşayırdılar. Heç bir bəyə, heç bir hökumətə onlar boyun əyməzdilər. Sürü-sürü qoyunları, naxırları olsa da nə qubernatoru, nə də pristavı saymazdılar. Onların kiçik yaşlı uşaqları da at sürməkdə, ov eləməkdə və oğurluqda ad-san qazanmışdı.

Bu onlarda babaları Boluş bəydən qalma irsdir.

"Vaqif" dramında xalq qəhrəmanı kimi verilən Eldar obrazı əslində Boluş bəydir. Eldar Boluş bəyin prototipidir. Səməd Vurğun öz qəhrəmanını ona görə Eldar adlandırmışdır ki, o şəxs el arasından çıxmış bir özəkdir. Eldar el qabaqcılı, el təəssübü çəkən, el tərəfdarı deməkdir.

Heç təsadüfi deyil ki, "Vaqif" dramında Səməd Vurğunun Vaqifin dililə: "Divanı sabaha qalanlardan ol", - deyimi vaxtilə Vaqifin Boluş bəylə üzbəüz gələndə dediyi fikirlə eyni səsləşir.

QABAN OVU

Hacı Məmmədxan ağanın əmisi oğlu Məmmədşərif ağa bir dəfə dostları ilə söhbət edərkən deyir:

- Xədicə Sultan xanımı qoyaydılar qabanın iki qaşının arasına, görəydin onu ordan mən alırdım, yoxsa Hacı Məmmədxan ağa.

Bunu Hacı Məmmədxan ağaya xəbər verirlər. Bir neçə gündən sonra Hacı Məmmədxan ağa dostlarını toplayır. Məmmədşərif ağanı da götürüb Qarayazı meşəsinə qaban ovuna gedirlər. Əlində sıyırma qılınc, qalın böyürtkən kolları arasından keçən cığırı kəsir. Məmmədşərif ağanı da yanında saxlayır. Dostları meşədə hay-küy salıb, qabanı yatarından hürküdürlər. Erkək qaban su cığırı ilə bunların üstünə cumub gələndə Məmmədşərif ağa qaçmağa başlayır. Hacı Məmmədxan ağa onun qolundan yapışır:

- Hara qaçırsan, Xədicə Sultan xanım qabanın qaşlarının arasındadır, al, - deyir, qılıncı endirib Məmmədşərif ağanı yaralayır. Cəld geriyə dönür, qılıncı üstünə hücum edən qabana endirir. Zərblə vurduğu qılınc qabanın üst çənəsini kəsir, alt çənəsində dişə ilişib qalır. Qaban diz çöküb yıxılır.

CANI DA ÇIXSA...

Səməd Vurğunun ata babası Hacı Məmmədxan ağa ahıl yaşlarında Salahlı Qazisi İbrahim Əfəndi Qayıbova nökəri ilə bir çuval buğda göndərir. Araba həyətin doqqazına çatanda İbrahim Əfəndi qapıda oturubmuş.

- Bu nədi, bala? - deyə nökərdən soruşur.

- Bir çuval burdadı. Hacı Məmmədxan ağa göndərib. Deyir ki, buğdanı halal eləyirəm, amma bu il məni orucluqdan azad eləsin.

- Hə, lap yaxşı, düşürt qoy talvarın altına. Get, ağana de ki, buğdaya görə çox sağ olsun. Amma, canı çıxsa da oruc tutmalıdır. Bir çuval buğda ilə mən orucluqdan heç kəsi azad eləmirəm.

QAŞ-QABAQ BƏS ELƏR

Elin məşhur aşığı Hüseyn Bozalqanlı bir dəfə yaylaq səfərindən qayıdırmış. Yolu Ayrım kəndinin yanından düşür. Bu kənddə bir dostunun yaşadığını xatırlayıb ona baş çəkir. Hal-əhval tutduqdan sonra ev yiyəsi üç-dörd dəfə:

- Ay arvad, kişiyə yemək gətir, yoldan gəlib, - deyirsə arvad özünü eşitməməzliyə vurur. Nəhayət, gecdən-gec mis cam dolu yağlı bozartma gətirir.

Bozartma yağlı olduğundan aşıq bir-iki tikə zorla yeyib, geri çəkilmək istəyir, amma aclıq güc gəldiyindən çörəyi yağa batırıb könülsüz-könülsüz dişləyir.

Aşığın zəif yediyini görən ev yiyəsi:

- Ay arvad, turşu da gətir, ət çox yağlıdı, aşıq yeyə bilmir.

Bu vaxt aşıq dözə bilməyib deyir:

- Turşu lazım deyil, elə arvadın qaşqabağı bəs eləyər...

* * *

Bulaq üstə məclis quran üç nəfər yeyib-içir, həm də zarafatlaşırdılar. Onlardan biri şair, biri mağaza müdiri, biri də şəxsi maşını olan müəllim idi.

Mağaza müdiri şairə yaltaqlıqla:

- Şair, mən sənin şerlərini oxuyanda on il cavanlaşıram, hətta az qala dünyaya sığışmıram. Vallah, düz sözümdür. Mən sənin bir misranı bu müəllim dostumun QAZ-21-nə dəyişmərəm.

Hirslənən müəllim dərhal maşınına oturub onu işə salır.

- Hara, hara tələsirsən, bəs biz, - deyə mağaza müdiri həyəcanla soruşur.

Müəllim:

- Mən getdim. Siz də şairin o biri misrasını minib gələrsiniz - deyib, maşını sürüb uzaqlaşır.

BURCUTMAQ AĞLIMA GƏLMƏDİ

Xanlıqlar kəndinin sakini Abıl kişini bir gün arvadı Sənəm bərk danlayıb deyir:

- A kişi, ocağın altına atmağa qapıda bir çöp də yoxdu. Qoş arabanı, get, Vəlixan meşəsindən bir az odun gətir. Bu nədi, fətir salanda əlimiz-ayağımız çəpərlərdə qalır.

Abıl kişi də arabanı qoşub Vəlixan meşəsinə oduna gedir. Ağacın birini kəsir, ikincisinə baltanı var gücü ilə ilişdirəndə nə qədər eləyir, balta quru dəmirqara ağacından çıxmır ki, çıxmır. Arabanı sürüb kor-peşman kəndə qayıdır. Boş arabanın qapıya gəldiyini görən Sənəm arvad:

- A kişi, bu nədi, - deyir, - arabanı niyə boş qaytardın?

Abıl kişi hirslə:

- Əşi, cəhənnəm olsun sənin odunun da, baltan da. Zəhrimar balta qaldı ağacın yarığında, nə qədər elədim geri çıxarda bilmədim. Nə eləyim orda, meşədə yatmayacaqdım ki...

- A kişi, ayıbdı, asta danış, qonşular eşidər, biabır olarıq. Gəl otur, arabanı sür qayıdaq meşəyə.

Ər-arvad meşəyə qayıdırlar. Sənəm arvad üç-dörd dəfə sağa-sola burcudub baltanı ağacdan çıxardır.

- Bə niyə çıxdı, ölü oğlu ölü, baltanı burcutmaq lazımdı - deyir.

Abıl kişi təəssüflə:

- Arvad, atamın goru haqqı heç burcutmaq ağlıma gəlmədi...

DOLAŞIB GƏLİB

Daş Salahlılı Qərib kişi öz həmkəndlisinin qızına oğlu üçün elçi gedir. Danışırlar, barışırlar, hətta toy günü də təyin olunur. Çölə çıxanda Qərib kişi görür ki, dirəkdən asılan kotan zəncirinə böyük oğlu çox iştahla baxır (Zəncir dirəkdən asılı vəziyyətdə saxlanılır ki, pas atmasın). Kişi dörd yanına baxır, görür ki, təzə qudası qayıdıb girdi içəri. Dərhal oğluna:

- Ayə, mal kimi ağzını açıb niyə baxırsan, dola belinə aparaq, əldə-ayaqda lazım olar-deyib oğluna təpinir.

Oğlu da zənciri belinə dolayıb gətirir. Toydan bir az sonra el adətincə Qərib kişi qudasını qonaq çağırır. Qonaqlıqdan çıxanda quda baxır ki, dirəkdən asılan kotan zənciri ona tanış gəlir. Yaxınlaşıb diqqətlə baxanda öz zəncirini tanıyır.

- A quda, a Qərib, - deyir, - siz bizə gələn gündən bizim kotan zənciri yoxa çıxmışdı. İndi budur, sizin dirəkdən tapdım. Əyə, nə təhər olub, bizim zəncir sizə gəlib çıxıb?

Söz altda qalmayan Qərib kişi:

- A quda, - deyir, - vallah bilməyib, sizin kotan zənciri bizim uşağın ayağına dolaşıb gəlib.

OĞRU-QULDUR ƏYYAMIDIR

...Gün o gün olur ki, hökumət ölkə hürriyyət elan edir. Qazaxlı şair ağa Nazir Qayıbzadə (1849-1919) də bu hürriyyətə sevinir. Bu mövzuda "1905-ci il inqilab cərəyanına dair" qəzəlini və "Millətə xitab" şerini yazır. Bir neçə gün keçər-keçməz onun ilxısını oğurlayırlar. Abbas ağanın ilxıçısı, nökər-naibi Qazaxdan Qaraçöpəcən, Dilicandan Şəmşəddinə və Şəmkirə kimi olan ərazini ələk-vələk eləyirlər, amma ilxını tapa bilmirlər. Hara çapar gedirsə, əliboş qayıdır, ilxını gördüm deyən olmur... Salahlı ağsaqqalları yığışıb Abbas ağaya təsəlli verməyə gəlirlər. Dili dinc durmayan baməzə Xocaoğlu zarafata salıb deyir:

- Abbas ağa, çox deyirdin ki, hürriyyət gəlsin, xalqım, millətim ayılsın. Bu da sənə hürriyyət, sən arzu elədin, yazdın, o da gəldi. Millət ayıldı, sənin də ilxını oğurladı.

Abbas ağa dözə bilməyib:

- Xocaoğlu, - deyir, - səhvin var, bu, mən arzulayan hürriyyət deyil, bu dərəbəylikdir. Mən hürriyyəti xalqıma arzulamışdım, oğruya, quldura yox. Bu hürriyyət deyil, qor-qodux zamanıdı, oğru-quldur əyyamıdır...

Könül, aldanma çərxə, biməfadır, İşi daim onun cövrü cəfadır.

ÖLÜB, ALLAH RƏHMƏT ELƏSİN

Kəndə səs yayılır ki, Rəhim ağanın nökəri rəhmətə gedib. Bir dəstə adam yığışıb ağaya başsağlığına gedirlər. Yolda kor Əhmədlə qarşılaşırlar. Yaltaq Fərman:

- Ə, kor başı batmış, qayıt geri, Rəhim ağanın nökəri ölüb, gedək başsağlığı verək, kişinin qəminə şərik olaq.

Kor Əhməd:

-A Fərman, siz səhv eşidibsiniz, nökəri yox, Rəhim ağanın özü rəhmətə gedib.

- Hə, elə... Bu, doğru xəbərdir?
- Bəli. Yaltaq Fərman:
- Əşi, ölüb Allah rəhmət eləsin, Rəhim ağa yoxdu, mən kimə başsağlığı verəcəm. Ay uşaqlar, mən gedəsi olmadım - deyib, geri, evinə qayıdır.

VƏZİFƏ ƏHVALATI

Baməzə Kürqıraqlı Bakı təyyarə limanında taksiyə minir. Sürücü ondan soruşur ki, sizi hara, hansı ünvana aparım?
Kürqıraqlı əlini bığına çəkib lovğa-lovğa:
- Sürücü qardaş, son illərdə mənim kəndçilərimin əksəriyyəti Bakıda yaxşı vəzifələr tutublar. Məni də pramoy vəzifəyə apar - deyə cavab verir.

KİMDƏN ÖYRƏNMİSƏN

Milis bölməsinin rəisinə danos gəlir ki, ət kombinatının ikinci sexində işləyən Qurbanqulu növbədən çıxanda at oğurlayıb aparır. Rəis həmin gənci yanına çağırıb soruşur:
- A bala, komsomolçusan?
- Yox.
- Onda kommunistsən?
- Yox, yoldaş rəis, kommunist də deyiləm.
- Bəs, oğurluğu kimdən öyrənibsən?

NƏ VAR Kİ...

Həmişə doğru-dürüst danışan, vəzifəli adamların belə qüsurunu üzünə deyən Murada el-oba bir ayama yapışdırmışdı: dəli Murad.
Bir dəfə Murad qonşu kənddə yaşayan qohumunun yeni tikdirdiyi evini görməyə gəlir. İki qohum üzbəüz oturub söhbət edirlər, süfrəyə çaydan başqa heç nə gəlmir. Stəkanlar dolub-boşalır...
Səhərdən evdən çıxan Murad çaydan içib daha da acır. Hiss eləyir ki, varlı qohumu simiclik edir, heç yemək verənə oxşamır. Elə hey evini, həyətini, arvad-uşağını tərifləyir.
Murad durub çəliyi ilə otağın enini, uzununu ölçməyə başlayır. Ev yiyəsi tələşlə:
- Əyə, dəli, neyləyirsən, evi niyə ölçürsən?
- Qohum, bir belə mülk mən də tikdirəcəm.
- Əyə, gəl otur yerində, ağlını başına yığ, sənin pulun var, belə bir mülk tikdirəsən. Cındırından cin hürkür.

- Qohum, belə bir evi tikdirməyə nə var ki, içində yemək yox, içmək yox - deyən Murad ağır bir söyüşlə evi tərk edir.

KEÇƏL DAZIYNAN, AŞIQ SAZIYNAN

Bir dəfə Şıxlı aşıq Məhəmmədi televiziyada çıxışa çağırırlar. Buraxılış vərəqəsi olmadığına görə qapıda dayanan milis nəfəri onu içəri buraxmır.

- Əmi, - deyir, - sizi kim çağırıb?

- Oğul, məni redaktor Şəmistan Nəzirli çağırıb, bəlkə buraxasan gedəm.

- Get, gör oradadımı, gəlibmi? Amma buraxılış vərəqəsi gələnədək qoy sazın qalsın burda.

- Onu eləyə bilməyəcəyəm!

- Niyə, əmi?

- Ona görə ki, qazı qızıynan, keçəl dazıynan, aşıq da sazıynan tanınar, oğul.

EŞŞƏK TAPILDI

Bir kəndlinin eşşəyi itir. Çox axtarır, tapa bilmir. Gəzə-gəzə gəlib qonşu kəndlərdən birinə çıxır. Görür ki, molla camaatı bir yerdə yığıb vəz verir. O, mollaya yaxınlaşıb eşşəyinin itməyini bildirir və buradakı camaatdan eşşəyi soraq eləməyi xahiş edir. Molla deyir ki, keç əyləş camaatın içində, söhbətimin sonunda soruşaram.

Kəndli əli noxtalı gəlib camaatın arasında əyləşir. Molla söhbətinə yekun vura-vura nəsihət edir ki, çamaat, həyatda sevgi olmasa, yaşayış olmaz. Heyvanlarda, quşlarda, insanlarda, hətta bitkilərdə belə sevgi var. Bunu eşidən kimi bir cüssəli adam ayağa qalxıb soruşur:

- Molla əmi, o sevgi nədir, ağacdamı bitir?

Molla dərhal eşşəyi itmiş kəndliyə:

- Oğul, eşşəyin tapıldı, dur noxtanı keçir başına, apar qapına...

SƏNİN OLSUN

Bir dəfə Daş Salahlı kəndinə iki molla gəlib çıxır. Əvvəlcə mollalar su istəyirlər. Ev yiyəsi görür ki, mollalar suyu içdilər, nəsə söhbəti uzada-uzada ocaqda qaynayan xörəyə baxırlar. Onları yeməyə dəvət edir. Xörək çəkilir. Amma mollalar xörəyə əl uzatmırlar. Ev yiyəsinin “niyə yemirsiniz?” sualına mollabaşı:

- Xörək bişirən arvadın əri varmı, ya duldur, - soruşur.

Ev sahibi mollanın fırıldağını başa düşür, amma özünü o yerə qoymur.

- Yox, - deyir, - molla qardaş, o iki qadından birinin əri üç ildir rəhmətə gedib.

Molla dərhal nəsihətə başlayır:

- Bəs siz necə müsəlmansınız. Allahın günahına batırsınız. Biz dul qadının bişirdiyi xörəyə heç əlimizi də vura bilmərik. Hələ bir yeməyi də təklif edirsiniz. Bu, haramdır. Bir Allah bəndəsi yoxdumu ki, bu saat bu dul qadının siğəsini onun adına oxuyaq. Sonra xörəyimizi yeyərik.

Sofuoğlu İsa deyir ki, molla qardaş, bizdə elə bir adam yoxdu, bəlkə sizin birinizə siğə edəsiniz.

Mollalar bir ağızdan:

- Nə olar, biz bu günahı boynumuza alıb, sizi xəcalətdən qurtararıq.

- Mollabaşı, bir sualıma cavab ver, sonra oxuyarsan, Allahın günahımı ağır olar, yoxsa insanın şilləsimi?

- Əlbəttə, günah, şillə...

- Onda insanın şilləsi sənin olsun, Allahın günahını özümüz çəkərik, - deyib mollaları şillələyir.

QARAYAZIDA ƏRDƏDİR

Otuzuncu illərdə Qazaxda kommunist partiyasının üzvü olmaq istəyən bir kəndlidən qəbul vaxtı soruşurlar:

- Xaricdə yaşayaş qohumun-zadın varmı?

- Var, qadan alım, niyə yoxdu. Əmim qızı o tay Qarayazıda ərdədir.

OĞURLUĞUN SONU

Kənddə oğru peyda olmuşdu, amma tutmaq mümkün olmurdu. Hər gecə bir ailənin hinindən ya toyuq, ya hinduşka, ya da qoyun, quzu yoxa çıxırdı.

Altı “dost” hər axşam əməliyyata çıxar, ələ keçirdiklərini hər gecə növbə ilə birinin evində yeyib-içirdilər. Bir axşam növbə Məhəmmədin evinə düşdü. Gündüzdən Yusifin toyuq-cücəsi “nişangaha” qoyulmuşdu. Qaş qaraldı. “Dəstə”dən iki nəfər nə qədər Yusifin evinin dörd yanında hərləndisə, toyuq-cücəni oğurlamağa girəvə tapmadılar.

Qarda, ayazda çox dolandılar. Nəhayət, saat on ikiyə işləyəndə kisədə başı üzülmüş on-on beş toyuğu Məhəmmədin mətbəxində yerə qoydular. Ev yiyəsi arvadına him elədi ki, tez ol, toyuqları təmizlə.

Arvad yarıqaranlıq mətbəxdə toyuqları yola-yola bir an diqqət kəsildi. Başını qaldırıb təəccüblə:

- Boy, ay Məhəmməd, - deyir, - dədəmin canı haqqı, bu bizim toyuğa oxşayır.

“Əməliyyat”dan gec qayıdanlardan acıqlı olan Məhəmmədi daha da hirs vurdu. Eyvanda duran balaları eşitməsin deyə, aşağı əyilib arvadın qulağına:

- Azz, gicləmə, tez ol, - deyir. Yetim Yusifindi. Uşaqlar indicə gətiriblər. Camaat acından qırıldı.

Arvadın könlü şübhə içində olsa da, əlinin sürətini artırır. “Dostlar” yedilər-içdilər, gecədən xeyli keçmiş evlərinə dağılırlar.

Məhəmmədin arvadı tezdən durdu. Ətəyini anbardakı arpa ilə doldurub, hinin ağzını açdı. “Cip-cip, cip-cip” - eləyib dəni ovuc-ovuc hinin ağzına səpdi. Amma nə qırıltı eşitdi, nə toyuq gördü. Heysiz halda hinin qabağında oturdu.

- Kül mənim başıma, - dedi, - özüm öz əlimlə malımı oğrulara yedirtdim.

Bu, kənddə oğurluğun son aqibəti oldu.

AĞILA EHTİYACIN VAR

Kasıb, baməzə Murad güzaranı xoş olan bir tanışının yanına gəlir, xeyli hal-əhvaldan sonra:

- Dost, sənə bir sualım var, - deyir, - icazə ver, ərz edim.

Muradın işi düşdüyünə və onunla hesablaşmağa gəldiyinə sevinib fəxr edən dostu qürurla deyir:

- Buyur, - dedi, əziz dost.

Murad:

- Tutaq ki, bir gün yol getdiyin vaxtı qarşına bir bağlama pul, bir də bir cam ağıl çıxdı. Sən onun hansını götürərdin?

Özünü gözütox göstərmək istəyən Muradın acgöz dostu:

- Əlbəttə, - deyir, - ağılı götürərdim, pul nəyimə lazımdır, pul əl çirkidi.

Murad isə gülümsünüb deyir:

- Hə... Görünür, sənin ağıla ehtiyacın var, mən isə pulu götürərdim, ona ehtiyacım daha çoxdu.

TURİST SƏFƏRİNDƏ

- Gördüyünüz bu şəhər xarabalığının üç min ildən çox yaşı var. Makedoniyalı İsgəndər bu şəhərin təkrarsız gözəlliyinə vurulub, Neron onu “Avropa mələyi” adlandırıb, Seneka onu nəğmələrində vəsf edib, Homer “mənim gözümün dərmanı bu şəhərdədir” - deyib. Onu ölkənin ədalətli padşahı öz əlilə tikib, ucaldıb. Gözü bu gözəlliyi götürməyən yadellilər dönə-dönə hücum edib şəhəri xarabazara çeviriblər. Şəhərimizin xilası uğrunda minlərlə insan həlak olub. Gələn yeni nəsl bu şəhərdən ayrılmaq istəməyib, ulu babalarının qəhrəmanlığını hər gün, hər saat görmək üçün xaraba qalan şəhərin dörd tərəfində indicə gəzib gəldiyiniz yeni şəhəri salıblar...

Gid danışırdı, özü də həvəslə, ehtirasla ulu babaları, qədim şəhərləri haqqında maraqlı məlumatlar verirdi.

Söhbətə yekun vurub üzünü qarşısındakı turistlərə tutdu:

- İndi söz sizindir, - dedi, buyurun, eşidirəm sizi, kimin sualı var?

Hamı susurdu. Birdən turistlərin arasından bir qadın əzilə-əzilə, nazqəmzə ilə:

- Mənim sualım var, - dedi. Gid sevincək olub:

- Eşidirəm, xanım, buyurun! Xanım ipək çətirini oynada-oynada:

- Siz deyə bilərsinizmi, burdan qayıdanda univermağı necə tez tapmaq olar?..

Gid gözləmədiyi sualdan sarsıldı. Rəngi qaraldı, bozardı. Nifrətlə qadına baxıb: “Allah, Allah məni belə nadanlardan xilas elə”, - deyib, hirslə uzaqlaşdı.

OĞRU QONAQ

Xaricdən qayıdan bir nəfərin qardaşı iş yerində hey lovğalanırdı ki, qardaşım bilirsiniz necə suvenirlər gətirib, iki göz istəyir tamaşa eləsin. İş yoldaşlarından biri qırsaqqız oldu ki, apar məni, baxım o suvenirlərə...

İş yoldaşını qardaşına təqdim etdi ki, sənin təəssüratını eşidib, suvenirlərə baxmaq istəyir.

Xaricdən qayıdan söhbət edə-edə suvenirləri göstərdi, keçib stol arxasında çay içə-içə söhbətlərini davam etdirdilər.

Ev yiyəsi tez-tez oğluna, “dərsə gecikərsən ha, oğlum” dedikcə uşaq da çavab verirdi ki, ata, sənin aldığın xarici stolüstü saatı qurmuşam, vaxt çatan kimi zənk vuracaq.

Saat iki tamamda zəng vurdu. Amma stolun üstündə yox, suvenirlərə baxmağa gələn qardaşının iş yoldaşının cibində.

OXŞARLIQ

Bir kəndli uzunqulağa minib vacib iş üçün yola düşdü. Xeyli getdikdən sonra günortaüstü Qarabulağın yanına çatdı. Yadına düşdü ki, ciyəri yanır. Uzunqulağı yolun ortasında qoyub, iyirmi-otuz metr aralıda olan bulağa endi. Doyunca su içib, əl-üzünü yudu. Çər dəymiş uzunqulaq cinsində bir xasiyyət var. Əgər onu yolun ortasında saxlasan dərhal geriyə dönüb gəldiyi istiqamətə baxacaq. Həmin kəndlinin uzunqulağı da belə elədi. Bunu hiss etməyən yolçu yenidən uzunqulağı minib yoluna davam etdi. O, qovhaqovla gün yaxan vaxtı gəlib Lerikin üstündəki hündür təpəyə çıxdı. Təəcüblə Lerikin gah ayağına, gah da başına baxıb dedi:

- Zəhrimara qalasan, Lənkəran, necə xaraba Lerikin özüdür. Elə bil bir almadır ikiyə bölünüb.

O vaxtdan Lerik camaatı oxşar iki şey görəndə gülümsünüb bir-birinə həmin kəndlinin son cümləsini təkrar edirlər.

KÜÇƏLƏRDƏ BÜZÜŞÜR

Qazaxlı el şairi Məmməd 50-ci illərdə Bakıya gəlibmiş. Şəhərdə üç-dörd gün bulvarı, parkı gəzib Qazağa qayıdanda qohum-qardaş onun başına yığışıb soruşurlar:

- A şair Məmməd, Bakıda nə gördün, şəhər camaatı necə dolanır?

- Bakıda iki cür dolanan var: Varlılar bulvarda öpüşür, kasıblar küçələrdə büzüşür - cavabını verir şair Məmməd.

GƏRƏYİN OLAR

Bir türk əsgəri naqanı sökür, amma yığa bilmir. Döyüşçülərdən biri Dəli Səməd ağanı[77] göstərib deyir.

- Apar ver, əcəmi kürdünə, o yığa bilər. Səməd ağa da bir anın içində naqanı yığıb qoyur cibinə. Türk təəccüblə deyir:

- Ağa neylədin, axı, naqan mənimdir. Dəli Səməd ağa:

- Yapmasını bilməyən, atmasını da bilməz. Naqan mənimdir...

Bu dəfə daha ciddi görkəm alıb: - Əfəndim, ətrafımız gavurlarla doludur. İstəyirsən ki, heç vaxt düşmənə hədəf olmayasan naqanın yapmasını da öyrən, bu, sənin həmişə gərəyin olacaq - deyib dilbir, dinbir türkün naqanını özünə qaytarır.

TƏKİ SİZƏ BİR ŞEY OLMASIN...

Əllinci illərdə kombayn sürüçüsünün köməkçisi işləyən Muradın qəfil açılan yay vurub bir gözünü çıxardır. Bir xeyli xəstəxanada müalicə olunub evinə qayıdan Murada kolxoz sədri baş çəkməyə gəlir. Sədr təsəlli verib deyir ki, heyif oldu, gözünün birini zəhrimar yay vurub çıxartdı.

Murad isə köksünü ötürüb:

- A sədr, - deyir, narahat olmağa dəyməz. Biz kolxozçuların it günündə yaşayışına elə bir gözlə də baxmaq kifayət eləyər. Təki sizin, milis rəisinin, raykomun gözünə bir şey olmasın...

NƏYİMƏ LAZIMDI

İlin yekununda kolxoz idarə heyətinin iclasında təltif olunanlar sırasında faytonçu Əsgərin də adını çəkirlər.

Əlini qaldırıb danışmaq üçün söz istəyən Əsgər kişi deyir:

- A sədr, qadan alım, bir məni başa sal görüm, mənə verdiyiniz medalın puluna ayda Eminin dükanından bir konyak alıb içə biləcəmmi?

- Nə konyak, nə pul, a kişi, sevin ki, hökumət səni təltif edir. Medala heç bir pul-zad verilmir. Vur yaxana, fəxrlə gəz.

Dəli Əsgər:

- Qadan alım, a sədr, - deyir, - çox sağ ol məni yada saldığına görə. Amma medalı mənə yox, Məmməd oğlu Əsədə ver, o gecələr də yuxusunda orden-medal, fəxri fərman görür. Bir konyak almağa gücü çatmayan medal mənim nəyimə lazımdı...

---

[77] Borçalı mahalının Qacımlı kəndindəndir. 1929-cu ildə bolşeviklərin təzyiqindən Türkiyəyə mühacirətə gedib. Alay komandiri Dəli Səməd ağa 1962-ci ildə orada vəfat edib. Məşhur Borçalı igidi Səməd ağanın /? - 1880/ nəvəsidir

BİL, AL

Pedaqoji institutda /indiki N.Tusi adına Universitetdə/ fotoqraf işləyən Elxan Kərimov bir gün professor Əhməd Seyidovun yanına gəlib deyir:

- Professor, mənim qohumumun sizdən imtahanı var. Xahiş edirəm, ona elə qiymət yazın ki, təqaüdə düşə bilsin, kasıb ailədəndir...

-Qohumuyun adı nədir?

-Bilal.

-Adının mənasını bilirsən?

- Yox, professor, bilmirəm.

- Bilal - yəni bil, al! Bilikli ol. İncimə dostum, sənin qohumun bilməsə qiymət almayacaq.

MOLLA MƏHƏMMƏDİN DÖRD HAZIRCAVABLIĞI

İyirmi il bundan əvvəl rəhmətə getmiş Molla Məhəmməd Əfəndiyevi Körpülü, Ləmbəli və Borçalı elinin camaatı bu gün də hörmət və ehtiramla xatırlayır. Hər dəfə xeyir-şər məclislərində adı anılan Məhəmməd dayının hazırcavablığı da yada düşür. Ləmbəli kəndində o vaxtlar azərbaycanlılarla yanaşı ermənilər də yaşayırdı.

Bir gün Məhəmməd dayı sovxoz bağından ot biçib gətirirmiş. Ot gətirdiyi eşşəyin yanında ayağına qırmızı bağlanmış qoduq da varmış. Sovxoz direktoru Sərkis Azatyan və partkom Sərkis Abovyan bağ yolunda onunla rastlaşırlar. Partkom direktora deyir ki, soruşacam görüm bu kişi qoduğun baldırına qırmızı ipi niyə bağlayıb. Direktor nə qədər deyir ki, lazım deyil, tanımırsan, buna da Molla Məhəmməd deyərlər, elə cavab verər ki, yeddi qatından keçər.

Partkom Sərkis isə dinc durmayıb yaxınlaşan Məhəmməd dayıdan soruşur:

- A kişi, siz musurmanlar bu qoduğun ayağına qırmızı ipi niyə bağlayırsınız? Hazırcavab Məhəmməd dayı hiss edir ki, namərd erməni ona sataşmaq istəyir.

- Görürsən ki, - deyir, - qoduq hələ balacadır, pionerdir. Böyüsün, sən boyda olanda partiyaya keçirəcəyəm. Onda qırmızı ipi də açacam.

* * *

Məhəmməd dayının iştirak etdiyi məclisdə cavan bir aşıq oxuyurmuş. Aşığın oxumağı, özünü məclisdə yüngül aparmağı onun xoşuna gəlmir. Məsələni başa düşən cavan aşıq onun xoşuna gəlmək üçün bir el bayatısı oxuyur. Bəndin sonunda "ölürəm, ölürəm, ay aman, ay aman" sözlərini bir neçə dəfə təkrar edir.

Buna heç dözə bilməyən Məhəmməd dayı üzünü aşığa tutub deyir:

- Ölmə, ölmə, ay oğul, cavansan, hayıfsan, qoy səni buraya gətirən ölsün.

Bir dəfə Ləmbəli Molla Məhəmmədin qapısına cavan bir molla gəlib çıxır.

- Ata, - deyir, - icazə ver, bir ağız Quran oxuyum.

- Oxu, - deyə, - Molla Məhəmməd razılıq verir.

Cavan molla beş-on dəqiqə oxuyandan sonra üzünü ona tutub:

- Ata, kimə bağışlayım? - deyir. İcazə ver, bu cavana bağışlayım, yəqin oğlundur.

- Yox, ona yox, buna bağışla, deyə Molla Məhəmməd ayaqlarına dolanan küçüyü göstərir.

- Küfr danışma, ata, çəhənnəmə gedərsən.

- Hardan oxumusan indi dediklərini?

- Qurbanı olduğum Qurani-şərifdən.

- Hansı Qurandan? Quranda elə şey yoxdur, qələt eləmə.

- Öz canım üçün, ordan oxumuşam, özü də Daşkənd çapından.

Molla Məhəmməd üzünü oğluna tutub:

- Qaç, - deyir, - sarı üzlü Quranımı gətir.

Uşağın gətirdiyi Quranı cavan mollaya verib:

- Al, - deyir, - buda Daşkənd çapı.Tap görüm, burda elə şey yazılıbmı?

- Onda səhv eləmişəm, İstanbul çapındadır.

- Qaç oğlum, qəhvəyi rəngli Quranı da gətir.

Uşaq o kitabı da gətirir. Məlum olur ki, mollanın oxuduğu İstanbul çapında da yoxdur. Cavan molla əlacsız qalıb deyir:

- Hörmətli ata, məni bağışla, indi anladım ki, kimin qapısına gəlmişəm, - deyib arxasına baxmadan uzaqlaşır.

HANSI ATANA

Molla Məhəmməd dua verib ayağa durdu.

- Allah rəhmət eləsin, - dedi, - son qəminiz olsun. Mərhum haqq dünyasına qovuşur. Bu dünya vəfasızdı, insanın gələni də var, gedəni də. İnsan torpaqdan, sudan və havadan yaranıb, ona da qayıdır.

Hüzürdə iştirak edən şərqşünas alim isə:

- Səhviniz var, molla əmi, - dedi, insan nə torpaqdan, nə sudan, nə də havadan yaranmayıb. İnsan meymundan əmələ gəlib. Bunu biz alimlər çoxdan sübut etmişik.

Müdrik Molla Məhəmməd təmkinini pozmadı. Gözucu alimə baxıb, “lənət şeytana” - dedi, qonaq olduğuna xətrinə dəymədi. - Görünür, məni tanımır. Yəqin başqa məclislərdə nadan mollalara çox rast gəlib, onları pərt eləyib. Məni də belələrindən hesab edir.

Meyit dəfn olunandan sonra camaat yenidən həyətə yığışdi. Molla Məhəmməd müharibədə şəhid olanlara, qürbətdə həlak olanlara, Məhəmməd peyğəmbərə və cəmi dünyadan gedənlərə dua verib salavat çəkdi.

Qonaq alim yenə öz təklifi ilə mollaya irad tutaraq dedi:

- Molla əmi, bəs atalarımızı niyə unutdunuz, bir salavat da onlar üçün deyin.

Hazırcavab Molla Məhəmməd:

- Hansı atana salavat deyim, oddan, sudan, havadan yaranan üçün, yoxsa meymundan əmələ gələnə... - deyib alimin cavabını verdi.

MALÇI
ƏHVALATLARI

Həmkəndlisi olsam da, əsl adını mən də bilmirəm. ağlım kəsəndən böyüyün də, kiçiyin də onu "Malçı əmi" deyə çağırdığını eşitmişəm. Kimi deyir ki, ömrü boyu mal-qoyun saxlayıb, kimi də onun Yolçu adlı qardaşı olduğunu söyləyir. Malçı, Yolçu, deyirlər, rəhmətlik atası istəyib ki, oğlanlarının adını bir-birinə yaraşdırsın.

Qəribə xasiyyətinə görə bəzi adamlar onu tünəkə, ürəyi yumşaq hesab edir, bəziləri də nəslində-kökündə keylik var, - deyir. Kim nə hesab eləyir eləsin, amma bircə onu bilirəm ki, doxsan beş illik ömrünü (maşallah, gözdəyməsin, bu saat ona heç kəs bu yaşı verməz, üzünə baxanda deyirsən 40-45 yaşındadır) naxır, ya da sürü otarmaqda keçirən Malçı babanın sözü-söhbəti artıq kəndimizdə zərb-məsələ dönüb. İl quraqlıq keçəndə: "yağış da yağmır, toz-torpaq yata" - demək əvəzinə, "yağış da yağmır, toz qalxa" - deyir. Ya da "evdə heç nə olmayanda yağ-pendir də yavanlıqdır" kimi qəribə, baş-ayaq danışığı var.

SƏNİN
QAYNATANDIR

Böyük oğlu Qulamın toyu olanda Malçı yaylaqda qoyun otarırdı.

Yoldaşları nə qədər deyirlər ki, sürünü biz otararıq, yeri get, ilk övladıyın toyunda iştirak elə. Amma Malçı "sürünü yiyəsiz qoyub gedə bilmərəm" deyib toya getmir.

El yaylaqdan qayıdandan bir neçə ay sonra Malçı yaylaqdan evə gəlir. Təzə gəlin qapı-bacanı süpürürmüş.

- A qızım, ev yiyəsi hanı? - deyə Malçı arvadı Zəhranı soruşur.

Gəlin onun üst-başına təəccüblə baxıb:

- Qonşuya gedib, bəlkə də gec gəldi, - deyir və ona əhəmiyyət vermədən yenidən qapını süpürməyə başlayır.

Malçı o yana, bu yana boylanıb harasa yoxa çıxır. Bir azdan Zəhra qonşudan qayıdıb gəlininə:

- A qızım, ağzım Saranın qeybətinə qarışdı.Məni soruşan-zad olmayıb ki...

- Olub, bir dilənçi gəlmişdi.

- Pay-pürüş verdinmi, a qızım?

- Yox, sap-sağlam, qıp-qırmızı bir kişiidi, kül başına, qoy gedib işləsin.

- Nahaq pay verməmisən, a qızım.

- Odey, yenə gəlir, - deyə gəlin qonşudan gələn Malçını göstərir.

Zəhra:

- Ay evi yıxılmışın qızı, sus, o gələn sənin qaynatandır.

EKİZLƏRİMİN ADI NƏDİR

Bir dəfə gecə saat dörd-beş radələrində yataqdan gələn Malçı baba qapısının ağzında durur. Nə qədər fikirləşir, evdəki ekiz qızlarından heç birinin adını yadına gətirə bilmir. Gəlib qonşusu Bəbir kişinin qapısını döyməli olur. Gecənin bu vaxtı Malçının kənddə görünməyi Bəbir kişini təşvişə salır.

- Nə olub, a Malçı, xeyir ola belə bivaxt?

- Heç, elə şey olmayıb, ay Bəbir, altı aydı kəndə ayaq basmıram, bu gecə evdə yatmaq fikrinə düşdüm, amma bir saatdı qapının ağzında durub fikirləşirəm, heç cür bizim ekizlərin adını yadıma sala bilmirəm. Sən bilərsən, a qonşu, bizim ekiz qızların adı nədi?

Bəbir kişi xeyli deyinir, lakin kiminlə danışdığını xatırlayır və Malçının qızlarının adını deməkdən başqa çarəsi qalmır.

DÜZ AĞAC AXTARIRAM

Nadir hallarda kənddə-kəsəkdə, evdə-eşikdə görünən Malçı bir günorta üstü evə gəlib çıxır. Arvadı Zəhranın yuduğu paltarı əyri-üyrü bir kötüyün üstünə sərdiyini görüb:

- Ora niyə sərirsən? - deyir.

- Neyləyim, hara sərim bəs, sən də adını kişi qoymusan, bu iki addımlıqdakı meşədən bir düz ağac, iki də dirək kəsib gətirmirsən ki, qapıda paltar zivəsi çəkək.

Heç vaxt odun, ot yığmaqda səriştəsi olmayan, ömrü boyu qoyun otaran Malçı baltanı götürüb meşəyə yollanır.

Aşağıdan baxır, görür ki, ağac düzdü, başını qaldıranda görür ki, yox, ya ortasında, ya da ucunda bir az əyriliyi var. O dəqiqə yadına düşür ki, Zəhra dübbədüz ağaç gətirməyi tapşırıb. Kəsməyib keçir, düz ağac axtarır. Beləcə bütün günü qan-tər içində meşəni dolanır, amma düz ağac tapa bilmir.

O qədər axtarır ki, gəlib meşədə odun yığan fırıldaq Teymura rast olur. Onun yığdığı odundan bir ağacı göstərib deyir:

- A Teymur, bu ağac düzdürmü? Teymur hərif tapdığına sevinir:

- Əlbəttə, dübbədüzdü, görmürsənmi?

- Bunu mənə satarsan?

- Sataram, niyə satmıram, on manat ver, götür apar.

Malçı sevincək olub, dərhal on manat verib meşədə ağac alır.

TANIMAQ ÜSULU

Bir gün Malçı qonşuya gəlir. Qonşu, şəhərdə yaşayan alim oğlu ilə söhbət edirlər. Alim dünya hadisələrindən - kosmosdan, dünya əhalisinin artımından, müasir texnikadan xeyli danışır. Görür, Malçı heç bunun söhbətinə fikir vermir,

qaynayıb qarışmır. Hiss edir ki, bu söhbətlər heç onun ürəyincə deyil, başlayır təsərrüfatdan, kəndin güzəranından söhbət açmağa.

- Malçı baba, yenə qoyun otarırsan?
- Yox, oğul, bu il naxıra gedirəm.
- Nə qədər mal otarırsan?
- Nə qədər, necə yəni nə qədər, maldı da. İnəyi də var, düyəsi də, buğası da...
- Yox e, sayı neçədir?
- Sayı, o nədi? Bilmirəm...
-Bəs sayını bilməyəndə, itib-batanı necə hesablayırsan?
- Mən say bilmirəm, elə-belə. İnəyin kimisini rəngi ilə, kimisini buynuzu ilə, kimisini də boy-boxunu ilə tanıyıram...

ATA VƏ OĞUL

Ata: Dərsdən nə tez gəldin?

Oğul: Bu gün Mirzə Cəlil yaradıcılığını keçirdik. Müəllim dedi ki, "dərsdən qaçmayan müsəlman deyil".

"TUTARLI" CAVAB

Müəllim: Şekspir məşhur "Hamlet" faciəsini nə vaxt yazıb? Şagird: Hələ sağlığında...

İKİ DOSTUN GÖRÜŞÜ

- Eşitdim, institutu qurtarmısan, necə keçdi, çətin deyildi ki?
-Niyə çətin olur, sağ olsun dayım, birgə qurtardıq.
-Ona necə, diplom verdilərmi?
-Yox, qiyməti o aldı, diplomu mən.

* * *

- Dostum, sən "iki" alardın. Xeyir ola, indi "dörd", "dörd" gedirsən?
- Düzü, sizdən utanıram. Yoxsa dayıma deyərdim, hamısını "beş", "beş" yazdırardı.

* * *

Uşaqlıqdan bir gözü şikəst olan "zörən-təbib" şairin döymədiyi redaksiya qapısı qalmamışdı. Yalvar-yaxarla, tanış-bilişlə ildə bir-iki şer zorla çap etdirə bilirdi.

Bir dəfə dostu ona dedi:

- İstəyirsən, səni tarixə salım?
- Əlbəttə, istəyirəm, - deyə o, sevinclə bildirdi, - ömrüm boyu sənə minnətdar olaram. Vallah, adına gözəl bir poema da yazaram.

- Onda icazə ver, qalan bir gözünü də mən vurub çıxardım. Ol iyirminci əsrin Homeri...

* * *

Mətbuatda bircə şerlə çıxış edən tələbə dostum Özünü o qədər tərifladi ki, durub Bakının xəritəsini götürdüm.

- Nə axtarırsan?

- Sənin heykəlinə yer - dedim.

* * *

Qız: Toyumuz nə vaxt olacaq? Oğlan: İşlədiyim mağazaya nə vaxt "importnı" mal gəlsə...

* * *

Redaktor bir yazıçının hekayəsini geri qaytarmaq istəyirdi.

Müəllif: - Qüsurunu deyin, nə üçün qaytarırsınız, - deyə etiraz edir.

Redaktor: - Gecə çay kənarında qəhrəmanınız düşünərkən onun üzünün cizgilərini pis işləmisiniz.

Müəllif: - Gecə qaranlıq olduğundan üzünü görə bilmədim.

* * *

İki dostdan biri əliaçıq, digəri hədsiz dərəcədə xəsis olur.

Bir gün əliaçıq xəsis dostundan soruşur:

- Sən nə vaxt əlini cibinə salırsan?

- Heç vaxt.

- Niyə?

- Cibim çirklənər.

* * *

Oğlan sevgilisinə:

- Əzizim, mən bütün qızları səni sevdiyim kimi ürəkdən sevirəm. Sən mənim ürəyimə necə baxırsan?

Qız: - Karvansaraya baxan kimi...

* * *

Bir tənbəl qonşusunu yanına çağırıb deyir:

- Al bu iki manatı, mənə həyətdə iki metrlik yer qaz.

Qonşu: Bu, sənin nəyinə lazımdır? Sən ki, heç bir şeylə məşqul olmursan?

Tənbəl: Ölmək istəyirəm.

Qonşu: Baho onda havayı qazaram.

İKİ "SAVADLI" TƏLƏBƏNİN SÖHBƏTİ

- Neçə aldın?
- Kəsdilər.
- Nə düşmüşdü?
- Çexovun "Don Kixot" şeri.
- Əzbər deyə bilmədin?
- Məzmununu danışırdım, razı olmayıb dedi ki, əzbər söylə.
- Gör nə "savadsız" müəllimlər var.

LOVĞA ŞAİR

Bir gənc şairdən soruşdular ki, müasirlərimizdən "Şahnamə"yə bərabər əsər kim yaza bilər?
O, lovğa-lovğa:
- Mən, - dedi.
- Necə yaradarsan?
- Məni zindana atın, yanıma da qoca bir kişi salın, ondan da yaxşı əsər yazaram.

Onun istəyinə əməl etdilər. İllər keçdi... Qoca həyatla vidalaşdı, gənc, lovğa şair isə lap qocalıb əldən düşdü. Onu götürüb bayıra atdılar. Bu miskin, yazıq qocaya rast gələn bir şair onun həyatından "Müsibətnamə" adlı məşhur bir əsər yazdı.

DƏNİZÇİ ÖZ SEVGİLİSİ İLƏ SAHİLDƏ

Qız: - Sən səfərdə olanda mən həmişə ağlayırdım.
Oğlan: - Mən yenə də səfərə çıxsam ağlayacaqsanmı?
Qız: - Daha yox, axı... Zaqsa getmişik.

CƏRİMƏ

Tamaşa salonunda papiros çəkən bir nəfəri nəzarətçi 30 qəpik cərimə edir.

Tamaşaçı 90 qəpik verir. Nəzarətçi bunun səbəbini soruşanda tamaşaçı deyir: ikisini də çəkəcəyəm.

İKİ NƏFƏRİN SÖHBƏTİ

- Bağışlayın, siz hansı sexdə işləyirsiniz?

- Mexaniki yığma sexində.
- Axı, mən də həmin sexdə işləyirəm, amma sizi heç orada görməmişəm.
- Görə də bilməzsiniz. Dayım həmin sexin rəisidir.

MÜDİR VƏ MÜAVİN

Mudir: Sən bu isti yayı, boranlı qışı harada keçirirsən ki, yumurta kimi ağappaqsan?

Müavin: Sizin kölgənizdə.

ZƏHMƏT OLAR

Müəllim:

- Dərslərini yaxşı oxumadığına görə səni sinifdə saxlayacağam. Şagird:
- Onda sizə zəhmət olar, müəllim, mənə on il əvəzinə on bir il dərs deyəcəksiniz.

HİYLƏ

Üç gün əlinə ov keçməyən canavar neçə dağ-dərə, neçə çay keçib gəlmişdi. O yorğun-yorğun açıq bir təpəyə çıxdı. Bərəkət ətri gələn çöllərin havasını ciyərdolusu uddu. Yaşıl ormanların arasında görünən kəndə yırtıcı nəzərlə baxıb, tükürpətici səslə yazıq-yazıq zarıdı. Aclıq onu bərk təntitmişdi. Aşağıda, düzəngahda bir kəndlinin mal-qara, qoyun-keçi otardığını görüb həsrətlə udğundu, zingildəyib yerində var-gəl elədi. Keçmiş tarla olan düzəngahın yuxarı başında açıqlıq qurtardı. Ordan bəridə xırda meşə və tikanlıq zolaq kimi keçib günbatan tərəfdəki uca dağa qədər uzanırdı. Gövşənliyin sağyamacı qaranlıq meşəli bir dərə idi. Canavar bir göz qırpımında meşə boyu irəlilədi. Kəndlinin heyvanlarını izləyə-izləyə sinib onları pusdu. Fikirləşdi ki, inək buynuzlüdur, ona bata bilmərəm, dana dəcəldir, məni görən kimi böyürüb özündən çıxacaq, sahibini duyuq salacaq. Camış zırramadır, gönü də qalındır. Üç günlük aclıqdan sonra qüvvəm qalıb ki, ona yaxın düşə biləm. Keçi bicin biridir, mənə quyruq verməz. Yenə sürünün sağ yanında otlayan qoyuna yaxınlaşım, bəlkə onu hərifləyə bildim.

Canavar sinə-sinə tikanlığın arası ilə qıraqda otlayan qoyuna yaxınlaşdı. Şirin dillə:

- Salam, necəsən, a ceyran bala? - deyə soruşdu.

Şirin-şirin otlayan qoyun səs eşidib tikanlığa diqtətlə baxdı.

- Kiminləsən, - dedi, - burda ceyran nə gəzir.
- Səninləyəm, sən ceyrən deyilsən?
- Yox mən qoyunam.
- Yox e, qoyun nədi, sənin adın ceyrandı, insanlar paxıllıqından sənə qoyun adı veriblər. Elə əsil ceyran sənsən. Gözlərin gör necə də qəşəngdir, adam sənin baxışlarından məst olur. Sənin ayaqlarındakı zəriflik gör heç ceyranda varmı? Bəs

yunun, hələ onu demirəm. Belə yumşaq, dümağ yun ceyranda ömür boyu billah olmayıb, olmayacaq da...

Qoyun tərifdən lap xoşhal oldu. Vüqarla bir ayağına, bir bədəninə baxıb, quş kimi yerində tullandı.

- Mən ömrüm boyu ceyranlarla gəzmişəm, onlarla da dostam. Mən heç vaxt onları belə cəld, qəşəng görməmişəm, - deyib canavar qoyunu yenidən ağızdolusu tərifləndi. - Mən başa düşmürəm, - dedi, siz niyə o acgöz insanlarla dost olursunuz ki, hələ gül kimi ceyran adınızı dəyişib qoyun qoyublar. Siz onlara süd, bala və yun verirsiniz, üstəlik də sizi təhqir edib adınızı qoyun deyə çağırırlar. Kefləri duranda da bıçağı götürüb cumurlar canınıza...

- Bəs nə edək, bizə bir yol göstər, canavar qardaş...

- Gəlin bizimlə dost olun, biz canavarlarla gəzib dolanın, çətinə düşəndə biz sizə arxa olaq, siz də bizə - deyib canavar onu şirin dillə tikanlığa çağırdı. Qoyun zərif ayaqlarını şəstlə irəli atıb, vuqarlı addımlarla canavara doğru getdi.

- Bu gündən sənlə qardaşam, tərk etdim o vəfasız, yırtıcı insanları, - dedi, əl verib canavarla görüşdü.

Canavar:

- Gəl aşağı enək, - dedi. - Gəl, a ceyran balası, yoxsa paxıl sahibin görüb dalımızca düşər, odlu silahı ilə bizi qanımıza qəltan eləyər.

Onlar qoşa, deyə-gülə dərəyə endilər. Qoyun şehli dərənin təzətər otlarından yeyir. Canavar isə ehtiyatla o yan - bu yana baxa - baxa ona şirin, yağlı sözlər deyirdi. Nə gələn, nə gedən görməyən canavar atdanıb qoyunun yağlı quyruğundan bir parça qopartdı. Bir göz qırpımında onu içəri ötürüb qoyunun xirtdəyindən yapışdı.

Gözü kəlləsinə çıxan qoyun:

- Neynirsən - dedi. - ağrıdır axı...

- Üç gündü acından ölürəm, sənin dalınca neçə dağ, neçə çay keçib gəlmişəm, yeyəcəm səni, ay ceyran bala.

Qoyun son nəfəsində:

- Hə... indi bildim ki, qoyunam ki, qoyun... sözünü zorla deyə bildi.

Avqust, 1987-ci il.
Truskovets şəhəri.

HƏSƏNİN İKİ ƏMƏLİ

Bir neçə gün idi, Həsən nahara gələndə anası Humay xala şikayətlənib deyirdi:

- Ay bala, bu ağzı yanmış çalağan yenə toyuğun iki cücəsini apardı. Ay oğul, bu gün-sabah camaat beçə çığırtması yeyəndə biz də ağzımızı açıb baxacağıq. Sən atanın goru, buna bir əncam çək. Ora bax, toyuq da dəli kimi gəzir. On gün əvvəl arxasınca sel kimi axan cücədən ikicəciyi qalıb.

Həsən:

- Neyləyim ay ana, - dedi, - iş-gücümü buraxıb çalağan qovlamayacağam ki...

Çalağan əlindən yanıqlı arvad yenidən şikayətləndi:

- Tutlu dərədə, deyirlər, ağzı yanmışın yuvası var, qırt düşüb hər günorta acıxanda durub özünü vurur bizim cücələrə.

Həsən ağlına gələn qəfil fikirdən özü də gülümsündü. Səhərisi o, nahara həmişəkindən tez gəlib çalağanı gözlədi. Bir az bekar durmaqdan bezikib darvazanın qopmuş taxtasını mıxlamaqla məşğul oldu. Bir gözü isə qapıda-bacada hərlənən ikicə cücəli toyuqda idi. Həsən toyuğun qiyyə çəkən səsinə başını qaldırdı. Amma gec idi. Tüfəngə əl atana kimi çalağan cücəni havada çığırda-çığırda aparırdı. Tənbəllik eləməyən Həsən çalağanın dalınca qaçdı. Göydə çalağan, yerdə Həsən elə bil kros yarışına çıxmışdılar.

Tutlu dərənin başı üstündə dövrə vuran çalağan süzə-süzə uca bir ağaca qondu. Ani olaraq ətrafına göz gəzdirib, qanadlarını şappıldatdı. Boğazını dik tutub dimdiyində yazıq-yazıq civildəyən cücəni bir nəfəsə uddu. Yenidən qanadlarını şappıldadıb havaya qalxdı, dərəni yarım dairə ilə süzüb güllə kimi gəlib yuvasına qondu.

Qalınlıqda Həsəni güdən çalağan irəli yeridi. Çalağan Həsənin ağacın başına dırmaşdığını görüb pırıltı ilə uçub başqasına qondu. Yuvaya çatan Həsən başındakı nimdaş kepkasını çıxartdı, yumurtaları bir-bir kepkasına yığdı. Ehmallıca aşağı düşüb, birbaşa evə gəldi.

Həftədə bir dəfə gəlib baxırdı ki, görüm çalağan nə eləyir. Hər dəfə gələndə ağacın ətrafında dümağ çalağan tükünün çoxaldığını görürdü. Yumurtaları gecə-gündüz çalxalayan çalağan bir şey çıxarda bilmirdi. Onun sinəsi, qarnının altı sürtülməkdən ətcəbala olmuşdu.

Üçüncü həftə gələndə Həsən çalağanın başını aşağıya sallamış gördü.

Bişmiş yumurtalardan bala çıxarda bilməyən çalağanın ürəyi partlayıb ölmüşdü...

* * *

Həsən hövlnak yerindən qalxdı. Yuxulu gözlərini ovuşdurub:

- Nə olub, ay ana, qoysana yataq, gecənin bu vaxtı nə qara-qışqırıq salmısan?

Arvad qorxunc və qırıq səslə:

- Damdan,- dedi,- yaman tappıltı səsi gəlir. Bir dur bax, deyəsən oğru...

Həsən tez-tələsik geyindi, çırağa əl atıb yandırdı. Çöldə it kəsik-kəsik hürür, gah da vahimə ilə ulayırdı. Sahibini görən kimi ona yaxınlaşdı, üzünü dama doğru tutub daha da bərkdən hürməyə başladı. Şübhələnən Həsən ehtiyatlı addımlarla bir əlində çıraq, o birində yaba damın ağzına yaxınlaşdı. Qapı axşamdan necə bağlanmışdı, eləcə də qalırdı. Bir istədi geri qayıtsın, içəridə bərk tappıltı eşidib dayandı. Qapıya lap yaxın durub dinşədi. Mırıltı və bərk ayaq səsləri eşidib qorxa-qorxa qapını azca araladı. Çırağı irəli tutub bir-birinin üstünə qalaqlanmış qoyun-keçinin ancaq leşini gördü. Sağ tərəfdə isə işıqdan qorxub dibə qısılmış canavarın iki gözü par-par parıldayırdı.

Qanıqara Həsən zirzəni keçirib geri qayıtdı. Gecə paltarında qarşısına gələn arvad təşvişlə:

- Nə olub, a bala, - dedi, - o nə idi elə damda gumbuldayan?

- Heç, nə olacaq, damın bacası açıq qalıb, canavar ordan düşüb qoyun-keçinin hamısını şil-küt eləyib. Yeri Muradı oyat, gəlsin görək...

Əhvalatdan halı olan Murad:

- Nəyi gözləyirsən, - dedi, - tüfənglə vur ölsün, yoxsa çıxıb qaçar,

- Yox, ay Murad, mən onu elə asan ölümlə öldürməyəcəyəm. - deyib Həsən güclü əllərilə dörd barmaq yabanın ortadan iki barmağını qırıb atdı.

İçəri girdilər. Vəhşi qurd dəhşətli gözlərini bərəldib, özünü damın divarlarına çırpırdı, amma çıxmaq heç cür mümkün deyildi. Həsən yaxınlaşıb yabanı onun boynuna saldı, bərk sıxıb onu divara qısnadı.

- Murad, tez ol, təkənin boynundakı zınqırovu aç, bağla bunun boynuna.

Murad qoyun-keçi leşlərinin arasında təkənin cəmdəyini tapdı. Zınqırovu açıb, əli əsə-əsə canavarın boynuna bağladı.

Həsən:

- Bərk bağladınmı? İndi kənara dur, qoy çıxıb getsin.

Canavar bir göz qırpımında açıq qapıya şütüdü. Zınqırovu səslənə-səslənə çöllərə tərəf üz qoydu. Duyuq düşən kənd itləri ağız-ağıza vermişdi. Həsənin iti isə onun quyruğunu azca dişləyə bilmişdi.

Zınqırovlu çanavar altı ay heç yerdə özünə yer tapa bilmədi. Haraya, hansı sürüyə yem üçün hücum edirdisə, zınqırovunun səsi onun gəlişini özündən qabaq xəbər verirdi. Duyuq düşən çoban onu gülləyə basır, kənd itləri qovub örüşlərdən çıxarırdı. Özünə heç yerdə yem tapa bilməyən yalquzaq canavar arıqlayıb əldən düşdü.

El yaylağa keçəndə çobanlar onu Odun dağının yamacında uzanıb ölmüş gördülər. Bir dəri, bir sümük olmuş canavarın boğazından zınqırovu açıb ayrı bir təkənin boğazına bağladılar.

O vaxtdan bizim obada təzə bir deyim yarandı. Kimin kimdən xoşu gəlmirsə, o dəqiqə yarızarafat, yarıxoş deyir: “Mənə dəyib dolaşma, yoxsa boynuna Həsənin təkəsinin zınqırovunu bağlaram”.

31 avqust, 1981-ci il

Ş.NƏZİRLİ:
“MƏNİM ÜÇÜN ƏNQİYMƏTLİ MÜKAFAT GENERALŞIXLİNSKİ MÜKAFATIDIR...”

- Şəmistan müəllim, əvvəlcə mükafata layiq görülməyiniz münasibətilə Sizi təbrik edirik.

- Çox sağ olun. Mükafat və ya hər hansı təltifat bəzi adamlarda arxayınçılıq yaradır. Xoşbəxtlikdən bu məndə yoxdur. Mənim üçün ən əziz, general Şıxlinski

mükafatıdır. Onu alanda sevindim. Amma tənbəl olmadım. Ondan sonra daha yaxşı işlədim.

- İlk qələm məhsulunuz, ilk tədqiqat əsəriniz hansıdır?

- Hərb tarixindən soruşursunuz, yoxsa Səməd Vurğundan?... Əlbəttə, general Əliağa Şıxlinski və ilk təyyarəçimiz Fərrux ağa Qayıbovdan yazdığım oçerklərdir. Hərb tarixi barədə ilk kitabım 1982-ci ildə "Gənclik" nəşriyyatında 10 min tirajla nəşr olunub. Bu kitabımda ilk topoqraf-general İbrahim ağa Vəkilov, 4 dəfə "Georgi" ordenli Sayad bəy Zeynalov haqda və partizan Mehdi Hüseynzadə barədə sənədli hekayələrim və oçerklərim nəşr olunub. Partizan Mehdidən başqa adı çəkilənləri Azəbaycan oxucusuna ilk dəfə mən tanıtmışam. Ən çox da topoqraf-general İbrahim ağa Vəkilov haqqında başım ağrılar çəkib. O vaxtkı senzor "qılıncı" az da olsa, bu oçerkimi yaraladı ki, niyə ("Hərbi bilik" curnalının redaktoru həmzəli İlyasın suallarına tədqiqatçı-publisist, polkovnik-leytenant Şəmistan Nəzirli çavab verir.) müsavat generalı haqqında yazmısan. Rəhmətlik əmioğlu Günyaz Nəzirli dadıma çatmasaydı, "senzor" onu tamam məhv edərdi. Kitabımın sevinci isə çox böyük və əvəzsiz oldu. Mərhum xalq yazıçısı İsmayıl Şıxlı və gözəl ziyalı alimimiz İsrail Mustafayev məndən çox sevinirdi. Axı, bu kitabda general Vəkilovun ailəsinə dahi Lev Tolstoyun yazdığı məktub da vardı. Tolstoy məhz bu məktubunda müsəlman dinini misilsiz dərəcədə ağıllı, elmi din adlandırırdı. Bu hadisə indi də bizim din xadimləri arasında böyük iftixarla danışılır. Və nəhayət, müharibədə həlak olmuş atam Əmiraslan haqqında da böyük silsilə hərbi oçerklərim nəşr olunub. Bəlkə də ona görə "Qəribə talelər" kitabım mənə çox əzizdir...

- Xahiş edirik tam səmimi olasınız. həyatınızın bir çağında şer yazmısınızmı?

- Yazmışam, ilk gəncliyimdə. Amma üzə çıxası deyil o şerlər. İlk şerimi, əlbəttə, ciddi şerimi əmim İmran Qandalı oğluna həsr etmişəm. O, Krımda topuğundan yaralanmışdı. Müharibədən çox sonra da yaraların sızıltıları onun canını göynədirdi, ağrıdırdı. Mən uşaq da olsam, bütün bunları görür və hiss edirdim. Uşaq vaxtıda, sonralarda qohumlarım arasında onun kimi ikinci xeyirxah adam, təmənnasız yaxşılıq edən şəxsiyyət görməmişəm. Onun məndə əziz bir foto-şəkli var. İmran əmim 1955-ci ildə Gürcüstanın Sadaxlı kəndində böyük Səməd Vurğunla görüşüb, bu şəkil oradan yadigar qalıb. Dünyasını dəyişən yaxşı adamları xatırlamaq, yada salmaq insana can yanğısı gətirir. Əzizinin ruhunu da şad edir. Bunları sizə danışıram, məni ağlagəlməz kövrək hisslər ağuşuna alır. İndi İmran əmim və Nəzirli nəslim haqqında ciddi düşünürəm, Allah qoysa onlara layiq bir şey yazmalıyam...

Gürcüstan ezamiyyətindən təzəcə qayıtmışam. Azərbaycan hərb tarixi və sərkərdələrimiz haqqında xeyli yeni material gətirmişəm. Uzun illər axtardığım Borçalı general Yadigarov qardaşlarının sənəd və foto-şəkillərini tapdım. Babam Süleyman katda Alı oğlu Nəzirlinin foto-şəklini həmin fonddan tapmağım mənim üçün ölçüyə gəlməz dərəcədə sevindirici oldu.

Babam Süleyman katdanın, Nəzir Alıoğlunun Yadigarov qardaşları ilə dostluğunu hələ uşaq vaxtı nənəmdən, anamdan və əmilərimlən çox eşitmişdim. Nə yaxşı, tələbə vaxtı yay və qış tətillərində kəndə gedəndə mərhum Məmiş

əmimin nəslimiz haqda danışdığı əhvalatları yazıya almışdım. Beş şagird dəftəri həcmindədir. Süleyman koxanın ermənilərlə döyüşü, çətin illərdə el-obaya dayaq olması, nəslim haqda hadisələr, olmuşlar böyür-başımda fırlanır. Mənə dinclik vermir...

- Mütaliəniz neçədir? Son vaxtlar hansı ədəbi əsərləri oxumusunuz?

- Elə əsərlər var ki, onları ildə bir dəfə oxusam da doymuram. Qəribədir, elə bil ilk dəfə oxuyuram. Məsələn, Anatoli Zöhrabbəyovun "Odlu diyar", Y.V.Çəmənzəminlinin "Qan içində", Lev Tolstoyun "Hacı Murad", R. Covanyolinin "Spartak", İ.Şıxlının "Dəli Kür", Ç.Hüseynovun "Fətəli Fəthi" və sairə. Bunlar mənim dönə-dönə oxuduğum əsərlərdi. Hətta L.Tolstoyun "Hacı Murad"ını oxuyandan sonra gündəliyimdə yazmışam ki, belə əsəri ancaq və ancaq Allah yaza bilər. Bu, mənim şəxsi fikrimdir. Kim etiraz etsə, qoy əsəri oxuyub oradan bir səhv tapsın. Axı, Allah da heç vaxt səhv etmir, əksinə, səhv edib yoldan çıxanlara düz yol göstərir... Tolstoy da və adını çəkdiyim başqa yazıçılar da, "Ovod"un müəllifi Etel Lilian Voyniç də bizə sənədli əsəri səhvsiz, şişirtməsiz yazmağı tövsiyə edirlər. Bu mənada "Dəli Kür"ü və "Qan içində"ni ədəbiyyatımızın zirvəsi sanıram. Bu əsərlərdə yersiz söz, artıq, gərəksiz epizodlar yoxdur...

Son illərdə pullu adamların yazdığı şer və nəsr "əsərlərini" oxuya bilmirəm. Onlarda ağız tamı yoxdur... Ona görə ancaq və ancaq klassikləri oxuyuram. Məsələn, Əbdürrəhim bəy Haqverdiyevin bircə hekayəsini son illər yazılan 20 "kitaba"dəyişmərəm.

- Jurnalist-yazıçı Şəmistan Nəzirli daha çox hərbi tədqiqatçı olaraq tanınır. Yəqin buna televiziyada hazırladığınız "hərb tariximizdən" verilişinin əhəmiyyətli təsiri olub. Siz kimsiniz - jurnalist-yazıçı, yoxsa hərbi tədqiqatçı?

- Birinci növbədə jurnalistəm. Bu sənətimə vəfasız ola bilmərəm. Mənə oxucularım görüşlərdə çox epitetlər deyirlər. Hətta alim deyənlər də var. Bir neçə dəfə məktəblilərlə görüşdə müəllimləri inandıra bilmədim ki, mən alim deyiləm, müdafiə-zad eləməmişəm..

İkinci növbədə hərb tarixinnin və Səməd Vurğunun ömrünün tədqiqatçısıyam. Yazıçının romanları və povestləri olar. Mənim isə iki povestim - "Qoridən gələn qatar" və "Qarxunlu Əşrəf bəy" sənədli povestlərim var. Qalanı sənədli hekayələr, tədqiqat əsərləri və oçerklərdir. İndiyə kimi 16 kitab yazmışam bu mövzuda...

- Əsərləri stolüstü kitab hüququnu qazanmış ("Azərbaycan generalları" və "Cümhuriyyət generalları" kitablarınızı nəzərdə tuturuq) tədqiqatçı kimi Vətən, yəni Qarabağ müharibəsi haqqında nə deyə bilərsiniz?

- Bircə qənaətim var: silaha sarılmasaq, düşmən bizə torpaq verməyəcək. Donuz darıdan özbaşına çıxmaz, onu döyməklə çıxartmaq olar. Mən Qafqaz qartalı, yenilməz sərkərdə Şeyx Şamil haqqında çox mütaliə edirəm. İnamla deyərəm ki, mərhum akademik İmam Mustafayevdən sonra bəlkə də yeganə adamam ki, Şamil haqqında güclü ədəbiyyata malikəm. Hansı şəhərə ezamiyyətə gedirdimsə (sovetlər vaxtı), bukinist kitab mağazasında Şeyx Şamil haqqında kitabları baha da olsa alırdım. Şeyx Şamil haqqında kitab almaq üçün dönə-dönə Dərbəndə getmişəm, son illərdə...

Demək istəyirəm ki, Şeyx Şamil yazır ki, silahla zəbt olunan ana torpağı qanla qaytarmaq olar...

- Dediklərinizdən sonra çağdaş Azərbaycan xəritəsini necə görürsünüz?

- İnləyən bir torpağı görmürəm. Onun əzabını, iniltisini ürək ağrısı ilə eşidirəm. Mən Qacarlar nəslinin tarixini yenidən yazmışam, çap prosesindədir. Qismən də olsa, bu sualınızın cavabı orda var. Oxucu özü də görəcək ki, 70 il qarasınca deyinib bəyənmədiyimiz Qacarların hərbçi oğulları nələrə qadir olub.

- Siz Azərbaycan hərb mətbuatı tarixinə də yaxşı bələdsiniz...

- Hərb tariximizin dünəni var, onun general Şıxlinskinin və S.Mehmandarovun 1918-1940-cı illərdəki çıxış və məqalələrindən öyrənməliyik. Bu gün isə polkovnik-leytenant, tarix elmləri namizədi Mehman Süleymanov ciddi məşğul olur. O illərin ikinci cəfakeş tədqiqatçısı Həsən Səmədoğludur ki, ona ciddi qayğı lazımdır. Belə ki, pis çap olunur. Təəssüf ki, indiyə kimi tədqiqatı kitab şəklində nəşr olunmayıb. Pis çap olunmaq yaradıcılıqda və tədqiqatda durğunluq yaradır. Yalnız "Hərbi bilik"də çap olunmaqla oxucu qazanmaq olmaz...

- Siz "hərbi bilik" jurnalına da toxundunuz. "Hərbi bilik" bir hərbçi və oxucu kimi Sizi qane edirmi? Ümumiyyətlə, "hərbi bilik" jurnalı haqqında təəssüratınız..

- Mən son iki ildə "Xalq qəzeti"ndə, "İki sahil"də, "Səhər" və başqa mətbuat orqanlarında verdiyim müsahibələrdə "Hərbi bilik" haqqında müsbət rəyimi demişəm. Ən çox televiziyadakı çıxışlarımda və ayrı-ayrı görüşlərdə bu jurnal haqqında rəyimi bildirmişəm. Və əlavə eləmişəm ki, jurnal pis yayılır, baxmayaraq maraqlı materiallar dərc edir...Bu jurnal mənə çox doğmadır. Ona görə ki, 1992-ci ildə ilk dəfə mən təklif eləmişəm ki, belə jurnal nəşr edək.

Onu 1922-ci il sentyabrın birində dünya şöhrətli sərkərdəmiz Əliağa Şıxlinski yaradıb. Onda mənə etiraz edənlər də oldu ki, belə bir jurnal azərbaycanca yox, rusca Moskvada nəşr olunub. Mən də arxivdən bir illik nömrələrin hamısını alıb gətirdim, sübut üçün. İlk sayında (1993-cü il № 1-də) 4 yazı ilə çıxış etdim. Bu jurnalın yeni nəşri general Əliağa Şıxlinskinin ruhuna böyük ehtiram oldu.

Jurnalda qüsur görə bilmirəm. Mən ona Əliağa Şıxlinskinin gözü ilə, övladım kimi baxıram. Axı, mən həm də jurnalın redaksiya heyətində varam... İnanıram ki, bu təriflər jurnalın əməkdaşlarında arxayınçıq yaratmayacaq...

- Şəmistan müəllim, Azərbaycan hərb tarixinin açılmamış səhifələri, qaranlıq məqamları hələ də qalmaqda davam edir. Bu haqda nə deyə bilərsiniz?

- İşləmək, axtarmaq gərəkdir, O məxfiləri açmaq, qaranlıqlara işıq salmaq biz nəslin payına xoşbəxtlik kimi düşüb. Məni narahat edən son illərdə elmə, ədəbiyyata və biliyə etinasızlıqdır. İndi "bakuş" satan məktəbli gələcəkdə elmlə, tədqiqatla məşğul ola biləcəkmi? Çətin sualdı, elə deyilmi? Beş ildən sonra Abdulla Şaiq gərək olacaq ki, "Məktub yetişmədi"nin təzəsini yazsın...

- Sizin hərb tariximizin araşdırılmasında xidmətləriniz danılmazdır. Oxucu üçün maraqlıdır ki, bu gün nə üzərində işləyirsiniz?

- "Arxivlərin sirri açılır" kitabım hazırdır. Redaktorlar Rəşid Faxralı və Nuridə Qılınclı oxunuşu qurtarıblar. Yaxşı redaktor kitabın yarımmüəllifidir. Hər ikisi ilə "Cümhuriyyət generalları" və "Tam artilleriya generalı S.Mehmandarov" kitablarımı da birgə işləmişik.

Bu kitab “Azərbaycan generalları” və “Cümhuriyyət generalları” kitablarımın davamıdır, yəni üçüncü hissəsidir. Burada sovetlər vaxtı Leninqrad, Moskva, Tiflisdən sərkərdələrimiz haqda topladığım materialların bir qismini işləmişəm. Açıqlanmamış səhifələr, naməlum qalmış sərkərdə oğullarımız haqqında bu kitabda çox mətləblər açılır...

Sizə məlumdur ki, Azərbaycanda hərbçi nəsillər olub. Onlardan Qacarların, Vəkilovların, Şıxlinskilərin, Novruzovların, Borçalı Yadigarovların, Qayıbovların, Talışxanovların, Mehmandarovların, Rəfibəyovların, Kəngərlilərin hərb tarixini yazmışam (bir neçəsini) və yenə də yazıram.

Mən eləmədiyim, ya da başlamadığım iş haqqında danışmağı sevmirəm. Amma bir işə başlamışam: o barədə danışa bilərəm. Dünya şöhrətli, “artilleriyanın Allahı” olan sərkərdəmiz Əliağa Şıxlinskinin iki cildliyini çapa hazırlayıram. Ömür vəfa eləsə, bu nəhəng sərkərdənin əsərlərini və tədqiqatlarını möhtərəm oxuculara təqdim edəçəm. İnanıram ki, bu toplu Azərbaycan hərb tarixinə ən yaxşı töhfə olacaq. Generalın külli miqdarda fotoşəklini, əlyazmalarını toplaya bilmişəm. Hələ bu günə kimi Əliağa Şıxlinskinin mülki geyimdə foto-şəklini oxucular görməyib. Arxivdən 1942-ci ildə Əliağa Şıxlinskinin mülki geyimdə foto-şəklini tapmışam... Bu sevincin nə demək olduğunu tədqiqatçılar yaxşı duya bilər. Əliağa Şıxlinski təkcə general yox, həm də hərb elminin, hərb tarixinin böyük alimi olub.

- Siz Azərbaycan Dövlət Mərkəzi Arxivində də işləmisiniz. Belə deyək, gənc tədqiqatçı burada işləməklə nəyəsə nail ola bilərmi?

- Əlbəttə, nail ola bilər. Bir şərtlə ki, əgər o gənc tədqiqatçının arxiv tozu udmaq, sənədləri oxumaq səbri və ən başlıcası, araşdırmaya istedadı varsa. Bəzi adamlar elə fikirləşir ki, nə böyük şeydi. Şəmistan oturur arxivdə, yüz il əvvəlin sənədinin üzünü göçürüb verir mətbuata. Unutmaq lazım deyil ki, tədqiqatla məşğul olmaq iynə ilə gor qazmağa bərabər əzablı bir işdir. Heç vaxt tədqiqatçı ilk əldən tapdığı sənədi qəzet səhifəsinə çıxartmamalıdır. Hətta elə sənəd, foto-şəkil və fakt var ki, bir müddət tədqiq eləyəndən sonra oxuculara çatdırmaq lazımdır.

Sovet dövründə belə bir fikir tez-tez işlənirdi: jurnalist gərək hər sahədə yazmağı bacara. Mənim zənnimcə, elə deyil, səhv fikirdir. Jurnalist də alim kimi gərək özünü bir mövzuda tapa və o sahənin kamil tədqiqatçısı ola. Yoxsa bu gün sənayedən, sabah elmdən, o birisi gün kənd təsərrüfatından yazan jurnalist heç vaxt yaradıcılığında kamil sənətkar ola bilməz. Hər bir jurnalist, qələm əhli ilk öncə ona doğma olan mövzuda püxtələşməlidir. Konkret bir sahədə Azərbaycan elminə əsərlərilə töhfələr verən Qulam Məmmədli, Mikayıl Rəfili, unudulmuş Mirzə Şəfi Vazehin tədqiqatçısı Əliəjdər Seyidzadə və başqaları buna canlı misaldır. Sonuncunun əvəzsiz tədqiqatından E.Bertels kimi məşhur şərqşünas belə bəhrələnmişdir. Xalqın böyük şəxsiyyətlərini tədqiq etmək, onların ömür yolunu öyrənmək elmdir, bütöv akademiyadır.

- Şəmistan müəllim, Siz həm də Səməd Vurğun irsinin yorulmaz tədqiqatçısəsınız. Bu haqda fikriniz də oxucularımız üçün maraqsız olmaz.

- Məni ədəbi aləmdə tanıdan və tədqiqata cəlb edən Səməd Vurğun şəxsiyyəti olub. Bu mövzuda beş kitabım çıxıb - “Vurğun keçib bu yerlərdən (1 və 2-ci kitab), “Ellər Vurğunu”, “Yaddaşlarda yaşayan Vurğun” və “Vurğun ömrü

məktublarda”. Mən bu əvəzsiz insanı mənəvi ata, amalım, idealım kimi qəbul eləmişəm. Siz elə bilirsiniz ki, bu beş kitabım nəşr olundu, bununla Vurğun haqqında sözüm qurtardı? Yox! Mən son nəfəsimə qədər bu kişi haqqında yazacağam. Hazırda yeni - “Vurğun çələngi” kitabı üzərində işimi davam etdirirəm. Sual oluna bilər: cəmi əlli il ömür yaşamış Səməd Vurğundan nə qədər yazmaq olar. Cavab verirəm: Səməd Vurğun 50 ildə 150 illik fəaliyyət və yaradıcılıq dövrü keçib. Orada hər şey var, insanlara qayğı, xeyirxahlıq, nadir istedad, hazırcavablıq... Xülasə, böyük şəxsiyyətlərə məxsus qeyri-adilik. Tək mən yox, məndən sonra gələn neçə-neçə tədqiqatçı Vurğun ömrünün humanizmini yazıb tədqiq edəcək. Mən buna əminəm...

Heç kəs bu işi mənə tapşırmayıb, heç kəs də məni məcbur etmir ki, Vurğundan yazım. Mən ondan yazmaya bilmərəm. Səməd Vurğun haqqında oba-oba, kənd-kənd və bütün keçmiş Sovetlər İttifaqından yığdığım fakt və materialları ömrümün axırına kimi yazsam, qurtara bilməyəcəyəm. Hələ qarşıda məni “Səməd Vurğun ensiklopediyası” gözləyir. Bu işi, ağır, çox ağır işi mən şairin sevimli qızı Aybəniz xanım Vurğun qızı ilə birgə eləyəcəyəm, Allah qoysa. Çünki o, Vurğun ömrünü addım-addım bilir. “Vurğun ömrü məktublarda” kitabımın elmi redaktoru olanda gördüm ki, ölkəmizdə ən yaxşı vurğunşünas Aybəniz xanımdır.

- Söhbətimizin əvvəllində qeyd edildiyi kimi, Siz general Şıxlinski adına mükafata layiq görülmüsünüz. Bu haqda ətraflı danışmağınızı xahiş edirik.

- Keçmişin mərd kişilərindən yazmaq, tədqiqat aparmaq mənim şakərimdir. Neçə illərdi arxivlərdə işləyəndə Qarxunlu mərdi Əşrəf bəyin adına rast gəlirdim. 1918-1920-ci illərdə Azərbaycan parlamentinin üzvü, Ərəş mahalının bəylərbəyi və erməni daşnaklarına qarşı alay yaradıb vuruşan Əşrəf bəyi 1930-cu ildə bolşeviklər güllələyiblər. Bu mərdin ömür yolunu izlədim. Gedib çıxdı 1918-ci ilə, məlum oldu ki, onun Yevlağın Qarxun kəndində 98 yaşında əsgəri indi də yaşayır. Nuru paşanın 1918-ci il iyun ayında Əşrəf bəyin qonağı olmağını yaxşı xatırlayır. İlk dəfə Nuru paşanın “Qafqaz yürüşünü”yazdım. Akademiyanın fəlsəfə institutu kitabın müzakirəsini keçirdi. Və “İlin ən yaxşı kitabı”na layiq görüldü.. Mənim əməyimi qiymətləndirdiyinə görə “Elm” fonduna minnətdaram.

- Ömrünün bu çağında Şəmistan Nəzirli özünə hansı sualı verərdi?

- Şəmistan Nəzirli, ilk dəfə “Azərbaycan generalları”və “Cümhuriyyət generalları” kitabını sən yazdın. Bəs necə oldu ki, Cümhuriyyətin və Milli Ordunun yaranmasının 80 illiyinə bu sahədə xidməti olmayan bir adam təltif olundu?

“Hərbi bilik” jurnalı 1999, № 3.

KİTABIN İÇİNDƏKİLƏR

İFTİXAR DUYĞUSU - MİRVARİD DİLBAZİ
MƏŞHUR SOYADLARIMIZ
GENERAL NAXÇIVANSKİLƏR
General Kəlbalı xan Naxçıvanski
General İsmayıl xan Naxçıvanski
General Hüseyn xan Naxçıvanski

İlk admiralımız İBRAHİMBƏY ASLANBƏYOV
Sənədlərdən soraq aldım
Mənbələrdən gələn səslər
Admiralın ömür yolu
Qəribə və xoş bir təsadüf
Admiral həm də alimdir
QACAR SÜLALƏSİNİN SƏRKƏRDƏLƏRİ
Qacarlardan ilk şah
Övladları
M.F.Axundovun qohumu
General Əmir Kazım xan Qacar
General Əmənulla xan Qacar
Nəslin ağbirçəyi
Şahzadə Xosrov Mirzə Qacar
GENERAL BALAKİŞİ BƏY ƏRƏBLİNSKİ
GENERAL FƏRƏC BƏY AĞAYEV
GENERAL HƏSƏN BƏY AĞALAROV
NƏSLİ QAYİBDƏN
Elmin çətin yollarında
Görkəmli riyaziyyatçı
Xoştəb Nazir
Nazirin bir mənzuməsi
İlk hərbi şəfqət bacısı
Yadların etirafı
Poruçikin igidliyi
Cumhuriyyətin səma şahinləri
"SƏMƏD BƏY NAMINDA BİR KİŞİ GÖRDÜM"
Borçalıdan gələn məktub
NURU PAŞANIN QAFQAZ YÜRÜŞÜ
"DİKAYA DİVİZİYA", YOXSA
AZƏRBAYCAN SƏRKƏRDƏLƏRİNİN FACİƏSİ
POLKOVNİK DANİYAL BƏY HƏLLƏCOV
POLKOVNİK ŞİRİN BƏY KƏSƏMƏNLİ
İLK HƏRBİ NÜMAYİŞ
HƏRBİ MƏTBUAT TARİXİMİZDƏN
HƏRBİ ŞƏRQİLƏRİMİZ
ÜZEYİR BƏYİN HƏRBİ LÜĞƏTİ
GENERAL TAĞIYEV MARŞI
ƏLİAĞA VAHİDİN HƏRBİ MEYXANASI
37-NİN GENERAL QURBANLARI:
General Qambay Vəzirov
Komissar Heydər Vəzirov
Komissar Soltanhəmid Paşayev

Sonuncu Kəngərli generalı
GENERAL-QUBERNATOR MƏMMƏD KOXANIN ACI TALEYİ
Məmməd Koxa əhvalatı
Namuslu duşmən
Kim olsa da, qonaqdı
Məzəm əhvalatı, operasiya illəri
Həmid bəyin ölumu
GENERAL CƏFƏR MƏMMƏDZADƏ
GENERAL MAHMUD ƏBİLOV

UNUTSAQ, UNUDULARIQ
NÖVCAVANLAR VAR OLSUN
ŞİRVANLI ŞAİR NASEH
ŞAİR DİLBAZOĞLU
KAZIM AĞA SALİK ŞIXLİNSKİNİN BAYATI BOXÇASI
ŞİRİN DİLLİ MOLLA ZAL
QAÇAQ KƏRƏMİ DOĞAN ANA
ŞAİR HACI İMAM CƏNNƏTZADƏ
"ANNAX BƏY" ŞERİNİN TARİXİ
AŞIQ ƏSƏDİN BİR MÜXƏMMƏSİ
AŞIQ İBRAHİMİN "KÖRPÜLÜ ƏHVALATI"
ŞAİR HƏVƏSKAR AĞKÖYNƏKLİ
BİR ÖTƏRGİ QONAQ OLDU GƏNCƏDƏ
GÜNYAZI XATIRLA BARI
"AY ÇİÇƏK" MÜƏLLİFİ İLƏ GÖRÜŞ
QƏLBƏN ETİRAF EDİRƏM
BİR GÖRÜŞDƏN XATİRƏ
UNUDULMAYAN YAXŞILIQ
ÜRƏKDƏN GÜLƏN ADAM
BİR ŞƏKLİN TALEYİ
UNUDA BİLMƏRƏM
KİŞİ SÖZÜ
SƏNGƏR ƏHVALATLARI
VURĞUNUN BABALARI DEYİB
MOLLA MƏHƏMMƏDİN DÖRD HAZIRCAVABLIĞI
Ş.NƏZİRLİ: "MƏNİM ÜÇÜN ƏN QİYMƏTLİ MÜKAFAT
GENERAL ŞIXLİNSKİ MÜKAFATIDIR..."